**SEYYİD ƏLİƏKBƏR OCAQNEJAD**

# “YASİN”
## SURƏSİNİN TƏFSİRİ

**Seyyid Əliəkbər Ocaq Nejad,**
**“Yasin”surəsinin təfsiri**

Bakı, “__________” nəşriyyatı, 2014. 5.. səh.

**Tərtib edən: Mehrab Xəlilov**
**Redaktor: Seyid Əliəsgər Behbudlu**

Hörmətli oxucu!

Kitab Seyyid Əliəkbər Ocaq Nejadın ““Yasin”surəsinin təfsiri” mövzusunda söylədiyi moizələr əsasında tərtib olunmuşdur.

*Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin 24.04.2014-cü il tarixli DK-200/B məktubuna əsasən çap olunmasına icazə verilmişdir.*

# “YASİN” SURƏSİNİN FƏZİLƏTİ

بسم الله الرحمن الرحيم الحمد لله رب العالمين والعاقبة للتقوى واليقين والصلاة والسلام على أشرف الأنبياء والمرسلين حبيبنا وحبيب إله العالمين أبى القاسم محمد وعلى أهل بيته الطيبين الطاهرين و لعنة الله على أعدائهم أجمعين من الآن الى قيام يوم الدين.

“Yasin” surəsinin tərcümə və təfsirinə başlamazdan öncə çox yaxşı olar ki, bu mübarək surənin fəzilət və xüsusiyyətləri haqda müəyyən qədər bəhs edək. Əvvəla, onu bilmək lazımdır ki, Quranın 114 surəsi var və (məşhur rəyə əsasən) həmin surələrin 86-sı Məkkədə, 28-i isə Mədinədə nazil olmuşdur. Məkkədə nazil olan surələrin adına “Məkkiy”, Mədinədə nazil olan surələrin adına isə “Mədəniy” surələr deyilir. “Yasin” surəsi də Məkkədə nazil olan surələrdən biridir. Bu mübarək surə ta qədimdən indiyədək camaat arasında son dərəcə məşhur və çox oxunan surədir. Quranın hər bir surəsi, ayəsi, kəlmələri və hətta hərfləri belə müəyyən bir hesab üzrədir. Yəni bu müqəddəs Kitabın ayələrində bircə dənə də olsun artıq hərf yoxdur. Hətta əgər ədəbiyyatçılar desələr ki, Quranda filan hərf artıqdır, həmin hərfin də öz yeri və özünəməxsus mənası vardır. Buna görə də Quranda bircə kəlmə də olsun artıq-əskik söz tapmaq mümkün deyildir.

Qurani-Kərimin hər bir surəsinin özünəməxsus təsir və xüsusiyyətləri vardır. Həzrət Peyğəmbərdən(s) və Əhli-beytdən(ə) nəql olunmuş hədislərdə surələrin xüsusiyyətləri bəyan edilmişdir. Yəni hər bir surənin insan cismində və ruhunda hansı təsirə malik olması açıqlanmışdır. İnsanda elə bir dərd və xəstəliklər olur ki, onları Quranın ayələri ilə müalicə edirlər. Odur ki, bəzi surələrin özünün xüsusi

bir fəziləti vardır. Həmin surələri namazlarda oxuyarkən insana öz təsirini bəxş edir. “Qədr” (İnna ənzəlnahu fi leylətil qədr) surəsi o surələrdəndir ki, vacib namazlarda heç olmasa bir dəfə oxunsa, daha yaxşıdır.

Belə rəvayət olunur ki, İmam Sadiq(ə) vacib namazlarında birinci rükətdə “Həmd” surəsindən sonra “Qədr” surəsini, ikinci rükətdə isə “İxlas” surəsini oxuyardı. İmamın(ə) bu hərəkətindən də belə başa düşülür ki, namazlarda “Qədr” surəsini oxumağın böyük əhəmiyyət və fəziləti vardır. Həmçinin bəzi surələr də vardır ki, vacib, yaxud müstəhəb namazlarda onu oxumağın insana xüsusi təsiri olur. Bundan əlavə, bəzi surələri davamlı şəkildə oxumaq insana müxtəlif hallarda nicat verər və qiyamət günü onun camalı on dörd gecəlik ay kimi parlayar. Məsələn, hərdən vacib və ya müstəhəb namazlarda “Zəlzələ” surəsini oxuyan insan ölərkən cənab Əzrayıl(ə) ona qarşı mehriban olar və canını rahat alar. Əlbəttə, surələrin xüsusiyyət və fəzilətləri barədə danışmaq üçün xüsusi bir mövzu açmaq lazımdır. Buna görə də burada qeyd etdiyimiz bir neçə cümlə ilə kifayətlənirik.

Beləliklə, Quranın hər bir surəsinin xüsusiyyəti olduğu kimi, “Yasin” surəsinin də özünəməxsus xüsusiyyəti, əhatə dairəsi, təsiri və fəzilətləri vardır. Əsas bəhsimiz “Yasin” surəsinin tərcümə və izahı barədə olduğundan bu surənin fəzilətləri haqda bir neçə hədisi diqqətinizə çatdırıram.

مَن قَرأَ سورةَ يس يريد بها وجه اللهِ عز و جلّ غَفَرَ اللهُ لَه و أُعطِي مِن الأجرِ كأنما قَرأَ القُرآنَ اِثنتىٰ عشرة مرة

-Hədislərdə qeyd olunmuşdur ki, kim yalnız Allahın razılığını əldə etmək üçün “Yasin” surəsini oxusa, Allah-təala onu bağışlayar və elə bir savab verər ki, sanki Quranı

on iki dəfə (əvvəldən axıra qədər) oxumuşdur.[1]

قَالَ الصادِق(ع): فَمن قَرَءَ يس فِي نهارِهِ قَبلَ أن يمسِي كَانَ فِي نهارِهِ مِن الْمحفُوظِين و الْمرزوقِين حتىٰ يمسِي، و من قَرأَها فِي لَيلِهِ قَبلَ أن ينام وكلَ بِهِ ألف ملكٍ يحفَظُونه مِن كُلّ شيطَان رجِيم و مِن كُلّ آفَةٍ

-İmam Sadiq(ə) buyurur: “Hər kəs “Yasin” surəsini gündüz gün batana qədər oxusa, gün ərzində amanda qalıb ruzili olar; Hər kəs onu gecə yatmazdan qabaq oxusa, Allah-təala o şəxs üçün hər yerdə onu şeytanlar və bəlalardan qoruyan min mələyi gözətçi qoyar.”[2]

Alimlər “Yasin” surəsini iki vaxtda oxumağı tövsiyə etmişlər. Bəzi alimlər gecə yatmazdan öncə, bəziləri isə sübh namazından sonra oxumağı tövsiyə edirlər. Yəni, “Yasin” surəsini həm gecə, həm də səhər oxumağın xüsusi təsiri və xeyri vardır.

قَالَ الصادِق(ع): أيما مرِيضٍ قُرِئَت عِنده يس نزلَ علَيهِ بِعددِ كُل حرفٍ مِنها عشرةُ أملَاكٍ يقُومونَ بين يديهِ صفُوفاً و يستغفِرونَ لَه و يشهدونَ قَبضه و يتبِعونَ جنازته و يصلونَ علَيهِ و يشهدونَ دفْنه

-İmam Sadiq(ə) buyurur: “Hər bir xəstənin başı üzərində “Yasin” surəsi oxunduqda Allah-təala onun hər bir hərfinə görə on mələk nazil edər. Həmin mələklər cərgə ilə o xəstənin qarşısında dayanar və Allahdan onun üçün bağışlanmaq diləyərlər. (Əgər ölüm mələyi) onun canını alsa, (həmin mələklər onun) ruhunun alınmasına

---

[1] Məcməül-bəyan, 8-ci cild, səh. 413.
[2] Məcməül-bəyan. “Yasin” surəsinin başlanğıcı.

şahid olarlar. Cənazəsini müşayiət edər və onun üçün namaz qılar (yaxud dua edər) və dəfnində iştirak edərlər.”[1]

Bizim bəsirət gözümüz açıq olmadığından həmin mələkləri görə bilmirik. Amma insan can verərkən həmin mələkləri görür. Çünki həmin hal insanda elə bir haldır ki, artıq dünya gözləri bağlanır və axirət gözləri açılır. Bundan əlavə, peyğəmbərlər, məsum imamlar da bu kimi halları görürlər. Məsələn, həkim öz sahəsində gözüaçıq olduğundan xəstəyə baxan kimi başqalarının görə bilmədiyi çox şeyləri görür. Çox vaxt xəstənin vəziyyəti haqda azacıq məlumat verir, amma qalanını demir. Bəzən də xəstənin vəziyyətinin nə yerdə olduğunu tamamilə açıb yaxınlarına söyləyir. Məsələn, deyir ki, xəstənin halı bir aydan sonra belə olacaq, sonra yavaş-yavaş pisləşəcək və təxminən filan müddətə qədər dünyasını dəyişəcəkdir. Amma biz həmin xəstəyə baxdıqda onun vəziyyətinin nə yerdə olduğunu görə bilmirik.

Həmçinin digər sahələrdə çalışan mütəxəssislərin hər biri də öz sahəsində başqalarının görə bilmədikləri şeyləri görürlər. Eləcə də mənəviyyat, qeyb və axirətə aid olan halları bilənlər və görənlər də vardır. Pərdənin arxasında çox şeylər vardır ki, biz onları görə bilmirik. Bütün bu aləmi Allahın əmri ilə idarə edənlər var. Qarı və yağışı gətirən, uşağı ana bətnində yerləşdirən, insanı təhlükələrdən qoruyan və s. kimi işləri yerinə yetirən mələklər mövcuddur. Bütün bu aləmin idarəçiliyi Allahın nəzarəti altında mələklər tərəfindən həyata keçirilir. Hətta Əzrayıl(ə) peyğəmbərlərlə söhbət edərkən demişdir ki, o, kimin canını nə vaxt almaq lazım olduğunu bilmir. Allah kimin canını nə vaxt almağı əmr verirsə, o zaman da həmin işi görür.

Biz görməsək də və bilməsək də başımızın üzərində,

---

[1] Məcməül-bəyan. “Yasin” surəsinin başlanğıcı.

ətrafımızda, evlərimizdə və digər yerlərdə hərəkət edən mələklər vardır. Bütün bu mələklər Allahın əmri ilə hərəkət edirlər. Onların heç birinin özbaşına hərəkət etməyə ixtiyarı yoxdur. Həzrət Peyğəmbər(s) və Əhli-beytin(ə) qeyb aləmindən xəbərləri var və baş verən hallardan bəzisini bizim üçün danışmışlar. Buna görə də xəstə və can verən insanın yanında "Yasin" surəsini oxuduqda nə baş verdiyini də bizə bəyan etmişlər.

قَالَ رسولُ اللهِ(ص): و أيما مرِيضٍ قَرأها و هو فِي سكَراتِ الْموتِ أو قُرِئَت عِنده جاءَه رِضوانُ خازِنُ الْجنةِ بِشربةٍ مِن شرابِ الْجنةِ فَسقَاه إِياها

-Həzrət Peyğəmbər(s) buyurur: "Ölümün bihuşluğu ilə qarşılaşan hər bir xəstə "Yasin" surəsini oxusa, yaxud onun yanında oxunsa, cənnətin xəzinədarı özü ilə gətirdiyi cənnət suyunu ona içirdib susuzluğunu yatırar."[1]

İnsanın can verərkən çətin hallardan biri ölümün bihuşluğudur. Bu hal insan üçün ən ağır hallardandır. Hədislərdə qeyd olunur ki, can verən insana susuzluq gələr. Adətən, can verməkdə olan insanın kənarında əyləşənlər tez-tez onun dodaqlarını isladaraq su içirdərlər. Çünki şeytan onun susuzluğundan istifadə edərək son anlarında imanını əlindən ala bilər. Can verərkən insanın gözünə bir neçə şey görünür ki, onlardan biri də şeytandır. Şeytan həmin fürsətdən istifadə edərək əlində su tutub can verən şəxsə deyər: "İmanını ver, sənə bu sudan içirdim." Yaxud yanında əyləşənlər ona "La ilahə illəllah" kəlməsini təlqin edərkən, şeytan deyər: "Əgər həmin kəlməni deməsən, bu suyu sənə verəcəyəm." Buna görə də

[1] Məcməül-Bəyan. "Yasin" surəsinin başlanğıcı.

hər kim can verərkən “Yasin” surəsini oxusa, yaxud həmin surəni onun yanında oxusalar, mələklər o şəxsi cənnət suyu ilə sirab edərlər və şeytan da onu vəsvəsə etməkdən əl çəkər.

## Quranın “qəlbi”

Hədis və rəvayətlərdə “Yasin” surəsini həm də Quranın “qəlbi” adlandırmışlar.

قَالَ الصادِق(ع): إِن لِكُلِّ شيءٍ قَلباً وإِن قَلب القُرآنِ سورةُ يس

-İmam Sadiq(ə) buyurur: “Hər şeyin qəlbi vardır, Quranın “qəlbi” də “Yasin” surəsidir.”[1]

Sual oluna bilər ki, nə üçün məhz “Yasin” surəsi Quranın “qəlbi” adlandırılmışdır?

Cavab olaraq demək lazımdır ki, peyğəmbərlər insanların əqidəsini islah etmək üçün gəlmişlər. Əqidənin əsasını isə tövhid, nübüvvət və məad təşkil edir. Əqidə insanın qəlbi və ruhu, ehkamlar isə insanın bədəni ilə bağlı olan məsələlərdir. Məsələn, dəstəmaz, namaz və s. kimi hökmləri insan öz bədən üzvləri ilə həyata keçirdir. Amma əqidə insanın təfəkkür və qəlbi ilə dərk olunur. İnsanın cismani həyatını qəlb zəmanətə götürdüyü kimi, insanın mənəviyyat və dinini də onun əqidəsi zəmanətə götürür. Günaha batan insanlar məhz əqidələrinin zəif olduğu üçün günaha düçar olurlar. Odur ki, tövhidi güclü olan, Allahı dərk edən, Allahı həmişə öz başı üzərində nəzarətçi bilən bir insan heç vaxt günah etməz. Ona görə də Qurani-Kərimdə davamlı olaraq tövhid, nübüvvət və məad barədə bəhs olunmuşdur.

Amma “Yasin” surəsini üç hissəyə böldükdə görürük ki, bir hissəsi tövhid, bir hissəsi nübüvvət və bir hissəsi isə

---

[1] Təfsiri-nümunə, 18-ci cild, səh. 310.

məad barədədir. Deməli, Quranda olan əqidə məsələsi bu surədə cəmlənmişdir. Ona görə də “Yasin” surəsini Quranın “qəlbi” adlandırmışlar. Əgər insan bu surəni düşünərək oxusa, əqidəsi mükəmməlləşər. Əqidə möhkəmləşdikcə insan ehkamlara da riayət edir və beləcə təqvası çoxalır. Yəni insanın təqvalı olması da məhz onun əqidəsi ilə bağlıdır ki, əqidə gücləndikcə insan bir o qədər artıq ilahi hökmlərə tam incəliyi ilə riayət edir.

## 1-6-cı AYƏLƏRİNİN TƏFSİRİ

**يس.١. والقرآن الحكيم.٢. إنك لمن المرسلين.٣. على صراط مستقيم.٤. تنزيلَ العزيز الرحيم.٥. لتنذر قوما ما أُنذر آباؤهم فهم غافلون.٦.**

**1. Ya, Sin.**

**2. Bu hikmətli Qurana and olsun ki,**

**3. Şübhəsiz, sən (Allah) peyğəmbərləri (zümrəsi)ndənsən (peyğəmbərliyə seçildiyin vaxtdan insanların nəsilləri kəsilincəyədək onlara göndərilmisən).**

**4. (Sən) düzgün olan bir yoldasan.**

**5. (Bu), əziz (qüdrətli) və mehriban (Allah tərəfindən) nazil edilmiş (bir kitab)dır.**

**6. (Bu kitabla) elə bir qövmü qorxudasan ki, ata-babaları qorxudulmamışlar, buna görə də qafildirlər.**

"Ya, Sin" – bu, mübarək surənin birinci ayəsidir. Təfsir alimləri bu ayənin barəsində geniş bəhs etmişlər. Həmin söhbətləri yığcam şəkildə belə şərh edə bilərik ki, qeyd olunan surə müqəttə (birləşməyən) hərflərlə başlanır. Müqəttə hərfləri Qurani-Kərimin 29 surəsində "Bismillah..."dan sonra gələn və adıyla oxunan hərflərə deyilir. Bu hərflərə "nurani" hərflər də deyilir. Bəzi surələrdə bir hərf, bəzilərində iki, bəzilərində üç, bəzilərində isə daha çox hərfdən ibarət müqəttə hərfləri vardır.

Bu hərflər bir-biri ilə əlaqəli olub, kəlmə və söz təşkil etmirlər. Onları oxuyarkən öz adları ilə ayrıca oxumaq lazımdır. Məsələn, "Bəqərə", "Ali- İmran", "Ənkəbut", "Rum", "Loğman" kimi surələr "Əlif, lam, mim" hərfləri ilə başlanır. Həmçinin "Əraf" surəsi "Əlif, lam, mim,

sad", "Sad" surəsi "Sad", "Qaf" surəsi "Qaf", habelə bəzi surələr "Ha, mim" hərfləri ilə başlanır. Bir daha qeyd etmək lazımdır ki, müqəttə hərfləri surələrin əvvəlində bir-birinə bitişik olsa da, ayrıca oxunur və söz təşkil etmirlər. Ərəb dilində 28 hərf vardır. Quranda işlənən müqəttə hərfləri bu 28 hərfin yarısından, yəni 14-dən ibarətdir.

Burada onu da demək lazımdır ki, müqəttə hərflərinin mənası hər bir kəs üçün böyük maraq kəsb edir. Yəni hər kəs bilmək istəyir ki, bəzi surələrin əvvəlində işlənən bu hərflərdə məqsəd nədir? Bu sualın bir neçə cavabı vardır ki, onları diqqətinizə çatdırıram.

Bəzi alimlərin buyurduğuna əsasən ən yaxşı cavab odur ki, Quranda olan müqəttə hərflər Allahla Həzrət Peyğəmbər(s) arasında bir rəmz olduğundan biz bu işə qarışmamalıyıq. Amma bir sıra digər alimlərin apardıqları elmi araşdırmalar sayəsində bəzi məlumatlar əldə edilmişdir. Məsələn, həmin məlumatlardan biri budur ki, "Sad" surəsinin birinci ayəsi "Sad" hərfi ilə başlanır. Alimlərin araşdırmalarına görə başqa surələrlə müqayisədə bu surədə "sad" hərfi ən çox işlənən hərfdir. Yaxud "Qələm" surəsinin birinci ayəsi müqəttə hərfi olan "Nun" hərfi ilə başlanır. Hesablamalara görə bu surədə də "Nun" hərfi başqa surələrlə müqayisədə daha çox işlənmişdir. Həmçinin "Ha, mim", "Əlif, lam, mim" hərfləri ilə başlanan surələrdə bu hərflər başqa surələrlə müqayisədə daha çox işlənmişdir. Bütün bunlara baxmayaraq, ən yaxşı cavab odur ki, göstərilən hərflər Allahla Həzrət Peyğəmbər(s) arasında olan kod və ya rəmzlərdir.[1]

Alimlərin araşdırmalarına görə müqəttə hərflərlə bağlı əldə edilən ikinci məna odur ki, bu hərflər bir kəlmənin

---

[1] Təfsiri-nümunə, 2-ci cild, səh. 413.

əvvəlindən götürülmüş rəmzi hərflərdir. Məsələn, məlumdur ki, hər hansı bir şirkətin adı bir neçə kəlmədən ibarət ola bilər. Lakin həmin şirkətin adı qısaldılmış formada oxunarkən sözlərin yalnız baş hərfləri yan- yana düzülüb oxunur. Hərçənd bu hərflər yan-yana düzüldükdə heç bir məna kəsb etmir, amma şirkətin adının qısaldılmış formasını kəsb edir. Quranda da müqəttə hərflər müəyyən bir mənada bunu ifadə edir. Məsələn, "Əraf" surəsi «المص» "Əlif, lam, mim, sad" hərfləri ilə başlanır. Bu hərflər «أنا الله المُقتدِر الصادِق» cümləsində işlənmiş kəlmələrin ilk hərfləridir. Bütün müqəttə hərflər Allahla Həzrət Peyğəmbər(s) arasında rəmzlər olduğundan Həzrət(s) bu hərflərin hansı sözdən götürüldüyünü bilir. Ola bilsin ki, alimlər bu hərflərin bəzisinin mənasını bilib açıqlamışlar, bəzisi isə bizim üçün hələ də sirr olaraq qalır.[1]

Bütün bunlarla yanaşı, müqəttə hərflərinin əsas mənalarından biri də Quranın əzəmətli bir kitab və möcüzə olmasıdır. Allah-təala Quranın əzəmətini, açıq-aydınlığını, möcüzə olmasını və heç bir bənzəri olmadığını bütün aləmə sübut edib. Bütün insanların və cinlərin bu müqəddəs kitab qarşısında aciz qaldığını bəyan edir. Allah-təala Quranda açıq-aydın şəkildə bəyan edir ki, əgər sizin qüdrətiniz varsa, Mənim nazil etdiyim kitabın və surələrin bənzərini gətirin. Əlbəttə ki, bu işi heç bir vaxt görə bilməyəcəksiniz. "İsra" surəsinin 88-ci ayəsində belə buyurulur:

قُل لَّئِنِ اجْتَمَعَتِ الإِنسُ وَالْجِنُّ عَلَى أَن يَأْتُواْ بِمِثْلِ هَـذَا الْقُرْآنِ لاَ يَأْتُونَ بِمِثْلِهِ وَلَوْ كَانَ بَعْضُهُمْ لِبَعْضٍ ظَهِيرًا

-De: "Şübhəsiz, əgər insan və cin tayfası bu Quranın

---

[1] Təfsiri-nümunə, 6-cı cild, səh. 78.

(kəlmə və məna baxımından) bənzərini gətirmək üçün bir yerə toplaşsa, hətta bir-birilərinə kömək və arxa olsalar belə, onun bənzərini gətirə bilməzlər.”

“Bəqərə” surəsinin 23-cü ayəsində Allah-təala nazil etdiyi kitaba işarə edir və hamını elmi mübarizəyə dəvət edərək buyurur:

وإن كُنتم فِي ريبٍ مما نزلْنا علَى عبدِنا فَأْتواْ بِسورةٍ من مثْلِهِ
وادعواْ شهداءكُم من دونِ اللّهِ إِنْ كُنتم صادِقِين

-Əgər Bizim Öz bəndəmizə nazil etdiyimizə şəkkiniz varsa, doğruçusunuzsa, siz də bir surə gətirin və (bu işdə) Allahdan başqa bütün köməkçilərinizi və şahidlərinizi də çağırın (ki, onlar sizin surənizin Bizim surəmiz kimi olmasına dair ifadə versinlər).

Quran min dörd yüz ildir ki, nazil olub və nazil olduğu gündən qiyamət gününə kimi bu iddiadadır. Allah-təala bütün insanları elmi və məntiqi mübarizəyə dəvət edir. Belə ki, hər kim Quranın Allah tərəfindən nazil olmasına şəkk-şübhə edirsə, o zaman bu kitabın bir surəsinə bənzər surə gətirsin və bu işdə özünə Allahdan başqa kimi istəsə köməkçi götürsün. Tarix boyu Qurana qarşı mübarizə aparanlar çox olmuşdur, amma son nəticədə öz abır-həyalarını da əldən vermişlər. Çünki hamı Allah-təalanın nazil etdiyi bu möcüzə qarşısında acizdir.

Beləcə, Allah-təala tərəfindən nazil olmuş əzəmətli və qiyamətə qədər Həzrət Peyğəmbərin(s) möcüzəsi olan bu Quran sadə bir əlifba ilə bəyan edilmişdir. Allah-təala insanları başa salır ki, Quran onların istifadə etdikləri əlifba və hərflərdən ibarətdir. Heç bir kəs elə başa düşməsin ki, bu kitab tamamilə başqa və insanların başa düşmədiyi hərflərlə bəyan olunur. Bu kitab öz əzəməti ilə

yanaşı, həm də insanların başa düşüb danışdığı dildə nazil olmuşdur. Müqəttə hərflərdən sonrakı ayələrdə, bir qayda olaraq, əsasən Quran barəsində söz açılır.

Qüreyşlilər və yəhudilər İslam Peyğəmbərinə(s) böhtan ataraq deyirdilər ki, onun gətirdiyi kitab sehr və cadudan başqa bir şey deyildir. Bütün bunlar onun uydurmaları və özündən düzəltdiyi sözlərdir ki, Allahın adı ilə bağlamışdır. İmam Səccad(ə) bu barədə buyurur ki, Allah-təala onlara cavab olaraq buyurmuşdur:

الم ذِلك الكِتاب لا ريب ِفيه. أى يا محمد هذا الكِتاب الذِى أنزلته ِاليك هو الْحروف الْمقَطعة اَلِتى ِمنها الف و لام و ميم و هو ِبلُغِتكُم و حروف هِجاِئكُم فَاتوا ِبمِثلِهِ ِان كُنتم صادِقين

-Əlif, lam, mim. Əlif, lam, mim. Bu məqamlı kitabın barəsində heç bir şəkk-şübhə yoxdur. Yəni ey Məhəmməd, sənə nazil etdiyim bu kitab müqəttə hərflərdən ibarətdir. O cümlədən əlif, lam, mim. Ey camaat! Bu elə sizin öz lüğətiniz (əlifbanız) və hərflərinizin hecalarıdır. (Onun Allah tərəfindən nazil olmasına şəkk-şübhə edirsinizsə) elə isə onun kimi bir kitab gətirin.[1]

عن عِلِيّ بن موسى الِرّضا(علَيهِ السلام) قَالَ: ِإن اللهَ تبارك و تعالى اَنزلَ هذَا القُرآن ِبهذِهِ الْحروف اَلِتى يتداولُها جمِيع العرب. ثُم قَالَ: قُل لِئِن اجتمعتِ الاِنس والْجِن علَى أن يأتواْ ِبمِثْل هـذَا الْقُرآنِ لاَ يأتونَ ِبمِثْلِهِ

-İmam Rza(ə) buyurur: “Həqiqətən, Allah təbarək və təala bu Quranı bütün ərəblərin içində ümumi şəkildə

[1] Təfsiri-nümunə, 1-ci cild, səh. 64.

işlənən hərflərlə (əlifba ilə) nazil etmiş və sonra buyurmuşdur: -De: “Şübhəsiz, əgər insan və cin tayfası bu Quranın (kəlmə və məna baxımından) bənzərini gətirmək üçün bir yerə toplaşsa, onun bənzərini gətirə bilməzlər.”[1]

### Ya, Sin

“Yasin” surəsi də digər 28 surə kimi müqəttə hərfləri ilə başlayır. Bu hərflər “Ya” və “Sin” hərfləridir. (“Yasin” kəlməsi) “Ya” və “Sin” hərflərindən təşkil olunmuş bir kəlmədir. Bu hərfləri də iki cür mənalandırmaq olar. Bir mənası belədir ki, əgər bu hərfləri bir-birindən ayrı oxusaq, “Ya” hərfi (ərəb dilinin qrammatikasında) nida ədatı, “Sin” hərfi isə bəşərin seyidi olan Həzrət Peyğəmbərə(s) xitabdır. İkinci mənası isə budur ki, əgər bu hərfləri bir kəlmə kimi oxusaq, “Yasin” ümumilikdə Həzrət Peyğəmbərin(s) adıdır. Bu barədə də hədis və rəvayətlər nəql olunmuşdur.

قَالَ الصادِق(ع): 'يس ِاسم رسولُ اللهِ (صلّىٰ اللهُ علَيهِ و آلِهِ وسلم) و الدِليلُ علىٰ ذِلك قَولُه تعالىٰ "ِانك لَمِن الْمرسِلين علىٰ صِراطٍ مستِقيم"

-İmam Sadiq(ə) bu haqda belə buyurur: “Yasin Məhəmməd Peyğəmbərin(s) adıdır. Bunu sonrakı “Sən həqiqətən peyğəmbərlərdənsən. Doğru və düz yoldasan.” -ayələri də təsdiq edir.”[2]

---

[1] Təfsiri-nümunə, 1-ci cild, səh. 64.
[2] Yenə orada, 18-ci cild, səh. 315.

## “Yasin” surəsinin əhəmiyyəti və Peyğəmbərin(s) üstünlüyü

Bu mübarək surənin fəziləti haqda bəhs edərkən qeyd olundu ki, “Yasin” surəsi Quranın “qəlbi”dir. Həmçinin bu surənin özünəməxsus xüsusiyyət və fəzilətləri haqda da danışdıq. Surənin fəzilət və əhəmiyyətlərindən biri onun Həzrət Peyğəmbərin(s) adı ilə başlamasıdır. Quran ayələrinə və hədislərə əsasən bilirik ki, Allah-təala aləmdə olanların hamısını insan üçün yaratmışdır. “Bəqərə” surəsinin 29-cu ayəsində belə buyurulur:

هو الذِي خلَق لَكُم ما ِفي الأَرض جمِيعاً

-Yer üzündə olanların hamısını sizin üçün yaradan Odur.

Bu xilqətin içində Allah-təala hər şeyi insan üçün və insanı da Özü üçün xəlq etmişdir. Yəni Allah-təala insanları Ona ibadət etmək üçün yaradıb. “Zariyat” surəsinin 56-cı ayəsində buyurulur:

وما خلَقْت الْجِن والْإِنس إِلا لِيعبدون

-Cin və insanları yalnız Mənə ibadət etmələri üçün yaratmışam.

Bu ayədə cin və insanlardan, habelə onların nə üçün yaradılması barədə söz açılmışdır. Burada əsas bəhsimiz insan haqqında olduğundan məhz onun barəsində danışırıq. Qeyd olundu ki, Allah-təala insanları Özü üçün yaratmışdır. İnsanlar da Allaha ibadət etməlidirlər. İnsanın izzəti, şərafəti və qiyməti bir məsələdən asılıdır. Kim Allaha nə qədər yaxındırsa, bir o qədər də onun qiyməti və şərafəti çoxdur. Belə olduqda bəşəriyyətin ən şərəflisi İslam Peyğəmbəridir(s). Sual oluna bilər ki, hansı səbəbə görə Həzrət Peyğəmbər(s) hamıdan şərafətli və üstündür? Cavab belədir

ki, yaranmışların içərisində hamısından şərəflisi insan və insanların da içərisində hamıdan şərəflisi Həzrət Məhəm-məddir(s). Çünki o, Allah-təalaya hamıdan daha yaxındır. Həzrət Peyğəmbərin(s) Allaha yaxın olmasının ümdə səbəblərini aşağıda qeyd edirik. Birincisi budur ki, Allah-təala Quranı onun mübarək qəlbinə nazil etmişdir. “Şüəra” surəsinin 192-194-cü ayələrində oxuyuruq:

وَإِنه لَتنزِيلُ رب الْعالَمِين. نزلَ بِهِ الروح الْأَمِين. علَى قَلْبِك لِتكُونَ مِن الْمنذِرِين

-Şübhəsiz, bu (Quran) aləmlərin Rəbbinin nazil etdiyidir. Ruhul-əmin (Cəbrayıl) onu endirdi, Qorxudan-lardan (Peyğəmbərlərdən) olasan deyə sənin qəlbinə (nazil etdi).

İkincisi, Həzrət Peyğəmbər(s) ona nazil olan Qurana hamıdan əvvəl özü əməl edirdi. Yəni belə deyildir ki, ilahi qanunlar yalnız başqa insanlar üçündür. Dünyada isə insanlara tətbiq olunan qanunlar həmin qanunları müəyyən edənlərin özlərinə şamil edilmir. Yəni onlar qanunları özləri üçün yox, başqalarından ötrü müəyyən edirlər. Özləri istədiklərini edə bilirlər, amma camaata qarşı müxtəlif qanunları tətbiq edirlər. Amma ilahi qanunlar bu cür deyildir. Həzrət Peyğəmbər(s) Allahdan bu qanunları alıb insanlara çatdırmaqla yanaşı, həmin qanunlara ilk növbədə özü riayət edirdi. “Nəml” surəsinin 91-ci ayəsində belə buyurulur:

إِنما أُمِرت أَنْ أَعبد رب هذِهِ الْبلْدةِ الذِي حرمها ولَه كُل شيءٍ وأُمِرت أَنْ أَكُونَ مِن الْمسلِمِين. وأَنْ أَتلُو الْقُرآنَ...

-Mənə yalnız bu şəhərin (Məkkənin) Rəbbinə ibadət etmək əmr olunmuşdur. Elə bir Allaha ki, onu (o şəhəri)

möhtərəm saymış və ona toxunulmazlıq vermişdir. (Varlıq aləmindən olan) hər bir şey Ona məxsusdur və mənə Onun iradəsinə təslim olanlardan olmaq əmr edilmişdir. (Mənə əmr olunmuşdur ki,) bu Quranı (camaat üçün) oxuyam.

Bu ayədən açıq-aydın başa düşürük ki, Həzrət Peyğəmbər(s) Allah tərəfindən gətirdiyi qanunlara ilk növbədə özü əməl etməli və sonra da onları camaat üçün oxumalıdır. Həzrət Peyğəmbər(s) ilahi qanunların hamısına tam incəlikləri ilə riayət etmiş və onları camaat üçün oxumuşdur. Bu qanunlara kimin riayət edəcəyi, kimin isə riayət etməyəcəyi tamamilə başqa bir məsələdir. Ən əsası isə odur ki, Həzrət(s) bütün qanunlara lazımınca riayət etmişdir. Allah-təala "Ənam" surəsinin 162-ci ayəsində Həzrət Peyğəmbərə(s) belə buyurur:

قُلْ إِنَّ صَلاَتِي وَنُسُكِي وَمَحْيَايَ وَمَمَاتِي لِلّهِ رَبِّ الْعَالَمِينَ. لاَ شَرِيكَ لَهُ وَبِذَلِكَ أُمِرْتُ وَأَنَاْ أَوَّلُ الْمُسْلِمِينَ

-De: "Həqiqətən, mənim namazım, ibadət, Həcc və qurbanlığım, həyatım (bütün ömrüm) və ölümüm aləmlərin Rəbbi olan Allaha məxsusdur. Onun heç bir şəriki yoxdur. Mənə bu (etiraf və etiqad) əmr olunmuşdur və mən ilk müsəlmanam (insan və cinlərin içində ilk müsəlman şəxsəm)."

Deməli, Həzrət Peyğəmbər(s) Allahın dinini qəbul etmiş ilk şəxs, gətirdiyi İslama ilk növbədə özü ən gözəl surətdə əməl etmiş bir insandır. Buna görə də Həzrət Peyğəmbər(s) Allaha hamıdan yaxın olduğundan insanların içərisində də ən şərafətli, dəyərli və qiymətli insandır. Hədisi-qüdsdə Allah-təala ona belə buyurmuşdur:

لَولاكَ لَما خَلَقتُ الْأَفلاكَ

-(Ey Məhəmməd), əgər sən olmasaydın, fələkləri yaratmazdım.

Həzrət Peyğəmbərin(s) şərafət və dəyəri o qədər üstündür ki, Allah bütün xilqət aləmini ona görə yaratmışdır. Deməli, belə bir nəticəyə gələ bilərik ki, bu aləmin qəlbi Həzrət Məhəmməddir(s) və Qurani-Kərim Onun(s) qəlbinə nazil olmuşdur. "Yasin" surəsi Həzrət Peyğəmbərin(s) adı ilə başlandığından xüsusi əhəmiyyətə malikdir.

"Yasin" surəsinin əhəmiyyət və fəzilətlərindən biri də onun irfani məsələ ilə bağlı olmasıdır ki, bu da surənin axırıncı ayəsində diqqəti cəlb edir. Allah-təala bu surənin axırında belə buyurur:

فَسبحانَ الذِي بِيدِهِ ملَكُوت كُل شيءٍ وإليهِ ترجعونَ

-Hər şeyin həqiqi mülkiyyəti və kamil hökmranlığı (qüdrət) əlində olan Allah (hər nöqsandan) pak (və uzaq)dır. (Siz insanlar hamınız) Ona tərəf qaytarılacaqsınız.

"Yasin" surəsi aləmin qəlbi olan Həzrət Məhəmmədin(s) adı ilə başlamış və bu ayə ilə də qurtarmışdır. Ariflər demişlər ki, "Yasin" surəsinə xüsusi fəzilət verən də məhz bu ayədir. Əlbəttə, bu haqda bir fikir söyləmək arif və yüksək məqamlı alimlərin işidir. Bu ayənin dərinliyinə baş vurmaq üçün böyük alim və arif insan olmaq gərəkdir ki, bizim üçün danışsın və biz də onun sözlərinə qulaq asaq. Bu cəhətdən də alimlər və ariflər həmişə "Yasin" surəsini oxumağı bizə tövsiyə etmişlər. Çünki "Yasin" surəsinin nə qədər xüsusi bir təsirə malik olduğunu yaxşı bilirlər. Hətta bu surəni oxumağın insanın maddi və mənəvi problemlərinin aradan qaldırılmasında böyük rolu vardır.

İntizam Kəşmiri adlı böyük bir alim deyir: "Günlərin birində Xorasanda Ayətullah Şeyx Həsənəli İsfahaninin

yanına gedib ondan məsləhət istədim. Ayətullah Şeyx Həsənəli böyük alim və ariflərdən biri idi. Böyük müctəhidlər belə ona son dərəcə ehtiram göstərirdilər. Ona dedim ki, ağa, mən gecə namazı qıla bilmirəm. Bundan əlavə, dünyəvi işlərim də heç düz gətirmir. Ruhi vəziyyətim pisləşib, ibadətə meylim azalıb və ruzi qazanmaq mənim üçün çətinləşib. Xahiş edirəm, mənə elə bir şey öyrədəsiniz ki, Allah mənim bütün işlərimi sahmana salsın. Şeyx Həsənəli azacıq susduqdan sonra buyurdu: "Hər gün sübh namazından sonra bir dəfə "Yasin" surəsini oxusan, problemlərin həll olunacaq."

Mən ona təşəkkürümü bildirib evə qayıtdım. "Yasin" surəsinin yarısını əzbərdən bilirdim. Bir neçə gün oxuyub həmin surəni tam əzbərlədim. Hər gün sübh namazından sonra işə gedərkən yolda gedə-gedə bir dəfə "Yasin" surəsini oxuyurdum. Bir müddət beləcə davam etdim. Lakin yenə də nə gecə namazına müvəffəq ola bildim, nə də işlərim düzəldi.

Günlərin birində işlə əlaqədar olaraq Xorasana getdim. Hava həm yağışlı, həm də soyuq idi. Görüşəcəyim adamın qapısına getdim. Qapını nə qədər döydümsə, açan olmadı. Öz-özümə dedim: Görəsən, gecənin bu vaxtında mən hara getsəm yaxşı olar. Birdən yadıma düşdü ki, Şeyx Həsənəlinin evinə gedim, həm də onun mənə verdiyi tapşırığın təsiri olmadığını deyib giley-güzarlıq edərəm. Şeyxin qapısına çatdıqda gördüm ki, evin işıqları yanır və həyətin qapısı da açıqdır. Həyətə daxil olduqda gördüm ki, evdə məclis təşkil olunub və içəridə xeyli adam vardır. Şeyxin əyləşdiyi otaqda adam çox idi. Hava soyuq olduğuna görə qapını örtmüşdülər. Dəhlizdə isə bir neçə nəfər əyləşib onun söhbətinə qulaq asırdı. Mən də dəhlizdə əyləşib onun sözlərini dinləməyə başladım. Şeyx

söhbət əsnasında mövzunu dəyişib bir söz dedi. O, mənim dəhlizdə əyləşdiyimi görmürdü. Amma onun bu sözü sanki mənə aid idi. Dedi ki, bəli, bəli. Bəziləri gəlib məndən gecə namazına müvəffəq olmaları və işlərinin sahmana düşməsi üçün məsləhət istəyirlər. Mən də onlara deyirəm ki, hər gün sübh namazından sonra bir dəfə "Yasin" surəsini oxuyun. Onlar da gedib "Yasin" surəsini dəstəmazlı və üzü qibləyə sarı oxumaq əvəzinə, yol gedə-gedə, işləri ilə məşğul ola-ola oxuyurlar. Elə başa düşürlər ki, yol gedə-gedə, iş görə-görə "Yasin" surəsini oxuduqda problemləri həll olunacaqdır. Bir ildən sonra da Məşhədə başqa bir iş üçün gəlir və işi alınmır. Dünya işinin alınmadığını gördükdə yenə də mənim yanıma gəlir və axirət işinin alınmaması yadına düşdüyündən mənə giley-güzarlıq etmək istəyir. Diqqətli olmaq lazımdır. Diqqətli olmaq lazımdır. Diqqətli olmaq lazımdır.

Şeyx bu sözləri deyib yenə də əvvəlki söhbətini davam etdirməyə başladı. Mən də onun sözlərindən payımı götürdüm və başa düşdüm ki, diqqətsizlik üzündən problemlərim öz həllini tapmamışdır.

Odur ki, əgər insan axtardığını tapmaq, istəyinə nail olmaq istəyirsə, bu mümkündür. Amma bütün bunlara nail olmağın öz yolu və qaydası vardır. "Yasin" surəsinin çox böyük şərafət və fəziləti vardır. Bu surəni ədəb-ərkanla oxuyan insan istəyinə nail olar və onun savablarından bəhrələnər. Əgər insan "Yasin" surəsinin nuraniyyətindən nəticə ala bilsə, məqsədinə də çatar.

**Bu hikmətli Qurana and olsun**

Qeyd olundu ki, "Yasin" surəsi müqəttə hərflərlə başlayan surələrdən biridir. Bəzi ifadələrdə müqəttə hərflərə nurani hərflər də deyilmişdir. Müqəttə hərfləri Allahla Həzrət Peyğəmbər(s) arasında olan rəmzlərdir. Alimlər hədislərdən istifadə edərək bu rəmzlər haqda bəzi açıqlamalar vermişlər. "Yasin" surəsi də müqəttə hərfləri ilə başlayır. Bu hərflər də Allahla Həzrət Peyğəmbər(s) arasında olan rəmzlərdən biridir. Həmçinin deyildi ki, "Yasin" Həzrət Peyğəmbərin(s) adıdır. Yaxud Allah-təala bu hərflərlə Həzrət Peyğəmbərə(s) xitab edir. Allah-təala bu surədə Həzrət Peyğəmbərə(s) xitab etdikdən sonra belə buyurur:

وَالْقُرْآنِ الْحَكِيمِ

-Bu hikmətli Qurana and olsun.

Ayədə işlənmiş «و» "vav" hərfi and mənasındadır. "Vav" hərfinin bir neçə mənası vardır ki, onlardan biri də "and içmək"dir. Bunu da bilmək lazımdır ki, "vav" hərfi həmişə and mənasında işlənmir. "Vav" hərfinin qeyd etdik ki, bir neçə mənası var ki, harada və necə işlənməsindən asılı olaraq cümlədə öz mənasını bildirir. O cümlədən də bir mənası "and içmək"dir. Yuxarıda göstərilən ayənin əvvəlindəki "vav" hərfi "and" mənasındadır ki, Allah-təala buyurur: "Bu hikmətli Qurana and olsun."

Sual oluna bilər ki, Allah nə üçün and içir? Yaxud Allahın and içməsi hansı mənanı ifadə edir? Cavab olaraq deyə bilərik ki, biz danışarkən bəzən sözümüzü sübut etmək üçün and içirik. Amma Allahın and içməsi hansısa bir məsələni sübut etmək mənasında deyildir. Əlbəttə, Allahın and içməyə heç bir ehtiyacı yoxdur və Onun andının əsas iki mənası vardır. Birincisi odur ki, and içilən

məsələyə təkid edir və mətləbin mühüm olduğunu bəyan edir. Bəzi surələrdə bir dəfə, bəzilərində üç dəfə, bəzilərində beş, bəzilərində isə daha çox and içdikdən sonra mətləbi bəyan edir. Bütün bu andlar mətləbin mühüm olmasından xəbər verir və həmin mətləbə təkid edilir. Andların sayının çox olması isə həmin mətləbin daha mühüm olmasına dəlalət edir və buna təkid edilir. Allah bizimlə öz dilimizdə danışır və Quranın bəlağəti, fəsahəti, məzmunluğu, möhtəşəmliyi və möcüzəsi dediklərimizi bir daha təsdiq edir. Qeyd olundu ki, Allah Quranı bizim danışdığımız əlifba ilə nazil etmişdir və Allah bəzi mətləbləri bəyan edərkən həm də and içməklə həmin mətləbin çox mühüm olduğunu bizlərə başa salır. Məsələn, "Şəms" surəsində Allah-təala on bir dəfə and içdikdən sonra buyurur:

قَد أَفْلَحَ من زكاها. وقَد خاب من دساها

-Nəfsini (etiqad və əxlaq kamallarında) təkamülə çatdıran və (fikir və nəfs pisliklərindən) onu təmizləyən kəs, şübhəsiz, nicat tapmışdır!

Və (nəfsini) pisliklərə bulaşdırıb cəhalət, küfr və pozğunluq pərdəsi altında gizlədən kəs, şübhəsiz, ziyana uğramışdır!

Bu surədə on bir dəfə and içmək onu göstərir ki, deyiləcək mətləb çox mühüm bir məsələdir. Yəni and çox olduqca mətləbin daha mühüm olmasını və həmin mətləbi təkid etməsini bildirir.

Allahın and içməsinin ikinci mənası isə and içilən məsələnin əzəmətli və dəyərli olması ilə bağlıdır. Yəni burada and içilən şeylərin dəyər və əzəməti bizə çatdırılır. Hətta insanlar arasında da and içilərkən heç kim dəyərsiz və qiymətsiz şeyə and içmir. Əgər bir insan öz sözünü sübut etmək üçün dəyərsiz bir şeyə and içsə, heç bir kəs onun

sözünə əhəmiyyət verməz. Əgər biz and içiriksə, mühüm olan məsələlərə and içirik. Dəyərsiz və qiymətsiz şeylərə and içmirik. Məsələn, bir nəfər kimisə inandırmaq üçün “and olsun atamın ruhuna” deyərək and içir. Deməli, atasının ruhu onun üçün çox qiymətli və dəyərlidir ki, and içir. Bəzi insanlar Qurana, bəzisi Allaha, bəzisi Peyğəmbərə(s) və başqa müqəddəslərə and içməklə sözlərinin doğruluğunu çatdırmaq istəyirlər. Allah da and içərkən dəyərli və qiymətli şeylərə and içərək həm onların əzəmətli və qiymətli olmasını başa salır, həm də mətləbin çox mühüm olduğunu bildirir. “Yasin” surəsində də Allah-təala Həzrət Peyğəmbərə(s) xitab etdikdən sonra növbəti ayədə deyiləcək mətləbin çox mühüm olduğuna görə Qurana and içir.

## Quranın əzəməti

Quranın sadə və adi bir kitab olduğunu fikirləşmək qətiyyən düzgün deyil. Heç bir kəs elə düşünməməlidir ki, Allah tərəfindən Həzrət Peyğəmbərə(s) nazil olmuş bu kitab adi bir kitabdır. Elə düşünmək lazım deyil ki, Həzrət Peyğəmbər(s) bu kitabı camaat üçün oxuyub, bütün dillərə tərcümə olunub və biz də onu ölülərimiz üçün oxuyur və bununla da kifayətlənirik. Quran çox əzəmətli və son dərəcə dəyərli, müqəddəs bir kitabdır. Quranın dəyərini, əzəmət və qiymətini təsdiq edən məsələlərdən biri də budur ki, Allah-təala ona and içir.

Quran elə bir kitabdır ki, insanı iki yerdən birinə aparacaq. Hər kim ona əməl etsə, Quran həmin şəxsi aparıb cənnətə çıxaracaq. Hər kim Qurandan uzaq düşsə, onun ayələrinə biganə yanaşsa və onu qəbul etməsə, Quran həmin şəxsi cəhənnəmə aparmayınca ondan əl çəkməyəcəkdir. Buna görə də heç bir kəs elə düşünməsin ki, Quran adi bir kitabdır. Quranın hər bir ayə və kəlməsi

möcüzədir. Onun hər bir surəsinin, ayəsinin və hətta kəlməsinin belə insana böyük təsiri vardır.

Həzrət Məhəmməd(s) peyğəmbərliyə seçildikdən sonra insanlar ona tənə vurar və atmaca sözlərlə xətrinə dəyərdilər. Bəzən elə hərəkətlər edirdilər ki, Həzrət(s) çox narahat olurdu. Həzrət Peyğəmbər(s) hamıya qalib gələn böyük ruhlu bir insan idi. Bir insan olaraq o, bəşərin qəlbidir. Allah-təala yer üzündə ona elə bir missiyanı həvalə etmişdi ki, bütün insanları özü ilə xoşbəxtliyə doğru çəkib aparsın. Bu yolda bütün əzab-əziyyətlərə dözür və əzmkarlıq göstərirdi. Amma bəzən elə hallar baş verirdi ki, Həzrət Peyğəmbər(s) qüssələnirdi. Allah-təala Quran ayələrini nazil etməklə onun ruhiyyəsini təzələyir və qəm-qüssəsini dağıdırdı. Həmin ayələrdən biri "Hicr" surəsinin 87-ci ayəsidir.

ولَقَد آتيناك سبعا من الْمثَانِي والْقُرآنَ الْعظِيم

-Doğrudan da sənə hər namazda ən azı iki dəfə təkrar edilən və ayələri bir-birini təfsir edən bu kitabın bir hissəsi olan ("Həmd" surəsi adında) yeddi əzəmətli ayə və böyük Quranı əta etdik.

Allah-təala bu ayədə düşmənlərin maddi imkanları və saylarının çoxluğu, habelə onların kobudluğu qarşısında Həzrət Peyğəmbərə(s) ürək-dirək verir. Belə ki, Allah-təala Quranı və "Həmd" surəsini nazil etməklə Həzrət Peyğəmbərin(s) kədərini aradan qaldırır. Bu ayədə Quranla yanaşı, "Həmd" surəsi də xüsusi olaraq vurğulanır. Buradan məlum olur ki, "Həmd" surəsinin xüsusi özəlliyi vardır. Necə ki, "Qədr" surəsinin 4-cü ayəsində mələklərin və Cəbrayılın(ə) yerə nazil olduğunu bəyan edərək buyurur:

تنزلُ الْملَائِكَةُ والروح فِيها بِإِذْن ربهم من كُل أمرٍ

-O gecə mələklər və Ruh (Cəbrayıl) Rəbbinin izni ilə (həmin gecədən gələn ilin Qədr gecəsinədək dünyada baş verəcək) hər bir iş(in təqdir, tənzim və sabit edilməsin)dən ötrü yerə enər.

Bu ayədə işlənmiş "Ruh" kəlməsinin əsas mənalarından biri cənab Cəbrayıldır(ə). Cəbrayıl(ə) da bir mələkdir, amma ayədə onun adı xüsusi və ayrıca olaraq çəkilmişdir. Çünki cənab Cəbrayılın(ə) əzəməti tamamilə fərqlidir. Eləcə də "Hicr" surəsinin 87-ci ayəsində Həzrət Peyğəmbərə(s) ürək-dirək verərək Quranı və "Həmd" surəsini əta etdiyini vurğulayır. Buradan görünür ki, "Həmd" surəsi ayrıca qeyd edilməklə həmin surənin əzəmət və xüsusi xarakter kəsb etdiyi bildirilir. "Həmd" surəsinin çox böyük fəziləti və xüsusi təsiri vardır. Hədislərdə qeyd olunmuşdur ki, ölmüş insanın yanında yeddi, bəzi rəvayətlərdə yetmiş dəfə "Həmd" surəsi oxunarsa, həmin insanın dirilməyinə təəccüb etməyin. Əlbəttə, bunu da bilmək lazımdır ki, burada söhbət "Həmd" surəsini düşüncə, təfəkkür və ləyaqətlə oxumaqdan gedir. Bu surə o zaman öz təsirini göstərə bilər ki, onu oxuyan insan da mənəvi keyfiyyətlərə malik olsun.

Əsas bəhsimiz odur ki, Allah-təala Həzrət Peyğəmbərə(s) Quranı nazil edərək ona təsəlli verir. Hər ayə nazil olduqca Həzrət Peyğəmbərin(s) əhval-ruhiyyəsi daha da yaxşılaşır, bütün qəm-qüssəsi aradan gedirdi. Həzrət Peyğəmbəri(s) ələ salanlar, ona rişxənd və tənə edənlər nə bilirlər ki, Quran nədir? Onlar topladıqları azacıq var-dövlətlərinə, ətraflarında olan beş-on nəfər adamlarına güvənirlər. Elə başa düşürlər ki, belə də olmalıdır. Dünyaya belə insanlar çox gəlmişlər və getmişlər. Tarixdə fironlar, qarunlar, şəddadlar, əbu cəhllər, əbu ləhəblər kimi cahil və nadan insanlar kifayət qədər olmuşdur. Belə insanlar həmişə

ətrafında olanlara, yığdıqları mal-dövlətə güvənməklə və təkəbbürlülük etməklə özlərini bir şey sanırdılar. Ancaq onlar ölüm ayağına düşdükdə heç bir şeyə qüdrət və imkanları çatmaz. Onlar həmişə Həzrət Peyğəmbərə(s) rişxənd edər, ona gərəksiz sözlər deyər və əziyyət verərdilər. Allah da Həzrət Peyğəmbərə(s) Quranı nazil edərək ona ürək-dirək verir və onun müqavimət qüvvəsini artırırdı. Bununla da Həzrət Peyğəmbərin(s) əhval-ruhiyyəsi yaxşı olardı.

Quran elə bir kitabdır ki, hər kim ona itaət etsə, həmin şəxsi xoşbəxt edər və onu cənnətə aparıb çatdırar. Kim ona itaət və əməl etməsə, Quran həmin insanı cəhənnəmə aparmayınca ondan əl çəkməz. Həzrət Peyğəmbər(s) və Əhli-beyt(ə) Quranı bizə təkidlə tapşırmış, onu oxuyub əməl etməyə çağırmış və onu insanlara bir başçı və rəhbər kimi təqdim etmişlər. Bu barədə çoxlu hədis və rəvayətlər qeyd olunmuşdur ki, bir neçəsini diqqətinizə çatdırıram.

قَالَ رسولُ اللهِ(ص):علَيكُم بالقرآنِ، فاتخِذُوهِ إماما و قَائِدا

-Həzrət Peyğəmbər(s) buyurur: “Quranı sizə tapşırıram, onu özünüzə imam və rəhbər qərar verin.”[1]

الإمام الرضا عليهِ السلام ( ـ في صفةِ القرآن ـ ): هو حبلُ اللّهِ المَتين، و عروته الوثقى، و طَريقَته المُثلى، المُؤدي إلى الجنةِ، و المُنجي مِن النارِ، لا يخلُق على الأزمِنةِ، و لا يغِث على الألسِنةِ، لأنه لم يجعلْ لزمانٍ دونَ زمانٍ، بل جعِلَ دليلَ البرهان، و الحُجةَ على كُل إنسانٍ، لا يأتيهِ الباطِلُ مِن بينِ يديهِ و لا مِن خلفِهِ تنزيلٌ مِن حكيمٍ حميدٍ

[1] Mizanül-hikmə, 10-cu cild, hədis - 16425.

-İmam Rza(ə) Quranı vəsf edərkən belə buyurmuşdur: “Quran Allahın qırılmayan ipi və möhkəm dəstəyidir. Quran Allahın insanı cənnətə aparan və cəhənnəmdən nicat verən yoludur. Zamanların ötməsi onu köhnəldə bilməz, dillərin müxtəlifliyi onu aradan apara bilməz. Çünki Quran müəyyən bir zaman üçün qərar verilməyib. Əksinə hər bir insan üçün höccətə və dəlilə tərəf yol göstərən bir ünvan kimi nəzərdə tutulmuşdur. Nə öndən, nə də arxadan batil ona yan ala bilməz. Çünki Quran həkim və həmid (olan Allah) tərəfindən nazil olmuşdur.”[1]

قَالَ رسولُ اللهِ(ص):يا معاذُ، إن أردت عيش السعداءِ و مِيتةَ الشهداءِ و النجاةَ يوم الحَشرِ و الأمن يوم الخَوفِ و النور يوم الظلُماتِ و الظل يوم الحَرورِ و الري يوم العطَشِ و الوزنَ يوم الخِفةِ و الهُدى يوم الضلالَةِ قَادرسِ القرآنَ ؛ فإنه ذِكر الرحمنِ و حِرز مِن الشيطانِ و رجحانٌ في الميزانِ

-Həzrət Peyğəmbər(s) Məaz ibn Cəbələ belə buyurmuşdur: “Ey Məaz! Xoşbəxt insanlar kimi yaşamaq, şəhidlər kimi ölmək, məhşər günündə nicat tapmaq, qorxulu gündə amanda qalmaq, qaranlıq günlərdə işıqlığa çıxmaq, qızmar gündə kölgədə daldalanmaq, susuz gündə sirab olmaq, (tərəzidə əməllərin) yüngül gəldiyi gündə (yaxşı əməllərinin) ağır gəlməsini, azğınlıqda düz yolu tapmaq istəyirsənsə, elə isə Quranı yaxşıca öyrən. Çünki Quran Rəhman olan Allahı insanın yadına salır, onu şeytandan qoruyur, (yaxşı) əməllərin ağır gəlməsinə səbəb olur.”[2]

---

[1] Mizanül-hikmə, 10-cu cild, hədis - 16436.
[2] Yenə orada, 10-cu cild, hədis - 16456.

Hədisdə vurğulanır ki, xoşbəxtlik, şəhidlər tək ölmək, məhşər günündə nicat tapmaq və s. kimi məqamlara yetişmək üçün Qurandan möhkəm yapışmaq lazımdır. İnsan bunlara Qurandan savayı başqa bir yerdə nail ola bilməyəcəkdir. Məsələn, fərz edək ki, bir nəfərin üzüyü otaqda barmağından düşüb itmişdir. O da həmin otaqda itmiş üzüyü axtarmaqla məşğuldur. Tanışları ondan nə axtardığını soruşduqda deyir: "Üzüyüm itib, onu axtarıram." Onlar da həmin şəxsə qoşulub üzüyü başqa otaqlarda axtarmağa başlayırlar. O deyir: "Mənim üzüyüb bu otaqda itib, başqa otaqları nə üçün axtarırsınız. Gəlin bu otağı yaxşıca axtarın." Ona görə də Həzrət Peyğəmbər(s) buyurur ki, xoşbəxtlik axtaran və nicat tapmaq, şeytanı özündən uzaqlaşdırmaq istəyən hər bir kəs mütləq Quranı öyrənib ona əməl etməlidir. Əks təqdirdə insan xoşbəxtlikdən uzaqlaşacaq və şeytan əvvəl-axır onun kürəyini yerə vuracaqdır.

Quran elə bir kitabdır ki, onu oxumağın belə böyük savab və fəziləti vardır. Quranı oxumağın fəziləti barədə də xeyli hədislər qeyd olunmuşdur. O cümlədən:

قَالَ رسولُ اللهِ(ص): ما ِاجتمع قَوم في بيتٍ ِمن بيوتِ اللّهِ يتلُونَ كتاب اللّهِ و يتدارسونه بينهم إلاّ نزلَت علَيهم السكينةُ، و غَشِيتهم الرحمةُ، و حفتهم الملائكةُ، و ذَكَرهم اللّهُ فيمن عِنده

-Həzrət Peyğəmbər(s) buyurur: "Bir qrup insan Allah evində (məsciddə və müqəddəs yerlərin birində) toplaşıb öyrənmək məqsədilə Allahın kitabını oxuyarsa və birgə onu müzakirə edərsə (anlayıb qavramağa çalışarsa), onların üzərinə rahatlıq enər, Allahın rəhməti və mələklər onları əhatə edər. Allah hüzurundakıların yanında onları xatırladar."[1]

---

[1] Mizanül-hikmə, 10-cu cild, hədis, 16467.

Belə bir hədis Əhli-beyt(ə) barəsində də qeyd olunmuşdur. Əbu Hüreyrə Ümmi Sələmədən belə rəvayət edərək deyir:

-Bir qrup insan əyləşib Həzrət Peyğəmbər(s) və Əhli-beyti(ə) barədə söhbət edərkən bir dəstə mələk də gəlib onların ətrafında əyləşir. Söhbət edib qurtarandan sonra hər kəs öz evinə dağılışır. Mələklər də öz yerlərinə (ərşə) qayıdırlar. Ərşdə olan mələklər onlardan soruşur: “Sizdən necə də gözəl ətir iyi gəlir. Haradan gəlirsiz belə?” Onlar da belə cavab verirlər: “Yerdə Peyğəmbərin(s) ümmətindən bir neçə nəfər yığışıb onun və Əhli-beytinin(ə) barəsində söhbət edirdilər. Biz də onların kənarında əyləşdiyimizə görə Allah bizi də belə ətirli etmişdir. Bizdən gələn həmin gözəl ətir onların ətirlərinin iyidir.” Ərşdə olan mələklər onlara deyirlər ki, bizi də aparın, gedib həmin şəxsləri ziyarət edək və onların ətirli iyləri ilə özümüzü müəttər edək. Həmin mələklər deyirlər: “Onlar dağılışıb öz evlərinə getdilər.” Onlar deyirlər ki, elə isə bizi də aparın gedib onların əyləşdiyi yerləri ziyarət edək. Həmin mələklər onları yer üzünə gətirir və oranı ziyarət edib ətirlənəndən sonra yenidən ərşə qayıdırlar.

Deməli, bu hədislərdən açıq-aydın şəkildə görünür ki, Quran və Əhli-beyt(ə) bir-biri ilə sıx bağlıdır və bir-birindən ayrılmazdır. Həm Quranın, həm də Əhli-beytin(ə) barəsində söhbət etdikdə mələklər yerə enib söhbət edən həmin adamları ziyarət edərlər. Daha təəccüblüsü budur ki, çarəsizlikdən Quran oxumağı öyrənə bilməyən, amma onun ayələrinə əməl edən Əhli-beyti(ə) sevən insan dünyasını dəyişdikdən sonra qəbirdə ona Quran oxumağı öyrədəcəklər. Hədis belədir:

قالَ الصادِق(ع): من مات مِن أولِيائنا و شيعِتنا و لم يحسِن القرآنَ

علم في قَبرِهِ لِيرفَع اللّهُ فيهِ درجته، فإن درجاتِ الجَنةِ على قَدرِ عددِ آياتِ القرآن فيقالُ لقارِئ القرآن: اِقرأْ وارق

-İmam Sadiq(ə) buyurur: “Bizim tərəfdarlarımızdan hər kimsə ölərsə və (səhlənkarlıq etməmək şərti ilə) Quranı yaxşı öyrənməzsə, ona qəbirdə Quran öyrədərlər ki, Allah onun dərəcəsini ucaltsın. Çünki cənnətin dərəcələri Quran ayələrinin sayı qədərdir. Həmin şəxs Quranı öyrəndikdən sonra ona deyilər: Oxu və (yüksək dərəcələrə) ucal.”[1]

Həmçinin əgər bir insan inadkarlıq üzündən deyil, ucqar yerlərdə, savadsız insanların arasında, informasiyanın yetişmədiyi yerlərdə yaşaması kimi üzürlü səbəblərdən Əhli-beytin(ə) vilayət və itaətindən agah olmayıbsa, dünyadan gedəndən sonra ilk növbədə ona Əhli-beytin(ə) vilayətini öyrədib sonra cənnətə buraxarlar.

Mərhum Əllamə Təbatəbayi deyir: “Kərbəlada Seyid Cavad adlı bir ruhani alim yaşayırdı. Çox gözəl xətib olduğu üçün onu məclislərə dəvət edərdilər. O da məclislərdə camaat üçün xütbə oxuyardı. O deyir: “Günlərin birində məni Kərbəladan kənarda yerləşən qəsəbələrin birində təşkil olunmuş bir məclisə dəvət etdilər. Orada çıxış etdikdən sonra əyləşdim. Yanımda nurani bir kişi də oturmuşdu. Onunla bir az söhbət etdikdən sonra başa düşdüm ki, o, Həzrət Əlinin(ə) vilayətindən xəbərsizdir. Belə ki, vilayətin mənasını dəqiq başa düşməmişdir. Yavaş-yavaş vilayət barədə söhbətə başladım. Sonra ondan soruşdum: “Sizin şeyxiniz varmı?”[2]

Kişi dedi: “Əlbəttə ki, var.”

Soruşdum: “Onun nə kimi xüsusiyyətləri var?”

---

[1] Mizanül-hikmə, 10-cu cild, hədis - 16460.

[2] Ərəblərdə hər qəbilənin böyüyü olur və ona şeyx deyə müraciət edirlər.

Dedi: “Bizim şeyximizin gözəl xüsusiyyətləri var. Onlardan biri budur ki, evində səhərdən axşama qədər qazanlar ocaq üstə olur. Evində həmişə qonaqlıq verir. Elə gün olmur ki, onun süfrəsində qonaq olmasın. Gecə-gündüz onun evinə getsən, əliboş qayıtmazsan. Çox əliaçıq və səxavətli bir insandır.”

Dedim: “Çox yaxşı şeyxiniz var.”

Sonra heç bir söz demədim və gözlədim ki, o da məndən nəyisə soruşsun. Azacıq keçmişdi ki, o da məndən soruşdu: “Bəs sizin də şeyxiniz varmı?”

Dedim: “Bəli, bizim də yaxşı bir şeyximiz var.”

Soruşdu: “Onun adı nədir?”

Dedim: “Şeyx Əli.”

Soruşdu: “Sizin şeyxinizin xüsusiyyəti nədir?”

Dedim: “Bizim şeyximizin xasiyyəti budur ki, əgər ona ürəkdən iman gətirsən və dünyanın harasında olursan-ol, çətinliyə düşdükdə bircə dəfə “Ya Əli” – deyib, onu səsləsən, görərsən ki, başının üzərində hazırdır.”

Elə bu zaman camaat dağılışdı və onunla söhbətimiz yarımçıq qaldı. Mən sözümü axıra qədər ona çatdıra bilmədim. Sonra camaatla sağollaşıb Kərbəlaya qayıtdım. Qayıtdıqdan sonra fikirləşdim ki, əgər bircə dəfə də o kişi ilə görüşə bilsəydim, Həzrət Əlinin(ə) vilayətini ona tam anlada bilərdim. Amma istəyirdim ki, yenə də onunla görüşüm. Bu məsələ hey fikrimdə dolaşırdı. Bir neçə ay keçdikdən sonra həmin qəsəbəyə getdim. Camaatdan həmin kişini soruşdum. Dedilər ki, rəhmətə gedib. Öz-özümə çox narahat oldum. Sonra onun ünvanını soruşub evlərinə sarı yollandım. Qapını döydükdə bir oğlan çıxdı. Soruşdum ki, filankəsin evi buradır? Dedi: “Bəli.” Dedim: “Sən onun oğlusanmı?” Dedi: “Bəli.” Dedim: “Mən rəhmətlik atanla dost idim. Onun rəhmətə getdiyini eşitdim və sizə başsağlığı verməyə gəlmişəm.”

Məni evə dəvət etdilər. Başsağlığı verdikdən sonra söhbət etməyə başladıq. Söz şirin gəldiyi üçün bir neçə saat söhbət etdik. Sonra üzrxahlıq edib ayağa qalxdım və getmək istəyəndə məni buraxmadılar. Dedilər: "Uzaq yoldan gəlmisən və bu gün bizim qonağımızsan. Həm gedib onun qəbrini ziyarət edərik, həm də gecəni bizdə qalarsan." Qəbir üstə gedib-gəldikdən sonra gecə mənim üçün yer düzəltdilər. Gecəni orada yatdım. Yuxuda gördüm ki, qaranlıq uzun bir dalandayam. Dalanın axırından işıq gəlir. Həmin dalanla irəliləyib işıq gələn tərəfə getdim. Ora çatdıqda həmin qoca kişini və daha iki başqa şəxsi də orada gördüm. Kişi məni görən kimi yaxınlaşıb dedi: "Seyid Cavad, sən mənə demişdin ki, şeyxinizin adı Şeyx Əlidir. Bəs niyə demədin ki, Əli ibn Əbu Talibdir(ə)? Mən bunu bilmədim və sözümüz yarımçıq qaldı. Mən öldükdən sonra vəziyyətim çox pis idi. Məni cəhənnəmə tərəf aparırdılar ki, sənin sözün yadıma düşdü. Elə bu zaman "Ya Əli" - deyib sizin şeyxinizi çağırdım. Birdən gördüm ki, şəxsən Əli ibn Əbu Talib özü gəldi. Sən demə, mənə dediyin həmin şeyx Həzrət Əli(ə) imiş. Seyid Cavad, bilirsənmi nə oldu? Mən onu çağıran kimi gəldi və məni aparan mələkləri qaytardı. Sonra özü ilə gətirdiyi bu gördüyün iki nəfərə buyurdu ki, bu kişi inadkar insan olmayıb. O, müstəzəf və üzürlü olduğu üçün mənim vilayətimi anlamayıb. Siz məni onunla tanış edin və vilayətimi ona öyrədin.

Seyid Cavad, həmin gündən bu günə qədər bu iki nəfər mənə Həzrət Əlinin(ə) imamət və vilayəti haqda dərs deyirlər. Öyrəndikdən sonra məni bərzəxdə cənnət bağlarının birinə aparacaqlar."

Odur ki, hər kim əgər dünyada Quranı səhlənkarlıq üzündən deyil, həqiqi mənada üzürlü səbəblərə görə öyrənə bilməyibsə, qəbirdə ona əvvəlcə Quranı öyrədəcəklər,

bundan sonra isə cənnətə aparacaqlar. Əhli-beytin(ə) vilayət və məhəbbəti də elədir. Hər kim inadkarlıq üzündən deyil, həqiqi mənada üzürlü səbəblərə görə vilayəti başa düşməyibsə və onlara qarşı kin-küdurət bəsləməyibsə, qəbirdə ona imamların imamət və vilayətini öyrətdikdən sonra cənnətə aparacaqlar. Quran və Əhli-beyt(ə) bir-birinə sıx bağlıdır. Həzrət Peyğəmbər(s) dəfələrlə bizə Quran və Əhli-beyti(ə) təkidlə tapşırmış və qiyamət gününə qədər onların bir-birindən ayrılmayacağını söyləmişdir.

**Quranı dinləmək və oxumağın fəziləti**

Quran Allahın kəlamıdır. Quran ayələrinə qulaq asmaq Allahın kəlamını eşitmək deməkdir.

قَالَ رسولُ اللهِ(ص): ألا من اشتاق إلَى اللّهِ فَليستمِع كلام اللّهِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Kimin Allaha məhəbbət və şövqü varsa, elə isə Allahın kəlamını dinləsin.”[1]

Allaha məhəbbət və şövqü olan insanlar həmişə Onun kəlamlarına qulaq asar və bundan xüsusi mənəvi zövq alarlar. Allaha şövq və məhəbbəti olmayan insanlar Quran ayələrinə qulaq assalar da belə, ondan zövq ala bilməzlər. İnsanın Allahı dərki artdıqca Quran ayələrinin təsiri həmin şəxsdə daha çox özünü büruzə verir. Quran ayələrinə qulaq asmağın insan üçün çox böyük savabı vardır. Hətta bircə ayəni dinləmək belə insan üçün dağ boyda qızıldan daha üstündür.

قَالَ رسولُ اللهِ(ص): من ِاستمع آيةً ِمن القُرآن خير لَه ِمن ثَبِيرٍ ذَهبا والثِبير ِاسم جبلٍ عظِيم ِباليمن

-Həzrət Peyğəmbər(s) buyurur: “Quranın bir ayəsini

[1] Mizanül-hikmə, 10-cu cild, hədis - 16564.

dinləmək Səbir qədər qızıldan daha xeyirlidir."

Sonra Həzrət(s) buyurdu: "Səbir Yəməndə olan böyük bir dağın adıdır."[1]

قَالَ رسولُ اللهِ(ص): يدفَع عن قارئ القرآن بلاءُ الدنيا، و يدفَع عن مستمِع القرآن بلاءُ الآخِرة

-Həzrət Peyğəmbər(s) buyurur: "Quran oxuyan insandan dünyanın bəlaları, onu dinləyən insandan isə axirətin bəlaları uzaq olar."[2]

Dünyanın bəlalarının bəzisini gözümüzlə görürük, amma axirətin bəlaları haqda Quran ayələri və hədislərdən oxuyub eşitmişik. Nə qədər ki, insanın əlində fürsət var, bu bəlaları özündən uzaqlaşdırmalıdır. Ölüm gəldikdən sonra heç bir iş görmək mümkün olmayacaqdır. İllər dolaşır, aylar ötür, günlər keçir və insanın ömrü gündən-günə, hər dəqiqə azalır. Qarşıda isə insanı böyük-böyük bəlalar gözləyir. Hər an bizi gözləyən bəlalara yaxınlaşırıq. Lakin bütün bu bəlalardan nicat tapmağın yolu vardır. Əgər insan bu dünyada çalışıb qarşıda onu gözləyən bəlalardan başına çarə qılmasa, öldükdən sonra artıq çox gec olacaqdır. Əgər insan həmin bəlaları bu dünyada özü üçün həll etmədən ölüb getsə, ən azından ağılsızlıq etmişdir. Mələklər belə insana baxıb gülürlər. Ona görə gülürlər ki, zaman keçir, amma bu insan hələ də öz kefindədir və qarşıda onu hansı bəlaların gözlədiyindən xəbərsizdir. Getdikdən sonra başa düşəcək ki, hansı bəlaların içinə düşüb. Bu barədə möminlər həmişə zirək olmuşlar. Mömin insan həmişə həmin bəlaları özündən uzaqlaşdırmağa çalışar. Ona görə də Quranın əzəmət və

---

[1] Mizanül-hikmə, 10-cu cild, hədis - 16565.
[2] Yenə orada, hədis - 16566.

üstünlüklərindən biri də odur ki, onu oxuyan insan dünyəvi bəlaları, dinləyən insan isə axirətdəki bəlaları özündən uzaqlaşdırmış olur.

**Quran oxumağın fayda və nəticəsi**

Quran elə bir müqəddəs kitabdır ki, insanın dünya və axirəti üçün olduqca böyük faydaları vardır. Quran oxumağın insan üçün faydalarından biri budur ki, oxuduqca insanın qəlbinin pasını təmizləyər.

قَالَ رسولُ اللهِ(ص): إنّ هذِهِ القُلوبَ تصدأُ كما يصدأُ الحَديد.

قيلَ: يا رسولَ اللّهِ، فما جلاؤها؟ قالَ: ذِكر الْموت و تِلاوةُ القرآن

-Həzrət Peyğəmbər(s) buyurur: "Həqiqətən, qəlblər dəmir paslandığı kimi paslanır. Soruşdular: Ya Rəsulallah, (dəmir paslandıqda onu cilalayıb təmizləmək olur) bəs qəlbi necə cilalamaq olar? Peyğəmbər(s) buyurdu: Ölümü xatırlamaq və Quran oxumaqla."[1]

Quran oxumağın başqa bir faydası da budur ki, insanın ruhunu genişləndirər, daxilini nurlu edər.

قَالَ عِلي(ع): أفضلُ الذكرِ القرآنُ، بِهِ تشرح الصدور، و تستنير السرائر

-Həzrət Əli(ə) buyurur: "Ən fəzilətli zikr Quran oxumaqdır. Quran oxumaqla sinələr (qəlblər) genişlənər və nurlu olar."[2]

Allahı istənilən hər bir halda zikr etmək yaxşıdır və bütün zikrlər gözəldir. Amma bu hədisə əsasən zikrlərin ən gözəli və fəzilətlisi Quran oxumaqdır. Quran elə bir zikrdir ki, insanın sinəsini genişləndirir və tutumunu çoxaldır. Əgər insanın sinəsi geniş olmasa və tutumu az

---

[1] Mizanül-hikmə, 10-cu cild, hədis - 16497.

[2] Yenə orada, hədis - 16416.

olsa, onda hər bir hadisəyə tez reaksiya verər. Hər bir hadisəyə dərhal reaksiya verib özündən çıxmaq isə insanın tutumunun azlığından irəli gəlir.

Günlərin birində Həzrət Musa(ə) camaata moizə edirdi. Onun sözləri bir nəfərin qəlbinə güclü təsir göstərdi. Həmin şəxs bu təsirin nəticəsində ayağa qalxıb köynəyinin yaxasını dartdı və köynəyin düymələri qırılıb yerə töküldü. Allah-təala vəhy edərək buyurdu: "Ya Musa, ona de ki, köynəyini cırmasın. Qəlbini genişləndirib tutumunu çoxaltsın."

Odur ki, insan böyük ruha və geniş qəlbə malik olduqda tutumu artar, haqqı rahatlıqla qəbul edər və hədəfində də sabitqədəm olar. Əgər insanın ruhu böyük olsa, o zaman haqq-həqiqətə daha çox yaxınlaşmaq imkanı əldə edər. Köynəyin yaxasını cırmaqla və hay-küy salmaqla insan heç bir şeyə nail ola bilməz. İnsan ruhunu böyüdə, sinəsini və tutumunu genişləndirə bilsə, heç bir çətinlik onu öz hədəfindən uzaqlaşdıra bilməz. Allah-təala "Şərh" surəsinin 1-ci ayəsində Həzrət Peyğəmbərə(s) belə buyurur:

أَلَم نشرح لَكَ صدرك

-Məgər Biz sənin sinəni (köksünü) genişləndirmədikmi? (Sənə bolluca səbir və hövsələ vermədikmi ki, böyük bir tutumla Xaliqə yetişmək və insanlarla rabitə qurmaq məqamını özündə yerləşdirəsən, elmlər, hikmət və din hökmlərinin mədəni olasan, ilahi mənbədən vəhy almaq və bəşər cəmiyyətinə onu yetirmək istedadına malik olasan və insanlara rəhbərlik, ümmətə atalıq edəsən.)

Həzrət Peyğəmbəri(s) təhqir edənlər, incidənlər, narahat edənlər çox idi. Bəzən onun yoluna tikan atar, bəzən də başına damların üstündən zibil tökərdilər. Bəzən də təhqir edib söyürdülər. Amma Həzrət(s) həmin adamların bu təhqirlərinə əhəmiyyət verməyərək onlara nəsihətlər edir və

xoşbəxtliyə dəvət edirdi. Eləcə də Həzrət Peyğəmbərin(s) naibləri də belə idilər. Əgər Həzrət Peyğəmbər(s) onları insanlara tanıtdırmasaydı belə yenə də əlamətlərinə görə hər kəs onları tanıya bilərdi. Əgər Həzrət Peyğəmbər(s) Həzrət Əlini(ə) özündən sonra ümmətə İmam olaraq tanıtdırmasaydı, əlamətlərindən bilinirdi ki, İmam Əli(ə) Həzrət Peyğəmbərin(s) canişini olmağa ən layiqli insandır.

Ümumiyyətlə, həm Həzrət Əlinin(ə), həm də digər imamlarımız barədə oxuduqda çox təəccüblü əhvalatlarla rastlaşırıq. Yəni onların necə də böyük ruha malik insanlar olduqlarının şahidi oluruq. Günlərin birində Həzrət Əli(ə) böyük bir məclisdə əyləşmişdi. Bir nəfər içəri daxil olub Həzrəti(ə) təhqir etməyə başlayır. Həzrət Əli(ə) isə onun sözlərinə fikir vermir. Həmin şəxs sözünü bitirdikdən sonra məclisi tərk edir. Ertəsi gün həmin şəxs çox çətin bir vəziyyətə düşür. Deyirlər ki, onu bu vəziyyətdən yalnız Həzrət Əli(ə) xilas edə bilər. O, Həzrət Əlinin(ə) evinin qapısına qədər gəlir və qapını döyür. Qapını açırlar və həmin şəxs içəri daxil olur. Həmin vaxt Həzrət Əlinin(ə) yanında bir neçə səhabə də əyləşmişdi. O, İmama(ə) çətin bir vəziyyətə düşdüyünü danışır və ondan kömək istəyir. Həzrət Əli(ə) onun çətiniyini aradan qaldırır. Elə bu zaman səhabələrdən biri ərz edir: “Ya Əmirəlmöminin, bu həmin adamdır ki, dünənki məclisdə səni təhqir etmişdi. Amma sən isə onun çətinliyini aradan qaldırdın.” Həzrət Əli(ə) həmin səhabəyə imamətə layiq cavab verərək buyurur: “Ona görə onun çətinliyini həll etdim ki, onun nadanlığı mənim kəramətimi üstələməsin. Qorxuram ki, onun cahilliyi mənim kəramətimə qələbə çalsın.”

Təbiidir ki, bütün tarix boyu bu kimi kəlamları yalnız peyğəmbərlərin və imamların dilindən eşitmək mümkün olmuşdur. Ancaq tarixi mənbələrə yaxşıca diqqət yetirdikdə,

habelə şahların, xəlifələrin, elə çağdaş zəmanəmizdə yaşamış və hökmranlıq etmiş müasir dövlət rəhbərlərinin əksəriyyətinin həyat və fəaliyyətinə bir nəzər saldıqda görərik ki, onların bu kimi hərəkətlərinə rast gəlmək mümkün deyildir. Onlar baş kəsmək, qan tökmək, zülm etmək, insanları həbsxanalara salmaqdan savayı nə iş görmüşlər ki? Dövrümüzdəki tarix kitabları demək olar ki, bütün dillərə tərcümə olunub və kitabxanalarda yerləşdirilmişdir. Hansı tarix kitabında şahların peyğəmbərlər və imamlar kimi hərəkət etdikləri yazılmışdır? Şahlar məlum məsələdir ki, insanları kiçik bir səhvə görə belə edam etdirərdilər. Hansı tarixi kitabda yazılıb ki, bir şahı dünən təhqir edən insan səhərisi gün öz problemi ilə əlaqədar olaraq həmin şahın yanına gəlmiş, təhqir etdiyi şahdan kömək diləmiş və şah da onun bu çətinliyini aradan qaldırmışdır? Aydındır ki, bu kimi xüsusiyyətlərə yalnız və yalnız geniş ürəkli, böyük ruhlu insanlar malik ola bilərlər. Çünki peyğəmbərlər və imamlarımız həmişə əfv, güzəşt yolunu üstün tutmuş, onları təhqir edənləri bağışlamışlar. Həzrət Əlinin(ə) dünən onu təhqir etmiş və bu gün çətinliyə düşərək qapısına gəlmiş insanı kəramətlə yola saldıqdan sonra səhabəyə cavabında "onun nadanlığı mənim kəramətimi üstələməsin" söyləməsi bu əzəmətli şəxsiyyətin ruhunun nə qədər böyük və qəlbinin nə qədər geniş olduğunu göstərir.

Ona görə də hədislərdə qeyd olunur ki, Quran vasitəsilə insanın ruhu böyüyər, qəlbi genişlənər və iç dünyası nuranіləşər. Quran insanın qəlbinə həyat bəxş edir.

قَالَ رسولُ اللهِ(ص): فإن القرآنَ يحيِي القَلب

-Həzrət Peyğəmbər(s) buyurur: "Quran qəlbə həyat verir."[1]

---

[1] Mizanül-hikmə, 10-cu cild, hədis - 16503.

Quran oxumağın faydalarından biri budur ki, insanda iman yaradır.

قَالَ عِلي(ع):ِلقاح الإيمانِ تلاوةُ القرآن

-Həzrət Əli(ə) buyurur: "Quran oxumaq imanı gücləndirər."[1]

İnsan Quranı çox oxuduqca imanı daha da güclənər. Amma Quran oxuyan insan elə bir iş görməməlidir ki, ona verilmiş bu müvəffəqiyyət əlindən çıxsın. Yəni elə xeyirli işlər vardır ki, bircə günah nəticəsində insanın əlindən çıxa bilər. Quran oxumaq böyük savab və ən xeyirli işlərdəndir. Amma bəzən insan elə günah iş görür ki, həmin günah xeyir əməllərin də qarşısını kəsir. Əgər insan Quran oxumağa diqqətsizlik göstərməsə, Quran həmin insanın qəlbinə həyat bəxş edər və onu pis işlərdən qoruyar.

قَالَ رسولُ اللهِ(ص): لا تغفُلْ عنِ قِراءةِ القرآنِ؛ فإن القرآنَ يحيِي القَلب، و ينهى عنِ الفحشاءِ و المُنكَرِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Quran oxumağı unutmayın. Çünki Quran qəlbi dirildər və insanı pis, pozğun işlərdən çəkindirər."[2]

Əgər insan özünü Quran oxumağa öyrəşdirsə, əlbəttə ki, oxuduğu ayələr onu günah etməyə, pis işlər görməyə qoymaz. Həmçinin Quran oxumaq insanın günahlarının kəffarəsidir.

قَالَ رسولُ اللهِ(ص): عليك بِقراءةِ القرآن؛ فإنّ قِراءته كفّارةٌ للذنوبِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Sənə Quran oxumağı tapşırıram. Onu oxumaq günahların kəffarəsidir."[3]

---

[1] Mizanül-hikmə, 10-cu cild, hədis - 16499.
[2] Yenə orada, hədis - 16503.
[3] Yenə orada, hədis - 16501.

İnsan özünü Quran oxumağa öyrəşdirdikcə o dərəcəyə gəlib çatar ki, Quran onunla cəhənnəm arasında pərdə salar və əzabdan amanda saxlayar.

قَالَ رسولُ اللهِ(ص): فإنّ قراءته... ستر في النارِ، و أمانٌ مِن العذابِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Quran oxumaq odla insanın arasında pərdə salar və əzabdan amanda saxlayar."[1]

قَالَ رسولُ اللهِ(ص): من تلا آيةً مِن كتابِ اللّهِ كانت له نورا يوم القِيامةِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kim Qurandan bir ayə oxusa, qiyamət günü həmin ayə onun üçün bir nur olacaq."[2]

Qiyamət günü elə bir gündür ki, hər bir insan qorxu içində olacaqdır. Həmin gün insana nicat tapmaq üçün nuraniyyət lazımdır. Hər kimin nuraniyyəti varsa, qiyamət günü insanın çətinliyini o, həll edəcək. Allah-təala "Təhrim" surəsinin 8-ci ayəsində belə buyurur:

يوم لَا يخزي الله النبي والذِين آمنوا معه نورهم يسعى بين أيدِيهم وبِأيمانِهم يقُولُونَ ربنا أتمِم لَنا نورنا واغْفِر لَنا

-Elə bir gündə Allah Peyğəmbəri və onunla birgə (Allaha) iman gətirənləri xar etməz. Onların nuru (dirilmək məkanı olan) qəbirdən (haqq-hesab mərkəzinə qədər) önlərində və sağ tərəflərində hərəkət etməkdədir. Deyərlər: "Ey Rəbbimiz, bizim nurumuzu tamam-kamal et və bizi bağışla."

Deməli, gecə qaranlıqda yol getmək üçün insana işıq və nur lazım olduğu kimi, qiyamət günündə də insanın nura ehtiyacı olacaqdır. Quran ayələrinə diqqət yetirdikdə

---

[1] Mizanül-hikmə, 10-cu cild, hədis - 16501.
[2] Yenə orada, hədis - 16567.

nurun bariz nümunələrinin şahidi oluruq. Allahın Özü, nazil etdiyi kitablar, göndərdiyi peyğəmbərlər nurun bariz nümunələridir. “Nur” surəsinin 35-ci ayəsində oxuyuruq:

الله نور السماواتِ والْأرض

-Allah göylərin və yerin nurudur.

“Maidə” surəsinin 44-cü ayəsində buyurulur:

إِنا أنزلْنا التوراةَ فِيها هدى ونور

-Həqiqətən, Biz onda hidayət və nur olan Tövratı nazil etdik.

“Maidə” surəsinin 46-cı ayəsində belə buyurulur:

وآتيناه الإِنجِيلَ فِيهِ هدى ونور

-Və ona içində hidayət və nur olan İncil verdik.

“Nisa” surəsinin 174-cü ayəsində belə buyurulur:

وأَنزلْنا إِلَيكُم نورا مبِينا

-Və sizin üçün aşkar və aydınlıq gətirən bir nur (Quran) nazil etdik.

“Maidə” surəsinin 15-ci ayəsində buyurulur:

قَد جاءكُم من اللّهِ نور وكِتاب مبِين

-Həqiqətən, Allah tərəfindən sizə bir nur və (özü) aydın (olan) və aydınlıq gətirən bir kitab gəlib.

“Əhzab” surəsinin 45-46-cı ayələrində Quranı gətirən vasitəçinin özünün də bir nur olduğu bəyan edilərək buyurulur:

إِنا أَرسلْناك شاهِدا ومبشرا ونذِيرا. وداعِيا إِلَى اللهِ بِإِذْنِهِ وسِراجا منِيرا

-Həqiqətən, Biz səni (dünyada ümmətin əməllərinə şahid olub və axirətdə şəhadət vermək üçün) bir şahid və müjdəçi və qorxudan (kimi) göndərdik. Və həmçinin

Allahın izni ilə Ona tərəf dəvət edən, aydın və nur saçan bir çıraq (olaraq göndərdik).

Allah-təala Peyğəmbəri(s) insanlar üçün nur mənbəyi qərar vermişdir. Nuru nur vasitəsilə insanlara çatdırır. Zülmətlə nur heç bir vaxt bir yerdə ola bilməz. Əgər həmin nuraniyyətin kənarında günah olsa, günah imkan verməz ki, nur insana çatsın. Günah nuraniyyətin qarşısını alır. Buna görə də əgər insan təqvalı olsa və Həzrət Peyğəmbərə(s) iman gətirsə, Allah-təala həmin şəxsə mərhəmət edər, onu bağışlayar və nur bəxş edər. “Hədid” surəsinin 27-ci ayəsində bu haqda belə buyurulur:

يا أيها الذِين آمنوا اتقُوا الله وآمِنوا بِرسولِهِ يؤتكُم كِفلَين مِن رحمِتِهِ ويجعل لكُم نورا تمشونَ بِهِ ويغفِر لَكُم

-Ey iman gətirənlər! Allahdan qorxun (təqvalı olun) və Onun peyğəmbərinə (Məhəmmədə(s)) iman gətirin ki, sizə Öz mərhəmətindən iki pay əta etsin, vasitəsi ilə yol (dünyada ictimai həyat yolunu, məhşərdə isə cənnət yolunu) getməyiniz üçün bir nur versin və sizi bağışlasın.

Ayədə işlənmiş “Allah mərhəmətindən iki pay verər” ifadəsində məqsəd ola bilsin ki, dünyada və axirətdə olan yaxşılıqdır. “Bəqərə” surəsinin 201-ci ayəsində belə oxuyuruq:

ربنا آتِنا فِي الدنيا حسنةً وفِي الآخِرةِ حسنةً

-Ey Rəbbimiz, bizə dünyada da yaxşılıq əta et, axirətdə də yaxşılıq əta et.

Bundan əlavə, Allah-təala Ona və Peyğəmbərinə(s) iman gətirənlərin imanının nəticəsi olaraq elə bir nur inayət edər ki, insan o nurun vasitəsilə həm dünya, həm də axirət yolunu getmək üçün yolunu işıqlandırar. İnsan dünyada bu

nur vasitəsilə təqva yolunu tuta biləcək. Yəni təqvalı insan ayaqyalın tikanlar arasında diqqət və ehtiyatla yeriyən insan kimi yol gedər. Yəni, ayağının altını görə bilər və hara gəldi addım atmaz. Təqvalı insan həmişə yeməyində, gəzməyində, baxmağında və bütün hərəkətlərində diqqətli olar. Deməli, insanın təqvalı olması üçün nura ehtiyacı var. Əgər Allah insana nur əta edirsə, deməli, həmin şəxsi hidayət etmişdir. Çünki insan bu nur vasitəsilə ayağının altını görür və addımlarını atır. Quran da Allahın insanlara əta etdiyi bir nurdur. Bu nur həm bu dünyada, həm də axirətdə insana yol göstərir. Odur ki, Həzrət Peyğəmbər(s) buyurmuşdur: "Kim Qurandan bir ayə oxusa, qiyamət günü həmin ayə onun üçün bir nur olacaq."

Bunu da qeyd etmək lazımdır ki, qiyamət günü hər bir insan öz nurundan bəhrələnəcək. Hədislərdə qeyd olunmuşdur ki, cəhənnəm əhli nuraniyyət əhlini səsləyib deyəcək: "Öz nurunuzdan bizə də verin." Onlar da deyəcəklər: "Xeyr, olmaz. Bura dünya deyil ki, öz payımızdan sizə də verək. Bura elə bir yerdir ki, hər kəs öz əməlinin nəticəsini görür. Qiyamət günü mümkün deyil ki, bir insanın nuraniyyətindən başqası istifadə etsin." Hədislərdə də qeyd olunur ki, namaz qılarkən insanın yeddi üzvü səcdəyə düşür. Qiyamət günü həmin yeddi üzvdən nur qalxacaq. Qiyamət günü insana nicat verən də məhz onun nuraniyyəti olacaqdır.

## Hikmətli Quran

Allah-təala "Yasin" surəsinin əvvəlində Həzrət Peyğəmbərə(s) xitab etdikdən sonra Qurana and içir. Yuxarıda Quranın əzəməti haqda müəyyən qədər bəhs etdik. Bu ayədə Allah-təala Qurana and içməklə yanaşı, onun üçün "həkim", "hikmətli" sifətlərini də bəyan edərək buyurur: "Vəl Quranil-həkim" ("Bu hikmətli Qurana and olsun.")

Bu ayədə işlənmiş "həkim" kəlməsi Quranın sifətidir. Hamıya məlumdur ki, Quranın özündə bu müqəddəs kitabın müxtəlif adları var. Məsələn, zikr, nur, fürqan və Quran kimi adlar bəyan olunmuşdur. Bundan əlavə, bu mübarək kitabın "Qurani-Kərim", "Qurani-Məcid" kimi müxtəlif sifətləri də vardır. "Həkim" də Quranın sifətlərindən biridir ki, Allah-təala "Yasin" surəsində onu zikr etmişdir. Əlbəttə, Quranın özünün nə üçün nazil olması onun sifətlərinin hamısında açıq-aydın şəkildə açıqlanır. Yaxud Quranın adlarında onun nə üçün nazil olduğu bəyan edilir. Yəni Quranın sifət və adlarında onun nə üçün nazil olmasına işarələr vardır. Ümumiyyətlə, Quranın ayələrində açıq-aydın şəkildə bəyan edilir ki, Quran insanların hidayət olunması üçün nazil olub. Yaxud bəzi hədislərdə Quranı gözəl ifadələrlə tərif edərkən belə buyurulmuşdur:

الْمؤمن ملْجم والقُرآنُ لُجام المُؤمن

-Mömin noxtalı olar. Onun noxtası Qurandır.

**Qeyd:** Atın ağzına noxta vururlar ki, onu ram və idarə etmək insanın əlində olsun. Noxtasız at təhlükəlidir. Noxta olmadıqda at istədiyi yerə gedə bilər. Amma noxtalı atın yüyəni insanın əlində olduğundan həmin atın ixtiyarı da onu tutanın əlindədir. Belə olduqda insan həmin atı istədiyi kimi idarə edə və çapa bilər. Hədislərdə də möminin

barəsində belə ifadə işlədərək bildirilir ki, mömінin noxtası olar və onun noxtası Qurandır. Yəni belə olduqda mömin artıq öz istədiyi kimi deyil, Quranın buyurduğu kimi hərəkət edər. Əgər bir insan noxtasız olsa, deməli, o, mömin sayılmır. Kafir, fasiq və münafiq insanın noxtası olmaz. Çünki onlar öz bildikləri və istədikləri kimi hərəkət edərlər. Bu da çox təhlükəlidir. Amma Allaha iman gətirən insan iman ipi ilə özünü bağlayırsa, hər bir işi iman çərçivəsində görürsə, bu ipə noxta deyilir və onun bu noxtası da Qurandır. Yəni mömin daha özbaşına yox, Quranın ixtiyarındadır. Hər bir hərəkəti də Quranın buyurduğuna uyğundur. Əgər insan özünü Quranın ixtiyarından kənarlaşdırsa, dəyəri sıfra bərabərdir. Yəni qiyməisiz və dəyərsiz bir varlığa çevriləcək. Belə olduqda həmin insanı hər hansı iplə bağlasalar da belə, yenə də dəyər və qiyməti olmayacaq. Allah-təala "Maidə" surəsinin 68-ci ayəsində Yəhud və Nəsaranın barəsində belə buyurur:

لَستم علَى شيءٍ

-Siz bir şey də deyilsiniz.

Allah-təala bu ayədə onları birbaşa tənqid edərək buyurur ki, Ya Peyğəmbər(s) onlara de: "Ey kitab əhli, siz heç bir şeydə deyilsiz." Onlar özlərini o yerə gətirib çıxarmışdılar ki, Allah-təala onlara bu ibarə ilə xitab edir. Bu söz insan üçün ən ağır və ən alçaldıcı sözdür. Birini söydükdə deyərlər "sən filansan", yaxud "filan-filan olmuşsan." "Filan-filan olmuş" yenə də bir sözdür. Lakin "heç nə" ondan da ağır sözdür. Ən ağır təhqir isə odur ki, insana "sən heç nə deyilsən" - deyilsin. Əgər insan özünü sıfr dərəcəsinə gətirib çıxarırsa, bu zaman qiymətsiz bir varlıq olacaq. Sıfr elə bir ədəddir ki, hər hansı ədədin

üzərinə artırsalar, artmaz. Əgər insanın heç bir əqidə və imanı olmasa, ona dünyanın hamısını versələr də belə, yenə də heçdir. Hər bir şeyi heç nə ilə əlaqələndirsən, yenə də heçdir. Qiymət və dəyəri olmayan bir insan bütün dünyaya hakim kəsilsə belə, yenə də dəyərsiz bir varlıqdır. Amma əgər insan azacıq dəyər taparsa və bir şey ola bilərsə, onu hər nə ilə əlaqələndirsən, o zaman yenə də dəyərli bir şey olar. Ona görə də hədisdə buyurulur ki, əgər Quran insanın noxtası olsa, həmin insan mömindir. Noxtası Quran olmayanın isə qiyməti sıfır və heç nədir. Əgər insan Qurana bağlı olsa, onu özünə noxta qərar versə, yeməyi, içməyi, məscidə getməyi, yatmağı, gəzməyi və hər bir hərəkəti ibadət sayılar. Bütün bu əməllərin hamısı toplandıqca insanın qiymət və dəyəri də artacaqdır. Əsas odur ki, insan özünü heçdən çıxarıb dəyərə doğru hərəkət etsin.

Həcc ziyarəti zamanı Ərəfatda cavan bir oğlan İmam Sadiqə(ə) yaxınlaşıb ərz etdi: “Ey Peyğəmbər(s) övladı, şəxsən mən aləmin həqiqətini başa düşüb anlamışam. Mən Allahın vəhdaniyyətini, Peyğəmbərin(s) nübüvvətini, Həzrət Əlinin(ə) və siz imamların vilayətini möhkəm bir əqidə kimi qəbul etmişəm. Mən İslamı qəbul edib iman gətirmişəm. Bacardığım qədər də ilahi hökmlərə riayət edirəm. Bu cəhətdən heç bir çətinliyim yoxdur. Çətinliyim odur ki, mənim doxsan yaşlı bir anam var. O, Allahı, Peyğəmbəri(s) və sizin vilayətinizi qəbul etmir. Kafir olaraq ömrünü sürür. Mən onunla nə edim?” İmam(ə) soruşdu: “O, donuz əti yeyirmi?” Oğlan dedi: “Xeyr.” İmam(ə) soruşdu: “Şərab içirmi?” Oğlan dedi: “Xeyr.” İmam(ə) buyurdu: “Elə isə müsəlman olmamışdan əvvəl onunla necə rəftar edirdinsə, bundan sonra bacardığın qədər ona daha mehriban və xoşrəftar ol. Hətta onunla bir qabdan

yemək ye, ona nəvaziş göstər. Onun kar olması, dini qəbul etməməsi sənə aid olan iş deyil. O, sənin anandır və ona qarşı öhdənə düşən ilahi vəzifələrə riayət et.”

Oğlan İmamdan(ə) məsləhət aldıqdan sonra Həcc əməllərini yerinə yetirib evə qayıtdı. İmamın(ə) buyurduğu kimi, anasının qulluğunda dayanıb ona daha çox xidmət göstərməyə başladı. Hər gün anasının əlindən, üzündən öpür, nə istədiyini soruşur və onunla çox mehribancasına rəftar edir. Beləcə, bir neçə gün ötür. Anası oğlunun ona qarşı daha mehriban olduğunu, daha yaxşı qulluq etdiyini görüb soruşur: “Oğlum, mən səndə çox dəyişiklik görürəm. Sən qabaqlar belə deyildin. Bu neçə günü mənə qarşı daha çox diqqətli olmusan. Bunun sirri nədir?” Oğlan dedi: “Anacan, gördüyümüz bu aləmi yaradan bir xaliq var. O Xaliq bir peyğəmbər göndərib ki, peyğəmbərlərin sonuncusudur. Ona Quran adlı bir kitab da nazil edib. O, dünyasını dəyişib, amma altıncı nəvəsi İmam Sadiq(ə) bizim imamımızdır. Sənə qarşı belə xoşrəftar və mehriban olmağı da o mənə tapşırıb.”

Anası oğluna təəccüblə baxıb deyir: “Oğul, mənim vəziyyətimi görürsənmi? Artıq doxsan yaşım var. Qocalıb əldən düşmüşəm. Get həmin adamdan soruş ki, bu yaşımda və belə bir vəziyyətimdə Allaha iman gətirsəm, məni qəbul edərlərmi?”

Oğlan anasına baş üstə deyib İmamın(ə) hüzuruna yollandı. Ərz etdi ki, ağa, mən sizin buyurduğunuz kimi etdim. Anam məndə dəyişikliyi gördükdən sonra onun da halında dəyişiklik baş verdi. Məni göndərib ki, sizdən bir məsələni soruşum. Anam dedi ki, artıq doxsan yaşım var. Qocalıb əldən düşmüşəm. Get həmin şəxsdən soruş ki, bu yaşımda və belə bir vəziyyətimdə Allaha iman gətirsəm, məni qəbul edərlərmi?

İmam(ə) buyurdu: “Get anana de ki, kəlmeyi-şəhadəti oxusun. Allahın vəhdaniyyətini və Peyğəmbərin(s) nübüvvətini etiraf etsə, qəbul ediləcək.”

Oğlan evə qayıdıb İmamın(ə) buyurduğunu anasına söylədi. Qadın bu sözü eşidən kimi dedi: “Əşhədu ənla ilahə illəllah və əşhədu ənnə Məhəmmədən rəsul…” və elə bu andaca qadın dünyasını dəyişdi. Hətta rəsulullah kəlməsini axıra qədər tamamlaya bilmədi.

Oğlan İmam Sadiqin(ə) hüzuruna gedib bütün əhvalatı olduğu kimi danışdı. İmam Sadiq(ə) onu dinlədikdən sonra buyurdu: “Sənin anan hazırda cənnətə daxil olur. Bizim (müləman) xanımlar o qadına qüsl vermək və kəfənləmək üçün hazırlaşsınlar.”

Bu əhvalatı qeyd etməkdə məqsədim odur ki, insan bir neçə dəqiqənin içində özünü Allaha yetirməklə hər şeyi tapa bilər. Doxsan il sıfır və heç dərəcəsində olan insan bir anın içində özünü Allaha bağlamaqla qiymət tapır. Bir ömür heç olub yaşayan insana dünyanın hamısını versələr də belə yenə də heçdir. İnsanı heçdən çıxaran, ona qiymət və dəyər verən yeganə amil Allaha bağlılıqdır. Əgər insan iman gətirsə, iman gətirdikdən sonra ağzının noxtası Quran olsa, deməli, bu insan hər şeydir.

Allah-təala “Yasin” surəsində Qurana and içməklə yanaşı, onun üçün həkim sifətini də zikr edir. Diqqəti cəlb edən məsələ budur ki, “Quran” bu ayədə “həkim” (hikmətlə dolu olan) sifəti ilə qələmə verilmişdir. Halbuki əksər hallarda “həkim” canlı və aqil şəxslərlə bağlı olaraq istifadə edilir. Burada “Quran”ı “həkim” sifəti ilə birgə gətirməkdə məqsəd odur ki, Allah “Quran”ı canlı və aqil bir varlıq, onu insanlar üçün hikmət qapılarını açıb və sonrakı ayələrdə bəyan olunmuş düz yola hidayət edə biləcək bir

rəhbər kimi tanıtdırmaq istəyir. “Həkim” sözünün mənasına gəldikdə isə, bu söz bir neçə mənanı kəsb edir:

1. “Həkim” sözünün bir mənası hakim, yəni haqq ilə batil arasında hökm edən şəxsə deyilir. Buna görə də hədislərdə qeyd olunmuşdur ki, hər bir sözün və hədisin düz olub-olmadığını bilmək istəyirsənsə, Qurana müraciət et. Hər bir şeyin ölçüsu olduğu kimi, haqq ilə batilin tərəzisi də Qurandır. Həmçinin Quran hər hansı bir hədisi təsdiq etmirsə, həmin hədis məqbul sayıla bilməz;

2. “Həkim”in ikinci mənası möhkəm və batilə zərrə qədər yol verməyənə deyilir. Quran elə bir kitabdır ki, zərrə qədər də olsun batilə yol verməz. Quran əvvəldən axıradək sənəd, sübut, məntiq, ədalət və nuraniyyətdir. “Fussilət” surəsinin 42-ci ayəsində oxuyuruq:

لَا يَأْتِيهِ الْبَاطِلُ مِن بَيْنِ يَدَيْهِ وَلَا مِنْ خَلْفِهِ

-Ona nə qarşısından, nə də arxasından batil yol tapa bilməz.

Quran haqq ilə batil arasında mizan və tərəzidir. Haqq ilə batilin ölçüsüdür. Buna görə də mümkün deyil ki, zərrə qədər də olsa batil ona yol tapsın. Mümkün deyil dedikdə mənası belədir ki, Allah Özü Quranı qoruyub saxlayır. “Hicr” surəsinin 9-cu ayəsində belə buyurulur:

إِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَإِنَّا لَهُ لَحَافِظُونَ

-Həqiqətən, bu zikri (Quranı) Biz nazil etdik və şübhəsiz, onu Biz Özümüz qoruyarıq.

Quran sanki möhkəm bir qaladır və bu qalanın qoruqçusu şəxsən Allah özüdür. Belə olduqda bu qalaya kim girə bilər? Heç bir kəsin ixtiyarı və gücü çatmaz ki, Qurana müdaxilə etsin. Hətta Peyğəmbərin(s) də ixtiyarı yoxdur ki, Quranın hansısa kəlməsində dəyişiklik etsin.

“Əl-haqqə” surəsinin 44-47-ci ayələrində Həzrət Peyğəmbərə(s) xitab olunur.

وَلَو تقَولَ علَينا بعض الْأَقَاوِيلِ. لَأَخذْنا مِنه بِالْيمِينِ. ثُم لَقَطَعنا مِنه الْوتِين. فَما مِنكُم من أَحدٍ عنه حاجِزِين

-Və əgər o, bəzi sözləri nahaqdan Bizə isnad etsəydi, şübhəsiz, onu bütün qüdrətimizlə yaxalayardıq və yaxud sağ əlini tutub əzaba çəkərdik. Sonra da şübhəsiz, onun ürəyinin şah damarını qopardıq. Belə olan surətdə, sizdən heç biriniz on(un əzabın)ın qarşısını ala bilməzdiniz.

Həzrət Peyğəmbərin(s) hər bir sözü Allahın sözüdür. Allah-təala Quranda buyurur: “O, əsla nəfsi istəkləri ilə danışmır. Dedikləri yalnız (Allah tərəfindən) ona göndərilən vəhylərdir.” Əgər Peyğəmbər(s) Allahın sözündən başqa bir söz demiş olsaydı, Allah onu elə cəzalandırardı ki, heç kəs bunun qarşısını ala bilməzdi. Odur ki, Allah Quranı nazil edib və qiyamətə qədər də onu Özü qoruyacaqdır. İslam dünyasında bütün firqələr yekdilliklə qəbul etmişlər ki, Quranda zərrə qədər də olsa təhrifə yol verilməyib. Ola bilsin ki, kimsə zəif mənbəyə istinad edərək Quranın təhrif olunmasına dair hansısa sözü demiş olsun. Bu kimi sözlər həm onu deyənin, həm də bütün İslam dünyasının ziyanınadır.

Tarix boyu İslam dünyasının ən böyük alimləri yazılı və şifahi şəkildə bildirmişlər ki, Quranda heç bir təhrifə yol verilməmişdir. Osmanın hakimiyyəti dövründə Əli ibn Əbu Talibin(ə) nəzarəti ilə yazılmış, habelə İmam Səccadın(ə) dəst-xətti ilə yazılmış, daha sonra İbn Məsudun xətti ilə yazılmış, həmçinin bu dövrdə yazılıb çap olunmuş Quran kitablarının ayələrinin hamısı eynidir və heç bir ayədə təhrifə yol verilməmişdir. Bu, bizim fəxrimizdir ki, Quranın heç bir ayəsi təhrif olunmayıb. Quranın təhrif

olunmasına dair arada gəzən söz-söhbətlər isə yalnız və yalnız düşmənlərin işidir. Düşmənlər "Filan alimin Quranın təhrif olunmasına dair yazısı vardır" - deyərək İslam dininin firqələri arasında ixtilaf yaratmaq istəyirlər. Ancaq Quranda heç bir təhrifə yol verilməmiş-dir və bu bir həqiqətdir. Ona görə də Quranın sifətlərindən biri həkimdir. Bu mənada ki, qiyamətə qədər möhkəmdir və zərrə qədər də olsa batilə yol verməz.

3. Alimlərin yazdıqlarına görə, "həkim" sözünün bir mənası da hikmətli deməkdir. Yəni Quran hikmətlə dolu olan bir kitabdır. Mənası da budur ki, hər kim Quranla ünsiyyətdə olsa, onun mərifəti və elmi çoxalar. Quranla ünsiyyət bağlayan elə bir insan yoxdur ki, ondan bəhrələnməsin. İnsan Quranı nə qədər çox oxusa, bir o qədər də mərifəti və hikməti çoxalar, öyüd-nəsihət götürər, hidayət olunar və nadanlıq xəstəliyi də ondan uzaqlaşar.

قَالَ عَلِي(ع): اعلَموا أن هذا القرآنَ هو الناصِح الذي لا يغش، و الهادي الذي لا يضِل، و المُحدثُ الذي لا يكذِب، و ما جالَس هذا القرآنَ أحد إلاّ قام عنه بزيادةٍ أو نقصانٍ، زيادةٍ في هدى، أو نقصانٍ مِن عمى

-Həzrət Əli(ə) buyurur: "Bilin ki, bu Quran *(düz yola istiqamətləndirməsində)* xəyanət etməyən öyüdverən, azdırmayan bələdçi və *(söhbətində)* yalan deməyən natiqdir. Bu Quranla oturan *(onu oxuyaraq barəsində fikrə dalıb düşünən)* elə bir kəs yoxdur ki, onun yanından duranda hidayət və qurtuluşu artmamış və ya korluq və azğınlığı azalmamış olsun."[1]

[1] Mizanül-hikmə, 10-cu cild, hədis - 16413.

Quran elə bir kitabdır ki, elm əvvəlindən axırınadək onda zikr olunmuşdur. Elə bir elm yoxdur ki, Quran onun barəsində bəhs etməsin. Məsələn, “Ənam” surəsinin 59-cu ayəsində buyurulur:

ولاَ رطْبٍ ولاَ يابِسٍ إلا فِي كِتابٍ مبِينٍ

- Yerin zülmətləri içində elə bir toxum, (kainatda) yaş-quru elə bir şey yoxdur ki, açıq-aydın kitabda olmasın!

قَالَ رسولُ اللهِ(ص): من أراد عِلم الأولين و الآخِرين فَلْيثَوِرِ القرآنَ

-Həzrət Peyğəmbər(s) buyurur: “Kim öncə yaşamış insanların və sonrakıların elmini öyrənmək istəyirsə, Quranda axtarış aparsın.”[1]

قَالَ الصادِق(ع): ما مِن أمرٍ يختَلِف فيهِ اِثنانِ إلاّ و لَه أصلٌ فِي كِتابِ اللّهِ عز و جل، و لكِن لا تبلُغه عقولُ الرجالِ

-İmam Sadiq(ə) buyurur: “Elə bir mövzu yoxdur ki, iki nəfər onun barəsində fikir ayrılığına düşsün və həmin məsələnin kökü (cavabı) Allahın kitabında olmasın. Amma camaatın ağlı onu (Quranda) araşdırmaqda acizdir.”[2]

Quranın xırdalıq və incəliklərini insanlara başa salmaq isə Həzrət Peyğəmbərin(s) və Əhli-beytin(ə) öhdəsinə düşür. Biz Quranı oxuyur və tərcümə edirik, ancaq onun çox hissələrini başa düşmürük. Məsələn, insanların əksəriyyətinə qızılla sarı dəmiri göstərdikdə onlar hansının qızıl və ya adicə sarı dəmir olduğunu ayırd edə bilmirlər. Aydın məsələdir ki, qızılı müəyyən etmək zərgərin işidir. Çünki onun sənəti zərgərlikdir. Eləcə də Qurandakı bütün incə məqamları da, heç şübhəsiz, Əhli-beyt(ə) bilir. Həzrət

---

[1] Mizanül-hikmə, 10-cu cild, hədis - 16447.
[2] Yenə orada, hədis - 16413.

Peyğəmbər(s) özünün də dediyi kimi, iki əmanəti - Quranı və Əhli-beyti(ə) təkidlə bizə tapşırıb getmişdir. Çünki Quranın təfsirçisi, onun bütün incə məqamlarını bilən də Əhli-beytdir(ə). Əhli-beyt(ə), necə deyərlər, Quranın ayrılmaz tərkib hissəsidir. Qurandakı bütün incə və bizim başa düşə bilmədiyimiz bütün məsələləri Əhli-beyt(ə) bilir. Həzrət Peyğəmbər(s) Quranı gətirməklə yanaşı, onun elmini də Həzrət Əliyə(ə) öyrətmişdi. Əgər biz Qurandakı incə bir məsələni yüz ilə axtarıb tapacağıqsa, Həzrət Əli(ə) həmin məsələləri əzbər bilir.

Ömərin xilafəti dövründə bir qadın 6 aydan sonra dünyaya uşaq gətirdi. Lakin qadının əri həyat yoldaşını zinakar hesab edərək şikayət üçün Ömərin yanına gəldi. O, iddia edirdi ki, qadın ona ərə gəlməmişdən üç ay qabaq hamilə imiş və bunu ondan gizli saxlayırmış. Ömər də hamiləlik müddətinin 6 ay ola biləcəyini qəbul etməyib və hökm verib ki, onu zina ittihamı ilə daşqalaq etsinlər. Sonra bu xəbəri Həzrət Əliyə(ə) çatdırırlar. Həzrət(ə) buyurur: "O qadının heç bir günahı yoxdur və ona cəza düşmür." Ömər bunun səbəbini soruşmaq üçün bir nəfəri Həzrətin(ə) yanına göndərir. İmam(ə) buyurur: "Çünki Allah-təala "Bəqərə" surəsinin 233-cü ayəsində buyurmuşdur: "Analar öz övladlarına tam iki il müddətində süd versinlər." "Əhqaf" surəsinin 15-ci ayəsində isə belə buyurur: "Hamiləlik və uşağın süddən ayrılmasına kimi keçən müddət otuz aydır." Otuz aydan 24 ayı çıxanda 6 ay qalır ki, bu da hamiləliyin müddətidir.[1]

Deməli, əgər hamilə bir qadın 6 aylıq uşaqdan azad olsa, bu, hamiləliyin ən az müddətidir və qadının 6 aylıq uşaq doğması da mümkündür. Həzrət Əli(ə) Quranda olan

---

[1] Min bir əxlaqi hekayətlər, səh. 58.

məsələləri tam incəliyi ilə bilirdi. Hər bir məsələnin kökü Qurandadır və bizim bir məsələni bilməməyimiz buna dəlalət etmir ki, həmin məsələ Quranda yoxdur.

Bir yəhudi (rişxəndlə) Həzrət Əliyə(ə) dedi: "Sizə nə oldu ki, Peyğəmbərinizin ölümündən 25 il keçməmiş aranızda ixtilaf düşdü?" Həzrət Əli(ə) buyurdu: "Siz Nil çayından təzəcə keçib nicat tapmışdınız və hələ ayaqlarınızın yaşı qurumamış Həzrət Musaya(ə) dediniz ki, ey Musa, bizim üçün də bütdən məbud düzəlt." Sonra Həzrət(ə) bu ayəni oxudu:[1]

يا موسى اجعلْ لَنا اِلٰها كَما لَهم آلِهةٌ

-Ey Musa, onların məbudları olduğu kimi, sən də bizim üçün məbud düzəlt![2]

Odur ki, Quran elə bir hikmətli kitabdır ki, hər kim onunla ünsiyyət bağlasa, mərifəti və hikməti çoxalar, öyüd-nəsihət götürər, hidayət olunar və hər cür xəstəliklərdən şəfa tapar. Əgər insan özünü bu kitabla sığortalasa, Quran həmin şəxsi zəmanətə götürər.

Ayətullahlardan biri deyir: -Nəcəf şəhərində 90 yaşlı qoca bir kişi ilə bir evdə qalırdım. Səhər tezdən hələ hava işıqlanmamışdı və mən evdən çıxarkən gördüm ki, həmin qoca evin ön tərəfində əyləşib və kiçik bir cib Quranını oxumaqla məşğuldur. Öz-özümə təəccübləndim ki, 90 yaşında bir insan havanın bu cür ala-toran bir vaxtında kiçik və xırda hərflərlə yazılmış bu Quran kitabını necə oxuya bilir? Ona yaxınlaşıb soruşdum: "Sən bu yaşında xırda hərflərlə yazılmış Quran kitabını necə oxuyursan?" O dedi: "Quran mənim gözlərimi sığortalayıb." Soruşdum:

---

[1] Min bir əxlaqi hekayətlər, səh. 50.
[2] Əraf surəsi, 138-ci ayə.

"Bu necə ola bilər?" Dedi: "Mən cavan vaxtımda Allahla belə əhd-peyman bağladım. İlahi, mən ölənə qədər gözlərimin nurunu məndən alma. Mən də hər gün yarım cüz Quran oxuyacağam. Həmin gündən bu günə qədər cavanlıqda necə görürdümsə, indi də elə görürəm. Ən xırda yazıları belə oxuyuram, heç eynəkdən də istifadə etmirəm."

Əlbəttə, bu və buna bənzər digər əhvalatlar Quranın əzəmətini tam şəkildə sübut edə bilməz. Ona görə ki, bu kimi hallar Quranın əzəməti qarşısında çox kiçik məsələlərdir. Çünki Quranın nuraniyyət və əzəməti çox böyükdür.

**Şübhəsiz, sən (Allahın) peyğəmbərlərindənsən**

Allah-təala Qurani-Kərimin "Yasin" surəsində Peyğəmbərə(s) xitab edərək və hikmətli Qurana and içdikdən sonra buyurur: "Şübhəsiz, (ey Məhəmməd) sən (Allahın) peyğəmbərlərindənsən." Bu ayədə Həzrət Məhəmmədin(s) göndərilmiş peyğəmbərlərdən olduğu bəyan edilir. Sual oluna bilər ki, görəsən nə üçün Allah-təala and içərək buyurur ki, ey Məhəmməd, sən göndərilmiş peyğəmbərlərdənsən? Bu sualın cavabı belədir ki, həmin vaxt müşriklər də insanlar arasında əks-təbliğat aparırdılar. Onlar xüsusilə Məkkədə istəmirdilər ki, orada böyüyüb boya-başa çatan Məhəmməd(s) özünü peyğəmbər olaraq təqdim etsin. Çünki Həzrət Peyğəmbərin(s) gətirdiyi əhkam həm onlara sərf etmirdi, həm də bir sıra səbəblərə görə onun peyğəmbərliyini qəbul etmək istəmirdilər. Beləliklə onu gözdən salmaq üçün belə deyirdilər: "Məhəmməd bu sözləri özü yazır və Cəbrayılın(ə) vasitəsilə Allah-təala tərəfindən göndərildiyini iddia edir." Onlar öz gözləri ilə Həzrət Peyğəmbərin(s) ayələri oxuduğunu görür və bunu qulaqları ilə eşidirdilər.

Ərəblərin içərisində ədəbiyyatın güclü olduğu bir vaxtda hamı yaxşı bilirdi ki, Həzrət Peyğəmbərin(s) oxuduğu həmin ayələrdən üstün heç bir söz ola bilməz. Onlar öz şeirlərini yazıb Kəbədən asırdılar. Şeir və söz məclisləri təşkil edirdilər və hər bir kəs öz yazdığı şeri həmin məclislərdə təqdim edirdi. Amma Quran ayələrini eşitdikdə çox yaxşı başa düşürdülər ki, bu ayələrin qüdrət və fəsahəti o qədər böyükdür ki, yazdıqları şeirlər onlarla müqayisəyə gəlməz. Məlumdur ki, onların yazdıqları şeirlər gül, bülbül, zülf, xal və s. kimi məsələlərdən bəhs edir. Amma Həzrət Peyğəmbər(s) Quran ayələrini oxuduqca həmin sözlərin təsirindən insanların bədənlərinin tükləri biz-biz olarmış. Belə ki, ayələri eşitdikdə qeyri-ixtiyari olaraq ədəblə əyləşib qulaq asarmışlar. Vəlid ibn Müğeyrə kimi bir insan Həzrət Peyğəmbərə(s) qulaq asdıqdan sonra öz tərəfdarlarına deyirmiş ki, onun sözlərindən üstün söz ola bilməz. Sirr deyil ki, Vəlid ərəb ədəbiyyatını o qədər güclü bilirmiş ki, ona "Reyhanətul-ədəb" ("Ədəbiyyatın gülü") ləqəbi vermişdilər. Vəlid Quran ayələrini eşitdikdən sonra öz adamlarına bu Kitabın güclü və üstün sözlərdən ibarət olduğunu deyərkən onların vəziyyəti çox pis olurmuş. Ona görə də onlar Məhəmmədin(s) peyğəmbər olduğunu inkar etməklə, eləcə də oxuduğu ayələri "özü yazıb gətirmişdir" - deməklə onu gözdən salmağa cəhd edir və öz vəziyyətlərini qoruyub saxlamağa çalışırdılar.

Burada yaxşı olar ki, iki mətləbə diqqət yetirək. Həmin mətləblərdən biri budur ki, Həzrət Peyğəmbər(s) adi insanlar kimi məktəb oxumamış və müəllim görməmişdir. O, əlinə qələm götürüb yazı yazmağı bilmirdi. Yəni o vaxtkı dövrü nəzərə alsaq, adi uşaqlar kimi məktəbə getməmiş və dərs oxumamışdı. Bu məsələni hamı çox yaxşı bilirdi. Allah-təala "Ənkəbut" surəsinin 48-ci ayəsində açıq-aydın

şəkildə belə buyurur:

وما كُنت تتلُو مِن قَبلِهِ مِن كِتابٍ ولَا تخطه بِيمِينك

-Sən bu Qurandan öncə heç bir yazı və kitab oxumurdun. Və öz əlinlə heç bir yazı yazmırdın.

İkinci mətləb isə budur ki, əvvəldən axıra qədər bütün elmlərin hamısının Quranda cəmləşməsi onun həqiqətən də Allah-təala tərəfindən göndərildiyini, habelə Həzrət Məhəmmədin(s) də Onun Rəsulu olduğunu deməyə əsas verir. Deməli, Quranın Allah tərəfindən nazil olunması məsələsində heç bir şəkk-şübhə qalmır. Yəni Quranın hikmət və əzəməti çox böyükdür. Quran başdan-ayağa elm mənbəyidir. O dövrdə insanların Quranın elmi haqda məlumatları yox idi. Onlar yalnız ədəbiyyatla məşğul olur və ədəbiyyata üstünlük verirdilər. Elm yavaş-yavaş inkişaf etdikcə Quranın elmi tərəfləri də üzə çıxmağa başladı.

Bir zamanlar xristian aləmində Ptolomey kimi bir alim dünyaya bildirdi ki, kim Yer kürəsinin hərəkət etdiyini iddia etsə, onun dilini kəsmək lazımdır. Çünki o, Yer kürəsinin sabit qaldığını iddia edirdi. Beləcə, hər kim Yer kürəsinin hərəkət etdiyini deyirdisə, onu cəzalandırırdılar. Qaliley də həmin alimlərdən idi ki, Yer kürəsinin hərəkətdə olduğunu sübut etmişdi. Onu da edam etmək istəyərkən fikrini dəyişərək deyir ki, mən sözümü geri götürür və tövbə edirəm. Onun üçün kağız- qələm gətirirlər və o, tövbəsini yazılı şəkildə təqdim edir. Hazırda onun yazdığı tövbə müxtəlif kitablarda qeyd olunmuşdur.

Qurani-Kərim nazil olunduqdan sonra insanları bütün elmlər haqda açıq-aydın şəkildə məlumatlandırdı. Məsələn, “Nəml” surəsinin 88-ci ayəsində oxuyuruq:

وترى الْجِبالَ تحسبها جامِدةً وهِي تمر مر السحابِ

-Dağları görüb, onları hərəkətsiz və donmuş zənn edərsən. Halbuki onlar buludun keçdiyi kimi hərəkət edərlər.

Quran müxtəlif elmi ayələri ilə insanların başlarını göylərə qaldırdı. İslam zühur etdikdən sonra böyük-böyük alimlər meydana çıxdı. Xüsusilə İmam Sadiq(ə) minlərlə alim yetişdirmişdir. Fizika, kimya və digər elmlər inkişaf etməyə başladı. Vill Durant tanınmış amerikalı alimlərdən biridir. Onun yazdığı tarix kitabının 11-ci cildində İslamın tərbiyə edib yetişdirdiyi alimlərin adları yazılmışdır. Hansı alimin hansı elmin təməlini qoyduğunu və müvafiq sahədə necə inkişaf getdiyini qələmə almışdır.

Beləliklə, bütün elmlərin hamısının kökünün Quranda olması, eləcə də min illər keçdikcə və elm inkişaf etdikcə onun əzəmətinin nə qədər böyük olduğu məlum olduqca, müəllim görməyən, yazıb-oxumaq bilməyən bir insan vasitəsilə onun insanlara çatdırılması Qurani-Kərimin həqiqətən də Allah-təala tərəfindən nazil edilməsi məsələsində heç bir şəkk-şübhə yeri qoymur. Yəni Qurani-Kərim insan tərəfindən yazılmış bir kitab deyildir.

O zamanlar böyük-böyük ədəbiyyatçıların bir yerə toplaşaraq Quran ayələrinə bənzər iki ayəni yaza bilmədikləri bir halda, yazıb-oxumağı bacarmayan bir insan vasitəsilə belə bir müqəddəs Kitabın göndərilməsi əlbəttə ki, Quranın Allah-təala tərəfindən nazil olunduğunu bir daha təsdiq edir. Həmçinin Həzrət Məhəmmədin(s) də Allahın Rəsulu olmasında heç bir şəkk-şübhə yeri qoymur. Həzrət Məhəmməd(s) Allahın Peyğəmbəridir və onun peyğəmbərliyi də əbədidir. Onun əbədi olan möcüzəsi isə kətirdiyi həmin bu kitabdır.

Hər bir peyğəmbərin möcüzəsi onun öz yanında olmuşdur. Həzrət İsa(ə) ölüləri dirildirdi. Həzrət İbrahim(ə) tonqalda yanmadı. Həzrət Musa(ə) əlini yaxasına salıb

çıxartdıqda əli işıq saçar və çəliyi isə əjdahaya dönərmiş. Həmçinin onların digər möcüzələri də var idi. İslam Peyğəmbəri(s) hamıdan əzəmətli, şan-şöhrətli və bütün insanlara əbədi bir peyğəmbərdir. Onun möcüzəsi isə gətirdiyi Qurani-Kərimdir. Özü əbədi peyğəmbər olduğu kimi, möcüzəsi də əbədidir. Maraqlısı budur ki, Allahın onun gətirdiyi möcüzəyə and içməsi bunu sübut edir ki, heç bir kəs bu kitaba müdaxilə edərək öz fikrini yürüdə bilməyəcək. Quran nazil olduğu gündən bu vaxtadək onun əleyhinə məntiqi və elmi bir irad irəli sürən olmayıb, bundan sonra da olmayacaqdır. Elmin inkişaf etdiyi bu dövrə qədər nə qədər alimlər gəlib-gediblərsə, heç biri Quranda bir nöqsan tapa bilməmişdir. Bundan sonra elm yenə də nə qədər inkişaf etsə, qiyamətə qədər onda zərrə qədər də olsa irad tuta bilməyəcəklər. Quran İslam Peyğəmbərinin(s) əbədi möcüzəsidir və Allah-təala bu möcüzəyə and içməklə Həzrət Məhəmmədin(s) peyğəmbər olduğunu təkidlə bildirir.

### Rəsul və nəbinin fərqi

Burada bir mətləbi də diqqətinizə çatdırmaq istərdim. Həmin mətləb də budur ki, ayədə İslam Peyğəmbərinin(s) mürsəl peyğəmbərlərdən olduğu bəyan edilir. Sual oluna bilər ki, Quranda bəzən “ənbiya”, bəzən də “mursəlin” kəlmələrinə rast gəlirik. Hər ikisinin də mənası peyğəmbər deməkdir. Əgər belədirsə, bəs onların fərqi nədir? Bu sualın cavabı belədir: “Nəbi mükəmməl bir insandır ki, Allah onu mələklərin vasitəsilə xəbərdar edir. Rəsul da həmin mənadadır. Amma əgər bu insan özü üçün məbus olsa, ona yalnız nəbi demək olar. Yox, əgər insanlar üçün göndərilmiş olsa, o zaman rəsul peyğəmbərlərdəndir. Belə olduqda bütün mürsəl peyğəmbərlər rəsul olmaqla yanaşı,

həm də nəbidirlər. Amma nəbilərin də hamısı rəsul deyil. Bir misalla buna aydınlıq gətirək. Topların hamısı yumrudur. Amma hər yumru top deyil. Rəsulların da hamısı nəbidir, amma hər bir nəbi rəsul deyil.

Zürarə deyir: "Məryəm" surəsinin 51-ci ayəsi haqda («وكانَ رسولًا نبيا» "Allahın seçilmişi, elçi(si) və xəbər gətirəni idi") İmam Baqirdən(s) soruşdum: Ey Allahın höccəti, rəsul və nəbinin fərqi nədir? İmam(ə) buyurdu:

النبي الّذي يرى في منامِهِ و يسمع الصوت و لا يعاين الْملَك و الرسولُ الّذي يسمع الصوت و يرى في الْمنامِ و يعاين الْملَك

-Nəbi o kəsdir ki, yuxuda xəbərdar olur və səs eşidir, amma mələyi görmür. Rəsul isə o kəsdir ki, səsi eşidir, yuxuda xəbərdar olur və mələyi görür."[1]

Abuzər Ğəffari deyir: "Günlərin birində Həzrət Peyğəmbərdən(s) soruşdum: Peyğəmbərlərin sayı nə qədərdir? Həzrət(s) buyurdu: Yüz iyirmi dörd min nəfər. Soruşdum: Onlardan neçəsi mürsəl peyğəmbərdir: Həzrət(s) buyurdu: Üç yüz on üç nəfəri."[2]

Deməli, yüz iyirmi dörd min peyğəmbərin 313 nəfəri mürsəl peyğəmbər olmuşdur. Bu mürsəl peyğəmbərlərin içərisində də 5-i (Nuh(ə), İbrahim(ə), İsa(ə), Musa(ə) və İslam Peyğəmbəri Məhəmməd(s) Allahın salamı olsun onlara) ülul-əzm (şəriət sahibi) olmuşdur ki, "Əhzab" surəsinin 7-ci və "Şura" surəsinin 13-cü ayələrində bu bəyan edilir. Digər mürsəl peyğəmbərlər də onların şəriətlərini təbliğ etmişlər. Məsələn, İsa Peyğəmbərin(ə) dövründə, yaxud ondan sonra gələn digər peyğəmbərlər onun dinini təbliğ edirdilər.[3]

---

[1] Üsuli-Kafi, 1-ci cild, səh. 248.
[2] Səfinətül-bihar, 2-ci cild, səh. 565.
[3] Kəlimut-təyyib, səh. 143.

**İslam Peyğəmbəri(s) xilqətdən öncə nəbi idi**

Burada İslam Peyğəmbəri(s) barədə bir məsələyə də toxunmaq yaxşı olardı. Həmin məsələ budur ki, hədislərə əsasən İslam Peyğəmbəri(s) dünyaya gəlməmişdən əvvəl Nəbi idi. O, miladi təqvimi ilə 571-ci ildə dünyaya göz açdı. Dünyaya gələndən 40 yaşına qədər də nəbi peyğəmbər idi. Alimlərin bildirdiyinə əsasən 40 yaşına qədər Həzrətə(s) gələn vəhylərə təkcə onun özü əməl edirdi. 611-ci ildə 40 yaşında ikən Həzrət Məhəmməd(s) peyğəmbərliyə seçildi və mürsəl peyğəmbər oldu. Həzrət Peyğəmbər(s) buyurmuşdur:

كُنت نَبِيّا وآدم بين الْماءِ والطِّين

-Adəm su ilə torpağın arasında (palçıqdan düzələrkən) mən nəbi (peyğəmbər) idim.

Deməli, İslam Peyğəmbəri(s) həm xilqətdən öncə, həm də dünyaya gəldikdən sonra 40 yaşınadək nəbi peyğəmbər idi. Ona vəhy olunan ilahi əmrlərə özü əməl edərdi. Həzrət Əli(ə) onun barəsində belə buyurur: "Peyğəmbər(s) süddən kəsildikdən sonra Allah-təala ən böyük mələyə tapşırdı ki, gecə-gündüz onun yanında olsun və onu yaxşı yollara, saleh əməllərə, gözəl əxlaqa sövq etdirsin."[1]

Həzrət Məhəmməd(s) hələ peyğəmbərliyə məbus olmamışdan öncə 40 yaşına qədər Allah-təala mələklərə onun yanında olmağı tapşırmışdı ki, onu gözəl əxlaqa, yaxşı yollara, saleh işlərə sövq etdirsinlər. Bu müddət ərzində Həzrət Peyğəmbərin(s) həmin mələkləri görüb-görməməsi mühüm deyil. Nəbi sözünün mənasına əsasən Peyğəmbər(s) mələkləri görməsəydi də belə onların səslərini eşidirdi. Hətta Həzrət Peyğəmbər(s) özü buyurmuşdur ki,

---

[1] Müəmmayi 14 məsum, səh. 27.

Rəbbim məni qırx il tərbiyə etmişdir. Bu qırx illik tərbiyədən sonra isə məni rəsul peyğəmbər olaraq təyin etdi.

### (Ey peyğəmbər, sən) düzgün olan bir yoldasan

Allah-təala bu mübarək surədə Həzrət Peyğəmbərə(s) xitab edərək Qurana and içir və sonra isə buyurur ki, həqiqətən, sən mürsəl peyğəmbərlərdənsən və düzgün olan bir yoldasan. Yəni sən və sənin risalətin düzgün yolda qərar tutub. Deməli, Allah-təala Həzrət Peyğəmbərə(s) xitab edərək bildirir ki, onun özü, risaləti və təbii ki, ona tabe olan ümməti də "sirati-müstəqimdə" düzgün yoldadır. Bu yolun başlanması aydındır, amma həmin yolun harada qurtaracağı insanda sual doğurur. Sözügedən sualın cavabı ayənin özündədir. Burada çox yaxşı olardı ki, həm "sirati-müstəqim" barəsində, həm də bu yolun axırının harada qurtaracağı haqda bir qədər bəhs edək. Belə ki, bu yolu iki qismə ayırmaq mümkündür. Yaxud belə deyək ki, Həzrət Peyğəmbərin(s) gətirdiyi, onun özünün və ona iman gətirənlərin qərar tutduqları həmin yol iki qisimdir. Qeyd olunan yolun bir hissəsi bu dünyadadır ki, İslam Peyğəmbəri(s) insanları həmin yola dəvət etdi və axirətdə də bu yolun sonu müəyyən edilməlidir.

İmam Həsən Əskəri(ə) bir hədisdə sözün çox hissəsini danışdıqdan sonra "sirati-müstəqim" haqda belə buyurur:

والصِّراطُ الْمستقِيم هو صِراطان؛

صِراطٌ فِى الدنيا و صِراطٌ فِى الآخِرة

-Sirati-müstəqim iki yoldur. Bir yol bu dünyada, digəri isə axirətdədir.

Hədislərdə mövcud iki yolun hər biri barədə açıqlama verilmişdir. Sual oluna bilər ki, bu dünyadakı

düzgün yol hansıdır? Müvafiq sualın qısa cavabı belədir: "Bu yol fikrimizdə canlandırdığımız cığır, yaxud asfalt yol kimi deyildir. Peyğəmbərin(s) bizi çəkib gətirdiyi bu yol insana insanlığın öz qiymətini verir." Düzgün yol odur ki, insan öz qiymətini tapa bilsin. Məsələn, bir sənətkar öz əlləri ilə bir əsər yaradır. Əgər onun əsərinə öz qiymətini versələr, onu həqiqi mənada qiymətləndirsələr, demək onun işi məqsədə çatmışdır. Yəni həmin əsəri nə üçün düzəltmişdisə və həmin məqsəd üçün də istifadə olunursa, deməli, məqsədinə çatmış və öz qiymətini almışdır.

İnsanı yaradan Allahdır. İnsanın yaradılışı Allahdan başlanır və yaradılmasında da məqsəd vardır. Biz Allah-təala tərəfindən gəlmişik və Ona tərəf də qayıdırıq.

إِنا لِلّهِ وإِنا إِلَيهِ راجِعونَ

-Həqiqətən, biz Allahınıq və həqiqətən, Ona tərəf qayıdacağıq.

Odur ki, insanlar yarandıqdan sonra əgər Allahın razılığını tapa bilsələr və bu razılıqla Ona yaxınlaşa bilsələr, həqiqi və düzgün yol da budur. Hər kim Allaha nə qədər yaxınlaşırsa, bir o qədər də onun qiyməti artır. İyirmi dərəcə yaxınlaşanın qiyməti iyirmi, əlli dərəcə yaxınlaşanın qiyməti əlli, doxsan doqquz dərəcə yaxınlaşanın qiyməti doxsan doqquz dərəcədir. Bu məsələdə hamının qiyməti eyni deyildir. İnsan elə bir varlıqdır ki, onun qiymətini kimsə müəyyən etmir. İnsanın qiyməti öz yaxınlaşma dərəcəsindən və mərifətindən asılıdır.

Uzun illər bundan öncə bir alman aliminin yazdığı bir məqaləni oxudum. O, insanın qiyməti barədə tədqiqat aparmış və insanın vücudunda olan materialları dünya bazarındakı qiymətlərlə hesablamışdır. Məsələn, insanın bədənində olan neçə kiloqram yağ, duz, dəmir və s.

materialları hesablayaraq dünya bazarındakı qiymətlərlə müqayisə etmiş, nəticədə bir insanın qiymətinin 80 marka olduğunu özü üçün müəyyənləşdirmişdir. Amma belə düşüncəli insanlar üçün 80 marka çoxdur. Çünki o, insanın necə bir varlıq olduğunu bilmir. İnsanı material kimi qəbul edən kimsənin qiyməti həqiqətən də 80 markadan da ucuzdur.

Həzrət Əli(ə) buyurmuşdur: "Hər kimin dünyada hədəfi yalnız yemək və qarnını doyurmaq olsa, o insanın qiyməti qarnından çıxanın dəyəri qədərdir." Göründüyü kimi, həmin alman alimi insanın necə bir varlıq olduğunu düzgün başa düşmədiyi üçün onun hesablamaları da düzgün deyil. Əgər o, insanlığın mənasını başa düşsə, insanın nə üçün yarandığını anlaya bilsə, o zaman başa düşər ki, bir insanın dəyər və qiyməti nə qədərdir. Həzrət Əli(ə) buyurmuşdur: "İnsanın ən az qiyməti cənnətdir. Özünüzü cənnətdən ucuz qiymətə satmayın." İnsan var ki, özünü cənnətdən daha ucuz, insan da var ki, özünü cənnətdən baha qiymətə satır. İnsanın mərifəti çoxaldıqca, özünü və Allahı tanıdıqca başa düşür ki, cənnət onun üçün çox az qiymətdir. Məsələn, Fironun həyat yoldaşını çarmıxa çəkərkən Allahla belə minacat edirdi: "Ey Rəbbim, mənim üçün Öz yanında *(Öz cəlal və rəhmətinin yaxınlığında)* cənnətdə bir ev tik!" Yəni əgər cənnətdə sənin cəlal və rəhmətin həmişə mənim də deyilsə, o cənnəti istəmirəm. Mən Sənin özünü istəyirəm. Mən sənin lütfün, mərhəmətin və inayətinin yanında olmaq istəyirəm. Bu əzəmətli xanımın mərifət və irfanı o dərəcədə yüksək idi ki, özünü cənnətdən baha qiymətə satmışdı. Əsl irfan da elə budur.

İrfan odur ki, insan mərifət qazanıb dünyaya nə üçün gəldiyini başa düşsün və həmin hədəfə necə çatacağını

öyrənib bu yolla getsin. Hansı yollarla irfana çatmaq lazımdırsa, insan gərək həmin yolları düzgün şəkildə öyrənsin. Əyri yollarla irfana çatmaq xəyalına düşmək isə şeytanın hiylələrindən başqa bir şey deyildir. İnsan elə düşünməməlidir ki, bir neçə zikri deməklə irfana çatacaq və onun bəsirət gözü açılacaqdır. İrfan odur ki, insan Allahı axtara və özünü Ona yaxınlaşdıra bilsin. Allahın nuraniyyət bəxş etdiyi və bəsirət gözü açılan insanların çoxu təkcə zikrlə bu məqama çatmamışlar. Onlar günahla qarşılaşdıqda Allahı yad edib həmin günahdan qaçdıqlarına görə Allah onların gözlərini açmışdır. Məsələn, Rəcəbəli Xəyyatın əhvalatına diqqət yetirdikdə görürük ki, onun irfana çatmasına məhz günahdan çəkinməsi səbəb olmuşdur. O deyir:

-Günlərin birində bir xanım mənim yanıma gəldi. Onun söhbətlərindən başa düşdüm ki, mənimlə yaxınlıq etmək istəyir. Otaqda ikimizdən başqa heç bir kəs yox idi. Onunla olmaq üçün bütün şərait hazır idi. O, mənim qəlbimi yavaş-yavaş ələ almağa başladı. Şeytan mərəkəni o qədər qızışdırmışdı ki, həmin məsələnin bir addımlığında idim. Birdən-birə sanki yuxudan ayıldım. Öz-özümə dedim: Sən kimin qarşısında günah etmək istəyirsən? Xaliqin gözü önündə nə iş görürsən? Şeytan hər bir şəraiti hazır edib ki, uca yaradanın qarşısında günah edim? Heç bir vaxt bu işi görməyəcəyəm. Əstəğfirullah deyib, Allaha pənah apardım və Onun rizayətinə görə şeytanın tələsini sındırıb otaqdan çıxdım. Allah mənə nə verdisə, həmin gündən sonra bəxş etdi.

İnsan səhərdən axşama qədər iş yerində, küçədə, bazarda və s. yerlərdə telefon, internet, SMS və s. kimi rabitə vasitələrilə naməhrəmlərlə əlaqə yaradıb sonra da Allaha bir neçə zikr etməklə irfana çatmaq istəyirsə, bu, bütpərəstlikdən

savayı başqa bir şey deyildir. İrfana çatmaq, arif olmaq istəyən bir insan ilk növbədə Allahın xoşuna və acığına gəldiyi əməlləri öyrənməli, öyrəndikdən sonra isə onlara riayət etməlidir. Birinin evinə qonaq gedən insan ev yiyəsinin acığına gələn işləri görərmi? Bütün aləm Allahındır və insan da bu dünyada qonaqdır. Buna görə də hər bir kəs ev yiyəsinin acığı gəldiyi əməlləri etməməlidir. Onun nədən xoşu gəlirsə, həmin əməlləri etməlidir. Allah-təala insan üçün bu dünyanı dənizlər, meşələr, dağlar və s. kimi gözəlliklərlə bəzəmişdir. Yerdə və göydə olanların hamısını məhz insan üçün yaratmışdır. İnsanı isə Özü üçün yaradıb. Buna görə də insan baxmalıdır ki, Allah hansı işləri çox sevir və nədən acığı gəlir?

Zahirini bəzəməklə insan Allahı özündən razı sala bilməz. Çünki Onun insanın daxilindən xəbəri var. Allah o ev yiyələrindən deyil ki, qonağın içindən xəbəri olmasın. Allah hətta gözlərin xəyanətini də bilir. Gözlərin xəyanəti odur ki, insan gözünün ucu ilə kimlərəsə baxır, amma özünü baxmayanlar kimi göstərir. Məsələn, bir nəfər cibindən bir kağız çıxarıb oxumağa başlayır. Yanında duran şəxs isə gözünün ucu ilə həmin yazılara baxır və özünü elə göstərir ki, guya baxmır. Buna gözün xəyanəti deyilir. Heç bir kəs bunu hiss etməsə də belə, Allahın ondan xəbəri vardır. İnsanın kiçikdən böyüyə bütün əməlləri yazılıb qeydə alınır. Allah insana hətta şah damarından da yaxındır. Elə isə hər bir şeyi bilən və heç bir şeyin ondan gizli qalmadığı Allahdan nəyi gizlətmək olar? Allahla oyun oynamaq mümkün deyildir. Hər kim Allahla oyun oynamaq istəyibsə, kürəyi yerə dəyib. Tarix boyu müşahidə etmişik ki, Allahla, Onun yolu ilə, Peyğəmbər və höccəti ilə oyun oynayanların hamısı zillətə düçar olublar.

Buna görə də ən yaxşı yol budur ki, insan Allahla

sədaqətlə rəftar etsin. Qiyamət günündə insanların sədaqətləri onlara mənfəət gətirəcəkdir. Sədaqət odur ki, insan Allah üçün həqiqi bəndə olsun. Allahın xoşuna və acığına gələn işləri öyrənib onlara riayət etsin. Allah xoşuna və acığına gələn bütün məsələləri müqəddəs insan və müqəddəs kitab vasitəsilə bəndələrinə öyrətmişdir. Allahın xoşu gələn işlər vacib, acığı gələn işlər isə haram əməllərdir. Buna görə də Allahla dostluq etmək istəyən hər bir insan Allahın buyurduğu vacibləri yerinə yetirməli, haramlardan isə çəkinməlidir. İnsan Allaha yalnız bu yolla yaxınlaşa bilər. Bundan başqa ikinci bir yol yoxdur.

Odur ki, Həzrət Peyğəmbərin(s) müəyyənləşdirdiyi yol düzgün yoldur. Hər kim bu yola qədəm qoyursa, Allahın razılığını əldə edərək Ona yaxınlaşmış olur. Hər kim Allaha nə qədər yaxındırsa, qiymət və dərəcəsi də bir o qədər yuxarıdır.

Gündə on dəfə Allahdan bizi düz yola hidayət etməsini diləmək bizə son dərəcə vacibdir. Odur ki, gündəlik vacib namazlarda "Həmd" surəsini oxumaq bizə vacib buyurulmuşdur.

اهدِنا الصراطَ الْمستقِيم. صِراطَ الذِين أنعمت علَيهم غَيرِ الْمغضوبِ علَيهم ولَا الضالين

-Bizi doğru (düz) yola yönəlt! Nemət verdiyin kəslərin yoluna! Qəzəbə düçar olmuşların və (haqdan) azmışların (yoluna) yox!

Həzrət Peyğəmbər(s) bunun mənasını bizim üçün belə açıqlamışdır:

**«إهدِنا»** أرشِدنا **«الصراط المُستقيم»** يعنِي دِين الإسلامِ؛ لأن كُل دِينٍ غير الإسلامِ فَلَيس بِمستقيمٍ الذي ليس فيِه التوحيد **«صِراط الذين**

**أنعمت عليهم»** يعني بهِ النبيين و المؤمنين الذين أنعم اللّهُ عليهم بالإسلام و النبوةِ **«غير المغضوب عليهم»** يقولُ: أرشِدنا غير دينِ هؤلاءِ الذين غَضِبت عليهم و هم اليهود **«و لا الضالين»** و هم النصارى.

**«إهدِنا»** - “Bizi hidayət et”, yəni yönəlt. **«الصراط المُستقيم»** - “Doğru yola”, yəni İslam dininə. Çünki İslamdan başqa hər bir din “sirati-müstəqim” deyildir. Ona görə ki, onlarda tövhid yoxdur. (Doğru yol tövhiddən başlanır. Ona görə ki, tövhidi qəbul edən insan Allahın göndərdiyi peyğəmbəri, nazil etdiyi kitabı və peyğəmbərin canişinlərini də qəbul edər. Tövhidi qəbul etməyən isə bunların heç birini qəbul etməz.) **«صِراط الذين أنعمت عليهم»** - “o kəslərin yoluna ki, Öz nemətini onlara vermisən”, yəni peyğəmbərlər və (onlara xalis) iman gətirənlər ki, Allah onlara İslamın və nübüvvətin nemətini vermişdir. (“Sirati-müstəqim” Peyğəmbər və İslamın yoludur. Peyğəmbərə(s) tabe olan insanlar onun nübüvvətinin yolundadır). **«غير المَغضوب عليهم»** - “qəzəbə düçar etdiyin kəslərin yoluna yox”, yəni İlahi, bizi qəzəb etdiyin insanların dininə yönəltmə. Allahın qəzəb etdiyi kəslər isə yəhudilərdir. **«و لا الضالين»** - “yolunu azmışlarların yoluna yox”, yəni yolunu azmışlar nəsranilərdir.[1]

Deməli, İslam Peyğəmbərinin(s) qarşısında bir tərəfdən Allahın qəzəb etdiyi yəhudilər, digər tərəfdən isə yolunu azmış nəsranilər cəbhə düzəldərək onun əleyhinə işlər gördülər. Doğru yol həmin yoldur ki, Allah-təala İslam Peyğəmbərinə(s) və ona tabe olanlara inayət etmişdir. Doğru yol odur ki, nübüvvət, İslam və əsasən də tövhid onun içindədir. Buna görə də Allah-təala “Yasin” surəsində buyurur

[1] Mizanül-hikmə, 7-ci cild, hədis - 10479.

ki, “Ey Peyğəmbər(s), sən həqiqətən də doğru olan bir yoldasan.” Deməli, Həzrət Peyğəmbərə(s) tabe olanların hamısı düz yoldadırlar.

Qeyd olundu ki, İslam Peyğəmbəri(s) bu yola Allahın əmri ilə qədəm qoymuşdur. Amma sual olunur ki, bəs bu yolun sonu haradır? Həmin sualın cavabını əldə etmək üçün məsum imamlarımız hədislər vasitəsilə bizə doğru yolu göstərmişlər. Onlar həmin yolu iki qismə ayıraraq bildirmişlər ki, Həzrət Peyğəmbərin(s) başladığı bu yol iki qismə bölünür. Bir qismi bu dünyada, digəri isə axirətdədir. İnsanlar bu dünyada ikən həmin yolda qərar tutmalıdırlar. Həzrət Peyğəmbər(s) də insanları bu yola dəvət etmişdir. Çünki bu yolda hərəkət, zirəklik və nuraniyyət vardır. Yolun axırı da aydın və işıqlıdır. Həmin yol tənbəllərin yolu deyildir. Şəhvətpərəst, qarınqulu, eyş-işrət içində yaşayan insanların yolu deyildir. Bu yol heyvaniyyətin yox, insanlığın yoludur.

**Bu dünyadakı yol**

Quran ayələrinə diqqət yetirdikdə bu dünyada "sirati-müstəqim"in, yəni Həzrət Peyğəmbərin(s) gətirdiyi və müəyyənləşdirdiyi yolun mənasını açıq-aydın şəkildə görmək mümkündür. "Nisa" surəsinin 69-cu ayəsində oxuyuruq:

ومن يطع الله والرسول فأولـئك مع الذين أنعم الله عليهم من النبيين والصديقين والشهداء والصالحين وحسن أولـئك رفيقًا

-Allaha və Onun Peyğəmbərinə itaət edənlər (dünya və axirətdə) Allahın nemət verdiyi kəslərlə – peyğəmbərlər, doğruçular, şəhidlər və saleh insanlarla – birlikdədirlər. Onlar gözəl dostlardır.

Allaha və Onun Peyğəmbərinə(s) sədaqətlə iman gətirib ona itaət edənlər peyğəmbərlərin, sədaqətli insanların, şəhidlərin və saleh insanların cərgəsində qərar tuturlar. Çünki Allah-təala onlara Öz nemətini (düzgün yolunu) inayət etmişdir. Əgər bir insanın Allahın yoluna imanı olmasa, o zaman bu yol uğrunda canını fəda etməz. Allahın yolunda döyüşüb şəhid olan insanların əzəməti ona görə böyükdür ki, onlar tutduqları yolu tanımış və ürəkdən ona iman gətirmişlər. Onların bu yolda olan imanları o qədər möhkəmdir ki, heç bir kəs onları bu yoldan döndərə bilməz. Məsələn, bir nəfər Şamaxıya getmək istəyir. Ondan soruşurlar: "Sən yolu tanıyırsanmı?" Deyir: "Mənə bu yolun Şamaxı yolu olduğunu deyiblər." Bir uşaq yolun yarısında ona yaxınlaşaraq deyir: "Əmi, sənin getdiyin bu yol Şamaxı yolu deyil." Həmin şəxs uşağın sözünü eşitdikdə çaşbaş qalır. Bir uşağın sözü ilə ona görə tərəddüd içində qalır ki, yolu tanımır və getdiyi yola da arxayın deyil. Əgər insan getdiyi yolda tərəddüd və şübhə etsə, kiçik bir uşağın sözü ilə də çaşbaş vəziyyətdə

qalacaqdır. Bir də var ki, insan Şamaxıya dəfələrlə getdiyi üçün yolu əlinin içi kimi tanıyır. Getdiyi yolun harada bitəcəyini də özü yaxşı bilir. Hətta yolda olan bütün çayxana, yeməkxana və digər obyektlərin yerlərindən də xəbərdardır. Bilir ki, getdiyi yolla məqsədinə çatacaq. Əgər belə bir insana bir uşaq yox, on nəfər ağsaqqal da desə ki, yolu səhv gedirsən, yenə də öz yolundan dönməyəcəkdir. Çünki hara getdiyinə tam əminliklə arxayındır.

Bu baxımdan şəhidin məqamı bir cəhətdən ona görə üstündür ki, onun tutduğu yola möhkəm imanı vardır. Ürəyində iman və "sirati-müstəqim"ə mərifəti olan bir insan canını ona fəda edər, amma yolundan dönməz. Yəni bu yolu canı bədənindən çıxana qədər müdafiə edər.

Bəzi insanlar tutduqları yolu iman və mərifətlə deyil, onun-bunun sözləri ilə gedirlər. Azacıq çətinliyə düşdükdə və kimsə ona göz ağartdıqda, tez yolundan çıxır və bütün imanını danmağa məcbur olur. Çünki bu insan tutduğu yolun ləzzətini dadmır və axırını görmür. Amma yolu imanla tanıyıb mərifətlə gedən insanları tikə-tikə doğrasalar, yenə də bu yoldan əl çəkməzlər. Belə insanların ən şərafətlisi və ən görkəmliləri İmam Əli(ə), İmam Həsən(ə), İmam Hüseyn(ə) və digər imamlarımızdır. Bizim iman və mərifətimiz hara, onların mərifəti hara? İmam Hüseyn(ə) Kərbəlada düşmənlərin gözlərinin içinə baxa-baxa çox açıq şəkildə belə buyurdu:

إِنْ كانَ دِين محمدٍ لا يستِقيم إِلاّ بِقَتِلي ياصيوف خذِيني

-Əgər cəddim Məhəmmədin dini mənim ölməyimlə diri qalacaqsa, elə isə ey qılınclar, doğrayın məni!

İmam Hüseynin(ə) getdiyi yola iman və mərifəti var idi. Bu yolun haradan başlanıb, harada qurtaracağını çox yaxşı bilirdi. Əgər bir insan getdiyi yolu ovcunun içi kimi

bilirsə, hətta yüz ağsaqqal da desə ki, "yolu səhv gedirsən", o, yenə də yolundan dönməyəcəkdir. Çünki getdiyi yolu çox yaxşı tanıyır. Neçə-neçə ağsaqqal və böyük səhabələr İmam Hüseynə(ə) getməməyi məsləhət görürdülər. Onlar deyirdilər ki, Kufəyə yox, Yəmənə get. Orada sənə hörmət bəsləyərlər və qayğına qalarlar. İmam Hüseyn(ə) onların sözlərini dinləyir və çoxuna da cavab vermirdi. Bəziləri də İmama(ə) "Nə üçün gedirsən?" - deyə soruşduqda Həzrət(ə) belə buyurmuşdu: "Dünya o qədər alçaqdır ki, Yəhya Peyğəmbərin(ə) başını kəsib ən alçaq bir insanın qarşısına qoydular."

İmam Hüseyn(ə) tarixdə baş vermiş bu hadisədən, yəni Yəhya Peyğəmbərin(ə) başının kəsilməsindən söz açmaqla, şübhəsiz ki, öz vəzifəsindən və tutduğu bu yolun axırından, onun nuraniyyətindən bəhs edirdi. İmam(ə) daha sonra onlara buyurdu: "Siz elə bilirsiniz ki, mən hara getdiyimi bilmirəm? Mən indidən görürəm ki, Kufənin ac qurdları öz murdar qarınlarını mənim bədənimin əti ilə doyururlar." İmam Hüseyn(ə) tutduğu yolun izzət, şərəf və səadət yolu olduğunu yəqin bilirdi. Bilirdi ki, bu yol Allahın və peyğəmbərlərin yoludur. Bilirdi ki, bu yolun axırında cənnət və xoşbəxtlik var. Buna görə də onu bu yoldan heç bir kəs saxlaya bilmədi. Əgər hər bir insan bu yola qədəm qoysa və yolunda möhkəm olsa, dünyanın bütün var-dövlətini onun ayağının altına töksələr, yenə də yolundan dönməyəcək.

Yenicə nişanlanmış cavan bir oğlan Həzrət Peyğəmbərə(s) iman gətirmişdi. Ata və anası bundan çox narahat olmuşdular və onun müsəlman olması ilə heç cür razılaşmırdılar. Oğlanı Peyğəmbərdən(s) və İslam dinindən ayırmaq üçün hər nə etdilərsə xeyri olmadı. Oğlan tutduğu yoldan heç bir vəchlə dönmək istəmirdi. Axırda atası belə

bir qərara gəlir ki, oğlanın nişanlısını tovlayıb onun üstünə salsınlar. Yəni qız oğlana desin ki, sən müsəlman olduğun üçün mən sənə ərə getməyəcəyəm. Mən səni o vaxt sevirdim ki, müsəlman deyildin və namaz qılmırdın. Bu minvalla onlar bütün planları qurub hazırladılar. Günlərin birində oğlan çadırda ibadətlə məşğul olarkən nişanlısını bəzəyib onun yanına göndərirlər. Qız oğlanın çadırına daxil olur. Bir saat keçir, amma onlardan bir xəbər çıxmır. İki saat keçir, yenə də bir xəbər olmur. Hamı nigaran halda işin axırını gözləyir. Haçandan-haçana görürlər ki, onlar əl-ələ tutub "Əşhədu ənla ilahə illəllah və əşhədu ənnə Muhəmmədən Rəsulullah" deyə-deyə çadırdan çıxırlar. Oğlanın imanı o qədər möhkəm idi ki, qız ona deyil, o, qızın qəlbinə təsir göstərə bilmişdi.

Odur ki, Allahın yolunu tutan və bu yolda imanı möhkəm olan insanı qadın, pul, vəzifə, şan-şöhrət yolundan çıxara bilməz. Hücr ibn Ədiyyin qəbri Suriyada Mərəci-Əzra deyilən bir məntəqədədir. O, Həzrət Peyğəmbərin(s) və İmam Əlinin(ə) ən yaxın səhabələrindən biri idi. Müaviyə onu axtarırdı ki, ya ondan özü üçün beyət alsın, ya da onu öldürsün. Bir gün xəbər tutdu ki, Hücr yeddi nəfərlə birgə Mərəci-Əzradadır. Onu yaxalamaq üçün bir neçə nəfəri həmin məntəqəyə göndərir. Müaviyənin adamları axşam vaxtı Hücr ibn Ədiyyi Mərəci-Əzrada tapdılar. Gecə vaxtı söhbəti tamamlamaq üçün müzakirəyə əyləşirlər. Müaviyənin adamları deyirlər: "Bilirsənmi səndən istəyimiz nədir?" Hücr bilirdi ki, onlar nə üçün gəliblər. Odur ki, soruşdu: "İstəyinizi deyin." Onlar dedilər: "Siz gərək Əlinin məhəbbətini ürəyinizdən çıxarasınız. Başqa heç bir istəyimiz yoxdur." Hücr dedi: "Bu, mümkün olan bir iş deyil." Müaviyənin göndərdiyi o xəbis özü ilə gələnlərə göstəriş verdi ki, orada yeddi qəbir qazsınlar.

Yaltaqlar da əmri icra etmək üçün tez işə başlayıb qəbirləri qazmağa başladılar. Qəbirlər hazır olduqdan sonra göstəriş verdi ki, kəfənləri də biçsinlər. Kəfənlər hazır olduqdan sonra Müaviyənin göndərdiyi məmur üzünü Hücrə tutub dedi: "İndi nə deyirsiniz?" Hücr dedi: "Əvvəl nə demişiksə, elə odur. Biz Əlidən(ə) heç bir vaxt üz döndərməyəcəyik. Sən məni qəbirlə, kəfənlə qorxudursan?" Məmur dedi: "Elə isə gecəni yatın." Həmin gecə yatdılar.

Səhər sübh namazını qıldıqdan sonra məmur yenə soruşdu: "Bir sözünüz varmı?" Hücr dedi: "Xeyr." Məmur göstəriş verdi ki, onları bir-bir qətlə yetirib dəfn etsinlər. Altı nəfəri öldürdükdən sonra növbə Hücrə yetişdi. Hücr dedi: "İndi ki, məni öldürəcəksiniz, imkan verin dəstəmazımı təzələyim." Onlar razılaşdılar. Hücr dəstəmaz aldıqdan sonra dedi: "Yadıma gəlmir ki, dəstəmazdan dərhal sonra iki rükət namaz qılmayım. İmkan verin, iki rükət namaz qılım." Məmurlar yenə də razılaşırlar. Hücr iki rükət namaz qılıb qurtardıqdan sonra üzünü onlara tutub dedi: "Ömrümdə ən qısa qıldığım namaz bu namazım idi. Çünki mən həmişə namazı çox uzun və gec qılıb qurtarıram. Bu dəfə tez qılıb qurtardım ki, ölümdən qorxduğum üçün namazı uzatdığımı düşünməyəsiniz."

Hücr ibn Ədiyy kəlmeyi-şəhadətini oxuduqdan sonra onu şəhid edib elə oradaca dəfn etdilər. O, elə bir şəxsiyyət idi ki, yolunu yaxşı tanıyırdı. Onun tutduğu yolda zərrə qədər də şəkk-şübhəsi yox idi. Odur ki, insan yolunu tanıdıqdan, bu yolda imanı möhkəm olduqdan sonra heç bir hədə-qorxu, yağlı vədlər onu yolundan döndərə bilməz.

Dünyada insan üçün ən doğru yol Allahın qoyduğu yoldur. Əgər bir insan Allaha iman gətirib Onun qarşısında səcdə edirsə, Həzrət Peyğəmbərinə(s) itaət edirsə, deməli, doğru yolu tapmışdır. Allah-təala "Ali-İmran" surəsinin

51-ci ayəsində Peyğəmbərin(s) dili ilə belə buyurur:

إِنَّ اللَّهَ رَبِّي وَرَبُّكُمْ فَاعْبُدُوهُ هَـٰذَا صِرَاطٌ مُّسْتَقِيمٌ

-Şübhəsiz, Allah mənim Rəbbim və sizin Rəbbinizdir. Buna görə də Ona ibadət edin. Budur doğru yol!

Doğru yol budur ki, insan Allaha bəndə olsun və təkəbbürlülük göstərməsin. Doğru yol budur ki, insan Allahını tanıdıqdan sonra Onun qarşısında baş əysin. Belə ki, Allahın bütün əmrlərinin qarşısında baş əyib Ona tabe olsun. Bəzi hökmlərə riayət edib, bəzilərinə isə riayət etməməsi mümkün deyildir. Allahın hökmlərinin bəzisinə iman gətirib, bəzisini isə inkar etmək mömin olmaq demək deyil. Bəzən həyatda elə insanlara rast gəlmək mümkündür ki, namazı xoşlayır, amma orucdan xoşu gəlmir. Yaxud oruc tutmaq xoşuna gəlir, amma namaz qılmağı xoşlamır. Həmçinin elə adamlar da var ki, namaz qılır və oruc tutur, lakin xüms-zəkat məsələsinə gəldikdə isə boyun qaçırır. Bəzən qadınlarda da müşahidə olunur ki, namaz qılır və oruc tutur, amma hicab məsələsinə gəldikdə ondan xoşu gəlmir və imtina edir. Allahın hökmlərinə riayət etmək məsələsi insanın xoşuna gəlib-gəlməməsi ilə ölçülmür. Allahın hökmləri insanın xoşuna gəlsə də, gəlməsə də onlara tabe olmaq vacibdir.

Müaviyə üçüncü xəlifənin əmri ilə Həzrət Peyğəmbərin(s) səhabəsi olan Abuzər Ğəffarini sürgün etmək qərarına gəlir. Öncə onun hara sürgün olunması barədə müzakirə aparırlar. Bir nəfər deyir ki, Abuzər Ğəffari heç bir vaxt yalan danışmazdı. Həzrət Peyğəmbər(s) də onun barəsində buyurmuşdur ki, yer üzündə Abuzərdən düz danışan adam yoxdur. Özündən soruşaq baxaq görək haradan acığı gəlirsə, onu ora da sürgün edək. Abuzərdən soruşurlar: “Sənin ən acığın gələn yer haradır? İstəyirik ki, səni ən

acığın gələn yerə sürgün edək.” Abuzər deyir: “Ən acığım gəldiyi yer Rəbəzədir. Çünki mənim gəncliyim orada keçib. Ən pis və bütpərəst olduğum vaxtlar orada olduğum üçün həmişə Rəbəzənin adını eşidəndə oradan acığım gəlir.”

Abuzəri eləcə ən acığı gəldiyi yerə də göndərirlər. Düzdür, Rəbəzə Abuzərin xoşlamadığı bir yer idi. Amma o, yalandan başqa bir yerin adını da çəkmədi. Odur ki, Allahın halal və haramlarının insanın xoşuna gəlib-gəlməməsi ilə heç bir əlaqəsi yoxdur. Ola bilər ki, bəzi hökmlər insana xoş gəlsin, bəzisi isə xoş gəlməsin. Əmr Allahındırsa, deməli, orada insanın istəkləri kənarda qalmalı və əmrə tabe olunmalıdır. Allahın bütün hökmlərinə tabe olmaq Ona ibadət etmək deməkdir. Allahın qarşısında təkəbbürlülük etmək olmaz. Heç bir kəsin Allah qarşısında təkəbbürlülük etməyə ixtiyarı yoxdur. İnsan əvvəl özünün nədən yarandığına və öldükdən sonra nə olacağına diqqət yetirməlidir. Baxıb görməlidir ki, ona təkəbbürlülük etmək yaraşarmı? Həzrət Əli(ə) buyurmuşdur:

عجبت لمن يتكبر وقد خرج من مخرج البول مرتين

İki dəfə sidik xaric olan (atanın belindən sidik çıxan yolla ananın bətninə, dünyaya gələndə də elə həmin) yerdən çıxmış insanın təkəbbürlülük etməsinə çox təəccüb edirəm.

Bir gün Harun ər-Rəşid küçədən keçərkən bir nəfər ona salam vermir. Harunun əlaltıları həmin şəxsi tutub saraya gətirdikdən sonra deyirlər: “Harun sağ olsun, bu şəxs səni saymadı, sənə baş əymədi və səni salamlamadı.” Harun deyir: “Onu buraxın. Ola bilsin ki, o, məni tanımayıb.” Həmin şəxs deyir: “Mən səni yaxşı tanıyıram.” Harun deyir: “Sən məni tanıya-tanıya təzim etmədin? Hələ bir de

görüm, mən kiməm?” Həmin şəxs deyir: “Sən azacıq murdar sudan yaranmış və öləndə iylənib leş olacaq bir insansan. Belə ki, sənin leşin üç gün yerdə qalsa, camaat sənin iyindən burnunu tutub şəhərdən qaçar.”

Əgər insan özünü Allaha bağlaya bilməsə, o insan dəyərsiz bir varlıqdır. İnsana dəyər və qiymət verən yeganə amil özünü Allaha bağlamasıdır. İnsan özünü Allaha bağladıqdan sonra qiymət və dərəcə tapacaq. Məsələn, gündəlik xərclədiyimiz pulların hamısı kağız və metal parçalarıdır. Əgər dövlətin xəzinəsində o pulların arxasında dayanan iqtisadi göstəriciləri (valyutanı) götürsələr, həmin kağızların kilosunu bircə manata da almazlar. Həmin pullara dəyər və qiymət verən də məhz elə dövlətin xəzinəsindəki iqtisadi göstəricilərdir (valyutadır). Eləcə də insanın kimliyindən asılı olmayaraq Allaha bağlılığı olmasa, o, iqtisadi dəyəri olmayan kağızdan da ucuz olar. İnsan o vaxt dəyərli bir varlığa çevrilər ki, Allaha bağlı olub Onun yolunda qərar tutsun. Belə olduqda insanın yeməyi, baxmağı, yatmağı və bütün hərəkətləri ibadətdir. Çünki bu yola qədəm qoyduğu üçün yalnız Allahın razılığına səbəb olan işləri görər.

“Sirati-müstəqim” elə bir yoldur ki, dünyada hamı özünün bu yolda olduğunu iddia edir. Heç bir kəs özünün əyri yolda olduğunu söyləmir. Hər kəs tutduğu yolu özü üçün “sirati-müstəqim” bilir və getdiyi bu yoldan da kiməsə bəhs etdikdə onu doğru yol kimi təqdim edir. Buna görə də doğru yolun hansı yol olduğunu həm Quran, həm də Peyğəmbər(s) və Əhli-beytin(ə) hədisləri bizim üçün izah etmişdir. Qeyd olunduğu kimi, Allah-təala “Ali-İmran” surəsinin 51-ci ayəsində Həzrət Peyğəmbərin(s) dili ilə belə buyurur:

إِنَّ اللّهَ رَبِّي وَرَبُّكُمْ فَاعْبُدُوهُ هَـذَا صِرَاطٌ مُّسْتَقِيمٌ

-Şübhəsiz, Allah mənim Rəbbim və sizin Rəbbinizdir. Buna görə də Ona ibadət edin. Budur doğru yol!

Deməli, bu ayədən də açıq-aydın şəkildə məlum olur ki, Allaha təslim olmaq, ona ibadət etmək “sirati-müstəqim”dir. Belə görünür ki, “sirati-müstəqim” yalnız ibadət yolu ilə mümkündür. Əgər insanın getdiyi yolda Allaha bəndəçilik etmək, halal və harama riayət etmək olmasa, şübhəsiz ki, bu yol batil və səhv yoldur. Ola bilər ki, bir insan Allah məni sevir və mənə vergi verib desin. Yaxud birisi xəstələrə şəfa verdiyini və ya itən əşyaları tapa bildiyini iddia edə bilər. Eləcə də bir insan pərdənin arxasından xəbərdar olduğunu söyləyə, yaxud on ildən sonra nələr baş verəcəyini iddia edə bilər. Bəli, bütün bunlar mümkündür, amma bunları düzgün yol hesab etmək olmaz. Çünki ibadətdən savayı başqa hər hansı bir yolla Allahın yoluna qədəm qoymaq mümkün deyil. Allahın yolu yalnız bəndənin ona ibadət etməsi ilədir. Əgər bu elmlərin hamısı ibadətlə yerinə yetirilirsə, onun düzgün olması mümkündür. Yox, əgər insan bu elmlərin hər birini ibadətdən kənar yerinə yetirsə, heç biri düzgün deyildir. Yəni həmin elmlərin nəticə etibarilə düz çıxması mümkün ola bilər, amma bu, həm insanın bu dünyasına, həm də xüsusilə axirətinə ziyan vuracaqdır. Əvvəla, onu da bilmək lazımdır ki, vergi verildiyini, bəzi şeylərdən xəbərdar olduğunu, yuxuda kimlərləsə danışdığını, çiyninə nur qonduğunu iddia edən insanlar yalançıdır. Onlar ya bu yalanları özlərindən uydururlar, ya da bu kimi hallar qarabasma nəticəsində baş verir ki, bu da psixoloji gərginliklə bağlıdır. Bütün bunlar şübhəsiz ki, batil yollardır. Amma bəzi elmlərin vasitəsilə həqiqətən də çox

cüzi şəkildə pərdənin arxası ilə əlaqə yaratmaq mümkündür. Bu elmin cahil və nadan insanlara heç bir aidiyyəti yoxdur. Bu, xüsusi elmlərdir ki, əgər Allaha bəndəçilik vasitəsilə olmasa, yenə də həmin işin baş tutması mümkündür, amma bu, düzgün yol deyildir. Çünki bu yolda bəndəçilik və übudiyyət yoxdur. Bu yol peyğəmbərlərin və Allahın yolu deyil. Bu yolun axırı cənnətə gedib çıxmır. Yeganə düzgün yol Allahın yoludur ki, bu yolu yalnız və yalnız ibadətlə getmək olar. İbadətlə başlanıb, ibadətlə də sona çatan bu yol "sirati-müstəqim"dir.

Hədislərdə də nəql olunmuşdur ki, Allahın yolunu getmək iman və məhəbbətlə mümkündür. Əgər insan bu yolu eşq və imanla gedərsə, heç bir şey onu yoldan çıxara bilməz.

Günlərin birində İmam Baqir(ə) üzünü səhabələrə tutub buyurdu: "Kim odu əlinin içində saxlaya bilər?" Səhabələr utandıqlarından başlarını aşağı saldılar. O zaman İmam Sadiq(ə) gənc oğlan idi. O, atasına ərz etdi: "Mən saxlaya bilərəm." İmam Baqir(ə) mən nəzərimdə səni tutmuram. Bilirəm ki, sən bu işi edərsən. Sən bunlardan fərqlisən. Çünki yer üzündə məndən sonra Allahın höccəti sən olacaqsan. Nəzərimdə tutduğum bizim səhabələrimizdir. Sonra üzünü səhabələrə tutub yenə də buyurdu: "Narahat olmağa dəyməz. Bu o demək deyil ki, siz mömin deyilsiniz. Çünki imanın dərəcələri var. Bir dərəcəsi var ki, insan o mərhələyə yetişdikdə odu əlinin içində saxlaya bilər. İmanın bundan yuxarı dərəcələri də var. Amma siz hələ o mərhələlərə çatmamısınız."

Əgər dünyada insanın getdiyi yol adamı Allahın məhəbbətinə çatdıra bilirsə, bu, düzgün yoldur. İnsanı Allahın məhəbbətinə və cənnətə çatdıra bilməyən hər hansı bir yolun axırı uçurumdur.

عن الامام الصادق(ع): ـ في قولِهِ تعالى: "اِهدِنا الصراطَ المُستقيم" أرشِدنا الصراطَ المُستقيم، أرشِدنا لِلُزومِ الطريقِ المُؤدي إلى محبتِك، و المُبلغِ إلى جنتِك...

-İmam Sadiq(ə) "Bizi doğru yola hidayət et" ayəsinin barəsində belə buyurur: "Yəni bizi doğru yola yönəlt. Bizi sənin məhəbbətin olan və cənnətə çatdıran yola yönəlt…"[1]

Hər hansı bir yol insanı Allahın məhəbbətinə qovuşdura bilmirsə, bu yol düzgün yol deyil. Yəni "sirati-müstəqim" elə bir yoldur ki, Allahın məhəbbətini insanın qəlbinə doldurar və insanı aparıb cənnətə çıxarar.

قَالَ الإمام الْمهدِي علَيهِ السلام: إِن موسى ناجى ربه بِالوادِ المُقَدسِ، فَقالَ: يا رب، إِني قَد أَخلَصت لَكَ المَحبةَ مِني، وغَسلت قَلبي عمن سِواك. (وكانَ شديد الحُب لِأَهلِهِ) فَقالَ اللهُ تعالى: إِخلَع نعلَيك.

أي: أنزع حب أَهلِك مِن قَلبِك إِن كانت محبتك لِي خالِصةً وقَلبك مِن المَيل إلى من سِواي مغسولاً

-Həzrət İmam Mehdi(ə.c) buyurur: "Musa(ə) müqəddəs vadiyə yetişdikdə belə dedi: İlahi, sənə olan məhəbbətimi xalis etdim, səndən başqa qəlbimdə olanların hamısını çıxardım. (Halbuki Musa(ə) öz ailəsini çox sevirdi.) Allah-təala buyurdu: Çarıqlarını çıxar."

İmam əleyhissalam bu ayənin mənası ilə bağlı buyurur: "(Allah Musaya buyurdu): Əgər Mənə qarşı olan məhəbbətini xalis etmək istəyirsənsə, qəlbindən əhli-əyalının

---

[1] Mizanül-hikmə, 7-ci cild, hədis - 10478.

məhəbbətini də çıxar. Qəlbində Məndən başqa heç bir şeyə yer vermə."[1]

Odur ki, əgər insanın qəlbində Allahın məhəbbətindən başqa bir məhəbbət olsa, bir o qədər də Allahın məhəbbəti həmin qəlbdən çıxır. Əgər qəlbdə zərrə qədər başqa məhəbbətə yol verilsə, bir o qədər də Allahın məhəbbəti həmin qəlbdən çıxar.

قَالَ الصادِق(ع) : لا يمحض رجلٌ الايمانَ باللهِ حتي يكونَ اللهُ احب اليهِ من نفسِهِ و ابيهِ و امِهِ و ولدِهِ و اهلِهِ و مالِهِ و من الناسِ كُلهِم.

-İmam Sadiq(ə) buyurur: "İnsanın imanı Allah onun üçün (qəlbində) özündən, atasından, anasından, ailəsindən, malından və bütün insanların hamısından sevimli və üstün olmayınca pak və xalis olmaz."[2]

Deməli, imanın üstünlüyünü və xalisliyini bilmək üçün insan öz qəlbinə müraciət etməlidir. Hər hansı bir şey onun qəlbində Allahdan daha çox sevimlidirsə, deməli, bu iman xalis ola bilməz. Əgər insan Allahın hökmü ilə öz canı, övladı, malı və s. arasında seçim qarşısında qalsa və bu zaman Allahın hökmünü seçib onu digərlərindən üstün tutsa, deməli, bu iman xalis imandır. Övladı əzizləmək, başına sığal çəkmək, qayğısına qalmaq və məhəbbət bəsləmək savab və ibadətdir. Bu o vaxta qədər ibadətdir ki, Allahın hökmü ilə ziddiyyət təşkil etməsin. Əgər birdən insan övladla Allahın hökmü arasında seçim qarşısında qalsa və bu zaman o, Allahın hökmünü üstün tutsa, buna xalis iman deyilir.

Bir gün Həzrət Peyğəmbər(s) yolda yeniyetmə bir oğlanla rastlaşdı. Oğlan Peyğəmbərə(s) salam verdi və

---

[1] Yenə orada, 2-ci cild, hədis - 3087.
[2] Biharül-ənvar, 7-ci cild, səh. 25.

gülümsədi. Həzrət Peyğəmbər(s) ondan soruşdu: "Ey cavan, məni sevirsənmi?"

Cavan dedi: "Əlbəttə, ya Rəsulallah."

Peyğəmbər(s) onu sınağa çəkmək üçün yenə də soruşdu: "Məni gözlərindən də çox sevirsən?"

Cavan dedi: "Gözlərim sənə qurban, səni gözlərimdən çox sevirəm."

Peyğəmbər(s) soruşdu: "Atanı sevdiyin qədər?"

Cavan dedi: "Atam sənə qurban olsun, səni ondan daha çox sevirəm."

Peyğəmbər(s) soruşdu: "Ananı sevdiyin qədər?"

Cavan dedi: "Anam də sənə qurban olsun, səni daha çox sevirəm."

Peyğəmbər(s) soruşdu: "Özündən də çox sevirsən?"

Cavan dedi: "Canım sənə fəda olsun, səni özümdən də çox sevirəm."

Peyğəmbər(s) soruşdu: "Məni Allahı sevdiyin qədər sevirsən?"

Cavan azca sükuta dalıb üç dəfə Allahın adını çəkdikdən sonra dedi: "Ya Rəsulallah, mən səni Allaha xatir sevirəm."

Cavan oğlanın sözləri Həzrət Peyğəmbərin(s) xoşuna gəldi və üzünü səhabələrinə tutaraq buyurdu: "Allahı bu cavan oğlan kimi sevin. Allahı sevin, çünki sizə yaxşılıqlar nəsib edir və Öz nemətlərini sizlərə bəxş edir. Məni də Allaha olan məhəbbətinizə görə (Ona xatir) sevin."

قَالَ الإِمام العسكَرِى(ع): ...فأما الصراطُ المُستقيم في الدنيا فهو ما قَصر عنِ الغلُو، و ارتفَع عنِ التقصيرِ، و استقام فلَم يعدِلْ إلى شيءٍ مِن الباطِلِ

-İmam Həsən Əskəri(ə) buyurur: "Dünyadakı "sirati-müstəqim" ifrat və təfritdən uzaq olan bir yoldur. Bu yol orta yoldur ki, zərrə qədər də olsa batilə tərəf getmir."[1]

Həzrət Əli(ə) "Nəhcül-bəlağə"nin 16-cı xütbəsində belə buyurmuşdur:

الْيمِين و الشمالُ مضلةٌ و الطرِيق الْوسطَى هِي الْجادةُ

-Yolun sağı və solu ilə getmək azğınlığa gətirib çıxarar. Doğru yol orta yoldur *(ondan kənara çıxmaq olmaz).*

Tarixə bir nəzər saldıqda xeyli sayda insanların yoldan çıxdığının şahidi oluruq. Hətta Həzrət Peyğəmbərin(s) dövründə də belə insanlara çox rast gəlmək mümkündür. Onlar mömin və müsəlman olmalarına baxmayaraq, yolun gah sağına, gah da soluna keçərək düzgün yoldan çıxmaqla azğınlığa düçar olmuşlar.

Hurqus ibn Züheyr xəvaricin rəhbərlərindən biri idi. O, Həzrət Peyğəmbərin(s) dövründə abid bir insan idi. Elə ibadət edirdi ki, bəzi səhabələr belə ona qibtə edirdilər. Hüneyn müharibəsi başa çatdıqdan sonra Həzrət Peyğəmbər(s) qənimətləri bölüşdürməyə başladı. Elə bu zaman Hurqus ayağa qalxıb dedi: "Ya Rəsulallah, ədalətlə bölüşdür." Hamı təəccüblə onun üzünə baxdı. Həzrət Peyğəmbər(s) ona bir söz demədi. O, yerinə əyləşdi və bir az keçməmiş yenə də ayağa qalxıb Həzrət Peyğəmbərə(s) etiraz etdi. Üç dəfə etiraz etdikdən sonra Peyğəmbər(s) buyurdu: "Yer kürəsində ədaləti məndən yaxşı icra edən varmı?"

Həzrət Əlinin(ə) xilafəti dövründə Hurqus Həzrətə(ə) qarşı çıxaraq xəvaric dəstələrinə başçılıq etməyə başladı. Nəhrəvan şeyxləri bir yerə toplaşıb Həzrət Əliyə(ə) qarşı

---

[1] Mizanül-hikmə, 7-ci cild, hədis - 10473.

müharibə etdilər. Hurqus da həmin müharibədə Həzrət Əliyə(ə) qarşı döyüşərkən öldürüldü. Müharibədən sonra Həzrət Əli(ə) xəvaricin öldürülmüş adamlarının cənazələri arasında addımlayanda gözü Hurqusa sataşdı. Sonra üzünü səhabələrə tutaraq belə buyurdu: "Necə də pis adamlar sizin qılıncınızla cəhənnəmə vasil getmişdir."

Hurqus həmin ibadət edən bir insan idi ki, Həzrət Peyğəmbərə(s) etiraz etdi, Həzrət Əliyə(ə) qarşı döyüşdü və sonda öldürülərək cəhənnəmə vasil oldu. Bütün ibadətlərinə baxmayaraq, o, həddi aşmış və yoldan çıxmışdı. Nəhrəvanın şeyxləri elə insanlar idilər ki, namaz qılıb səcdə etməkdən alınları qabar bağlamışdı. Amma bu adamlar İslam dininə elə bir zərbə vurdular ki, yarası hələ bu günə qədər də sağalmayıb.

Onların hamısı gecə namazı qılan insanlar idilər. O qədər namaz qılmışdılar ki, alınları qabar bağladığından dəvənin dizinə oxşayırdı. Bütün bunlara baxmayaraq, bütün tarix boyu İslama onlar kimi zərbə vuran olmayıb. Kərbəla hadisəsini törədənlər də onların törəmələri olublar. Hazırkı dövrdə də xərçəng xəstəliyinin virusu kimi dinin üzünü qara rəngə boyayıblar. Dini elə bir vəziyyətə salıblar ki, İslam dininə nəzər salanların ondan acığı gəlir.

Odur ki, əgər insan Allahın yolundan sağa və ya sola çıxsa, yaxud Həzrət Peyğəmbərin(s) buyurduğu kimi yox, öz ağlının qəbul etdiyi bir yolla getsə, bunun sonu uçurum və cəhənnəmdir. Doğru yol odur ki, insan bu yolun ortasında qərar tutsun və bu yolda öz bildiyi kimi yox, Həzrət Peyğəmbərin(s) buyurduğu kimi hərəkət etsin.

## Doğru yol imamətdir

Hədislərə əsasən "sirati-müstəqim"in bir mənası da imamət yoludur.

قَالَ الصادِق(ع): فأما الصراطُ الذي في الدنيا فهو الإمام المَفروض الطاعةِ

-İmam Sadiq(ə) buyurur: "Dünyadakı "sirati-müstəqim" o imamdır ki, onun itaəti (Allah tərəfindən insanlara) vacib buyurulmuşdur."[1]

Başqa bir hədisdə isə Həzrət(ə) bunun mənasını açıqlayaraq belə buyurur:

الصراطُ المُستقيم أمير المؤمنين عِلي عليه السلام

-İmam Sadiq(ə) buyurur: "Sirati-müstəqim" Əmirəl-möminin Əli əleyhissalamdır."[2]

Həzrət Əli(ə) xütbə oxuyarkən özü barəsində olan bu məsələni şərh edərək belə buyurmuşdur:

أنا صِراطُ اللّهِ المُستقيم، و عروته الوثقى

-İmam Əli(ə) buyurur: "Mən Allahın doğru olan yolu və "ürvətül-vüsqa"yam (Allahın insanlar üçün möhkəm dəstəyiyəm)."[3]

Biz namaz qılarkən deyirik: "İlahi, bizi düz yola hidayət et." Düz yol Allaha ibadət etməkdir. Düz yol Allahın Peyğəmbərinə(s) və zamanın höccətinə itaət etməkdir. Bunlar insanı Allahın məhəbbətinə sarı çəkib apardıqları üçün "sirati-müstəqim"dir. Odur ki, Allah-təala and içərək Həzrət Peyğəmbərə(s) buyurur ki, hikmətli Qurana and olsun,

---

[1] Mizanül-hikmə, 7-ci cild, hədis - 10474.
[2] Yenə orada, hədis - 10475.
[3] Yenə orada, hədis - 10477.

sən peyğəmbərlərdənsən və sən doğru olan yoldasan. Sənin risalətin düz yoldur. Beləcə, hər kim bu yolu tutub getsə, məqsədə çatacaqdır.

### Axirətdəki yol

Hədislərə əsasən qeyd olundu ki, "sirati-müstəqim"i iki qismə ayırırlar: bu dünyada və axirətdə olan yol. Yəni bir mənası bu dünyaya, digər mənası isə axirətə aiddir. "Sirati-müstəqim"in bu dünyadakı mənası barədə bəhs etdik. İndi isə bu yolun axirətdəki mənası ilə tanış olaq.

قَالَ الإِمام العسكَرِى(ع): والصِّراطُ الْمستقِيم هو صِراطان؛ صِراطٌ فِى الدنيا و صِراطٌ فِى الآخِرة فأما الصراطُ الْمُستقيم في الدنيا فهو ما قَصر عنِ الغلُو، و ارتفَع عنِ التقصيرِ، و استقام فلَم يعدِلْ إلى شيءٍ مِن الباطِلِ، و أما الطريق الآخر فهو طريق الْمُؤمنين إلى الجَنةِ الذي هو مستقيم.

-İmam Həsən Əskəri(ə) buyurmuşdur: "Sirati-müstəqim" iki yoldur. Bir yol bu dünyada, digəri isə axirətdədir. Dünyadakı "sirati-müstəqim" ifrat və təfritdən uzaq olan bir yoldur. Bu yol orta bir yoldur ki, zərrə qədər də olsa batilə tərəf getmir. Axirətin yolu isə möminlərin cənnətə getdiyi həmin "sirati-müstəqim"dir."[1]

Yəni əgər bir yol insanı cənnətə aparıb çıxarmayacaqsa, o yolda xeyir, düzgünlük və sədaqət də yoxdur. Deməli, insanı cənnətə aparıb çıxaran yol düzgün yoldur. Ancaq insanı cənnətə aparıb çıxarmayan yolun sonu isə peşmançılıqdır. Ümumiyyətlə, insanı cənnətə aparıb çıxarmayan bütün yolların hamısı səhv yollardır.

---

[1] Mizanül-hikmə, 7-ci cild, hədis - 10473.

قَالَ عَلِي(ع): ما خير بخيرٍ بعده النار، و ما شر بشر بعده الجَنةُ، و كل نعيمٍ دونَ الجَنةِ فَهو محقور، و كل بلاءٍ دونَ النارِ عافِيةٌ

-Həzrət Əli(ə) buyurur: "Arxasında od olan *(ilahi əzaba səbəb olan)* xeyir və yaxşılıq *(dünya mənfəəti)* əslində xeyir və yaxşılıq deyil. Arxasında cənnət olan çətinlik və pislik *(dünyada çəkilən əziyyətlər)* əslində çətinlik və pislik deyil. Cənnətdən aşağı hər bir nemət kiçik və əhəmiyyətsizdir. Oddan aşağı hər bir bəla və çətinlik rahatlıq və asayişdir." *(Çünki o nemətə nemət demək olar ki, onun arxasında cəza olmasın. Həmçinin o çətinliyi çətinlik hesab etmək olar ki, onun arxasında əbədi rahatlıq olmasın.)*[1]

Yəni axırı cənnətə gedib çıxacaq bir yolda olan bütün ağrı-acıların və çətinliklərin hamısı xeyirdir. Sadəcə olaraq insan bu həqiqəti dərk edib başa düşməlidir. Sadə və avam bir insanın da bunu dərk edib başa düşməsi mümkündür. Tarixdə və çağdaş həyatımızda da o qədər insanlar olub ki, sonu cənnət olan yolda başlarına gələn hər bir müsibəti belə özləri üçün xeyir bilmişlər.

İranın şəhərlərindən birində mömin bir tanışım var idi. Çox sadə, avam, kasıb və saf bir insan idi. İrfan və s. kimi məsələləri bilməzdi. Amma yaxşı başa düşmüşdü ki, mənim bir Allahım var və mən ona ibadət etməliyəm. Allahın razı olduğu və vacib buyurduğu hər bir şeyə xeyir, Onun razılığı olmayan hər bir şeyi isə şər kimi qəbul edərdi.

Onun mənimlə münasibəti çox yaxşı idi. O vaxtlar həmin tanışımın yaşadığı yerlə mənim yaşadığım yer arasındakı məsafə 20 km olardı. Günlərin birində o, mənim yanıma gəlib dedi: "Qızım üçün elçi gəlib və bu gün nişan mərasimi təşkil

---

[1] Mizanül-hikmə, 7-ci cild, hədis - 2528.

olunmuşdur. Səndən xahiş edirəm ki, bizə təşrif gətirib gənclərin kəbinini şəxsən sən özün oxuyasan. Mən də tanışımla birgə onların evlərinə getdim. Oğlan evindən də bir neçə nəfər orada iştirak edirdi. Mən onların kəbinlərini kəsib təbrik etdim. Sonra mən evə qayıtdım. Bu hadisənin üstündən təxminən 5-6 il keçdi. Onun oğlanlarından biri cəbhədə şəhid oldu. Mən o zaman Qum şəhərində tədrislə məşğul idim. Oğlunun şəhid olduğunu eşitdikdən sonra başsağlığı vermək üçün evlərinə yollandım. Onunla yaxın dost olduğum üçün bilirdim ki, məni görsə ürəyi şad olacaq. Axşamüstü onların evinə çatdıq. Şəhidin cənazəsini hələ gətirməmişdilər. Gecəni onlarda qaldıq. Səhərisi gün cənazəni gətirdilər. Mərhumu dəfn etdikdən sonra mən məclisdə bir qədər söhbət etdim. Mən kişiyə başsağlığı verib məclisdən çıxanda o, mənə belə dedi: “Sən mənim evimə iki dəfə gəlmisən. Allaha şükür edirəm ki, hər ikisində də xeyrə gəlmisən. Birinci gəlişində qızımın kəbinini oxudun və onu göndərdim bəxt evinə. İkinci dəfə isə oğlumun məclisində iştirak etdin, onu da göndərmişəm cənnətə.”

Bu əhvalatı danışmaqda məqsədim odur ki, altmış illik irfanın sayəsində həmin şəxs yolu axıradək gedərək məqsədə çatmışdır. Bu kişi yolu kəsə gedərək nəyin xeyir, nəyin isə şər olduğunu yaxşı başa düşmüşdü.

Yuxarıda qeyd olunan hədisdə də Həzrət Əli(ə) bu məsələni bizə başa salır. Amma təəssüflər olsun ki, çox insanlar bunu başa düşmürlər. Alimlər, çoxlu kitab oxuyanlar və zikr edənlər əksər vaxtlar başa düşmədikləri bir halda, savadsız bir adam başa düşmək istədikdə Allah-təala yolu ona göstərir. Elə insan var ki, bir cümlə ilə irfani fikrini bəyan edə bilir. Əgər insanın ruhu Allahla ünsiyyət tapa bilsə, Allaha bağlana və həqiqəti başa düşə bilsə, irfani cümlələr insanın dilində rəvan olar. Bu

məsələdə yaş həddi də önəmli deyildir. Elə insanlar da vardır ki, gənc yaşlarında olmalarına baxmayaraq, yetmiş illik yolu kəsə gedərək mərifət əldə etmişlər.

Mənim tanıdığım yaşlı bir kişi var idi. Onunla da münasibətimiz çox yaxşı idi. Yaşı altmışı haqlamışdı. Qızlarını köçürmüş, oğlanlarını da evləndirmişdi. Bir müddət keçdikdən sonra onun həyat yoldaşı dünyasını dəyişdi. Oğlanları yığışıb belə bir qərara gəldilər ki, kişi tək qalmasın deyə onun üçün bir qadın tapsınlar və onu evləndirsinlər. Çünki onlar müxtəlif məntəqələrdə yaşadıqlarından kişiyə lazımınca qulluq göstərə bilmirdilər. Beləcə, yaşı əllini keçmiş bir qadın tapıb kişini evləndirdilər. Onun adı Reyhanə xanım idi və cavanlığında övladı olmadığından boşamışdılar. Həkimlər də demişdilər ki, onun heç bir vaxt uşağı olmayacaqdır. Kişi də elə bir qadın istəyirdi ki, uşağı olmasın. Çünki yaşlı vaxtında qalan ömrünü rahat yaşamaq istəyirdi.

Üstündən 5-6 il keçdikdən sonra qadın özünü narahat hiss etməyə başlayır. Onu bir neçə həkimə göstərirlər və həkimlər də onun sağlam olduğunu bildirirlər. O zaman tibb elmi indiki kimi inkişaf etməmişdi. Axırda bir həkim onu müayinə etdikdən sonra qadının xəstə yox, hamilə olduğunu bildirir. Qadın isə təəccüblə deyir ki, bu, mümkün olan bir iş deyil. Axı mənim heç bir vaxt uşağım olmayıb. Cavanlığımda övlad arzusunda olmuşam, ancaq həkimlər deyirdilər ki, mən heç vaxt hamilə ola bilməyəcəyəm. Bundan əlavə, indi mənim o yaşım da deyil. Belə ki, ayın bütün günləri namaz qılıram. Həkim isə deyir: "Xanım, mən sizi cihazla müayinə etdim və göstərilən nəticələrə əsasən, sizin 3-4 aylıq hamilə olduğunuz məlum oldu."

Beləliklə hamı bu işə mat-məəttəl qalmışdı. Axı necə ola bilərdi ki, bu yaşda qadın hamilə olsun. Bu xəbər qohum-əqrəba arasında da yayıldı və hamının təəccübünə

səbəb oldu. Allahın iradə və istəyi ilə bir müddətdən sonra Reyhanə xanım bir oğlan uşağını dünyaya gətirdi. Uşağın adını İltifat (yəni Allahın lütf etdiyi) qoydular. Uşaq altı yaşına çatdıqda onun atası, yəni mənim tanıdığm həmin kişi dünyadan köçdü. Reyhanə xanım işləyə-işləyə uşağa da baxırdı. Mən dəfələrlə görürdüm ki, o, bazara və ya işə gedərkən uşağın əlindən tutub özü ilə aparırdı. Beləcə, aylar, illər ötdü və İltifat 17 yaşına gəlib çatdı. Həmin vaxt İran inqilabından sonra İraqla müharibə başlamışdı. Bütün dünya əl-ələ verib bu inqilabın çırağını söndürmək üçün planlar qururdular. Üçgünlük planları səkkiz ildən sonra onlar üçün xəcalətli sonluqla başa çatdı. Bütün dünya İran İslam inqilabının qarşısında aciz qaldı. Bu müharibə zamanı İltifat da döyüşlərdə dəfələrlə və həm də könüllü olaraq iştirak etmişdi. Hər üç aydan bir isə o, anasına baş çəkmək üçün gəlirdi.

Günlərin birində Reyhanə xanım mənə oğlu haqda belə dedi: "İltifat cəbhədən bir neçə dəfə mənə baş çəkməyə gəlib. Günlərin birində mən onu cəbhəyə yola salırdım. Döyüşə gedənlər avtobusda oturmuşdular. İltifat da keçib onların yanında əyləşdi. Avtobusun gözlüyünün qarşısında dayanıb ona baxa-baxa ağlayırdım. O, mənə işarə etdi ki, burada dayanma, get evə. Amma mən ona fikir vermədim. O, yenə də mənə işarə etdi, lakin mən yerimdən tərpənmədim. Avtobusdan düşüb yanıma gəldi və əlimdən tutdu. Addımlaya-addımlaya maşından kənara tərəf çəkildik. Mənə dedi ki, ana, məndən razı qal və halallıq ver. Dedim: "Oğul, bir neçə dəfə döyüşə getmisən. Sənin 17 yaşın var və Vətənə də öz borcunu ödəmisən. Üç dəfə cəbhəyə gedib gəlmisən. Allah səni mənə verib ki, əlimin çəliyi olasan və mənim bu vaxtımda qayğıma qalasan. Buna görə deyirəm ki, getmə, yanımda qal." İltifat üzünü mənə tutub dedi: "Ana,

olarmı sənə bir söz deyim?" Dedim: "De oğlum." Dedi: "Ana, Allah məni sənin dünyan üçün yox, axirətin üçün bəxş edib. Əgər dünyan üçün versəydi, hamı kimi sənə də vaxtında verərdi. İcazə ver, gedim. Bil ki, bunun xeyri sənindir."

Onun bu sözləri sanki mənim ağzıma qıfıl vurdu. Onu bağrıma basıb üz-gözündən öpdüm. Sonra isə onu maşına mindirib yola saldım.

Bir müddətdən sonra işdən evə gələndə gördüm ki, bir nəfər bizim evimizin qapısının ağzında dayanıb. Həmin şəxs məni görən kimi soruşdu: "Xala, İltifatgilin evi hansıdır?" Dedim: "Xalan sənə qurban olsun, İltifatgilin evini neyləyirsən?" Dedi: "Lazımdır mənə." Dedim: "Xalan qurban, qarşısında dayandığın ev elə İltifatın evidir. Mən də onun anasıyam." Dedi: "Xala, İltifatdan sənə məktub gətirmişəm." Dedim: "Xala qurban, gəl içəri. Ola bilsin ki, məktubun bəzi yerlərini oxuya bilməyim. Sən mənim üçün oxuyarsan." Gördüm ki, içəri keçmək istəmir. Uzun sözün qısası, mənə dedi ki, oğlun şəhid olub və bu məktub da onun vəsiyyətnaməsidir. Onun cənazəsi isə sabah gətirilib dəfn ediləcək."

Bu əhvalatı diqqətinizə təqdim etməkdə məqsədim odur ki, 17 yaşlı bir cavan oğlan 70-80 il çətin yollarla gedib irfana çatmış insanların yolunu kəsə gedərək o mərifəti əldə etmişdi. Onun anasına "Allah məni sənin dünyan üçün yox, axirətin üçün bəxş edib. Əgər dünyan üçün versəydi, hamı kimi sənə də vaxtında verərdi," – deyə söylədiyi sözlərdən də bilinir ki, yaşı az olmasına baxmayaraq, məqsədə çatmış bir insan idi.

Odur ki, əgər insanın ruhu Allahla ünsiyyət yarada bilsə, mərifət və həqiqəti tapa bilsə, bu yolda onun hər bir işinin axırı xeyirdir. Çünki Allahın insan üçün müəyyən etdiyi yolda şər və pislik yoxdur. Bu yolda olan bütün çətinliklər

və acılıqların hamısı, eləcə də insanın başına gələn bütün müsibətlər xeyirdir. Həzrət Əli(ə) də insanlara bunu başa salmaq istəyirdi ki, əgər bir yolun axırı cəhənnəmdirsə, onun nə ləzzəti və xeyri ola bilər? Əgər bir yolun sonu cənnətdirsə, həmin yolda olan çətinliklərin nə ziyanı vardır? Arxasında od olan xeyir və yaxşılıq xeyir və yaxşılıq deyil. Arxasında cənnət olan çətinlik və pislik çətinlik və pislik deyil. Cənnətdən aşağı hər bir nemət kiçik və əhəmiyyətsizdir. Oddan aşağı hər bir bəla və çətinlik rahatlıq və asayişdir. Sonu cənnət olan bir yolda hər nə varsa, hamısı xeyrədir. Bu yolda olan ibadətlər, əziyyətlər, zəhmətlər və çətinliklərin hamısı xeyirdir. Həzrət Peyğəmbər(s) qızı Fatimeyi Zəhranı(s.ə) çox sevirdi. Xanım Zəhra(s.ə) hələ 11 yaşında ikən ana idi. 17 yaşında isə Həzrətin(s.ə) dörd uşağı var idi. O vaxtkı dövrdə və çətin günlərdə Xanım Zəhra(s.ə) uşaqlarına özü baxır, əl dəyirmanı ilə buğda üyüdür və s. ev işlərinin hamısını özü görürdü. Evdə iş görməkdən əlləri qabar olmuşdu.

Həzrət Əli(ə) Xanım Fatimeyi Zəhranın(s.ə) şərafət və fəziləti haqda söhbət edərək belə buyurur: "Fatimə(s.ə) Həzrət Peyğəmbərin(s) əzizi və sevimlisi olmasına baxmayaraq, ev işlərini özü görürdü. Tuluqla su daşıyar, quyudan su çəkər, yemək bişirmək üçün ocaq qalayar, evi süpürər, yemək bişirər, paltarları yuyar və bir sözlə, evin bütün işlərini özü görərdi. Günlərin birində ona dedim: "Ya Fatimə, bəlkə atandan ev işlərini görməkdə sənə kömək etmək üçün bir xidmətçi verməsini xahiş edəsən." Xanım Zəhra(s.ə) bu sözdən sonra atasının evinə yollandı. Qapıdan içəri daxil olmaq istədikdə atasının evdə qonağı olduğunu görüb geri qayıtdı. Həzrət Peyğəmbər(s) hiss etdi ki, Fatimənin ona sözü var, lakin demədən evinə qayıtdı. Səhərisi gün özü Fatimənin evinə gəldi və

buyurdu: “Qızım, elə bil dünən mənimlə işin var idi?” Həzrət Əli(ə) dedi: “Ya Rəsulallah, Fatimə səndən ev işlərində kömək üçün özünə bir xidmətçi xahiş etməyə gəlmişdi.” Həzrət Peyğəmbər(s) buyurdu:

-Qızım, Fatimə, istəyirsənmi sənə elə bir əməl öyrədim ki, həmin əməl həm xidmətçindən, həm dünyandan və həm də dünyada olanların hamısından daha yaxşı olsun?

Fatimə(s.ə) dedi: “Əlbəttə, istəyirəm, ya Rəsulallah.” Həzrət Peyğəmbər(s) buyurdu: “İstədiyindən də yaxşısı budur ki, hər vacib namazı qılandan sonra yüz dəfə (34 dəfə Allahu Əkbər, 33 dəfə Əlhəmdulillah və 33 dəfə Sübhanəllah) zikr edəsən.”

Həzrət Peyğəmbər(s) qızına öyrədirdi ki, bu dünyanın bütün çətinlik və acılıqları gələcəkdə sənin üçün rahatlıq və şirinliklərlə əvəz olunacaqdır. Cənnət yolunun bütün çətinlikləri sonda rahatlığa çevriləcək.

İnsanın düz yolda çəkdiyi bütün çətinliklər, oruc tutarkən ac-susuz qalması, haramlardan uzaqlaşması, camaatın tənə və söz yarasına dözməsi, bir sözlə, bu yolda bütün əzab-əziyyətlərə səbir etməsi sonda çevrilib gözəllik və şirinliklə əvəz olunacaqdır. Sonu cənnətlə nəticələnəcək bir yolda şər və ya pislik ola bilməz. Əsas budur ki, insanın getdiyi yola inamı olsun. İnsanın cənnət və cəhənnəmə imanının olması çox mühüm məsələdir. Çünki iman olmadıqda insan yolu sona qədər başa vura bilməyəcəkdir.

Əbu Süfyan hicrətin 8-ci ilinə qədər iman gətirmədi. Təxminən 21 il ərzində İslama, Həzrət Peyğəmbərə(s) və müsəlmanlara qarşı əlindən gələn cinayətləri əsirgəmədi. Həzrət Peyğəmbərin(s) başına açmadığı bir oyun qalmamışdı. Amma hicrətin 8-ci ilində Həzrət Peyğəmbər(s) Məkkəni fəth etdikdən sonra Əbu Süfyan da qorxusundan iman gətirdi. O, Həzrət Peyğəmbərin(ə) əmisi Abbasa dedi ki, sən bizim

aramızda vasitəçi ol, məni öldürməsinlər. Həzrət Peyğəmbər(s) ona buyurdu: "İndi ki, iman gətirmisən, hələ o vaxt çatmayıb ki, mənim peyğəmbərliyimi etiraf edəsən? Nə üçün mənim peyğəmbərliyimə şəhadət vermirsən?" Əbu Süfyan dedi: "Əgər Allahın şəriki olsaydı, Bədr və Ühüd müharibələrində bizə yardım edərdi. Məğlub olduğumuza görə başa düşdüm ki, Allahın şəriki yoxdur. Amma hələ də sənin peyğəmbərliyin mənim üçün aydınlaşmayıb."

Bu hadisənin üstündən bir neçə il keçdikdən sonra bir nəfərin evinə toplaşdılar. Əbu Süfyanın gözləri tutulduğu üçün orada oturanlardan soruşdu: "Burada Bəni-Üməyyə tayfasından başqa kimsə varmı?" Dedilər: "Yox." Dedi: "Çalışın hakimiyyəti Bəni-Üməyyədən başqasına verməyin. Allaha and olsun ki, nə cəhənnəm var, nə də cənnət. Hamısı boş və yalan sözlərdir."[1]

Onun qəlbi murdar olduğundan dilinə gətirdiyi sözlər də murdar idi. O, ürəkdən iman gətirməmişdi. Onun imanının kənarında mərifət yox idi. Buna görə də nə cənnətə inanırdı, nə də cəhənnəmə. Amma elə mömin və xalis insanlar da var idi ki, cəhənnəmin adı gələndə qorxudan rəngləri saralırdı.

Malik ibn Sələbə Həzrət Peyğəmbərin(s) dövründə yaşayan çox imkanlı və sərvətli bir mömin idi. Günlərin birində "Tövbə" surəsinin 34-cü ayəsini eşitdi.

والذِين يكْنِزونَ الذهب والْفِضةَ ولاَ ينفِقُونها ِفي سبِيلِ اللّهِ فَبشرهم ِبعذَابٍ أَلِيمٍ

-Qızıl və gümüş yığıb onu Allah yolunda xərcləməyən kəslərin hamısını ağrılı bir əzabla müjdələ.

Bu ayəni eşidən kimi qorxudan onun ürəyi getdi. Özünə gəldikdən sonra ağlaya-ağlaya Həzrət Peyğəmbərin(s)

[1] 500 dastan, 2-ci cild, səh. 215.

yanına gəlib dedi: “Ya Rəsulallah, bu ayə qızıl-gümüş toplayıb Allah yolunda xərcləməyənlərin barəsindədir?” Həzrət Peyğəmbər(s) buyurdu: “Bəli.” O, evə gedib bütün sərvətini Allah yolunda payladı. Sonra dözə bilməyib ibadət etmək üçün dağlara çıxdı. Ruhu incə olduğu üçün cəhənnəmin qorxusu onun rəng və əhvalını tamamilə dəyişdirmişdi. Salman Həzrət Peyğəmbərə(s) ərz etdi: “Ya Rəsulallah, Malikin vəziyyəti çox ağırdır.” Həzrət Peyğəmbər(s) buyurdu: “Onu mənim yanıma gətirin.” Malik gəldikdən sonra Həzrət(s) ondan soruşdu: “Sənə nə olub?” Malik ərz etdi: “Ya Rəsulallah, cəhənnəmin qorxusu rəngimi dəyişdirib.” Həzrət Peyğəmbər(s) onun üçün “Hicr” surəsinin 43-cü ayəsini oxudu: “Və onların hamısının vəd yeri, mütləq cəhənnəmdir.” Malik ibn Sələbə bu ayəni eşidən kimi huşunu itirib yerə yıxıldı və dünyasını dəyişdi.[1]

Malikin axirətə, cənnət və cəhənnəmə inamı o qədər çox idi ki, cəhənnəmin adını eşitdikdə qorxudan rəngi dəyişirdi. Onun yanında cəhənnəm ayələrini oxuduqda fikrindən çıxmır və bu hala dözə bilmirdi. Odur ki, əgər insan Allahın ayələrinə mərifətlə inansa, fikri həmişə dağınıq olar. Çünki hər bir ayə onun qəlbinə təsir göstərdiyi üçün onu unuda bilmir. Məsələn, insana pis bir hadisəni xəbər verdikdə harada olursa-olsun, o xəbər yadından çıxmır. Hey fikrə dalır, hey o hadisə haqda düşünür.

Beləliklə, əgər insan tutduğu yolun sonunun cənnət olduğuna inansa və iman gətirsə, bu yolda başına hər nə gələcəksə narahat olmaz. Bu yolda olan bütün çətinlikləri asanlıqla həzm edər. İmam Hüseyn(ə) Kərbəlaya doğru hərəkət edərkən bu ayəni oxudu: “Allah tərəfindən gəlmişik və Ona tərəf də qayıdacağıq.” Oğlu Həzrət Əliəkbər(ə)

---

[1] 500 dastan, 2-ci cild, səh. 216.

soruşdu: “Ata, nə üçün bu ayəni oxudun?” İmam(ə) buyurdu: “Oğul, getdiyimiz bu karvanın axırı şəhadətdir.” Əliəkbər(ə) soruşdu: “Haqq bizimlədirmi?” İmam(ə) buyurdu: “Əlbəttə ki, bizimlədir.” Əliəkbər(ə) dedi: “Elə isə bu yolun mənim üçün heç bir qorxusu yoxdur.”

Həzrət Peyğəmbər(s) mübarək ramazan ayının gəlişi ilə əlaqədar olaraq xütbə oxudu. Xütbənin sonunda Həzrət Əli(ə) ayağa qalxıb soruşdu: “Ya Rəsulallah, bu ayda ən gözəl əməl hansıdır?” Həzrət Peyğəmbər(s) buyurdu: “Ey Əbəl-Həsən, bu ayda ən gözəl əməl Allah-təalanın haram buyurduğu işlərdən uzaq olmaqdır.” Bunu söylədikdən sonra Həzrət(s) ağlamağa başladı. Həzrət Əli(ə) soruşdu: “Ya Rəsulallah, sizi ağladan nədir?” Həzrət Peyğəmbər(s) buyurdu: “Ya Əli, sənin bu ayda Allaha ibadət edərkən qanının axıdılacağına ağlayıram. İnsanların ən bədbəxti, hətta Səmud qövmünün (Saleh peyğəmbərin) dəvəsini öldürəndən də bədbəxt şəxs sənin başına zərbə endirəcək və sənin saqqalın qanına bulaşacaq.” Həzrət Əli(ə) soruşdu: “Ya Rəsulallah, belə olan halda dinim salamat qalacaqmı?” Həzrət Peyğəmbər(s) buyurdu: “Bəli, dinin salamat qalacaq.” Həzrət Əli(ə) dedi: “Elə isə mənim heç bir qorxu və nigarançılığım yoxdur.”

**Bu, Əziz (qüdrətli) və Rəhim (mərhəmətli) Allah tərəfindən nazil edilmiş bir kitabdır**

Bu mübarək ayədə bir sıra ədəbi və qrammatik xırdalıqlar vardır ki, onların üzərindən ötəri olaraq keçirəm. Çünki bunlar hazırda bizim bəhsimizə aid olan məsələlər deyil. Amma ayənin tərcüməsinə gəldikdə isə belədir: "Bu Quran Əziz və Rəhim olan Allah tərəfindən nazil edilmişdir." Allahın kitab nazil etməsi və bu kitabın hikmətli, elmi və məntiqi olması aydın bir məsələdir. Ayədə toxunacağımız əsas məsələ isə iki kəlmə ilə bağlıdır. Həmin kəlmələrdən biri "Əziz", digəri isə "Rəhim" kəlməsidir. Məlumdur ki, Allahın müxtəlif ad və sifətləri vardır. "Cövşən Kəbir" duasında bu adların hamısına rast gəlirik. Bu duada Allahın min adı qeyd olunmuşdur. Allah-təala həmin adların bir hissəsini Quranda bəyan etmişdir. Quranın hər bir ayəsində həmin sifətlər bəyan olunubsa, deməli hansı sifətin hansı ayədə istifadə olunmasının özünəməxsus xüsusiyyəti vardır. Məsələn, bir nəfər haqda danışılarkən onun vəziyyət və potensialına uyğun sözlərdən istifadə olunur. Ola bilər ki, bir insanın bədəninin güclü olması, digərinin zəkası, başqa birisinin isə ədəb və mənəviyyatı haqda danışılsın. İnsanı istənilən hər hansı bir sahədə tərif etmək istədikdə gərək həmin sahənin xüsusiyyətinə aid sözlərdən istifadə olunsun. Adam var ki, hansı sözü harada işlətmək lazım olduğunu bilmir. Amma adam da var ki, danışığında dəlil-sübutlara, məntiqə istinad edir.

Beləcə, "Yasin" surəsinin 6-cı ayəsində Allahın iki sifəti zikr olunmuşdur. Biri Onun izzəti, digəri isə mərhəmət sifətidir. Allahın müxtəlif sifətləri vardır ki, insanlar öz yerində həmin sifətlərdən faydalana bilərlər. Bəzən Allah-təala Öz sifətlərini insanlar üçün zahir edərək üzə çıxarır. Bu barədə olan hədisləri oxuduqda bəzən insan təəccübə

gəlir. Hədislərdə Allaha dua edərkən ilk növbədə Onun adlarını çəkmək tövsiyə olunmuşdur. Yəni Allahdan istək və hacətini diləyən bir insan əvvəlcə Allahın adlarını çəkməlidir.

Həzrət Peyğəmbər(s) və məsum imamlarımız Allahla minacat etməyin yollarını bizə öyrətmişlər. Lakin bəzən biz getdiyimiz yolların qaydalarını öyrənməməyimizin ucbatından təhlükə ilə qarşılaşdıqda özümüzdən də, başqalarından da inciyirik. Hər bir şeyin yolu və qaydası vardır. Bütün qaydaları bizə öyrətmişlər. Bizim səhvimiz isə o qaydalarla maraqlanmamağımızdır. Sanki bu qaydalar bizə lazım deyilmiş.

Rəvayətdə belə nəql olunur ki, Hümran ibn Əyan bir neçə nəfərlə İmam Baqirin(ə) hüzuruna gəlib əyləşdilər. Hümran İmamdan(ə) bəzi məsələləri soruşduqdan sonra dedi: "Ey Peyğəmbər(s) övladı, biz sənin hüzurunda olarkən və səninlə söhbət edərkən ürəklərimiz rahatlıq tapır və yumşalır. Nə qədər sənin yanında oluruq ruhlarımız rahatlaşır, dünyaya rəğbətimiz azalır və camaatın əlində olan var-dövlətə qarşı etinasız oluruq. Lakin səndən ayrıldıqdan sonra camaatla oturub-durduqda, uşaqlarımızı gördükdə və öz ailəmizlə əyləndikdə sənin yanında bizə gələn hal aradan gedir. Yəni sənin yanında bizə gələn hal səndən uzaqlaşdıqdan sonra bizdən uzaqlaşır. Belə bir xüsusiyyət bizim üçün qorxulu və təhlükəli deyilmi?"

İmam Baqir(ə) Həzrət Peyğəmbərin(s) hüzurunda olan bir hadisəni danışdı: "Səhabələrdən bir neçə nəfər Həzrət Peyğəmbərin(s) yanına gəlib dedilər: "Ya Rəsulallah, elə bil ki, bizim qəlbimizdə münafiqlik və ikiüzlülük yaranıb. Biz bu haldan çox qorxuruq və narahat oluruq ki, bizdə nə üçün belə bir hal mövcuddur. Elə ki sənin yanında oluruq və sən bizə Allahı xatırladırsan, bizimlə söhbət edib bizi haqqa, mərifətə və cənnətə dəvət edirsən, bizim qəlbimizin

pası və qaralığı təmizlənir, ruhlarımız rahatlaşır. Dünyanın, mal-dövlətin, əhli-əyalımızın məhəbbəti qəlbimizdən çıxır. Biz sənin yanında olarkən elə bil axirəti, cənnəti və cəhənnəmi gözümüzlə görürük. Lakin səndən ayrılıb uzaqlaşdıqda öz övladlarımızı gördükdə və dünya işlərinə başımız qarışdıqda sənin yanında bizə gələn o hal aradan gedir. Elə bil sənin hüzurunda cənnət-cəhənnəmi görən adamlar deyilik. Ya Rəsulallah, bu, bizim üçün nifaq və münafiqlik deyilmi?”

Həzrət Peyğəmbər(s) buyurdu: “Xeyr, belə deyildir. Bu, şeytanın hiyləsidir. Şeytan sizi dünyaya tərəf çəkmək istəyir. Siz mənim yanımda olarkən qəlbləriniz rahat və aram olur. Çünki mənim yanımda şeytan yoxdur və sizin qəlbinizə daxil olub sizi yoldan çıxara bilmir. Lakin məndən ayrıldıqda şeytan sizin qəlbinizə girib sizi yoldan çıxarmaq istəyir.”

Sonra Həzrət Peyğəmbər(s) onlara belə buyurdu: “Əgər mənim yanımda sizə gələn halı həmişə özünüzdə saxlasanız, mələklər sizinlə görüşə gələrlər və siz suyun üzərində gəzə bilərsiniz.”

İmam Sadiq(ə) buyurur: “Günlərin birində bir nəfər Musa Peyğəmbərin(ə) hüzuruna gəlib ərz etdi: “Ya Musa, comərdlik nədir? Mən bu sözü camaat arasında tez-tez eşidirəm, amma mənasını dərk edə bilmirəm. Xahiş edərdim ki, comərdliyin mənasını mənim üçün açıqlayasan.” Həzrət Musa(ə) comərdliyin mənasını Allah-təaladan soruşdu. Allah-təala onun cavabında buyurdu: “Mən səni yaradarkən sənə pak, təmiz və şəffaf bir ruh vermişəm. Bir gün sən o ruhu Mənə qaytaracaqsan. Comərdlik odur ki, həmin ruhu Məndən aldığın kimi, Özümə qaytarasan. Əgər onu mənə təmiz və pak halda qaytara bilsən, comərd adamsan.”

Bu hədisdən görünür ki, insan mənəvi halı həmişə özündə saxlaya bilmir. Bu halı qoruyub saxlamaq çox çətindir. Amma əgər hər kim həmişə özündə mənəvi halı

qoruyub saxlaya bilsə, çox məsələlər onun üçün həllini tapar. Əgər insanın çətinliyi həll olunmursa və mənəvi halda qala bilmirsə, günahı özündə axtarmalıdır.

Odur ki, Həzrət Peyğəmbər(s) onlara buyurdu: "Əgər mənim yanımda sizə gələn halı həmişə özünüzdə saxlasanız, mələklər sizinlə görüşə gələrlər və siz suyun üzərində gəzə bilərsiniz." Sonra əlavə edərək belə söylədi: "Siz günah etdikdən sonra tövbə edirsiniz və Allah da sizi bağışlayır. Əgər siz heç bir vaxt günah etməsəydiniz və günah etmədiyiniz üçün tövbə də etməsəydiniz, Allah başqa insanlar yaradardı ki, onlar günah etsinlər və günah etdikdən sonra da tövbə edib Allahdan bağışlanmaq diləyərdilər. Beləcə, Allahın Ğəfur və Ğəffar (bağışlayan) sifətləri də üzə çıxardı."

Allah onsuz da bağışlayandır. Lakin onun bu sifəti günahı bağışlamaqla üzə çıxır. Əgər heç bir kəs günah etməsə, deməli, Allahın Ğəffar sifəti hamıya gizli qalacaq. Bu məsələnin daha aydın olması üçün bir misala diqqət yetirək. İnsanların içində paxıllıq mövcuddur. Paxıllıq insanın daxilində olan pis xislətlərdən biridir. Belə ki, insan paxıl olsa, imanı da puç olar. Hədislərdə də belə nəql olunur ki, od taxtanı yandırıb kül etdiyi kimi, paxıllıq da imanı eləcə yandırır. Paxıllığın insanın içində və onun xislətlərindən biri olması haram deyil. Onun zahir olub üzə çıxması qadağandır və haramdır. Yaxud şəhvət bütün insanlarda mövcuddur. Əgər bir insanda şəhvət yoxdursa, deməli, o insan xəstədir. İnsanın içində şəhvətin mövcud olması haram deyil. Amma kim onu haram iş üçün zahir etsə, haramdır. Şəhvətsiz insan mükəmməl ola bilməz. Hədislərdə deyilir ki, Allah-təala mələkləri ağıldan, heyvanları şəhvətdən, insanları isə həm ağıl, həm də şəhvətdən yaratmışdır. Şəhvət insanın bir hissəsini təşkil edir. Beləcə, bir insanın

ağlı şəhvətinə üstün gəlsə, o, mələkdən üstün olar. Çünki mələyin şəhvəti olmadığı üçün üzə çıxara bilmir. Amma insanda bu xüsusiyyət ola-ola daxilində mübarizə apararaq üzə çıxmağa imkan yaratmır. Həmçinin hər kimin şəhvəti ağlına üstün gəlsə, heyvandan da əksikdir.

Şəhvət insanda var, amma Allah-təala onun üçün müəyyən hədd təyin etmişdir. Şəhvəti Allahın qoyduğu həddən kənara çıxarmaq haramdır. Bəzi hallarda insana şəhvətini üzə çıxarmağa icazə verilir və bu halaldır. Əlbəttə, burada söhbət halal-haramdan deyil, insanın daxilində olan xislətlərdən gedir ki, onların zahir olub-olmaması üçün hədlər müəyyən olunmuşdur.

Allahın sifətlərindən biri də Ğəfurdur (bağışlayandır). Əgər bir insan günah etməsə və bağışlanmağa ehtiyacı olmasa, Allahın bu sifəti heç bir vaxt üzə çıxmayacaq. Allah istəyir ki, bu sifəti hamı üçün zahir və bəlli olsun. Beləliklə buradan elmi, dərin və geniş söhbətlər açılır ki, bu bəhsə toxunmayacağıq.

Bütün bunları danışmaqda məqsədimiz odur ki, Allahın hər bir sifəti öz yerində istifadə olunur. Quran da hər bir sifəti özünə uyğun yerlərdə zikr edir. "Yasin" surəsinin 5-ci ayəsində Əziz və Rəhim sifətləri zikr edilir. Həmin sifətlərin bu ayədə zikr olunmasının səbəbini açıqlamaq üçün ilk növbədə onların mənası ilə tanış olaq.

### İzzət nədir?

İzzətin mənası barədə alimlər kifayət qədər bəhs etmişlər. Bu sözün kökü "əzaz"dan götürülmüşdür. "Əzaz" kəlməsi bərk və möhkəm mənasını ifadə edir. Məsələn, "Ərzun əzaz" dedikdə bərk yer nəzərdə tutulur. Bəzi yerlər vardır ki, torpağı yumşaq olur və həmin yerin qazılması da çox rahatdır. Amma elə yerlər vardır ki, oranın torpağını

külünglə güclə qazmaq mümkündür. Həmin möhkəm olan yerə ərəb dilində "ərzun əzaz" ("möhkəm yer") deyilir. Sual oluna bilər ki, bu sözün "izzət" sözünə nə aidiyyəti var? Aidiyyəti budur ki, həmin yerə nüfuz etmək çox çətindir. Hər bir şeyə nüfuz etmək çətin olsa, ərəb dilində ona "əziz" deyilir. Məsələn, insan əllərini suyun içinə saldıqda su dəriyə hopur. Amma əllərə yağ sürtüb suya saldıqda su dəriyə hopmayacaq. Əgər su dəriyə nüfuz edə bilmirsə, ərəb dilində buna "əziz" deyilir. Lakin ümumi danışıqda, alimlərin sözlərində, hədislərdə və Quran ayələrində istifadə olunan "izzət" kəlməsi möhtərəm, ağır, güclü, sınmaz, misilsiz, bənzərsiz, sevimli, qiymətli mənalarını ifadə edir. Bütün bu mənaların hər birinin öz yeri vardır. "Əziz" bir kəlmədir, amma harada işlənməyindən asılı olaraq öz mənası vardır. Məsələn, "üzüm" bir sözdür və müxtəlif mənalarda işlənir. Ayrıca deyiləndə konkret olaraq hansı mənanı ifadə etdiyi məlum olmaz. Amma cümlə daxilində işlənərkən hansı mənanı ifadə etdiyi bəlli olur. Məsələn, "üzüm ağrıyır", "suda üzüm" və "üzüm yedim". Bu sözün mənası onun yanında işlənən sözlərdən bəlli olur. Qeyd edildi ki, "əziz" sözünün də müxtəlif mənaları vardır. Bu söz cümlə daxilində işləndikdə hansı mənanı ifadə etdiyi aydın olur. Quran ayələrinə diqqət yetirdikdə də görürük ki, "əziz" kəlməsi müxtəlif mənalarda işlənmişdir. Bir ayədə onun bir mənası, digərində isə tamamilə başqa bir məna daşıyır. Amma bəhsimizə uyğun olaraq ayələrdə Allah barəsində zikr olunmuş "Əziz" kəlməsi sınmaz, qüdrətli və həmişə qalib mənalarındadır. Həmçinin hər kim Allaha bağlı olsa, həmin sifətlər onda da yaranar. Məsələn, "Nisa" surəsinin 139-cu ayəsində oxuyuruq:

أيبتغون عندهم العزة فإن العزة لله جميعا

-Münafiqlər izzət və əzəməti onların (kafirlərin) yanında axtarırlar? Belə isə (bilsinlər ki,) həqiqətən bütün izzətlər Allaha məxsusdur.

Hər kəs izzət axtarmaq istəyirsə, bilsin ki, bütün izzətlərin hamısı Allahdadır. Allah qüdrətli və həmişə qalibdir. Hər bir şey Onun qarşısında acizdir. Buna görə də hər kim Allaha bağlı olsa, qüdrətli və əziz olacaq. İzzət və qüdrəti başqa bir yerdə tapmaq mümkün deyil. Ona bağlı olmayan heç vaxt izzətli ola bilməz. Tarix boyu - İslamdan öncə və ondan sonra da bu məsələ ilə bağlı təcrübələrin kifayət qədər şahidi olmuşuq. Həmin təcrübələr də bizi aldatmır. Hazırkı dövrümüzdə də bu mövcud təcrübələr məsələni olduğu kimi düz göstərir. Kim izzət və qüdrəti Allahdan başqa yerdə axtarıbsa, həmişə cəzasını çəkib.

Həzrət Yusif Peyğəmbər(ə) zindana düşdü və xeyli vaxt orada qalmalı oldu. O, zindana düşən günü iki nəfəri də zindana saldılar. Onlar Yusifi(ə) tanımırdılar, amma orada tanış olub adını öyrənmişdilər. Gecəni yatıb səhər yuxudan durdular. Onlardan biri dedi: "Gecə yuxuda gördüm ki, başıma çörək qoymuşam və bir quş da onu dimdikləyərək yeyir." O biri dedi: "Mən də yuxuda gördüm ki, üzümün suyunu çəkirəm." Yusif(ə) yuxuda üzüm suyu çəkənə dedi: "Sən buradan çıxandan sonra şahın şərab paylayanı olacaqsan." O birinə isə belə dedi: "Səni edam edərək asacaqlar. Elə həmin halda da sənin beynini quşlar yeyəcək." O, bu sözü eşidən kimi dedi: "Mən yalan deyirəm, yuxu görməmişəm." Yusif(ə) isə ona deyir: "Artıq gecdir."

Onların yuxuları çin çıxdı və hər şey Yusifin(ə) söylədiyi kimi düz oldu. Onlardan birini dara çəkdilər və quşlar onun beynini dimdikləyərək yedilər. İkincisi isə şahın sarayında şərab paylayan oldu. Onu zindandan çıxararkən

Yusif(ə) ona dedi: "İndi sən şahın yanına gedirsən, orada mənim adımı da çəkərsən. Qoy o, mənim zindanda olduğumu bilsin."

Allah-təala ona vəhy göndərərək buyurdu: "Ey Yusif, sənə quyudan kim nicat verdi? Yusif dedi: İlahi, Sən. Allah soruşdu: Züleyxa səni şərləyəndə beşikdəki uşağı kim dilə gətirdi? Yusif dedi: İlahi, Sən. Allah soruşdu: Züleyxanın əlindən sənə nicat verən kim idi? Yusif dedi: İlahi, Sən. Allah-təala buyurdu: Elə isə nə üçün Məndən başqasına pənah apardın?"

Yusif(ə) həmin bir kəlməyə görə yeddi il zindanda qalmalı oldu.[1]

Hər bir şey Allahın əlindədir. O, yenilməz bir qüdrət sahibidir. Allah bir anın içində hər bir şeyi dəyişə bilər. Bəzən dualarımızda oxuyuruq ki, İlahi, bizim pis halımızı gözəl hallara çevir. Yəni özümüz çalışıb əzmkarlıq göstəririk və Allaha yalvarırıq ki, pis halımızı yaxşı hallara çevirsin.

Tarixi mənbələrə görə, Harun ər-Rəşidin bərməkilərlə arası çox yaxşı idi. Bərməkilər böyük bir sülalədən ibarət idilər və həmişə Harunun ətrafında olardılar. Onların ən görkəmli nümayəndəsi isə Cəfər Bərməki idi. O, on yeddi il Harunun yanında olmuşdur. Hicri qəməri təqviminin 189-cu ilində onların dostluğu pozuldu. Harun bərməkilərin hamısının başına oyun açdı. Onlar əllərində olan bütün vəzifə və mal-dövlətlərini itirdilər.

Məhəmməd ibn Əbdürrəhman adlı bir nəfər deyir: "Qurban bayramı idi. Mən anamı təbrik etməyə getmişdim. Evə daxil olanda gördüm ki, bir qadın anamın yanında əyləşib. Anamla görüşüb bayramlaşdıqdan sonra o, mənə dedi: Oğlum, bu qadını tanıyırsanmı? Dedim: Xeyr. Anam

---

[1] Min bir əxlaqi hekayətlər, səh. 309.

dedi: Bu qadının adı Ubadə xanımdır. Cəfər Bərməkinin anasıdır.

Mən qadının Cəfər Bərməkinin anası olduğunu bildikdə çox təəccübləndim. Çünki bir zamanlar Cəfər Bərməkinin ad-sanı, mal-dövləti var idi. Necə ola bilir ki, bu gün onun anasını əldən düşmüş bir vəziyyətdə görürəm? Yaxınlaşıb salam verdikdən sonra soruşdum: Xala, vəziyyətin necədir? Mənə özünüz haqda nə danışa bilərsiniz?

Qadın dedi: “Sənə ibrətamiz bir əhvalat danışa bilərəm. Bir gün Qurban bayramında oğlum Cəfər mənim üçün dörd yüz kəniz gətirmişdi. Onların hamısı mənim qulluğumda dayanmışdılar. Bununla belə, yenə də oğlumdan narazı idim. Deyirdim ki, dörd yüz kəniz mənim üçün çox azdır. Fələyin çərxi elə döndü ki, bu gün iki qoyun dərisinə belə möhtac qalmışam. İki ədəd qoyun dərisi tapa bilmirəm ki, birini altıma sərib üstündə uzanım, birini də üstümə salım.”

Məhəmməd ibn Əbdürrəhman deyir: “Mənim ürəyim onun halına yandı. Çıxarıb ona 500 dirhəm pul verdim. O, həmin pulu götürüb elə sevindi ki, az qalırdı sevincindən ruhu bədənindən ayrılsın.”[1]

Beləliklə, izzətin mənası budur ki, əgər insan onu Allahda axtarsa və özünü Ona bağlaya bilsə, həmişə əziz olacaq. Yox, əgər insan izzətli ola bilmirsə, o zaman səhvini özündə axtarsın.

## İzzətin mənasını səhv anlayanlar

Qeyd olundu ki, lüğətdə “izzət” sözünün müxtəlif mənaları yazılıb. Yuxarıda bu barədə müəyyən qədər söz açdıq. Bununla bağlı olaraq bəhsimizə bir mətləbi də əlavə etmək yerinə düşərdi. Həmin mətləb də budur ki, bəzi

---

[1] 500 dastan, 1-ci cild, səh. 241.

insanlar "əziz" sözünü öz düşüncə və təfəkkürləri ilə mənalandırırlar. Yəni onlar öz düşüncələrini ölçü kimi irəli sürərək "əziz" sözündən müxtəlif mənalar çıxarırlar. Belə olduqda bu düşüncələr onlar üçün düzgün nəticələr vermir. Məsələn, bəziləri insanın izzətini yalnız pul, sərvət, mal-dövlət və s. kimi maddi şeylərdə görürlər. Bu düşüncəli insanlar məlum çərçivədən kənara çıxa bilmirlər. Elə başa düşürlər ki, pul və mal- dövlət olarsa, deməli insan izzətli olacaqdır. Belə təfəkkürə malik olan bir insan izzəti bu kimi şeylərdə gördüyü üçün hər cür zillətə baş əyməyə razı olur və hər cür ədalətsizliklə razılaşır. İslam dini baxımından belə bir təfəkkür yanlışdır. Çünki həyatda minlərlə sərvətli insan vardır ki, özlərinin bircə qəpiklik belə dəyəri yoxdur. Onlar öz aləmlərində özlərini əziz və izzətli hesab edirlər.

Bəziləri izzəti vəzifə və şöhrətpərəstlikdə görürlər. Elə başa düşürlər ki, yuxarı vəzifələrdə yer tuta bilsələr və şöhrətli ola bilsələr, deməli izzətə çatmışlar. Buna görə də həmin düşüncədə olan insan vəzifəyə çatmaq üçün hər cür cinayətə əl atmağa hazırdır. Əgər bütün tarix boyu yaşamış belə insanlardan danışası olsaq, onları saymaqla qurtarmaz. Tarix kökə və keçmişə qayıdışla bağlı olduğundan həmişə ondan nümunə və ibrət götürmək mümkündür. Ancaq təkcə keçmişdə deyil, yaşadığımız dövrdə də belə insanlara rast gəlirik. Vəzifə insan üçün izzət deyil. Ola bilsin ki, insan izzətə çatmaq üçün vəzifədən bir vasitə kimi istifadə etsin. Onun da min cür şərti və qayda-qanunu vardır. Vəzifə də izzətə çatmaq üçün bir vasitə ola bilər, əgər insan onun şərtlərinə dəqiqliklə riayət edərsə.

Bəziləri də izzəti özünü yuxarıdan aparmaqda, yaxud insanlarla sərt rəftar etməkdə görürlər. Belələri digər insanlarla məhəbbətlə rəftar etməyi, təvazökarlığı və ya

sülhsevərliyi özlərinə alçaqlıq bilirlər. Elə başa düşürlər ki, insanlara qarşı nə qədər sərt olsalar, bir o qədər də izzətli olacaqlar. Belə bir düşüncə və təfəkkürün əsası yoxdur. Tarixdə bu qəbil insanlara da çox rast gəlmək mümkündür. Nümunə üçün tarixin bir səhifəsinə baxaq. Kərbəlada çadırlar qurulduqdan sonra İmam Hüseyn(ə) göstəriş verdi ki, çadırların ətrafında xəndəklər qazsınlar. Aşura günü həmin xəndəkləri odunla doldurub yandırdılar ki, düşmənlər çadırlara hücum edə bilməsinlər. Bəzi kitablarda yazırlar ki, Şimr İmam Hüseyni(ə) səsləyərək deyib: "Özün üçün dünyada cəhənnəm düzəltmisən?"

Müslim ibn Övsəcə bu sözləri eşidib çox narahat oldu. Oxu kamana qoyub onu vurmaq istəyəndə İmam(ə) buyurdu: "Ona ox atma. İstəmirəm müharibəni birinci biz başlayaq (onlar başlayanda biz özümüzü müdafiə edərik)."

Onlar İmam Hüseynin(ə) üstünə hay-küylə tökülüşüb gəlmişdilər. Düşmənlər İmama(ə) və onun tərəfdarlarına tənə edirdilər. Rəcəz oxuyub qışqır-bağır salırdılar. Elə başa düşürdülər ki, bununla izzət əldə edirlər. Amma İmam Hüseyn(ə) onların heç bir sözünə və tənəsinə əhəmiyyət vermirdi. Onlar İmamdan(ə) güclə beyət və Yezidi təsdiq etməsini tələb edirdilər. İmam(ə) onların cavabında buyurdu: "Mən heç bir vaxt Müaviyənin pozğun törəməsi Yezidin qarşısında təhqir olunmağıma yol verməyəcəyəm. Mən heç bir vaxt onu təsdiq etməyəcəyəm. Mənim kimi insan heç bir vaxt onun kimilərə beyət etməz."

Əgər İmam Hüseyn(ə) o zaman Yezidi təsdiq edib onun qarşısında beyət etsəydi, bu gün bircə müsəlman belə başını dik tuta bilməzdi. Əgər onu təsdiq etsəydi, bu gün hər bir müsəlman cinayətkarların və pozğunların qarşısında başı aşağı dayanardı. Onlara deyərdilər ki, İmam Hüseyn(ə) etiraz etmədi, bəs sən nə üçün etiraz edirsən?

### İzzətin həqiqi mənası

İzzətin həqiqəti Allaha bağlıdır. Allah izzətli olduğundan hər kim ona bağlı olsa, izzət tapacaqdır. Çünki bütün izzətlərin hamısı Allaha məxsusdur. “Fatir” surəsinin 10-cu ayəsində oxuyuruq:

من كَانَ يرِيد الْعِزةَ فَلِلهِ الْعِزةُ جمِيعا

-Hər kəs şan-şöhrət, izzət-qüdrət və qələbə istəyirsə (bilsin ki,) bunlar birbaşa Allaha məxsusdur.

Əgər insan izzəti Allahdan savayı başqa hər hansı bir yerdə axtarsa, tapa bilməyəcəkdir. Əziz, izzət və qüdrət sahibi yalnız odur.

قَالَ رسولُ اللهِ(ص):ـان ربكم يقُول كُلّ يوم: أنا الْعزِيز فَمن أراد عِزّ الدّارين فَلْيطِعِ الْعزِيز

-Həzrət Peyğəmbər(s) buyurur: “Həqiqətən, Allah-təala (bəndələrə xitab edərək) hər gün belə buyurur: Əziz (izzətli) Mənəm. Hər kim iki dünyada izzətli olmaq istəyirsə, elə isə Əzizə itaət etsin.”[1]

قَالَ الحَسن(ع): ـإذا أردت عِزا ـبلا عشيرة، و هيبةً ـبلا سلْطان فَاخرج ـمِن ذُل معصِيةِ اللّهِ ـإلى عِز طاعةِ اللّهِ عزوجل

-İmam Həsən(ə) buyurur: “Əgər qohum-əqrəbaya bağlı olmadan izzətli, səltənət və vəzifəyə bağlı olmadan şəxsiyyətli olmaq istəyirsənsə, Allaha qarşı günah etməkdən uzaqlaş və Ona itaət et (günahın zillətindən çıx və Allaha itaət et).”[2]

Ona görə də əgər bir insan həqiqi izzəti tapmaq istəyirsə, bilsin ki, onu Allahın yanından savayı başqa heç bir yerdə tapa bilməyəcək. Bu izzəti də əldə etməyin

---

[1] Təfsiri-nümunə, 18-ci cild, səh. 193.
[2] Yenə orada, səh. 194.

yalnız bir yolu vardır ki, o da günahın zillətindən uzaqlaşıb itaətin izzətinə daxil olmaqdır.

Yaqub Ləys Səffar tarixə adı düşmüş böyük şəxsiyyətlərdən biri idi. Günlərin birində o, xəstələnib yatağa düşdü. Onun xəstəliyi o qədər ağır idi ki, müxtəlif həkimlər onu müayinə etmələrinə baxmayaraq, xəstəliyinə əlac edə bilmirdilər. Həkimlərdən biri ona deyir: "Təbabət elmi sizdən üzr istəyir. Biz sizin dərdinizə çarə tapa bilmədik." Nəhayət, onun yaxınları gedib arif və alim bir insanı evə dəvət edirlər və deyirlər: "Səndən xahiş edirik ki, onun üçün Allahdan şəfa diləyəsən." Həmin arif insan xəstənin üzünə baxdıqdan sonra əllərini göyə qaldırıb Allaha belə dua edir: "İlahi, günahın zillətini bu adama göstərmisən. Səndən diləyim budur ki, itaətin də izzətini ona göstərəsən." Allah-təala onun bu duasını qəbul edir və Yaqub Ləysə şəfa verir." [1]

Züleyxa Misirdə tanınmış, görkəmli saray xanımlarından biri idi. O, axırda elə bir vəziyyətə düşdü ki, xar-zəlil oldu. Qocalıb əldən düşdü və gözlərinin nurunu itirdi. Elə bir hala düşmüşdü ki, hətta küçələrdə dilənçilik belə edirdi. Şah sarayının möhtərəm xanımı indi küçələrdə əl açıb dilənirdi. Günlərin birində Züleyxa yenə də küçədə oturmuşdu. Hiss etdi ki, həmin küçədə izdiham və hay-küy var. Bir nəfərdən soruşdu ki, bu nə səs-küydür belə? Ona dedilər ki, Yusif bu küçədən keçəcək. O zaman Yusif artıq Misirin padşahı idi. Bütün səltənət onun ixtiyarında idi. Züleyxa dedi: "O, buradan keçəndə mənə də xəbər edin."

Yusif saray adamları ilə həmin küçədən keçərkən Züleyxaya da xəbər verdilər. Züleyxanın gözləri görmürdü, ayağa qalxıb nə qədər əlini yellədisə, Yusif onu görmədi.

---

[1] 500 dastan, 2-ci cild, səh. 296.

Bir neçə müddətdən sonra Züleyxa başqa bir küçədə dilənərkən yenə də səs-küy eşitdi. Soruşdu: “Burada nə baş verib belə?” Dedilər ki, bu gün Yusif buradan keçəcək. Züleyxa dedi: “Xahiş edirəm, Yusif bizim qarşımızdan keçəndə mənə də xəbər edin.” Yusif oradan keçərkən Züleyxaya xəbər verdilər. Züleyxa yenə də ayağa qalxdı və əlini qaldırıb havada yellədi. Lakin bu dəfə də Yusif onu görmədən ötüb keçdi.

Gecələrin birində Züleyxa yaşadığı çadırda xəyala dalmışdı. O, bütpərəst bir qadın idi və onun Sənəm adlı bir bütü var idi. Bir xeyli düşündükdən sonra o, həmin bütü götürüb qarşısına qoydu, əli ilə axtarıb yerdən bir daş parçası tapdı və bütü sındırmağa başladı. O, Sənəm adlı bu bütü sındıra-sındıra gözəl bir söz dedi. Onun bu cümləsini İmam Sadiq(ə) təsdiqləyərək bizlər üçün nəql edib. Züleyxa bütü sındırdıqdan sonra deyir:

سبحانَ الذِى جعلَ العِبِيد ملُوكاً لِطَاعَتِهم و جعلَ الْملُوك عَبِيداً لِمعصِيتِهم

-Pak və qüsursuzdur o Allah ki, qulları itaət və bəndəliklərinə görə padşah və padşahları da günahlarına görə qul etdi.

Bu sözlərdən sonra həqiqi Allahı tapıb ona ibadət etməyə başladı. Bütpərəstlikdən əl çəkib Allaha səcdə etdi. O, yenə də günlərin birində küçədə oturub dilənirdi. Birdən yenə də səs-küy eşitdi. Bir nəfərdən soruşdu: “Burada nə olub?” Dedilər ki, bu gün Yusif bu küçədən keçəcək. Züleyxa heç bir kəsə bir söz demədi. Öz-özünə fikirləşdi ki, Yusifin tanıdığı Allahı mən də tanımışam. Daha Yusif mənə lazım deyil.

Yusif böyük izdihamla həmin küçədən keçərkən Züleyxa ayağa qalxmadı və ona fikir vermədi. Lakin Yusif onu gördü, amma onun Züleyxa olduğunu bilmədi. Xidmətçilərini çağırıb dedi: "Orada əyləşən dilənçi qadına istədiyini verib onu razı salın." Xidmətçilər Züleyxanın yanına gəlib dedilər: "Sən kimsən və nəyə ehtiyacın var?" Züleyxa dedi: "Siz kimsiniz?" Dedilər: "Biz şahın xidmətçiləriyik. Bizi göndərib ki, ehtiyacını ödəyib səni razı salaq. İstəyini de." Züleyxa dedi: "Şahla görüşmək istəyirəm." Xidmətçilər dedilər: "Bu, mümkün deyil. Əgər ehtiyacın varsa, sənə dinar-dirhəm verə bilərik. Amma şahla görüşmək olmaz." Züleyxa dedi: "Mən sizi çağırmamışam. Özünüz gəlmisiniz və deyirsiniz ki, şah məni razı salmağınızı sizə tapşırıb. Mən də buna razı olaram ki, şahla görüşüm. Əgər mümkün deyilsə, gedə bilərsiniz. Sizə ehtiyacım yoxdur."

Xidmətçilər gəlib Yüsifə dedilər: "Bir qoca arvaddır, dilənçilik edir. Onun istəyi səninlə görüşməkdir. Bundan başqa heç nəyə razı olmadı." Yusif dedi: "Bəli, mən onu razı salmağa söz vermişəm. Əgər mənimlə görüşüb razı qalacaqsa, çağırın gəlsin." Görüş vaxtını təyin etdilər. Yusif taxtda əyləşmişdi. Züleyxanı onun hüzuruna gətirdilər. Yusif diqqətlə baxanda onun Züleyxa olduğunu gördü və dedi: "Züleyxa, bu, sənsən?" Züleyxa dedi: "Bəli, mənəm." Yusif dedi: "Sən hələ yaşayırsan?" Züleyxa dedi: "Yusif, nə üçün mənim ölməyimi arzu edirsən?" Yusif dedi: "Xeyr, mən sənin ölməyini arzu etmirəm. Sadəcə təəccübləndim ki, nə əcəb bu vaxta qədər ölməmisən."

Züleyxa bir vaxtlar Misirin əzizinin arvadı idi. Ona neçə-neçə qulluqçu xidmət göstərirdi. O, elə başa düşürdü ki, izzət içində yaşayır. Amma bir zaman küçələrə düşüb dilənçiliklə məşğul oldu. Heç bir kəs inanmazdı ki, Misirin

əzizinin arvadı bir gün dilənçi ola bilər. Bu vəziyyətə düşdükdən sonra başa düşdü ki, əgər özünü Əziz olan Allaha bağlamasa, heç vaxt izzətli ola bilməyəcək. Buna görə də ibadət etdiyi bütü sındırıb Allaha pənah apardı.

Bu kimi hadisələr tarixin uzaq səhifələrindən bəhs edir. Əlbəttə, bu hallar təkcə keçmişdə olmayıb. Yaşadığımız əsrdə də belə insanlara çox rast gəlmişik. Elə bir ölkə və ya şəhər yoxdur ki, orada belə insanların əhvalatı ilə rastlaşmayaq.

Hacı Zeynalabdın Tağıyev sovet hakimiyyətindən qabaq çox xeyirxah işlər görmüş tanınmış bir şəxs olmuşdur. Onun etdiyi yaxşılıqların sayı-hesabı yoxdur. Çoxlu mal-dövləti olmaqla yanaşı, həm də xeyirxah bir insan olduğu hamıya bəllidir. Hacının dövründə Şeyx Əli Turabi adlı ruhani bir insan yaşayırdı. Bir gün Şeyx Əli Zeynalabdının yanına gəlib deyir: "Hacı, gəlmişəm ki, sənə bir neçə kəlmə nəsihət və moizə edim." Zeynalabdın deyir: "Buyurun, sizi dinləmək mənim üçün xoşdur." Şeyx Əli deyir: "Hacı, sən yol çəkirsən, körpü düzəldirsən, su çəkirsən, məktəblər tikdirirsən və bir çox başqa xeyirxah işlər görürsən. Buna görə də hamı sənə minnətdardır. Bütün bu işlərinin hamısı çox gözəl, müqəddəs və xeyirxah işlərdir. Lakin qiyamət günü səndən "Malının xümsünü vermisənmi?" – deyə soruşanda körpü tikdirmişəm, su çəkdirmişəm və ya başqa xeyirxah işlər görmüşəm desən də sənin üzrünü qəbul etməyəcəklər. İnsan ilk növbədə vacib əməlləri yerinə yetirməlidir. Ondan sonra müstəhəb işləri yerinə yetirməyin böyük savabı vardır.

Hacı Zeynalabdın deyir: "Bəs indi mən nə iş görməliyəm?" Şeyx Əli deyir: "Gərək malının xümsünü verəsən." Hacı deyir: "Mal-dövlətimdən çıxaracağım xümsün miqdarı nə qədər olmalıdır?" Şeyx Əli deyir: "Beşdə bir hissəsi." Hacı Zeynalabdın bu məbləği hesablayıb görür

ki, həddindən artıq çoxdur. Ona görə də xümsü verməkdən imtina edir. Şeyx Əli isə ona deyir: "Hacı, bunu da bil ki, bu dünya karvanı həmişə belə qalmayacaq. Belə bir cah-cəlal həmişə insanın əlində qalmır. Bu gün belədirsə, başqa bir gün vəziyyət dəyişə də bilər. Əgər bu gün camaat nahar və ya şam etmək üçün sənin evinə toplaşırsa, haradan bilirsən ki, nə vaxtsa sən özün də şam yeməyinə kiməsə möhtac qalmayacaqsan? Çalış, axirətini yadından çıxarmayasan."

Şeyx Əli Turabi bu sözləri deyib gedir. Həmin əhvalatın üstündən çox keçmir ki, Azərbaycanda sovet hakimiyyəti qurulur. Zeynalabdın Tağıyevin bütün mal-dövlətini əlindən alır və özünü də həbsxanaya salırlar. Günlərin birində, axşamçağı Hacı ac olduğunu hiss edir. Həbsxanada qapının gözlüyündən kənarda dayanmış əsgəri səsləyib deyir: "Bu gün şam yeməyinə bizə nə verəcəksiniz?" O, bu sözü deyəndən sonra birdən-birə Şeyx Əli Turabi ilə etdiyi söhbət yadına düşür. Öz-özünə deyir: "Bir vaxt Şeyx Əli mənə demişdi ki, vaxt gələr, şam yeməyinə kiməsə möhtac qalarsan. Bu, elə həmin gündür." O, yaxınlarına bildirir ki, Şeyx Əlini görmək istəyirəm. Onu mənim yanıma gətirə bilərsinizmi. Deyirlər ki, Şeyx Əli rəhmətə gedib. Hacı Zeynalabdın deyir: "Onu harada dəfn ediblər?" Deyirlər: "Mərdəkanda." Hacı deyir: "Elə isə mən sizə bir vəsiyyət etmək istəyirəm. Məndən sonra bu vəsiyyətimə mütləq əməl edin. Vəsiyyətim budur ki, öləndən sonra məni Şeyx Əli Turabinin ayaqlarının altında dəfn edərsiniz."[1]

Bu vəsiyyətin mənası odur ki, Şeyx Əli Turabinin ayaqlarının bildiyini mənim başım belə bilmir. Mən güman etmirdim ki, iş bu yerə gəlib çıxa bilər.

---

[1]Yəni elə dəfn edilsin ki, başı onun ayaqları istiqamətində olsun.

Bu dünyada gözümüzün qarşısında hər gün kifayət qədər belə əhvalatlar baş verir. Əgər insan Allaha pənah aparsa, həmişə əziz olacaqdır. Bundan savayı başqa yollarda izzət axtaranlar heç bir vaxt buna nail ola bilməyəcəklər.

## Ayədə Əziz və Rəhim sifətlərinin zikr olunmasının səbəbi

"Yasin" surəsinin 5-ci ayəsində Qurani-Kərimin Əziz və Rəhim olan Allah tərəfindən nazil olunduğu bəyan edilmişdir. Həmin ayədə Allahın iki sifəti zikr olunub - biri Əziz, digəri isə Rəhim sifətləridir. Əziz sifəti barədə kifayət qədər müfəssəl şəkildə və lazımi qədər bəhs etdik. Lakin burada çox yaxşı olardı ki, bir mətləbi də bəhsimizə əlavə edək. Ayədə bu iki sifətin, yəni Əziz və Rəhim adlarının bir-birinin yanında gəlməsi onu bildirir ki, Allah-təala Əziz (qüdrətli) olduğu üçün kitab nazil etmiş, insanlara qarşı Rəhim (mərhəmətli) olduğu üçün isə peyğəmbər göndərmişdir.

Bəzi alimlər də bildirmişlər ki, bu iki sifətin eyni bir ayədə işlənməsi belə bir məna kəsb edir ki, həmin kitab nazil olduqdan sonra insanlar iki qrupa bölünəcəklər. Bir qrup insdan Allaha iman gətirərək Quranı qəbul edəcək, digər qrup isə iman gətirməyəcəkdir. Yaxud belə deyək ki, bu kitab nazil olduqdan sonra bir qrup insan onu qəbul edib iman gətirəcək, digəri isə qəbul etməyəcək. İman gətirməyənləri Allah-təala Öz qüdrəti ilə hədələyir. Belə ki, Allahın onlara heç bir ehtiyacı yoxdur. Kitabı nazil etməsi isə məhz onların xoşbəxt olmaları, ağ günə çıxmaları, yoldan çıxmamaları və nəhayət, məqsədə çatmaları üçündür. Əgər onlar iman gətirmirlərsə, kitabı qəbul etmirlərsə, Allah-təala göstərilən ayədə Öz qüdrətini onlara xatırladır. Amma hər kim iman gətirib Allahın nazil etdiyi kitabı da

qəbul edirsə, Allah-təala orada Rəhim sifətini zikr etməklə onları öz mərhəməti ilə müjdələyir. Deməli, ayədə iki sifətin yanaşı zikr olunması buna dəlalət edir ki, Allah-təala iman gətirməyənləri Əziz sifəti ilə hədələyir, iman gətirənləri isə Rəhim sifəti ilə müjdələyir.

## 6-cı AYƏSİNİN TƏFSİRİ

**لِتُنذِرَ قَوْمًا مَّا أُنذِرَ آبَاؤُهُمْ فَهُمْ غَافِلُونَ.٦**

**6. (Bu kitabla) elə bir qövmü qorxudasan ki, ata-babaları qorxudulmamışlar, buna görə də onlar qafildirlər.**

Allah-təala bu surədə Həzrət Peyğəmbərə(s) xitab edərək Qurana and içdikdən sonra buyurur ki, həqiqətən sən peyğəmbərlərdənsən. Bu kitab Əziz və Rəhim olan Allah tərəfindən nazil olmuşdur. Bütün bunları bəyan etməyin əsas səbəbi isə həmin surənin 6-cı ayəsində vurğulanmışdır. Burada belə buyurulur: “Elə bir qövmü qorxudasan ki, ata-babaları qorxudulmamışlar, buna görə də (din həqiqətlərindən) qafildirlər.”

Ayədə işlənmiş «لتنذر» “litunzirə” «انذار» “inzar” sözündən götürülüb, mənası isə hidayət məqsədilə qorxutmağa deyilir. Əgər hidayət məqsədilə qorxutmaq olmasa «انذار» “inzar” sözünün mənası düzgün çıxmayacaq. Məsələn, «انذار» “inzar” sözünün bir mənası ayağının altını görməyən insanı qarşısındakı quyuya düşə biləcəyi ilə bağlı ciddi xəbərdarlıq etməkdir. Belə ki, həmin insan əgər ayağının altına baxmadan iki addım da atmış olsa, mütləq quyunun dibinə düşəcəkdir. Deməli, Allah-təala tərəfindən kitab nazil olması və peyğəmbər göndərilməsinin əsas səbəbi budur ki, peyğəmbər insanlara ciddi şəkildə xəbərdarlıq edib onları qorxutsun.

### Lütf və mərhəmət qaydası

Burada haşiyə olaraq bir mətləbi də qeyd etməyə ehtiyac duyulur. Həmin mətləb də budur ki, dünyada insana neçə cür baxış vardır.Həmin baxışlardan biri isə iqtisadi baxışdır. Bəziləri elə düşünür ki, bir maşın, yaxud

elektrik avadanlığının hissələri olduğu kimi, insan da yaşadığı mühitdə həmin hissələrin rolunu oynayır. Yəni insan günbəgün iqtisadi baxımdan inkişaf etməlidir. İnsana olan bu baxış iqtisadi çərçivədə olan baxışdır. İkinci baxış isə insana şəhvət cəhətindən olan baxışdır. Yəni bəziləri insana yalnız şəhvət baxımından baxırlar. Düşünürlər ki, insan o zaman kamilliyə yetişə bilər ki, öz şəhvətinin tələbatını istənilən yollarla ödəyib onu razı salsın. Əgər bir insan şəhvətini hansısa bir yolla razı salırsa, bu, onun məqam və kamilliyindən xəbər verir. Bu da insana olan baxışlardan biridir. Əlbəttə, alimlər qeyd olunan bu mətləblərin hər biri barədə kitablar yazmış, kifayət qədər müzakirələr aparmışlar. Həm Qərb alimləri, həm də Şərq alimləri bu barədə müxtəlif fikirlər irəli sürmüşlər. Amma bu iki baxışla müqayisədə İslam dininin insana baxışı tamamilə fərqlidir. İslam dini bu iki baxışın heç birini qəbul etmir və insanın nə iqtisadi varlıq olması, nə də onun öz şəhvətini razı salaraq kamilləşə bilməsi ilə razılaşmır. İslam dini insana çox yüksək baxışlarla baxır. İnsan məxluqların ən üstünü olduğundan hər bir şey onun xidmətindədir. İnsan xilqətin mehvəridir. Allah insanı şərəfli və hörmətli bir varlıq olaraq yaratmışdır. “İsra” surəsinin 7-ci ayəsində buyurulur:

ولَقَد كَرمنا بِني آدم

-Biz, Adəm övladını şərəfli və hörmətli etdik.

Yəni Allah-təala insana o qədər hörmət, kəramət və şərafət bəxş etmişdir ki, aləmdə hər bir şeyi onun ixtiyarına qoymuşdur. “Loğman” surəsinin 20-ci ayəsində belə buyurulur:

أَلَم تروا أن الله سخر لَكُم ما فِي السماواتِ وما فِي الْأَرض

-(Ey İnsanlar!) Məgər Allahın göylərdə və yerdə olanları (günəşi, ayı, ulduzları və buludları; meyvələri, bitkiləri, dənizləri, çayları və gölləri) sizə ram etdiyini (sizin istifadənizə verdiyini), aşkar (görmə, eşitmə, sağlamlıq) və gizli (əql, şüur, fəhm, elm və s.) nemətləri sizə bolluca ehsan etdiyini görmürsünüzmü?

Ayələrdən açıq-aydın şəkildə başa düşmək olur ki, bu aləmdə insandan şərəfli və əziz bir vücud yoxdur. Allah yerdə və göylərdə olanların hamısını insan üçün yaratmışdır. İnsan çox əzəmətli bir varlıqdır. Bu əzəmətli varlığın özü də üç cəhətdən ibarətdir: maddi, ictimai və mənəvi. Deməli, insan həm maddi, həm mənəvi və həm də ictimai bir varlıqdır. İnsanın başqa varlıqlardan üstün olması məhz onun mənəvi cəhəti ilə bağlıdır. Maddi cəhətdən digər canlı varlıqlarla müqayisə etdikdə görürük ki, insan da onlar kimidir. Yəni insanın ailə qurması, yemək yeməsi və su içməsi kimi, digər canlı varlıqlar da cütləşirlər, yeyir və içirlər. İnsanlara daldalanmaq üçün ev lazım olduğu kimi, digər canlıların da yuvaya ehtiyacı vardır. Hər bir canlı varlıq özünəməxsus şəkildə özü üçün bir yuva qurur. Maddi cəhətdən də insan digər canlı varlıqlar kimidir. İctimai cəhətə gəldikdə, yenə də görürük ki, digər canlılar da ictimai şəkildə yaşayırlar. Arılar, qarışqalar kimi bəzi digər canlılar da təbiətdə ictimai şəkildə yaşayırlar. Əgər bir arını, yaxud qarışqanı bir qabın içinə qoyub tək saxlamaq istəsək, ya artıb çoxalacaq, ya da öləcəkdir.

Beləcə, biz görürük ki, digər canlı varlıqlar da maddi və ictimai cəhətdən insanlarla müştərəkdirlər. Lakin insanı digər canlı varlıqlardan fərqləndirən əsas və ən üstün cəhəti onun mənəviyyatıdır. İnsandan onun mənəvi cəhətini ayırmaq qeyri-mümkündür və mənəvi cəhət onun ayrılmaz

hissəsidir. Ona görə də insanın mənəvi cəhətini heç bir vaxt inkar etmək mümkün deyil. İnsanı digər canlılardan ayırıb insan edən də məhz onun mənəvi cəhətidir. İnsanın qiyməti və dəyəri də onun mənəvi cəhəti ilə sıx şəkildə bağlıdır. Allahın insanı yaratmaqda da məqsədi var. Əgər Allah insanları özbaşına buraxsa, belə çıxır ki, öz məqsədinin əleyhinə iş görmüşdür. Buna görə də Allah-təala heç bir vaxt öz məqsədinin əleyhinə iş görməz və insanı özbaşına buraxmaz.

Kitablarda bu mətləbə dair belə bir misal da çəkmişlər: - Aşpaz yemək bişirmək üçün bütün ərzaq məhsullarını hazırlayır. Lakin yemək hazırlamaq üçün mətbəxdə qaz plitəsi və ya elektrik sobası yoxdur. Əgər insanı da özbaşına buraxsalar, eynilə bu misala bənzəyər. Digər bir misalda isə belə buyurulur ki, icra başçısı şəhərdəki bütün yolları təmir edərək asfalt örtüyünü təzələyir, lakin küçələr isə hələ işıqlandırılmayıb. Yaxud şirkət müdiri bütün işçilərini qonaqlığa dəvət edir, amma ünvanı onlara demir. Heç bir kəsə məlum olmur ki, müdir harada qonaqlıq verəcək. Amma bütün bu misallardan fərqli olaraq Quran buyurur ki, biz insanı yaratdıq, onun maddi və ictimai cəhətlərini təmin etməklə yanaşı, daha mühüm və əsas cəhəti kimi qəbul edilən mənəvi cəhətini də təmin etmək bizim öhdəmizdədir. “Ləyl” surəsinin 12-14-cü ayələrində oxuyuruq:

إِنَّ عَلَيْنَا لَلْهُدَىٰ. وَإِنَّ لَنَا لَلْآخِرَةَ وَالْأُولَىٰ. فَأَنذَرْتُكُمْ نَارًا تَلَظَّىٰ

-Şübhəsiz, hidayət etmək Bizim öhdəmizdədir. Və şübhəsiz, axirət də, dünya da Bizə məxsusdur və Bizim iradəmizə tabedir. Beləliklə, (Mən) sizi şölələnən oddan çəkindirdim.

عَنْ هِشَامِ بْنِ الْحَكَمِ عَنْ أَبِي عَبْدِ اللَّهِ(ع) أَنَّهُ قَالَ لِلزِّنْدِيقِ الَّذِي

سأله مِن أين أثْبت الْأنِبياءَ و الرسلَ؟ قالَ: إِنا لَما أثْبتنا أنّ لَنا خالِقاً
صانِعاً متعالِياً عنا و عن جمِيعِ ما خلَق و كانَ ذَلك الصانِع حكِيماً
متعالِياً لَم يجز أنْ يشاهِده خلْقُه و لَا يلَامِسوه فَيباشِرهم و يباشِروه
و يحاجهم و يحاجوه ثَبت أنّ لَه سفَراءَ فِي خلْقِهِ يعبرونَ عنه إِلَى
خلْقِهِ و عِبادِهِ و يدلّونهم علَى مصالِحِهم و منافِعِهم و ما بِهِ
بقَاؤهم و فِي تركِهِ فَناؤهم... هم الْأَنبِياءُ عليهم السلام. لِكَيلَا
تخلُو أرض اللّهِ مِن حجةٍ

-Hişam ibn Həkəm deyir: "İmam Sadiq(ə) *("Peyğəmbərləri hansı yolla sübuta yetirərsən?" - deyə soruşan zındığa cavabında) belə buyurdu:* "Çünki (bundan əvvəl) sübut etmişik ki, bizdən və bütün yaratdıqlarından üstün bir yaradanımız vardır. O yaradan hikmət sahibi və ucadır. Belə ki, (Onun əzəmətinin böyüklüyündən və məxluqatın Onu zahiri hisslərlə dərk edə bilmədiklərinə, fiziki cəhətdən Onunla əlaqə saxlaya bilmədiklərinə görə) bizim yaratdıqlarımızın onu görüb toxunmaları, bunun nəticəsində isə bir-birilə vasitəsiz birbaşa əlaqə yaradıb mübahisə etmələri rəva deyil. (Beləliklə) Sübut olunur ki, öz yaratdıqları arasında Onun sözlərini bəndələrinə və yaratdıqlarına bəyan edərək onları xeyirlərinə, mənafelərinə, əbədi qalmaq və məhvolma amillərinə yönəldən elçi və nümayəndələri var... Onlar da peyğəmbərlərdir. Allahın salamı olsun onlara. Təki yer üzü höccətsiz qalmasın."[1]

---

[1] Üsuli-Kafi, 1-ci cild, səh. 236.

Odur ki, hər bir zamanda Allahın yer üzərində höccəti olmuş, vardır və olacaqdır. Dünyada cəmi iki nəfər insan olsa da belə yer üzünün höccətsiz qalması mümkün deyil.

قَالَ الصادِق(ع): لَو كَانَ الناس رجلَين لَكَانَ أَحدهما الإِمام. وقَال: إِن آخِر من يموت الإِمام. لِئَلاَّ يحتج أَحد على اللّهِ عز وجل أَنه تركَه بِغير حجةٍ لِلّهِ علَيهِ

-İmam Sadiq(ə) buyurur: “Əgər yer üzündə cəmi iki nəfər qalsa da belə onlardan biri imamdır (Allahın höccətidir). Həqiqətən dünyanı tərk edən sonuncu insan da imamdır. (Yer üzünü sonuncu tərk edən şəxs ona görə imam olmalıdır ki,) bir kəs dünyada Allahın onu höccətsiz qoyduğunu bəhanə etməsin.”[1]

Yer üzündə ilk yaranmış insan Adəm Peyğəmbər(ə) olmuşdur. O, Allahın yer üzərində peyğəmbəri və höccətidir. Həmçinin yer üzündə dünyanı tərk edən sonuncu insan da imam və Allahın höccəti olacaqdır. Buna görə ki, yer üzü bir an da olsun (insanlar üçün) höccətsiz qalmasın. Allah insanlar üçün iki höccət qərar vermişdir. Onlardan biri zahiri höccətdir ki, bunlar peyğəmbərlər və imamlardır. Biri də insanın daxilindəki höccətdir ki, bu da onun ağlı hesab edilir.

Hüşam ibn Həkəm deyir: “Bir gün İmam Musa ibn Cəfər(ə) mənə belə buyurdu:

يا هشام أن لِلّهِ على الناسِ حجتين. حجةً ظَاهِرةً و حجةً باطِنةً. فَأَما الظاهِرة فَالرسول و الأَنبِياء و الأَئِمة و أما الباطِنة فَالعقُول

-Ey Hüşam, Allahın yer üzündə iki höccəti vardır: biri zahiri höccət, digəri isə batini (daxili) höccət. Zahiri höccət

[1] Üsuli-Kafi, 1-ci cild, səh. 254.

peyğəmbərlər və imamlardır. Batini höccət isə insanın ağlıdır.[1]

İnsan onsuz da öz ağlı ilə Allahı tapa bilər. Hər bir kəs başa düşür ki, bir gün yaranan bir gün də öləcəkdir. Ola bilməz ki, onun üçün dünyada hər bir şeyi yaratsınlar və o da 30-40 il şəhvətpərəstlik etsin, yaxud ona gözünün üstə qaşın var deyən olmasın. İnsan başqa canlı varlıqlardan tamamilə fərqlidir. Əgər dağın üstündən iri bir daş parçası bir nəfərin başına düşərək onu öldürsə, heç bir kəs o daşdan soruşmaz ki, nə üçün bu insanı öldürdün. Və ya ilan bir nəfəri çalıb öldürür. Harada görünüb ki, ilanı cinayət məsuliyyətinə cəlb etsinlər. Əgər öküz bir insanı vursa və buynuzu ilə onun qarnını yırtsa, heç bir kəs öküzə hədə-qorxu gəlməz və onu həbsxanaya salmaz. Çünki daş, torpaq və heyvanlar məsuliyyət daşımırlar. İnsan hətta baxışlarına görə də sorğu-sual oluna bilər. Məsələn, bir insan uzaqdan başqasına gözünü ağardırsa, yanındakı dərhal ondan soruşur ki, nə olub? Bu onu bildirir ki, insanın hətta gözünü ağartması, başını və barmağını tərpətməsi kimi bütün hərəkətlərinin də bir mənası olduğundan istənilən hər bir halda məsuliyyət daşıyır. Odur ki, insanın rənginin dəyişməsi, qızarıb bozarması, boğazının damarının şişməsi və s. kimi əlamətlərinin hamısının özünəməxsus mənası vardır.

Ona görə də insan öz ağlı ilə yolu tanıyır, ümumi şəkildə yaradanın olduğunu başa düşür və öldükdən sonra sorğu-sual olunacağını bilir. Amma peyğəmbərlərin göndərilməsi Allahın lütf və mərhəmətidir. Kəlam elmində bir qayda vardır ki, onun adına lütf və mərhəmət qanunu deyilir. Yəni Allah-təala peyğəmbərləri göndərməklə insanlara xüsusi lütf inayət və mərhəmət etmişdir. Bu mətləbi daha

---

[1] Təfsiri-nümunə, 6-cı cild, səh.26; Tuhəful-üqul, səh. 406.

açıq-aydın şəkildə başa düşmək üçün bir misala müraciət edək. Məsələn, tutaq ki, bir nəfər evində qonaqlıq verir və tanış bir şəxsi həmin qonaqlığa dəvət edir. Dəvət etdiyi şəxsə öz ünvanını da verir ki, yolu tapa bilsin. Evi rahat tapmaq üçün hətta evin telefon nömrəsini də ona verir. Yəni dəvət edən insan öz ünvanını tam dəqiqliklə həmin şəxsə təqdim edir. Deməli, dəvət edənin vəzifəsi odur ki, öz ünvanını tam dəqiqliklə dəvət olunana versin. Bu halda dəvət olunan şəxs həmin ünvanı tapa bilmirsə, deməli, təqsir onun özündədir. Lakin dəvət edən öz-özünə fikirləşir ki, birdən qonaq gəlib evin ünvanını səhv sala bilər. Bunun üçün mərhəmət göstərərək dəvət etdiyi şəxsə deyir ki, səni qarşılamaq üçün tanıdığın bir adamı da yaşadığımız məhəllədə qoyacağam. Sən gələndə o, evi göstərəcək. Dəvət edən şəxs daha çox mərhəmət göstərərək həmçinin bildirir ki, mən sənin tanıdığın bir şəxsi də bu qonaqlığa dəvət etmişəm. Bizim evi yaxşı tanıdığı üçün ona tapşıraram ki, səni də öz maşını ilə gətirsin. Əgər ev sahibi dəvət olunanın xətrini daha çox istəyirsə, onun ardınca maşın da göndərir. Bu, dəvət edən şəxsin çox böyük lütfü və mərhəmətidir. Əgər dəvət olunan bütün bu mərhəmətlər sayəsində həmin qonaqlığa gələ bilmirsə, deməli, bu onun öz nöqsanıdır.

Allah da peyğəmbərləri göndərməklə insanlara xüsusi bir lütf etmişdir. Əgər göndərməsəydi belə insan öz ağlı ilə yolu axtarıb tapmalıdır. Lakin insanların yolunu azmaması və rahat yaşamasından ötrü Allah-təala lütf edərək peyğəmbərləri də göndərib. Peyğəmbərlər də insanların əlindən tutaraq onları Allaha sarı hidayət edirlər.

قَالَ رسولُ اللهِ(ص): يا عِلِي! لأن يهدِي اللهُ علَى يديك رجلاً خير لَك مِما طَلَعت علَيهِ الشمس مِن مشارِقها و مغارِبها

-Həzrət Peyğəmbər(s) Həzrət Əliyə(ə) buyurdu: "Ya Əli, əgər Allah-təala Öz bəndələrindən bircə insanı sənin əlinlə hidayət edərsə (Allahın bircə bəndəsini düz yola qaytarıb hidayət etsən), bu sənin üçün günəşin məşriq və məğribdə üzərinə nur saçdığı hər bir şeydən daha xeyirlidir."[1]

Bu hədisdən açıq-aydın şəkildə görürük ki, insanları, hətta bir nəfəri belə hidayət etmək çox mühüm məsələdir. Bir insanı Allah yoluna hidayət etmək günəşin məşriqdən məğribə qədər nur saçdığı hər bir şeydən daha xeyirli və üstündür. Şəhidlik və cihad barədə olan hədislərin birində döyüşçünün evindən çıxaraq Allah yolunda cihad etməsi və şəhid olana qədər döyüşməsi haqda o qədər fəzilət və üstünlüklərdən söz açılır ki, insan onları oxuduqda şəhid olmağı arzulayır. Həmin hədisin axırında belə buyurulur: "Allah-təalanın sənin əlinlə bir nəfəri hidayət etməsinin savabı bu cihadın savabından daha üstündür."

Həzrət Peyğəmbər(s) ömrünün axırına qədər insanları hidayət etməklə məşğul olmuşdur. Bütün çətinliklərə, döyülməsinə və söyülməsinə baxmayaraq, həmişə insanları hidayət etməyə çalışmışdır. Ümumiyyətlə, Həzrət Peyğəmbərin(s) vücudu belə insanlar üçün hidayət mənbəyi idi. Sanki bütün küçələri təmizləyib abadlaşdırmışlar və Həzrət Peyğəmbər(s) də o küçələrin işığıdır. Hər bir kəs bu işığın vasitəsilə ayağının altını görür və yolu düzgün gedir.

Əsəd ibn Zurah Mədinədən Məkkəyə gələrək Həzrət Peyğəmbərə(s) iman gətirən ilk şəxs olmuşdur. Günlərin birində o, Məkkəyə yollanır və Ütbə ilə dost olduğundan onunla görüşür. Ütbə ondan Məkkəyə gəlməsinin səbəbini soruşur. Əsəd deyir ki, rəcəb ayı olduğu üçün Ümrə ziyarətinə gəlmişəm. Ütbə ona başa salır ki, Məkkədə vəziyyət tamamilə

---

[1] 500 dastan, 1-ci dastan, səh. 555.

başqa cür olub. Bir nəfər cavanları yoldan çıxarmaqla məşğuldur. O, peyğəmbər olduğunu iddia edir və bütün evlərə ixtilaf salıb. O, elə bir cadugərdir ki, onunla danışan hər bir kəsi yoldan çıxarır. Kəbəni ziyarət edərkən və təvafda olarkən ayıq olmalısan. Qulaqlarına pambıq tıxa ki, birdən onunla rastlaşdıqda sözlərini eşidib təsiri altına düşməyəsən.

Əsəd qorxuya düşüb onun dediyi kimi qulaqlarına pambıq tıxayaraq təvaf etməyə yollanır. Təvafın şirin yerində əzəməti camalından bəlli olan bir nəfərin gəldiyini görür. O, ətrafındakı adamlarla söhbət edə-edə təvafa girdi. Əsəd onu gördükdən sonra öz-özünə dedi: "Mən qulaqlarımı nə üçün bağlamışam? Heç olmasa onun səsini eşidim. Uşaq deyiləm ki, hər bir sözlə aldanıb yoldan çıxım." Beləcə, o, qulaqlarından pambığı çıxarıb öz-özü ilə danışa-danışa Həzrət Peyğəmbərə(s) yaxınlaşdı və dayanıb Həzrətin(s) üzünə baxmağa başladı. Həzrət Peyğəmbər(s) ətrafındakılarla söhbət əsnasında üzünü Əsədə tutaraq buyurdu: "De: Salam olsun sizə." Əsəd salam verdikdən sonra ürəklənib soruşdu: "Sənin məqsədin nədir və camaatı nəyə dəvət edirsən?" Həzrət Peyğəmbər(s) buyurdu: "Mən insanları bütlərdən əl çəkib yeganə olan Allaha ibadət etməyə dəvət edirəm. Mənim Allah tərəfindən peyğəmbər olduğumu və risalətimi insanlara çatdırıram. Mən insanları valideynlərə yaxşılığa, övladlarını öldürməməyə, pisliklərdən uzaqlaşmağa çağırıram. Mənim məqsədim budur ki, yer üzündə insan qanı tökülməsin, insanlar yetimlərin malını yeməsinlər..."

Həzrət Peyğəmbər(s) bütün bunları sadaladıqdan sonra Əsəd dedi: "Şəhadət verirəm ki, sən Allahın peyğəmbərisən."[1]

Həzrət Peyğəmbərin(s) nuraniyyəti o qədər böyük idi

---

[1] 500 dastan, 2-ci cild, səh. 66.

ki, kiminlə azacıq söhbət edirdisə ona təsir göstərir və hidayət edirdi. Hidayət etdiyi insanın imanı elə möhkəm olurdu ki, heç bir kəs həmin insanı imanından döndərə bilmirdi.

Səd ibn Malik on yeddi yaşında iman gətirmişdi. İslam dininin ilk vaxtlarında müşriklər onu da çox incidirdilər. Bütün bunlara baxmayaraq, o, Həzrət Peyğəmbərdən(s) güc alır və imanını daha da möhkəmləndirirdi. Namaz qılarkən də ona mane olurdular. Camaat Peyğəmbəri(s) incitdikləri kimi, onun da başına zibil tökür və yolunun üstünə tikanlar atırdılar. Onu da təhqir edib söyərdilər. Səd gündə bir neçə nəfərlə dərələrin birində namaz qılıb qayıdardı. Günlərin birində həmişə olduğu kimi dərədə ibadətlə məşğul idilər. Elə bu zaman müşriklər onları yaxaladılar. Söz-söhbətdən sonra əlbəyaxa oldular. Səd yerdən bir dəvə sümüyü götürüb müşriklərdən birinin başına vurdu. Həmin müşrik çoxlu qan itirdiyindən elə oradaca öldü. Tarixi mənbələrdə də yazılıb ki, İslam uğrunda ilk dəfə müşrikin başından tökülən qan elə həmin yerdə və bu qan olmuşdur.

Sədin anası onun müsəlman olmasına görə çox narahat idi. İstəmirdi ki, oğlu gedib Həzrət Peyğəmbərə(s) qoşulsun. Ancaq oğlunu çox danlamasına baxmayaraq, heç bir faydası olmurdu. Günlərin birində ana oğluna deyir: "Oğlum, əgər sən tutduğun bu yoldan dönməsən, mən aclıq elan edəcəyəm. Acından ölənə qədər dilimə yemək vurmayacağam." Səd dedi: "Ana, mən dinimdən əl çəkməyəcəyəm. Xahişim budur ki, sən də həmin işi görmə və yeməyinə fikir ver." Lakin onun anası qərarında çox israrlı olduğundan bir neçə gün dilinə yemək vurmadı. Bir gün Səd anasına baxıb gördü ki, arvad azca zəifləyib. Öz-özünə fikrə daldı. İmanını, analıq məhəbbətini, dinini düşünə-düşünə fikrə getdi və sonra anasına belə dedi:

"Ana, sənin min canın olsa və bütün bu canların acından ölsə belə, mən öz dinimdən əl çəkməyəcəyəm. İndi isə qərar və seçim sənindir. İstəyirsən ac qal, istəyirsən yemək ye. Mən sənin qulluğundayam və sənin bütün sözlərinə əməl etməyə hazıram. Amma sənin ixtiyarın yoxdur ki, mənim imanıma qarışasan. Sən məni cəhənnəmə getməyə vadar edə bilməzsən. Əgər məni sevirsənsə, dinimlə işin olmasın." Anası bu sözlərdən sonra öz inadkarlığını bir kənara qoyaraq daha oğlunu dinindən əl çəkməyə məcbur etmədi.[1]

Odur ki, Həzrət Peyğəmbər(s) insanları hidayət edir və yollarına işıq salaraq onlara doğru yolu göstərirdi. Ağıllı insanlar bu yolun axırının aydın olduğunu görürdülər. Onlar bu yolun əvvəldən axıradək zərrə qədər də olsa qaranlıq, zülmət içində olmadığını gördüklərindən möhkəm və səmimi qəlbdən iman gətirirdilər. Bu imanla da tutduqları yolu gedib öz məqsədlərinə çatırdılar.

Qeyd olundu ki, ayədə işlənmiş "inzar" kəlməsi ciddi xəbərdarlıq və hidayət məqsədi ilə qorxutmağa deyilir. Yəni bir məsələnin sonunun təhlükəsindən xəbəri olmayan insanı ciddi şəkildə xəbərdar edib qorxutmağa "inzar" deyilir. Çünki məsələ çox mühümdür və insanın taleyi ilə əlaqədar olan bir məsələdir. Belə ki, əgər insanın həyatının sonu cəhənnəmlə bitəcəksə, bu təbii ki, onun üçün çox pisdir. Ona görə də Allah-təala insanları bu kimi məsələlərdən xəbərdar etmək üçün peyğəmbər göndərmişdir. Ola bilər ki, kimsə bizi başa salan, yaxud xəbərdar edən olmayıb desin. Allah insanlara ağıl verməklə yanaşı, onları başa salmaq üçün lütf edib peyğəmbərlər də göndərmişdir.

Peyğəmbərlərin göndərilməsi Allahın insanlara olan

---

[1] 500 dastan, 2-ci cild, səh. 65.

xüsusi mərhəmətidir. Aydın bir məsələdir ki, ağıl da insanı hidayət edir. Buna görə də dinin əsaslarında kimisə təqlid etmək olmaz. Tövhid, ədl, nübüvvət, imamət və məad kimi məsələləri insan öz ağlı ilə düşünüb aydınlaşdırmalıdır. Bu kimi məsələlərdə ona görə təqlid etmək olmaz ki, bunlar ağılla həll oluna bilən məsələlərdir.

Rəvayətlərdə belə nəql olunur ki, Həzrət Peyğəmbərin(s) dövründə savadsız qoca bir qadın cəhrədə yundan ip toxuyurdu. Həzrət Peyğəmbər(s) ona yaxınlaşıb soruşur: "Sən Allahın varlığını necə başa düşürsən?" Qoca qadın işlətdiyi cəhrədən əlini çəkir və cəhrə dayanır. Sonra üzünü Həzrət Peyğəmbərə(s) tutaraq deyir: "Ya Rəsulallah, bu, kiçik bir cəhrədir və bunun hərəkətə düşməsi mənim vasitəmlə baş verir. Mən əlimi onun dəstəyindən çəkən kimi dayandı. Bu kiçik cəhrəni hərəkətə gətirən mənəm, bəs necə ola bilər ki, bu böyüklükdə bir kainat öz-özünə hərəkət etsin? Mən yəqin bilirəm ki, bu kainatı da hərəkətə gətirən bir qüvvə vardır. Mən bu qüvvəyə Allah deyirəm." Həzrət Peyğəmbər(s) üzünü səhabələrinə tərəf tutub buyurdu: "Mən sizin də belə bir əqidəyə malik olmağınızı təkid edirəm. Savadsız qoca bir qadın da öz dəlil və sübutları ilə Allahın varlığını təsdiq edir. Gərək bütün insanlar öz savad və düşüncələri daxilində Allahın varlığını sübuta yetirsinlər."

İnsanın bədən üzvlərinə diqqət yetirdikdə və bu barədə azacıq araşdırma apardıqda heyrətlənmiyə bilmirsən. Biz bütün bunları sadəcə olaraq müşahidə edirik. Amma tibb institutuna gedib göz sahəsi ilə məşğul olan mütəxəssislərə baxdıqda görürük ki, onların hər biri gözün müəyyən funksiyası üzrə elmi araşdırmalar aparırlar. Bizim adi yanaşdığımız gözdə elə xəstəliklər vardır ki, göz həkiminə müraciət etdikdə deyir ki, bu xəstəlik mənim sahəmə aid deyil. Bunun üçün filan göz həkiminə müraciət etmək lazımdır.

Təkcə göz deyil, eləcə də ürək, böyrək, ciyər və s. kimi insanın bütün orqanlarının hər biri üzrə ayrı-ayrı sahələr və bu sahələrlə məşğul olan mütəxəssislər vardır. Adəm yaranandan bu günə kimi elm çox inkişaf etmişdir. Hətta elə bir səviyyədə inkişaf etmişdir ki, amerikalı bir həkim kompüter vasitəsilə Avropa ölkələrindən birində olan xəstənin üzərində cərrahiyyə əməliyyatı aparır. Əlbəttə ki, bütün bunları insan adlı bir varlıq yaratmışdır. Elə bir varlıq yaratmışdır ki, onun içərisində neçə-neçə "zavod" və ya "fabrik" gecə-gündüz fəaliyyət göstərir. Onlarca alim bir yerə toplaşaraq böyük bir neftayırma zavodunu işə salırlar. Bu zavodun işi yalnız nefti ayırmaqdan ibarətdir. Həmin zavodda borulardan birində bir problem yarandıqda bütövlükdə iş dayanır.

Amma insanın içinə diqqət yetirdikdə görürük ki, onun daxilində olan müxtəlif "zavod"ların hər birinin özünəməxsus işi vardır. Məsələn, insanın ağzının, qulağının, gözünün və burnunun suları bir-birindən tamamilə fərqlidir. Birinin suyu şirin, birinin suyu şor, birinin suyu isə dadsızdır. Bu suların hər birinin yaradılması üçün bir "zavod" işləyir. Təkcə insanın bədənindəki suyu deyil, onun bədəninin duzunu, yağını, qanını və s. materialları ayıran "zavod"lar da mövcuddur. Bəs bütün bunların səbəbkarı kimdir? İnsan öz ağlı ilə başa düşə bilir ki, belə bir varlığı və bütün aləmi yaradan uca bir varlıq vardır.

Həmçinin məad məsələsi ilə bağlı da insan öz ağlı ilə müəyyən araşdırmalardan sonra bir nəticəyə gələ bilir. İnsan təbii olaraq ona bəxş edilmiş ağıl sayəsində başa düşə bilir ki, öldükdən sonra başqa bir aləm başlayır. Adicə hər hansı bir elektrik avadanlığının hansısa bir məqsəd üçün istehsal olunduğunu hər birimiz çox gözəl başa düşürük. Eləcə də başa düşürük ki, bu əzəmətli insan da boş-boşuna

yaradılmayıb. Ola bilməz ki, insan bu dünyaya gəlsin, öz istədiyi kimi yaşasın və öldükdən sonra da torpağa qarışıb heç olsun. İnsan ağlı bunu qətiyyən qəbul edə bilməz və qəbul etmir. İnsan Allah-təala tərəfindən ona verilmiş ağıl sayəsində başa düşür ki, uca yaradan insan kimi əzəmətli bir varlığı boş-boşuna və hədəfsiz yaratmayıb.

Hətta elə bir ağıllı insan yoxdur ki, Quranın böyük bir möcüzə olduğunu dərk etməsin və ya bunu qəbul etməsin. Təsadüfi deyil ki, Qurani-Kərim qiyamətə qədər qalacaqdır və insanların içərisində həmişə işıqlı bir yolun bələdçisi rolunu oynayacaqdır. Quran insanları əqli, elmi və məntiqi mübarizəyə dəvət edir. Onu qəbul etməyən hər bir kəsə açıq-aydın şəkildə bəyan edir ki, əgər düz danışırsansa, o zaman bu surələrin birinə bənzər bir surə gətir. Quran elə bir dildə nazil olmayıb ki, onu insanlar başa düşməsinlər.

Quran özü başdan ayağadək elm və möcüzə olduğunu açıq-aydın şəkildə insanlara bəyan edir. Hələ min ildən sonra da alimlər bu müqəddəs Kitabın başdan-başa bir elm olduğunu başa düşəcək və bunu bir daha qeyd edəcəklər. Necə ki, min dörd yüz il bundan əvvəl Həzrət Məhəmməd Peyğəmbər(s) vasitəsilə insanlara bəxş olunmuş Quranın böyük bir elm dəryası olduğunu çağdaş alimlər də etiraf etmişlər. Onlar bu vaxta qədər irəli sürdükləri bəzi elmi nəzəriyyələrin belə səhv olduğunu açıq şəkildə bildirmişlər. Məsələn, uzun illər bundan öncə alimlər belə bir qənaətə gəlmişdilər ki, yenicə dünyaya gəlmiş uşağa anadan olduqdan sonra bir dəfə ana südü verilsə kifayətdir. Həmin fikrin üstündən bir neçə il keçdikdən sonra onlar bildirmişdilər ki, yenicə dünyaya gələn uşağa altı ay süd verilməlidir. Son vaxtlarda isə Amerika alimləri həyəcan təbili çalaraq elan etdilər ki, bu günədək bütün alimlər bu sahədə səhvə yol vermişlər. Bir uşağın sağlam böyüməsi üçün ona iki il

müddətində mükəmməl şəkildə ana südü verilməlidir. Halbuki bizim müqəddəs kitabımız Quranda bu məsələ hələ 1400 il bundan əvvəl bəyan edilmişdir. Yəni Qurani-Kərimdə deyilir - “Analar öz övladlarına iki il tamam süd verməlidirlər.”

Quran və hədislərdə elmi məsələlərin böyük əksəriyyətinin izah və açıqlamaları vardır. Sadəcə olaraq biz öz dinimizlə lazımi şəkildə maraqlanmamışıq. Həmçinin öz dinimizlə məşğul olmağa, onu öyrənməyə kifayət qədər vaxt ayırmadığımız üçün bu kimi məsələlərdən xəbərsizik. Bizim əlimizdə olan imkanlarımızdan xəbərimiz yoxdur. Ona görə də qeyri müsəlman alimlər Quran və hədislərdən, onlardakı elmi fikirlərdən bacardıqları qədər istifadə edərək əvvəlcə onları yaxşıca öyrənir və daha sonra isə öz şəxsi fikirləri kimi cəmiyyətə təqdim edirlər. Yəni həmin elmi fikirləri daha İslamın adı ilə yox, öz adları ilə insanlar arasında təbliğ etməyə başlayırlar. Biz isə bütün bunları heyrətlə qarşılayır və hamımız təəccüblə o alimin kəşfindən danışırıq. Qəribədir, görəsən biz nə üçün məlum bir həqiqəti və ya hər hansı bir elmi fikri hansısa bir Avropa aliminin dilindən eşitdikdən sonra qəbul edirik?

Bütün bunları qeyd etməkdə məqsədimiz odur ki, insan dinin əsaslarına aid olan tövhid və məad kimi məsələləri öz ağlının gücü ilə dərk edə bilir. Onu da unutmamalıyıq ki, dinin əsasları ilə bağlı məsələlərdə təqlid etmək olmaz. Təqlid şəriət məsələlərinə aid olduğundan bu hökmlərdə son dərəcə vacibdir. Məsələn, fərz edək ki, xəstə müalicə olunmaq üçün həkimə müraciət etməlidir. Aydın məsələdir ki, ürəyi ağrıyan bir adam öz dərdini ürək həkiminə anlatmalıdır. Amma xəstəliyinin müalicə olunmasından ötrü mütləq həkimin verdiyi göstərişlərə riayət etməlidir. Əlbəttə ki, yalnız tibbi məsələlərdə deyil, bütün digər sahələrdə də

bizim mütəxəssislərə böyük ehtiyacımız vardır.

Təbii olaraq başqa sahələrin biliciləri olduğu kimi, şəriət məsələlərinin də öz mütəxəssisləri vardır. Buna görə də insan İlahi hökmlərə riayət etmək üçün ya özü mütəxəssis olmalı, ya da mütəxəssisi, yəni müctəhidi təqlid etməlidir. Şəriət məsələlərinin də öz normaları, qaydaları və prinsipləri vardır. Eləcə də Həzrət Peyğəmbərdən(s) və məsum imamlarımızdan gələn hədislər də vardır ki, bütün bunlar öz növbəsində savadlı və təcrübəli mütəxəssislərin varlığını tələb edir. Hədisşünaslıq elminin mütəxəssisləri hər hansı bir hədisi oxuduqda onun doğru olub-olmadığını ayırd edə bilirlər. Yaxud hədisin Həzrət Peyğəmbərin(s) və ya məsum imamlarımızın dilindən çıxdığını və ya həmin hədisin onların adına bağlanıldığını  qəti şəkildə etiraf edirlər. Çünki onlar da bu sahə üzrə mütəxəssis sayılırlar və illərini bu işə sərf etmişlər.

Elmin bütün digər sahələrində olduğu kimi, şəriətlə bağlı məsələlərdə də öyrənməyə həmişə ehtiyac var və bu sahəni bilməyən insanlar müvafiq alim və mütəxəssis-lərdən öyrənməyə çalışmalıdırlar. Elmin bütün sahələrində öyrənmək olar, o cümlədən də dini məsələləri öyrənməyə həmişə zərurət vardır. Ona görə də hər kim şəriət hökmlərində təqlid etmək olmaz,- desə, görünür, həmin şəxsin din barədə düşüncələri və mövqeyi qərəzlidir.

Odur ki, Allah-təala “Yasin” surəsinin 6-cı ayəsində buyurur:

لِتنذِر قَوما ما أُنذِر آباؤهم فَهم غَافِلُونَ

-(Ey Mənim Peyğəmbərim! Bu kitabla) elə bir qövmü qorxudasan ki, ata-babaları qorxudulmamışlar, buna görə də (din həqiqətlərindən) qafildirlər.

Allah-təala Həzrət Peyğəmbəri(s) göndərib ki, bütün insanları hidayət etmək məqsədilə qorxutsun. Düzdür, Allah-təala hər bir kəsə ağıl vermişdir, amma insanın odun içinə düşməsini istəmir. Buna görə də Peyğəmbəri(s) göndərmişdir ki, insanları oda tərəf getməkdən çəkindirsin. Məsələn, kiçik bir uşağın üzərində həmişə valideyn nəzarəti olur. Uşaq anlamadığı üçün oda tərəf getdikdə anası onun qarşısını alır. Uşaq ağlayaraq yenə də oda tərəf getmək istəyir. Lakin ağlamasına baxmayaraq, onu bu kimi işlərdən çəkindirirlər. Allah-təala Həzrət Peyğəmbərə(s) buyurur ki, ey Mənim Peyğəmbərim, onlar oda sarı gedirlər. Onları qorxut və qəflətdən oyat.

Ayədə belə bəyan olunur: O kəsləri qorxut ki, bundan əvvəl ata-babaları qorxudulmamışlar. Bu ayədən belə çıxır ki, Həzrət Peyğəmbərin(s) dövründə yaşayan insanların ata-babaları Allah tərəfindən qorxudulmamışlar. Görəsən o hansı dövrdür ki, həmin vaxtlar insanlar qorxudulmamışlar. Burada qarşıya belə bir sual çıxır: Əgər belədirsə, o zaman qeyd olunan ayə ilə "Fatir" surəsinin 24-cü ayəsi arasında ziddiyyət yaranırmı? Çünki Allah-təala həmin ayədə belə buyurur:

إِنا أرسلْناك بِالْحق بشِيرا ونذِيرا وإِن من أُمةٍ إِلا خلَا فِيها نذِير

-Doğrudan da Biz səni haqla (Quranla) müjdə verən və qorxudan bir peyğəmbər olaraq göndərdik. Elə bir ümmət yoxdur ki, onun içindən qorxudan (xəbərdar edən) bir peyğəmbər (yaxud alim) gəlib-getməsin!

Yəni "Yasin" surəsinin 6-cı ayəsində belə bəyan olunur ki, onların ata-babaları qorxudulmayıb. Amma bu ayədə isə belə buyurulur: -Elə bir ümmət yoxdur ki, Allah onlar üçün bir peyğəmbər və yaxud qorxudan göndərməsin.

Hədislərdə də belə nəql olunmuşdur:

لَولا الْحجة لَساختِ الأرض ِبأهِلها

-Əgər insanlar arasında Allahın höccəti olmasa, yer öz əhlini içərisinə çəkər.

Yəni yer üzündə elə bir zaman olmayıb ki, onda Allah-taalanın höccəti olmasın. Yuxarıda İmam Sadiqdən(ə) nəql etdiyimiz hədisdə də belə bəyan olunur ki, əgər yer üzündə cəmi iki nəfər qalsa, onlardan biri imamdır (Allahın höccətidir). Həqiqətən, dünyanı tərk edən sonuncu insan da imamdır. (Yer üzünü sonuncu tərk edən şəxs ona görə imam olmalıdır ki,) heç bir kəs bu dünyada Allahın onu höccətsiz qoyduğunu bəhanə etməsin.[1]

Cavab olaraq deyə bilərik ki, peyğəmbərlərin müəyyən dərəcələri vardır. Onların bəzisi nəbi, bəzisi rəsul və bəzisi isə böyük peyğəmbərlərdir. Böyük (Ülül-əzm) peyğəmbərlər o şəxslərdir ki, onlara şəriət nazil olmuşdur. Əgər "Yasin" surəsinin 6-cı ayəsində "onların ata-babaları qorxudulmayıb" - deyilirsə, bunun mənası odur ki, onların zamanında ülül-əzm peyğəmbər olmayıb. Əgər İsa Peyğəmbərlə(ə) İslam Peyğəmbəri(s) arasında uzun bir müddət fasilə olmuşsa, bu hələ o demək deyildir ki, həmin müddətdə yaşayan insanlara ilahi hökmləri başa salan, tövhid və dindən danışan bir kimsə olmayıb. İslam Peyğəmbərinə(s) qədər olan müddətdə Həzrət İsanın(ə) gətirdiyi dini təbliğ edən nəbi və peyğəmbərlər olmuşdur. Göstərilən ayədə isə məqsəd odur ki, onlar üçün ülül-əzm peyğəmbər göndərilməmişdir.

---

[1] Üsuli-kafi, 1-ci cild, səh. 254.

## Nə üçün Peyğəmbərə(s) ən çox qorxutmaq səlahiyyəti verilmişdi?

"Yasin" surəsinin 6-cı ayəsində diqqəti cəlb edən məsələlərdən biri budur ki, nə üçün Həzrət Peyğəmbərə(s) insanları daha çox qorxutmaq səlahiyyəti verilmişdi? Ümumiyyətlə, Allah-təala peyğəmbərləri həm insanlara müjdə vermək, həm də onları qorxutmaq üçün göndərmişdir. Yəni peyğəmbərlər insanlara həm cənnəti, həm də cəhənnəmi başa salmaq səlahiyyətinə malik olmuşlar. Amma Quranda bu barədə olan ayələrin əksəriyyətində bir daha qeyd olunur ki, Həzrət Peyğəmbərə(s) insanları qorxutmaq əmri verilmişdi. Sual oluna bilər ki, görəsən insanları müjdələməyə daha çox üstünlük verilməlidir, yoxsa onları qorxutmaq daha önəmlidir?

Bu məsələyə psixologiya elmi baxımından yanaşsaq, o zaman bu barədə geniş şəkildə bəhs etmək lazım gələcəkdir. Belə ki, psixoloqların bildirdiyinə görə insanları nəyəsə təşviq etməyin aqibətində bir təhlükə vardır. Amma bəzi alimlər deyirlər ki, əvvəlcə insanları mükafatlarla bir işə təşviq etmək lazımdır ki, yavaş-yavaş onlar düz yola yönəlsinlər. Bu iki nəzəriyyənin orta məxrəcini tapmaq üçün araşdırma və tədqiqat aparmağa ehtiyac vardır.

Quran ayələrinə və hədislərə istinad edərək bir mətləbi diqqətinizə çatdırmaq istəyirəm. Həmin mətləb də budur ki, xüsusilə Məkkədə nazil olmuş surələrdə daha çox qorxutmaq məsələsi önə çəkilir. Çünki həmin mühit elə bir mühit idi ki, camaat həm dövlətli idi, həm də şəhvətə aludə olmuşdular. Yəni onların mal-dövlətləri çox olmaqla yanaşı, həm də öz nəfsani hisslərinə uyğun şəkildə hərəkət edirdilər. Onlar üçün şəhvət və nəfslərini tənzimləyəcək bir meyar və qanun yox idi. İnsan nəfsani hisslərinə tabe olmaqla, ürəyi istədiyini edərsə, heç bir

vaxt mənəvi dəyərləri əldə edə bilməyəcək. Buna görə də Allah-təala belə bir şəraitdə Həzrət Peyğəmbərə(s) onları qorxutmaq əmri vermişdir. Çünki onlar uçuruma doğru addımlayırdılar.

Məsələn, fərz edək ki, bir uşaq evin damına çıxmışdır, lakin yıxılacağından xəbəri yoxdur. Yaxud arxa-arxaya gedən bir insan düşəcəyi quyudan xəbərsizdir. Aydın məsələdir ki, ilk növbədə onları yalnız qarşıdakı təhlükədən xəbərdar etmək lazımdır. Bu halda məntiq yeri deyil ki, dayanıb onları başa salasan. Çünki dayanıb onları başa salana qədər artıq iş işdən keçəcəkdir. Ona görə də onları təhlükədən dərhal xəbərdar etmək və qorxutmaq lazımdır. Əks təqdirdə üzləşəcəkləri təhlükə qaçılmazdır. Onları qorxudub xəbərdar etdikdən və təhlükə sovuşduqdan sonra başa salmaq olar ki, hansı təhlükə ilə üzləşə bilərdilər. Məkkədə də vəziyyət belə idi. Cəmiyyət təhlükəyə doğru hərəkət etməkdə idi. Odur ki, Allah-təala Həzrət Peyğəmbərə(s) onları qorxudub xəbərdar etmək əmri verdi. “Muddəssir” surəsinin 1 və 2-ci ayələrində Allah-təala Həzrət Peyğəmbərə(s) xitab edərək belə buyurur:

يا أيها الْمدثر. قُم فَأنذِر

-Ey libasına bürünmüş və ey gecə əbasını başına çəkmiş (və ey nübüvvət libasını canına və kamal libasını ruhuna geyindirən). Qalx və (onları) qorxut!

“Naziat” surəsinin 45-ci ayəsində isə belə buyurulur:

إِنما أنت منذِر من يخشاها

-Sən ancaq ondan (qiyamətdən) xəbərdar edib çəkindirənsən!

Alimlərdən biri yazır ki, ərəblər arasında “nəzirun üryan” ifadəsi geniş şəkildə yayılmışdır. Kim böyük bir təhlükə hiss etsəydi həmin təhlükəni insanlara başa salmaq üçün

kifayət qədər vaxt olmadığından tez-tələsik paltarlarını soyunub əynində çox az paltar qalmaqla camaatın içində o tərəf-bu tərəfə qaçmağa başlayırdı. Beləcə, hamı başa düşürdi ki, onları hansısa bir təhlükə gözləyir. Həmin kişiyə “nəzirun üryan” (“çılpaq qorxudan”) deyərdilər. Alim yazır ki, bilmirəm, Həzrət Peyğəmbər(s) öz-özünə “nəzirun üryan” deyirdi, yoxsa bəziləri onun barəsində bu ifadəni işlətmişlər. Yəni Həzrətin(s) insanlar arasında rolu bu anlamda idi. Çünki Həzrət Peyğəmbər(s) “Ya Səbaha” kəlməsini işlətmişdir. “Ya Səbaha” ərəblərdə həyəcan çağırışıdır. Düşmənin qəfil hücumunu gördükdə bu sözü uca səslə və həyəcan şüarı kimi deyib camaatı çağırardılar,  düşmənin hücuma keçdiyini xəbər verərdilər.

Həzrət Peyğəmbər(s) Səfa dağının üstünə çıxıb uca səslə “Ya Səbaha” - deyə insanları çağırdı. Onun bu sözünü eşitdikdə hamı ora toplaşdı. Həzrət Peyğəmbər(s) qəbilə başçılarının adlarını bir-bir sadaladı. Hamı nə baş verdiyini eşitmək üçün sakitcə dayanıb qulaq asırdı. Onlar öz-özlərinə fikirləşirdilər ki, görəsən, hansı mühüm hadisəyə görə Həzrət Məhəmməd(s) bizi bura çağırıb. Həzrət Peyğəmbər(s) üzünü onlara tutub buyurdu: “Əgər sizə filan dağın arxasından düşmənlərin hücuma keçdiyini xəbər versəm, mənim sözümə inanar-sınızmı?” Hamı yekdilliklə dedi: “Biz indiyədək sənin dilindən yalan eşitməmişik. Əgər düşmənin bizə hücum etməsi xəbərini versən, sənə inanıb özümüzü düşmənin hücumundan müdafiə etmək üçün hazırlıq işləri görərik.” Həzrət Peyğəmbər(s) buyurdu: “İndi ki, siz mənim sözlərimə inanırsınız və mənim dilimdən yalan eşit-məmisiniz, bundan sonra da eşitməyəcəksiniz. Elə isə qulaq asın, məni dinləyin. Mən sizi Allahın şiddətli əzabından qorxudub, sizi Ona iman gətirməyə dəvət edirəm. Əgər Allaha iman gətirməsəniz, Onun şiddətli əzabı sizlərə nazil olacaq.”

Həzrət Peyğəmbər(s) insanları böyük təhlükədən qorxutmağa əmr olunmuşdu. Təhlükə o qədər ciddidir ki, əgər insanlar xəbərdar olunmadan, qorxudulmadan getsələr, birbaşa cəhənnəmə düşəcəklər. Cəhənnəmə düşdükdən sonra artıq onu heç nə ilə dəyişmək mümkün olmayacaq. Həzrət Əli(ə) buyurmuşdur: “İnsanlar yuxudadırlar. Öldükdən sonra ayılacaqlar.”

“Yasin” surəsinin 52-ci ayəsində belə buyurulur:

قَالُوا يا ويلَنا من بعثَنا مِن مرقَدِنا هذَا ما وعد الرحمن وصدق الْمرسلُونَ

-Deyərlər: “Vay halımıza! Bizi yatdığımız yerdən kim qaldırdı? (Bəli,) bu Rəhman (olan Allahın dünyada) bizə vəd verdiyi həmin (ölümdən sonrakı həyat)dır. Onun peyğəmbərləri doğru deyirlərmiş.”

Odur ki, Allah-təala Həzrət Peyğəmbərə(s) insanları qorxutmaq göstərişi verir. Həzrət Peyğəmbər(s) yolu səhv gedən insanları başa salır ki, tutduqları yolun aqibəti onlar üçün yaxşı olmayacaqdır. Belə getsələr elə peşman olacaqlar ki, peşmançılıqları onlara heç bir fayda verməyəcək. Onlar azğınlıqlarının pis nəticəsindən qorxsunlar.

## Qəflət və unutqanlıq

"Yasin" surəsinin 6-cı ayəsində Allah-təala Həzrət Peyğəmbərə(s) buyurur: "Elə bir qövmü qorxudasan ki, ata-babaları qorxudulmamışlar, buna görə də onlar qafildirlər."

Ötən bəhsdə bu ayənin ilk hissəsi barədə söz açdıq. Ayənin sonunda bir mətləb də bəyan olunur. Həmin mətləb qəflət barədədir. Yəni onlar yollarını azmaqla yanaşı, həm də həqiqətdən qafildirlər. Onlar elə işlərlə məşğul olmuşlar ki, əsas məsələ yadlarından çıxmışdır. Yaxud belə deyək ki, qeyri-vacib və haram işlərlə məşğul olduqlarına görə əsas məqsəddən qafil olmuşlar. Məsələn, bir nəfər Moskvaya getmək üçün təyyarəyə bilet alır. Həmin biletdə uçuşun vaxtı 17:00-a təyin olunmuşdur. Biletin sahibi isə saat 15:00-da hava limanına getməli və əvvəlcədən hər bir tədarükünü görməlidir. Lakin onun başı mağazalara baxmağa, dostlarla əyləşib söhbət etməyə və s. kimi işlərə qarışdığından hava limanına getməyi yadından çıxarır. Vaxt ötdükdən sonra isə yadına düşür ki, artıq təyyarə uçmuşdur. Bu cür adama qafil adam deyilir. Çünki onun başı müxtəlif işlərə qarışdığından qarşısına qoyduğu əsas məqsədi unutmuşdur. Həmçinin insan kimi bir varlıq nə üçün yaradıldığını, hara getdiyini unutduqda Allah-təala Həzrət Peyğəmbərə(s) göstəriş verir ki, onları səhv yoldan qaytarsın. Düzgün yol əsas yoldur və bu yolda həqiqət vardır. Lakin onlar bu həqiqətdən qafildirlər.

## Qəflət nədir?

Qəflətin lüğəti mənası ilə tanış olduq. Amma bu sözün şəriət baxımından mənası insanın Allahı və Onun nazil etdiyi hökmləri yaddan çıxarmasıdır. Sanki İlahi hökmlər ona aid deyilmiş. Məsələn, bir nəfərin namaz

qıldığını gördükdə elə başa düşür ki, namaz ona aid olan bir məsələ deyildir. Öz-özünə düşünür ki, namazı dindarlar, yaşlı insanlar və mollalar qılmalıdırlar. Həmçinin elə başa düşür ki, namaz qılmasa, kimsə ondan "nə üçün qılmadın?" - deyə soruşmayacaq. Odur ki, insanın Allahı və Onun hökmlərini yaddan çıxarmasına qəflət deyilir. Bu qəflətin aqibəti də çox pis olacaq və əzabla nəticələnəcəkdir.

Qəflətin şəriət baxımından ikinci mənası odur ki, insan məadı (öldükdən sonra dirilməyi) və qiyaməti yadından çıxarsın. İnsan elə başa düşür ki, sanki heç bir zaman o biri dünyaya getməyəcəkdir. Dünyaya gələn bütün insanlar bir karvan kimi hərəkətdədirlər və hər bir insan o karvanla birgə yol gedir. Kimsə elə başa düşməsin ki, həmişə hərəkətdə olacaq və onun üçün bu yolun sonu çatmayacaqdır.

Alimlər qəflət barədə belə bir tərif də vermişlər: "Qəflət insanın özünü yadından çıxarmasıdır." Yəni insan nə üçün yarandığını, dünyaya nə üçün gəldiyini düşünmür. Elə başa düşür ki, elə belə də olmalıdır. Yaranıb, bu dünyada hər şey onundur, istədiyi kimi hərəkət edə bilər və etdiklərinə görə də hesabat verməyəcək. Yanında ölüm barədə söhbət edərkən bir an da olsa belə həmin sözləri eşitmək istəmir. Başı bu dünyada yeməyə, geyməyə, gəzməyə və s. kimi işlərə o qədər qarışmışdır ki, özünü tamamilə unutmuşdur. Danışanda da əlində olanlarla (işi, evi, var-dövləti, maşını və s. ilə) fəxr edir və bundan zövq alır. Bir zaman isə ayılıb görür ki, ömrü artıq başa çatıb.

### Qəflətin hal və mərhələləri

Şəriət nöqteyi-nəzərindən qəflətin üç mərhələsi vardır. Bu mərhələlərdən biri küfrdür. Əgər insan dinin əsaslarından, Allahdan və məaddan qafil olsa, bu qəflətin sonu küfrlə

nəticələnəcəkdir. Yəni bu qəflət insanı kafirlik dərəcəsinə aparıb çıxaracaqdır.

Qəflətin ikinci mərhələsi bundan ibarətdir ki, insan vacib və haram əməllərdən qafil olsun. Yəni Allahı, Peyğəmbəri(s), məadı və s. kimi dinin əsaslarını qəbul etsə də, vacib əməllərdən və haram işlərdən qafildir. Nə namaz qılır, nə oruc tutur, nə digər vacibləri yerinə yetirir və nə də haramlardan özünü saxlayır. Əlbəttə, bu kimi əməllərdən qafil olmaq iki cürdür. Biri var ki, insan qəflətə düşməyə bilər, amma təqsirkarlıq üzündən özünü qəflətə salırsa, bunun axırı pozğunluqdur. Yəni belə bir insana pozğun insan deyilir. Amma insan bilməməzlik üzündən, nəyin haram və nəyin vacib olduğundan qafil olubsa, buna pozğun deyilməz. Məsələn, bir insan elə bir yerdə, yaxud zamanda yaşayıb ki, namazın vacib olduğunu, yaxud şərabın haram olduğunu və nəyin vacib, nəyin haram olduğunu bilməyib. Bu cür insan pozğun insan hesab olunmur.

Hədislərdə nəql olunduğuna görə Həzrət Peyğəmbər(s) buyurub: "Kim "La ilahə illəllah" - desə, cənnətə daxil olacaq. Həzrət Əli(ə) soruşdu: Ya Rəsulallah, bəs namaz, oruc və digər ibadətlər necə olsun? Peyğəmbər(s) buyurdu: Bu o kəslərə aiddir ki, ondan başqa heç bir şey eşitməyib. Əgər bu kəlməni səmimi qəlbdən desə, cənnətə daxil olacaq."

Sovet hakimiyyətinin təzəcə dağıldığı vaxtlarda mən Azərbaycana gəlib-gedirdim. Qum şəhərində böyük alimlərin birindən soruşdum ki, yuxarıda qeyd olunan bu hədis barədə sizin fikriniz nədir? O buyurdu: "Bu, sənin getdiyin ölkədə yetmiş il kommunist rejimi altında yaşayıb din barədə heç bir şeydən xəbəri olmayanlar barədədir. O insanlar "La ilahə illəllah" kəlməsindən savayı başqa bir söz eşitmədiklərindən sidq ürəklə həmin sözü desələr, cənnətə gedəcəklər.

O zaman informasiya texnologiyaları lazımi səviyyədə inkişaf etmədiyindən  insanlar dini məlumatları əldə etməyə çətinlik çəkirdilər. İnsanların əksəriyyəti din barədə kəlmeyi-şəhadətdən başqa bir şey bilmirdilər. Amma hazırkı dövrdə çətin bir adam tapılar ki, İslam dini barədə lazımi məlumata malik olmasın. Belə bir dövrdə din barədə anlayışı olmayan və Allahın adından savayı digər məsələlərdən xəbəri olmayan bir insan tapılsa, ona pozğun demək olmaz. Çünki o, Allah kəlməsindən savayı başqa heç bir məsələdən agah deyildir. Odur ki, əgər insan üzürlü səbəblərə görə Allahın buyurduğu vacib və haram əməllərdən qafil olsa, bu insana pozğun insan demək olmaz. Əgər üzürsüz səbəblərə görə qəflət içində yaşayırsa, o, artıq pozğun insandır.

Qəflətin üçüncü mərhələsi ondan ibarətdir ki, insan dini maariflənmədən, İlahi nişanələrdən, Allahın cəlal və camal sifətlərindən və əxlaqi xüsusiyyətlərdən qafil olsun. Yəni insan namaz qılmasına, oruc tutmasına və haramlardan çəkinməsinə baxmayaraq, İlahi mərifətdən qafildir. Məsələn, oruc tutur, amma onun mənəvi ləzzətindən bəhrələnə bilmir. Allahın övliyalarının çatdığı dərəcə və məqamlardan qəflətdədir.

Mərhum Ayətullah Behcətin şagirdlərindən biri öz kitabında belə yazmışdır: “Bəzən Ayətullah Behcət şəhərdən kənara çıxaraq bir çəmənlikdə namaz qılardı. Namazı qılıb qurtardıqdan sonra isə belə deyərdi: “Mənim namazdan aldığım bu ləzzətin nə olduğunu dünyada heç bir şah başa düşə bilməz.”

Beləcə, qəflətin bir mənası da budur ki, insan halal və haramlara riayət edir, vacib əməlləri yerinə yetirir, amma mənəvi ləzzətlərdən qafildir. Əgər insan öz ibadətlərindən zövq almırsa, bu da bir növ qəflətdir.

Allah-təala "Əraf" surəsinin 179-cu ayəsində qəflətə düşən insanlar barədə belə buyurur:

وَلَقَدْ ذَرَأْنَا لِجَهَنَّمَ كَثِيرًا مِنَ الْجِنِّ وَالْإِنْسِ ۖ لَهُمْ قُلُوبٌ لَا يَفْقَهُونَ بِهَا وَلَهُمْ أَعْيُنٌ لَا يُبْصِرُونَ بِهَا وَلَهُمْ آذَانٌ لَا يَسْمَعُونَ بِهَا ۚ أُولَٰئِكَ كَالْأَنْعَامِ بَلْ هُمْ أَضَلُّ ۚ أُولَٰئِكَ هُمُ الْغَافِلُونَ

-Biz cinlərdən və insanlardan bir çoxunu (sanki) cəhənnəm üçün yaratdıq. Onların qəlbləri vardır, lakin onunla (Allahın birliyini sübut edən dəlilləri, özlərinin dini borc və vəzifələrini) anlamazlar. Onların gözləri vardır, lakin onunla (Allahın möcüzələrini) görməzlər. Onların qulaqları vardır, lakin onunla (öyüd-nəsihət) eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də (ondan) daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır.

قَالَ عَلِي(ع): وَيلٌ لِمَن غَلَبت عَلَيهِ الغفلَةُ، فَنَسِي الرحلَةَ و لم يستعِد

-Həzrət Əli(ə) buyurur: "Vay olsun o kəsə ki, qəflət ona qalib gələr. Hərəkətini və bu dünyadan gedəcəyini unudar, axirət dünyasına hazırlaşmaz."[1]

قَالَ رسولُ اللهِ(ص): أغفَلُ الناسِ من لَم يتعِظْ بِتغيرِ الدنيا مِن حالٍ إلى حالٍ

-Həzrət Peyğəmbər(s) buyurur: "Ən qafil insan o kəsdir ki, dünyanın dəyişkən hallarından nəsihət (ibrət) almır."[2]

Məgər insanlar görmürlərmi ki, əsgərləri qarşısında nizam-intizamla dayanmış bir şah bir zaman torpaq olub getmişdir? Məgər insanlar görmürlərmi ki, çox mənəm-mənəm deyənlər indi torpaq altındadır? Məgər insanlar gözləri qarşısında dünyada olan bu qədər ölüm-itimdən nəsihət və

---

[1] Mizanül-hikmə, 9-cu cild, hədis - 15143.
[2] Yenə orada, hədis - 15192.

ibrət almırlarmı? Tarixi mənbələrdə şahların və hökmdarların barəsində olduqca qəribə və ibrətamiz hadisələrə rast gəlirik. Nümunə üçün baş vermiş belə hadisələrdən birinə diqqət yetirək:

-Əməvilərin axırıncı xəlifəsi Mərvan ibn Məhəmməd Himar Mərvan ləqəbi ilə tanınmışdı. Onun xəlifəliyi hicri qəməri tarixinin 132-ci ilinə təsadüf edirdi. O, 5 il iki ay müddətində xilafət kürsüsündə əyləşdi.

Abbasilərin qoşunu əməvilərə qarşı hücuma keçəndə Mərvan ibn Məhəmməd yemək yeməklə məşğul idi. Amir ibn İsmayıl Mərvanın başını kəsdikdən sonra eləcə onun oturduğu yerdə əyləşib onun yeməyini yeməyə başladı. Yemək yedikdən sonra isə Mərvanın böyük qızı ilə əylənmək üçün onu yanına çağırdı. Mərvanın qızı ona dedi: "Ey Amir, ruzigarın belə bir anından ibrət götür. Mərvanın başını kəsib xalçasının üstündə oturdun. Onun yeməyini yedin. İndi də xəyanət etmək istəyirsən? Utan əməlindən və qəflət yuxusundan oyan. Ruzigarın vəfasızlığına bel bağlama. Ola bilsin ki, etdiyin bu əməllər bir gün sənin də başına gəlsin."

İnsanlar tarixin bu kimi hadisələrindən ibrət götürməli və dərs almalıdırlar. Hər kim bu kimi hadisələrdən ibrət almırsa, deməli, qəflət içində yaşayır.

Salman Farsi(r) deyir: "Altı hal üçün təəccüblənirəm. Onlardan üçü məni ağladır, üçü isə güldürür.

فأما التي أبكتني: فِفراق الأحِبةِ محمدٍ صلى الله عليه و آله، و هولُ المُطلَعِ، و الوقوف بين يدي اللّهِ عز و جل.

-Məni ağladan üç hal bunlardır: Biri dostlarım olan Məhəmməd(s) və Əhli-beytindən (və onların xalis səhabələrindən) ayrılıq hissi, ikincisi hövlül-müttələ (qəbrin vəhşət və qorxusu), üçüncüsü isə qiyamət günü Allahın məhzərində (hesab-kitab üçün) dayanmağın qorxusu.

و أما التي أضحكتني فطالِب الدنيا و المَوت يطلُبه، و غافِلٌ و ليس بمغفولٍ عنه، و ضاحِك مِل ءَ فِيهِ و لا يدري أ رضِي لَه أم سخِطَ

-Amma məni güldürən üç hal isə bunlardır: Biri o kəsdir ki, dünyanın arxasınca düşüb (halal-haram bilmədən dünya malını toplamaqla məşğuldur), halbuki ölümün də onu addım-addım izlədiyindən xəbərsizdir. İkincisi o kəsdir ki, qəflət içində yaşayır, amma (onun əməllərinə) nəzarət edənlərin ondan xəbərsiz olmadıqlarını bilmir. Üçüncüsü isə o kəsdir ki, (qəhqəhə ilə) gülür, amma Allahın ondan razı qalıb-qalmadığını bilmir."[1]

Əgər insan Allahın ondan razı qalıb-qalmadığını bilmirsə, necə rahat yaşayır və gülə bilir? İnsan bu dünyada Allahın razılığını axtarıb tapmalıdır. Hansı işdə Allahın razılığı varsa, onu görməlidir. Allahın razılığı olmayan işlərdən uzaq durmalıdır.

Əmmar Yasir(r) çox imanlı və təqvalı bir insan idi. O, həmişə Allahın razılığı olan işləri görərdi. Allahın razılığı olmayan heç bir işi görməzdi. Həzrət Peyğəmbər(s) onun barəsində tarixə yazılmış nümunəvi bir kəlmə buyurmuşdur:

ان عمار ملئٌ اِيمانا مِن قَرنِهِ اِلَى قَدمِهِ واختلَطَ الإِيمانُ بِلَحمِهِ و دمِهِ

-Əmmar başdan-ayağadək imanla dolu olan bir insandır. İman onun ətinə və qanına hopmuşdur.[2]

Həzrət Peyğəmbər(s) Əmmarı belə bir şəkildə tərif və təsdiq etmişdir. İslam Peyğəmbərinin(s) təsdiq etdiyi insan məlum məsələdir ki, Allahın təsdiq etdiyi bir insandır.

Siffeyn müharibəsində Əmmar İslam qoşunundan ayrılaraq düşmən qoşunu ilə üz-üzə dayandı və əllərini göyə qaldıraraq Allahla belə minacat etdi: "İlahi, bilirsən

[1] Mizanül-hikmə, 9-cu cild, hədis -15169.
[2] 500 dastan, 1-ci cild, səh. 284.

ki, Sənin razılığın özümü dənizə atmaqdırsa, ataram. Əgər Sənin razılığın qılıncı qarnıma soxub içalatımı yerə tökməkdədirsə, bilirsən ki, bunu da edərəm. Ey mənim Allahım, mən bu gün bilirəm ki, Sənin razılığın bu namərd, alçaq, şərəfsiz və heysiyyatsız adamlara qarşı döyüşməkdədir. Əgər bundan şərafətli digər bir əməl tapsaydım, bunu buraxıb gedib onu görərdim. Mən bu gün düşmənlərə qarşı müharibə etməkdən və Əlini(ə) müdafiə, himayə etməkdən şərafətli bir əməl tapmadım."

Sonra üzünü düşmən qoşununa tutub dedi: "Kim mənim səsimi eşidirsə və Allahın rizayətini istəyirsə, gəlib bizə qoşulsun."

Əmmar həmin müharibədə şəhid oldu. Həzrət Əli(ə) onun cənazəsinin kənarında əyləşdi. Əmmarın üz-gözünü təmizləyə-təmizləyə ağlayıb buyurdu: "Ey ölüm, elə bil ki, sən də mənim dostlarımı tanıyırsan. Onları bir-bir mənim əlimdən alırsan."[1]

Odur ki, Allahın rizası insan üçün hər bir şeydən üstündür. Onun bu razılığı insanların razılığına bağlıdır. Əgər insan Allahın təqdirinə (insanlara nazil etdiyi ehkamına, buyurduqlarına, çətinlik və asanlıqlara) razı olsa və etiraz etməsə, Allah da ondan razı qalar.

Buna görə də Salman(r) deyir ki, Allahın ondan razı olub-olmadığını bilməyən insanın deyib-gülməsinə təəccüb edirəm. Belə insanları görəndə məni təəccübdən gülmək tutur.

---

[1] 500 dastan kitabı,1-ci cild, səh.285.

## Qəfləti aradan qaldıran amillər

İnsanın qəflətə düşməsinə müəyyən amillər səbəb olur. Bəzi işlər və əməllər insanın haqq-həqiqətdən, Allahdan, Peyğəmbərdən(s), ölümdən, məaddan və özündən qafil olmasına gətirib çıxarır. Bəs, insan düşdüyü bu qəflətdən çıxmaq üçün hansı işləri görməlidir? Bəzi amillər var ki, insan onlara riayət etməklə qəflətdən çıxa bilər. Yaxud da belə deyək ki, bu amillər insanın qəflətə düşməsinə imkan verməz. Xəstə insanın sağalması üçün müəyyən dərmanlar olduğu kimi, qafil insanın da qəflətdən çıxmasından ötrü müəyyən amillər mövcuddur. Qəflət insanın ruhuna aid olan bir xəstəlikdir. Onun da özünəməxsus müalicəsi və dərmanları vardır. Burada yaxşı olar ki, insana qəflətdən nicat verən amillərin bir neçəsi ilə tanış olaq.

### 1. Yaxşı işlər uğrunda əzmkarlıq göstərmək

İnsanı qəflətdən xilas edən amillərdən biri budur ki, özü bu yolda çalışıb əzmkarlıq göstərsin. İlk növbədə insan qəflətə düşdüyünü gördükdə ondan xilas olmağa çalışmalıdır. İnsan qəflət içində olduğunu, yəni yolu səhv getdiyini, neçə illər namaz qılmadığını, oruc tutmadığını, malının xümsünü vermədiyini, digər vacib əməllərə riayət etmədiyini və yaşadığı müddətdə hər cür günahlar etdiyini başa düşdükdə, hər şeydən əvvəl, iradə etməli və öz iradəsində də ciddi olmalıdır ki, keçmişdəki nöqsanlarını aradan qaldırmaq istiqamətində çalışqanlıq göstərsin. Əgər insan cəhd etməsə, çalışqanlıq göstərməsə o zaman vəsvəsələr və süstlüklər ona qəflətdən xilas olmağa imkan verməz. Odur ki, insan qəflətdən xilas olmaq üçün ilk növbədə səy göstərməli və əzmkar olmalıdır.

قَالَ رسولُ اللهِ(ص): يا أبا ذر، هم بالحَسنةِ و إن لم تعملْها؛ لِكيلا

تكتب مِن الغافِلين

-Həzrət Peyğəmbər(s) buyurur: "Ey Abuzər! Yaxşı iş görə bilməsən də, yaxşı iş görə bilməyə çalış ki, qafillər zümrəsində yazılmayasan."[1]

Əgər insan yaxşı bir işi görə bilmirsə, o işi görməyə iradə etməlidir ki, qafillərin zümrəsindən sayılmasın. Əzmkarlıq İslam dinində bəyənilmiş əməllərdən biridir. Əgər tarixdə bu barədə olan rəvayətlərə nəzər salsaq kifayət qədər nümunələrə rast gələ bilərik.

-Günlərin birində səhabələr Həzrət Peyğəmbərə(s) göydə uçan iki quşu göstərib soruşdular: "Ya Rəsulallah, o quşlardan hansını çox istəyirsən? Peyğəmbər(s) quşlara baxıb buyurdu: Onlardan biri hündürdən uçduğu üçün ondan xoşum gəlir. O, əzmkarlıq göstərərək bir dərəcə də olsa digərindən ucadan uçur."[2]

**2. Ruzigarda gözüaçıq olmaq**

İnsanı qəflətdən xəbərdar edən amillərdən biri odur ki, yaşadığı günlərə baxıb onların necə ötüb keçdiyini düşünsün. Yəni insan günlərin, həftələrin, ayların və illərin necə keçdiyinə baxıb onun ömründən azaldığına fikir versin. Belə olduqda insan başa düşər ki, günlərin ötüb keçməsi və ayların, illərin dolanması onun ömründən azalması deməkdir.

قالَ عَلي(ع): إن من عرف الأيام لم يغفُلْ عنِ الاستِعدادِ

-Həzrət Əli(ə) buyurur: "Kim vaxtı (ruzigarı) tanıdısa, (axirətə) tədarük görməkdən qafil olmaz."[3]

Odur ki, əgər insan günləri və ayları yadına salsa, hər

---

[1] Mizanül-hikmə, 9-cu cild, hədis - 15188.
[2] 500 dastan, 3-cü cild, səh. 239.
[3] Mizanül-hikmə, 9-cu cild, hədis - 15189.

ötən gün ömründən azaldığına diqqət yetirsə, o zaman bütün bunlar onun qəflət yuxusundan oyanmasına səbəb olar. Belə olduqda ölümə və axirətə hazırlaşmağın gərək olduğunu düşünər.

**3. Namazı vaxtında qılmaq**

İnsanı qəflətdən oyadan amillərdən biri gündəlik vacib namazları öz vaxtında qılmaqdır. Namazı vaxtında qılmağın elə bir xüsusiyyəti vardır ki, hər bir ruhi xəstəliyin dərmanını axtararkən onların içərisində bu amilə də rast gəlmək olur. Namazı vaxtında qılmaq elə bir dərmandır ki, hər bir dərdi aradan qaldıra bilir. Allah-təala namaza belə bir qüdrət bəxş etmişdir.

قَالَ الباقِر(ع): أيما مؤمِنٍ حافَظَ علَى الصلواتِ المَفروضةِ فَصلاّها لِوقتِها فَلَيس هذا مِن الغافِلين

-Həzrət İmam Baqir(ə) buyurur: “Vacib namazlarına əhəmiyyət verən və onları öz vaxtında qılan mömin qafillərdən deyil.”[1]

Namazları vaxtında qılmaq həmişə insan üçün asan olmur. Bəzən iş yerində olarkən, yaxud müəyyən problemlərlə üzləşərkən, eləcə də səfər zamanı insan müxtəlif çətinliklərlə üz-üzə qalır. Əgər bütün bu çətinliklərə baxmayaraq, insan vacib namazlarını vaxtlı-vaxtında qılarsa, bu əməl həmin şəxsin qəflətə düşməsinə imkan verməz. Bəzən insan yaxınlarından birini itirdikdə, şadlıq qismət olduqda, yaxud narahat və pis vəziyyətə düşdükdə yenə də diqqətli olmalı və namazların vaxtını ötürməməlidir. Bu, çox mühüm bir məsələdir.

---

[1] Mizanül-hikmə, 9-cu cild, hədis - 15191.

Xanım Zeynəbin(s.ə) həyatına diqqət yetirdikdə görürük ki, o, nəinki gündəlik vacib namazlarını, hətta gecənin nafilə (müstəhəb) namazını belə vaxtında qılardı. Aşura günü İmam Hüseyn(ə) qətlə yetirildikdən sonra da o, gecə namazından qalmadı. Təsəvvür edin, bir xanımın gözləri önündə onun qardaşlarını, qardaşı uşaqlarını, öz oğullarını qətlə yetirib, onların başlarını kəsirlər. Neçə-neçə yetimi dövrəsinə alan bir xanımın bu məqamda vəziyyəti necə ola bilərdi? Kərbəlada dəhşətli müsibətlərin və acınacaqlı səhnələrin şahidi olmasına baxmayaraq, xanım Zeynəb(s.ə) həmin gecə də yarısı yanmış çadırda Allahla minacat edib gecə namazını tərk etmədi. Xanım Zeynəbin(s.ə) bu hərəkəti onun mərifətinin dərinliyindən və Allaha olan eşqinin ucalığından xəbər verirdi. İmam Hüseyn(ə) bacısı Zeynəblə(s.ə) vidalaşarkən buyurdu: “Bacı, məni dualarında unutma.”

Bu sözlərə diqqət yetirdikdə görürük ki, Xanım Zeynəbin(s.ə) Allah yanında nə qədər böyük məqamı var imiş. Hətta Allahın yer üzündə İmam Hüseyn(ə) kimi bir höccəti belə Xanım Zeynəbin(s.ə) ona dua etməsini istəyir.

Əgər insanın mərifəti dərin olsa, həmişə hüzur içində yaşaya bilsə, heç bir vaxt Allahla minacat etməyi və namazları vaxtında qılmağı tərk etməz. Amma mərifət zəif olduqda bircə baş ağrısına görə nəinki namazı vaxtından gec qılar, hətta namazını qəzaya da verər. Adam var ki, yüz manat pulunu itirir və çox narahat olduğuna görə pulu axtarmaqla məşğul olduğundan namazının vaxtını da ötürür.

Namazı öz vaxtında qılmaq insanın mənəviyyatı üçün çox böyük əhəmiyyətə malikdir. Əgər insan çalışıb ömrü boyu namazlarını vaxtlı-vaxtında qıla bilsə, bu əməl təkcə qəflət məsələsinin deyil, bir çox xəstəliklərin əlacıdır.

Namazı vaxtında qılmaq həm insanın maddi, həm də mənəvi, həm dünya, həm də axirət dərdlərinin dərmanıdır.

Odur ki, mərifət əhli olan insanlar heç bir zaman namazlarının vaxtından keçməsinə imkan verməmişlər. Hətta ən çətin və ağır hallarda belə namazlarını vaxtlı-vaxtında qılmışlar.

Mərhum İmam Xomeynini(r) ölkədən sürgün etmişdilər. O, bir müddət Fransada qaldı. Təzəcə orada məskunlaşmışdı ki, dünyanın müxtəlif ölkələrindən müxbirlər gəlib ondan müsahibə alırdılar. Belə bir halda insan öz hədəfləri barədə danışıb səsini dünyaya çatdırmağı nə qədər mühüm iş və böyük fürsət hesab edər? İmam Xomeyni(r) bir neçə dəqiqə suallara cavab verdikdən sonra oğlundan soruşur: "Saat neçədir?" Oğlu deyir: "Saatı ona söylədikdə müxbirlərlə müsahibəni yarımçıq qoyub ayağa qalxdı və dedi: "Namaz vaxtıdır."

Dünyanın müxtəlif ölkələrindən gəlmiş həmin müxbirlər İmamın(r) bu hərəkətini təəccüblə qarşılayıb oğlundan soruşurlar: "O, nə üçün bizi tərk etdi?" İmamın(r) oğlu deyir: "Siz onu başa düşməzsiniz. Çünki namaz vaxtı o, heç kimə müsahibə vermir və namazı vaxtında qılmağı hər şeydən üstün tutur."

İran-İraq müharibəsi səkkizillik ağır bir müharibə oldu. O vaxt İranın prezidenti Haşimi Rəfsəncani idi. O deyir: "Şiddətli döyüş gedirdi. İmam Xomeyni(r) müharibənin vəziyyəti ilə maraqlanmaq üçün komandirlərə bir saat vaxt ayırmışdı. Söhbət əsnasında birdən-birə ayağa qalxıb otağı tərk etdi. Komandirlərdən heç biri onun nə üçün otaqdan çıxdığını soruşmağa cürət edə bilmədiklərindən mənə dedilər: "İmamın(r) bizim hansısa sözümüzdən xoşu gəlmədimi? Nə üçün otağı birdən-birə tərk etdi?" Mən İmama(r) yaxınlaşıb soruşdum: "Ağa, nəsə baş verib?" İmam(r) buyurdu: "Namazın

vaxtıdır. Namaz qılaq, ondan sonra söhbətimizə davam edərik.”

Beləcə, İmam(r) namaz qılmağa başladı və biz də ona iqtida etdik. Sonra yenə də əyləşib söhbətimizə davam etdik.

Əgər insan namaza əhəmiyyət versə və vaxtlı-vaxtında namazlarını qılsa, Allah-təala bütün yolları onun üzünə açar və çətinliklərini aradan qaldırar. Bu, namazın vaxtında qılınmasının özünəməxsus xüsusiyyətlərindəndir. Bəzən əlimizdə mühüm bir iş görərkən azan səsini eşidib namaz vaxtı olduğunu bildiyimiz halda həmin işdən əl çəkmirik. Öz-özümüzə deyirik ki, əlimdəki bu işi başa çatdırıb sonra namaz qılarıq. Elə başa düşürük ki, namazı təxirə salmaqla işlərimizi irəli apara biləcəyik. Əsl həqiqətdə isə belə deyildir. Namazı öz vaxtında qılmaq insanın dünya və axirət işlərini sahmana salar, yolu onun üzünə açar.

### 4. Davamlı şəkildə Allahı zikr etmək

İnsanı qəflətdən xilas edən amillərdən biri də budur ki, həmişə Allah-təalanı zikr edib xatırlasın.

قَالَ عِلِي(ع):ِبدوامِ ذِكرِ اللّهِ تنجاب الغفلَةُ

-Həzrət Əli(ə) buyurur: “Daim Allahı xatırlamaq qəflət pərdəsini aradan götürər.”[1]

Əgər insan həmişə dilində, fikrində, ürəyində Allaha zikr etsə və Onun həmişə başı üzərində nəzarətçi olduğunu düşünsə, bu zikr insanın qəflətə düşməsinə imkan verməz. Allah-təala “Əraf” surəsinin 205-ci ayəsində belə buyurur:

واذْكُر ربك ِفي نفْسِك تضرعا وخِيفَةً ودونَ الْجهرِ مِن الْقَولِ
ِبالْغدو والْآصالِ ولَا تكُن مِن الْغافِلِين

---

[1] Mizanül-hikmə, 9-cu cild, hədis - 15187.

-Səhərlər və axşamlar öz qəlbində yalvarıb-yaxararaq, qorxu ilə və səsini ucaltmadan Rəbbini yada sal və qafillərdən olma.

Deməli, əgər insan daim bütün hallarda Allahı xatırlayıb zikr etsə, qəflətdən uzaqlaşar və qafil insanlardan olmaz.

“Hədid” surəsinin 16-cı ayəsində belə oxuyuruq:

أَلَم يأنِ لِلذِين آمنوا أنْ تخشع قُلُوبهم لِذِكْرِ اللهِ

-İman gətirənlərin qəlblərinin Allahın zikri və haqdan nazil olan (Quran) üçün yumşalması vaxtı gəlib çatmadımı?!

Kitablarda bu ayənin izahı ilə əlaqədar olaraq çox vaxt Füzeyl ibn Ayazı misal çəkirlər. O, yolkəsən, oğru və pozğun bir adam kimi tanınmışdı. Onun peşəsi karvanların qarşısını kəsib soymaq və evlərdən oğurluq etmək idi. Özünün də çox böyük imkanları və mal-dövləti var idi və bütün bunları quldurluqla əldə etmişdi. Özü üçün böyük bir quldur dəstəsi yaradıb onlara başçılıq edirdi. Karvanların qarşısını kəsərkən camaatı soyur və bəzən də adamları öldürürdü. Odur ki, karvan yola çıxarkən onun qorxusundan karvansaralarda gizlənir və tam arxayın olduqdan sonra hərəkət edirdilər.

Gecələrin birində Füzeyl bir evə oğurluğa gedir. Divarın üstünə qalxıb bir az orada əyləşir. Birdən qonşunun səsini eşidir. Qonşu gecəyarısı namaz qılıb Quran oxumaqla məşğul idi. Füzeyl diqqətlə qulaq asdıqda “Hədid” surəsinin 16-cı ayəsini eşitdi:

أَلَم يأنِ لِلذِين آمنوا أن تخشع قُلُوبهم لِذِكْرِ اللهِ

-Məgər iman gətirmiş kəslərin qəlblərinin Allahı yada salmaq və (Ondan) qorxmağın vaxtı çatmayıb?!

Bu ayə Füzeylin ürəyinə ox kimi sancıldı. Bir az düşünüb öz-özünə dedi: “Bəli, and olsun Allaha ki, indi

vaxtı çatıb.” Üç dəfə bu sözü təkrar etdikdən sonra divarın üstündən düşüb geri qayıdır. Yavaş-yavaş gedib bir karvansaraya girir. Qaranlıq olduğundan heç kəs onu tanımır. Keçib bir küncdə əyləşir. Həmin vaxt orada bir karvan gecələyirdi. Karvandakı adamlar bir-biri ilə söhbət edib deyirdilər: “Görəsən, Füzeylin adamları keçib getdilərmi? Nə yaxşı olardı ki, onlar burada olmasınlar. Biz də rahat-rahat yolumuza davam edərdik.” Füzeyl ayağa qalxıb dedi: “Qorxmayın, bundan sonra bütün yollar sizə açıqdır. Daha sizin qarşınızı kəsən olmayacaq. Füzeyl artıq Allahın bəndəsi oldu. Nə qədər ki, o, azad idi, sizin yollarda azadlığınız yox idi. Lakin bu gecədən Füzeyl qul və yollar sizə azad oldu. Çıxın yollara, bundan sonra sizə dəyib-dolaşan olmayacaq.”

Həmin gündən sonra Füzeyl çapıb-taladığı bütün mal-dövləti sahiblərinə qaytardı. Tanımadığı adamların mallarını isə onların adından şəriət qanunu ilə yerbəyer etdi. Füzeyl həmin gündən sonra Allaha ibadət etməyə başladı. Həmin tövbədən sonra böyük abid və zahidlərin cərgəsinə qoşuldu. Zəmanəsinə görə tanınmış arif insanlardan biri olmuşdu. Məkkəyə köçüb ömrünün axırına qədər Kəbənin kənarında yaşadı və aşura günü də dünyasını dəyişdi.

Allah-təala insanı ixtiyar sahibi kimi yaratmışdır. Yəni insan hər nə iş görürsə, bunu öz ixtiyarı ilə edir. Əgər insan öz ixtiyarını Allahın hökmlərinə və ayələrinə tabe edə bilsə, daim Allahı zikr etsə, o zaman əsla qəflətə düşməz. Düzdür, bu işin də çətinlikləri vardır. Şeytan həmişə insanın ətrafında dolanır və çalışır ki, onu Allahdan uzaqlaşdırsın. Həyatda bir sıra hallar insanın qarşısına çıxır ki, şeytan həmin vəziyyətlərdən istifadə edərək insana unutqanlıq gətirir. Amma əgər insan çalışıb daim Allahı zikr

etməyə və Onun həmişə başı üzərində nəzarətçi olduğunu xatırlamağa müvəffəq ola bilsə, onda qəflətdən uzaqlaşacaqdır. İnsan qəflətdən ayrıldıqdan sonra isə zikr edənlərdən sayılacaq. Hər kim zikr edənlərdən olsa, Həzrət Peyğəmbərin(s) sırasına qoşular. Bu cərgəyə qoşulmaq elə də asan iş deyil. Amma həmin cərgəyə qoşulduqdan sonra hər şey insan üçün asanlaşacaq. Çünki istiqamət aydınlaşdıqda insan üçün gedilən yol da rahat olacaqdır.

## 7-ci AYƏSİNİN TƏFSİRİ

**لَقَد حق الْقَولُ علىٰ أَكْثَرِهِم فَهم لَا يؤمِنونَ.٧**

**7. Doğrudan da onların əksəriyyəti barədə o söz gerçək olmuşdur, çünki onlar (Allah və Onun Peyğəmbərinə) iman gətirməzlər.**

Bu ayədə şirk və küfrün başında dayanan insanlar nəzərdə tutularaq buyurulur ki, Allahın vədi onların çoxunun barəsində gerçək olub və bu vəd onların barəsində icra olunmalıdır. Ayədə işlənmiş «قول» "söz" kəlməsi Allahın vədi mənasındadır. Onlar qafil olduqlarından, hidayət qapılarını öz üzlərinə bağladıqlarından və Allahın da vədi onlar barədə qərara alındığından bu işin axırı belə olacaqdır ki, onlar iman gətirməyəcəklər. Quranda buna oxşar çox ayələrə rast gəlirik. Məsələn, "Səcdə" surəsinin 12-13-cü ayələrində Allah-təala Həzrət Peyğəmbərə(s) xitab edərək belə buyurur:

ولَو ترىٰ إِذِ الْمجرِمونَ ناكِسو رءُوسِهِم عِند ربهِم ربنا أَبصرنا وسمِعنا فَارجِعنا نعملْ صالِحا إِنا موقِنونَ. ولَو شِئْنا لَآتينا كُلَّ نفْسٍ هداها ولَٰكِن حق الْقَولُ مِني لَأَملَأَن جهنم مِن الْجِنةِ والناسِ أَجمعِين

-(Ya Rəsulum!) Kaş günahkarlar öz Rəbbinin hüzurunda başlarını aşağı salaraq "Ey Rəbbimiz! (vəd verdiyin şeyi öz gözümüzlə və qulaqlarımızla) gördük və eşitdik, belə isə bizi geri qaytar ki, yaxşı işlər görək, şübhəsiz, biz tam yəqinliklə inananlardanıq!" - (deyəndə) görəydin.

"Və əgər istəsəydik, hər bir kəsə (onlar boyun əyənə qədər möcüzəni təkrar etməklə, iradədə-istəkdə məcburiyyət tətbiq etməklə) ona münasib doğru yol göstərərdik. Lakin

Mənim sözüm (əzəldən) sabitdir və həyata keçəcəkdir, mütləq cəhənnəmi cinlər və insanlarla dolduracağam!”

Sual oluna bilər ki, Allah-təala onlara nə üçün belə əzab vədi vermişdir? Cavab olaraq deyə bilərik ki, onlar hidayətin bütün yollarını öz üzlərinə bağlamışlar və Allahla bütün əlaqə tellərini də qırmışlar. Onlar inadkarlıqlarında ən yüksək dərəcəyə çatmış insanlardır. Arxaya qayıtmaq üçün qurulmuş körpülərin də hamısını uçurub dağıtmışlar. Onlar bütün açıq qapıları öz üzlərinə bağlamışlar. Bəli! Bu insanlar heç bir vaxt iman gətirməyəcək və geriyə dönməyə yolları qalmamışdır.

Bəs görəsən, onlar nə üçün iman gətirməyəcəklər? Bu suala da cavab olaraq demək olar ki, bu iş də səbəbsiz deyildir. Çünki bütün əməllərin hər birinin özünəməxsus xüsusiyyəti və təsiri olduğu kimi, bəzi əməllərin də xüsusiyyəti budur ki, axırda insanı imandan çıxarır və o, imansız halda da bu dünyadan gedir.

**1. Qəflət**

Onların iman gətirməyəcəklərinin səbəblərindən biri həmin ayədə qeyd olunduğu kimi, qəflət məsələsidir. Onlar qəflətdədirlər və qəflətin də xüsusiyyəti bundan ibarətdir ki, qafil insan bu dünyadan imansız gedər. “Yasin” surəsinin 6-cı ayəsində onların qafil olduqlarını bəyan etdikdən sonra belə buyurulur:

لَقَد حق الْقَولُ علَىٰ أَكْثَرِهِم فَهم لَا يؤمِنونَ

-Doğrudan da onların əksəriyyəti barədə o söz gerçək olmuşdur, çünki onlar (Allah və Onun Peyğəmbərinə) iman gətirməzlər.

**2. Nəfsani istəklərə tabe olmaq**

İnsanın axırda imansız olaraq bu dünyadan getməsinə səbəb olan amil onun öz nəfsani istəklərinə tabe olması ilə bağlıdır. İnsan namaz qılmasına, bəzən də oruc tutmasına baxmayaraq, öz nəfsani istəklərinə tabe olduğu üçün onun bu dünyadan imansız bir şəxs kimi getməsi tamamilə mümkündür. Deməli, hər hansı bir kəsin nəfsani istəkləri ona qələbə çalsa və həyatda öz nəfsini meyar olaraq qərar versə, nəfs həmin insanı yavaş-yavaş imandan çıxarar və onu imansız halda bu dünyadan aparar. Hətta ola bilər ki, bir zamanlar çox yaxşı bir insan olsun, namazlarını öz vaxtında qılsın və cihadlarda da iştirak etsin, lakin bütün bunlara baxmayaraq, sonradan nəfsani istəklərinə aldanaraq imandan çıxa bilər.

Misal üçün, Şimr(l) bir zamanlar İmam Həsən(ə) və İmam Hüseynlə(s) çiyin-çiyinə Həzrət Əlinin(ə) qoşununda döyüşlərdə iştirak etmişdir. Amma sonralar bəzi əməlləri və nəfsi istəkləri onu elə bir vəziyyətə gətirib çıxardı ki, Kərbəlada İmam Hüseynin(ə) başını kəsdi. Nəfsani istəklərin bu qədər çox təhlükəli təsirə və xüsusiyyətə malik olduğu məlumdur.

Allah-təala Həzrət Musaya(ə) qiyamət və onun yəqin olması barədə danışdıqdan sonra "Taha" surəsinin 16-cı ayəsində belə buyurur:

فَلَا يَصُدَّنَّكَ عَنْهَا مَنْ لَا يُؤْمِنُ بِهَا وَاتَّبَعَ هَوَاهُ فَتَرْدَىٰ

-Ehtiyatlı ol ki, (qiyaməti) danıb nəfsinin istəklərinə uyan bir kəs səni ona inanmaqdan yayındırmasın, yoxsa məhv olarsan!

Deməli, insanın qiyaməti danması onun nəfsani istəklərinə tabe olmasının nəticəsidir. Nəfsani istəklərin xüsusiyyəti və nəticəsi belədir. Allah-təala "Qəmər" surəsinin

2-3-cü ayələrində Həzrət Peyğəmbərə(s) xitab edərək belə buyurur:

وإِنْ يروا آيةً يعرضوا ويقُولُوا سِحر مستمِرٌ. وكذبوا واتبعوا أهواءهم

-Əgər müşriklər (Məhəmmədin(c) peyğəmbərliyinin həqiqiliyini təsdiq edən) bir möcüzə görsələr, (imandan) üz döndərib: "(Bu, uzun müddət) davam edən bir sehrdir!" – deyərlər.

Onlar (Ayın parçalanmasını, digər möcüzələri və Peyğəmbər əleyhissalamı) təkzib etdilər və öz nəfsani istəklərinə uydular.

Bu ayələr Ayın ikiyə bölünməsi, Həzrət Peyğəmbərin(s) möcüzəsi və onu təkzib edənlər barədə söz açır. Müşriklər özləri Ayı iki yerə bölməyi Həzrət Peyğəmbərə(s) təklif etmişdilər. Onlar Həzrət Peyğəmbərə(s) iman gətirmir və hər cür bəhanə gətirirdilər. Buna görə də onlar Ay əlçatmaz bir yer olduğundan dedilər: "Əgər Ayı iki yerə bölsən, sənə iman gətirəcəyik." Həzrət Peyğəmbər(s) onlardan soruşdu: "Əgər bu işi görsəm, siz həqiqətən də iman gətirəcəksiniz?" Dedilər: "Əlbəttə." Həzrət Peyğəmbər(s) Allahdan izn alaraq barmağı ilə Aya işarə etdi. On dörd gecəlik Ay iki yerə bölündü. Onların hamısı bu möcüzəni öz gözləri ilə gördülər, amma yenə də iman gətirmədilər. Ayın ikiyə bölünməsi Həzrət Peyğəmbərin(s) elə bir möcüzəsi idi ki, hər kim onu görsəydi, təəccübündən "Allahu Əkbər" deyib iman gətirərdi. Lakin bu müşriklər yenə də inadkarlıq edərək iman gətirmədilər. Onların bu inadkarlığı və iman gətirməmələrinin səbəbi nəfsani istəklərinə tabe olmaları idi. Buna görə də hər kim nəfsani istəklərinə uysa və onun istəklərinə uyğun şəkildə hərəkət

etsə, axırda inadkar və imansız bir insan olaraq bu dünyanı tərk edəcəkdir.

Əbu Süfyan elə bir insan idi ki, onun həm özü, həm də nəsli pozğun idilər. İyirmi il o, Həzrət Peyğəmbərə(s) qarşı mübarizə apardı. Belə ki, o və onun əlaltıları Həzrət Peyğəmbərə(s) qarşı çıxaraq, əllərindən gələn hər bir zülmü və alçaqlığı etdilər. Axırda da yalandan İslama iman gətirdi ki, onu öldürməsinlər. Həzrət Peyğəmbər(s) dünyasını dəyişəcəyini hiss edərək öz yaxınlarına və tərəfdarlarına təkidlə bildirirdi ki, gücləri çatdığı qədər xilafəti əllərindən buraxmasınlar.

Hicrətin 7-ci ilində Əbu Süfyan ticarət məqsədilə bir qrup adamla Bizansa səfər etdi. Həmin ərəfədə Həzrət Peyğəmbər(s) Bizans padşahı Qeysərə məktub yazıb Dehyət ibn Xəlifət ibn Kəlbi (Dehyeyi Kəlbi) ilə göndərdi. Həzrət Peyğəmbər(s) həmin məktubda Qeysəri İslama dəvət edirdi. Qeysər məktubu alıb oxuduqdan sonra Həzrət Peyğəmbər(s) barədə daha ətraflı maraqlanmaq istədi. Həmin vaxt o, eşitmişdi ki, Hicazdan bir qrup insan ticarət məqsədilə Bizansa gəliblər. Padşah bir nəfəri göndərdi ki, gedib həmin adamları axtarıb tapsın və onları onun hüzuruna gətirsinlər. Həmin şəxs gedib onları axtarıb tapdı və saraya gətirdi.

Əbu Süfyan deyir: "Həmin heyətin rəhbəri mən olduğum üçün soruşdum: Bizi bura çağırmaqda məqsədiniz nədir?"

Qeysər: "Siz bir nəfərin peyğəmbərlik iddiası etdiyi yerdən gəlmisinizmi?"

Dedim: "Bəli, elədir."

Qeysər: "Sizin aranızda elə bir adam vardırmı ki, həmin peyğəmbərlik edən adamla qohumluq münasibəti olsun?"

Dedim: "Bəli, mən onun qohumuyam."

Qeysər: "Səninlə necə qohumdur?"

Dedim: “Əmioğluyuq.”

Qeysər bizim üçün elə bir yer düzəltdirdi ki, hamımız onunla üz-üzə oturmalı olduq. Məni hamıdan qabaqda əyləşdirdi ki, arxada oturanları görməyim. Səbəbini də açıqlayaraq dedi: “Sizi ona görə belə əyləşdirmişəm ki, işdi əgər sən yalan danışsan, arxada əyləşənlər yalan danışdığını etiraf edərkən səninlə üz-üzə dayanıb utanmasınlar.”

Sonra o, üzünü mənə tutub soruşdu: “Peyğəmbərlik iddiası edən şəxsin ata-babası necə adamdır?”

Dedim: “Çox şərafətli və nəcib ailədəndirlər.”

Qeysər: “Bu ailədə ondan qabaq kimsə peyğəmbərlik iddiası edibmi?”

Dedim: “Xeyr.”

Qeysər: “İndiyə qədər onun dilindən yalan eşitmisinizmi?”

Dedim: “Xeyr.”

Qeysər: “Ata-babalarından kimsə padşah olubmu?”

Dedim: “Xeyr.”

Qeysər: “Onun ağlı necədir?”

Dedim: “Mükəmməl.”

Qeysər: “Ona iman gətirənlər imkanlı insanlardır, yoxsa zəiflər və yoxsullar?”

Dedim: “Zəiflər və yoxsullar.”

Qeysər: “Ona iman gətirənlərin sayı gündən-günə çoxalır, yoxsa azalır?”

Dedim: “Çoxalır.”

Qeysər: “Olubmu ki, ona iman gətirənlərin bəzisi imanından üz çevirsin?”

Dedim: “Xeyr. Ona iman gətirən hər bir kəsin imanı gündən-günə çoxalıb.”

Qeysər: “Heç olubmu ki, indiyə qədər verdiyi sözü və əhdini sındırsın?”

Dedim: “Xeyr.”

Qeysər: “İndiyə qədər onunla müharibə etmisinizmi?”

Dedim: “Bəli.”

Qeysər: “Bu müharibələrdə hansınız qələbə çalmısınız.”

Dedim: “Bəzən biz, bəzən də onlar qələbə çalıblar.”

Sonra Qeysər sualı dəyişərək soruşdu: “O, sizi nəyə dəvət edir?”

Dedim: “Allaha ibadət etməyə. Pis işlərdən əl çəkməyə. Namaz qılmağa. Zəkat verməyə. Düz danışmağa. Əhdə vəfa etməyə. Əmanətdarlığa. Paklıq və təqvaya.”

Qeysər bu sözləri eşitdikdən sonra ətraflı söhbət etdi və axırda belə dedi: “Bütün bunların hamısı həqiqətən peyğəmbərlik əlamətləridir. İnandım ki, o insanın bütün hərəkətləri peyğəmbərlərin hərəkəti ilə uyğun gəlir.”[1]

Bu hadisəni danışmaqda məqsədim odur ki, Əbu Süfyan Həzrət Peyğəmbəri(s) çox yaxşı tanıyırdı. Onun necə bir insan olduğunu hamıdan gözəl bilirdi. O, Həzrət Peyğəmbərin(s) məntiqini, sözünü çox yaxşı başa düşürdü. Amma onun İslama iman gətirməməsinin yeganə səbəbi nəfsi istəklərinə uyması idi. Nəfsi ona qələbə çaldığı üçün imkan vermirdi ki, Həzrət Peyğəmbərə(s) iman gətirsin.

Ona görə də hədislərdə nəfsə qarşı mübarizə aparmaq bizə təkidlə tövsiyə olunur. Əgər insan nəfsi ilə müxalifətçilik etməsə, o, insandan çox şeylər istəyər. Buna görə də onu sındırıb əzmək lazımdır. Çünki nəfsə hər istədiyini verdikcə, o, yenə də tələb edəcəkdir. Əgər insan nəfsi ilə mübarizə aparmasa, axırda o, insanı düz yoldan çıxaracaqdır. Mərhum Əllamə Təbatəbayidən soruşdular: “Hər bir alimin insanın irfanda məqsədə çatması üçün müəyyən göstərişləri vardır. Məsələn, Xacə Abdullah Ənsari insanın

---

[1] Günahın cəzası, səh. 368.

məqsədə çatması üçün “Seyr edənlərin dərəcələri” adlı kitabını yazmışdır. Bu kitabda yüz dərəcədən söhbət açılır. Yəni kim bu dərəcələri bir-bir keçə bilsə, irfanın yüksək mərhələlərinə çatacaq. Bəs sizin bu barədə rəyiniz nədir?” Əllamə Təbatəbayi buyurdu: “Mənim nəzərimcə, bu mərhələyə çatmaq üçün iki addım atmaq lazımdır. Bir addımını nəfsinin üzərinə qoy, ikinci addımını cənnətə atacaqsan.”

Bu kimi sözləri danışmaq asandır, amma əməldə onu həyata keçirmək isə elə də asan iş deyil. Nəfslə mübarizə etmək üçün insan çox diqqətli olmalıdır. Odur ki, əgər insan mal, vəzifə, şəhvət, yemək və s. cəhətlərdən nəfsi ilə mübarizə apara bilsə və ona qələbə çalsa, məqsədə çatacaqdır. Yox, əgər insan nəfsilə mübarizə aparmasa və ona qələbə çala bilməsə, nəfs onun kürəyini yerə vurmayınca əl çəkməyəcəkdir. Elə ki, insanın kürəyini yerə vurdu bir daha ona qalxmağa heç cür imkan verməyəcək. Çünki bu, insanın daxilində gedən böyük bir mübarizədir. Bu mübarizə heç bir insana zarafat gəlməsin. Çünki insanın taleyi, xoşbəxtliyi və bədbəxtliyi məhz həmin mübarizənin nəticəsi ilə bağlıdır.

Mərhum Ayətullah Fazil Lənkərani “Naziat” surəsinin 40-cı ayəsi (“Amma kim öz Rəbbinin məqamından, Onun hüzurunda durmaqdan qorxub və özünü nəfsani istəklərindən saxlamışsa, şübhəsiz, onun yeri cənnətdir”) barədə belə buyurardı: “Nəfslə insan daim güləşir. Əgər sən bu döyüşdə zəiflik göstərsən, nəfsinin sənə rəhmi gəlməyəcək. Əvvəl-axır səni yerə yıxacaq və bir daha ayağa qalxmağına imkan verməyəcəkdir.”

Odur ki, əgər nəfs qələbə çalsa, yavaş-yavaş insanı aparıb küfr çirkabına atacaqdır. Belə ki, insanın imanla ölməsinə də imkan verməyəcək. Oruc tutmaq elə bir əməldir ki, onun hökmlərinə diqqət yetirdikdə görürük ki, bu,

büsbütün nəfslə mübarizədir. Orucda əmr yoxdur. Onun hökmləri yasaq və qadağadan ibarətdir. Yəni yemək, içmək və s. əməllər qadağandır. Bu, nəfslə mübarizə etməkdir. Bunun da nəticəsində insanda təqva və nuraniyyət hasil olur. Orucluğun sonunda insan özündə nuraniyyətin çoxaldığını hiss edir.

**3. Təkəbbürlülük və özünü bəyənmə**

İnsanın küfrə düşməsinə və axırda imansız olaraq dünyadan getməsinə səbəb olan amillərdən biri də təkəbbürlülük və özünü bəyənməkdir. Yəni insanda bu xislətlərin hər biri barədə geniş şəkildə söhbət etmək olar. Lakin bu bəhsdə onların hər biri haqda söz açmaq niyyətindəyəm. Təkəbbürlülük odur ki, insan haqqı qəbul etmir və onu qəbul etməməklə yanaşı, həm də digər insanları təhqir edir, öz rəyindən savayı başqa rəyləri bəyənmir. Belə adama təkəbbürlü adam deyilir. Yəni bu insan haqqın qarşısında baş əyməyə, itaət etməyə razı deyil. Onun üçün öz şəxsi fikri və məsləhəti hər bir şeydən üstündür. Əgər haqqa boyun əymək onun məsləhəti ilə olsa, o zaman bu işi görəcəkdir. Yox, əgər onun öz məsləhəti ilə düz gəlməsə, onda haqqı qəbul etməyəcəkdir. Haqq söz danışanlar onunla müxalif olduqlarına görə onları da təhqir edib sındırmağa çalışar. Əgər onları sındıra bilməsə, öz işlərini də görə bilməz. Özünü bəyəndiyi üçün, haqqı qəbul etmədiyinə görə bu işləri görməyə də məcburdur.

Qurani-Kərimdə bu barədə bir çox nümunələrə rast gəlirik. Misal olaraq bir neçə ayəni diqqətinizə çatdırmaq istəyirəm.

Firon və onun tərəfdarları Həzrət Musanı(ə) və onun qardaşı Harunu qəbul etmirdilər. Onlar belə iddia edirdilər ki, Musa və onun qardaşı da bizim kimi adi insandırlar.

Odur ki, belə deyirdilər: “Biz onlara iman gətirəkmi?” Onlar Həzrət Musanın(ə) sözünü qəbul etməməklə yanaşı, həm də onu təhqir edirdilər. Həmçinin Nuhun qövmü, Ad və Səmud qövmləri də onları Allaha tərəf hidayət edən peyğəmbərlərin sözlərini eşitmək belə istəmirdilər. Bundan əlavə, onlar peyğəmbərləri təhqir edirdilər. “İbrahim” surəsinin 10-cu ayəsində onların sözləri belə bəyan olunur:

قَالُوا إِنْ أَنتم إِلا بشر مِثْلُنا تريدونَ أَنْ تصدونا عما كانَ يعبد آباؤنا

-Onlar demişdilər: “Siz də bizim kimi adi bir insansınız. Bizi atalarımızın ibadət etdiklərindən (bütlərdən) döndərmək istəyirsiniz.”

Onlar təkəbbürlülük üzündən peyğəmbərlərin sözlərini qəbul etməməklə yanaşı, həm də onları təhqir etməkdən belə çəkinmirdilər. Bu, yalnız qədim dövrlərə aid olan bir məsələ deyildir. Elə günü bu günün özündə də kimliyindən asılı olmayaraq haqq sözü qəbul etməyən və haqqı söyləyən insanları təhqir edən şəxslər dünyanı bürüyüb və onlar təkəbbürlü insanlardır. Bu insanlara şeytan da demək olar. Çünki şeytan da təkəbbürlülük üzündən Allahın dərgahından qovuldu. Allah-təala “Bəqərə” surəsinin 34-cü ayəsində belə buyurur:

وإِذْ قُلْنا لِلْملَائِكَةِ اسجدوا لِآدم فَسجدوا إِلا إِبلِيس أَبىٰ واستكْبر وكَانَ مِن الْكَافِرِين

-(Ya Peyğəmbər!) Biz mələklərə: “Adəmə səcdə edin! – dedikdə iblisdən başqa (hamısı) səcdə etdi. (Yalnız) o, təkəbbür göstərib (səcdə etməkdən) imtina etdi və kafirlərdən oldu.”

Kitablarda qeyd olunub ki, şeytan altı min il Allaha ibadət etmişdi. Bütün bu ibadətlərə baxmayaraq, bircə dəfə

təkəbbürlülük etməklə imandan çıxıb kafir oldu. Bircə dəfə təkəbbürlülük etməklə altı minillik ibadətini puç etdi.

Mədinə və Şam şəhərləri arasında müxtəlif qəbilələr yaşayırdılar. O cümlədən Səmud qövmü də onlardan biri idi. Allah-təala bu qövmə Saleh adlı bir peyğəmbər göndərdi. Saleh Peyğəmbər(ə) həmin qövmü hidayət etmək üçün təbliğat aparmağa başladı. Lakin onu qəbul etməyən bir qrup insan nəinki onun sözlərini eşitmək istəmirdilər, hətta o qədər təkəbbürlü idilər ki, Saleh Peyğəmbərlə(ə) bir yerdə oturub söhbət etməyi belə özlərinə sığışdırmırdılar. Bundan əlavə, onlar iman gətirənləri də yoldan çıxarırdılar. Qurani-Kərimin "Əraf" surəsinin 75-76-cı ayələrində bu barədə belə oxuyuruq:

قال الملأ الذين استكبروا من قومه للذين استضعفوا لمن آمن منهم أتعلمون أن صالحا مرسل من ربه قالوا إنا بما أرسل به مؤمنون. قال الذين استكبروا إنا بالذي آمنتم به كافرون

-Onun qövmünün təkəbbürlü başçı və böyükləri onların zəif salınmış möminlərinə dedilər: "Siz Salehin Rəbbi tərəfindən göndərildiyini bilirsiniz?" Onlar dedilər: "Şübhəsiz, biz onun göndərilmiş olduğu şeyə iman gətirmişik."

Təkəbbürlülük edənlər dedilər: "Şübhəsiz, biz sizin iman gətirdiyiniz şeyi inkar edirik."

Səmud qövmü minlərlə il bundan qabaq yaşamış bir tayfa idi. O dövrün mədəniyyətini gözümüzün önündə canlandırıb, yaşadığımız dövrlə müqayisə etdikdə bunların tamamilə fərqli olduğunu müşahidə edərik. Mədəniyyət və hər bir şeyin tamamilə fərqli olmasına baxmayaraq, məntiq və düşüncə isə heç dəyişməyib. Əgər indiki dövrdə belə dünyada hamının tanıdığı və qəbul etdiyi beş-altı nəfər

oturub söhbət etməklə, bir-birinin sözünü eşitməklə haqqı qəbul etsəydilər, bu qədər qan tökülərdimi? Dünyanın hegemonları kimin haqq və kimin nahaq olduğunu da yaxşı bilirlər. Lakin onlar haqqı qəbul etməyi özlərinə sığışdırmırlar. Təkəbbürlülük imkan vermir ki, onlar kiminsə sözünə qulaq assınlar.

Məgər İslam Peyğəmbəri(s) ilə müharibə edənlər, onu incidənlər, yolunun üstünə tikan atanlar, damların üstündən başına zibil tökənlər Həzrəti(s) tanımırdılarmı? Çox yaxşı tanıyırdılar və onun kim olduğunu da yaxşı bilirdilər. Həzrət Peyğəmbər(s) dəfələrlə onların bu kimi etiraflarını eşitmişdi. Onlar İslam Peyğəmbərinin(s) yalan sözlər danışmadığını hamıdan yaxşı bilirdilər. Həzrət Peyğəmbər(s) dağın üstünə çıxıb camaatı səslədi. Hamı toplaşdıqdan sonra isə üzünü onlara tutaraq buyurdu: "Əgər sizə filan dağın arxasından düşmənlərin hücuma keçdiyini xəbər versəm, mənim sözümə inanarsınızmı?" Hamı yekdilliklə dedi: "Biz indiyədək sənin dilindən yalan eşitməmişik. Əgər düşmənin bizə hücum etməsi xəbərini versən, sənə inanıb özümüzü düşmənin hücumundan müdafiə etmək üçün hazırlıq işləri görərik." Həzrət Peyğəmbər(s) buyurdu: "İndi ki, siz mənim sözlərimə inanırsınız və mənim dilimdən yalan eşitməmisiniz, bundan sonra da eşitməyəcəksiniz. Elə isə qulaq asın, məni dinləyin. Mən sizi Allahın şiddətli əzabından qorxudub, sizi Ona iman gətirməyə dəvət edirəm. Əgər Allaha iman gətirməsəniz, Onun şiddətli əzabı sizlərə nazil olacaq."

İslam Peyğəmbəri(s) onlara başa salırdı ki, ən pis və yaxun düşmən şeytan və sizin içinizdə olan nəfsani istəklərinizdir. Bu düşmənlər həmişə sizi məğlub etmək istəyirlər. Bütpərəstlikdən əl çəkin və Allaha ibadət edin. Nəfsani istəklərinizə və şeytanın hiylələrinə uymayın.

Bütün bunlara baxmayaraq, təkəbbürlü insanlar yenə də öz inadkarlıqlarından əl çəkmədilər və Həzrət Peyğəmbərlə(s) mübarizəni davam etdirməyə başladılar. O dövrdən bu vaxtadək 1400 il ötməsinə baxmayaraq, ölkələri işğal edənlər, qan tökənlər, dünyada at oynadanlar məgər məzlum insanların sözlərinin nədən ibarət olduğunu bilmirlər? Bütün bunları çox yaxşı bilirlər və buna görə də oturub söhbət etməyə razı olmurlar. Hər kim səsini çıxarırsa, silahla cavab verirlər. Bəs görəsən, inkişaf etmiş bu mədəniyyət haradadır? Əgər insanların mədəniyyəti inkişaf edibsə, bəs onda nədən dünyanın hər yerində silah dili ilə danışırlar?

Texnologiyanın, iqtisadiyyatın və s. inkişaf etdiyi bir dövrdə görəsən nədən biz öz insanlığımızı itirmişik? Televiziya, internet, mobil vasitələr, müxtəlif minik vasitələrinin inkişaf etdiyi bir dövrdə bütün bunlar nədən insanlığa kömək etməməlidir. Deməli, bütün bu texnoloji avadanlıqların inkişafının insanlıq, şərəf və ləyaqətlə heç bir bağlılığı yoxdur. Bunlar insaniyyət üçün sadəcə olaraq heç bir etibarı olmayan texniki avadanlıqlardır. Keçmiş dövrlərdə nə qəzet var idi, nə internet. Nə televiziya var idi, nə də radio. Nə telefon var idi, nə də başqa texnoloji vasitələr. O dövrdə Saleh Peyğəmbəri(ə) qəbul edən kim idi? Lakin texnologiyaların yüksək sürətlə inkişaf etdiyi indiki dövrdə Saleh Peyğəmbərdən(ə) də böyük olan İslam Peyğəmbəri(s) ilə bağlı ləyaqətsiz sözlər yazırlar. Milyard yarım müsəlmanın Peyğəmbərinin(s) karikaturasını çəkib təhqir edirlər. Məgər inkişaf etmiş Qərb, yaxud Avropa mədəniyyəti budurmu? Saleh Peyğəmbərin(ə) qövmünün iman gətirməyənləri bunlardan min dəfə yaxşı idilər. Çünki o zaman onların heç bir şeydən xəbəri yox idi. Amma dövrümüzün alçaq və murdar insanları hər bir şeydən xəbərləri ola-ola, bütün bunları bilə-bilə yenə də öz çirkin

işlərini davam etdirirlər.

Həzrət Peyğəmbər(s) buyurur: “Bir gün Saleh(ə) qövmunə dedi: “Camaat! Allah məni 16 yaşda ikən peyğəmbər seçdi. İndi mənim 120 yaşım var. (Bu müddət ərsində) mən sizi Allaha tərəf hidayət etdim, amma siz mənim dəvətimi qəbul etmədiniz. Gəlin, sizinlə iki işdən birini görək. Siz bütlərinizi gətirib bir yerə yığın. Mən sizdən bir şey soruşum. Əgər sizin bütləriniz istəyimi yerinə yetirsələr, sizin aranızdan çıxıb gedəcəyəm. Ya da ki, siz mənim Allahımdan istəyin. Əgər istədiyinizi etsə, onda siz Ona iman gətirəcəksiniz.”

Onlar Saleh Peyğəmbərin(ə) bu təklifi ilə razılaşdılar. Gedib yetmiş büt gətirdilər və onları cərgə ilə bir yerə yığdılar. Həmin günü şadlıq edərək yeyib içdilər. Sonra Saleh Peyğəmbəri(ə) çağırıb dedilər: “Bizim bütlərimiz hazırdır.” Saleh Peyğəmbər(ə) ən böyük bütə yaxınlaşıb soruşdu: “Bunun adı nədir?” Bütün adını ona söylədilər. Saleh(ə) həmin bütü adı ilə səslədi. Bütdən səs çıxmadı. Sonra ikinci bütü səslədi. Beləcə, bütün bütləri bir-bir çağırıb səslədi. Heç biri ona cavab vermədi. Sonra üzünü qövmünə tutub buyurdu: “Sizin bütləriniz mənə cavab vermədilər. İndi isə siz soruşun. Hər nə istəsəniz, mənim Allahım onu da edəcək.” Onlar bir dağın kənarında olduqları üçün Saleh Peyğəmbərə(ə) dedilər: “İstəyirik ki, sənin Allahın bu dağın içindən bir dəvə çıxarsın. Əgər bu möcüzəni edə bilsən, sənə iman gətirəcəyik.” Allahın əmri ilə hamının gözü qarşısında dağ aralandı və içindən bir dəvə çıxdı. Bu möcüzənin qarşılığında altı nəfər Saleh Peyğəmbərə(ə) iman gətirdi. Sonra onlardan biri imandan çıxdı və beş nəfər qaldılar. Allah-təala “Şəms” surəsinin 11-ci ayəsində Səmud qövmü barədə belə buyurur:

كَذبت ثَمود بِطغواها

-Səmud (qövmü) azğınlıq üzündən (Salehi) təkzib etmişdi.

Onlar tüğyan edib cızıqlarından çıxmışdılar. O qədər təkəbbürlü idilər ki, hətta möcüzəni gözləri ilə gördükdən sonra da belə iman gətirmədilər. Odur ki, insan təkəbbürlü olarsa, heç bir haqq-həqiqəti qəbul etməz.

Təkəbbür elə bir xəstəlikdir ki, bəzən insan kiçik, xırda məsələlərdə də belə təkəbbürlülük edirlər. Təkəbbürlülüyün ən yüksək mərhələsi Allahı danmaqdır. Sonra peyğəmbərləri inkar etmək, daha sonra isə insanlarla münasibətdə haqqı qəbul etməməkdir. İstənilən hər bir halda təkəbbürlülük etmək çox pis xüsusiyyətdir. Hətta kiçik hallarda da belə insanda təkəbbürün özünü büruzə verməsi mümkündür.

قالَ رسولُ اللهِ(ص): إياكُم و الكِبرَ؛ فإنّ الكِبر يكونُ في الرجل و أن عليهِ العباءَةَ

-Həzrət Peyğəmbər(s) buyurur: "Təkəbbürdən uzaq ol. Çünki bəzən bir əba (paltar) geyinmək də insana təkəbbür gətirər."[1]

Ərdəbil şəhərində yaşayan ilahiyyatçı alimlərdən biri deyir: "Aşura günü idi. Camaat əzadarlıq etmək üçün küçələrə çıxmışdı. Mən də hazırlaşıb məsciddən çıxarkən yaşlı bir kişi gəlib mənə dedi: "Hava soyuqdur. Sənin artıq əban varsa, ver çiynimə atım." Mənim məsciddə artıq bir əbam var idi. Onu gətirib həmin kişiyə verdim. O da əbanı çiyninə saldı. Mən dəstənin qabağında əzadarlıq edə-edə gedirdim və o da mənim yanımca gəlirdi. Bir neçə küçə

---

[1] Mizanül-hikmə, 11-ci cild, hədis - 17212.

keçmişdik ki, birdən əbanı çıxarıb üstümə atdı və dedi: "Al, daha istəmirəm bunu." Soruşdum: "Axı sənə birdən-birə nə oldu belə?" Dedi: "Nə qədər ki, çiynimdə əba yox idi, əzadarlıqlarda rahat iştirak edirdim. Əzadarlıq dəstələrində birindən qabağa keçirdim, biri də məndən qabağa keçirdi. Heç belə şeylərə fikir verməzdim. Amma bu gün əbanı çıynimə salıb dəstəyə qoşulanda kim məndən qabağa keçirsə, acığım gəlir. Bu əba məndə çox pis hal yaratdı."

Əba şərəfli geyim vasitəsi olmasına baxmayaraq, bəzən ola bilər ki, insan onu çiyninə saldıqda onda təkəbbürlülük əmələ gəlsin. Təkəbbürlülük də o qədər təhlükəli bir şeydir ki, hətta şərəfli əməllərdən də insanda yarana bilər. Əgər insan ayə və hədis oxumaqdan, təsbehlə zikr etməkdən, salavat deməkdən sonra özündə təkəbbürlülük yarandığını hiss etsə, dərhal bu işi dayandırmalıdır. Mümkündür ki, insan zikr və təsbehlə də cəhənnəmə getsin. Yəni bir zikrlə insanda təkəbbürlülük əmələ gəlirsə, artıq bu onun üçün təhlükəlidir. Bəziləri elə başa düşürlər ki, təkəbbürlülük yalnız şeytanın Adəmə səcdə etməməsidir. Həzrət Peyğəmbər(s) Abuzərə(r) vəsiyyət edərkən təkəbbürlülüyün mənasını belə açıqlayır:

يا أبا ذَر، من مات و في قَلبِهِ مِثقالُ ذَرةٍ مِن كِبرٍ لم يجِد رائحةَ الجَنةِ إلاّ أن يتوب قبلَ ذلك، فقالَ... و لكن الكِبر أن تترك الحَق و تتجاوزه إلى غيرِهِ، و تنظُر إلَى الناسِ و لا ترى أن أحدا عِرضه كَعِرضِك و لا دمه كَدمِك

-Həzrət Peyğəmbər(s) buyurur: "Ey Abuzər! Hər kim ölsə və qəlbində zərrə qədər də təkəbbürlülük olsa, cənnətin iyi burnuna çatmaz. Tövbə edənlərdən başqa…

Təkəbbür odur ki, haqqı yerə atıb nahaqqa üz tutasan və camaata heç kimin abrının sənin abrıntək, qanının isə sənin qanın kimi olmaması gözü ilə baxmaqdır."[1]

Kiçikliyindən və böyüklüyündən asılı olmayaraq, haqq-həqiqəti qəbul etməmək təkəbbürlülükdür. Yəni mümkündür ki, bəzi yerdə haqqın surəti balaca, bəzi yerdə isə böyük olsun. Amma mahiyyət etibarı ilə haqq-həqiqət elə haqdır. Mahiyyət baxımından onun böyük və kiçikliyi yoxdur. Məsələn, bir kasa su ilə bir dərya su yaşlıq mənasında eynidir. Azlıq və çoxluqda fərq ola bilər, amma mahiyyət və yaşlıq baxımından eynidir. Bir kasa su necə yaşdırsa, bir dəniz su da eynilə yaşdır. Haqqın kiçik və böyüklüyünün mahiyyəti eynidir.

Böyük ustadlardan biri Ayətullah Şəhid Behiştinin barəsində belə deyir: "Mən onunla dərs oxuyurdum və bəzən də biz elmi diskussiyalar aparırdıq. Bəzən mən deyəni o, qəbul etmirdi və bəzən də onun dediyini mən qəbul etmirdim. Hər birimiz sözümüzün dəlil və sübutunu ortaya qoyub müzakirə edirdik. Bəzi hallarda o, mənim dəlil-sübutumu qəbul etmirdi. Çünki özünün də söykənəcəyi əsas və sübutlar olurdu. Həmin gün o, evə gedib gecə mənə zəng edərək deyirdi ki, mən müzakirə etdiyimiz məsələ barədə ətraflı şəkildə araşdırma apardım və gördüm ki, sənin irəli sürdüyün dəlil-sübutlar düz imiş. Sözünü qəbul etmədiyim üçün səndən üzr diləyirəm."

Bu misalı ona görə çəkdim ki, o insan tərəf müqabilinin haqlı olduğunu bilən kimi tez ona zəng edib bunu etiraf edirdi.

Həmçinin hədisdə təkəbbürlülüyün əlamətlərindən biri olaraq insanın başqalarının abrını öz abrı, qanını isə öz

---

[1] Mizanül-hikmə, 11-ci cild, hədis - 17233.

qanı kimi qəbul etməməsi qeyd olunur. Əgər insan öz abrını başqasının abrından üstün tutursa, daməli təkəbbürlülük etmişdir. Çünki başqası da onun kimi bir insandır. Necə ki, insan öz abrının və qanının tökülməsini istəmir, eləcə də başqalarının da abır və qanının tökülməsinə razı olmamalıdır. Əgər insan özünə razı olmadığını başqasına rəva görərsə, həmin şəxsi təhqir etmişdir. Bu da təkəbbürlülükdən irəli gələn bir məsələdir.

Mərhum ustad Şəhid Mürtəza Mütəhhəri deyir: "Gecəyarısı bir ticarətçiyə xəbər verdilər ki, bazar yanıb. Həmin şəxsin o bazarda dükanı var idi. Sonra ona xəbər verdilər ki, sənin dükanın yerindədir, yanan isə qonşulardan bir neçə nəfərin dükanıdır. Həmin şəxs bu sözü eşidən kimi dedi: Əlhəmdulillah.

Sonra səhvini başa düşüb bircə "Əlhəmdulillah" sözünə görə 30 il tövbə etdi. Həmişə öz-özünü danlayaraq deyirdi ki, İlahi, başqasının dükanı ilə mənim dükanımın nə fərqi var? Mənə dedilər ki, sənin dükanın yox, amma qonşunun dükanı yanıb. Mən də buna görə "Əlhəmdulillah" demişəm. Mən necə də pis iş görmüşəm.

Hədislərdə belə nəql olunur ki, Məkkə şəhərinə daxil olan hər bir kəsi Allah bağışlayar. Allahın evi (Kəbə) Məkkə şəhərindədir. Yəqin ki, Allahın evi olan yerlə olmayan yerin fərqi olmalıdır. Ona görə də Məkkəyə daxil olan insanı Allah bağışlayır. Bunun da şərti odur ki, həmin yerə daxil olan insanın ürəyində təkəbbür olmamalıdır. Təkəbbürlü olmamağın əlaməti də budur ki, ora girən insan ilk növbədə bütün paltarlarını çıxarıb, iki ağ parçaya bürünməli, dəstəmaz alıb niyyət edərək "Ləbbeyk, Allahummə ləbbeyk" deməlidir ki, bütün təkəbbürlülüyü yerə tökülsün.

Ərəfatla Məşhərin arasında Məzəman dağı var. Məzəman iki dağdır ki, hacıların hamısı o dağların arası ilə Müzdəlifəyə gedirlər. Hədislərdə belə nəql olunur ki, Allah-təala mələklərə tapşırır ki, o dağların başında dayanıb oradan keçən hər bir hacıya dua edin və Mən də amin deyəcəyəm.

قَالَ الصادِق(ع): من مر بالمأزمين و ليس في قَلِبِهِ كِبر غَفَرَ اللّه له، قلت: ما الكِبر ؟ قالَ: يغمِص الناس، و يسفه الحَق

-Həzrət İmam Sadiq(ə) buyurur: "Hər kim qəlbində kibr olmadan Məzəmandan keçsə, Allah onu bağışlayar. Soruşdular: Kibr nədir? Buyurdu: Camaatı təhqir etmək (camaata yuxarıdan baxmaq) və haqqı yüngül tutmaq."[1]

Təkəbbür insanın içindəki boşluqlardan əmələ gələn bir haldır. Yəni insanın daxilində olan boşluqlardır ki, onu təkəbbürlü edir. Məlumdur ki, içi boş olan insan həmişə özünü dolu və böyük göstərmək üçün təkəbbürlülük edir.

قَالَ الصادِق(ع): ما مِن رجلٍ تكَبر أو تجبر إلا لِذِلةٍ وجدها في نفسِهِ

-Həzrət İmam Sadiq(ə) buyurur: "Özündə zəlillik və həqarət görənlərdən savayı başqa heç kim təkəbbürlülük etməz və boynunu dartmaz."[2]

**Təkəbbürlülüyün əlacı**

Təkəbbürlülüyün əlacı təvazökarlıqdır. Allah-təala təvazökar insanları bəyənir və onları qəbul edir. Təvazökar insan odur ki, təkəbbürlü insanın əksinə olaraq özünü Allah-təala qarşısında kiçik və aciz sansın. Həmçinin insan öz təvazökarlığı sayəsində cənnətin dərəcələrinə doğru ucalacaqdır.

---

[1] Mizanül-hikmə, 11-ci cild, hədis - 17243.
[2] Yenə orada, hədis - 17262.

قَالَ الإمام الحسن(ع): لا ينبغي لِمن عرف عظَمَةَ اللّهِ أن يتعاظَم، فإنّ رِفعةَ الذين يعلَمونَ عظَمَةَ اللّهِ أن يتواضعوا، و عِزّ الذين يعرِفُونَ ما جلالُ اللّهِ أن يتذَلَّلُوا له

-Həzrət İmam Həsən(ə) buyurur: "Allahın böyüklüyünü bilən insanın özünü böyük sanması layiqli iş deyil. Çünki Allahın əzəmətini bilənlərin böyüklüyü təvazökar olmalarındadır. Allahın cəlalı və qüdrətindən agah insanların izzəti, (Allah qarşısında) zəlil olduqlarını bildirmələrindədir."[1]

قَالَ رسولُ اللهِ(ص): من تواضع للّهِ درجةً يرفَعه اللّهُ درجةً حتى يجعلَه اللّهُ في أعلى عِليين، و من تكبر على اللّهِ درجةً يضعه اللّهُ درجةً حتى يجعلَه في أسفلِ سافِلين

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kim Allaha görə bir dərəcə təvazökarlıq etsə, Allah onu (bu səbəblə) bir dərəcə yüksəldər. Beləliklə təvazökarlığın dərəcələrinə görə Allah onu (cənnətdə) "Əla İlliyyinə"[2] qədər ucaldar. Həmçinin hər kim Allah qarşısında bir dərəcə təkəbbürlülük etsə, Allah onu bir dərəcə alçaldar və beləcə (təkəbbürlülüyün dərəcələrinə görə) onu "Əsfələ safilinə" çatana qədər alçaldar."[3]

Abdullah ibn Məsud Həzrət Peyğəmbərin(s) yaxın səhabələrindən biri idi. O, bəstəboy idi. Tarixi mənbələrdə qeyd olunduğuna görə, elə bir döyüş yox idi ki, o, həmin döyüşdə iştirak etməsin. Bəstəboy olduğundan bəzi müharibələrdə döyüşməyə gücü çatmırdı, amma bacardığı qədər döyüşürdü. Bədr müharibəsində də bir qədər

---

[1] Mizanül-hikmə, 11-ci cild, hədis - 17267.
[2] Yeddinci göyün adı, bəndələrin saleh əməllərinin toplandığı yer.
[3] Cəhənnəmin dərinliyi.

döyüşdükdən sonra Həzrət Peyğəmbərin(s) hüzuruna gəlib ərz etdi: "Ya Rəsulallah, ürəyim istədiyi kimi döyüşə bilmirəm." Həzrət Peyğəmbər(s) buyurdu: "Elə isə sən düşmənlərdən yaralanıb yerə yıxılanları ayağa qalxmağa qoyma. Get onları öldür."

Abdullah ibn Məsud deyir: "Yerə yıxılmış müşriklərin arasında Əbu Cəhli gördüm ki, yaralı halda yerə yıxılıb qalmışdı. Ona yaxınlaşıb sinəsinə çökdüm. O, gözlərini açanda məni gördü və dedi: Kim qələbə çaldı? Dedim: Allaha şükür olsun ki, sizi xar-zəlil etdi. Sonra ayağımı onun sinəsinə qoydum.

O, təkəbbürlə dedi: Ayağını çox uca yerə qoymusan.

Dedim: Səni mən öldürəcəyəm.

O dedi: Kaş mən bu günü görməyəydim. Mənim üçün bundan ağır heç nə ola bilməz ki, sənin kimi birisi məni öldürür. Nə üçün Əbdülmüttəlibin övladlarından biri məni öldürmədi?" [1]

Əbu Cəhlin təkəbbürü o qədər böyük idi ki, hətta ölən zaman da təkəbbürlə danışırdı. Həzrət Peyğəmbər(s) onun barəsində buyurdu: "Əbu Cəhl Musanın(ə) zamanındakı Firondan daha pis idi. Soruşdular: Ya Rəsulallah, hansı cəhətinə görə? Həzrət Peyğəmbər(s) buyurdu: Firon son anlarında suda batarkən dedi: İlahi, keç günahımdan, tövbə edirəm. Amma Əbu Cəhl isə son anlarında belə Allahı qəbul etmədi."

---

[1] 500 dastan, 1-ci cild, səh. 170.

**4. Yalan**

İnsanı küfrə doğru aparıb çıxaran və dünyadan imansız getməsinə səbəb olan amillərdən biri də yalan danışmaqdır. Yalana adət etmiş və dili yalan danışmağa öyrəşmiş insan yaxşı insan olsa da belə bu əməl onu yavaş-yavaş yoldan uzaqlaşdırıb imandan çıxaracaqdır. Belə ki, yalan danışmağa adət edən insan öləndə də imansız bu dünyadan gedəcəkdir. Çünki yalanın xüsusiyyətlərindən biri də budur ki, insanı imandan çıxarar.

"Nəhl" surəsinin 105-ci ayəsində oxuyuruq:

إنما يفْتِري الْكَذِب الذِين لَا يؤمنونَ بآياتِ اللهِ وأُولَئِك هم الْكَاذِبونَ

-Yalanı ancaq Allahın ayələrinə inanmayanlar uydururlar. Onlar əsl yalançıdırlar!

Yəni yalanı ancaq Allahın ayələrinə inanmayanlar danışarlar. Allahın ayələri dedikdə, həm Onun nişanələri, həm də xüsusilə nazil etdiyi ayələr nəzərdə tutulur.

Bir kişi Həzrət Peyğəmbərin(s) hüzuruna gəlib soruşdu: "Ya Rəsulallah, cəhənnəm əhlinin əməli nədir? Həzrət Peyğəmbər(s) buyurdu:

الْكَذِب، إذَا كَذَب الْعبد فَجر وإذَا فَجر كَفَر وإذَا كَفَر دخلَ النّار

-Yalan. Kim yalan danışsa, pozğun olar. Pozğun olsa, kafir olar. Kafir olduqda isə cəhənnəmə daxil olar."[1]

قَالَ رسولُ اللهِ(ص): إنّ الكذب يهدي إلى الفُجور، و إنّ الفُجور يهدي إلى النارِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Yalan (adamı) günah işlərə yönəldir. Günah isə insanı cəhənnəmə sürükləyir."[2]

---

[1] Günahların təsiri, səh. 20.
[2] Mizanül-hikmə, 11-ci cild, hədis - 17415.

قالَ رسولُ اللهِ(ص): إياكُم و الكذب؛ فإنّ الكذب مجانِب للإيمان

-Həzrət Peyğəmbər(s) buyurur: “Yalan danışmaqdan çəkinin. Həqiqətən, yalan imandan kənardır.”[1]

Əgər insan heç bir vaxt yalan danışmayacağını qarşısına məqsəd qoysa, çox günahlardan nicat tapar. Çünki yalan çox günahlara yol açır.

Günlərin birində bir kişi Həzrət Peyğəmbərin(s) hüzuruna gəlib dedi: “Ya Rəsulallah, mən iradəsi çox zəif olan bir adamam. Dörd böyük günaha düçar olmuşam ki, hamısını birdən-birə tərgidə bilmirəm. Birinci hansı günahı tərgidim? Sənin ehtiramına mən onlardan birini tərgidə bilərəm. Hansını desən, onu da tərgidəcəyəm.

Peyğəmbər(s) soruşdu: O günahlar hansılardır?

Həmin şəxs dedi: Zina, şərab, oğurluq və yalan.

Peyğəmbər(s) buyurdu: Yalanı tərgit.

Həmin kişi Həzrət Peyğəmbərdən(s) ayrılıb getdi. Günlərin birində o, zina etmək fikrinə düşdü. Öz-özünə dedi: Əgər zina etsəm və məndən nə etdiyimi soruşsalar, deyəcəyəm ki, zina etmişəm. Belə olduqda mənə şəriət hökmü oxunacaq. Yox, əgər desəm ki, zina etməmişəm, o zaman yalan danışmış olaram. Belə olduqda Həzrət Peyğəmbərin(s) yanında abrım gedəcək. Çünki mən ona yalan danışmayacağımı söz vermişəm. Əgər oğurluq etsəm və məndən nə etdiyimi soruşsalar, gərək yalan danışmayım və oğurluq etdiyimi etiraf edim. Həmçinin şərab içsəm, yalandan deyə bilmərəm ki, şərab içməmişəm. Şərab içdiyimi söyləsəm, mənə hədd vurulacaq. Buna görə də yalan danışmamaq üçün bütün günahlardan əl çəkməliyəm.

Həmin kişi bu düşüncələrlə adət etdiyi bütün günahları

---

[1] Yenə orada, hədis - 17404.

tərgidib Həzrət Peyğəmbərin(s) yanına gəldi və dedi: Ya Rəsulallah, mənə elə bir günahı tərgitməyi göstəriş verdin ki, ondan çəkinməklə bütün günahları da tərgitməli oldum."[1]

Bu rəvayətdən də açıq-aydın şəkildə görürük ki, insan yalan danışmağı tərgitməklə çox günahlara son qoymuş olur. Yalan elə bir şeydir ki, başqa günahlara da səbəb olur. Yalan insanın üzünə cəhənnəm qapılarını açır. Yalan insana qarşı mübarizədə şeytanın cürət və cəsarətini artırır.

Hədislərdə belə nəql olunur ki, bir gün şeytandan soruşdular: "Ən çox sevdiyin insanlar kimlərdir?

Dedi: Dəllallar.

Soruşdular: Niyə?

Dedi: Mən onların təkcə yalan danışmalarına razı idim. Onlar isə yalandan and içməklə məni daha da razı etdilər."[2]

Buna görə də insan yalan danışmaqdan qətiyyətlə çəkinməlidir. Çünki insan bircə dəfə doğru danışmaqla doğru danışanların cərgəsinə daxil ola bilməz. Amma bircə dəfə yalan danışmaqla yalançıların cərgəsində qərar tuta bilər. Ona görə də insan heç bir vaxt yalan danışmamalıdır.

Sədi deyir: "Yalan qılınc yarası kimidir. Qılınc yarası sağaldıqdan sonra onun izi qaldığı kimi, yalanın da izi həmişə qalır." Həzrət Yusifin(ə) qardaşları yalançı tanındıqları üçün onların doğru sözlərinə də heç bir etibar qalmadı. Allah-təala "Yusif" surəsinin 83-cü ayəsində belə buyurur:

قَالَ بَلْ سَوَّلَتْ لَكُمْ أَنفُسُكُمْ أَمْرًا

-(Qardaşlar Yəqubun yanına qayıdıb əhvalatı atalarına danışdıqdan sonra) o dedi: "Xeyr, sizin öz nəfsiniz sizi bu işə sövq etdi (pis əməlinizi sizə yaxşı göstərdi)."[3]

---

[1] Mizanül-hikmə, 11-ci cild, hədis - 5124.
[2] Gəncineyi məarif, 1-ci cild, səh. 438.
[3] Min bir əxlaqi hekayətlər, səh. 335.

Tarixin səhifələrini vərəqlədikcə çox məsələlər insan üçün aydınlaşır. Bu, çox qəribə və təəccüblü bir şeydir. Tarix insanın keçmişini, həmçinin gələcəyini də olduğu kimi, yəni güzgütək göstərə bilir. Hər bir xalqın kökü onun öz tarixi ilə bağlı olduğundan bu məsələ çox böyük əhəmiyyətə malikdir. Hər hansı bir xalq öz fikrini tarixə qəbul etdirərək özü üçün qondarma bir tarix düzəldirsə, həmin xalqın aqibəti də yaxşı olmayacaq. Özü üçün saxta tarix düzəldən bir xalq göbələk kimi köksüz bir xalq olacaqdır. Qondarma və düzəltmə tarixdən xalqa, millətə tarix olmaz. Buna görə də hər bir xalqın təmsilçiləri öz tarixini həqiqi mənada yazmalı və həqiqi mənada da öz tarixi ilə maraqlanmalıdırlar. Tarixdə çox yalan danışan insanlara və bu yalanların üstünün qısa bir vaxtda açılmasına tez-tez rast gəlmək mümkündür. Nümunə üçün onuncu imamımız İmam Hadinin(ə) zamanında baş vermiş bir əhvalata diqqət yetirək.

Mütəvəkkil Abbasinin dövründə bir qadın Həzrət Əli(ə) və Xanım Fatimənin(s.ə) qızı Zeynəb olduğunu iddia edirdi. Mütəvəkkil ona “Zeynəb çoxdan ölübdür, halbuki sən cavan bir qızsan” - dedi.

Həmin qadın dedi: “Doğrudur, amma Həzrət Peyğəmbər(s) əlini mənim başıma çəkdi və dua etdi ki, mən həmişə cavan qalım. Buna görə də mən qırx ildən bir yenidən cavanlaşıram. Mütəvəkkil bütün böyük alimləri toplayıb onlardan soruşdu ki, bu qadının iddiası barədə nə deyə bilərsiniz.

Onların hamısı həmin qadının yalan danışdığını söylədilər. Mütəvəkkil onlara dedi ki, yalan söylədiyini bilirəm. Lakin onu məhkum etmək üçün hansı dəliliniz vardır? Onlar isə belə dedilər: “Biz bilmirik, bu məsələni İmam Hadi əleyhissalam həll etməlidir.”

Mütəvəkkil dərhal İmamı(ə) dəvət edib əhvalatı olduğu kimi ona danışdı. Həzrət(ə) belə buyurdu: "Əgər doğru deyirsə, onu qəfəsdə saxladığınız şirlərin yanına aparın. Çünki yırtıcı heyvanlar Xanım Fatimənin(s.ə) övladlarına toxunmazlar və onların ətini yeməzlər." Mütəvəkkil həmin qadına dedi: "İndi nə deyirsən?" Qadın dedi: "Bu adam məni öldürtmək istəyir. Əgər düz deyirsə, özü bu işi görsün." Mütəvəkkil də dedi: "Doğru deyir, əvvəlcə özün bu işi gör." İmam(ə) qəfəsdəki şirlərin yanına gedib onların arasında əyləşdi. Hamı gördü ki, şirlər İmamın(ə) qarşısında ehtiramla oturublar və bəzən də özlərini ona sürtürlər. Həzrət(ə) də şirlərin başını və qulağını oxşayır. Mütəvəkkilin adamları dedilər: "Ona de ki, qəfəsdən tez çıxsın. Yoxsa camaat İmamın(ə) bu möcüzəsini görüb ona olan imanları daha da artar və bu sənin hakimiyyətinə xələl gətirər." Odur ki, onlar İmama(ə) dedilər ki, daha bəsdir. Qəfəsdən çıxa bilərsən. Həzrət(ə) şirlərə əmr etdi ki, qırağa çəkilib yolu açsınlar. Şirlər də bir küncə çəkildilər və Həzrət (ə) qəfəsdən çıxdı.

Mütəvəkkil üzünü qadına tutub dedi: "Ey qadın! İndi növbə sənindir." Həmin qadın ağlayıb yalvarmağa başladı və dedi: "Mən filankəsin qızıyam, kasıbçılıq üzündən bir kələk işlətmək istədim ki, bəlkə camaat mənə pul-para versin. Lakin kələyim baş tutmadı." Mütəvəkkil qadının üzrünü qəbul etməyib onu şirlərə atmaq istədikdə anası buna razı olmayıb dedi: "O qadını mənə xatir bağışla və şirlərə atma." Mütəvəkkil də öz doğma anasına xatir həmin qadını buraxdı.[1]

---

[1] 500 dastan, 1-ci cild, səh. 250.

## Yalanın təsir və nəticəsi

İnsan özünü yalan danışmaqdan uzaqlaşdıra bilsə, bundan nicat tapa bilər. Yox, əgər insan yalan danışmağa adət etsə, həmin insanın axırı küfrlə nəticələnəcək. Yalan danışmağın özü pis bir əməl olduğu üçün insana da pis təsir göstərir və mənfi nəticələri ilə yadda qalır. Yalanın mənfi nəticələrindən biri budur ki, Allah-təala həmin şəxsdən öz hidayətini kəsər. “Zumər” surəsinin 3-cü ayəsində belə oxuyuruq:

إِن الله لَا يهدِي من هو كَاذِب كَفار

-Allah yalançı, nankor olan kimsəni doğru yola müvəffəq etməz!

Əgər Allah Öz hidayətini bəndəsindən kəssə, həmin bəndə heç bir vaxt məqsədə çatıb xoşbəxt ola bilməz.

Yalanın ikinci mənfi təsir və nəticəsi budur ki, insanın qəlbində nifaq və ikiüzlülük yaradar. “Tövbə” surəsinin 77-ci ayəsində oxuyuruq:

فَأَعقَبهم نِفَاقًا فِي قُلُوبِهِم إِلَى يومِ يلْقَونه بِما أَخلَفُوا الله ما وعدوه وبِما كَانوا يكْذِبونَ

-Odur ki, Allaha verdikləri vədə xilaf çıxdıqlarına və daim yalan danışdıqlarına görə, Allah Onunla görüşəcəkləri günə (qiyamət gününə) kimi onların qəlblərinə bir nifaq saldı.

Qeyd olunduğu kimi, yalanın həm bu dünyada, həm də axirətdə çox pis və acınacaqlı nəticələri vardır. Bu barədə bir çox hədislərə rast gəlmək olar ki, nümunə olaraq bir neçəsinə diqqət yetirək.

قَالَ عِلي(ع): ثَمرةُ الكذبِ... العذاب في الآخِرة

-İmam Əli(ə) buyurur: “Yalanın nəticəsi… axirətdə əzabdır.”[1]

قَالَ الصادِق(ع): لا تكذِب فَيذهب بهاؤك

-İmam Sadiq(ə) buyurur: “Yalan danışma ki, şöhrət və qiymətin aradan getməsin.”[2]

قَالَ عِلي(ع): من كَذَب أفسد مروته

-İmam Əli(ə) buyurur: “Yalan danışan kimsə öz mürvətini puç edər.” [3]

قَالَ عِلي(ع): يكتسِب الكاذِب بكِذبِهِ ثلاثا : سخطَ اللّهِ عليهِ، و استِهانةَ الناسِ بِهِ، و مقت الملائكةِ لَه

-İmam Əli(ə) buyurur: “Yalançı öz yalanları ilə üç şeyi qazanar: özünə qarşı Allahın qəzəbini, camaatın təhqir dolu baxışlarını və mələklərin ona qarşı düşmənçiliyini.”[4]

قَالَ الصادِق(ع): إنّ الرجلَ ليكذِب الكِذبةَ فَيحرم بها صلاةَ الليل

-İmam Sadiq(ə) buyurur: “İnsan (bircə) yalan danışmaqla gecə namazı qılmaqdan məhrum olar.”[5]

قَالَ رسولُ اللهِ(ص): الكِذب ينقُص الرزق

-Həzrət Peyğəmbər(s) buyurur: “Yalan (danışmaq) ruzini azaldar.”[6]

قَالَ عِلي(ع): اعتِياد الكِذبِ يورثُ الفَقر

---

[1] Mizanül-hikmə, 11-ci cild, hədis - 17440.
[2] Yenə orada, hədis - 17442.
[3] Yenə orada, hədis - 17452.
[4] Yenə orada, hədis - 17460.
[5] Yenə orada, hədis - 17462.
[6] Yenə orada, hədis - 17463.

-İmam Əli(ə) buyurur: "Yalan (danışmağ)a adət etmək yoxsulluq gətirər."[1]

**5. Şərab**

İnsanın bu dünyadan imansız getməsinə səbəb olan amillərdən biri də şərabdır. Şərab və onun kimi haram içkilərin xüsusiyyəti bundan ibarətdir ki, insanı küfrə tərəf yönəldər və sonda insanın imansız halda ölməsinə səbəb olar.

قَالَ الإمام الرِّضا(ع): حرم اللهُ عزوجلّ الخَمر لما فيها مِن الفَسادِ و مِن تغييرها عقولَ شارِبيها و حمِلها اِياهم على اِنكارِ اللهِ عزوجل والفِرية علَيهِ و على رسِله...

-İmam Rza(ə) buyurur: "Allah şərabı haram buyurmuşdur. Çünki onda fəsad (pozğunluq) vardır. Şərab onu içənlərin ağlını dəyişdirir (başından çıxarır), onları Allahı inkar etməyə, Allaha və Onun Peyğəmbərinə böhtan atmağa vadar edir."

Yəni şərab elə bir şeydir ki, onu içən şəxsin ağlını əlindən alar və yavaş-yavaş Allahın inkarına gətirib çıxarar. Şəraba aludə olan insan həqiqi yoldan çıxdığına görə özündə çatışmazlıq, boşluq və nöqsanlar hiss etməyə başlayır. Bu boşluğu doldurmaq üçün Allaha və Peyğəmbərə(s) böhtan ataraq İlahi hökmlərin boş şeylər olduğunu deyər. Beləcə, imanını tamamilə əlindən verər və bu dünyadan kafir halda gedər.

Sonra İmam Rza(ə) belə buyurur:

فَليجتِنب من يؤمِن بالله و اليومِ الآخر و يتوّلانا و ينتحِلُ مودتنا كُل شارِبٍ مسكِرٍ فَإنه لا عِصمةَ بيننا و بين شارِبه

---

[1] Yenə orada, hədis - 17464.

-Allaha, axirət gününə imanı olan və bizim vilayətimizdən, məhəbbətimizdən danışan insan bütün məstedici içkilərdən çəkinməlidir. Çünki şərab içən insanla bizim aramızda heç bir əlaqə ola bilməz.[1]

قَالَ الصادِق(ع): حرمها ِلأنها أم الْخبائث و أُس كُلّ شر يأتي على شاربها ساعةٌ يسلب لُبه و لا يعرف ربه ولا يترك معصيةً ِإلّا ركِبها... والسكرانُ زمامه ِبيدِ الشيطان ِإنْ أمره أن يسجد ِللأوثان سجد، و ينقَاد حيثُما قَاده

-İmam Sadiq(ə) buyurur: "Allah şərabı ona görə haram etdi ki, o, bütün pisliklərin anası və bütün şər əməllərin qaynağıdır(köküdür). Onu içənlər üçün bəzən elə anlar olar ki, ağlını əldən verər, Rəbbini tanımaz və günah etməkdən də çəkinməz… Məst adamın (şərab içənin) noxtası şeytanın əlindədir. Şeytan ona bütlərə səcdə etməyi əmr etdikdə səcdə edər. (Noxtası şeytanın əlində olduğu üçün) onu istədiyi yerə dartıb aparar."[2]

Yəni şərab içənin noxtası şeytanın əlində olduğundan onu istədiyi tərəfə çəkib aparar. Çünki insan şərab içməklə özünü şeytanın ixtiyarına vermiş olur.

Hədislərdə belə nəql olunur ki, günlərin birində İmam Baqir(ə) bir neçə nəfərlə Məscidül-Hərama daxil oldu. Orada əyləşənlər İmamın(ə) əzəmət və cəlalını görüb bir-birindən soruşdular: "Görəsən, bu kimdir?" Dedilər: "O, İraqdan gəlib. Müsəlmanların rəhbəri İmam Baqirdir(ə)." Onlar həmin vaxta qədər İmam Baqiri(ə) görməmişdilər. Onlardan biri dedi: "Yaxşı olar ki, ondan bir söz soruşaq." Sonra isə aralarındakı cavan bir oğlana dedilər ki, get

[1] Günahın cəzası, səh. 396.
[2] Yenə orada, səh. 397

İmamdan(ə) soruş: “Allaha şərik qoşmaqdan başqa, günahların içərisində ən böyük günah hansıdır?” Həmin cavan oğlan İmamın(ə) hüzuruna gəlib soruşdu: “Günahların içərisində ən böyük günah hansıdır?” İmam(ə) buyurdu: “Şərab içmək.”

Həmin oğlan dostlarının yanına qayıdıb İmamın(ə) cavabını onlara söylədi. Bir az keçəndən sonra yenə də dedilər: “Get, İmama(ə) yenə də həmin sualı ver.” Oğlan yenə də İmamın(ə) hüzuruna gəlib eyni sualı soruşdu. İmam(ə) buyurdu: “Şərab içmək.” Oğlan dostlarının yanına qayıdıb İmamın(ə) cavabının eyni olduğunu söylədi. Bir az keçmişdi ki, oğlana dedilər: “Get, İmamdan(ə) həmin sualı bir də soruş.”[1] Oğlan utana-utana İmamın(ə) hüzuruna gəlib yenə də həmin sualı verdikdə İmam(ə) onun şərab haqda daha artıq məlumat öyrənmək istədiyini bilib buyurdu:

أَلم أقُل لَك يا ابن أخِ شرب الْخمر؟ إن شرب الْخمر يدخِل صاحِبه فِي الزِّنا، والسِّرقَة و قَتلُ النفس... و فِي الشِّرك بالله...

-Qardaşoğlu, sənə dedim axı şərab içmək bütün günahlardan böyükdür. Həqiqətən, şərab onu içəni zinaya, oğurluğa, adam öldürməyə və Allaha şərik qoşmağa gətirib çıxarar.[2]

Əşi ərəblərin arasında tanınmış şairlərdən biri idi. Onun künyəsi Əbu Bəsir idi. O, Həzrət Peyğəmbərin(s) zamanında yaşayırdı. Cahillik dövründə bütün məclislərdə onun şeirlərini oxuyurdular. O, Məkkədən bir neçə kilometr uzaqda yaşayırdı. Qocalıb yaşa dolmuşdu. Ömrünün axır illərində Həzrət Peyğəmbərin(s) camaatı İslama dəvət

---

[1] Ərəblərin arasında bir sualı üç dəfə soruşmaq təkid mənasındadır. O zamanlar belə bir mədəniyyət var idi ki, bəzən bir sualı təkid mənasında üç dəfə soruşardılar.

[2] Günahın cəzası, səh. 398.

etdiyini eşitmişdi. İslamla tanış olduqdan sonra bu dini qəbul edib-etməməyi düşünürdü. Ancaq yavaş-yavaş İslama tərəf yönəlirdi. Əlinə qələm alıb Həzrət Peyğəmbərin(s) şəninə gözəl bir qəsidə və mədhiyyə yazdı.

Həzrət Peyğəmbərin(s) barəsində yazılan gözəl qəsidələrdən biri də məhz onun bu qəsidəsi idi. İyirmi dörd beytdən ibarət bir qəsidə idi. Ərəblərin hamısı onun bu qəsidəsini bəyənmiş və təsdiq etmişdilər. Lakin o, hələ də Həzrət Peyğəmbəri(s) görməmişdi. Bütün bunlara baxmayaraq, qərara gəlmişdi ki, Həzrəti(s) yaxından ziyarət edib yazdığı qəsidəni ona oxusun və İslam dinini qəbul etsin. Əbu Cəhl onun bu niyyətindən agah oldu. Fikirləşdi ki, əgər bu şair Həzrət Peyğəmbərə(s) iman gətirsə, onun qəbiləsi də İslamı qəbul edəcək. Çünki tanınmış bir şəxs olduğu üçün onun sözü öz qəbiləsində keçərli olacaqdı. Belə olduqda təbii olaraq müsəlmanların sayı və gücü də artacaqdı. Əbu Cəhl bir qrup müşriki ətrafına toplayıb bir iclas keçirdi. Onları başa saldı ki, gedib şairlə söhbət etsinlər və bəzi sözləri ona çatdırsınlar.

O, bilirdi ki, Əşi zinakar və şərabxor bir insandır. Onu yalnız bu yolla imanından döndərmək olardı. Həmin müşriklər şairin yanına gəlib dedilər: “Biz eşitmişik ki, sən İslam dinini qəbul etmək istəyirsən. Amma İslam dinində bir sıra qanunlar vardır ki, sənin istəyinlə üst-üstə düşmür.” Əşi dedi: “Məsələn, hansı qanunlarını misal çəkə bilərsiniz?” Onlar dedilər: “Məsələn, İslam dini zinanı haram edib. Biz də bilirik ki, sənin bu işdən çox xoşun gəlir.” Əşi dedi: “Mən artıq qocalıb əldən düşmüşəm və zina etməyə də həvəsim qalmayıb.” Müşriklər dedilər: “Bundan başqa, Həzrət Peyğəmbərin gətirdiyi din şərabı da haram edib. Sənin içkiyə də böyük həvəsin vardır. Bir çox şeirlərini isə sərxoş halda yazmısan.” Əşi bu sözü eşitdikdə çox narahat

olub fikrə daldı. Bir az fikirləşdikdən sonra dedi: “Əgər belədirsə, mənim buna hazırlığım yoxdur. Bir il də doyunca şərab içim, sonra Həzrət Peyğəmbərə iman gətirərəm.”

Tarixi mənbələrdə qeyd edilib ki, həmin şair bir ilin içərisində bu dünyadan getdi və müsəlman olmaq ona nəsib olmadı.[1]

Vəlid ibn Yəzid Əməvi xəlifələrindən biri idi ki, şəhvətpərəstlik və şərabxorluq kimi məsələlərdə onun adını çəkərdilər. O, şərabı kiçik piyalələrlə deyil, böyük qədəhlərdə içərdi. Tarixi mənbələrdə yazılanlara görə, gün ərzində onun bir-iki saat ayıq və ağlı başında olan vaxtı olmurdu. Şərab içdikdən sonra isə zinakarlıq edər və pis sözlər danışardı. Onun çox pis və xoşagəlməz şeirləri var idi ki, həmişə şərab içdikdən sonra onları oxuyardı. Məsələn, həmin şeirlərdən biri belədir:

تلعّب بالخلافةِ هاشميّ   بلا وحيٍ أتاه ولا كِتابٍ.

فَقُل لله يمنعني طعامي   وقُل لله يمنعني شرابي

-Haşimilər xilafətli oyun-oyuncaq etdilər. Onlara heç bir vəhy və kitab gəlməyib. Bunların hamısı boş sözlərdir. Elə isə ey Quran, de ki, Allah mənə yeməyi və şərab içməyi qadağan eləsin. Mənim öz yeməyim və şərabım var. Onun ruzisini istəmirəm.

O, günlərin birində taleyi barədə düşünərək niyyət edib hansı ayənin onun bəxtinə düşəcəyi məqsədilə Quran kitabını açdı. Quranı açan kimi gözü “İbrahim” surəsinin 5-ci ayəsinə sataşdı: “Hər bir inadkar təkəbbür sahibi (haqdan inadla üz döndərən və Allaha itaət etməyi özlərinə sığışdırmayan kafirlər) isə ziyana uğradı.”

---

[1] Günahın cəzası, səh. 400.

Bu ayəni oxuyan kimi əsəbiləşib Quran kitabını oxla dəlik-deşik etdikdən sonra belə bir şeir oxudu:

تهددِني بِجبارٍ عنيدٍ فَها أن ذاك جبار عِنيد

إذا ما جِئت ربك يوم حشرٍ فَقُل يا رب مزقَني الوليد

-Məni inadkar və təkəbbürlü adlandırmaqla təhdid edirsən? Mənəm inadkar təkəbbürlü? Məhşər günü Rəbbinin qarşısına çıxanda, deyərsən ki, ya Rəbb Vəlid məni dəlik-deşik edib cırdı.

Vəlid bu sözləri deməklə Quranı və məhşər gününü məsxərəyə qoyurdu. Demək istəyirdi ki, nə qiyamət var, nə də məhşər günü olacaqdır. Tarixdə bu kimi hadisələrə çox rast gəlirik. Əlbəttə ki, bütün bu kimi küfr sözlər şərabın nəticəsidir. Şərab elə bir şeydir ki, onu içən və tövbə etməyən insanın axırı Vəlid kimi olar.

Allah-təala şərab içməyi haram buyurmuşdur. "Maidə" surəsinin 90-cı ayəsində belə buyurulur:

يا أيها الذِين آمنواْ إنما الْخمر والْميسِر والأنصاب والأزلام رِجس من عمل الشيطَانِ فَاجتَنِبوه لَعلكُم تفْلِحونَ

-Ey iman gətirənlər, həqiqətən şərab, qumar və asılmış bütlər, qumardakı püşk oxları murdardır və şeytanın ixtiralarındandır. Buna görə də onlardan çəkinin, bəlkə nicat tapasınız.

Şərabın haram olması barədə çoxlu hədislər nəql olunmuşdur. Təkcə onu içənlər deyil, həm də şərab barədə hər növ vasitəçilik edənlər də lənətlənmişlər.

قَالَ رسولُ اللهِ(ص): لَعن اللهُ الْخمر و عاصِرها و غَارِسها و شارِبها و ساقِيها و بائِعها و مشترِيها و آكِلَ ثَمنِها و حامِلَها و الْمحمولَةَ إلَيهِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Allah şəraba, onu düzəldənə, onun (meyvəsini məhz o iş üçün) əkib-becərənə, onu içənə, onu paylayana (içirdənə), onu satana, onu alana, onun pulunu yeyənə, onu daşıyana və yükləyənə lənət etsin.”[1]

قَالَ رسولُ اللهِ(ص): لا تجمع الخَمر و الإيمانُ في جوفِ أو قَلبِ رجلٍ أبدا

-Həzrət Peyğəmbər(s) buyurur: “Şərab və iman heç bir vaxt bir kəsin daxilində, ya qəlbində bir yerdə olmaz.”[2]

قَالَ رسولُ اللهِ(ص): من كَانَ يؤمِنِ بالله واليومِ الآخِرِ فَلا يأكُل على مائِدةٍ يشرب علَيها الْخمر

-Digər bir hədisdə Həzrət Peyğəmbər(s) belə buyurur: “Allaha və axirət gününə imanı olan kəs şərab içilən süfrənin kənarında əyləşib yemək yeməz.”[3]

قَالَ رسولُ اللهِ(ص): ملعونٌ ملعونٌ من جلَس علَى مائِدةٍ يشرب عليها الْخمر

-Həzrət Peyğəmbər(s) buyurur: “Məlundan da məlundur o kəs ki, şərab içilən süfrənin kənarında əyləşir.”[4]

Bu hədislərdən açıq-aydın şəkildə görürük ki, şərab içən, onun alverini edən, bu işdə vasitəçilik edən, hətta şərab olan süfrədə əyləşən hər bir kəs Allah tərəfindən lənətlənmişdir. Bundan əlavə, şərab içənin axirət əzabları da çox böyükdür.

---

[1] Mizanül-hikmə, 4-cü cild, hədis - 1167.
[2] Yenə orada, hədis - 1168.
[3] Yenə orada, hədis - 5138.
[4] Yenə orada, hədis - 5139.

قَالَ الصادِق(ع): يخرج الخَمار مِن قَبرِهِ مكْتوب بين عينيهِ: آيِس مِن رحمةِ اللّهِ

-İmam Sadiq(ə) buyurur: "Qiyamət günü şərabxor insan qəbirdən qalxarkən alnında "Allah rəhmətindən məyus olmuş" yazılan halda məhşərə gələr."[1]

قَالَ الصادق(ع): إنّ أهلَ الري في الدنيا مِن المُسكِر يموتونَ عِطاشا، و يحشرونَ عِطاشا، و يدخلونَ النار عِطاشا

-İmam Sadiq(ə) buyurur: "Hər kəs dünyada özünü şərabla doyursa (şərab içsə), susuz ölər, susuz halda məhşərə gələr və susus halda cəhənnəmə daxil olar."[2]

Ayə və hədislərdən açıq-aydın şəkildə görünür ki, şərab insanı dünya imanından çıxarar və axirətdə də Allahın rəhmətindən məyus edər.

Bəzən sual olunur ki, həkimlər bir sıra xəstəliklərin müalicəsi zamanı müəyyən miqdarda spirtli içkilərdən istifadə olunmasını məsləhət görürlər. Bu kimi hallarda həkimin məsləhət gördüyü miqdarda spirtli içki içməyə şəriət baxımından icazə verilirmi? Şəriət və fiqh baxımından bu məsələyə də bir aydınlıq gətirilmişdir. Fiqh və şəriət nöqteyi-nəzərindən bu məsələ ilə bağlı belə qeyd olunmuşdur: əgər həkim həqiqi mənada xəstənin əlacını yalnız spirtli içkidə görürsə və onu başqa maddələrlə qarışdırıb dərman güzəltməklə həmin xəstəyə verdikdən sonra onun sağalacağını dəqiq söyləyirsə, o zaman bu dərmandan istifadə etməyə icazə verilir.

Məsələn, bir nəfər əlindəki qırmızı ləkəni göstərib

[1] Mizanül-hikmə, 4-cü cild, hədis - 5155.
[2] Yenə orada, hədis - 5153.

deyir: “Mən bununla namaz qıla bilərəmmi?” Ondan soruşulur: “Həmin ləkə nədir?” Deyir: “Qandır.” Cavab verilir ki, əgər qandırsa, qıla bilməzsən və əlini paklamalısan. Yəni şəriətdə hər bir məsələyə suala uyğun şəkildə cavab verilir. Yaxud bir nəfər soruşur: “Mən əynimdəki paltarla namaz qıla bilərəmmi?” Cavab verilir: “Bəli.” O deyir: “Axu, bu paltar qəsb olunmuş paltardır.” Onda belə bir cavab verilir ki, əgər qəsbidirsə, onunla qıldığın namaz batildir.” Yaxud bir nəfər soruşur: “Mən Bakıda yaşayıram. Sumqayıta və yaxud Mərdəkana səfər etdikdə orucumu yeyə bilərəmmi?” Cavab verilir: “Əgər yol verilən icazə həddini keçmisənsə, yeyə bilərsən.”

Diqqətlə baxdıqda görürük ki, şəriət məsələlərinin hamısı “əgər” şərt bağlayıcısı ilə cavablandırılır. Çünki fiqh elmində müctəhid mövzunun içərisinə daxil olmur. O, sadəcə olaraq hökmü bəyan edir. Şərab məsələsinin xəstəyə məsləhət görülməsi də “əgər” şərt bağlayıcısı ilə bildirilir. Əgər həkimin göstərişinə uyğun olaraq spirtli içkinin xəstənin müalicəsi üçün həqiqi mənada xeyri olacaqsa, bu halda ondan istifadə olunmasına icazə verilir. Amma onun xəstəyə xeyri olub-olmayacağını da heç bir kəs bilmir.

Əbu Bəsir deyir: “Günlərin birində İmam Sadiqin(ə) hüzurunda idim. Uzaq bir şəhərdən Ümmi Xalid Məbədiyyə adlı bir qadın Həzrətin(ə) hüzuruna gəlib ərz etdi: “Ey Allahın höccəti, mən elə bir xəstəliyə düçar olmuşam ki, həkim dərdimə əlacı şərabda görür. Yəni şərabı bəzi ədviyyələrlə qarışdırıb yeməyi mənə tövsiyə edib. Həkim mənə bu dərmanı tövsiyə etdikdən sonra öz-özümə düşündüm ki, sizin bu əməldən xoşunuz gəlmir. Buna görə də həmin dərmandan imtina edib ilk növbədə məsələni öyrənmək üçün sizin hüzurunuza gəldim.”

İmam(ə) soruşdu: "Səni o dərmanı yeməkdən saxlayan nə oldu?" Ümmi Xalid dedi: "Mən sizə itaət etməyi bir boyunbağı kimi boynumdan asmışam. (Yəni sizin əmrinizə tabeyəm.) Əgər icazə versəniz, bu dərmanı qəbul edərəm. Qiyamət günü səbəbini soruşsalar, deyəcəyəm ki, Cəfər ibn Məhəmməd(ə) mənə icazə verib. Əgər desələr ki, nə üçün (dərmanı) qəbul etməyib öldün, yenə də sizin qadağanızı əsas göstərəcəyəm."

İmam Sadiq(ə) bu sözləri eşidəndə üzünü mənə tutub buyurdu: "Ey Əbu Bəsir! Eşitdinmi xanımın dediklərini? Bu xanımın iman və təqvası o qədər güclüdür ki, bizim göstərişimiz olmadan həkimin də tövsiyəsinə tabe olmur və şərabdan çəkinir."

Sonra İmam(ə) üzünü qadına tutub buyurdu: "And olsun Allaha, icazə verməzəm ki, bir damla şərab içəsən." Sonra Həzrət(ə) əli ilə boğazına işarə edərək üç dəfə buyurdu: "Hər kəs bir damla şərab içsə, can bura (boğaza) yetişdikdə çətinliyə düşüb peşman olacaq."[1]

Bunu da bilmək lazımdır ki, Allah-təala haram şeylərə şəfa müəyyən etməyib. Ona görə də ayə və hədislərdə əvvəldən axıradək bu mayenin murdar olduğu göstərilir. Yəni şərab əvvəldən axıradək şeytanın xeyrinə, möminlərin isə ziyanınadır. Şərab həm insanın bu dünyası, həm də axirəti üçün ziyandan savayı başqa bir şey deyil. Bu mayeni içməyin son nəticəsi budur ki, insanı aparıb küfrə çıxarır və bu dünyadan imansız getməsinə səbəb olur.

### 6. Həsəd (paxıllıq)

İnsanın dünyadan imansız getməsinə səbəb olan amillərdən biri də paxıllıqdır. Paxıllıq odur ki, insan başqasının

---

[1] Mənazilül-axirə, səh. 10; 500 dastan, 2-ci cild, səh. 337.

əlində olan nemətə, artıma, inkişafa və s. xoşbəxtliklərə görə narahat olsun. Paxıllıq, ümumiyyətlə, iki cürdür: yaxşı və pis. Paxıllığın yaxşı halına qibtə deyilir. Qibtə odur ki, insan başqasında olan nemətləri gördükdən sonra Allahdan özü üçün də həmin nemətlərdən arzulasın. Bunda heç bir haram və günah yoxdur. Çünki insan başqasında olan bu nemətləri görüb Allahdan onun daha da çoxalmasını və özü üçün də həmin nemətləri arzulayır. Pis mənada paxıllıq isə odur ki, insan başqasının əlində olan nemətlərə və inkişafa görə narahat olsun, həmin nemətlərin o adamın əlində olmasına sevinməsin.

Bu xislət tarixən bütün dövrlərdə və bütün cəmiyyətlərdə yaşayan insanlar arasında mövcud olmuşdur. Paxıllıq da şəhvət və s. kimi xislətlərtək insanın fitrətində olan bir haldır. Amma şəhvətlə paxıllığın bir fərqi var. Şəhvət odur ki, insan onun üçün müəyyən olunmuş həddi aşmasın. Şəhvət hər bir kəsdə vardır və əgər bir insanda şəhvət olmasa, deməli, xəstədir və onu həkimə aparmaq lazımdır. Şəhvət olmadıqda insan normal yaşaya bilməz. Amma şəhvət insan üçün müəyyən olunmuş həddən aşağı və ya yuxarı olsa, bu da haramdır. Şəhvətin normal həddi İslam dinində buyurulan kimi ailə qurmaqdır.

Şəhvətdən fərqli olaraq paxıllıq isə nə qədər minimum həddə düşsə, bu bir o qədər yaxşıdır. İnsan içindəki paxıllığı o qədər əzməlidir ki, yox dərəcəsinə qədər çatsın. Paxıllığın da insanın fitrətində olması normal haldır. Amma insanın paxıllıqla hər hansı bir işi görməsi haramdır.

Allah-təala "Bəqərə" surəsinin 109-cu ayəsində belə buyurur:

ود كَثير مِن أَهلِ الْكِتابِ لَو يردونكُم مِن بعدِ إِيمانِكُم كُفارا

حسدا مِن عِندِ أنفُسِهِم مِن بعدِ ما تبين لَهم الْحق

-Kitab əhlinin çoxu həqiqət (İslamın haqq olması) onlara aydın olduqdan sonra vücudlarından qaynaqlanan paxıllıq üzündən sizi imanınızdan sonra küfrə qaytarmaq istəyirlər.

Bu ayədə bəyan olunur ki, kitab əhlinin çoxu Həzrət Peyğəmbərdə(s) və ona iman gətirənlərdəki imanı görüb paxıllıq etməyə başladılar. Onlar paxıllıqlarını üzə çıxararaq iman gətirənləri küfrə qaytarmaq istəyirdilər. Onlar mömiinlərin bu dünyadakı inkişaflarından əlavə, axirətdəki inkişaflarını da istəmirdilər.

Odur ki, paxıllıq etmək insan üçün çox təhlükəli bir haldır. Paxıllıq elə bir yoluxucu xəstəlikdir ki, gizlicə insana yoluxar və insan bundan əsla xəbərdar olmaz.

قَالَ رسولُ اللهِ(ص): ألاَ إنه قد دب إلَيكُم داءُ الأُممِ مِن قَبلِكُم و هو الحَسد، لَيس بحالِقِ الشعرِ، لكنه حالِقِ الدينِ

-Həzrət Peyğəmbər(ə) buyurur: "Sizdən əvvəlki ümmətlərin xəstəlikləri (xəbəriniz olmadan) sizə də sirayət etmişdir. O xəstəlik paxıllıqdır. Bu xəstəlik insanın tüklərini tökən xəstəlik deyil. Paxıllıq insanın dinini töküb aradan qaldırar."[1]

İnsan başının tüklərini qırxıb təmizlədiyi kimi, paxıllıq da insanın din və imanını kökündən kəsib aparar. Belə olduqda insanda imandan əsər-əlamət qalmaz.

Həzrət Peyğəmbərlə(s) müxalifətçilik və mübarizə edən kitab əhlinin, yaxud digər bütpərəstlərin bu hərəkətlərinin kökü paxıllığa gedib çıxır. Yəni onların Həzrət Peyğəmbərə(s) qarşı çıxmalarının əsası paxıllıqları üzündən olmuşdur.

---

[1] Mizanül-hikmə, 3-cü cild, hədis – 3940; Günahın cəzası, səh. 392.

Həzrət Peyğəmbər(s) gecələr öz evində avazla Quran oxuyardı. Bəzən müşriklər gizlicə heç bir kəsin xəbəri olmadan gəlib onun oxuduğu ayələri dinləyirdilər. Çünki Həzrət Peyğəmbərin(s) Quran oxuması hər kəsin qəlbinə güclü təsir göstərirdi. Onu dinlədikcə hamı mənəvi zövq alırdı.

Əbu Süfyan, Əbu Cəhl və Əxnəs ibn Şüreyq Həzrət Peyğəmbərlə(s) ən çox düşmənçilik edənlərdən idilər. Onlar bir-birindən xəbərsiz gedib Həzrət Peyğəmbərin(s) oxuduğu ayələrə gizlicə qulaq asıb qayıdırdılar. Gecələrin birində onlar yenə də bir-birindən xəbərsiz Məkkədə Həzrət Peyğəmbərin(s) evinin kənarında əyləşib Həzrətin(s) oxuduğu ayələrə qulaq asırdılar. Ancaq İslam Peyğəmbərinə(s) qulaq asıb qayıdarkən bir-birilərini gördülər və burada nə etdiklərini soruşdular. Üçünün də sirrinin üstü açıldı. Söz verdilər ki, bir daha bura gəlməyəcəklər. Səhərisi gün gecə hər üçü bir-birindən xəbərsiz yenə də Həzrətin Peyğəmbərin(s) evinin ətrafına gəldilər. Peyğəmbərin(s) oxuduğu ayələrə qulaq asdıqdan sonra qayıdarkən yenə də bir-biri ilə rastlaşdılar. Yenə də bir-biri ilə danışıb bir daha bura gəlməyəcəklərinə söz verdilər. Üçüncü gecə həmin hadisə yenə də təkrarlandı. Bu dəfə bir daha bura gəlib Həzrət Peyğəmbərin(s) sözlərinə qulaq asmayacaqlarına and içib əhd-peyman bağladılar. Sonra isə hər kəs öz evinə getdi.

Əxnəs deyir: “Məhəmmədin(s) sözləri mənə çox təsir etmişdi. Onun sözlərinin təsirindən bədənim əsirdi. Evdən çıxıb Əbu Süfyanın yanına getdim. Ona dedim: Əbu Süfyan, sən də Məhəmmədin(s) sözlərinə qulaq asmısan. Bu haqda nə fikirləşirsən? Əbu Süfyan dedi: Sözün düzü Məhəmmədin oxuduğu ayələrin bəzisini başa düşürdüm. Amma çoxunun mənası mənə çatmırdı. Dedim: Elə mən də sənin kimiyəm. Sonra Əbu Cəhlin yanına gəlib soruşdum: Ağlın Məhəmmədin oxuduqlarından bir şey kəsirmi? Əbu

Cəhl sözü başqa səmtə yönəldib dedi: Biz Əbdülmanafın övladları ilə uzun illərdir ki, rəqabətdəyik. Onlar süfrə açdıqda biz də süfrə açmışıq. Onlar ehsan verdikdə biz də ehsan vermişik. Onlar səxavətli olublarsa, biz də səxavətli olmuşuq. Onlar camaata qulluq göstəriblərsə, biz də bu əməli etmişik. Hər bir işdə onlarla rəqabətimiz olub. Lakin onların içindən Peyğəmbər çıxması və bizdən peyğəmbər olmaması bizim üçün çox ağırdır. Sözümün qısası budur ki, biz heç bir vaxt Abdullahın oğlu Məhəmmədə iman gətirməyəcəyik."[1]

Deməli, açıq-aydın şəkildə məlum olur ki, Həzrət Peyğəmbərin(s) gətirdiyi dində heç bir eyib, nöqsan və məntiqsizlik yoxdur. Nöqsan bu müxalifətin içərisində olan paxıllıqdadır. Bu adamların içlərində olan paxıllıq onların haqqa gəlmələrinə imkan vermədi.

قَالَ الصادِق(ع): إياكُم أنْ يحسد بعضكُم بعضا؛ فإن الكُفْر أصلُه الحَسد

-İmam Sadiq(ə) buyurur: "Bir-birinizə paxıllıq etməkdən çəkinin, çünki küfrün kökü paxıllıqdır."[2]

Səlmət ibn Sələmə deyir: "Mənim 14-15 yaşım olardı. Yəhudi bir qonşum var idi ki, Bəni-Əbdüləşhəl qəbiləsindən idi. O, hərdənbir kitab əhlinə moizə və nəsihət edərdi. Günlərin birində gördüm ki, evdən çıxıb öz qəbiləsinin qarşısında dayanaraq qiyamət, cənnət və cəhənnəm barədə danışır. Mən də orada dayanıb onun sözlərinə qulaq asırdım. Camaat onun moizəsinə qulaq asdıqdan sonra dedilər: "Belə şey ola bilməz. Mümkün deyil ki, insan öldükdən sonra dirilib cənnətə, yaxud cəhənnəmə getsin."

---

[1] Günahın cəzası, səh. 388.
[2] Mizanül-hikmə, 3-cü cild, hədis - 3943.

Həmin yəhudi dedi: “And olsun Allaha ki, cənnət və cəhənnəm vardır. Cəhənnəmin odu bu dünyanın bütün atəşlərindən daha yandırıcıdır.”

Bir nəfər dedi: “Sənin dediklərinin nişanə və əlaməti varmı?”

Yəhudi (öz kitablarında İslam Peyğəmbərinin(s) Məkkədən zühur edəcəyini oxuduğu üçün) barmağı ilə Məkkə tərəfə işarə edib dedi: “O tərəfdən bir peyğəmbər göndəriləcək. O da qiyamət, cənnət və cəhənnəm barədə insanlara məlumat verəcək.”

Həmin şəxs soruşdu: “O, nə vaxt zühur edəcək?”

Yəhudi məni ona göstərib dedi: “Əgər bu uşaq sağ qalsa, onu görə biləcək.”

Sələmə deyir: “Bu hadisənin üstündən neçə illər keçmişdi ki, Həzrət Peyğəmbər(s) Allahın elçisi kimi zühur etdi. Onun zühur etməsi xəbəri Mədinə şəhərinə də yayıldı. Biz ona iman gətirdik. Mədinədəki yəhudilər Həzrət Peyğəmbərin(s) əleyhinə çıxmağa başladılar. Günlərin birində mən həmin yəhudi ilə rastlaşdım. Ona dedim: “Yadındadırmı, bir zaman sən öz qəbilənlə söhbət edib bir peyğəmbərin zühur edəcəyini söyləmişdin?”

Dedi: “Bəli, yadımdadır.”

Dedim: “Yadındadırmı, sən əlinlə bir uşağa işarə edib dedin ki, əgər bu uşaq sağ qalsa, onun zühurunu görəcək?”

Dedi: “Bəli, yadımdadır.”

Dedim: “Həmin uşaq mən idim. Bəs necə oldu ki, sən bütün bunları bildiyin halda indi nə üçün həmin Peyğəmbərin(s) əleyhinə mübarizə aparırsan?”

O mənə baxıb dedi: “Mən ona iman gətirməyəcəyəm.”[1]

Buradan açıq-aydın şəkildə görürük ki, həmin yəhudi İslam Peyğəmbərinin(s) haqq olduğunu bilə-bilə iman

---

[1] Günahın cəzası, səh. 387.

gətirmək istəmədi. Məsələ onun bilməməzliyində deyil və o, hər bir şeyi çox gözəl bilirdi. Amma iman gətirməməsinin səbəbi paxıllıq idi və bu kimi başqa məsələlər onun İslam Peyğəmbərinə(s) iman gətirməsinə imkan vermədi. Dünyada gedən prosesləri diqqətlə izlədikdə görürük ki, bütövlükdə ölkələr arasında, eləcə də ayrı-ayrı insanlar arasında bir-birinin əleyhinə müxtəlif işlərin həyata keçirilməsinin kökündə yelə də paxıllıq və bu kimi başqa məsələlər dayanır. Yəni bu elə bir məsələdir ki, keçmişdə də olub və indi də vardır. Tarixdə bu barədə kifayət qədər nümunələr mövcuddur.

İranda böyük bir alim var idi. Demək olar ki, Ayətullah səviyyəsində bir insan idi, amma sonda paxıllıq onu imandan çıxartdı. İran İslam inqilabından əvvəl o, bir kitab yazmışdı. Həmin kitabın müqəddiməsində İmam Xomeyninin(r) barəsində belə yazmışdı: "Kitabda yazdığım hər bir mətləbin nöqsanı olsa, məndən bilin. Amma hər hansı gözəl və nurani bir mətləblə qarşılaşsanız, bilin ki, ustadım İmam Xomeyninin(r) lütfüdür." İslam inqilabından sonra İmam Xomeyni(r) bir şəxsi vəzifəyə təyin etdi. Qeyd etdiyim həmin alimin İmamın(r) yenicə vəzifəyə təyin etdiyi bu şəxslə münasibəti yaxşı deyildi. Odur ki, o, bu hala dözə bilmədi və paxıllıq onu yavaş-yavaş elə bir həddə gətirib çıxartdı ki, Səddam Hüseynin İranla müharibə etdiyi bir zamanda qaçıb İraqa getdi. Sonra isə radiolarda İmam Xomeyninin(r) əleyhinə danışmağa başladı. Elə pis sözlər danışırdı ki, həmin kitabı yazan alimin belə danışdığına təəccüblənirdik. Yəni bu sözləri deyən həmin adamdır ki, kitabında "Kitabda yazdığım hər bir mətləbin nöqsanı olsa, məndən bilin. Amma hər hansı gözəl və nurani mətləblə qarşılaşsanız, bilin ki, ustadım İmam Xomeyninin(r) lütfüdür" – deyə yazmışdı.

İmam Xomeyni(r) rəhmətə gedəndən sonra rəhbərdən xahiş etdilər ki, ona ölkəyə qayıtmağa icazə versin. Rəhbər də ona icazə verdi və alimlərə də tapşırdı ki, heç bir kəsin onunla işi olmasın. İmandan çıxmış olsa da bu ölkənin vətəndaşı olduğundan öz vətənində istədiyi kimi yaşasın.

Qeyd olunan bu nümunələr paxıllığın üzə çıxdığı böyük nümunələrdir. Amma paxıllığın xırda nümunələri ilə biz demək olar ki, hər gün rastlaşırıq. İstənilən hər bir halda paxıllıq çox pis xislətdir. Yəni paxıllıq elə bir haldır ki, insanın imanını əlindən alıb məhv edir.

قَالَ عِلِي(ع): الحَسد لَيأكُلُ الإيمانَ كما تأكُلُ النار الحَطَب

-İmam Əli(ə) buyurur: “Alov odunu yediyi kimi, paxıllıq da imanı yeyər.”[1]

İmam Sadiq(ə) Həzrət Nuhun(ə) əhvalatını və şeytanın gəmiyə minməsi barədə söhbət etdikdən sonra belə buyurdu: “Şeytan Nuh Peyğəmbərə(ə) iki nəsihət verərək belə dedi:

إِياك والْحِرص فَإِنه أخرج أبويك مِن الْجنة، وإِياك والْحسد فَإِنه أخرجني مِن الْجنة

-Tamahkarlıqdan çəkin. Çünki tamah sənin baban Adəmi cənnətdən çıxartdı. Paxıllıqdan çəkin. Çünki paxıllıq da məni cənnətdən çıxartdı.”[2]

Şeytanın Adəmə paxıllığı tutdu və ona səcdə etməkdən boyun qaçırtdı. Təkəbbürlülük edərək hər nəyin bahasına olursa-olsun Adəmə səcdə etməyəcəyini söylədi. Buna görə də cənnətdən qovuldu.

---

[1] Üsuli-Kafi, 3-cü cild, səh. 416.
[2] Günahın cəzası, səh. 393.

Tarixdə dəfələrlə Həzrət Peyğəmbəri(s) öldürmək istəyənlər olmuşdur. Onlar Peyğəmbərlə(s) üz-üzə gəldikdə zahirən öz səmimiyyətlərini göstərir, xəlvətə çəkildikdə isə Həzrəti(s) necə öldürəcəkləri haqda düşünürdülər. Bütün bunlar Həzrət Peyğəmbərin(s) haqq olduğuna görə deyildi, onların özlərinin Həzrətə(s) qarşı paxıllıqları üzündən idi.

Abdullah ibn Übəyy Həzrət Peyğəmbərin(s) zamanında yaşayan yəhudilərdən biri idi. Həm də o, Həzrət Peyğəmbərlə(s) qonşu idi. Übəyy qızı üçün toy edib qonşuları da dəvət etmişdi. Xüsusi bir gecə isə Həzrət Peyğəmbəri(s) bir neçə nəfərlə ayrıca evə dəvət etdi. Həzrət Peyğəmbər(s) də onun dəvətini qəbul etdi. Həzrət Peyğəmbər(s) evə gəlməmişdən əvvəl Abdullah ibn Übəyy həyətdə bir quyu qazdırdı və onun içini nizə, qılınc və oxla doldurduqdan sonra quyunun üstünü kilimə oxşar bir şeylə örtdü. Məqsədi bu idi ki, Həzrət Peyğəmbər(s) oradan keçəndə quyunun içinə düşsün. O, bir neçə silahlıya da göstəriş vermişdi ki, evin arxasında gizlənsinlər. Onların planlarına görə Həzrət Peyğəmbər(s) quyuya düşən kimi həmin silahlılar gəlib quyunu doldurmaqda kömək etməliydilər. Hər ehtimala qarşı o, eyni zamanda göstəriş verdi ki, Həzrət Peyğəmbər(s) üçün hazırlanmış yeməyə zəhər də qatsınlar. Yəni əgər birdən quyunun üstündən keçməsəydilər, həmin yeməyi yeyib zəhərlənsinlər.

Həzrət Peyğəmbər(s) onun evinə getməzdən əvvəl cənab Cəbrayıl(ə) nazil olub Həzrət Məhəmməd Peyğəmbəri(s) məsələdən agah edərək dedi: “Ya Rəsulallah, Allah-təala buyurur ki, səni dəvət edənlər nə desələr, onu da et. Mən səni qoruyacağam.”

Həzrət Peyğəmbər(s) Həzrət Əli(ə) və bir neçə səhabə ilə arxayın şəkildə Abdullah ibn Übəyyin evinə yollandı. Həyətə girib altında quyu qazılmış kilimin üstündən

rahatca ötüb keçdilər. Süfrə kənarında əyləşdikdən sonra zəhərli yeməkləri gətirib süfrəyə qoydular. Həzrət Peyğəmbər(s) onunla gələnlərə buyurdu: “Yemək yeməzdən əvvəl mən bir dua oxuyacağam, siz də onu təkrar edin.” Sonra bu duanı oxumağa başladı:

بِسمِ الله الشافي، بِسمِ الله الْكَافِي، بِسمِ الله الْمعافِي، بِسمِ الله الذِي لَا يضر مع اسمِهِ شيءٌ و لَا داءٌ، فِي الْأَرض و لَا فِي السماءِ، و هو السمِيع الْعلِيم

Həzrət Peyğəmbərlə(s) gələnlər bu duanı təkrarlayıb yeməyə başladılar. Abdullah bu işə mat-məəttəl qalmışdı. Elə güman etdi ki, yeməyə zəhər qatmayıblar. Həzrət Peyğəmbər(s) gedəndən sonra evin arxasında gizlətdiyi silahlıları çağırıb süfrə kənarında əyləşdirdi. Həmin yeməkdən onlar üçün də tökdürdü. Lakin onlar həmin yeməyi yeyən kimi zəhərlənib öldülər. Bu hadisə bütün Mədinə camaatı arasında yayıldı. Həzrət Peyğəmbər(s) bu xəbəri eşitdikdə səhabələrinə göstəriş verdi ki, bu barədə heç bir yerdə danışmasınlar.

Günlərin birində Həzrət Peyğəmbər(s) Abdullah ibn Übəyylə rastlaşdı. Abdullah onun evində bir neçə nəfərin ölməsi haqda söz açdı. Həzrət Peyğəmbər(s) onların ölümünün səbəbini soruşduqda o dedi: “Onlar ishal (qarınağrısı) xəstəliyinə düçar olduqları üçün bir gecənin içində öldülər.”[1]

Abdullah ibn Übəyy bu hadisə zamanı yeməyə zəhər qatdığını gizlətdi. Lakin Abdullah ibn Übəyy və onun kimilərin belə işlər görmələri, müxtəlif cinayətlərə əl atmaları və s. onların daxillərində olan təkəbbürlülüyün və paxıllıqların nəticəsiydi. Onlar Həzrət Peyğəmbəri(s) çox

---

[1] 500 dastan, 1-ci cild, səh. 199.

yaxşı tanıyırdılar, lakin təkəbbür və paxıllıqları haqqı qəbul etmələrinə imkan vermirdi.

### Paxıllığın əlamətləri

Həzrət Peyğəmbərdən(s) və imamlardan paxıllıq barədə xeyli hədislər nəql olunmuşdur. Bu hədislərin içərisində paxıl insanın əlamətləri də bəyan edilir. Nümunə üçün həmin hədislərdən birinə diqqət yetirək:

قَالَ الصادِق(ع): للحاسِدِ ثَلاثُ علاماتٍ: يغتاب إذا غاب، و يتملّق إذا شهد، و يشمت بالمُصيبةِ

-İmam Sadiq(ə) buyurur: "Paxılın üç əlaməti var: adamın dalınca qeybət edər, üz-üzə olanda yaltaqlanar və başqalarının çətinliklərinə şad olar."[1]

Yəni paxıl insanın əlamətlərindən biri budur ki, hörmət sahibi olan insanın dalınca qeybət edər. Ona hörmətlə yanaşıldığını gözü götürmədiyi üçün başqalarının yanında onun əleyhinə danışar. İkinci əlaməti budur ki, qeybətini edib ardınca danışdığı adamı gördükdə ona yaltaqlanmağa başlayar. Paxılın üçüncü əlaməti də budur ki, başqalarının çətinliyə düşdüyünü gördükdə sevinib şad olur.

Odur ki, paxıllıq elə bir xəstəlikdir ki, hər kim ona mübtəla olsa, yavaş-yavaş onu küfrə tərəf sürükləyər və həmin şəxs dünyadan imansız halda gedər.

[1] Mizanül-hikmə, 3-cü cild, hədis - 3954.

## 8-10-cu AYƏLƏRİNİN TƏFSİRİ

**إِنا جعلْنا فِي أعناقِهم أغْلالًا فَهي إِلى الْأذْقَانِ فَهم مقْمحونَ.٨. وجعلْنا مِن بين أيدِيهم سدا ومِن خلْفِهم سدا فَأَغْشيناهم فَهم لَا يبصِرونَ.٩. وسواءٌ عليهم أأنذَرتهم أم لم تنذِرهم لَا يؤمِنونَ.١٠.**

**8. Biz onların boyunlarına dəmir halqalar (zəncir) keçirmişik. O halqalar onların lap çənələrinə dirənmişdir. Buna görə də başları yuxarı qalxmış, gözləri aşağı dikilmişdir.**

**9. Biz onların önlərinə və arxalarına sədd çəkib gözlərini bağlamışıq. Buna görə də (Allahın qüdrətinə dəlalət edən əlamət, nişanələri) görmürlər. (Kafirlərin qəlb və bəsirət gözü kor edilmiş, bütün iman yolları üzlərinə bağlanmışdır. Onlar zahirən görsələr də, mənən və batinən kordurlar.)**

**10. (Ya Peyğəmbər!) Sən onları qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər!**

Məlum məsələdir ki, bu ayələr əvvəlki ayələrdə haqqında bəhs olunan insanlara aiddir. Bu ayələrdə də bəyan edilir ki, onların boyunlarına dəmir halqaları olan zəncirlər keçirilmişdir. Həmin zəncirlərin halqaları enli və ağır olduğu üçün çənələrinə dirənmişdir. Onların əlləri zəncirlə boyunlarına bağlandığı üçün başlarını yuxarı qaldırmağa, gözlərini də aşağı dikməyə məcbur olmuşlar. Onlar boyunlarını bir tərəfə döndərmək, əllərini sağa-sola tərpətmək, ətrafa nəzər salmaq, hətta ayaqlarının altını görmək iqtidarında deyillər. Bundan əlavə, onların qarşılarına və arxalarına sədd səkilib gözləri bağlanmışdır.

Əvvəlki iki (8-9-cu) ayələr barəsində üç mətləb qeyd edilmişdir. Burada çox yaxşı olar ki, hər üç mətləblə tanış olaq.

Birinci mətləb onların qiyamətdəki halı ilə bağlıdır və burada deyilir ki, onlar boyunlarına qalın və abır halqaları olan zəncir taxılmış, başları yuxarı, gözlərini yerə dikmiş, önlərinə və arxalarına sədd çəkilmiş halda məhşərə gətiriləcəklər. Yəni onlar qiyamət günü belə əzab olunacaqlar.

İkinci mətləb onların dünya halları ilə bağlıdır. Yəni bu kafir və müşriklərin ürəyindəki kin-küdurətləri, köhnə adət-ənənələri, xurafat və mövhumatlar onların boyunlarına bir zəncir kimi bağlanmış, təkəbbürlü halda başlarını yuxarı qaldıraraq ayaqlarının altını belə görmürlər. Buna görə də onlar heç bir vaxt haqq-həqiqəti tapa bilməyəcəklər. Onlar mal-dövlətin, vəzifənin, ata-babalarının nadürüst ənənələrinin əsiridirlər. Buna görə də Allah-təala onların dünyadakı hal və vəziyyətlərini belə bəyan edir.

Üçüncü mətləb isə bu ayələrin təfsirini belə mənalandırır. Əgər onların əməlləri təcəssüm olunsa, onların məlakuti bədənləri (ruhları) zahir olsa, onları Quranın buyurduğu kimi, boyunlarında zəncir, başları yuxarı, önlərindən və arxalarından sədd çəkilmiş halda görmək olar. Ümumiyyətlə, insanın iki cür qiyafəsi və surəti vardır. Biri hamının gördüyü kimi zahiri bədəndir. Allah-təala birini ağdərili, birini qaradərili, birini gözünün rəngi qara, digərini qarışıq və s. formalarda yaratmışdır. İnsanın digər qiyafəsi isə ruhun surətidir. Lakin ruhun qiyafəsini insan özü yaradır. Hər bir əməlin öz forması olduğu üçün həmin əməl insanın ruhunu həmin surətə salır.

Odur ki, bu dünyada müşriklərin ata-babalarından qalan bütpərəstlik və s. kimi adət-ənənələri, ürəklərində

olan kin-küdurətləri, iman gətirməmələri, xurafat və mövhumatlara əməl etmələri, təkəbbürləri, acığa düşmələri onların ruhunu bu vəziyyətə salmışdır. Yəni əgər onların mələkuti surətini görmək olsaydı, onlar boyunlarında zəncir, başlarını yuxarı tutmuş, önlərində və arxalarında sədlər çəkilmiş halda görünərdilər.

Alimlər ayədəki "əğlal" ("halqalı zəncirlər") sözünün mənası barədə belə yazırlar: arzular, şəhvətlər, dünya məhəbbəti, tamah, paxıllıq, simiclik və səhv hərəkətlər həmin halqalı zəncirlərdir ki, onların boyunlarından asılmış və əl-qollarını bağlamışdır.

Burada bir mətləb də diqqəti cəlb edir. Ayədə "cəəlna" ("qərar vermişik") sözü işlənmişdir. Yəni Allah-təala buyurur ki, Biz onların boyunlarına zəncir, ön və arxalarına isə sədd çəkmişik. Sual oluna bilər ki, məgər bunu Allah edibmi? Bu sualın cavabı belədir ki, "cəəlna" kəlməsini Allah-təala insanların əməlinin nəticəsində Özünə aid edir. Yəni kim Allahdan nə istəyirsə və necə istəyirsə, Allah da onun barəsində həmin işi görür. İnsan öz əməlləri ilə Allahdan nə istəyirsə, Allah da onu verir.

Hədislərdə belə nəql olunur ki, şeytan altı min il Allaha ibadət etmişdi. Altı min il ibadətdən sonra vəziyyət elə bir yerə gəlib çatdı ki, şeytan Allahın əmrinə tabe olmadı. Allah-təala da onu dərgahından qovdu. Şeytan dedi: "Mən Sənə bu qədər ibadət etmişəm. Bunun əvəzini mənə vermirsənmi?" Allah-təala buyurdu: "İbadətlərinin əvəzində nə istəyirsənsə istə." Şeytan dedi: "Səndən cənnət istəmirəm. Qiyamətə qədər ömür və insanların qəlbinə yol tapmağı istəyirəm." Allah ona istədiyini verdi. Şeytanın şeytan olması öz istəyi ilə oldu.

Firon da Allahdan səltənət istədi və axirətindən imtina etdi. O, səltənətində əyləşib allahlıq iddiası edirdi. İnsanları da

məcbur etmişdi ki, hamı onun allahlığını qəbul etsin. Günlərin birində Nil çayının suyu qurudu. Camaat Fironun yanına gəlib dedilər: “Nil çayının suyu quruyub. Xahiş edirik, çaya su gətir.” Tarixi mənbələrdə yazırlar ki, o, atı minib camaatla birgə qurumuş çayın ortasında dayandı. Üzünü camaata tutub dedi: “Siz burada qalın, mən su gətirəcəyəm.” O, camaatdan uzaqlaşıb xəlvət bir yerə çəkildi. Ətrafına baxıb heç bir kəsin olmadığına arxayın olduqdan sonra səcdəyə düşərək üzünü torpağa qoydu. Allaha yalvarıb dedi: “İlahi, Sənin Allah olduğunu mən də bilirəm. Amma mən Səndən cənnət yox, səltənət istəmişəm. Bu səltənətimin xeyri çaya su gəlməsindədir. Səndən xahiş edirəm ki, Nilə su göndər.” Allah da onun istəyinə görə Nil çayına su göndərdi.

Ona görə də əgər Allah-təala “Biz etdik” - buyurursa, deməli, bunu hər bir kəsin öz istəyi ilə edir. Kim nəyi və necə istəyirsə, Allah da onun barəsində həmin işi edir. Şeytana lənət olunubsa, Allahın dərgahından qovulubsa, bunu Allah onun istəyi ilə etmişdir. Firon axirəti yox, dünya səltənətini istədikdə Allah da onun istəyini yerinə yetirdi. Əgər bir insan Allahdan cənnət yox, dünya və səltənət istəyirsə, belə bir insan kiminsə sözünü qəbul edərmi? Belə insanların yanında ölümdən, cənnət və cəhənnəmdən danışdıqda deyirlər: “Biz cənnət və cəhənnəmin olduğunu bilirik. Lakin bizə cənnət lazım deyil. Biz dünyada istədiyimizi əldə etmişik. Bizə on günlük səltənət lazım idi, onu da almışıq.” Əlbəttə ki, belə olduqda bu insanlar üçün heç nəyin fərqi ola bilməz. Onlar üçün cənnətdən, cəhənnəmdən, ölümdən danışmağın heç bir faydası yoxdur. “Yasin” surəsinin 8 və 9-cu ayələrində müşrik və kafirlər barəsində danışıldıqdan sonra 10-cu ayədə belə buyurulur:

وسواءٌ عليهم أأنذَرتهم أم لَم تنذِرهم لَا يؤمِنونَ

-Sən onları qorxutsan da, qorxutmasan da, onlar üçün birdir; iman gətirməzlər!

Bəzi təfsirçilər deyirlər ki, bu ayələrin nazil olma səbəbi Əbu Cəhl, yaxud Bəni-Məxzum tayfasından olan bir kişi barəsindədir. Onlar dəfələrlə Həzrət Peyğəmbəri(s) qətlə yetirmək istəmişlər. Amma Allah-təala möcüzə yolu ilə onların qarşısını almışdır. Belə ki, onlar Həzrət Peyğəmbəri(s) öldürmək məqsədilə ona yaxınlaşdıqda gözləri kor olurdu və heç bir şey görə bilmirdilər.[1]

Bu ayələrin nazil olma səbəbi öz yerində olmaqla, ümumi mənası da öz yerindədir.

[1] Təfsiri-nümunə, 18-ci cild, səh. 366.

## 11-ci AYƏSİNİN TƏFSİRİ

**إِنَّمَا تُنذِرُ مَنِ اتَّبَعَ الذِّكْرَ وَخَشِيَ الرَّحْمَٰنَ بِالْغَيْبِ فَبَشِّرْهُ بِمَغْفِرَةٍ وَأَجْرٍ كَرِيمٍ.١١.**

**11. Sən ancaq nəsihətverici Quran(ı qəbul edən və on)a tabe olan, Rəhman (olan Allah)dan gizlində qorxan kəsi qorxuda bilərsən; elə isə ona (Allahın) bağışlama(sı) və çox qiymətli bir mükafatla müjdə ver.**

Bundan əvvəlki ayələrdə bəyan olunur ki, "(Ey Peyğəmbər!) Sən onları qorxutsan da, qorxutmasan da, onlar üçün birdir; iman gətirməzlər!" Yəni onları qiyamətin vəhşəti ilə, ölümlə qorxutmağın heç bir faydası yoxdur. Çünki onlar artıq öz yollarını seçmişlər. Onlar birdəfəlik qərarlarını qəbul elmişlər ki, cənnəti yox, dünyanı istəyirlər. Buna görə də onları qorxudub-qorxutmamağın heç bir fərqi yoxdur. Çünki hər iki yolun aqibətini yaxşı bilirlər. Sadəcə olaraq cənnət yolunu deyil, nəfslərinə məğlub olaraq cəhənnəm yolunu öz istəkləri ilə seçmişlər. Belə olduqda onlara heç bir təbliğat və ya qorxutma təsir göstərməyəcək.

Bu ayədə isə buyurulur ki, Həzrət Peyğəmbərin(s) qorxutması iki xüsusiyyətə malik olan insanlara təsir göstərə bilər. Həmin xüsusiyyətlərdən biri haqq sözü və nəsihəti qəbul etməkdir. Başqa mənası isə Quranı Allahın kitabı kimi qəbul edib Ona iman gətirməkdir. İkinci xüsusiyyət isə xəlvətdə də Allahdan qorxmaqdır. Yəni hətta təklikdə və ya xəlvətdə olanda da Allahdan qorxaraq günah etməkdən çəkinməkdir. Deməli, hər kim nəsihəti və Quranı qəbul edirsə, eləcə də xəlvətdə də olsa belə Allahdan

qorxursa, Həzrət Peyğəmbərin(s) qorxutması həmin şəxsə təsir göstərəcəkdir. Əks təqdirdə Həzrət Peyğəmbərin(s) sözünü qəbul etməyəcəkdir. Bu ayənin "Bəqərə" surəsinin 2-ci ayəsinə oxşarlığı var. Allah-təala həmin ayədə belə buyurur:

ذَٰلِكَ الْكِتَابُ لَا رَيْبَ ۛ فِيهِ ۛ هُدًى لِلْمُتَّقِينَ

-Barəsində heç bir şəkk-şübhə olmayan bu uca məqamlı kitab təqvalılar üçün hidayət mənbəyidir.

Yəni Quran o kəsi hidayət edir ki, həmin şəxs Quranı qəbul etsin, onu oxuyub əməl etsin. Məsələn, xəstə bir həkimə müraciət edir. Həkim onu müayinə etdikdən sonra xəstəliyinin nə olduğunu bilir və müalicə məqsədilə resept yazır. Xəstənin sağalması da məhz həmin reseptdə yazılan qaydalara əməl etməklə mümkündür. Əgər xəstə həmin kağızı aparıb evə qoysa və həkimin göstərişlərinə də əməl etməsə, tutulduğu xəstəlikdən əsla yaxa qurtara bilməyəcək. Odur ki, Quran təqvalı insanları hidayət edir. Sual oluna bilər ki, əgər bir insan təqvalıdırsa, daha Qurana nə ehtiyac var? Cavab belədir ki, təqvalı insan təqvanı necə əldə edib? Əgər insan özünü Quranın ixtiyarına versə, onun buyurduqlarına olduğu kimi əməl etsə, o zaman Quran onu hidayət edib məqsədə çatdıracaqdır. Amma əgər dildə "Allaha qurban olum", "Qurana qurban olum" - deməklə kifayətlənib onun ayələrinə əməl etməsə, bunun heç bir faydası olmayacaq və sonu pis nəticələnəcəkdir.

Bu ayədə bir neçə kəlmənin barəsində danışmaq olar. Həmin kəlmələrdən biri «ذِكْر» "zikr" kəlməsidir. "Zikr" kəlməsinin bir neçə mənası vardır. Bu ayədə həmin kəlmənin mənası Quran deməkdir. Həmçinin Quranın adlarından biri də "Zikr"dir. Məsələn, Allah-təala "Nəhl" surəsinin 44-cü ayəsində belə buyurur:

وأنزلْنا إِلَيك الذكْر لِتبين لِلناسِ

-(Ey Rəsulum) Sənə də bu Zikri (Quranı) nazil etdik ki, insanlara onlara nazil olanı açıqlayasan.

Çox güman ki, "zikrdə" məqsəd elə lüğətdə olan "xatırlayıb yada salmaq" mənasını kəsb etməkdir. Yəni Həzrət Peyğəmbər(s) insanlara yadlarından çıxanı xatırladıb yadlarına salmalıdır. Həzrət Peyğəmbər(s) insanları hidayət etmək üçün ya nəsihət edərək yada salır, ya da Quranı bəyan edir. Həm nəsihət və xatırlatma, həm də Quranı bəyan etmək hər ikisi eynidir.

Ayədə işlənmiş «خشيت» "xəşyət" sözünün mənası qorxmaqdır. Yəni hər kimdə bu xüsusiyyət olsa, zikr və nəsihətin ona təsiri olar. Ərəb dilində "xəşyət" və "xovf" qorxu deməkdir. Amma "xəşyət" sözü ilə "xovf" sözü arasında bir fərq vardır. "Xəşyət" odur ki, insan qorxu ilə yanaşı, tərəf müqabilinin əzəmətli olduğunu da başa düşsün. Məsələn, insanın Allahdan qorxmasına "xəşyət" deyilir. Amma tərəf müqabilində əzəmət olmadıqda "xovf" sözü işlənir. Məsələn, bir insan ilandan, qaranlıqdan, oğrudan və s. qorxursa, buna "xovf" deyilir. Ümumiyyətlə, ərəb dilində hər bir şeydən qorxmağa "xovf" deyilir, amma qorxduğu şeydə bir əzəmət olduqda isə buna "xəşyət" deyilir. Buna görə də ayədə «وخشِي الرحمٰن» "Rəhman (olan Allah)dan qorxan" ibarəsi işlənmişdir. Ayədə "Rəhman" kəlməsinin işlənməsinin də mənası budur ki, insan Allahın əzəmətindən qorxmaqla yanaşı, Onun rəhmətinə də ümid bəsləyir. Quran elə bir kitabdır ki, hər bir söz öz yerində dəqiqliklə müəyyən olunmuşdur. Əgər Quranda hər hansı bir söz zərrə qədər yerindən tərpənsə, ayə və cümlə istənilən mənanı verməyəcək. Ədəbiyyatda və fəsahətdə

nə qədər güclü və elmli bir insan olsa da belə Quranın bircə kəlməsinin yerini dəyişsə, həmin ayə korlanıb mənasını itirər. Çünki onun fəsahət və quruluşunu şəxsən Allah-təala Özü müəyyən etmişdir.

Ayədə işlənmiş «غيب» "ğəyb" kəlməsinin iki mənası vardır. Bir mənası budur ki, insan Allahı elm və dəlil-sübutla qəbul edib tanıyır. Yəni kimsə ona Allahın varlığını çatdırmaqla o da təqlid edərək bunu qəbul etmir. Məsələn, bir nəfər deyir ki, "babam demişdir ki, Allah var", mən də onun sözünü qəbul etmişəm. Bu səhvdir və əsas odur ki, insan Allahın varlığını qəbul edir və buna dair minlərlə dəlil-sübutlar da gətirir. Bundan daha da üstünü Həzrət Əlinin(ə) buyurduğudur. Ondan soruşdular: "Ya Əli, sən Allahı görürsənmi? Həzrət(ə) buyurdu: Mən görmədiyim Allaha ibadət etmərəm. Soruşdular: Necə görürsən? Buyurdu: Hara baxıramsa, Onun əzəmətini, təsirini və yaratdıqlarını görürəm."

"Bəqərə" surəsinin 115-ci ayəsində oxuyuruq:

وَلِلّهِ الْمَشْرِقُ وَالْمَغْرِبُ فَأَيْنَمَا تُوَلُّواْ فَثَمَّ وَجْهُ اللّهِ

-Şərq və qərb Allaha məxsusdur. Odur ki, (bütün dua və ibadətlərdə) hansı tərəfə üz tutsanız, Allahın üzü (səmti) oradır.

Ruh insanın bədənindədir. Kimsə soruşa bilər ki, ruh insanın bədəninin harasındadır? Cavabında deyirik ki, hər bir yerində. İynəni hara batırdıqda ağrıyırsa, deməli, ruh da oradadır. Yəni ruh insanın bütün bədənini əhatə etmişdir. Ruh bədəni əhatə etdiyi kimi, Allah-təala da bütün aləm və yaradılışın hamısını əhatə etmişdir. İnsan bədənin hər yerində ruhu hiss etdiyi kimi, bütün aləmdə Allahın varlığını da hiss edə bilir. Hər bir yerə baxdıqda Allahın yaratdıqlarını, nişanə və əzəmətinin şahidi oluruq.

“Ğəyb” kəlməsinin ikinci mənası da xəlvət və gizlicə deməkdir. “Xəlvət” sözü “cəlvət”in əksidir. “Cəlvət” aşkar, “xəlvət” isə gizli və heç kəsin olmadığı yer deməkdir. İman odur ki, insan həm xəlvətdə, həm də aşkarda Allaha ehtiram etsin, Onu başı üzərində nəzarətçi bilib hüzurunda günah işlər görməsin. Odur ki, Allah- təala göstərilən surənin 11-ci ayəsində Həzrət Peyğəmbərə(s) belə buyurur:

إنما تنذر من اتبع الذكر وخشي الرحمن بالغيب فبشره بمغفرة وأجر كريم

-Sən ancaq nəsihətverici Quran(ı qəbul edən və on)a tabe olan, Rəhman (olan Allah)dan gizlində qorxan kəsi qorxuda bilərsən; elə isə ona (Allahın) bağışlama(sı) və çox qiymətli bir mükafatla müjdə ver.

Yəni Həzrət Peyğəmbərin(s) sözləri Quranı qəbul edən və ona tabe olan, Allahdan gizlində qorxan o kəslərə təsir göstərə bilər. Ayənin sonunda Allah-təala bu iki əlamət və xüsusiyyəti olan insanın barəsində belə buyurur:

فبشره بمغفرة وأجر كريم

-Elə isə ona (Allahın) bağışlama(sı) və çox qiymətli bir mükafatla müjdə ver.

Həzrət Peyğəmbər(s) bəşir və nəzirdir. Yəni həm müjdə verir, həm də qorxudur. Əvvəlcə insanları Allahın əzabı, qiyamət və cəhənnəmlə qorxudur. İman gətirib haqqı qəbul edənlərə isə müjdə verir. Çünki insan iman gətirdikdən sonra iki əsas məsələyə görə narahat olub qorxur. Biri etdiyi günahlara görə, digəri isə aqibətinin necə olacağına görədir. Ölüm hamı üçün gələcək və ondan qorxmayan bir insan yoxdur. Ölümün adı gəldikdə keçmişdəki günahları yadına düşdüyü üçün qorxur. İkincisi

də öz aqibətindən və öldükdən sonra hara gedəcəyinə görə qorxur. Buna görə də Həzrət Peyğəmbər(s) bu iki məsələ ilə bağlı möminlərə müjdə verir. Biri Allahdan bağışlanma, digəri isə qiymətli mükafatdır. Yəni əgər Həzrət Peyğəmbərin(s) qorxutması insana təsir göstərsə və o, iman gətirsə, hər iki narahatçılıq aradan qaldırılar. Belə olduqda Allah-təala daha bəndəsinin keçmişdəki günahlarının üstünü açmayacaq. Əgər həqiqi tövbə etmiş olsa, yəni həqiqətən iman gətirsə, keçmişdəki bütün günahlarının üstündən qələm çəkiləcək. Allah kərim və bağışlayan Allahdır. İnsanın günahı dağlardan, dünyadan və hər şeydən böyük olsa da belə Allahın rəhmət və mərhəməti daha böyükdür. Buna görə də əgər insan həqiqi iman gətirsə, səmimi qəlbdən tövbə etsə, günahı nə qədər böyük də olsa Allah onu bağışlayar.

Günlərin birində Həzrət Əli(ə) böyük bir məclisdə əyləşmişdi. Bir nəfər içəri daxil olub Həzrəti(ə) təhqir etməyə başladı. Həzrət Əli(ə) onun sözlərinə fikir vermədi. Həmin şəxs sözünü bitirdikdən sonra məclisi tərk etdi. İnsan bir gün, yaxud bir saatdan sonra başına nələrin gələcəyini bilmir. Belə oldu ki, səhərisi gün həmin şəxs çox çətin bir vəziyyətə düşdü. Elə bir vəziyyətə düşmüşdü ki, onun bu çətinliyini yalnız Həzrət Əli(ə) həll edə bilərdi. O, Həzrətin(ə) evinin qapısını döydü. Qapını açdılar və o, içəri daxil oldu. Həzrət Əlinin(ə) yanında bir neçə səhabə də əyləşmişdi. O, İmama(ə) çətin vəziyyətə düşdüyünü danışdı və ondan kömək istədi. Həzrət Əli(ə) onun çətinliyini aradan qaldırdı. Elə bu zaman səhabələrdən biri dedi: “Ya Əmirəlmöminin, bu həmin adamdır ki, dünənki məclisdə səni təhqir etmişdi. Amma sən isə onun çətinliyini aradan qaldırdın.” Həzrət Əli(ə) həmin səhabəyə imamətə layiq bir cavab verərək buyurdu: “Ona görə onun çətinliyini həll

etdim ki, onun nadanlığı mənim kəramətimi üstələməsin. Qorxdum ki, onun cahilliyi mənim kəramətimə qələbə çalsın."

Həzrət Əli(ə) Allahın əxlaqını özünə örnək götürmüşdü. Belə bir yüksək əxlaq və mərhəmət Allaha məxsusdur. Allah-təala bütün bəndələrinə qarşı mehribandır. Ona üz tutan elə bir bəndə yoxdur ki, qapısından əliboş qaytarsın. O cumlədən səmimi qəlbdən tövbə edən bəndəsinin də bütün günahlarını bağışlayar. Deməli, insan iman gətirdikdən sonra keçmişdəki bütün günahları pozulur və qarşıda da onu çox böyük mükafat gözləyir.

Ayədəki "Qurana tabe olan, Rəhman (olan Allah)dan gizlində qorxan kəs" cümləsində gözəl bir mətləbə də toxunulmuşdur. Həmin mətləb budur ki, Quranı öyrənib başa düşmək istəyən hər bir kəs ilk növbədə Quranın özü haqda məlumata malik olmalıdır. Quranı başa düşməyin üç mərhələsi vardır.

Birinci mərhələsi odur ki, hamı onu başa düşə bilər. Yəni əlifbasını öyrənib üzündən oxuyar, hətta sözlərin mənasını da öyrənər. Bu, ümumi bir mərhələ olduğu üçün hər bir kəs onu öyrənə bilər.

İkinci mərhələ hamı üçün deyil. Çünki bu mərhələni öyrənmək üçün insanın qəlbində nuraniyyət olmalıdır. Yəni Quranın bu mərhələsini başa düşmək üçün mütləq insana nuraniyyət lazımdır. Kimin qəlbində nuraniyyət varsa, bu mərhələni keçə bilər. Məsələn, harada görünüb ki, kömür qabına qızıl qoysunlar? Qızılın öz qabı var və onu həmin qabın içinə qoyarlar. Quranın maarifləndirici keyfiyyətini başa düşmək üçün insanın qəlbində paklıq və nuraniyyət olmalıdır. Qəlbində paklığı olmayan insana heç bir vaxt Quranın maarifləndirici keyfiyyəti verilməz.

Üçüncü mərhələ isə övliyalara məxsusdur. Övliyaların başında Həzrət Əli(ə) və on bir İmam(ə) dayanır. Onlar üçün

Quranda aydın olan məsələ bizim üçün aydın deyil. Bu mərhələdə biz nə qədər çalışsaq da, Quranı onlar kimi başa düşə bilmərik. Məsələn, Həzrət Əli(ə) buyurur: "Bismillahir-Rəhmanir-Rəhim"in "be" hərfindəki nöqtədə yetmiş məna görürəm."

Beləcə, Quranı başa düşmək üçün iki əsas şərtə riayət etmək lazımdır. Əgər bu iki şərtə əməl olunsa, o zaman Quranın maarifləndirici keyfiyyətindən bir şey anlamaq olar. Həmin şərtlərdən biri günahdan uzaqlaşmaq, digəri isə İlahi əmrlərə (vacib əməllərə) riayət etməkdir. Yəni Rəhman olan Allahdan qorxaraq bütün hallarda və bütün günahlardan çəkinmək və Zikrə (Qurana) tabe olaraq Allahın əmrlərini yerinə yetirməkdir. Belə olduqda Quranı başa düşməyi Allah-təala insana inayət edər.

قَالَ عِلِي(ع): أيها الناس إِذَا عِلمتم فَاعمَلُوا بِما عِلمتم لَعَلَّكُم تهتدونَ

-İmam Əli(ə) buyurur: "Camaat! Elə ki öyrəndiniz, ona əməl edin ki, bəlkə hidayət olundunuz."[1]

Yəni insan öyrəndiyinə əməl etdikcə Allah-təala ona bilmədiklərini də öyrədər. Əgər əməl etməsə, ardı kəsiləcək. Buna da mərifət deyilir. Quranı təkcə üzündən oxumaqla insana mərifət gəlməz. Mərifət o zaman hasil olar ki, insan oxuduqlarına və öyrəndiklərinə əməl etsin.

Gənc bir oğlan İmam Sadiqin(ə) hüzuruna gəlib dedi: "Ey Peyğəmbər(s) övladı, mən istəyirəm ki, gedib dini elmləri öyrənməklə məşğul olum." İmam(ə) buyurdu: "Öz qəlbinə müraciət et. Gör sənin qəlbin haqq-həqiqətin qarşısında nə qədər təslim olmağı bacarır? Əgər görsən ki, sənin qəlbin haqqın qarşısında təslim olub, onda get öyrən."

---

[1] Üsuli-Kafi, 1-ci cild, səh. 56.

(Yəni öyrəndiyinə əməl edə biləcəksənsə, get oxu. Elm öyrənməkdən qabaq ona əməl edib-etməyəcəyin haqda düşün. Əks təqdirdə özünə od qazanarsan.)[1]

Mərhum Ayətullah Miyanəci belə bir hədis danışırdı: “Bir nəfər sirat körpüsündən keçərkən cəhənnəmi gözləri ilə görür. Elə bu zaman cəhənnəmdə dünyada yaşadığı məntəqədən olan bir alimi görür. Ondan soruşur: “Səni nə üçün cəhənnəmə atıblar?” Həmin alim deyir: “Mən sizə moizə edirdim - Quran ayələrini, hədisləri danışırdım. Siz mənim danışdıqlarıma əməl etdiniz və rahatca bu körpüdən keçirsiniz. Amma mən özüm onlara əməl etmədiyimə görə məni cəhənnəmə atdılar.”

Odur ki, insan oxuyub öyrəndiyinə əməl etsə, mərifətin qapıları onun üzünə açılacaq və əməl etdikcə qəlbinə mərifət və nuraniyyət dolacaqdır. Bəzi insanların həyatını öyrəndikcə görürük ki, onların ömürlərində bərəkət vardır. Onlar öyrəndiklərinə əməl etdiklərinə görə Allah-təala belələrinin ömürlərinə də bərəkət vermişdir.

Allah rəhmət eləsin Seyid Abdullah Şübbərə. O, yüzlərlə elmi kitabın müəllifi idi. Cəmi əlli dörd il ömür sürməsinə baxmayaraq, bu qədər kitabı yazmaq ona müyəssər olmuşdur. Onun kitablarını müctəhidlər belə oxuyurdular. Şagirdlərindən biri deyir: “Günlərin birində ondan soruşdum: Sizin bu qədər kitabı yazmağa müyəssər olmağınızın səbəbi nədir? O buyurdu: Gecələrin birində mən yuxuda İmam Hüseyni(ə) gördüm. Həzrət(ə) mənə buyurdu: “Yaz. Nəfəsinin axırına qədər sənin qələminin mürəkkəbi qurumayacaq.” Yuxudan ayıldım və həmin gündən bəri su axdığı kimi qələm də mənim əlimdə eləcə axırdı. Bu minvalla bu qədər kitab yazdım. “Məndən bu müvəffəqiyyət səndə haradandır?” –

---

[1] Yasin surəsinin təfsiri, Seyid Məhəmməd Ziyaabadi, səh. 36.

deyə soruşulduqda deyirəm ki, Ağam inayət edib."[1]

Beləcə, məlum olur ki, bu qədər kitab yazmağa müyəssər olmasının səbəbi İmam Hüseyni(ə) və İmam Museyi Kazimi(ə) yuxuda görməsi ilə yanaşı, onun özünün də təqvalı olmasıydı. Çünki təqvasız insana belə bir müvəffəqiyyət verilməz.

Deyirlər ki, onun atası Seyid Məhəmmədrza Şübbər də böyük alimlərdən biri olmuşdur. Onlar Kazimeyn şəhərində yaşayırdılar. Seyid Abdullah deyir: "Mən gənc yaşlarımda ikən dini təhsillə məşğul olmağa başlamışdım. Günlərin birində atam mənə buyurdu: "Yadında saxla, nə qədər ki, sən dərs oxuyursan, mənim malımdan yeməyə icazən var. Əlini elmdən çəkdiyin zaman sənə çörəyimdən yeməyə icazə vermirəm." Atamın bu sözləri mənə çox təsir etdi. Həmin gündən etibarən dərslərimdə daha da ciddi olmağa başladım. Həm dərs oxuyurdum, həm öyrənirdim, həm də dərs deyirdim. Elə bir gün yox idi ki, elmlə məşğul olmayım."

Alimlərdən biri deyir ki, mən də o zamanlar tələbə idim. Günlərin birində gördüm ki, əlində nəsə tutub satmaq istəyir. Ona yaxınlaşdıqda gördüm ki, əlindəki öz qələmdanıdır. Soruşdum: "Nə üçün bunu satırsan?" Dedi: "Bu gün çox yorğun idim. Həm də bərk xəstələnmişdim. Ona görə də bütün günü nə dərs oxuya bildim, nə də dərs deyə bildim. Atam da mənə yalnız elmlə məşğul olduğuma görə çörəyindən yeməyə icazə verib. Bu gün mən onun çörəyindən yeyə bilmərəm. Odur ki, qələmdanımı satmağa məcburam, onun pulu ilə çörək alıb yeyəcəyəm."[2]

---

[1] Bəşər əxlaqının müqəddiməsi, səh. 16.
[2] Yasin surəsinin təfsiri, Seyid Məhəmməd Ziyaabadi, səh. 38.

Seyid Abdullah Şübbərin bu hərəkəti onda nuraniyyət yaranmasına səbəb oldu və o, elə bir dərəcəyə yetişdi ki, yuxuda İmam Hüseyni(ə) və İmam Museyi Kazimi(ə) ziyarət etmək ona nəsib oldu.

Deməli, hər kim öyrəndiyinə öyrəndiyi qədər əməl etsə, nəticədə onda nuraniyyət yaranar, yüksələr və bərəkətin qapısı onun üzünə açılar.

Beləcə, bildik ki, Quran və Həzrət Peyğəmbərin(s) qorxutması o insanlara şamil olar ki, onlar Qurana tabe olsunlar və Allahdan xəlvətdə də qorxsunlar. Hər kimdə bu iki şərt olsa, Allah-təala Həzrət Peyğəmbərin(s) vasitəsilə həmin insana günahlarının bağışlanılmasını çox qiymətli bir mükafatla müjdə verər. Bu ayənin axırında «أَجرٍ كَرِيمٍ» "qiymətli bir mükafat" kəlməsi barəsində də gözəl bir mətləb yazmışlar.

Sual oluna bilər ki, «أَجرٍ كَرِيمٍ» "Əcrin kərim" sözünün mənası nədir? Nə üçün "əcr" - mükafat sözündən sonra "kərim" kəlməsi işlənmişdir? Mərhum Ayətullah şəhid Dəstiğeyb bu barədə İmam Baqirdən(ə) belə bir hədis nəql edir: "İmam(ə) and içərək buyurur: «أَجرٍ كَرِيمٍ» "Əcrin kərim" insan ölüm ayağında olarkən Həzrət Əlinin(ə) mübarək əlindən Kövsər suyunu alıb içməsi mənasındadır."[1]

Yəni hər kimdə bu iki şərt olsa (Qurana tabe olsa və Allahdan xəlvətdə də qorxsa), ölən zaman kövsər suyundan içməmiş dünyadan getməz.

---

[1] Quranın qəlbi, Ayətullah Dəstiğeyb, səh. 49.

## 12-ci AYƏSİNİN TƏFSİRİ

**إِنَّا نَحْنُ نُحْيِي الْمَوْتَىٰ وَنَكْتُبُ مَا قَدَّمُوا وَآثَارَهُمْ ۚ وَكُلَّ شَيْءٍ أَحْصَيْنَاهُ فِي إِمَامٍ مُبِينٍ.١٢**

**12. Biz ölüləri dirildərik və onların bundan öncə gördükləri iş və izlərini yazarıq və hər şeyi aydın bir kitabda yazdıq (yazmışıq).**

Əvvəlki ayələrdə qeyd etdiyimiz kimi, qorxutmaq və mükafatla müjdələmək məsələlərindən bəhs edilirdi. Dedik ki, Həzrət Peyğəmbər(s) iman gətirməyənləri Allahın əzabı ilə qorxudurdu. Bir dəstə insan isə inadkarlıq edərək Həzrət Peyğəmbərin(s) heç bir sözünə əhəmiyyət vermirdi. Onlar təkəbbür, paxıllıq, şəhvət və s. kimi mənfi keyfiyyətlərlə özlərini elə bir hala salmışdılar ki, heç bir öyüd-nəsihət onlara təsir etmirdi. Ona görə də Allah-təala Həzrət Peyğəmbərə(s) buyurur:

وَسَوَاءٌ عَلَيْهِمْ أَأَنْذَرْتَهُمْ أَمْ لَمْ تُنْذِرْهُمْ لَا يُؤْمِنُونَ

-Sən onları qorxutsan da, qorxutmasan da, onlar üçün birdir; iman gətirməzlər!

Lakin hər kim Həzrət Peyğəmbərin(s) sözlərini qəbul edib iman gətiribsə, Allah tərəfindən ona bağışlanma və böyük mükafat müjdəsi verilir. Sonrakı ayədə isə ölüm və məad barədə söz açılaraq belə buyurulur: “Biz ölüləri dirildərik.” Yəni Allah bütün ölənlərin hamısını, hətta çürümüş sümük də olsalar belə onları diriltməyə qadirdir. Elə düşünmək lazım deyil ki, insan bu dünyaya gəlib istədiyini edə bilər və öldükdən sonra da torpağa qarışıb yox olacaqdır. Bu ənənəvi xarakter kəsb etmir. Kimisi bu dünyada ikən Həzrət Peyğəmbərin(s) sözlərinə qulaq asıb

iman gətirmiş, kimisi də inadkarlıq edərək Həzrətə itaət etməmişdir. İtaət edən də, etməyən də dünyadan gedəcək və bir gün Allah-təala onların hamısını dirildəcəkdir. Heç bir kəs elə düşünməsin ki, Allah bu işi görməyəcəkdir. Allah-təala “Qiyamət” surəsinin 4-cü ayəsində belə buyurur:

بلَى قَادِرِين علَى أن نسوي بنانه

-Bəli (bir yerə yığacağıq), hələ bir (üstəlik) onun barmaqlarının ucunu da ilk vaxtlar olduğu kimi sirli xətlərlə düzəltməyə qadirik.

Alman alimlərindən bir deyir: “Günlərin birində müsəlmanların kitabı əlimə düşdü. Soruşdum: Bu kitabın adı nədir?

Dedilər: Qurandır, müsəlmanların səmavi kitabıdır.

Mən o kitabı açıb ayələri ilə maraqlandım. Dedim ki, mənim üçün bir neçə ayəni tərcümə edin. “Qiyamət” surəsinin 4-cü ayəsini mənim üçün oxuyub tərcümə etdilər. Mən bu ayəni eşidib Allaha iman gətirdim. Soruşdular: Sən Quranın çox ayələri ilə maraqlandın, bəs nə üçün məhz bu ayə sənə təsir göstərdi? Dedim: Çünki mən aliməm və bilirəm ki, yer kürəsində barmaqlarının izləri uyğun olan iki insanı tapmaq mümkün deyil. Dünyada neçə milyard insan yaşayırsa, heç birinin barmaq izləri bir-birinə bənzəmir. İnsan yaranan gündən bu günə qədər onların barmaq izləri bir-birindən fərqli olmuşdur. Min dörd yüz il bundan əvvəl Həzrət Peyğəmbər(s) bu sözü camaata çatdırırdısa, deməli, bu söz onun yox, Allahın sözüdür. Ona görə də mən insanı yaradanın böyük qüdrət sahibi olduğunu dərk edib iman gətirdim.”

“Yasin” surəsinin 12-ci ayəsi üç cümlədən ibarətdir. Birinci cümlə qeyd olunduğu kimi, “Biz ölüləri dirildərik” cümləsidir. Yəni Allah qiyamət günü bütün insanların hamısını

dirildəcək. İkinci cümlə belədir: “Onların (insanların) bundan öncə gördükləri iş və izlərini yazarıq.” Yəni insanlar özlərindən qabaq göndərdiyi bütün əməlləri və izlərinin hamısını yazırlar.

Ayədə işlənmiş «ما قدّموا» və «آثارهم» sözlərinin mənası belədir. «ما قدّموا» yəni, insanın dünyada sağ ikən gördüyü və özündən qabaq o biri dünyaya göndərdiyi bütün işlərdir. «آثار» “asar” kəlməsi isə “əsər” sözünün cəm formasıdır. Yəni insanlardan qalan bütün izlərin hamısı da yazılıb qeydə alınır. Hər iki sözün bir-biri ilə fərqi vardır. «ما قدّموا» o əməllərdir ki, onlardan iz və əsər qalmır. Amma «آثارهم» sözünün mənası budur ki, insan öldükdən sonra onun dünyada gördüyü işlərin izi və əsəri qalır. Məsələn, bir nəfər dünyada yaşayarkən namaz qılıb və oruc tutub. Amma öldükdən sonra onun namaz və orucundan heç bir əsər-əlamət qalmayıb. Yəni bu əməlləri özü ilə aparıb. Amma bəzi əməllər də vardır ki, insan öldükdən sonra da həmin əməllərin təsiri görünür. Məsələn, bir nəfər Allahın razılığı xatirinə və müsəlmanlara xidmət göstərilməsi məqsədilə xəstəxana tikdirir. Həmin şəxs dünyasını dəyişdikdən sonra da xəstəxana işlədikcə və orada insanlara xidmət göstərildikcə o şəxsə savab yazılır. Yaxud bir nəfər Allaha xatir möminlərin ibadət etməsi üçün məscid tikdirir. Öldükdən sonra həmin məscid fəaliyyət göstərdikcə ona savab yazılır.

Burada bir məsələyə də diqqət yetirək ki, əgər bir insan Allaha xatir deyil, öz adının çəkilməsi və onun təriflənməsindən ötrü hər hansı bir xeyirxah işi görərsə, ona savab yazılmaz. Çünki hər kəsin əməli onun niyyətindən asılıdır. Bir insan Allaha xatir iş görürsə, Allah da ona savab yazır.

Yox, əgər bir insan adının hər yerdə çəkilməsi və camaat arasında təriflənməsi üçün iş görürsə, o da öz niyyətinə çatmış olur. Belə ki, camaat onun adını çəkir və tərifləyir. Burada Allaha xatir bir iş olmadığı üçün daha onun bu xeyirxah işinə savab yazılmaz. Odur ki, bir insan sırf Allaha xatir bir xeyirxah işin təməlini qoyub gedərsə, insanlar həmin işdən bəhrələndikcə ona savab yazılar. Həmçinin bir məscidin tikilməsi və yaxud xeyirxah bir işin görülməsi üçün hər kim nə qədər köməklik və yardım göstərirsə, ona da bir o qədər savab payı yazılır. Deməli, bəzi əməlləri insan özü ilə aparır və izi qalmır, bəzi əməllər də var ki, o əməllərin təsiri qaldıqca onun kitabına yazılır.

Digər fərqi də budur ki, «ما قدّموا» insanın namaz, oruc, günahlardan çəkinmək kimi fərdi əməlləridir. Amma «آثارهم» sözünün ictimai tərəfi vardır. Məsələn, bir insan yaxşı və pis bir adətin təməlini qoyub gedirsə, camaat arasında həmin adətə əməl olunduqca onun adına savab, yaxud günah yazılır.

Ayənin sonuncu cümləsi isə belədir: "Və hər şeyi aydın bir kitabda yazdıq (yazmışıq)." Yəni insanların bütün əməlləri "Lövhi-məhfuz"da yazılıb qeydə alınır. "Lövhi-məhfuz" həmin kitabdır ki, bütün kitabların hamısından (insanların çiynində əyləşib əməlləri yazan mələklərin kitablarından) üstündür. Bu, elə bir kitabdır ki, bütün əməllər, hətta hadisələrin hamısı orada yazılıb saxlanılır. Bu kitabın adına "İmam" deyilir. Sual oluna bilər ki, bəs nə üçün bu kitab "İmam" adlandırılıb? Cavab budur ki, üç əsas və mühüm kitab vardır ki, onların başında "Lövhi-məhfuz" durduğu üçün ona "İmam" deyilir. Yəni qiyamət günü yaxşı və pis əməlləri qeydə alan bütün məmurların

yazdıqları bu kitabla ölçülüb müqayisə ediləcək və meyar da həmin kitab olacaqdır.

Burada hamını maraqlandıran bir məsələyə də işarə etmək yerinə düşərdi. Həmin mətləb budur ki, Allah-təala Quranda bəzi yerdə "Ənə" ("Mən"), bəzi yerdə isə "İnna" ("Biz") kəlməsini istifadə edir. Bəs görəsən, bunların bir-biri ilə fərqi nədir? Cavab belədir ki, hansı yerdə "Mən" deyirsə, bu yalnız ibadət və tövhidə aiddir. İnsanlar tövhid məsələsində şübhəyə düşməsin deyə "Ənə" ("Mən") sözü işlənir. Yəni Allah-təala buyurur ki, yalnız Mənə ibadət edin. İbadət məsələsində heç bir vaxt "Bizə" ibadət edin kəlməsi işlənməmişdir. Buna görə də ibadət məsələsində hər kim Allahın adının yanında başqasının adını çəksə, Ona şərik qoşmuşdur. Məsələn, "Taha" surəsinin 14-cü ayəsində belə buyurulur:

إِنَّنِي أَنَا اللَّهُ لَا إِلَٰهَ إِلَّا أَنَا فَاعْبُدْنِي

-Şübhəsiz, bu Mənəm – tək Allah ki, Məndən başqa bir məbud yoxdur. Buna görə də Mənə ibadət et.

"Yasin" surəsinin 61-ci ayəsində belə buyurulur:

وَأَنْ اعْبُدُونِي هَٰذَا صِرَاطٌ مُسْتَقِيمٌ

-Və: "Yalnız Mənə ibadət edin ki, bu, düz yoldur!"

Göstərilən ayələrə diqqət yetirdikdə görürük ki, ibadət məsələsi olduğu üçün Allah "Mən" deyir. Yəni ibadət yalnız və yalnız Onun üçün olmalıdır. "Bəqərə" surəsinin 186-cı ayəsində Allah-təala 7 dəfə "Mən" sözünü bəyan etmişdir. Çünki bu ayədə yalnız ibadət məsələsi bəyan olunmuşdur.

وَإِذَا سَأَلَكَ عِبَادِي عَنِّي فَإِنِّي قَرِيبٌ أُجِيبُ دَعْوَةَ الدَّاعِ إِذَا دَعَانِ فَلْيَسْتَجِيبُوا لِي وَلْيُؤْمِنُوا بِي...

-(Ey Rəsulum) Mənim bəndələrim səndən Mənim barəmdə soruşanda (de ki,) Mən həqiqətən, (hamıya) yaxınam, Məni çağıran zaman dua edənin duasını Mən qəbul edirəm. Odur ki, Mənim dəvətimi qəbul etsinlər və Mənə iman gətirsinlər.

Bu ayədə də açıq-aydın şəkildə görürük ki, söhbət tövhid və ibadətdən getdiyi üçün Allah-təala hər dəfə "Mən" sözünü bəyan edir.

Amma Allah-təala Öz qüdrətinin göstərdiyi ayələrdə "biz" deyir. Yəni Allahın qüdrət söhbəti açılan yerlərdə əzəmət əlaməti olaraq "biz" deyərək sözü bəyan edir. Quranda belə ayələrə tez-tez rast gəlmək olur. Məsələn, "Hicr" surəsinin 9-cu ayəsində 5 dəfə "biz" deyərək belə buyurur:

إِنا نحن نزلْنا الذكْر وإِنا له لَحافِظُونَ

-Həqiqətən, bu zikri (Quranı) Biz Özümüz nazil etdik və şübhəsiz, onu (təhrifdən, ləğv olunmadan və müddətinin sona çatmasından) Biz Özümüz qoruyarıq.

Odur ki, Quran Allahın qüdrətindən söhbət açılan ayələrdə "Biz" deyə bəyan edir. Belə bir mədəniyyət biz insanların arasında da mövcuddur. Məsələn, bir nəfər məscidi göstərərək başqa birisindən soruşur: "Bura haradır?" Həmin şəxs cavab verərək deyir ki, "bizim məsciddir". Yaxud evi, idarəni və s. kimi yerləri soruşduqda deyirlər ki, "bizim evimiz", yaxud "bizim idarəmiz"dir. Məsələ burada ictimailəşdiyindən "bizim" kəlməsindən istifadə edilməsinin heç bir eybi yoxdur. Amma fərdi məsələlərdə "bizim" demək düzgün deyil. Məsələn, biri digərindən soruşur: "O xanım kimdir?" Qarşıdakı şəxs də deyir: "Mənim həyat yoldaşımdır." Burada təbiidir ki, "bizim" deyə bilməz. Belə şeylərlə də zarafat etmək olmaz. Odur ki, Quran ayələrində də hansı

yerdə tövhid və ibadət məsələləri varsa, Allah “Mən” deyir. İbadət söhbətində “biz” kəlməsi yoxdur. Çünki ibadət yalnız və yalnız Allaha məxsusdur. Hər kim ibadət məsələsində Onun adının yanında başqasının adını çəksə, bu dinsizlikdir. Lakin hansı yerlərdə qüdrətini göstərmək istəyirsə, orada “Biz” deyə bəyan edir. Yəni nə qədər “biz” kəlməsi işlənirsə, bir o qədər də qüdrətə dəlalət edir.

### Hər bir şeyin kitabda yazılması

“Yasin” surəsinin 12-ci ayəsi o ayələrdəndir ki, onda insanların əməllərinin yazılıb saxlanılması haqda söz açılır. Quranda bu məsələ ilə bağlı bir neçə ayədə təkidlə söz açılmışdır. Həmin ayələrdən biri “Casiyə” surəsinin 29-cu ayəsidir.[1]

هذَا كِتابنا ينطِق علَيكُم بِالْحق إِنا كُنا نستنسِخ ما كُنتم تعملُونَ

-Bu, Bizim sizə qarşı haqq və doğru danışan kitabımızdır. Çünki Biz sizin etdiklərinizin üzünü köçürürdük.

Bu ayə açıq-aydın şəkildə bəyan edir ki, insanın bütün əməlləri kitabda yazılıb saxlanılır. İnsanın gördüyü hər bir xırda və böyük əməllər lent kimi yazılıb saxlanılır. Qiyamət günündə də həmin əməlləri insana göstərəcəklər.

“Qaf” surəsinin 17-18-ci ayələrində oxuyuruq:

إِذْ يتلَقى الْمتلَقيان عنِ الْيمِينِ وعنِ الشمال قَعِيد. ما يلْفِظُ مِن قَولٍ

إِلا لَديهِ رقِيب عتِيد

[1] Casiyə diz üstə zəlil halda əyləşməyə deyilir. Yəni qiyamət günü hamı Allahın məhzərində dizi üstə zəlil halda oturacaqdır. Çünki heç kəsin Allahdan başqa ümid yeri yoxdur. Şübhəsiz, Peyğəmbər(s), Əhli-beyt(ə), təqvalı alimlər və şəhidlər şəfaət edəcəklər. Amma bütün şəfaət edənlərin hamısı Allahın izni ilə şəfaət edəcəklər. Yəni Allah onlara şəfaət etmək icazəsi verəcək.

-(Yada sal) o zaman(ı) ki, (insanın düşüncə və əməllərini) qəbul edən o ikisi (o iki mələk) onun sağında və solunda oturub qəbul edirlər. Dilinə elə bir söz gətirməz ki, (bu zaman) yanında (deyilənləri yazmağa) hazır (müraqib) olan nəzarətçi mələk dayanmasın.

"İnfitar" surəsinin 10-12-ci ayələrində belə buyurulur:

وإن عليكم لحافظين. كراما كاتبين. يعلمون ما تفعلونَ

-Və əlbəttə, sizin üstünüzdə gözətçilər vardır. Şərəfli (möhtərəm) yazanlar (mələklər vardır). Onlar sizin nə etdiklərinizi (zahir və batini, ixlası və riyanı, kamal və nöqsan dərəcələrini) bilirlər.

Həmin ayələrdən biri də "Yunis" surəsinin 21-ci ayəsidir. Allah-təala belə buyurur:

إن رسلنا يكتبونَ ما تمكرونَ

-Həqiqətən, Bizim elçilərimiz etdiyiniz məkrləri (işlətdiyiniz kələk və hoqqaları) yazırlar.

İnsan elə düşünməməlidir ki, xəlvətdə etdiyi işlərdən, çıxardığı oyunlardan, hiylə və hoqqabazlıqlardan heç bir kəsin xəbəri yoxdur. Bilmək lazımdır ki, hər bir kəsin yaxşı və ya pis əməllərinin hamısı yazılıb saxlanılır. Qeyd olunan ayələrin izahı barədə Həzrət Əli(ə) belə buyurur:

فاتقوا الله الذي أنتم بعينه، ونواصيكم بيده، وتقلبكم في قبضته، إن أسررتم علمه، وإن أعلنتم كتبه، قد وكل بذلك حفظةً كراماً، لا يسقطونَ حقاً، ولا يثبتونَ باطلاً

-Buna görə də nəzərləri altında olduğunuz və alın tükləriniz, yatıb-durmaq və oturub-qalxmağınız əlində olan *(sizin barənizdə istədiyi şeyi dərhal gerçəkləşdirməyə qadir olan)* Allahdan qorxun. Əgər *(öz sirrinizi)* gizlətsəniz və

heç kəsə deməsəniz, bilər *(və yaxşıya savab, pisə cəza verər).* Əgər *(onu)* aşkar etsəniz, yazar. *(Yəni)* sizə möhtərəm gözətçilər *(mələklər)* təyin edib ki, *(onlar sizin söz və əməllərinizi yazırlar və)* heç bir haqqı qələmdən salmaz və nahaq və edilməmişi yazmazlar. *(Onlar elə diqqətlidirlər ki, yaxşı əməl hətta kiçik olsa belə, insan tərəfindən yerinə yetirilən kimi yazılar və qələmlərindən düşməz.)*[1]

Həzrət Əli(ə) digər bir hədisdə insanın üzərində gözətçi mələklər haqda belə buyurur:

صاحِب اليمين يكتب الحَسناتِ، و صاحِب الشمال يكتب السيئاتِ، و ملَكا النهارِ يكتبانِ عملَ العبدِ بالنهارِ، و ملَكا الليل يكتبانِ عملَ العبدِ في الليل

-Sağ tərəfdəki mələk insanın yaxşı əməllərini, sol tərəfdəki mələk isə onun günahlarını yazır. İki mələk bəndənin gündüz etdiyi əməllərini, iki mələk isə gecə etdiyi əməllərini yazırlar.[2]

Bu hədisdən görürük ki, insanın yaxşı əməllərini yazan mələk başqa, pis əməllərini yazan mələk də başqadır. Həmçinin gündüz görülən əməlləri yazan mələklər başqa, gecənin əməllərini yazan mələklər başqadır. Onların növbəsi sübh namazı vaxtı dəyişilir. Onlar insanın bütün əməllərini yazırlar. Əlbəttə, onların qələmindən heç bir şey yayınmaz. Əgər kiminsə fikrinə gəlsə ki, birdən bu mələklərin birinin qələmindən hansısa əməl yayına bilər, o zaman Həzrət Əli(ə) "Kumeyl" duasında Allahla minacat edərək bu haqda belə deyir:

---

[1] Mizanül-hikmə, 9-cu cild, hədis - 14397.
[2] Yenə orada, hədis - 14398.

وكُل سيئَةٍ أمرت بِإثْبِاتِها الْكِرام الْكَاتِبين الذين وكلْتهم بِحِفْظِ ما يكُونُ مِنى وجعلْتهم شهوداً علَي مع جوارِحي، وكُنت أنت الرقيب علَي مِن ورائِهم، والشاهِد لِما خفِي عنهم.

-Mənə müvəkkil etdiyin möhtərəm mələklərin məndən yazdığı bütün günahları bağışlayasan, o günahları ki, mənim bütün əzalarımı onlar üçün şahid qərar vermisən. Sən də onların arxasında gözətçi olmusan, onlardan gizli olanlara şahid olmusan, amma öz rəhmətinlə onları gizlətmisən, öz fəzlinlə örtmüsən.

Yəni əgər insan mələklərin qələmindən hansısa əməlin yayındığını düşünsə, onu da bilsin ki, şəxsən Allah-təala Özü də insana və həmin mələklərə nəzarət edir.

Bir gün Həzrət Peyğəmbər(s) öz səhabələri ilə quraqlıq və şoran bir səhrada idi. Allahın Rəsulu(s) səhabələrə buyurdu: “Gedin, odun yığıb gətirin.” Səhabələr dedilər ki, ey Allahın Rəsulu(s), bura susuz, quraqlıq bir səhradır. Biz burada haradan odun tapa bilərik. Həzrət Peyğəmbər(s) yenə də buyurdu ki, gedin, axtarın və bacardığınız qədər yığıb gətirin. Səhabələr gedib hərəsi bir qədər odun və çör-çöp yığaraq gətirib Həzrət Peyğəmbərin(s) qarşısında bir yerə yığdılar. Odunlar yandıqca böyük bir alov əmələ gəldi. Həzrət Peyğəmbər(s) üzünü səhabələrə tutub buyurdu: “Günahlar da bu cür yavaş-yavaş yığılıb insanın əməl kitabında qeydə alınır. (Lakin siz onlara ayrı-ayrılıqda etinasızlıq edirsiniz.)” Daha sonra isə belə buyurdu:

إِياكُم و الْمحقراتِ مِن الذنوبِ فَإِن لِكُلِ شيءٍ طَالِباً أَلا وإِن طَالِبها يكْتب ما قَدموا و آثارهم و كُل شيءٍ أَحصيناه فِي إِمامٍ مبِين

-Kiçik günahlardan da çəkinin! Çünki onların hamısı və eləcə də bundan öncə gördüyünüz işlər qeydə alınaraq kitabda yazılır.[1]

Həzrət Peyğəmbər(s) həmin ayəni bu hədisin içərisində bəyan edərək səhabələrə başa salır ki, hətta kiçik günahlar da olsa belə onlar və izləri "Lövhi- məhfuz"da yazılır.

Bəni-Səlmə qəbiləsi Mədinədən azacıq uzaq bir məntəqədə yaşayırdı. Onlar hər gün Mədinəyə gəlib Həzrət Peyğəmbərin(s) məscidində camaat namazında iştirak edirdilər. Bir gün qərara aldılar ki, Mədinəyə köçüb Məscidin yaxınlığında yaşasınlar. Belə bir halda Allah-təala "Yasin" surəsinin 12-ci ayəsini nazil etdi:

إِنا نحن نحيي الْموتىٰ ونكْتب ما قَدموا وآثَارهم...

-Biz ölüləri dirildərik və onların bundan öncə gördükləri iş və izlərini yazarıq.

Bu ayə nazil olduqdan sonra Həzrət Peyğəmbər(s) həmin qəbilənin camaatına buyurdu: "Sizin (işlərinizin) izləri yazılır." (Yəni sizin məscidə sarı atdığınız addımların savabı Allahın məhzərində yazılır.) Onlar Həzrət Peyğəmbərdən(s) bu sözü eşidən kimi Mədinəyə köçmək fikrindən daşındılar. Fikirləşdilər ki, əgər Mədinəyə köçsək, məscidlə aramızda fasilə çox az olacaqdır. Uzaqda yaşadıqda isə Məscidə sarı atdığımız hər bir addıma görə bizə savab yazılacaq. Buna görə də daha çox savab qazanmaq üçün öz yurdlarında qaldılar.

Bir çox hallarda insan kiçik işlər görür, amma o işlərin savabının nə qədər olduğuna diqqət yetirmir. Hər kiçik pis və ya yaxşı əməl insanın əməl dəftərində yazılır. Hər xırda bir əməl insanın taleyinə, hacətlərinin qəbul

---

[1] Təfsiri-nümunə, 18-ci cild, səh. 334.

olunmasına və ya müvəffəqiyyətinin əlindən getməsinə öz təsirini göstərir. Amma bəzən insan həmin gördüyü çox kiçik bir işə diqqət yetirmir. Sadəcə olaraq bir insanın üzünə gülümsəmək, bir uşağı sevindirmək, xəstəyə baş çəkmək kimi sadə əməllər insanın neçə-neçə istəklərinin qəbul olunmasına səbəb ola bilər.

İmam Sadiqin(ə) zamanında yaşayan bir insanın çox böyük bir hacəti var idi. O, bu probleminin həlli üçün həmin dövrdə yaşayan böyük övliyaların yanına gedərək neçə-neçə zikr və əməl öyrəndi. Bir neçə müddət həmin zikr və əməllərə riayət etdikdən sonra günlərin birində Allah onun hacətini inayət etdi və problemini aradan qaldırdı. Amma həmin şəxs bilmək istəyirdi ki, hacətinin Allah dərgahında qəbul olunmasına bu zikr və əməllərdən hansı biri səbəb olmuşdur. Buna görə də İmam Sadiqin(ə) hüzuruna gəlib məsələni olduğu kimi Həzrətə(ə) danışaraq soruşdu: "Ey Allahın höccəti, düzdür, Allah mənim hacətimi yerinə yetirdi. Amma bilmək istərdim ki, riayət etdiyim bu zikr və əməllərin hansı biri mənim hacətimin həyata keçirilməsinə səbəb olub."

İmam(ə) buyurdu: "Onların heç biri."

Həmin şəxs soruşdu: "Bəs necə oldu ki, Allah mənim ən böyük istəyimi həyata keçirdi."

İmam(ə) buyurdu: "Yadındadırmı, sənin tanıdığın ailələrdən birində ərlə arvadın sözləri düz gəlmirdi? İş o yerə gəlib çatmışdı ki, artıq onlar boşanmağı qərara almışdılar. Onların 4-5 yaşında bir qızları var idi. Sən onlara yaxın olduğun üçün aralarında vasitəçilik etdin və nəsihət edərək onları barışdırdın. Ailəni dağılmağa qoymadın. Bütün bunlar yadındadırmı?"

Dedim: "Bəli, yadımdadır."

İmam(ə) buyurdu: “Sən onları barışdırdıqdan sonra onların uşağının sənə baxıb sevincindən gülümsəməyi yadındadırmı?”

Dedim: “Bəli, yadımdadır.”

İmam(ə) buyurdu: “Allah-təala o uşağın gülümsəməyinə görə sənin həmin böyük hacətini həll etdi.”

Odur ki, insan hansı əməlin qarşılığında ona nə verilib, nə alınacağından xəbərsizdir. Pis və yaxşı əməllərin hamısının özünəməxsus təsiri vardır. Yaxşı əməl insanda yaxşı, pis əməl isə pis təsir göstərir. Məsələn, insanın bir yerdə yeməyi qadağan olan şeylərdən yeməsi, lazım olmayan yerdə danışması, kiminsə haqqını tapdalaması ilə onun əlindən nələrin alınmasından xəbərsizdir. Bircə uşağın ürəyini şad edib gülümsəməsinə səbəb olan əmələ görə insana nələr verilirsə, eləcə də kiçik bir günaha görə onun əlindən nələrin alınmasından insanın xəbəri yoxdur. Bircə baxış, bircə söz atmaq, bir kəlmə yazmaq və s. əməllər insanın taleyini dəyişə bilər.

### Əməllərin yazılması

Bəhsimizə əlavə olaraq bir mətləbi də diqqətinizə çatdırmaq istərdim. Həmin mətləb də budur ki, mələklər insanın əməllərinin yazılmasına xüsusi diqqət yetirirlər. Bəzilərinin fikrinə görə, həmin mələklər insanın vacib, haram, məkruh və müstəhəb əməllərini yazırlar, amma şəriətlə yol verilən əməlləri qeydə almırlar. Ancaq dini alimlərin əksəriyyəti bu fikirlə razılaşmayaraq deyirlər ki, həmin mələklər insanın bütün sözlərini, əməl və hərəkətlərini, hətta ağrıdan bircə “ah” çəkməsini belə yazırlar.

Lakin hədis və rəvayətlərə əsasən, həmin mələklər bir sıra hallarda möminə ehtiram əlaməti olaraq bəzi söhbətləri yazmırlar. Məsələn, iki məhrəm və sirlərini bir-

birinə danışan etibarlı mömin xəlvət yerdə söhbət edərkən bu mələklər bir-birinə deyər ki, onların məxfi söhbətləri vardır. Yaxşı olar ki, biz bir kənara çəkilək.

Bu, Allahın həmin möminlərə olan ehtiramıdır. Əlbəttə, bu mələklər bilirlər ki, hansı möminə etibar edib kənara çəkilmək olar. Yəni bu məsələ hər bir möminə deyil, mələklərin qeyd etmələrinə səbəb olacaq hərəkəti etməyən etibarlı möminlərə aiddir.

Rəvayətçi deyir ki, günlərin birində İmam Sadiqin(ə) hüzurunda idim. Həzrət(ə) mənə buyurdu:

إن الْمُؤمنين إذَا قَعدا يتحدثَان قَالَ الْحفَظَةُ بعضها لبعض اعتزِلُوا بنا فَلَعل لَهما سِراً و قَد ستر الله علَيهما فَقُلْت: أ لَيس الله عز و جل يقُولُ ما يلْفِظُ مِن قَولٍ إلاّلَديهِ رقِيب عتِيد

فَقَالَ: إنْ كَانتِ الْحفَظَةُ لَا تسمع فَإن عالِم السر يسمع و يرى

-İki mömin görüşüb bir yerdə əyləşərək məxfi söhbət edərkən yazan mələklər bir-birinə belə deyərlər: “Onlardan kənara çəkilək. Bəlkə onların danışıqlarında elə bir sirli söz ola bilər ki, Allah həmin sirri hamıdan gizli saxlasın.”

Dedim: Məgər Allah-təala Quranda (“Qaf” surəsinin 18-ci ayəsində) belə buyurmayıb ki, “Dilinə elə bir söz gətirməz ki, (bu zaman) yanında (deyilənləri yazmağa) hazır (müraqib) olan nəzarətçi mələk dayanmasın.”

İmam(ə) buyurdu: “Əgər qoruqçu mələklər (kənara çəkilib onların sirrini) eşitməsələr belə, sirlərdən agah olan Allah onları eşidir və görür.”[1]

Yəni möminin Allah yanında ehtiramı o qədər böyükdür ki, bəzən ikisi bir yerdə əyləşib məxfi söhbət edərkən

---

[1] Təfsiri-nümunə, 12-ci cild, səh. 250.

əməlləri qeydə alan mələklər bir kənara çəkilərlər. Onların sirrini Allah Özü saxlayır və mələklərin bu sirdən xəbəri olmur. Əlbəttə, bir daha qeyd etmək lazımdır ki, bu məsələnin hansı möminlərə aid olduğunu Allah və mələklər çox yaxşı bilirlər. Yəni bu məsələ hər bir möminə aid deyil. Əgər İmam Hüseyn(ə) və İmam Həsən(ə) bir-biri ilə məxfi söhbət edirdilərsə, əlbəttə ki, həmin mələklər bir kənara çəkilərdilər. Bəzi hədislərdə belə nəql olunmuşdur ki, Həzrət Əli(ə) ayaqyoluna gedərkən həmin mələklərdən onunla birgə içəri daxil olmamağı xahiş edərdi.

Bir nəfər deyir: "Günlərin birində Həzrət Əli(ə) ayaqyoluna gedərkən qapıda dayanıb müəyyən sözləri dedikdən sonra içəri keçdi. Oradan çıxdıqdan sonra mən Həzrətdən(ə) soruşdum: "Ya Əmirəlmöminin, siz ora daxil olmazdan öncə kiminlə söhbət edirdiniz? Axı, sizin yanınızda heç bir kəsi görmədim." Həzrət(ə) buyurdu: "Mənim yanımda həmişə nəzarətdə olan iki mələk var. Mən onlara dedim ki, sizdən həya etdiyimə görə xahiş edirəm, mənimlə birgə içəri daxil olmayasınız. Sizə söz verirəm ki, orada sizin kağız-qələminizə ehtiyac olan bir iş görməyəcəyəm. Onlar mənimlə razılaşıb, bayırda gözlədilər. Onlarla belə bir şərt kəsib içəri daxil oldum. Oradan çıxdıqdan sonra yenə də mənə qoşuldular."

Hədislərdə belə nəql olunur ki, bu mələklər bəzi hallarda Allahın əmri ilə hər hansı bir insan üçün artıq əməllər yazırlar. Hədis belədir:

-Həzrət Peyğəmbər(s) buyurmuşdur: "Hər kəs mömin olsa, xəstələnərkən Allah-təala mələklərə əmr edər ki, sağlam vaxtında gördüyü yaxşı əməlləri (xəstə halında edə bilməsə də) onun üçün əməl dəftərinə yazın."

Məsələn, bir mömin namazlarını həmişə camaatla qılardı. Amma xəstəlik ucbatından o, yatağa düşür və camaat

namazlarında iştirak edə bilmir. Mələklər Allahın əmri ilə onun üçün sağalana qədər hər bir namazını camaat namazı kimi yazarlar.

Sonra Həzrət Peyğəmbər(s) belə buyurdu: "Kim (mömin) xəstə, yaxud (halal) səfərdə olsa, sağlam vaxtı və ya səfərdə olmadığı zaman gördüyü yaxşı əməlləri Allah-təala onun barəsində yazar."[1]

Hədislərə əsasən insanın üzərində nəzarətçi olan və onların əməllərini qeydə alan mələklərin biri digərinin rəhbəridir. Yəni sağ tərəfdəki mələk soldakı mələyin böyüyüdür. Odur ki, sol tərəfdəki mələk onun göstərişi ilə yazır.

"Təfsiri-nümunə"də "Məcməül-bəyan" kitabından belə bir hədis nəql olunmuşdur: "Sağda əyləşən mələk insanın yaxşı, solda əyləşən mələk isə pis və günah əməllərini yazır. Sağdakı mələk soldakının başçısıdır. İnsan yaxşı bir əməl etdikdə sağdakı mələk həmin şəxs üçün o yaxşı əməlin on bərabərində yaxşılıq yazır. Amma insan pis əməl etdikdə soldakı mələk yazmaq istəyərkən sağdakı mələk ona deyər: "Tələsmə. Beləcə, soldakı mələk də yeddi saat gözləyər. Əgər insan etdiyi pis əmələ görə peşman olub tövbə etsə, daha həmin günahı onun üçün yazmaz. Yox, əgər insan yeddi saat ərzində etdiyi əmələ görə tövbə etməsə, soldakı mələk (onun etdiyi həmin) bir günahı yazar."[2]

Sual oluna bilər ki, bu mələklərin işi nə vaxt sona çatır? Bu sualın cavabı da hədislərdə nəql olunmuşdur. İnsan öldükdən sonra onların işi tamam olur. Amma hədislərdə nəql olunur ki, mömin bir insan dünyasını

---

[1] Təfsiri-nümunə, 22-ci cild, səh. 248.

[2] Yenə orada, 22-ci cild, səh. 248.

dəyişdikdən sonra bu iki mələk Allaha ərz edərək deyirlər: "İlahi, bu bəndənin ruhunu aldın. Bizim vəzifəmiz də sona çatdı. İndi biz nə iş görək?" Allah-təala onlara buyurar: "Göylər Mənə ibadət edən mələklərlə doludur. Yerdə də mənə ibadət edən müti bəndələrim var. Siz bu mömin bəndəmin qəbrinin kənarına gedin və orada Mənə təsbih edib, təkbir deyin və onların hamısını qiyamət gününə qədər o bəndəmin əməl dəftərinə yazın."[1]

### Əməllərin yazıldığı kitabların növləri

Təfsir alimləri ayə və hədislərə istinadən qeyd etmişlər ki, insanların barəsində üç növ kitab yazılıb hazırlanır. Qiyamət günündə heç bir kəsin bəhanə və üzrü qalmasın deyə insanların əməlləri həmin üç kitabda qeydə alınır. Bəzi ayələrdə qeyd olunur ki, hər bir insan üçün bir kitab müəyyən olunmuşdur və onun adına əməl dəftəri deyilir. Bəzi ayələrdə bidirilir ki, hər bir ümmətin əməlləri üçün ayrıca bir kitab vardır. Bəzi ayələrdə də belə vurğulanır ki, bütün insanların hamısının əməllərinin qeyd edilməsi məqsədilə bir kitab vardır.

**1. İnsanın şəxsi əməl dəftəri**

Həmin kitablardan biri insanın şəxsi əməllərinin yazıldığı əməl dəftəridir. İnsanın əməllərinin bu dəftərdə yazılması sağ və sol tərəfindəki mələklər vasitəsilə həyata keçirilir. Bu haqda "İnfitar" surəsinin 10-11-ci ayələrində oxuyuruq:

وإن عليكم لحافظين. كِراما كاتِبين

-Və əlbəttə, sizin üstünüzdə gözətçilər vardır. Şərəfli (möhtərəm) yazanlar (mələklər) vardır.

---

[1] Təfsiri-nümunə, 22-ci cild, səh. 248.

Qiyamət günü hər bir kəsə öz əməl dəftərini verəcəklər. Bu barədə "İsra" surəsinin 14-cü ayəsində oxuyuruq:

اقْرأْ كِتابك كَفَىٰ بِنفْسِك الْيوم عليْك حسِيبا

-Oxu, kitabını (əməl dəftərini). Bu gün sən haqq-hesab çəkməyə özün-özünə (özün öz əməllərinin şahidi olmağa) kifayətsən!

Bu ayədə hər bir insan üçün yazılmış kitabdan söz açılır. Bu, insanın əməllərinin mələklər tərəfindən yazıldığı və qiyamət günündə yaxşı əməl sahiblərinin sağ əlinə, pis əməl sahiblərinin isə sol əlinə verilən həmin kitabdır. "Əl-Haqqə" surəsinin 19-29-cu ayələrində oxuyuruq:

فَأَما من أُوتي كِتابه بِيمِينِهِ فَيقُولُ هاؤم اقْرؤوا كِتابِيه. إِني ظَننت أَني ملَاقٍ حِسابِيه. فَهو فِي عِيشةٍ راضِيةٍ. فِي جنةٍ عالِيةٍ. قُطُوفُها دانِيةٌ. كُلُوا واشربوا هنِيئًا بِما أَسلَفْتم فِي الْأَيامِ الْخالِيةِ. وأَما من أُوتي كِتابه بِشِمالِهِ فَيقُولُ يا لَيتنِي لَم أُوت كِتابِيه. ولَم أَدرِ ما حِسابِيه. يا لَيتها كَانتِ الْقَاضِيةَ. ما أَغْنى عني مالِيه. هلَك عني سلْطَانِيه

-Əməl dəftəri sağ əlinə verilən şəxs (sevinclə) deyər: "Alın (ey insanlar) mənim kitabımı (əməl dəftərimi), oxuyun. Həqiqətən, mən (dünyada) ikən qiyamət günü öz hesabıma (əməllərimin hesabına) yetişəcəyimə yəqinliklə inanmışdım."

Beləliklə, (bundan sonra) o, xoş güzəran içindədir və sahibi də ondan razıdır. Uca və ali məqamlı bir cənnətdə

(elə bir cənnətdə ki,) meyvələri yaxındır (belə ki, budaqlar dərən şəxsin iradəsinə tabedir). Yeyin və için, keçmiş günlərdə gördüyünüz (yaxşı işlərin) mükafatı olaraq sizə nuş olsun. (Bunlar hamısı o əməllərin əvəzidir, ya da o əqidə və əməllərin təcəssümüdür.)

Amma əməl dəftəri sol əlinə verilən şəxs deyər: "Kaş əməl dəftərim mənə verilməyəydi! Və hesabımın nə olduğunu bilməyəydim. Kaş mənim o dünya həyatım(ın yerinə) qəti bir ölüm olaydı (və ya dünya ölümü məni birdəfəlik məhv edəydi). Mənim (dünyadakı) mal-dövlətim (heç bir əzabı) məndən dəf etmədi. Qüdrətim və səltənətim (və iddialarımın dəlil-sübutu da) əlimdən çıxdı."

"Ali-İmran" surəsinin 30-cu ayəsində belə insanlar barəsində buyurulur:

يوم تجِد كُل نفْسٍ ما عمِلَت مِن خيرٍ محضرا وما عمِلَت مِن سوءٍ تود لَو أن بينها وبينه أمدا بعِيدا

-Hər bir kəs (dünyada) etdiyi xeyir və pis əməlləri hazır görəcəyi gün arzu edəcəkdir ki, kaş onunla həmin pis əməlləri arasında uzun bir zaman fasiləsi olaydı (qiyamət təxirə düşəydi).

Yuxarıda qeyd olunan ayələrdə məhz insanın fərdi olaraq həyatda ikən etdiyi əməllərinin yazıldığı kitabdan söz açılır.

**2. Ümmətlərin əməl kitabı**

İkinci kitab isə hər bir ümmət üçün yazılan bir əməl kitabıdır. Qiyamət günündə İslam Peyğəmbəri(s) öz ümmətinin əməlinin yazıldığı bir kitabla gələcəkdir. Yəni bütün ümmətinin əməllərinin hamısı həmin kitabda yazılıb. Həmçinin qiyamət günü hər bir peyğəmbər öz

ümməti və kitabı ilə gələcək. Bu haqda “Casiyə” surəsinin 28-ci ayəsində oxuyuruq:

وترى كُل أُمةٍ جاثِيةً كُل أُمةٍ تدعى إِلى كِتابِها الْيوم تجزون ما كُنتم تعملُونَ

-(Həmin gün) bütün ümmətləri (qorxunun şiddətindən) bir yerə toplaşmış və diz çökmüş görərsən. Hər bir ümmət öz kitabına tərəf çağırılacaq (və belə xitab olunacaq ki:) “etdiklərinizin müqabilində bu gün cəzalandırılacaqsınız (və ya sizin axirət cəzanız dünyadakı əməllərinizin gerçək təzahürüdür).

### 3. Ümumi və hər bir şeyin yazıldığı kitab

Üçüncü kitab isə ümumi bir kitabdır. Bu kitabda əvvəldən axıradək kimliyindən asılı olmayaraq bütün insanların əməlləri yazılmışdır. Alimlərdən biri bu kitab haqda belə demişdir: “Bu kitab elə bir kitabdır ki, hər bir insanın bütün əməlləri onun bir sətrində yazılıb qeydə alınmışdır. Quranda bu kitabın adı “Ümmül-kitab” (“Ana kitab”) adlandırılmışdır.”

“Rəd” surəsinin 39-cu ayəsində oxuyuruq:

يمحو الله ما يشاءُ ويثْبِت وعِنده أُم الْكِتابِ

-Allah (“məhv və isbat” lövhəsində yazılmış, olacaq hadisələrdən) istədiyini məhv və (bəzi hadisələri orada) dərc edir və “Ümmül-kitab” Onun yanındadır.

Bu kitab elə bir kitabdır ki, insanların bütün əməllərindən əlavə, hətta aləmdə baş verən bütün hadisələr belə orada yazılmışdır. Əlbəttə, “Ümmül-kitab”ın barəsində dərin elmi müzakirə və söhbətlər etmək olar. Bu bəhsimizdə həmin elmi söhbətlərə toxunmuram. Bütün kitabların

hamısı bu kitabla ölçülür. Savab və cəza verən mələklərin hamısı da bu kitabdan göstəriş alır. Allah bu kitabda istədiyini pozar və istədiyini də yazar. Bu kitab mələklərə də aid olan kitab deyil. Elə bir ayə və hədis yoxdur ki, bu kitaba mələklər müdaxilə etsinlər. Bu kitab yalnız Allahın məhzərindədir. Bu kitabın barəsində “Zümər” surəsinin 69-70-ci ayələrində oxuyuruq:

وأشرقتِ الْأرض ِبنورِ ربها ووضِع الْكِتاب وجِيءَ ِبالنبِيين والشهداء وقُضِي بينهم ِبالْحق وهم لَا يظْلَمونَ. ووفيت كُل نفْسٍ ما عمِلَت وهو أعلَم ِبما يفْعلُونَ

-(Həmin gün) yer (qiyamət səhnəsi üçün hazırlanmış yer üzü) öz Rəbbinin nuru (həmin gün üçün yaradılmış xüsusi nur) ilə işıqlanacaq və (ora bir) kitab qoyulacaq. Və bütün peyğəmbərlər və (əməllərin məsumlar, mələklər və təqvalılardan ibarət) şahidlər(i) gətiriləcək, onların (məhşər əhlinin) arasında haqq əsasında hökm çıxarılacaq və onlara zülm edilməyəcək, haqları kəsilməyəcək. Hər bir kəsə etdiyi(nin mükafatı) tam şəkildə veriləcək və O (Allah), onların etdiklərini daha yaxşı bilir.

Qiyamət günündə insanlar üçün belə bir məhkəmə qurulacaq. Bu məhkəmənin müddətinə gəldikdə isə bu haqda “Məaric” surəsinin 4-7-ci ayələrində belə buyurulur:

...فِي يومٍ كَانَ ِمقْداره خمسِين أَلْف سنةٍ. فَاصِبر صبرا جمِيلًا. ِإنهم يرونه بعِيدا. ونراه قَرِيبا

-Müddəti əlli min il olan bir gündə. Belə isə gözəl bir şəkildə səbir et. Onlar onu (o günü) uzaq görürlər (mümkünsüz bilərlər). Biz isə onu (mümkün, ya baş verməyə) yaxın görürük.

Deməli, qiyamət məhkəməsinin müddəti əlli min il olacaqdır. Buna görə də insan dünyada nəfsi istəkləri və şəhvəti ilə mübarizədə səbir etməli və dözümlü olmalıdır. Dünyanın pul-parası, bər-bəzəyi insanı aldatmamalıdır. Camaat qiyaməti uzaqda da bilsə, Allah-təala buyurur ki, Biz onu çox yaxında görürük. İnsan elə düşünməməlidir ki, qiyamət uzun bir müddətdən sonra baş verəcək. Xeyr, əsla belə deyildir. İnsanın nəfəsi qurtardısa, deməli, qiyaməti başlamışdır. Buna görə də heç bir kəs elə düşünməməlidir ki, hələ ömrünün sonuna çox qalır. Bir anın içində ölməklə insan bu dünyadan əlini üzür və onun qiyaməti başlanır.

Odur ki, qiyamət günündə bütün insanların hamısı məhşərə gələcək və həmin kitab hamının görə biləcəyi bir yerə qoyulacaqdır. Allah-təala "Kəhf" surəsinin 49-cu ayəsində belə buyurur:

ووضِع الْكِتاب فَترى الْمجرِمين مشفِقِين مِما فِيهِ ويقُولُونَ يا ويلَتنا مالِ هذَا الْكِتابِ لَا يغادِر صغِيرةً ولَا كَبِيرةً إِلا أَحصاها ووجدوا ما عمِلُوا حاضِرا ولَا يظْلِم ربك أَحدا

-Və o kitab (hamının görə biləcəyi bir yerə) qoyular. Beləliklə günahkarları onda olandan qorxan görərsən. Və onlar deyərlər: "Vay olsun bizə! Bu necə yazıdır ki, heç bir kiçik və böyüyü (bizim zehnimizdən keçirdiklərimizin, qəlbi inanclarımızın və bədənimizin hərəkətlərinin heç birini) yerdə qoymadan, istisnasız hamısını saymışdır!" Onlar (dünyada) etdiklərini hazır görəcəklər. Sənin Rəbbin heç kəsə zülm etməyəcəkdir.

Beləliklə, "Yasin" surəsində oxuduğumuz "İmami mübin" həmin bu kitabın adıdır. Bu kitabda hər bir şey

açıq-aydın şəkildə yazılmışdır. Həmin kitaba ona görə "İmami mübin" deyilir ki, mələklərin yazdığı savab və günahların hamısı üçün meyar və rəhbər odur. "Lövhi-məhfuz" da həmin kitabın adlarından biridir.

Burada bəhsimizlə əlaqədar olan "İmami mübin" barədə bir mətləbə də toxunmaq yaxşı olardı. Hədislərdə belə bəyan edilir ki, Quranın zahiri və batini tərəfləri vardır. Bu müqəddəs Kitabın zahiri tərəfinə onun görünən və batini tərəfinə isə onun görünməyən iç tərəfi aiddir. Quranın batini tərəfini hamı görə bilmir. Yalnız bu haqda maraqlananlar və axtaranlar onu görə bilərlər. Bu mətləb barəsində İslam Peyğəmbərindən(s) və məsum imamlarımızdan müxtəlif hədislər də nəql olunmuşdur. Şəxsən İslam Peyğəmbəri(s) Quran barəsində belə buyurur:

ما أنزلَ اللّه عز و جل آيةً إلاّ لَها ظَهر و بطن...

-Allah-təala elə bir ayə nazil etməyib ki, onun zahiri və batini tərəfi olmasın.[1]

قَالَ الباقِر(ع): إن للقرآنِ بطنا، و للبطنِ بطن، و لَه ظَهر، و للظهرِ ظَهر

-İmam Baqir(ə) buyurur: "Həqiqətən, Quranın batini və batininin də (yetmiş) batini vardır. Onun zahiri və zahirinin də (yetmiş) zahiri vardır.[2]

قَالَ عِلي(ع): القرآنُ ظاهِره أنيق، و باطِنه عميق

-Həzrət Əli(ə) buyurur: "Quranın zahiri çox gözəl və şirin, batini isə dərindir."[3]

Quranın zahirini oxuyub təfsiri ilə maraqlanarkən elmi məsələlərin dərinliyinə varmaq olur. Üzgüçülər dənizə baş

---

[1] Mizanül-hikmə, 10-cu cild, hədis - 16570.
[2] Yenə orada, hədis - 16572.
[3] Yenə orada, hədis - 16573.

vurub dərinliklərə vardığı kimi, Quranın da ayələrinin dərinliyinə varmaq mümkündür. Hər bir ayənin dərinliyinə getdikcə daha çox mətləblər meydana çıxır və daha çox məlumatlar əldə olunur. Ayələrdə olan mətləbin üzərindən bir pərdəni götürdükcə digər bir pərdə qarşıya çıxır. Hər bir pərdədəki mətləbi öyrəndikcə digər pərdənin altındakı yeni bir mətləbə rast gəlmək olur. Hər bir kəs bacardığı qədər ayələrin həqiqətlərindən pərdəni açıb mətləbləri üzə çıxara bilər. Kim nə qədər bacarırsa, o qədər də bu mətləblərdən istifadə edə bilər. Quran elə bir kitabdır ki, onun zahiri və batini tərəfləri olduğu kimi, onun rəmzləri də vardır. Hədislərdə belə nəql olunur ki, Qurani-Kərimin həqiqətləri İslam Peyğəmbərinə(s) məxsusdur. Onun zahiri (əlifbası, tərcümə və izahı) sadə adamlar üçün, rəmzləri isə alimlər üçündür. Yəni Qurandakı rəmzləri alimlər daha gözəl qavraya bilirlər.

قَالَ الصادِق(ع): إن اللّه بعثَ نبيهِ ـ «إياك أعني و اسمعي يا جارة»

-İmam Sadiq(ə) buyurur: “Allah Öz Peyğəmbərini(s) “qapıya deyirəm ki, divar eşitsin” (Qızım, sənə deyirəm, gəlinim, sən eşit!) məsəlindəki kimi məbus etmişdir.”[1]

Yəni Allah-təala Həzrət Peyğəmbəri(s) məbus edib və kitab da nazil etmişdir. Bu kitabda olan işarə və rəmzləri başa düşən alimlər vardır. Məsələn, Qurani-Kərimdə Həzrət Yusif(ə), Həzrət Musa(ə) və s. kimi peyğəmbərlərin əhvalatları bəyan edilir. Hər bir kəs həmin əhvalatlardan öz payını götürə bilər. Alim odur ki, Qurandakı həmin işarə və rəmzləri başa düşsün.

Bir dəfə Həzrət Əlidən(ə) soruşurlar: “Nə üçün sən buğda çörəyi yemirsən? Axı Allah buğdanı sənə haram buyurmayıb.” Həzrət(ə) buyurur: “Allah-təala buğdanı Adəmə

---

[1] Mizanül-hikmə, 10-cu cild, hədis - 16592.

haram buyurdu və mən də bu əhvalatdan öz payımı götürdüm. Mən Allahın Adəmə buğdanı qadağan etdiyini eşitdiyim üçün ölənə qədər dilimə buğda dəyməyəcəkdir.”

Quranda bir çox işarələr mövcuddur ki, onların da öz əhli vardır. Həmçinin Quranın batini və dərinlikləri üzrə də öz mütəxəssisləri kifayət qədərdir. Qurani-Kərimin batinini görənlər isə övliyalardır. Onlar bütün həyatları boyu zəhmət çəkərək və nuraniyyət qazanaraq Quranın dərinliklərinə baş vura bilmişlər. Çünki Quranın batinini ancaq nuraniyyətlə başa düşmək mümkündür. İnsanın zahiri gözləri hər şeyi görə bilmir. Məsələn, ağıl elə bir şeydir ki, zahiri gözlər onu görmək qabiliyyətində deyil. Əgər adi gözlərlə ağlı görmək mümkün olmursa, bu o demək deyildir ki, ağıl yoxdur. Yaxud kimsə deyə bilməz ki, mən bu gözlərimlə ağlı görmüşəm.

Eləcə də ağrını gözlə də görmək olmur. Əgər bir nəfər “başım ağrıyır” deyirsə, həmin şəxsin başının ağrısını görmək mümkün olmasa da, dediklərindən inanmaq olur ki, onun başında ağrı var. Həmçinin başı ağrıyan insanın özü də ağrını hiss edir, amma onu gözlə görə bilmir. Bu insan dərdi hiss edir və onun olduğuna inanır, kənardakılar da onun sözü ilə dərdi olduğuna inanırlar. Göz hər şeyi görə bilmir, əgər bəzi şeyləri göz görə bilmirsə, deməli onun həmin şeyləri görməyə qabiliyyət və imkanı çatmır. Bədəndə ruh da vardır, amma gözlərin onu görməyə qabiliyyəti yoxdur. Allah insanı yaratdıqdan sonra ona Öz ruhundan zərrə qədər üfürdü. Allahın insana zərrə qədər verdiyi bu ruhu görmək və dərk etmək mümkün olmadığı halda, Allahın vücudunu necə görmək və dərk etmək olar? Allah cisim deyildir ki, Onu bu gözlərlə görmək və dərk etmək mümkün olsun.

Odur ki, Qurani-Kərimin batini tərəfi mövcuddur və onun öz əhli vardır. Bu cür insanlar araşdırmalar aparmaqla və özlərində nuraniyyət yaratmaqla bəzi məsələləri özləri üçün aydınlaşdıra bilirlər. Nəzərdə tutulan həmin mətləbləri nə qədər çox aydınlaşdırdıqca isə zövq alırlar. Onların Qurani-Kərimdən aldıqları zövqü isə heç bir kəs başqa heç nədən ala bilmir. Mərhum Ayətullah Behcət buyurardı: “Bizim namazdan aldığımız zövqü heç bir şah səltənətindən ala bilməz.”

Əgər Ayətullah Behcət kimi şəxsiyyətlər namazdan zövq ala bilməsəydilər, o zaman saatlarla rükuda qala bilərdilərmi. Əgər insan namazdan zövq ala bilmirsə, rüku və səcdəsində bir neçə saniyədən artıq dayana bilmir. Çünki səcdədə qalmağa sözü yoxdur. Əgər danışmağa sözü yoxdursa, səcdədə Allahla nə minacat edə bilər? Uzun-uzadı səcdələrdə sözü olan insanlar qala bilirlər. Bəzi şəxslərin namazı barəsində eşitdikdə insanlar öz-özlərinə düşünürlər ki, görəsən, bu qədər rüku və səcdədə qalmaq olarmı? Onlar müxtəlif hallarda namaz qılarkən uzun-uzadı rüku və səcdələrdə Allahla minacat etməyi bacarırdılar. Belə ki, ətrafda baş verən hadisələr onlara zərrə qədər də olsa təsir göstərə bilmir və onları ibadətlərindən ayırmırdı. Ayətullah Şeyx Həsən Əli İsfahaninin barəsində belə deyirlər: “Qış gecələrinin birində və açıq havada o, namaz qılırmış. Rükuda o qədər dayanmışdı ki, yerə yağan qar qədər onun kürəyinə də qar yağmışdı.”

İran-İraq müharibəsi zamanı Ayətullah Xameneyi Tehranda cümə namazı qılırdı. Cümələrin birində milyonlarla insan onun namazında iştirak edirdi. Namaz başladıqdan sonra “İyyakə nəbudu və iyyakə nəstəin” ayəsinə yetişdikdə İraqın bobardmançı təyyarələri Tehran şəhərinin üzərindən uçaraq şəhəri bombardman etməyə başladılar. Bombalar

namaz qılanların hər birinin başına tökülə bilərdi. Lakin Ayətullah Xameneyi namazı olduğu kimi qılmağa davam etdi və zərrə qədər də olsa bu hadisə istər fiziki, istərsə də ruhi baxımdan ona təsir göstərə bilmədi. Bu hadisə hətta onun nəfsində belə azacıq da olsa dəyişiklik edə bilmədi. Həmçinin ona iqtida edən milyonlarla insandan heç biri namaz zamanı yerindən tərpənmədi. Bu, çox uzaq keçmişə aid olan tarixi bir hadisə deyildir. Həmin namazın video-çəkilişləri də var və hərdənbir televiziya vasitəsilə nümayiş etdirilir.

Bombardmandan qorxmayan bir insan soyuq havada qarın qorxusundan namazı tərk edib heç qaçarmı? Bu insanlar zəhmət çəkərək ömürləri boyu Allahın əmrlərinə itaət edərək təqva sahibi olmaqla yanaşı, mənəvi nuraniyyət də əldə etmişlər. Onlar mənəviyyat aləmində kifayət qədər yüksəklərə qalxmış şəxslərdir. Bu, insanda elə bir haldır ki, zahirən özlərini yalandan belə göstərməklə əldə olunmur. Həmin hal ruh və insanın daxili ilə bağlı olan bir haldır və onu süni şəkildə əldə etmək mümkün deyil. Əgər qeyd olunan hal insanın daxilində olmasa, heç bir vaxt özünü büruzə verə bilməz.

Üveys Qərəni Həzrət Peyğəmbərin(s) və Həzrət Əlinin(ə) ən yaxın səhabələrindən biri idi. Onun barəsində yazırlar ki, bəzən çöldə namaz qılarkən səcdəsi o qədər uzunmüddətli olurdu ki, quşlar onu daş zənn edib üstünə qonurdular.

Qeyd etdik ki, Quranın batini tərəfi və onun batininin də öz qaydası vardır. Bu bəhsimizdə qısaca olaraq onu qeyd etmək istərdim ki, Qurani-Kərimin zahiri və batini tərəfləri işarə və həqiqətləri ilə fərqlidir. Quranın ayələrinin zahiri tərəfi bizim üçün höccətdir və ona da əməl edirik. Lakin hər bir ayənin batininin də öz mənaları vardır. Nümunə

üçün "Tin" surəsinin ilk ayələrinə diqqət yetirək. Allah-təala bu ayələrdə and içərək belə buyurur:

والتينِ والزيتون. وطُورِ سِينِين. وهذَا الْبَلَدِ الْأَمِينِ

-And olsun əncirə və onun ağacına, zeytuna. Və and olsun Sina dağına. Və and olsun bu əmin-amanlıq (olan) şəhərə (Məkkeyi-müəzzəmə).

Allahın and içdiyi hər bir şey çox əhəmiyyətlidir. Yəni Allahın and içdiyi hər bir şeydə dərin məna vardır. Elmi kitabları oxuduqda əncir və zeytun barəsində o qədər məlumatlara rast gəlirik ki, insanı məftun və valeh edir. Allahın əncirə, zeytuna, Məkkə şəhərinə, Sina dağına, Günəşə və s. and içməsi onların çox əhəmiyyətli olduğundan xəbər verir. Bütün bunlar ayələrin zahiri tərəfidir və onlar höccət kimi qəbul olunur. Amma batini mənası tamamilə başqadır və ayədə Allahın and içdiyi əncir İmam Həsən(ə), zeytun isə İmam Hüseyndir(ə).

### "İmami mübin"
### Həzrət Əlinin(ə) mübarək vücududur

Həmçinin "Yasin" surəsinin 12-ci ayəsində işlənmiş "İmami mübin" ("Açıq-aydın İmam") kəlməsinin zahiri və batini mənası vardır. Zahiri mənasını yuxarıda qeyd etdik. Lakin batini mənasına gəldikdə isə, qeyd etmək lazımdır ki, bu barədə hədislərdə açıqlama verilmişdir. Nümunə üçün bu haqda İmam Sadiqdən(ə) nəql olunmuş bir hədisə diqqət yetirək:

İmam Sadiq(ə) buyurur: "Yasin" surəsinin 12-ci ayəsi nazil olduqdan sonra Ömər və Əbu Bəkr Həzrət Peyğəmbərdən(s) soruşdular: Ya Rəsulallah, bu ayədəki "İmami mübin" ifadəsində məqsəd Tövratdırmı?

Peyğəmbər(s) buyurdu: Xeyr.

Soruşdular: İncildirmi?

Peyğəmbər(s) buyurdu: Xeyr.

Soruşdular: Qurandırmı?

Peyğəmbər(s) buyurdu: Xeyr.

Elə bu zaman Həzrət Əli(ə) içəri daxil oldu. Həzrət Peyğəmbər(s) Həzrət Əlini(ə) görən kimi (onu göstərib) buyurdu:

هو هذَا إنه الإمام الذِي أحصى الله تبارك و تعالى فِيهِ عِلْم كل شيءٍ

-O, ("İmami mübin") bu kişidir. Həqiqətən, O, Allah-taalanın hər bir şeyin elmini onda müəyyən etmiş İmamdır.[1]

İbn Abbas şəxsən İmam Əlinin(ə) özündən belə nəql edir:

أنا و اللهِ الامام الْمبين، أبيّن الْحق مِن الباطِل ورِثته مِن رسول اللهِ صلّي الله عليهِ وآلِهِ

-And olsun Allaha ki, "İmami mübin" mənəm. Haqqı batildən ayırıram və bu elm (haqqı batildən ayırmaq) Peyğəmbərdən(s) mənə miras qalıb.[2]

Hədislərə əsasən bütün elmlərin hamısının sayı 73-dür və bu elmlər Allahın yanındadır. Allah-təala həmin elmlərdən bəzi peyğəmbərlərə və vəsilərinə inayət etmişdir. Hədislərdə belə nəql olunur ki, onun 2-si Həzrət Süleyman Peyğəmbərin(ə) vəsisi Asəf ibn Bərxiyaya, 25-i Adəmə(ə) və 72-si isə İslam Peyğəmbərinə(s) verilmişdir. Digər peyğəmbərlər də həmin elmlərdən müəyyən qədərinə malik idilər. Həzrət Peyğəmbər(s) də həmin elmləri Həzrət Əlinin(ə) ixtiyarında qoymuşdur. Məşhur hədislərin birində Həzrət Peyğəmbər(s) bu barədə belə buyurur:

---

[1] Təfsiri-nümunə, 18-ci cild, səh. 335.

[2] Yenə orada, səh. 336.

أنا مدِينةُ العِلم وعلِي بابها

-Mən elmin şəhəri, Əli isə bu şəhərin qapısıdır.

Əmmar Yasir deyir: “Günlərin birində Həzrət Əli(ə) ilə səfərə çıxmışdım. Yolda bir yerdə dayanıb istirahət etməli olduq. Birdən mən yerdə qaynaşmaqda olan böyük bir qarışqa topasını gördüm. Mən qarışqalarının sayının həddən artıq çox olduğunu görüb təəccüblə dedim: “Allahu Əkbər.” Bunların sayını bilən Allah necə də əzəmətlidir.”

Həzrət Əli(ə) buyurdu: “Elə demə, de ki, onları yaradan cəlal və əzəmət sahibidir.”

Dedim: “Ya Əmirəlmöminin, məgər onların sayını Allahdan başqa bilən bir kimsə varmı?”

Həzrət Əli(ə) buyurdu: “And olsun səni yaradan Allaha ki, Allah-təalanın izni ilə mən onların sayını, hətta erkək və dişilərinin də nə qədər olduğunu bilirəm. Məgər “Yasin” surəsində “وكُلّ شيءٍ أحصيناه في إمامٍ مبين” – “Biz hər şeyi açıq-aydın bir imamda qeydə almışıq” – ifadəsini oxumamısanmı?”

Dedim: “Bəli, ey mənim mövlam, oxumuşam.”

İmam(ə) buyurdu: “Allah-təalanın hər şeyin elmini onda yerləşdirdiyi həmin imam mənəm. Ey Əmmar, mən çöldəki qumların dənələrinin, dənizlərdəki balıqların, yağış yağarkən damcılarını sayını bilirəm. İnsanların nəfəslərinin sayını bilirəm. Ana bətnində bağlanan nütfələrin sayını və hansının başa çatıb dünyaya gələcəyini, hansının yarıda düşəcəyini də bilirəm.”[1]

Həzrət Əli(ə) elə bir sual yox idi ki, onun cavabını bilməsin. Bəzən ona elə məsələlər barədə suallar verirdilər ki, onlara cavab vermirdi. Bəzən də ondan bir şey soruşanlara

[1] Yasin surəsinin təfsiri, Seyid Məhəmməd Ziyaabadi, səh. 38.

buyurardı ki, məndən dərdinizə dəyən və sizi maraqlandıran məsələlər haqda soruşun. Elə suallar verməyin ki, mən həmin sualları cavablandırdıqda onun doğru olub-olmaması haqda tərəddüddə qalmayasınız? (Məsələn, göydəki ulduzların və yerdəki qumların dənələrinin sayı kimi.)

Günlərin birində Həzrət Əlidən(ə) soruşdular: “Hansı heyvan yumurta qoymadan, hansı heyvan isə yumurta qoymaqla balalayır?” İmam(ə) buyurdu: “Hansı heyvanın qulağı üzdədirsə (kənara çıxırsa), həmin heyvan qarnından (yəni yumurta qoymadan) balalayır. Hansı heyvanın qulağı üzdə deyilsə, o heyvan yumurta qoyaraq bala çıxarır.”

Həzrət Əlinin(ə) bu kimi kəlamlarını bütün dünyanın alimləri və hər bir kəs eşidir və bilirlər. Əgər İslamın düşmənləri Quran ayələrində və imamların kəlamlarında bircə nöqsan tapa bilsəydilər, səhərdən axşama kimi bunu car çəkər və tənqid etməklə məşğul olardılar. Əgər Quranda elmi və ya başqa bir nöqsan tapsaydılar, bu gün Quranı yandırmazdılar. Elə həmin nöqsanı müxtəlif yollarla, o cümlədən qəzet və digər informasiya vasitələri ilə bütün dünyaya çatdırardılar. Həmçinin öz təhlillərini də insanların ixtiyarına buraxacaqdılar ki, hər bir kəs bu nöqsandan agah olsun. Lakin onlar Quranda hər hansı bir nöqsanın olmadığını görüb səslərini çıxara bilmirlər. Onlar bilirlər ki, əgər bu işi etmək istəsələr, özlərini rüsvay etmiş olacaqlar. Ona görə də çıxış yolunu Quranı təhqir etməkdə, onu yandırmaqda görürlər. Əllərindən bundan başqa heç nə gəlmir. Əgər onlar Quranın əleyhinə bundan başqa nəsə etməyi bacarsaydılar, çoxdan bunu edərdilər.

Burada gerçək bir faktı da qeyd etmək lazımdır ki, bütün tarix boyu müsəlmanlar Qurani-Kərimə yaxınlaşdıqca inkişaf etmiş, Qurandan uzaq düşdükcə isə geriləməyə

başlamışlar. İslamın düşmənləri bunu çox yaxşı bildiklərindən həmişə Quranın və müsəlmanların əleyhinə müxtəlif tədbirlər görürlər. Heç bir variant tapa bilmədikdə isə belə qərara aldılar ki, müsəlmanları Qurandan kənarlaşdırsınlar. Bir zamanlar Lenin, Stalin və b. kimi qəddar şəxslər zor gücünə insanları Qurandan uzaqlaşdırmağa çalışdılar. Lakin bu plan da yetmiş ildən artıq çəkmədi. Bunu başa düşən İslamın düşmənləri müxtəlif yollarla, o cümlədən cürbəcür pozğunluqlar, fitnə-fəsadlarla insanları günah əməllərə təşviq edirlər. Onlar cəmiyyətdə elə bir ab-hava, elə bir vəziyyət yaradıblar ki, naməhrəm, haram-haram işlər hər yanı bürüyübdür. Məqsəd isə ondan ibarətdir ki, müsəlmanları bu kimi çirkablara sarı yönəltməklə onları Qurani-Kərimdən uzaq salsınlar. Belə bir vəziyyətdə təbiidir ki, dindar olmaq həqiqətən də çox çətin bir işdir. Həzrət Peyğəmbər(s) 1400 il bundan əvvəl belə buyurmuşdur: "Ümmətim üçün elə bir zaman gələr ki, imanı qoruyub saxlamaq möhkəm küləklər qarşısında əldə zəif şamı saxlamaqdan da çətin olar."

واضرب لهم مثلاً أصحاب القرية إذ جاءها المرسلون.١٣. إذ
أرسلنا إليهم اثنين فكذبوهما فعززنا بثالث فقالوا إنا إليكم
مرسلون.١٤. قالوا ما أنتم إلا بشر مثلنا وما أنزل الرحمن من
شيء إن أنتم إلا تكذبون.١٥. قالوا ربنا يعلم إنا إليكم
لمرسلون.١٦. وما علينا إلا البلاغ المبين.١٧. قالوا إنا تطيرنا
بكم لئن لم تنتهوا لنرجمنكم وليمسنكم منا عذاب أليم.١٨. قالوا
طائركم معكم أئن ذكرتم بل أنتم قوم مسرفون.١٩.

**13. Onlar üçün şəhər əhalisini örnək göstər, Allahın elçiləri oraya doğru gedən zaman.**

**14. Biz onlara iki nəfər elçi göndərdik, ancaq ikisini də inkar etdilər. Bu iki elçini üçüncü elçi ilə qüvvətləndirdik və onlar dedilər: "Biz sizə (Allah tərəfindən) göndərilmiş elçilərik."**

**15. (Onlar isə Peyğəmbərin cavabında) dedilər: "Siz bizim kimi insanlarsınız və Rəhman Allah heç bir şey nazil etməmişdir. Siz ancaq yalan deyirsiniz."**

**16. (Elçilər) dedilər: "Rəbbimiz sizin üçün göndərilmiş olduğumuzu bilir.**

**17. Və bizim borcumuz aydın bir təbliğdən başqa bir şey deyildir".**

**18. Dedilər: "Biz sizi uğursuz sanırıq. Əgər dediklərinizdən əl çəkməzsinizsə, sizi daşlayacağıq və bizdən sizə acı bir əzab toxunacaqdır."**

**19. Elçilər dedilər: “Uğursuzluğunuz sizinlə birlikdədir.” (Sizin özünüzdədir). “Əgər düz fikirləşsəniz, siz həddini aşmış bir tayfasınız.”**

Bu yeddi ayədə bir mətləbin birinci yarısı barədə söz açılır. Sonrakı ayələrdə isə həmin mətləbin ikinci yarısı haqqında danışılır. Görəsən, həmin mətləb nədir ki, bu ayələrdə onun birinci yarısından bəhs olunur? Cavab belədir ki, bu ayələrdə Allah-təala İslam Peyğəmbərinə(s) öz əsrindəki müşriklərə keçmiş peyğəmbərlərin və onların ümmətlərinin başına gələn əhvalatlardan birini danışmağı göstəriş verir. Həmin əhvalat Quranda “Əshabul-qəryə” (“Kənd və ya şəhər əhalisi”) hadisəsidir.

Qeyd olunan hadisəni danışmağın iki faydası var idi. Birincisi, müşriklərə xəbərdarlıq etmək, ikincisi isə, Həzrət Peyğəmbərə(s) və azsaylı möminlərə təsəlli vermək idi. Çünki Quranın qəlbi olan bu surədəki sərgüzəşt eynilə İslamın ilkin möminlərinin sərgüzəştinə bənzəyir. Ümumiyyətlə, keçmişdə baş vermiş hadisələri danışmağın insanlara böyük təsiri vardır və əgər insanlar tarixə bir nəzər salsalar, həmin hadisələrdən çoxlu ibrət və nümunələr götürə bilərlər. Həzrət Əli(ə) oğlu İmam Həsənə(ə) vəsiyyət edərək belə buyurur:

-Oğlum, məndən əvvəlkilərin ömrü kimi ömür sürməsəm də, onların işlərinə nəzər salıb, xəbərləri barəsində düşünərək onlardan qalan şeyləri seyr etmişəm. Nəticədə onlardan biri *(kimi)* olmuşam. Hətta onların işləri barəsində mənə çatan şeylərə görə sanki birincisindən sonuncusuna kimi hamısı ilə yaşamışam. Beləliklə, onların işlərinin saf və yaxşısını pisindən və xeyrini isə ziyanından seçdim. Sənin üçün hər bir işin gözəlini seçdim, bəyənilmişini istədim və onun qaranlıq, naməlum olanını *(məəttəlliyə səbəb olanını)* səndən uzaqlaşdırdım.

Odur ki, Allah-təala Həzrət Peyğəmbərə(s) buyurur: "Onlara (öz zamanındakı müşriklər) üçün Qəryə əhalisini misal çək." Qoy onlar da bilsinlər ki, keçmişdəki insanlar öz peyğəmbərlərini dandıqdan sonra hansı aqibətlə üzləşdilər və hansı əzablara düçar oldular. Həmçinin danışılan bu hadisə İslam Peyğəmbəri(s) və ona iman gətirənlər üçün də bir təsəlli olsun. Onlar da görsünlər ki, əvvəlki peyğəmbərlər və onlara iman gətirənləri də incidib müxtəlif əziyyətlərə məruz qoymuşlar. Eyni zamanda bilsinlər ki, işlərinin və aqibətlərinin sonu da yaxşı olacaqdır.

Sual onuna bilər ki, ayədə misalı çəkilmiş və əhvalatı barədə söz açılmış "Qəryə" hansı məntəqənin sakinləridir? Bu suala cavab verməzdən öncə "Qəryə" sözünün mənası ilə tanış olaq. Camaatın bir yerə toplaşıb yaşadığı məntəqəyə istər kənd olsun, istərsə də şəhər "Qəryə" deyilir. Biz danışarkən yalnız kəndə "Qəryə" deyirik. Amma Quranda bəzən kəndə, bəzən də şəhərə "Qəryə" deyilir. Barəsində danışdığımız ayədəki həmin məntəqnin məşhur adı Əntakiyyədir. Bu şəhər Şamatın şəhərlərindən biridir. Şəhər keçmiş Romanın ən məşhur və möhtəşəm şəhərlərindən biri idi. İndi isə coğrafi mövqeyinə görə Türkiyəyə məxsus şəhərlərdəndir. Qeyd olunan şəhər Həzrət İsa Məsihdən(ə) 300 il qabaq salınmış bir yaşayış məntəqəsidir. Vaxtilə var-dövlətli şəhərlərdən biri sayılırdı. İkinci xəlifənin zamanında bu şəhər Əbu Übeydə tərəfindən fəth olunaraq Romadan alınmışdır. Burada xristianlar yaşayırdılar. Birinci Dünya müharibəsindən sonra isə fransızların əlində olmuşdur. Onlar siyasi məsələlərlə əlaqədar olaraq bu yaşayış məntəqəsini Türkiyəyə vermişdilər. Şəhər demək olar ki, Beytül-Müqəddəsdən sonra xristianların ikinci şəhəri sayılırdı.

Həzrət İsa(ə) peyğəmbərliyə Beytül-Müqəddəsdən başlamışdır. Həzrət İsa(ə) iki yaxın səhabəsini Əntakiyyəyə nümayəndə və təbliğatçı kimi göndərmişdir. Burada həmin iki nəfərin peyğəmbər, yoxsa Həzrət İsanın(ə) həqiqətən də nümayəndələri olduqları barədə tərəddüdlər mövcuddur. Nəticə etibarilə bu məsələnin heç bir fərqi yoxdur. Çünki Həzrət İsanın(ə) zamanında Allah-təala bir qrup peyğəmbəri onun ixtiyarına vermişdi. Həmin peyğəmbərlər böyük peyğəmbər olan Həzrət İsanın(ə) göstərişi ilə müxtəlif şəhərlərə təbliğat aparmaq məqsədilə gedirdilər. Böyük (ülül-əzm) peyğəmbərlər arasında İslam Peyğəmbəri(s) ilə digərlərinin fərqlərindən biri budur ki, Allah-təala o biri ülül-əzm peyğəmbərlərin ixtiyarına neçə-neçə əlavə peyğəmbərlər vermişdi. Onlar da ülül-əzm peyğəmbərin göstərişi ilə müxtəlif şəhər və məntəqələrə, hətta bəzisi öz ailələrinə belə peyğəmbərlik etmək tapşırığı almışdılar. Burada bizim üçün fərqi yoxdur ki, Həzrət İsanın(ə) göstərişi ilə Əntakiyyəyə göndərilmiş həmin iki nəfər peyğəmbər idi, yoxsa onun tərəfdarları.

Təfsir alimlərinin yazdıqlarına əsaən, çox güman ki, onlar da peyğəmbər idilər. Qeyd olunan iki nəfərdən əvvəl İsa Peyğəmbərə(ə) iman gətirənlər həmin məntəqəyə köçmüş və onların orada qalması nəticəsində xristian dini camaat arasında yavaş-yavaş yayılmağa başlamışdı. Onlardan birinin adı Puls, digərinin adı isə Bərnəba idi. Bu şəxslər ticarət məqsədilə Əntakiyyəyə hicrət etmiş və orada yaşamağı qərara almışdılar.

Onlardan sonra İsa Peyğəmbərin(ə) göndərdiyi həmin iki nəfər nümayəndə də Əntakiyyəyə yollandılar. Onlar şəhərə yaxınlaşdıqda orada qoyun otaran qoca bir kişini gördülər. Həmin kişinin adı Həbib Nəccar idi. Həzrət İsanın(ə) göndərdiyi həmin iki nəfər ona salam verdilər. O, salamın

cavabını verib onlardan kim olduqlarını soruşdu. Onlar belə cavab verdilər: “Biz İsanın(ə) göndərdiyi təbliğatçılarıq.”

Həbib soruşdu: “Bura gəlməkdə məqsədiniz nədir?”

Onlar dedilər: “Bizim məqsədimiz bəndələri bəndələrə ibadət etməkdən kənarlaşdırıb Allaha ibadət etməyə dəvət etməkdir.”

Həbib soruşdu: “Sizin möcüzəniz varmı?” Onlar dedilər: “Həzrət İsa(ə) Allahın peyğəmbəridir. Onun xəstələrə şəfa verməK, ölüləri diriltmək kimi möcüzələri vardır. Bizə də Allahın izni ilə anadangəlmə korları və alalıq xəstəliyinə tutulanları sağaltmaq kimi bəzi möcüzələr göstərməyə icazə vermişdir.”

Həbib dedi: “Mənim illərlə yataq xəstəsi olan bir övladım var.”

Onlar dedilər: “Gəl sənin evinə gedib ona bir nəzər salaq.”

Həbib onları da götürüb evinə gəldi. Həzrət İsanın(ə) tərəfdarlarından biri əlini onun övladının bədəninə sürtən kimi xəstə Allahın izni ilə şəfa tapdı. Bu xəbər bütün şəhərə yayıldı. Bundan sonra onlar bir çox xəstələrə də şəfa verdilər. Həmin adamlar o şəhərin padşahı ilə də görüşüb söhbət etdilər ki, bu barədə kifayət qədər geniş şəkildə bəhs etmək olar.

Şəhərin bütpərəst bir padşahı var idi. Həvarilərin xəbəri ona çatdıqda dərhal onları hüzuruna çağırtdırıb soruşdu: “Siz kimsiniz?” Onlar cavabında dedilər: “Biz İsanın göndərdiyi təbliğatçılarıq. Biz səni və sənin rəiyyətini eşitməyi və görməyi bacarmayan bütlərin itaətindən çəkindirib həm eşidən, həm də görən Allaha ibadət etməyə dəvət edirik.”

Padşah soruşdu: “Bizim allahlarımızdan(bütlərimiz-dən) başqa Allah da var?”

Cavab verdilər: “Bəli. Səni və sənin məbudlarını yaradan Allah bütün yeri-göyü yaradandır.”

Padşah dedi: “Qalxın. Mən sizin barənizdə fikirləşərəm (bununla onları hədələyirdi). Sonra isə camaat şahın onları qəbul etmədiyini düşünərək bazarda onları tutub döydülər.”

Başqa bir rəvayətdə belə deyilir ki, həvarilər padşahın əlinə keçmədilər. Bir müddət həmin şəhərdə qaldılar. Bir gün padşah sarayından çıxanda onların təkbir - “Allahu əkbər” dediklərini eşidib hirsləndi. Onların hərəsinə yüz şallaq vurdurub zindana atdırdı.

Həzrət İsa(ə) onların başlarına gələn hadisəni eşitdikdə ən hörmətli həvarisi olan Şəmunu Səfayini onların dalınca göndərdi. Şəmun naməlum şəxs kimi şəhərə daxil oldu. O, özünü şahın yaxın adamlarına dost kimi qələmə verdi. Onun bu işi şahın ətrafındakılarının xoşuna gəldi. Onlar bu məsələni şaha çatdırdıqda şah da onu öz sarayına dəvət edib yanında saxladı.

Günlərin birində Şəmun dedi: “Şah sağ olsun, mən eşitmişəm ki, iki nəfər sənin zindanında əsirdir. Onlar səni başqa bir dinə dəvət etdikdə sən onları cəzalandırmısan. Heç onların nə dediyinə qulaq asdınmı?”

Şah dedi: “Hirsimdən heç onlara qulaq asmadım?”

Şəmun şaha dedi: “Əgər məsləhət görürsünüzsə, onları çağırtdırıb bir az dinləyək. Görək nə deyirlər?”

Şah onun sözünü qəbul edib həvariləri çağırtdırdı. Şəmun (elə bil ki, heç onları tanımırdı) onlardan soruşdu: “Sizi kim bura göndərib?”

Həvarilər dedilər: “Biz bütün şeyləri yaradan və şəriki olmayan Allahın elçiləriyik.”

Şəmun dedi: “Möcüzəniz nədir?”

Həvarilər dedilər: “Sən nə istəsən.”

Şah əmr etdi ki, kor bir qul gətirsinlər. Həvarilər onu Allahın izni ilə sağaltdılar. Bu zaman Şəmun sözə başlayaraq şaha dedi: “Əgər sən öz məbudlarından bu işi (koru sağaltmağı) istəsəydin, onların buna qüdrəti çatardımı?”

Şah dedi: “Səndən nə gizlin, bizim sitayiş etdiyimiz Allahların nə bir ziyanı var, nə də bir xeyri. Sonra şah üzünü həvarilərə tutaraq dedi: “Əgər sizin Allah ölünü dirildə bilsə, biz Ona və sizə iman gətirərik.” Həvarilər cavab verdilər ki, bizim Allah hər şeyə qadirdir. Şah dedi: “Burada yeddi gün bundan qabaq ölmüş bir meyit var. Atası səfərdə olduğu üçün hələ dəfn edilməyib. Gözləyirik ki, atası səfərdən qayıtsın.” Ölünü gətirdilər. Həmin iki həvari açıq şəkildə, Şəmun isə ürəyində dua edirdi. Birdən ölü hərəkətə gəlib ayağa qalxdı. Allahın iznilə dilə gəlib dedi: “Mən yeddi gündür ki, ölmüşəm. And olsun Allaha ki, mən cəhənnəm odunu öz gözlərimlə görmüşəm. Sizə xəbərdarlıq edirəm ki, tək olan Allaha iman gətirin.”

Padşah çox təəccübləndi. Şəmun bunların padşaha təsir etdiyini gördükdə ondan iman gətirməsini istədi. Şah tək olan bir Allaha iman gətirdi və onun ətrafındakı camaat da ona qoşuldu. Bütün bunlara baxmayaraq, həmin şəhərin əhalisindən bir dəstə öz müşrikliyində qaldı.”[1]

Peyğəmbərləri inkar və təkzib edən camaatla onların dialoqu həmin hadisədir ki, Allah-təala İslam Peyğəmbərinə(s) müşriklərə Qəryə əhalisini misal çəkməyi göstəriş verir. “Yasin” surəsinin 13-19-cu ayələrində onların əhvalatını belə bəyan edir:

-Onlar üçün şəhər əhalisini örnək göstər, Allahın elçiləri oraya doğru gedən zaman. Biz onlara iki nəfər elçi

---

[1] Təfsiri-nümunə,18-ci cild, səh.359-360.

göndərdik, ancaq ikisini də inkar etdilər. Bu iki elçini üçüncü elçi ilə qüvvətləndirdik və onlar dedilər: "Biz sizə (Allah tərəfindən) göndərilmiş elçilərik."

Onlar isə peyğəmbərin cavabında dedilər: "Siz bizim kimi insanlarsınız və Rəhman Allah heç bir şey nazil etməmişdir. Siz ancaq yalan deyirsiniz."

Elçilər dedilər: "Rəbbimiz sizin üçün göndərilmiş olduğumuzu bilir. Və bizim borcumuz açıq-aydın bir təbliğatdan başqa bir şey deyildir."

Dedilər: "Biz sizi uğursuz sanırıq. Əgər dediklərinizdən əl çəkməzsinizsə, sizi daşlayacağıq və bizdən sizə acı bir əzab toxunacaqdır."

Elçilər dedilər: "Nəhsliyiniz sizinlə birlikdədir. (Sizin özünüzdədir). Əgər düz fikirləşsəniz, siz həddini aşmış bir tayfasınız."

Onlar bütün bu söz-söhbətlərə baxmayaraq, peyğəmbərlərin sözlərini qəbul etmədilər. Hey deyirdilər ki, sizin ayağınız bizə düşmədi və siz gəlməmişdən əvvəl bizim məntəqəyə yağış yağardı və firavan dolanardıq. Sizin barənizdə fal açmışıq və sizin bura gəlməyiniz şəhərimizə bədbəxtlik gətirib. Əgər bu işdən əl çəkməsəniz və buradan çıxıb getməsəniz, sizi daşlayıb əzab verəcəyik.

Peyğəmbərlər isə onların cavabında dedilər: "Sizin belə bir uğursuzluğunuz sizin öz əməllərinizin ucbatındandır. Heç bu barədə düşünüb fikirləşmirsinizmi? Hansı məsələni həll edə bilmirsinizsə, günahını başqalarının boynuna niyə yıxırsınız? Hər bir işin yaxşı-pis tərəfi, xeyir və zərər tərəfi vardır. Sizin bu qədər düşüncəniz və gücünüz yoxdurmu ki, gördüyünüz işləri öz boynunuza alasınız? Öz zəifliyiniz ucbatından uğursuzluğa düşməyinizi boynunuza almaq istəmirsinizmi? Hansısa çətinlik və müşkülünüzü həll edə bilmədikdə başqalarının üstünə yıxırsınız. Heç olmasa öz

əməllərinizin barəsində bir az da olsa düşünün. Bəlkə elə sizin əməllərinizə görə Allah yağışı da üzünüzə kəsmişdir. Sizin nəhsliyiniz bizdən deyildir, sizin öz günahlarınızın nəticəsidir. Bizim danışığımız nəhslik gətirmir, əksinə, siz həddini aşan israfçı bir qövmsünüz. Günahlarınızın nəticəsində nəhsliyə düşmüsünüz və bundan çıxa bilmədiyiniz üçün bunları kiminsə boynuna yıxmağa çalışırsınız. Bu işlərinizin axırı heç də yaxşılıqla başa çatmayacaqdır."

## Yaxşı və pis yozmaq

Yaxşı və pis fal açmaq bütün tarix boyu olmuşdur və indinin özündə də buna tez-tez rast gəlmək mümkündür. Təfəüül (yaxşı yozmaq) odur ki, insan bir işi başlamaq istədikdə başqa birisi xeyir və müsbət söz danışır. Bu xeyir sözdən həmin işin yaxşı nəticə verəcəyini xeyrə yozur. Amma tətəyyür (pis yozmaq) isə odur ki, insan bir işi başlayarkən bir nəfər gəlib mənfi söz danışır. Onun belə mənfi söz danışdığına görə də görüləcək işin yaxşı alınmayacağı kimi yozulur. İslam dini bunlardan birini, yəni təfəüülü qəbul edir, digərini, tətəyyürü isə qəbul etmir. Bu barədə olan hədis və rəvayətlərə diqqət yetirək:

قَالَ رسولُ اللهِ(ص): تفَأَلُوا بِالْخير تجِدوه

-Həzrət Peyğəmbər(s) buyurur: "(Bir işə başlayarkən) xeyrə yoz ki, nəticəsi də yaxşı olsun."[1]

Hətta yuxu barədə də belədir ki, bir insan gördüyü yuxusunu danışarkən (hətta pis yuxu görmüş olsa da belə) ona "İnşallah xeyirdir" deyilsin. Yəni yaxşı və pis görülən yuxuları yaxşı yerə yozmaq lazımdır. Belə olduqda Allah-təala bəndənin "İnşallah xeyirdir" deməsi ilə Öz iradəsini dəyişir və həmin yuxunu xeyrə çevirir. Bunun adına "bəda"

[1] Yasin surəsinin təfsiri, Seyid Məhəmməd Ziyaabadi, səh. 77.

deyilir ki, elmi və böyük bir bəhs olduğundan burada həmin mövzuya müdaxilə etmək istəmirik. Qısası belədir ki, məsələn, Allah-təala insana ömür, ruzi və s. nemətlər bəxş etmişdir. Amma insan öz əməlləri ilə elə bir iş görə bilər ki, Allah onun ömrünü və ruzisini azaldar və ya çoxaldar. Məsələn, Allah birinə 70 il ömür vermişdir. O insan elə bir iş görür ki, ömründən 30 il azalır. Yaxud elə bir iş görür ki, Allah onun ömrünə daha 30 il artırır. Bütün bunların hamısı insanın öz əməllərinin nəticəsidir. Yəni Allah-təala insana ixtiyar vermişdir ki, öz əməlləri ilə Allahın onun üçün müəyyən etdiyi iradəni dəyişsin.

Odur ki, hər bir işi xeyrə yozmağa "təfəüül" deyilir. Bu, İslamda da bəyənilmiş işlərdən biridir. Tarixə diqqət yetirdikdə Həzrət Peyğəmbərin(s) və imamlarımızın hərəkətlərində də bunun şahidi oluruq.

Hicrətin 6-cı ilində Həzrət Peyğəmbər(s) müsəlmanlarla Həcc ziyarətinə yollanır. Hüdeybiyyə məntəqəsinə yetişdikdə müşriklər onların qarşısını kəsirlər. Həzrət Peyğəmbər(s) onlarla döyüşmək istəmir və beləcə, hər iki tərəf bu məsələni sülhlə həll etməli olurlar. Hüdeydiyyə sülhü İslam tarixində məşhur hadisələrdən biridir. Sülh müqaviləsinə əsasən belə bir qərar qəbul edirlər ki, müsəlmanlar Mədinəyə qayıtsınlar və gələn ildən müəyyən şərtlər daxilində Məkkəyə gəlsinlər. Sülh müqaviləsi bağlandıqdan sonra Həzrət Peyğəmbər(s) müşriklərdən birinin o tərəf bu tərəfə hərəkət etdiyini görüb soruşur: "O adamın adı nədir?"

Deyirlər: "Suheyl ibn Əmr."

Ərəb dilində "Suheyl" "səhl" sözündən götürülmüşdür və mənası isə "asan" deməkdir.

Həzrət Peyğəmbər(s) üzünü müsəlmanlara tutub buyurdu: "Mən onun adını söruşduqda dedilər ki, onun adı Süheyldir. Elə isə sizin işləriniz asan olacaqdır."

Yəni Həzrət Peyğəmbər(s) onun adını xeyrə yozdu.[1]

Onun adının mənası "asan" olduğundan Həzrət Peyğəmbər(s) müsəlmanların işlərinin asan və yaxşı olacağı barədə yozum etdi. Buradan da məlum olur ki, İslam dini bir iş üçün yaxşı fal və yozum etməyə icazə verir. Ona görə də müsəlmanlar bir-biri ilə danışarkən çalışıb xeyir sözlər söyləməlidirlər.

Tətəyyürü (pis fal açma və yozumu) isə dediyimiz kimi, İslam dini qəbul etmir. Bu barədə nəql olunan hədis və rəvayətlərdən də məlum olur ki, tətəyyür İslam dinində bəyənilməyən bir işdir. Məsələn, camaat arasında "qabağımdan qara pişik keçdi", "damda bayquş uladı" və ya "qarğa qarıldadı" kimi məsələləri pis yozmaq da bu qəbildəndir ki, İslam dini bunu qəbul etmir. Həmçinin münəccimlərin fal açmaları və bir işin xeyirlə başa çatmayacağını söyləmələri də bəyənilməmiş işlərdəndir.

Həzrət Əli(ə) ordu ilə birlikdə xəvariclə vuruşmaqdan ötrü Nəhrəvana tərəf hərəkət etməyə hazırlaşdığı zaman Əfif ibn Qeys İmam Əlinin(ə) hüzuruna gəlib dedi: "Bu vaxt hərəkət etsəniz, qələbə çalacağınızdan qorxuram, çünki mən bunu nücum elminin köməkliyi ilə sizə deyirəm."

İmam Əli(ə) onun cavabında buyurdu: "Sən fikirləşirsən ki, nə vaxt hərəkət etməyin narahatçılığa səbəb olacağından xəbərdarsan? Elə edə bilərsənmi ki, bu təhlükəni hərəkət edənə kimi xəbər verəsən?!

Hər kim bu sözdə səni təsdiq etsə, deməli Quranı təkzib etmiş, öz istədiyinə çatmaqda və bəyənilməyən işləri dəf etməkdə Allahdan kömək istəməkdən ehtiyacsız olubdur. İstəyirsən ki, Allahın əvəzinə sənə sitayiş etsinlər? Sən qabaqcadan belə söz deməklə onları zərər və ziyandan qoruyursan?"

---

[1] Yasin surəsinin təfsiri, Seyid Məhəmməd Ziyaabadi, səh. 77.

Sonra üzünü qoşununa tutaraq buyurdu: “Allahın adıyla hərəkət edin.”[1]

Odur ki, Əntakiyyədə camaat peyğəmbərlərin sözlərini qəbul etməyib dedilər: “Biz siz(i görməy)i nəhs bildik (zərər və ziyan yetişməsinin bir əlaməti hesab edirik), şübhəsiz, əgər dediklərinizdən əl çəkməsəniz, mütləq sizi daşqalaq edəcəyik. Bizim tərəfimizdən sizə mütləq ağrılı bir əzab yetişəcəkdir.”

Peyğəmbərlər də onların cavabında belə dedilər: “Nəhsliyiniz özünüzdəndir (günahlarınız ucbatındandır), sizə öyüd-nəsihət verildikdə (onu əzabla hədələyirsinizmi)?! (Bizim danışığımız nəhslik gətirmir), əksinə siz həddini aşan bir qövmsünüz.”

**Yaxşı və pis əməllərin nəticəsi insanın özünə qayıdır**

İnsan bəzən elə bir iş görür ki, həmin əməlinin nəticəsində də çıxılmaz vəziyyətə düşür. Bəzən də insanın öz əməlinə görə Allah-təala onu belə bir çıxılmaz vəziyyətə salır. “Əraf” surəsinin 146-cı ayəsində Allah-təala belə buyurur:

سأصرف عن آياتي الذين يتكبرون في الأرض بغير الحق

-Yer üzündə haqsız yerə (layiq olmadıqları halda) təkəbbürlük edənləri ayələrimi anlamaqdan yayındıracağam (mane olacağam).

Bu, çox incə bir məsələdir və insan etdiyi hansısa əməlinə görə uzun illərdən sonra da belə çıxılmaz vəziyyətlərə düşə bilər. İnsanın hər bir əməli istənilən halda onun taleyində müəyyən rol oynayır. Əgər insanın görən gözü olsa, yuxarıda dayanıb öz əməllərinə və özünə baxmağı bacarsa, görər ki, əlli il bundan qabaq etdiyi hər hansı bir

[1] Nəhcül-bəlağə, 78-ci xütbə.

əməlinin nəticəsində bu gün bədbəxtliyə düçar olmuşdur. Yaxud əlli il bundan əvvəl etdiyi yaxşı bir əməlinin nəticəsində bu gün xoşbəxtliyə çatmışdır.

Hətta bəzən insanın bircə sözünə görə də Allah-təala onu cəzalandırır. Məsələn, Həzrət Yusif Peyğəmbərin(ə) bircə sözü onun zindanda başına gələnlərə və cəzasının daha yeddi il artırılmasına səbəb olmuşdu. Həzrət Yusif(ə) günah iş görməmişdi. Amma o, Peyğəmbər(ə) və yer üzündə Allahın nümayəndəsi olduğu üçün Allah onun bu sözünü böyük xəta saydı və onu cəzalandırdı. O, zindana düşən gün iki nəfəri də həmin zindana saldılar. Onlar Yusifi(ə) tanımırdılar. Amma orada tanış olub adını öyrənmişdilər. Gecəni yatıb səhər yuxudan duranda onlardan biri dedi: "Gecə yuxuda gördüm ki, başıma çörək qoymuşam və bir quş da dimdikləyərək onu yeyir." O biri isə belə dedi: "Mən də yuxuda gördüm ki, üzümün suyunu çəkirəm." Yusif(ə) yuxuda üzüm suyu çəkənə dedi: "Sən buradan çıxıb şahın şərab paylayanı olacaqsan." O birinə isə belə dedi: "Səni edam edərək asacaqlar. Elə o halda da beynini quşlar yeyəcək."

Onların yuxuları çin çıxdı və Yusifin(ə) söylədiyi kimi oldu. Onlardan birini dara çəkdilər və quşlar onun beynini dimdiklədilər. İkincisi isə şahın sarayında şərab paylayan oldu. Onu zindandan çıxararkən Yusif(ə) dedi: "İndi ki, şahın yanına gedirsən, orada mənim adımı da çəkərsən. Qoy mənim zindanda olduğumu bilsin."

Elə o an Allah-təala Cəbrayılın(ə) vasitəsilə ona vəhy edərək buyurdu: "Ey Yusif, sənə quyudan kim nicat verdi?"

Yusif(ə) dedi: "Allah."

Cəbrayıl(ə) soruşdu: "Züleyxa səni şərləyəndə beşikdəki uşağı kim dilə gətirdi?"

Yusif(ə) dedi: "Allah."

Cəbrayıl(ə) soruşdu: “Züleyxanın əlindən sənə nicat verən kim idi?”

Yusif(ə) dedi: “Allah.”

Cəbrayıl(ə) dedi: “Elə isə nə üçün Allahdan başqasına pənah apardın?”

Yusif(ə) həmin bir kəlmə sözə görə yeddi il də zindanda qalmalı oldu.[1]

Mərhum Ayətullah İmam Xomeyni(r) 15 illik sürgündən sonra izzət və əzəmətlə Vətəninə döndü. Qum şəhərinə gəldikdən sonra dedi ki, ata-baba evimi görmək istəyirəm. Onu Ayətullah Saneyi ilə birgə ata-baba evini görməyə apardılar. Ayətullah Saneyi deyir: “İmam pilləkənlərlə yuxarı qalxıb orada dayandıqdan sonra üzünü mənə tutub buyurdu: Yadındadırmı, 15 il bundan öncə ikimiz də bu pilləkənlərlə yuxarı çıxırdıq? Dedim: Bəli, yadımdadır. Həmin gün mənim ən mühüm xatirələrimdən biridir. Buyurdu: Yadındadırmı, o zaman sən məndən bir söz soruşmuşdun? Dedim: Bəli, yadıma gəlir. Həmin gün mən səndən soruşdum ki, şahın əleyhinə başladığın işin sonu necə bitəcək? Buyurdu: O zaman mənim sənə verdiyim cavab yadındadırmı? Dedim: Bəli, yadımdadır. Siz buyurdunuz ki, narahat olmayın, xalq bizimlədir. İmam buyurdu: On beş il sürgün olunmağımın səbəbi də məhz bircə kəlmə bu söz oldu. On beş il sürgün olunmağım həmin kəlmənin cəzası idi. Gərək mən deyəydim ki, narahat olmayın, Allah bizimlədir.”

Fərqi yoxdur, istər peyğəmbərlər olsun, istərsə də onların yolunu davam etdirən saleh insanlar olsunlar, hər bir hərəkətlərində mütləq diqqətli olmalıdırlar. Onlara hətta kiçik səhvlər etməyə də icazə yoxdur.

---

[1] Min bir əxlaqi hekayətlər, səh. 309.

Həmçinin adi insanlar da çıxılmaz vəziyyətə, çətinliyə və bəlalara düşürlərsə, bütün bunların hamısı onların etdikləri günahların nəticəsidir. Eləcə də insanların xoşbəxtliyi də onların əməllərinin nəticəsidir. Hətta insanın gördüyü kiçik bir iş belə - istər yaxşı, istərsə də pis olsun - cavabsız qalmır.

Rüstəm ibn Zal Rüstəm Zal adı ilə tanınmış bir pəhləvan idi. Zal onun atası idi. Zəmanəsinə görə o da məşhur bir pəhləvan və döyüşçü olmuşdu. Rüstəm Zal elə bir pəhləvan idi ki, heç bir kəs onun qarşısında tab gətirə bilmirdi. O dövrün pəhləvanlarından biri də İsfəndiyar idi. Rüstəm Zal onunla döyüşmüşdü, amma bir neçə dəfə İsfəndiyara məğlub olmuşdu. Nə qədər çalışmışdısa, İsfəndiyara bata bilməmişdi.

Günlərin birində o, İsfəndiyarı necə məğlub etmək barədə atasından məsləhət istədi. Onun atası, qeyd olunduğu kimi, təcrübəli və kifayət qədər məşhur bir döyüşçü idi. Atası ona dedi: "Gəl sənə bir yol öyrədim. Həmin fənddən istifadə etsən, İsfəndiyara qalib gələcəksən. Elə bir ox düzəlt ki, hər tərəfi iti olsun. Sonra onu kamana qoyub İsfəndiyarın gözünə tuşla."

Rüstəm atasının dediyi kimi etdi. Yaxşı bir ağac tapıb onun münasib budaqlarından birini qopartdı. Sonra onun hər iki tərəfini yonub möhkəm bir ox düzəltdi. Nəhayət, İsfəndiyarla döyüş yerini də təyin etdilər. Döyüş əsnasında həmin oxu kamana qoyub ona sarı atdı. Ox İsfəndiyarın gözünə sancılıb onu kor etdi. Beləcə, Rüstəm İsfəndiyara qalib gəldi.

Tarixi mənbələrdə həmin bu əhvalat qeyd edildikdən sonra onun altında belə yazılmışdır: "İsfəndiyar cavan vaxtlarında həmyaşıdlarına meydan oxuyurdu. Demək olar ki, hamıdan güclü idi. Günlərin birində bir ağacın budağı

ilə yetim bir uşağın üzünə vurdu. Həmin yetimin gözləri kor oldu. Sonra həmin budağı kənara atdı. Yoldan ötən bir nəfər həmin budağı götürüb əkdi. O budaq böyüyüb böyük bir ağac oldu. İsfəndiyarın gözlərini kor edən ox həmin ağacın budağı idi."[1]

Məgər həyatımızda baş verən bu kimi həqiqətləri danmaq olarmı? Məgər elə bir iş ola bilərmi ki, cəzasız qalsın? Hədislərdə belə nəql olunur ki, insanın ayağına dəyən kiçik bir daş belə onun etdiyi hansısa əməlinin nəticəsidir. Bəsirət də buna deyilir ki, insan üzləşdiyi xoşbəxtlik və ya bədbəxtliyin onun hansı əməlinin nəticəsi olduğunu bilsin.

Odur ki, əgər insan xoşniyyətli, yaxud yaxşı əməl sahibi olsa, Allah-təala onun üzünə rəhmət qapılarını da açaraq bərəkətini nazil edəcəkdir. Bəziləri elə düşünürlər ki, Allah insana pul-para yetirməklə öz bərəkətini nazil edir. Bəziləri də elə düşünürlər ki, Allahın müəyyən etdiyi yolu getməklə, yəni namaz qılıb oruc tutmaqla öz maddi maraqlarını əldə edə biləcəklər. Allahın yolunu tutmaq, Ona ibadət etmək insanın hidayət edilməsi və Allahla dost olması deməkdir. Ümumiyyətlə, insanın namaz qılıb-qılmamasının onun hansısa işlərinin həll olunmasına, yaxud həll olunmamasına heç bir dəxli yoxdur. Əgər bir insan işlərinin düzəlməsi üçün namaz qılırsa və bu zaman işlərinin korlandığını görüb namazı tərgidirsə, onun bu əməli Allahı tanımamazlıq və mərifətsizlik kimi qəbul ediləcəkdir. Namaz insan üçün vacib olan bir əməldir. İstər rahat vaxtlarda və istərsə də çətin hallarda ona riayət etmək lazımdır. İnsan Allaha ona görə ibadət etmir ki, Allah onun maddi istəklərini yerinə yetirsin. Əgər insan

---

[1]500 dastan, 1-ci cild, səh. 568.

xoşniyyətli olsa və yaxşı işlər görsə, Allah-təala həmin şəxsə rəhmət qapılarını açar və onu hidayət edər. Bir insan üçün hidayət olunmaqdan yaxşı daha nə ola bilər?

Tarixi mənbələrdə yazıldığına görə, bir məntəqədə mənəviyyatsız və qəddar bir insan yaşayırmış. Onun çox yaxşı imkanları və sərvəti var idi. Gün-güzəranı da günahlar etməklə keçirmiş. Günlərin birində o, bir nəfərin evinə qonaq getmişdi. Ev yiyəsi kasıb bir adam idi. Bir az söhbət etdikdən sonra ev yiyəsi öz-özünə fikirləşdi ki, belə bir fürsət bir də ələ düşməz. Əgər qızımı ona ərə versəm, mən də kasıbçılıqdan canımı qurtarmış olaram. Beləliklə, söhbət əsnasında həmin varlı şəxsə dedi: "Mən öz qızımı sənə ərə verməyə hazıram. İstərdim ki, onunla ailə qurub xoşbəxt olasınız." O dedi: "Sən nə üçün qızını mənə verməyə razısan? Məgər onu istəyən yoxdurmu?" Ev yiyəsi dedi: "Onun cavan bir əmisi oğlu var. Həmin oğlan qızımı istəyir. Qızımın da ondan xoşu gəlir. O, çox kasıbdır. Amma mən istəyirəm ki, qızımı sən alasan."

Qonaq bir qədər düşünüb deyir: "Əgər sən imkansızlığa görə onların ailə qurmasına razı deyilsənsə, onda mən belə bir iş görə bilərəm. Mən sənin qızını istəmirəm. Əmisi oğlu onu, o da əmisi oğlunu sevir. Mən onların bütün xərclərini üzərimə götürüb bu iki gənci evləndirirəm. Qoy, bir-birini sevən bu iki gənc ailə qurub xoşbəxt olsunlar."

Həmin varlı şəxs mənəviyyatsız və qəddar olmasına baxmayaraq, bu cür xeyirxah düşüncələrlə xoşniyyətli bir iş gördü. Dediyi kimi, həmin gənclərin bütün toy xərclərini çəkib onları evlə də təmin etdi.

O deyir: "Həmin gənclərin toyundan sonra şərab almaq üçün mağazalardan birinə girdim. Orada cürbəcür şərablar var idi və mən bir az dayanıb hansından alacağımı düşünürdüm. Amma sonra gördüm ki, könlümdən daha

şərab içmək keçmir. Heç nə almayıb mağazadan çıxdım və evə getdim. Bir müddət evdə əyləşdikdən sonra gördüm ki, daha günah etməyə həvəsim yoxdur. Yavaş-yavaş əyri yola və günah əməllərə nifrət etməyə başladım və tədricən məndə düz yola qayıtmağa həvəs artdı. Sonra öz-özümə dedim: Nə üçün evdə oturmuşam. Çıxım bir az çöldə gəzişim. Evdən çıxdıqda çöldə yaxşı havanın olduğunu görüb yavaş-yavaş şəhərdən aralandım. Uca bir təpənin üstünə qalxıb dayandım. Elə bu an ürəyimdən Allaha səcdə etmək həvəsi keçdi. Səcdəyə gedib üzümü torpağa qoyaraq dedim: "İlahi, nə vaxta qədər Səndən uzaq gəzəcəyəm." Bu minvalla Allah yoluna qayıdıb namaz qılmağa və digər ibadətləri yerinə yetirməyə başladım. Sonra başa düşdüm ki, mənim hidayət olunmağım həmin iki gəncin arasında vasitəçi olmağımla bağlıdır. Mən onların ailə qurmasına səbəb olduğum üçün Allah rəhmət qapılarını üzümə açdı və məni hidayət etdi."

Odur ki, insan mütləq etdiyi əməllərin nəticəsi ilə qarşılaşır. Bəzən etdiyi bircə əmələ görə hidayət olunur və izzət tapır. Bütün bunların hamısı insanın niyyətindən asılıdır ki, Allah-təala onu hidayət edir. Bəzən də insanların əməllərinin nəticəsində cəmiyyət çox acınacaqlı və pis vəziyyətə düşür. Burada Həzrət Peyğəmbərdən(s) gözəl bir hədisi diqqətinizə çatdırmaq istərdim.

قَالَ رسولُ اللهِ(ص): إِذَا عمِلَت أُمتي خمس عشرةَ خصلَةً حل
بِها الْبلَاءُ. قِيلَ يا رسولَ اللهِ و ما هِي؟ قَالَ: إِذَا كَانتِ الْمغانِم
دولًا و الْأمانةُ مغنماً و الزكَاةُ مغرماً و أَطَاع الرجلُ زوجته و عق
أُمه و بر صدِيقَه و جفَا أَباه و كَانَ زعِيم الْقَومِ أَرذَلَهم و أَكْرمه

الْقَوم مخافَةَ شرِه... و اتخذُوا الْقَيناتِ و ضربوا ِبالْمعازِفِ...
فَلْيرتقَب عِند ذَلك الريح الْحمراءُ أَوِ الْخسف أَوِ الْمسخ

-Həzrət Peyğəmbər(s) buyurmuşdur: "Əgər mənim ümmətimdə on beş xislət (əməl) yaransa, bəlaya düçar olacaqlar. Soruşdular: Ya Rəsulallah, o xislətlər hansılardır? Peyğəmbər(s) buyurdu: Camaatın gəliri (pulu) bir qrup insanın əlində olsa, əmanətlər qənimət sayılsa, zəkat verməyi ziyana düşmək kimi başa düşsələr, kişi arvadına itaət edib anasının üzünə ağ olsa, övlad dostuna qarşı mehriban və atasına qarşı cəfakar olsa, ən mənəviyyatsız insan həmin cəmiyyətə hakim olduqda, insanlar onun qorxusundan ona ehtiram göstərsələr, cəmiyyətdə müğənni qadınlar oxumaqla məşğul olsalar, qırmızı küləklər (tufan), yaxud yerin batması (sürüşmələr, yerin aralanması) və yaxud insanların məsx olunması kimi bəlaların nazil olmasını gözləyin."[1]

**Məsx nədir?**

"Məsx" elə bir bəladır ki, keçmiş peyğəmbərlərin zamanında baş vermişdir. Bu sözün bir neçə mənası vardır ki, onlardan biri insanların heyvan şəklinə düşməsidir və tarixdə bu bəla Allah tərəfindan nazil olmuşdur. Allah-təala yəhudilərə həftənin şənbə günü balıq tutmağı haram etmişdi. Onlar Allahın bu qadağasına əhəmiyyət vermədikləri üçün Allah onlara belə bir bəla nazil etmişdi. "Bəqərə" surəsinin 65-ci ayəsində bu haqda belə oxuyuruq:

ولَقَد عِلمتم الَذِين اعتدوا ِمنكُم ِفي السبتِ فَقُلْنا لَهم كُونوا ِقردةً خاسِئِين

---

[1] Yasin surəsinin təfsiri, Seyid Məhəmməd Ziyaabadi, səh. 77.

-Və əlbəttə, siz içərinizdən şənbə günü (Allahın əmrindən) çıxanları (və həmin günü balıq tutanları) tanıdınız. Biz onlara dedik: "Meymun və (Bizim dərgahımızdan) qovulmuşlar olun!" (Onların bu cür olmalarını istədik, elə bu cür də oldular.)

İslam Peyğəmbəri(s) aləmlərə rəhmət olaraq göndərildiyi üçün Allah-təala onun hörmətinə xatir keçmiş peyğəmbərlərin zamanında nazil etdiyi bu kimi bəlaları onun ümmətinə nazil etməyib. Yəni əgər bu gün insanlara bəlalar nazil olursa, keçmişdəki bəlalar kimi deyil. Hədislərdə belə nəql olunur ki, insanlar yeni- yeni günahlar etdikcə Allah da onlara yeni bəlalar nazil edər. Bu gün dünyada milyonlarla insanın müxtəlif bəla və çarəsi tapılmayan xəstəliklər üzündən həlak olması da buna sübutdur. Doğrudur, İslam ümməti keçmiş peyğəmbərlərin ümmətlərinə nazil olan "insanın heyvan surətinə düşməsi" kimi bəlalara düçar olmurlar, amma "məsx"in digər mənalarını cəmiyyətdə müşahidə etmək mümkündür.

"Məsx"in ikinci mənası budur ki, hər şey öz dadını itirər. Məsələn, meyvə-tərəvəzlərə diqqət yetirdikdə onların zahirinin gözəl olmasına baxmayaraq, heç bir dadı yoxdur. Vaxtilə gözəl, bal kimi şirin və ətirli armudlar olardı. Amma indi armudun zahiri gözəlliyi var, amma dadının nə olduğu bəlli deyil. Əgər bir insanın gözlərini bağlayıb indiki armudlardan yedizdirsələr, o, nə yediyini əsla anlamayacaqdır. Çünki onda armud meyvəsinin tamı hiss olunmur. Təkcə meyvə- tərəvəz deyil, hər bir şeyin dadı tamamilə dəyişmişdir. Məsələn, quşçuluq fabriklərində elə yemlər verirlər ki, cücələr artıq qırx günün içərisində bazara satışa çıxarılır. Amma dünyada elə dərman və yemlər də vardır ki, daha güclü olduğuna görə cücələr onu yedikdə on bir günə böyüyürlər və beləcə, onları bazarlara

satışa çıxarırlar. On bir günə əmələ gəlmiş bir toyuğun ətinin nə dadı ola bilər?

Bütün bunlar öz yerində, hətta cəmiyyətdə də insanlar arasında dostluğun, qonşuluğun və s. kimi dəyərlərin də dadı qalmayıb. Keçmişdə qonşu öz qonşusu ilə bir ailə kimi rəftar edərdi. Amma indiki dövrdə isə bir binada yaşamalarına baxmayaraq, qonşu qonşusunu tanımır. Həmçinin iffət, qeyrət, namus və sədaqət kimi dəyərlərin də dadı qalmayıb. Bir qədər keçmişə diqqət yetirdikdə qadınların necə namuslu və iffətli olduğunu müşahidə etmək olur. Lakin indiki dövrdə bu cür qadınlara çox az-az rast gəlmək mümkündür.

Tarixi mənbələrdə yazılanlara görə, Bəsrədə hakimiyyəti devirmiş zalım hökmdarlardan biri taxta çıxdıqdan sonra bütün ordunu camaatın canına salır. Əsgərlər şəhər camaatının namusuna əl atmağa başlayırlar. Bir qadın hökmdarın yanına gəlib deyir: "Mən əcnəbilərin əlinə düşmüşəm. İffətim əldən getmək üzrədir. İstəyirsənmi sənə elə bir dua öyrədim ki, qılınc zərbələri sənə təsir etməsin? Hökmdar deyir: Bəli, istəyirəm. Mən belə bir duanı çoxdandır ki, axtarıram. Qadın deyir: Əgər o duanı sənə öyrətsəm, məni bu təcavüzkarların əlindən azad edərsənmi? Hökmdar onunla razılaşdıqdan sonra qadın deyir: İlk növbədə həmin duanı mən oxuyum və sən də qılıncla mənə möhkəm zərbə vur. Görsən ki, qılınc mənə təsir etmədi, o zaman mənim dediklərimə inamın artacaq." Hökmdar onunla razılaşdı. Qadın dilinin altında yalandan nəsə oxuduqdan sonra hökmdar qılıncla onun başına möhkəm bir zərbə vurdu. Qadının başı iki hissəyə parçalandı və öldü. Qadın bu hərəkəti ilə hökmdara başa saldı ki, sənin əsgərlərinin təcavüzünə məruz qalmaqdansa, belə ölmək mənim üçün daha yaxşıdır.

Yəni bir zamanlar qadın ölməyinə razı olardı, amma həyat yoldaşına xəyanət etməzdi. Amma indi bəzən görürsən ki, qadın hələ ərindən boşanmadan başqasına ərə getmək haqda düşünür. Yaxud ərini və uşaqlarını ataraq başqasına qoşulub qaçır.

İndiki zamanda dostun dostuna olan məhəbbəti və mehribançılığı da qabaqkı kimi deyildir. Qabaqlar dost öz dostunu qardaşı, onun evini öz evi, namusunu öz namusu kimi qəbul edərdi. Dost öz dostuna görə hər bir çətinliyə dözərdi. Tarixə bir nəzər yetirdikdə dostluğun bariz nümunələrinə kifayət qədər rast gəlmək mümkündür. Hətta döyüş meydanlarında dost dostunu özündən üstün tutardı.

Həzifə Həzrət Peyğəmbərin(s) yaxın səhabələrindən biri idi. O deyir: "Yərmuk müharibəsində hər gün bir dəstə müsəlman əsgəri döyüşə gedirdi. Bir neçə saatdan sonra onların bəzisi şəhid olurdu, bir qismi isə sağ-salamat geri qayıdırdı. Mənim əmim oğlu da döyüşə getmişdi. Amma o, geri qayıtmadı. Mən onu axtarıb tapmaq üçün özümlə bir az su götürüb döyüş meydanına getdim. Yaralıların arasında bir-bir axtarıb onu tapdım. Onun yanına gəlib salam verdim. Onu yaralayıb yerə yıxmışdılar. Ona dedim ki, su istəyirsənmi? Dedi: "İstəyirəm." Suyu qaba töküb ona vermək istəyərkən, o biri tərəfdən başqa bir yaralı məni səslədi və dedi: "O sudan mənə də ver." Əmim oğlu mənə dedi: "Bu suyu apar ona içirt." Dedim: "Yaxşı, sən bunu iç, mən onun üçün də apararam." Dedi: "Yox, birinci o içsin, sonra mən içərəm." Suyu onun yanına aparıb dedim: "Gəl, suyu içməkdə sənə kömək edim." Bu zaman başqa bir yaralı səsləndi ki, mənə də su ver. Bu yaralı dedi: "Apar suyu ona ver." Mən suyu həmin yaralıya aparıb yavaş-yavaş başını qaldırdım ki, su içsin. O, suyu

içmək istəyərkən baxıb gördü ki, əlimdəki qab doludur. Məndən soruşdu: “Bəs o biri yaralılar su içmədilərmi?” Dedim: “Xeyr, onlar istədilər ki, birinci sən içəsən, sonra onlar içsinlər.” Yaralı dedi: “Xeyr, bu mümkün deyil. Apar onlar içsinlər, əgər qalsa, mən də içərəm.”

Mən suyu götürüb birinci yaralının yanına qayıtdım ki, ona su içizdirim. Baxıb gördüm ki, o, artıq dünyasını dəyişib. İkinciyə yaxınlaşanda gördüm ki, o da şəhid olub. Yenidən həmin üçüncü yaralının yanına qayıtdım ki, suyu ona verim. Ona yaxınlaşana qədər o da artıq dünyasını dəyişmişdi.”

Tarixin bu kimi səhifələrindən açıq-aydın şəkildə görürük ki, insanlar bir-biri ilə necə dostluq edirmişlər. Dodaqları susuzluqdan çat-çat olmuş yarımcan bir vəziyyətdə olmalarına baxmayaraq, suyu içməyib onu öz dostu üçün göndərirdi.

Deməli, “məsx”in bir mənası budur ki, əgər insanlar Həzrət Peyğəmbərin(s) buyurduğu həmin xislət və günahlara aludə olsalar, belə bir cəmiyyətdə hər bir şey öz dadını itirər. “Məsx”in üçüncü mənası isə insanın əxlaqi keyfiyyətlərinin heyvani xüsusiyyətlərlə əvəz olunması və onun ruhunun surətinin dəyişilməsidir. Yəni insanın zahiri görünüşü deyil, onun ruhunun surətinin heyvani surətlə əvəz olunmasıdır. “Nəhcül-bəlağə”də Həzrət Əlinin(s) bu haqda bir xütbəsi vardır. İmam(ə) həmin xütbədə bir mətləbdən söz açmış və burada iki qrup insanı vəsf etmişdir. Birinci qrup insanlar möminlərdir ki, Həzrət(ə) bu xütbədə onları Allahın sevimli bəndələri kimi təqdim edərək onların sifət və xüsusiyyətlərini sadalayır. Sonra isə ikinci qrup insanlar, yəni Allahın acığı gələn insanlar barəsində belə buyurur:

و آخر قَد تسمى عاِلماً و لَيس ِبِه فَاقْتبس جهاِئلَ ِمن جهاٍل و أَضاِليلَ ِمن ضلاٍل و نصب ِللناِس أَشراكاً ِمن حباِئِل غُروٍر و قَوِل زوٍر قَد حملَ الْكِتاب علَى آراِئِه و عطَف الْحق علَى أَهواِئِه يؤمن الناس ِمن الْعظَاِئِم و يهونُ كَِبير الْجراِئِم يقُولُ أَِقف ِعند الشبهاِت و ِفيها وقَع و يقُولُ أَعتِزلُ الِْبدع و بينها اضطَجع فَالصورةُ صورةُ ِإنساٍن و الْقَلْب قَلْب حيواٍن لَا يعِرف باب الْهدى فَيتِبعه و لَا باب الْعمى فَيصد عنه و ذَِلك ميت الْأَحياِء فَأَين تذْهبونَ و أَنى تؤفَكُونَ و الْأَعلَام قَاِئمةٌ و الْآيات واِضحةٌ و الْمنار منصوبةٌ فَأَين يتاه ِبكُم بلْ كَيف تعمهونَ و بينكُم ِعترةُ نِبيكُم

-Digəri isə *(o kəsdir ki,)* nadan olduğu halda özünü alim, bilikli adlandırar. Nadanlardan nadanlığı, azğınlardan isə azğınlığı öyrənib[1] aldadıcı kəndirlərdən və yalan sözlərdən camaata tələ qurar.[2] Kitabı *(Qurani-Kərimi)* öz düşüncələri əsasında daşıyıb *(təfsir edər)* və haqqı öz istəklərinə uyğunlaşdırıb, camaatı böyük təhlükələrdən arxayın salar, böyük günahları *(onların nəzərində)* asanlaşdırar. İçində batdığı halda *(riyakarlıqla və özünü göstərməklə)* şübhələrdən *(şübhəli və qaranlıq hökmlərdən)* uzaqlaşdığını deyər *(hökm verər və şəriət hökmləri, onun halları barəsində nadan olduğuna görə hər bir qaranlıq məsələ onun nəzərində doğru olar)*. Onların arasında yatdığı halda bidətlərdən

---

[1] Sözləri və əməlləri ilə onların ardınca gedər.
[2] Ovçu ovunu tora salmaq üçün aldatdığı kimi, o da camaatı cəlb etmək üçün nadürüst söz və əməlləri ilə aldadar.

*(şəriət qanunlarına zidd hökmlərdən)* çəkindiyini söylər (*verdiyi hər hökm bidətdir). (Onun)* surəti insan surəti, *(onun)* qəlbi isə heyvan qəlbidir. Hidayət qapısını və doğru yolu tanımır ki, *(ona qədəm qoyub)* onun ardınca getsin. Nadanlıq və korluq qapısını tanımır ki, ondan uzaqlaşsın. O, dirilərin arasında bir ölüdür.[1]

*(İndi ki, haqqı və batili tanıdınız, Allahın sevdiyi və düşmən bildiyi bəndələri bildiniz)* hara gedirsiniz? *(Hansı yola gedirsiniz ki, daha layiqli olsun)* və *(haqqın)* bayraqları asıldığı, *(ürəyin)* nişanələri aşkar göründüyü, *(hidayət və qurtuluşdan)* mayak qurulduğu halda sizləri *(hidayət və nicat yolundan)* necə döndərirlər? Bəs sizi harada heyran və sərgərdan ediblər? Peyğəmbərinizin əhli-beyti *(pak imamlar)* aranızda olduğu halda necə heyran və sərgərdansınız?[2]

Həzrət Əlinin(ə) söylədiyi xütbənin bu hissəsində açıq-aydın şəkildə bəyan olunur ki, bəzi insanların zahiri insan surətində olmasına baxmayaraq, qəlb və ruhunun surəti heyvan qiyafəsini almışdır. Quran ayələrinə diqqət yetirdikdə də bu kimi insanların simaları ilə tanış oluruq. Nümunə üçün həmin ayələrdən bir neçəsinə diqqət yetirək. Allah-təala "Muhəmməd" surəsinin 12-ci ayəsində belə buyurur:

إِن الله يدخِلُ الذِين آمنوا وعمِلُوا الصالحاتِ جناتٍ تجرِي مِن تحتِها الْأنهار والذِين كَفَروا يتمتعونَ ويأْكُلُونَ كَما تأْكُلُ الْأنعام والنار مثْوى لهم

-Həqiqətən, Allah iman gətirib yaxşı işlər görənləri (ev və ağaclarının) altından çaylar axan cənnət və bağlara daxil edəcəkdir. Küfr edənlər isə (dünya ləzzətlərindən)

---

[1] Çünki həyatın məqsədi insanı səadətə çatdıran fəzilətləri əldə etməkdir. Cahil bu fəzilətlərdən faydalanmadığına görə ölü kimidir, bəlkə də həqiqi ölü odur.

[2] Nəhcül-bəlağə, 86-cı xütbə.

bəhrələnir və heyvanlar kimi yeyirlər (həyatın əsas məqsədini yemək və bəhrələnmək hesab edirlər) və (nəhayət) onların yeri oddur.

“Furqan” surəsinin 43-44-cü ayələrində belə buyurulur:

أرأيت من اتخذ إلهه هواه أفأنت تكون عليه وكيلا. أم تحسب أن
أكثرهم يسمعون أو يعقلون إن هم إلا كالأنعام بل هم أضل سبيلا

-Nəfsani istəklərini öz tanrısı etmiş kəsi gördünmü? Yoxsa sən onun (doğru yola gəlməsi və ya axirət əzabından qorunması) işlərini düzəldəcəksən?!

Yoxsa onların çoxunun (sənin dediklərini) eşitdiyini və ya düşündüyünü güman edirsən? (Xeyr,) onlar yalnız heyvanlar kimidirlər, hətta daha azğındırlar. (Çünki heyvanlar yaradılışın hədəf və məqsədi istiqamətindəki yollarını instinktlə düzgün gedirlər, bunlar isə yox!)

“Əraf” surəsinin 179-cu ayəsində belə buyurulur:

ولقد ذرأنا لجهنم كثيرا من الجن والإنس لهم قلوب لا يفقهون بها
ولهم أعين لا يبصرون بها ولهم آذان لا يسمعون بها أولئك
كالأنعام بل هم أضل أولئك هم الغافلون

-Doğrudan da Biz cin və insanların çoxunu (sanki) cəhənnəm üçün yaratmışıq. Çünki onların qəlbləri var, amma onunla (həqiqətləri) dərk etmirlər, onların gözləri var, lakin onunla (ibrət üçün) baxmırlar və onların qulaqları var, amma onunla (haqq maarifi) eşitmirlər. Onlar heyvanlar kimi, bəlkə (onlardan) daha azğındırlar (çünki onlar inkişaf və təkamül istedadına malik olduqları halda, batil və puç yola gedirlər) və onlar həmin qafillərdir.

Bu ayələrdən də açıq-aydın şəkildə görürük ki, insan öz pis əməlləri və günahları nəticəsində ruhunu heyvan

surətinə salır. Bu da "məsx"in bir növüdür ki, insanın zahiri görkəmi öz yerində qalır, amma ruhunun surəti heyvan surətinə düşür. İnsanın xislət və hərəkətləri onun ruhunu heyvan surətinə çevirir.

Həzrət İbrahim(ə) günlərin birində Allaha belə ərz etdi: "İlahi, mənə ölüləri necə diriltdiyini göstər." Allah-təala bu məsələni Quranda belə bəyan edir:

وإِذْ قَالَ إبراهِيم رب أرِني كَيف تحِيِـي الْموتى قَالَ أولَم تؤمِن
قَالَ بلَى ولَـكِن ليطْمِئن قَلْبِي قَالَ فَخذْ أربعةً من الطيرِ فَصرهن
إِلَيك ثُم اجعلْ علَى كُل جبلٍ منهن جزءًا ثُم ادعهن يأْتِينك سعيا
واعلَم أن اللّه عزِيز حكِيم

-(Yada sal) o zaman(ı) ki, İbrahim dedi: "Ey Rəbbim, ölüləri necə diriltməyini mənə göstər." Dedi: "Məgər (Mənim qüdrətimə) imanın yoxdur?" Dedi: "Əksinə, (imanım var)! Lakin qəlbimin rahatlıq tapması üçün (istədim)." Dedi: "Belə isə dörd (növ) quş götür, (cisimlərində olan əlamətləri dəqiq görə bilməyin üçün) onları özünə yaxınlaşdır və (onları) tikə-tikə doğra(yıb bir-birinə qat). Sonra (bu ətrafdakı) hər dağın başına onlardan bir parça qoy. Daha sonra onları çağır, sürətlə sənin yanına gələcək-lər. Bil ki, Allah yenilməz qüdrət və hikmət sahibidir."[1]

Hədislərdə həmin dörd növ quşun adı qeyd olunmuşdur. Onlardan biri tovuz, biri kərkəz (quzğun), biri xoruz, biri isə ördək idi. Mərhum Şeyx Səduq "Xisal" kitabında bu dörd quş barədə belə bir hədisi nəql etmişdir. Tovuzda məqsəd dünyaya və dünya zinətlərinə bağlılıqdır. Tovuz quşu gözəl olduğu üçün dünyanın zinətləri ona

---

[1] Bəqərə surəsi, 260-cı ayə.

bənzədilmişdir. Kərkəzdə məqsəd uzun-uzadı arzulardır. Xoruzda məqsəd şəhvətdə həddi aşmaqdır. Ördəkdə məqsəd isə tamahdır.

Deməli, hər kəs yəqinə, xoşbəxtlik və kamala çatmağın yolunu tapmaq istəyirsə, ürəyində olan bu dörd xüsusiyyəti özündən uzaqlaşdırmalıdır. Bu xüsusiyyətlər insanın daxilində olan heyvani keyfiyyətlərdir. Həmin keyfiyyətlər həddini aşdıqca insanın təkamül yolunu tapmasının qarşısını alır. Məsələn, tamah elə bir xüsusiyyətdir ki, ona imkan verildikcə və ipini boşaltdıqca insanı bədbəxtliyə doğru sürükləyir. Dünyada tökülən bu qədər qanlar insanın daxilindəki heyvani xislətlərə görədir. Tamahkarlıq və bəzi başqa xislətlər elə bir xislətdir ki, insan qocaldıqca onlar insanın daxilində daha da güclənir və cavanlaşır.

Günlərin birində Harun ər-Rəşid deyir: "Görəsən bu dövrdə Həzrət Peyğəmbəri(s) öz gözləri ilə görüb onun kəlamını eşidən bir insan tapılarmı?" Həmin vaxt Həzrət Peyğəmbərin(s) vəfatından təxminən 120 il keçmişdi. Harunun bu sözünü eşitdikdə hamı bir-birinin üzünə baxıb təəccüblənir. Saray xidmətçiləri Harunun göstərişinə əməl etmək üçün şəhərdə axtarışa başlayırlar. Nəhayət, qocalıb əldən düşmüş bir kişini tapırlar. Ondan soruşurlar: "Sən Peyğəmbəri(s) gözlərinlə görmüsənmi?" Qoca deyir: "Əlbəttə ki, görmüşəm." Soruşurlar: "Sən Həzrətin(s) dilindən bir hədis eşitmisənmi?" Qoca deyir: "Bəli."

Harunun adamları onu bir zənbilin içinə qoyub saraya gətirirlər. Harun ondan soruşur: "Əmican, sən Həzrət Peyğəmbəri(s) görmüsənmi?" Qoca deyir: "Bəli, görmüşəm." Harun deyir: "Peyğəmbərdən(s) bir hədis eşitmisənmi?" Qoca deyir: "Mən kiçik uşaq idim. Bir gün atam əlimdən tutub məni Həzrət Peyğəmbərin(s) məscidinə apardı.

Peyğəmbər(s) minbərdə xütbə oxuyurdu. Onun bir sözü mənim yadımda qalıb. Həzrət(s) buyurdu ki, insan qocaldıqca onda olan iki xüsusiyyət cavanlaşar. Biri tamahdır, biri isə uzun-uzadı arzulardır."

Harun bunu eşidib sevindi. Ona görə sevindi ki, Həzrət Peyğəmbərin(s) dilindən bilavasitə hədis eşitmiş bir insanı görürdü. Ona görə də əmr verdi ki, qocaya yaxşı bir hədiyyə versinlər. Gətirib ona qızıl verdilər və qocanı yenidən zənbilin içinə qoyub apardılar. Yolda qoca kişi dedi: "Mənim Haruna deyəsi sözüm var. Orada yadımdan çıxmışdı, lakin indi yadıma düşdü." Qulluqçular bu xəbəri Haruna çatdırdılar. Harun dedi: "Qocanı geri qaytarın. Görüm onun mənə nə sözü var?" Qocanı gətirdilər. Harun soruşdu: "Əmican, mənə nə demək istəyirsən?" Qoca dedi: "Mənə verdiyin bu bəxşiş birdəfəlikdir, yoxsa hər il verəcəksən?" Harun gülümsəyib dedi: "Həqiqətən də Peyğəmbər(s) düz buyurmuşdur. İnsan qocaldıqca tamahı daha da artır."

Sultan Mahmud Qəznəvi dünyanın böyük şahlarından biri idi. O, dünyasını dəyişdikdən sonra Xorasan şahlarından biri onu yuxuda görür. Görür ki, onun bütün bədəni çürüyüb, lakin gözləri olduğu kimi qalıb. Yuxudan ayıldıqdan sonra bütün bədəninə titrəmə düşür. Belə bir yuxu onu fikir dəryasına qərq edir. Bir çox yuxu yozanlar gəlirlər, lakin onun bu yuxusunu yoza bilmirlər. Axırda gedib təcrübəli və peşəsi yuxu yozmaq olan qoca bir kişini tapırlar. Şahın yuxusunu ona da danışırlar. Qoca deyir: "Bu yuxunu yozmaq çox asan işdir. Şahın yuxusunun mənası budur ki, Sultan Mahmud Qəznəvi dünyadan gedib, amma hələ də gözləri səltənətində qalıb."

Odur ki, insanların zahiri surətinin insan qiyafəsində olmasına baxmayaraq, bəzən onların daxilindəki müxtəlif

heyvani xislətlərin tüğyan etməsi ilə ruhları da heyvani şəkil alır. Əgər insanın bəsirət gözü açıq olsa, o zaman hansı ruhun hansı şəklə düşdüyünü görə bilər. İmam Hüseyn(ə) Kufəyə hərəkət edərkən çox insanlar onun getməyinə razı olmayaraq dedilər: "Əgər getsən, qan töküləcək. Yaxşısı budur ki, sən ora getməyəsən." İmam Hüseyn(ə) onların cavabında buyurdu: "Siz elə bilirsiniz ki, mən hara getdiyimi bilmirəm? Mən iki barmağımın arasından görürəm ki, Kərbəla çölündə Kufənin ac canavarları və itləri mənim bədənimin əti ilə öz qarınlarını doyururlar."

İmamın(ə) bu sözlərinə daha diqqətlə yanaşdıqda görürük ki, Həzrət(ə) ruhunun qiyafələrini it və canavar şəklinə salmış insanlara işarə edərək bildirir ki, onlar insanlıqdan çıxıb özlərini heyvan surətinə salmışlar. Odur ki, yuxarıda qeyd olunan xütbədə Həzrət Əli(ə) belə insanlara işarə edərək buyurur: "Onların surəti insan surəti, qəlbi (ruhu) isə heyvan qəlbidir."

## 20-22-ci AYƏLƏRİNİN TƏFSİRİ

**وجاء مِن أقْصى الْمدِينةِ رجلٌ يسعى قَالَ يا قَومِ اتبِعوا الْمرسلِين.٢٠. اتبِعوا من لا يسألُكُم أجرا وهم مهتدونَ.٢١. وما لِي لا أعبد الذِي فَطَرنِي وإلَيهِ ترجعونَ.٢٢.**

**20. "Şəhərin ən ucqar yerindən bir kişi tələsik gəlib dedi: "Ey mənim qövmüm, bu elçilərə tabe olun."**

**21. "Sizdən heç bir muzd istəməyən və özləri də hidayət olmuş kəslərə tabe olun."**

**22. "Axı mən niyə məni yaradana ibadət etməməliyəm, halbuki hamınız Onun hüzuruna qaytarılacaqsınız?!"**

Bu ayələr "Əshabul-qəryə"nin hadisəsinin ikinci hissəsi haqda söz açır. Oranın əhalisinin çoxu İsa Peyğəmbərin(ə) göndərdiyi elçiləri qəbul etməyib onları işgəncələrə məruz qoydular. Hadisənin ikinci yarısı bundan sonra başlanır ki, birinci dəfə iki elçi şəhərə daxil olarkən yaşlı bir kişi ilə görüşüb söhbət etdilər. Ayədə Həbib Nəccarın adı çəkilməmiş və onun adının əvəzinə (kişi) sözündən istifadə edilmişdir. Burada həmin qeyri-müəyyən sözdən istifadə olunmasında məqsəd onun əlində heç bir iqtidarın olmadığını və öz yolunda tək-tənha olduğunu bəyan etməkdir. Həqiqətdə isə o, nur və imanın hərarəti ilə elə bir vəziyyətə gəlib çatmışdı ki, tövhid yolunda mübarizə edənlərin qarşısına çıxan çətinliklərə baxmadan mübarizə meydanına qədəm basdı. Rəvayətlərə əsasən, həmin kişinin iki adı var idi. Bir adı "Həbib Nəccar", digəri isə "Ali-Yasin mömini" idi. Bu kişi həmin peyğəmbərlərlə söhbət edib möcüzələrini gördükdən sonra onlara iman gətirdi.

O, öz gördüyü işlə İslam Peyğəmbərinin(s) dövründəki çox az olan möminlərə örnək oldu. Möminlər bildilər ki, hətta bir nəfər mömin də məsuliyyət daşıyır və sakit oturmaq onun üçün düzgün deyil.

"Şəhərin uzaq nöqtəsi" ("əqsəl mədinəti") ibarəsindən başa düşülür ki, həmin elçilərin sorağı şəhərin ucqar yerlərinə də gedib çatmışdı və onları qəbul etməyə hazır olan qəlblərə öz təsirini göstərmişdir. Bundan əlavə, bu ibarədən başa düşülür ki, şəhərin ucqar nöqtələri məzlum və kasıb insanların mərkəzi sayılır və onları asanlıqla yola gətirmək mümkündür. Ancaq şəhərin mərkəzi isə rifah cəhətdən təminatı əla vəziyyətdə olanların yeridir və onları yola gətirmək isə bir o qədər də asan iş deyildir.

Şəhər əhalisinin peyğəmbərlərə işgəncə verdiyini eşitdikdə tez-tələsik özünü oraya çatdırdı və peyğəmbərləri müdafiə edərək öz tayfasına nəsihətlər verməyə başladı. Ayələrdə onun öz qövmü ilə mübarizəsi və nəsihəti haqda belə yazılıb: "Ey mənim qövmüm, bu elçilərə tabe olun." Bu sözdən sonra isə öz qövmü ilə məntiq və dəlil-sübutla söhbət etməyə başlayır: "Sizdən heç bir muzd istəməyən və özləri də hidayət olunmuş kəslərə tabe olun."

Deməli, əgər dəvət edən insanlar haqq olmadıqda iki əlamətlə tanınarlar. Bunun birinci əlaməti odur ki, onların danışdığı sözlər boş və əsassız olar, ikincisi isə odur ki, öz mənfəət və xeyirləri üçün çalışarlar. Amma həmin peyğəmbərlərdə bu əlamətlərin heç biri görünmür. Muzd istəməmək onların doğru söyləmələrinin birinci nişanəsidir. Bununla da məlum olur ki, onlar öz dəvətlərində maddi mənfəət güdmürlər, müşriklərdən heç bir cah-cəlal, hətta heç təşəkkür də belə istəmirlər. Belə olduqda şübhəsiz ki, onların sözləri doğrudur.

İkincisi isə onların sözləri boş və əsassız deyildir. Onların danışıqlarında bizi yoldan çıxardacaq bir söz yoxdur. Onlar bizə Allaha səcdə etməyi, yalan danışmamağı, başqalarının namusuna baxmamağı və s. məsələləri tövsiyə edirlər. Onların sözlərində bizi azğınlığa və pozğunluğa tərəf yönəldən heç bir ifadə yoxdur. Əksinə, onlar bizi əyri yoldan düz yola hidayət edirlər. Daha sonra isə deyir: "Və hum muhtədun." ("Onlar düz yolda olanlardırlar.") Onların dəvətindən də doğru yolda olmaları başa düşülür. Əgər bir insan camaatı düz yola dəvət edirsə və camaat da onun dəvətinə mənfi cavab verirsə, bunun səbəbi ya həmin yolun düzgün olmamasıdır, ya da dəvət edən insanların şəxsi mənfəət güdməsidir. Bu da son nəticədə camaatın nifrətinə səbəb olur. Ancaq əgər bir dəvətdə həmin göstərilən iki səbəbdən heç biri olmazsa, daha o dəvətdə şübhə yeri qala bilərmi?

Həbib Nəccar bunları söylədikdən sonra peyğəmbərlərin dəvətinin haqq olduğunu sübut etmək üçün daha bir dəlil və sübut gətirir. Bu dəlildə peyğəmbərlərin dəvətinin əsas hissəsi olan "Tövhid"ə işarə edərək deyir: "Mən nə üçün məni yaradan Allaha itaət etməyim? Bütün nemətləri xəlq edib onları məxluqlara əta edən Allah-təalanın itaət edilməyə ləyaqəti vardır. Əlindən heç nə gəlməyən bütlərin isə bir zərrə belə itaət olunmağa ləyaqətləri yoxdur. İnsanın fitrəti də onu dəyərsiz məxluqata yox, öz xaliqinə ibadət etməyə çağırır. Mən bu dəvəti necə qəbul etməyim? Bu incə məqamı "məni yaradan" ("Fətərəni") sözündən də başa düşmək olar.

Diqqəti cəlb edən məsələ budur ki, Həbib Nəccar müşriklərə belə xitab etmir: "Nə üçün sizi yaradan Allaha itaət etməyəsiniz." Əksinə, o, öz xitabında deyir: "Mən nə üçün məni yaradan Allaha itaət etməyim." Çünki peyğəmbərlərin

hamısı gətirdikləri ilahi dinə ilk növbədə özlərindən başlamışlar. Həbib Nəccar da onları tövhidə dəvət etmək üçün ilk növbədə özündən başlayır. O, bu sözlərinin müşriklərə təsir etməsinə görə özünə xitab edir. Onların vicdanlarını və fitrətlərini oyatmaq niyyətilə başa salır ki, məni yaradan Allahı bir kənara qoyub öz əlimizlə yonub düzəltdiyimiz bütlərə ibadət edimmi?

Quran ayələrinə diqqət yetirdikdə görürük ki, peyğəmbərlər insanları tövhidə dəvət edərkən eyni məntiq və sözlə danışardılar. Məsələn, "Ənam" surəsinin 14-cü ayəsində belə oxuyuruq:

قُلْ أَغَيرَ اللّهِ أَتخِذُ وِليا فَاطِرِ السماواتِ والأَرضِ وهو يطْعِم ولاَ يطْعم
قُلْ إِني أُمِرت أَنْ أَكُونَ أَولَ من أَسلَم ولاَ تكُونن مِن الْمشرِكَين

-(Ey Rəsulum) De: "Göylərin və yerin yaradanı olan və (başqalarını) yedizdirib Özü yedizdirilməyən Allahdan qeyrisini özümə başçı və yardımçı götürümmü?!" De: "Həqiqətən, mənə İslamı qəbul edən ilk şəxs olmağım əmr olunmuşdur və (mənə deyilmişdir ki,) əsla müşriklərdən olma(yım)."

Həzrət Peyğəmbərlə(s) başqalarının fərqi budur ki, başqaları camaatı qanunlarına dəvət edirlər, amma özləri həmin qanunlara əməl etmirlər. Lakin peyğəmbərlər gətirdikləri qanunlara ilk növbədə özləri əməl etməli, sonra isə camaatı həmin qanunların icrasına dəvət etməlidirlər. "Ənam" surəsinin 162-163-cü ayələrində Allah-təala Həzrət Peyğəm-bərə(s) xitab edərək belə buyurur:

قُلْ إِن صلاَتِي ونسكِي ومحياي ومماتِي لِلّهِ رب الْعالَمِين. لاَ
شرِيك لَه وبِذَلِك أُمِرت وأَناْ أَولُ الْمسلِمِين

-(Ey Rəsulum) De: (camaat da bilsin ki,) "Həqiqətən, mənim namazım, ibadət, Həcc və qurbanlığım, həyatım (bütün ömrüm) və ölümüm (ruhumun əbədi xüsusiyyətləri) aləmlərin Rəbbi olan Allaha məxsusdur (ibadətlərim Ona xatirdir və hər bir şey Onun həqiqi mülküdür). Onun heç bir şəriki yoxdur. Mənə bu (etiraf və etiqad) əmr olunmuşdur və mən ilk müsəlmanam (insan və cinlərin içərisində ilk müsəlman şəxsəm)."

Amma dünyada mövcud olan qanunlara diqqət yetirdikdə görürük ki, qanunları müəyyən edənlərin özləri bunlara riayət etmirlər. O qanunlar əsasən kasıblar, ayaq altında qalanlar, ağzında dili olmayanlar, məhkəmələrdə adamı olmayanlar, əli heç bir yerə çatmayanlar, təpiklər altında öldürülənlər və zəif insanlar üçündür. Burada söhbət hər hansı bir ölkədən getmir. Yer kürəsinin bütün ölkələrində elə bu cürdür. Həmin ölkələr içərisində istisna təşkil edən bir ölkə gördükdə isə hamısı tökülüşüb onun axırına çıxmağa çalışırlar.

Allah-təala "Zumər" surəsinin 11-12-ci ayələrində Peyğəmbərə(s) xitab edərək buyurur:

قُلْ إني أُمِرت أنْ أعبد الله مخلِصا له الدين. وأُمِرت لأنْ أكُونَ أولَ الْمسلِمين

-De: "Mənə Allaha xalis itaət və etiqadla ibadət etmək əmr edilmişdir. Həmçinin mənə əmr olunmuşdur ki, (bu dinə və kitaba) təslim olanlardan ilk şəxs olum."

Avropa alimlərindən biri deyir: "İnsan barmağı ilə camaata işarə edərək xitab etdikdə bir barmağı ilə işarə edir. Amma dörd barmağının işarəsi isə özünə aiddir." (Yəni camaata bir barmağınla işarə edib nəsə söyləyirsənsə, dörd

barmağınla özünə işarə etməlisən. Camaata bir söz deyərkən, gərək əvvəl həmin sözlərə özün riayət edəsən.)

Amerika alimlərindən biri deyir: “Dünyanı islah edib düzəltmək istədim. Bir qədər çalışdıqdan sonra nəticə ala bilmədim. Baxıb gördüm ki, dünyanı islah etmək üçün yaşadığım ölkədən başlamalıyam. Öz ölkəmi islah etmək istədim, amma bacarmadım. Gördüm ki, bunun üçün gərək öz şəhərimdən başlayım. Cəhd etdim, amma alınmadı. Baxıb gördüm ki, bunu etmək üçün gərək doğulduğum məhəllədə həmin işi görüm. Bu işi də gördüm, amma nəticə alınmadı. Baxıb gördüm ki, məhəlləni islah etmək üçün öz ailəmdən başlamalıyam. Ailəmi islah etmək istədim, yenə də alınmadı. Çünki bütün bunlara nail olmaq üçün ilk növbədə özümü islah etməyin zəruri olduğunu anladım.

**İslamda elmin xüsusi fəziləti var**

Avropa alimlərinin bu düşüncələri ilə razılaşmaq mümkündür. Çünki İslam dini də təsdiq edir ki, insan başqalarını islah etmək üçün ilk növbədə özündən başlamalıdır. İslam dini elmə çox böyük dəyər verir. Ancaq elmin hörmət və dəyəri ona malik olan şəxsin həm də təqvalı olmasından asılıdır. Yəni əgər bir alimin təqvası yoxdursa, İslam dini həmin şəxsə dəyər vermir. Necə deyərlər, alimin dəyəri onun təqvası ilə ölçülür.

قالَ رسولُ اللهِ(ص): ركعتانِ يصلّيهما العالِم أفضلُ مِن ألفِ ركعةٍ يصلّيها العابِد

-Həzrət Peyğəmbər(ə) buyurur: “Alimin qıldığı iki rükət namaz abidin qıldığı min rükət namazdan üstündür.”[1]

[1] Mizanül-hikmə, 6-cı cild, hədis - 13722.

قَالَ رسولُ اللهِ(ص): العلَماءُ ورثَةُ الأنبياءِ، يحِبهم أهلُ السماءِ، و يستغفِر لَهم الحِيتانُ فِي البحرِ إذا ماتوا إلى يومِ القِيامةِ

-Həzrət Peyğəmbər(ə) buyurur: "Alimlər (yer üzündə) peyğəmbərlərin varisləridir. Göy əhli onları sevərlər. Onlar öldüyü zaman dənizlərin balıqları qiyamət gününə qədər onlar üçün Allahdan bağışlanmaq və məğfirət diləyərlər."[1]

قَالَ رسولُ اللهِ(ص): النظَر إلى وجهِ العالِمِ عِبادةٌ

-Həzrət Peyğəmbər(ə) buyurur: "Alimin üzünə (məhəbbətlə) baxmaq ibadətdir."[2]

İmam Sadiqin(ə) səhabələrindən biri deyir: "Günlərin birində Həzrətdən(ə) Peyğəmbərin(s) bu hədisinin mənasını öyrənmək istədik. İmam Sadiq(ə) buyurdu:

هو العالِم الّذي إذا نظَرت إلَيهِ ذَكرك الآخِرةَ، و من كانَ خِلاف ذلك فَالنظَر إلَيهِ فِتنةٌ

-Bu hədisdə o alim nəzərdə tutulur ki, ona baxdıqda axirəti sənin yadına salsın. Əks-halda onun (axirəti insanın yadına salmayan təqvasız alimin) üzünə baxmaq fitnə və azğınlıqdır."[3]

Hər bir yazan və əlinə qələm alan insana alim demək olmaz. Elə bu dünyanı xaraba qoyanlar da təqvasız yazanlar və alimlərdir. Cahil və nadan insanın dünyanı xaraba qoymağa gücü çatmaz. Cahil, savadsız və imkansız insan bir tikə çörək üçün zəhmətlərə qatlaşıb əziyyət çəkir. Yaxud pinəçilik edərək adamların ayaqqabılarını yamayır.

---

[1] Mizanül-hikmə, 6-cı cild, hədis - 13697.
[2] Yenə orada, hədis - 13737.
[3] Yenə orada, hədis - 13738.

Bu kimi insanlar dünyanı xaraba qoymaq qüdrətində deyillər. Bu cür insanlar oğru da olsalar belə, ayaqqabı üçün işlətdikləri sapdan və ya boyadan kəsə bilərlər. Belə insanların mənfəəti və ya ziyanı o qədər də əhəmiyyətli olmaz. Amma dünyaya hakim olanlar alimlərdir ki, onların xəyanəti bütün dünyanı bir-birinə vurmuşdur. Odur ki, İmam Sadiq(ə) həqiqi alimin tərifini belə buyurur: "Alim odur ki, onun üzünə baxdıqda axirəti sənə xatırlatsın."

Deməli, əgər bir alimin üzünə baxarkən insana qiyaməti, axirəti xatırladırsa, o, həqiqi alimdir. Əgər bir alimin görünüşü və hərəkəti insanı təqvaya dəvət edirsə, həmin alimin üzünə baxmaq ibadətdir. Bu, həmin alimdir ki, hədislərdə onun barəsində belə buyurulmuşdur: "Alim bir qəbiristanlığın kənarından keçərkən (orada "Fatihə" surəsini oxuduqda) Allah-təala onun qədəmlərinin şərafətinə xatir həmin qəbiristanlıqda dəfn olunanları bağışlayar. Amma elminə əməl etməyən təqvasız alimlərin aqibəti çox pis və acınacaqlıdır. Hətta cəhənnəm əhli belə onların pis qoxusundan əzab çəkəcəkdir."

قَالَ رسولُ اللهِ(ص): إن أهلَ النارِ لَيتأذونَ مِن ريحِ العالِمِ التارِكِ لِعلمِهِ

-Həzrət Peyğəmbər(ə) buyurur: "Cəhənnəm əhli elminə əməl etməyən alimlərin pis qoxusundan əziyyət çəkəcəklər."[1]

İslam dini o alimə dəyər verir ki, elminə əməl etsin. Odur ki, həqiqi alim öz bildiyinə, dediyinə və ya yazdığına əməl edən bir şəxsdir. Belə alimə xidmət etmək, onun qulluğunda dayanmaq və ya ehtiram göstərmək Allah-təalaya ehtiram deməkdir.

قَالَ علِي(ع): إذا رأيت عالِما فَكُن لَه خادِما. من وقر عالِما فقَد وقر ربه

---

[1] Mizanül-hikmə, 6-cı cild, hədis - 14062.

-Həzrət Əli(ə) buyurur: “Nə vaxt alim gördün, ona qulluq et. Alimə hörmət edən Allaha hörmət etmişdir.”[1]

قَالَ رسولُ اللهِ(ص): مَن استقبلَ العلماءَ فقَدِ استقبلَني، و من زار العلماءَ فقَد زارني، و من جالَس العلماءَ فقَد جالَسني، و من جالَسني فَكأنما جالَس ربي

-Həzrət Peyğəmbər(ə) buyurur: “Kim alimin pişvazına çıxarsa, mənim pişvazıma çıxmışdır. Kim alimlə görüşə getsə, mənimlə görüşər. Kim alimlə oturub-durarsa, mənimlə əyləşmiş kimidir. Hər kim mənimlə əyləşsə, mənim Allahımla əyləşmiş kimidir.”

Odur ki, Həbib Nəccar öz qövmü ilə söhbət edərkən onların vicdanlarını oyadaraq deyir:

وما لِي لاَ أعبد الذِي فَطَرني وإلَيهِ ترجعونَ

-Axı mən niyə məni yaradana ibadət etməməliyəm, halbuki hamınız Onun hüzuruna qaytarılacaqsınız?!

Bu məntiqlə o, öz qövmünü düşünməyə, Allaha ibadət etməyə dəvət edir. Sonra onları başa salır ki, sizin həm dünyanız, həm də axirətiniz Allahın əlindədir. Onsuz da hamımız Allaha tərəf qayıdacağıq. Yaxşısı budur ki, bütlərdən əl çəkib bizi yaradan Allaha ibadət edin ki, dünyada və axirətdə də Rəbbiniz Odur.

---

[1] Mizanül-hikmə, 6-cı cild, hədis - 13900.

## 23-27-ci AYƏLƏRİNİN TƏFSİRİ

**أأتخِذُ مِن دونِهِ آلِهةً إن يردنِ الرحمن بضر لا تغنِ عني شفَاعتهم شيئًا ولاَ ينقِذُونِ.٢٣. إني إذًا لِفي ضلاَلٍ مبِينٍ.٢٤. إني آمنت بربكُم فَاسمعونِ.٢٥. قِيلَ ادخل الْجنةَ قَالَ يا لَيت قَومِي يعلَمونَ.٢٦. بما غَفَر لي ربي وجعلَني مِن الْمكْرمِين.٢٧.**

**23. "Ondan qeyri məbudlaramı ibadət edim? Əgər Rəhman (olan Allah) mənə bir zərər və ziyan vurmaq istəsə, onların şəfaətləri məndən heç bir şeyi uzaqlaşdıra bilməz və mənə nicat verə bilməzlər."**

**24. "Belə olan surətdə, şübhəsiz, mən açıq-aşkar azğınlıqda olaram."**

**25. (Bu zaman peyğəmbərlərə xitabən dedi): "Həqiqətən, mən sizin Rəbbinizə iman gətirdim, belə isə məni eşidin (İman gətirməyimə şahid olun)."**

**26. (Axırda onu öldürdülər və ona) deyildi: "Cənnətə (cənnət bərzəxinə) daxil ol!" O dedi: "Kaş qövmüm biləydi ki,**

**27. Rəbbim məni bağışladı və məni hörmət sahiblərindən etdi."**

Həbib Nəccar peyğəmbərlərə iman gətirməyən və onları incidən inadkar qövmünə üç dəlil-sübutla məsələni başa salmaq istəyir. Əvvəlki ayələrin izahında həmin dəlillərdən ikisini qeyd etdik. Onlardan biri budur ki, sizdən heç bir muzd istəməyən peyğəmbərlərə tabe olun və sözlərini qəbul edin. Çünki onlar sizdən heç bir şey, hətta təşəkkür belə istəmirlər. Həmçinin onların sözləri boş və əbəs sözlər deyil. Onlar sizi düz yola hidayət etmək

istəyirlər. İkinci dəlil tövhid barəsindədir ki, Həbib öz adından danışmaqla onlara belə dedi: “Axı mən niyə məni yaradana ibadət etməməliyəm, halbuki hamınız Onun hüzuruna qaytarılacaqsınız?!” Yəni bizi və hər şeyi yaradan, hər bir şey əlində olan, dünya və axirətin sahibi olan Allaha nə üçün ibadət etməməliyəm?

İslamdan öncəki dövrlərdə də insanlar müxtəlif məbudlara ibadət edirdilər. Lakin onlar öz əlləri ilə düzəltdikləri müxtəlif bütləri özlərinə məbud və tanrı seçmişdilər. Bəziləri xurma ağacından, bəziləri daşdan yonub düzəltdikləri, bəziləri dəmir və misdən, hətta bəziləri öz sidikləri ilə palçıq düzəldərək özləri üçün düzəltdikləri bütlərə belə pərəstiş edirdilər. Bundan əlavə, aya, günəşə, keçiyə, buzova və s. kimi şeylərə də ibadət edənlər var idi. Sözümün canı bundadır ki, yəni hər bir dövrdə insanlar pərəstiş etmişlər. Çünki pərəstiş və ibadət etmək insanın fitrətindədir. Allah-təala insanı yaradarkən onun fitrətində bir çox xislətlər və xüsusiyyətlər müəyyən etmişdir. Bu xislətlər insanın daxilində qeyri-iradi fitrətlərdir.

Onlardan biri övlada məhəbbət bəsləməkdir. Övladı sevmək insanın ixtiyarında deyil. Övlad dünyaya göz açdıqda onun məhəbbəti valideynin qəlbinə hakim kəsilir. Valideyn özünün ac qalmasına razıdır, amma övladının ac qalmasına razı deyil. Öz başının ağrımasına razıdır, amma övladının başının ağrımasına razı olmur. Ürəyinə tikan batmasına razı olar, amma övladının ayağına tikan batmasına razı olmaz. Allah bu məhəbbəti də insanın fitrətində müəyyən etmişdir. Bütün bu xislətlərə fitrət və ya instinkt deyilir. Məsələn, insan ac olduqda haradan bilir ki, yemək lazımdır? Uşaq acdıqda ona yemək axtarmağı kim öyrətmişdir? Ona kim öyrədib ki, anasının döşündən

süd yesin? Bütün bu kimi məsələlər hələ dünyaya gəlməmişdən əvvəl insanın fitrətində müəyyən olunmuşdur.

Əlbəttə, vərdiş və adət də belədir. Amma bunlar insanın fitrətində müəyyən olunmuş xüsusiyyətlərdən fərqlidir. Fitrət odur ki, insan dünyaya öyrənmiş halda gəlmişdir. Bu, heç bir vaxt insandan ayrılmayacaqdır. Vərdiş isə odur ki, insan onu dünyaya gəldikdən sonra öyrənmişdir və heç bir vaxt ondan təcrid olunmayacaq. Məsələn, insan dünyaya gəldikdə üzməyi bacarmır. Ancaq üzməyi öyrəndikdən sonra ölənə qədər bu qabiliyyətini itirmir. Yəni üzməyi yaxşıca öyrəndikdən sonra uzun illər üzməyə imkanı olmasa da belə, onu nə vaxt suya atsalar, yenə də üzə biləcəkdir. O, üzməyi bu dünyada öyrənmişdir, amma heç bir vaxt bu qabiliyyət onun yadından çıxmayacaqdır. Həmçinin sürücülük də belədir. İnsan maşın sürməyi öyrəndikdən sonra uzun müddət arada fasilə olsa da belə, nə vaxt maşında əyləşsə, çox rahatlıqla onu sürə biləcəkdir. Buna da vərdiş deyilir. Vərdiş insana xas olan bir xüsusiyyətdir ki, yarandıqdan sonra daha insandan ayrılmır. Amma adət isə fərqlidir. Adət isə odur ki, insan bu dünyada bir şeyə öyrəşir və sonradan ondan uzaqlaşa da bilər. Məsələn, siqaretə adət etmiş bir insan sonradan onu tərgidə də bilər. Adəti tərgitmək mümkündür.

Deməli, ibadət etməyi Allah-təala insanın fitrətində müəyyən etmişdir. İnsanın fitrətində olan xüsusiyyətləri boğmağa çalışarlar, amma heç bir nəticəyə gəlib çıxa bilməzlər. Çünki fitrət insanın ayrılmaz hissəsidir. Əgər insan həqiqi məbud olan Allaha pərəstiş etməsə, fitrətinə uyğun olaraq yanlış bir şey tapıb ona pərəstiş edəcəkdir. Buna görə də Həbib Nəccar peyğəmbərlərin yolunu tutaraq öz qövmünə başa salır ki, məni yaradan Allaha nə üçün ibadət etməyim? Nə üçün siz uca və hər şeyi yaradan

Allahı bir kənara qoyub bütləri özünüzə məbud müəyyən etmisiniz?

Onun qövmündən olanlar deyirdilər ki, əgər biz bütlərə pərəstiş ediriksə, demirik ki, bizi yaradan bütlərdir? Sadəcə olaraq onların Allah dərgahında bizə şəfaətçi olmaları üçün onlara pərəstiş edirik.

Həbib Nəccar bu məsələyə də toxunaraq dəlil-sübutlarla bəhanələrini kəsərək deyir: "Ondan (Allahdan) qeyri məbudlara ibadət edimmi? Əgər Rəhman (olan Allah) mənə bir zərər və ziyan vurmaq istəsə, onların şəfaətləri məndən heç bir şeyi uzaqlaşdıra bilməz və mənə nicat verə bilməzlər."

Bununla da məntiq əsasında onları başa salır ki, daşlardan və taxtalardan özünüzə düzəltdiyiniz cansız bütlər sizə hansı köməyi göstərə və yaxud nicat verə bilərlər? Onlar heç bir vaxt ilahi əzabın qarşısını almağa qadir deyillər. "Belə olan surətdə, şübhəsiz, mən açıq-aşkar azğınlıqda olaram." Yəni sizin dediyiniz kimi, bütləri Allah yanında şəfaətçi qərar versəm və onlara pərəstiş etsəm, şübhəsiz ki, açıq-aydın azğınlıqda olaram.

Beləliklə, Həbib Nəccar üzünü qövmünə, yaxud peyğəmbərlərə tutaraq deyir: "Həqiqətən, mən sizin Rəbbinizə iman gətirdim, belə isə məni eşidin (iman gətirməyimə şahid olun)."

Onun həyəcanla, möhkəm dəlillər və incəliklərlə dediyi bu sözlər bütpərəst və müşrik insanlara, onların çirkin qəlblərinə heç bir təsir göstərə bilmədi. Əksinə, onlarda daha da artıq nifrət yaratdı. Onların onun əleyhinə qiyam etmələrinə və nəticədə şəhid olmalarına səbəb oldu. Onlar son dərəcə qəddarlıqla bu şücaətli və mömin kişinin canına qəsd etdilər. Ona o qədər daş vurdular ki, taqətdən düşüb yerə uzandı və şəhid oldu.

Başqa bir rəvayətə görə onu ayaqlarının altına salıb o qədər təpiklədilər ki, ruhu bədənindən çıxdı. Hədislərdə belə nəql olunur ki, o, can verərkən son anlarında Allaha belə dua edirdi: "İlahi! Mənim tayfamı özün hidayət et. Onlar nə etdiklərini anlamırlar."[1]

İslam Peyğəmbəri(s) onun barəsində belə buyurur: "Həqiqətən, o, öz qövmünə həm həyatında, həm də öldükdən sonra nəsihət etdi."[2]

Quran onun şəhid olma hadisəsini belə bəyan edir:

قِيلَ ادخلِ الْجنةَ

-(Ona) deyildi: " Cənnətə (cənnət bərzəxinə) daxil ol!"

Bu ayələrə diqqət yetirdikdə görürük ki, Quran onun öldürülməsini demir. Çünki "öldürdülər" sözünün bir mənası var, "cənnətə daxil ol!" sözünün isə başqa mənası vardır. Quran bu həqiqəti çox gözəl və üstüörtülü şəkildə bəyan edərək buyurur: "Ona cənnətə daxil ol" - deyildi. Yəni bu ayənin əsas sözü odur ki, Allah yolunda öldürülən şəxsin ölümlə cənnətə daxil olması arasında heç bir fasilə yoxdur. Can ağızdan çıxan kimi cənnətə daxil olur. Quran Həbib Nəccarın bu hadisəsini bəyan etdikdən sonra onun dili ilə belə buyurur:

قَالَ يا لَيت قَومِي يعلَمونَ.ِبما غَفَرِلي ربي وجعلَنِي مِن الْمكْرمِين.

-O dedi: "Kaş qövmüm biləydi ki, Rəbbim məni bağışladı və məni hörmət sahiblərindən etdi."

Həbib Nəccar cənnətə daxil olan kimi bu sözü qövmünə kinayə ilə və acıqca demir. Onun öz qövmünə

---

[1] Qurtəbinin təfsiri.

[2] Yenə orada.

ürəyi yandığından onları başa salmaq istəyir ki, mən iman gətirdiyim üçün Allah mənə bu məqamı inayət etdi. Kaş mənim qövmüm bunu anlayıb Allaha iman gətirəydi. Buradan belə bir nəticəyə gəlinir ki, o, çox böyük ruha malik olan bir insandır. Odur ki, İslam Peyğəmbəri(s) onun barəsində belə buyurur: "Həqiqətən, o, öz qövmünə həm həyatında, həm də öldükdən sonra nəsihət etdi."

### Hörmət sahibləri

Həbib Nəccar şəhid olduqdan sonra Allah-təala Quranda onun adından belə buyurur: "O dedi: "Kaş qövmüm biləydi ki, Rəbbim məni bağışladı və məni hörmət sahiblərindən etdi." Ayədə işlənmiş "mükrəmin" kəlməsi "ikram" sözündən götürülmüşdür və ehtiram, hörmət etmək, əzəmətli saymaq və əzəmətinə uyğun şəkildə rəftar etməyə deyilir. Quran ayələrinə və hədislərə diqqət yetirdikdə görürük ki, "ikram" sözü ilə "təqva" sözü bir-birinin kənarında işlənmişdir. Çünki ikram və hörmət sahibi olmağın şərti təqvadır. Məsələn, "Hucurat" surəsinin 13-cü ayəsində belə oxuyuruq:

إِن أَكْرَمَكُم عِندَ اللهِ أَتقَاكُم

-Həqiqətən, sizin Allah yanında ən hörmətliniz sizin ən təqvalılarınızdır.

Amma Quranda üç kəsin barəsində "ikram" kəlməsi qeyd-şərtsiz işlənmişdir. Burada "ikram" və "hörmət"in qeyd-şərtsiz şəkildə bəyan olunması Allah-təalanın onlara olan xüsusi ehtiramıdır. Onlardan biri mələklər barəsindədir ki, "Ənbiya" surəsinin 26-27-ci ayələrində belə buyurulur:

بَلْ عِبَادٌ مُكْرَمُونَ. لَا يَسبِقُونَهُ بِالْقَوْلِ وَهُم بِأَمْرِهِ يَعمَلُونَ.

-Əksinə, onlar (mələklər) möhtərəm bəndələrdir. (Onların həqiqətləri nur, yerləri uca məkan, işləri ibadət və danışıqları zikrdir.) Söhbətdə heç vaxt Allahdan qabağa keçməzlər (əksinə, söhbətlərinin mənşəyi Allahın əmri olar) və həmişə Onun  əmri ilə iş görərlər.

İkincisi mükəmməl imana sahib olan bəndələr barəsindədir ki, “Məaric” surəsinin 22-35-ci ayələrində belə buyurulur:

إِلا الْمصلين. الذِين هم على صلَاتِهم دائِمونَ. والذِين فِي أموالِهم حق معلُوم. للسائِل والْمحرومِ. والذِين يصدقُونَ بِيومِ الدينِ. والذِين هم من عذَابِ ربهم مشفِقُونَ. إِن عذَاب ربهم غَير مأمونٍ. والذِين هم لِفُروجِهم حافِظُونَ. إِلا علَى أزواجِهم أو ما ملَكَت أيمانهم فَإِنهم غَير ملُومِين. فَمنِ ابتغى وراء ذَلك فَأُولَئك هم الْعادونَ. والذِين هم لِأَماناتِهم وعهدِهِم راعونَ. والذِين هم بِشهاداتِهم قَائِمونَ. والذِين هم على صلَاتِهم يحافِظُونَ. أُولَئِك فِي جناتٍ مكْرمونَ

-Namaz qılanlardan savayı.

-O kəslər ki, namazlarında davamlı və möhkəmdirlər. (Burada bir məna budur ki, namazlarını vaxtında qılarlar. Digər mənası isə budur ki, nafilələri də vacib namazlarının kənarında qılarlar.)

- O kəslər ki, onların mallarında məlum (müəyyən) bir haqq vardır (vacib və müstəhəb zəkatlar və Allah yolunda olan digər xərclər kimi).

-Dilənən və (dünya malından) məhrum olan kimsələr üçün.

-O kəslər ki, (əqidə və əməldə) cəza gününü təsdiq edərlər.

-O kəslər ki, öz Rəbbinin əzabından qorxarlar.

-Çünki Rəbbinin əzabından arxayınçılıq yoxdur.

-Və o kəslər ki, öz şəhvani qüvvələrini saxlayarlar.

-Öz zövcələri, ya malik olduqları kənizlər isə istisnadır. Onlar (bu barədə – yaxınlıq etməyə görə) qınanmazlar.

-Beləliklə, kim bundan (bu iki haldan) artığını istəsə (və hər hansı bir kəslə və hər hansı bir şeylə hər cür cinsi ləzzətlərə dalsa,) belə şəxslər həddi aşanlardır.

-O kəslər ki, (Xaliqlə və məxluqla olan) öz əmanətlərinə, əhd-peymanlarına riayət edərlər.

-O kəslər ki, öz şəhadətlərində (şəhadəti qəbul etmək və verməkdə) sabit və möhkəmdirlər.

-O kəslər ki, namazlarını (namazı kamil şəkildə qılmaq, vacib və müstəhəb hallarına və namazın şərtlərinə əməl etməklə) qoruyarlar.

Bütün bu əlamətləri sadaladıqdan sonra 35-ci ayədə onların barəsində belə buyurulur: "Məhz onlar (ali və xoşagələn) cənnətlərdə ehtiram olunacaq kimsələrdir."

Üçüncüsü isə şəhidlər barəsində "ikram" sözüdür ki, qeyd-şərtsiz olaraq işlənmişdir. Bu da "Yasin" surəsinin 26-27-ci ayələrində Həbib Nəccarın dili ilə belə bəyan olunmuşdur:

قَالَ يَا لَيْتَ قَوْمِي يَعْلَمُونَ. بِمَا غَفَرَ لِي رَبِّي وَجَعَلَنِي مِنَ الْمُكْرَمِينَ.

-O dedi: "Kaş qövmüm biləydi ki, Rəbbim məni bağışladı və məni hörmət sahiblərindən etdi."

Həbib Nəccarın bu əhvalatı Abdulah Ənsarinin əhvalatına bənzəyir. Cabir ibn Abdullah Ənsari Həzrət

Peyğəmbərin(s) səhabələrindən biri idi. Abdullah ibn Ənsari onun atası idi. Ühüd müharibəsində şəhid olandan sonra onun ruhu şəhidlərin ruhuna qovuşaraq cənnətdəki məqamına yüksəldi. Həzrət Peyğəmbər(s) Cabirə buyurdu: "Bilmək istəyirsənmi atan şəhid olduqdan sonra Allahla nə söhbət etdi?" Cabir ərz etdi: "Bəli, ya Rəsulallah." Həzrət Peyğəmbər(s) buyurdu: "Abdullah orada Allahdan bir arzu diləyib dedi: "İlahi, məni dünyaya qaytar, gedim Peyğəmbərin(s) məhzərində bir də şəhid olum. İstəyirəm ki, bir daha şəhadət feyzinə nail olum." Allah-təala ona xitab edərək bildirdi ki, əgər bir insan dünyasını dəyişərsə, onu bir daha dünyaya qaytarmaram. Məndən başqa bir şey dilə. Abdullah dedi: "İlahi, onda mənim buradakı məqamımı və naz-nemətin mənə aid olduğunu ailəmə və mənim barəmdə narahat olanlara çatdır. Qoy onlar bilsinlər ki, mən burada hansı cah-cəlalın içərisindəyəm."[1]

Bu hadisədən sonra Allah-təala "Ali-İmran" surəsinin 169-cu ayəsini Həzrət Peyğəmbərə(s) nazil etdi:

ولاَ تحسبن الذِين قُتِلُواْ فِي سبِيل اللّهِ أَمواتا بلْ أَحياء عِند ربهم يرزقُونَ

-Allah yolunda öldürülənləri əsla ölü zənn etmə, əksinə, diridirlər və onlara Rəbbi yanında ruzi verilir.

[1] Cabir ibn Abdullahın həyatı, səh. 33.

## 28-30-cu AYƏLƏRİNİN TƏFSİRİ

**وما أنزلنا على قومِهِ مِن بعدِهِ مِن جندٍ من السماء وما كُنّا منزلين.٢٨. إن كانت إلا صيحةً واحِدةً فإذا هم خامِدونَ.٢٩. يا حسرةً على العِبادِ ما يأتيهم من رسولٍ إلا كانوا بِهِ يستهزؤون.٣٠.**

**28. Ondan sonra onun qövmünün üstünə göydən heç bir qoşun göndərmədik, göndərəcək də deyildik.**

**29. (Ancaq onlara) tək bir qorxunc bağırtı kifayət oldu; dərhal hamısı öldü.**

**30. Vay bu bəndələrin halına! Onlara elə bir peyğəmbər gəlmədi ki, ona daim istehza etməsinlər.**

Bu ayələrdə Həbib Nəccarın şəhid olmasından sonra qövmünün başına gələnlər və nazil olan əzablar barədə söz açılır. Onlar elə düşünürdülər ki, Allah onlara əzab nazil etmək üçün göydən qoşun göndərib onları məhv edəcək. Amma bu ayələrdə bəyan olunur ki, Həbib Nəccar şəhid olduqdan sonra "onun qövmünün üstünə göydən heç bir qoşun göndərmədik, heç göndərəcək də deyildik. Bizim bu işlərə (göydən qoşun göndərmək kimi işlərə) ehtiyacımız yoxdur. Təkcə bir işarə ilə bir anın içində onların hamısını məhv edərik. Ancaq onlara təkcə bir qorxunc bağırtı kifayət oldu; dərhal hamısı öldü."

Sual oluna bilər ki, o bağırtı nəyin səsi idi? Həmin səs barəsində iki nəzəriyyə irəli sürülmüşdür. Biri budur ki, hər şeyi lərzəyə gətirən, bütün binaları viran edən və müşrikləri qorxudan, məhv edən bu nərə və bağırtı ildirim səsi idi. Digər nəzəriyyə isə budur ki, onlar yerdəki şiddətli zəlzələnin təsirindən əmələ gələn dəhşətli səsin nəticəsində

dərhal yerlərindəcə məhv oldular. Hər bir halda onların aqibəti Allahın əzabı nəticəsində belə sona çatdı.

Əntakiyyə əhalisinin başına gələn hadisəni danışdıqdan sonra bütün peyğəmbərlərin ümmətlərini nəzərdə tutaraq 30-cu ayədə belə buyurur: "Vay (təəssüflər) olsun bu bəndələrin halına! Onlara elə bir peyğəmbər gəlmədi ki, ona daim istehza etməsinlər." Bu ayədə işlənmiş "bəndələr" kəlməsində təkcə Əntakiyyə əhalisi deyil, bütün insanlar nəzərdə tutulur. Bu kəlməyə "əlif lam" artikli artırıldıqda heç bir kəs istisna olunmur və bütün bəndələrə şamil edilir. Yəni Allah-təala hər bir zamanda peyğəmbərlər göndərməsinə baxmayaraq, onlara istehza edən və onları ələ salan bir qrup insanlar da meydana çıxırdı. Allah peyğəmbərləri göndərir ki, insanları nuraniyyət yolundan və insanlıqdan çıxmağa qoymasınlar. Allah peyğəmbərləri göndərib ki, insanlar cürbəcür zülmətlərin içində itib batmasınlar. Amma təəssüflər olsun ki, camaat onları ələ saldılar və (bəzilərini) tutub öldürdülər. Buna görə də təəssüflər olsun onların halına ki, rəhmət qapılarını öz üzlərinə bağladılar. Təəssüflər olsun onların halına ki, hidayət çıraqlarını vurub sındırdılar.

İslam dininin bərqərar olduğu dövrdə insanlar Həzrət Peyğəmbərin(s) başına çox oyunlar açmışlar. Bəzən ayağının altına tikan qoymuşdular, bəzən də damın üstündən başına zibil atırdılar. Döyüşlərdə ona daş atıb dişini sındırmış, küçələrdə onu məsxərəyə qoyurdular. Bütün bunlara baxmayaraq, Həzrət Peyğəmbər(s) onların bu hərəkətinə gülürdü. Ondan gülməyinin səbəbini soruşduqda belə cavab verirdi: "Məgər gülməli deyilmi? Mən bunlara deyirəm ki, gəlin sizi cənnətə aparım. Amma onlar məni vurur və ələ salırlar."

Buna görə də ayədə bütün peyğəmbərlərin dövründə yaşayan insanları nəzərdə tutaraq belə buyurur: “Vay (təəssüflər) olsun bu bəndələrin halına! Onlara elə bir peyğəmbər gəlmədi ki, ona daim istehza etməsinlər.”

## Ayələrdəki incə mətləblər

Bu (30-cu) ayə ilə  “Qəryə əhalisinin” əhvalatı sona çatır. Amma onların bu hekayətinin içərisində olan bir sıra incə mətləblər vardır. Çox yaxşı olar ki, həmin incə məqamlarla tanış olaq.

**Birinci mətləb:**

Ayələrdəki birinci mətləb “Qəryə” ilə “Mədinə”nin fərqidir. Yəni bu ayələrdə Allah-təala bir yerdə Əntakiy-yəni kənd, digər yerdə isə şəhər adlandırır. Sual oluna bilər ki, bunun hikmət və səbəbi nədir? Qeyd olunduğu kimi, bir qrup insanın məskunlaşaraq oranı abad edib yaşadığı əraziyə “Qəryə” deyilir. Fərqi yoxdur ki, onların yaşadığı bu yer kənd olsun, yaxud şəhər. Hər ikisinə “Qəryə” deyilir. Quran ayələrinə nəzər saldıqda hər ikisinin barəsində “Qəryə” sözü işləndiyinin şahidi oluruq. Amma “Mədinə” isə yalnız şəhərə deyilir. Kənd və qəsəbəyə heç bir vaxt “Mədinə” deyilməz. Bu ayələrdən açıq-aydın şəkildə görürük ki, nə qədər Əntakiyyəyə peyğəmbər gəlməmişdi, ora “Qəryə” - kənd adlanırdı. Lakin oraya peyğəmbərlər gəldikdən sonra və onlar həmin yerdə dərs deməyə, elm öyrətməyə başladıqdan sonra həmin yer (kənd) şəhərə çevrildi. Yəni bir məntəqədə inkişaf və mədəniyyətin baş verməsi orada məhz dinin və elmin mövcud olmasından asılıdır. Peyğəmbərlər oraya gəldikdən və camaatı Allaha tərəf dəvət etdikdən sonra Allah- təala oranı şəhər adlandıraraq buyurur: “Şəhərin ən ucqar yerindən…”

Mədəniyyət bəzilərinin başa düşdüyü kimi, müasir paltarlar geyinmək, açıq-saçıq paltarlarla gəzmək və s.-dən ibarət deyil. Mədəniyyət insanların səhərdən axşamadək çalıb-oynaması da deyildir. Qurani-Kərim açıq-aydın şəkildə mədəniyyətin nə olduğunu bizə göstərmişdir. Əgər bir yerdə elmə, mənəviyyata və əxlaqi dəyərlərə diqqət yoxdursa, ərazisinin böyüklüyündən, uca binalarından və zahiri gözəlliyindən asılı olmayaraq həmin məntəqə elə kənd olaraq qalacaqdır. Amma peyğəmbərlərin ayağı dəyən, Allah-təalanın ayələri çatan, elm öyrənilən və alimlərin olduğu yer ərazisinin kiçik olmasına baxmayaraq, Quranın məntiqinə əsasən şəhərdir.

**İkinci mətləb:**

Ayələrdəki ikinci incə mətləb Həbib Nəccar barəsindədir. Ayədə belə buyurulur:

وجاءَ مِن أقْصى الْمدِينَةِ رجلٌ يسعى

-Şəhərin ən ucqar yerindən bir kişi gəlib dedi: …

Ayədə işlənmiş "rəcul" sözünün mənası "kişi" deməkdir. Bu söz iki cür məna daşıyır. Bir mənası budur ki, insanın birbaşa olaraq cinsini müəyyənləşdirir. İkinci mənası isə həqiqi kişi və mərd insan mənasını ifadə edir. Deməli, Həbib Nəccar o qədər insanın içindən ayağa qalxıb heç nədən qorxmayaraq peyğəmbərlərin müdafiəsinə qalxdı və öz qövmünə nəsihət etməyə başladı. Ayədə Həbib Nəccarın adı qeyd olunmamışdır və onun adının yerində kişi sözündən istifadə edilmişdir. Bu sözü işlətməkdə məqsəd isə onun əlində heç bir iqtidarın olmadığını və öz yolunda tək-tənha olduğunu bəyan etməkdir. Həqiqətdə isə o, nur və iman hərarəti ilə elə qızışmışdı ki, tövhid yolunda qarşısına çıxan bütün çətinliklərə baxmayaraq

mübarizə meydanına qədəm basdı. Burada onun cinsindən, yəni kişi və ya qadın olmasından deyil, mərd olmasından söz açılır. Əlbəttə, Quranda buna bənzər digər ayələrə də rast gəlirik. O cümlədən Allah-təala "Nur" surəsinin 37-ci ayəsində belə buyurur:

رِجالٌ لا تُلْهِيهِم تِجارةٌ ولَا بيع عن ذِكْرِ اللهِ وإقَامِ الصلَاةِ وإيتاء الزكَاةِ يخافُونَ يوما تتقَلب فِيهِ الْقُلُوب والْأَبصار

-Elə kişilər də var ki, heç bir ticarət və alış-veriş onları Allahı yad etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz. Onlar ürəklərin və gözlərin pərişan və fərqli olacağı gündən qorxurlar.

Ayədə işlənmiş "ticarət" və "alver" sözləri eyni mənada olsa da, fərqi vardır. Ticarətin mənası budur ki, o insanın işi-peşəsi alver etməkdir. Amma alverin mənası isə peşəsi ticarət olmayan insanın alqı-satqı etməsidir. Hər bir halda bu iş onları Allahı yad etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz.

Hədislərdə bu insanlar barəsində belə buyurulmuşdur:

هم التجار الذِين لا تلهيهم تِجارةٌ و لا بيع عن ذِكرِ اللهِ، إذَا دخل مواقِيت الصلاة، أدوا إلى اللهِ حقه فِيها

-Onlar həmin tacirlərdir ki, heç bir ticarət və alver onları Allahı yad etməkdən yayındırmaz. Namazın vaxtı daxil olduqda onun haqqını ödəyərlər (namazlarını vaxtında qılarlar).[1]

Yəni bu insanlar ticarət və alver edərkən namazın vaxtı daxil olduqda bütün işlərini bir kənara qoyub namazı vaxtlı-vaxtında qılarlar. Heç bir alver onları Allahı yad etməkdən saxlaya bilməz.

---

[1] Təfsiri-nümunə, 14-cü cild, səh. 486.

İmam Həsən Əskərinin(ə) yaxın dostlarından biri deyir: “Günlərin birində Həzrətin(ə) evinə getmişdim. Gördüm ki, əlində kağız və qələm tutub məktub yazır. Elə bu zaman azan verildi. İmam(ə) əlindəki kağız və qələmi bir kənara qoyub namaza başladı. Mən də iqtida edib onunla birgə namaz qıldım. Namazı qurtardıqdan sonra gəlib həmin kağız və qələmi götürdü və məktubun davamını yazmağa başladı.”

İslam Peyğəmbəri(s) buyurur: “Merac gecəsi Allah-təala mənə xitab edərək belə buyurdu:

يا أحمد! اِحذَر أنْ تكُونَ مِثْلَ الصِبي إذا نظَر إلَى الأخضرِ والأصفَرِ او أُعطِي الْحلْو والْحامِضِ اِغْتر بِهِ

-Ya Əhməd! Uşaq təbiətli olmaqdan uzaq dur. Çünki uşaq yaşıl və sarı (rəngarəng) şeyləri görəndə, yaxud turş və şirin şeyləri qarşısına qoyduqda onlara baxıb aldanır.”[1]

Uşağın xüsusiyyəti budur ki, yol gedərkən bir əli anasının əlində olmasına baxmayaraq, gözü orada-buradadır. Hara getməsi onun üçün maraqlı deyildir. Yol boyu onu cəlb edən hər bir şeyə baxır və ağzının suyunu axıdır. Rəngbərəng şeyləri gördükdə xoşu gəlir və başı onlara qarışaraq aldanır. Odur ki, dünyanın bər-bəzəyi insanı aldatmamalı və onu Allahı yad etməkdən yayındırmamalıdır. Dünyanın pul-parasına və bər-bəzəklərinə bağlanmaq insanı Allahdan və Onu zikr etməkdən yayındırar. Həqiqi kişi və mərd insan odur ki, heç bir şey onu Allahı yad etməkdən yayındırmasın.

---

[1] Yasin surəsinin təfsiri, Seyid Məhəmməd Ziyaabadi, səh. 89.

**Üçüncü mətləb:**

Ayələrdə barəsində söz açılan "Qəryə əhli" hadisəsindəki üçüncü mətləb budur ki, mömin şəxslər Allah yolunda tək olmalarından heç bir vaxt qorxmurlar. Necə ki, Həbib Nəccar şəhər əhalisi müqabilində tək-tənha olmasından vəhşətə gəlmədi. Bu əhvalatın bizə öyrətdiyi mətləblərdən biri də məhz bu məsələdir. Mömin insanlar heç bir vaxt saylarının az olmasından qorxmamalıdırlar. Yəni insan öhdəsinə düşən fərdi və ictimai, əxlaqi və şəri vəzifələrini yerinə yetirərkən sayın azlığı onu öz yolundan azdırmamalıdır. Haqq yolunda olan bir kəs insanların azlığını görüb şeytanın vəsvəsələrinə uymamalıdır. Yəni haqq yolu tanıyan və onu tutub gedən şəxs bu yolda olan insanların azlığını görərkən elə düşünməməlidir ki, getdiyi bu yol səhv yoldur.

قَالَ عِلِي(ع): أيها الناس لَا تستوحِشوا فِي طَرِيقِ الْهدى لِقلةِ أَهلِهِ فَإن الناس قَدِ اجتمعوا علَى مائِدةٍ شِبعها قَصِير و جوعها طَويلٌ... أيها الناس من سلَك الطرِيق الْواضِح ورد الْماءَ و من خالَف وقَع فِي التيهِ

-İmam Əli(ə) buyurur: "Ey insanlar! Hidayət və nicat yolunda ona tabe olanların azlığından *(və müxaliflərin çoxluğundan)* qorxub vahiməyə düşməyin. Çünki insanlar toxluğu az, aclığı isə çox olan bir süfrənin başına toplaşıblar.[1]

Ey insanlar! Kim düz yol ilə hərəkət etsə, abadlığa çatar *(və susuzluqdan qurtular)*. Kim səhv və əyri yol ilə getsə *(ayağını düz yoldan kənara qoysa)*, otsuz-susuz

---

[1]Dünyanın tezliklə fani olacaq zinət və bəzəyinə ürək bağlayıblar və bu bağlılığa və haqqa tabe olmamağa görə qiyamətdə sonsuz əzab və çətinliyə düçar olacaqlar.

çöllüyə düşər *(susuzluqdan ölər. Xülasə, kim Allah və Peyğəmbərin göstərişlərinə uyğun davransa, xoşbəxt olar. Şeytana və pis işlərə əmr edən nəfsə tabe olan kəs isə əzaba düçar olacaq).*”[1]

**Dördüncü mətləb:**

Ayələrdəki dördüncü mətləb budur ki, həqiqi mömin camaatı hidayət etməyin aşiqidir. Mömin həmişə camaatı düz yola dəvət edir və onların azğın yolda olmalarından əziyyət çəkir. Həbib Nəccarı öldürərkən o, son nəfəslərində də camaatı düşünür və onların hidayət olunmalarını istəyirdi. Hətta şəhid olduqdan sonra da arzu edir ki, kaş başqaları onun məqamını görüb iman gətirəydilər. Onu son nəfəslərində ikən dodaqlarının tərpəndiyini gördülər. Diqqətlə qulaq asdıqda onun bu sözləri dediyini eşitdilər: “İlahi, peyğəmbərləri müdafiə edərkən məni öldürən bu qövmü hidayət et. Çünki onlar anlamırlar.” Onların hidayət olunub-olunmamalarının Həbib üçün heç bir xeyri yoxdur. Çünki o, artıq dünyasını dəyişmək üzrədir. Amma onun öz qövmünə ürəyi ağrıyırdı və buna görə də onların haqq yola hidayət olunmalarını Allah-təaladan diləyirdi. Peyğəmbərlər və həqiqi möminlər həmişə insanların hidayət olunmalarından ötrü çalışmış və bu yolda bütün əzab-əziyyətlərə dözmüşlər.

Ühüd müharibəsində Həzrət Peyğəmbərin(s) dişini sındırdılar. Onun mübarək üzü qana boyandı. Həzrət(s) əli ilə üzündəki qanı təmizləyə-təmizləyə buyurdu:

كيف يفْلِح قَوم خضبوا وجه نبيهم بالدم و هو يدعوهم الى ربهم

-Öz peyğəmbərlərinin üzünü qana boyayan bir qövm

---

[1] Nəhcül-bəlağə, 86-cı xütbə.

necə nicat tapa bilər? Halbuki o (Peyğəmbər) onları Allaha sarı çağırır.[1]

Həzrət Peyğəmbər(s) onların ona verdikləri bütün əziyyət və işgəncələri unudaraq, yenə də hidayət olunub nicat tapmalarından ötrü çalışırdı. Çünki bilirdi ki, hidayət etmək peyğəmbərlərin əsas hədəfidir. İnsanların hidayət edilməsi Allahın, peyğəmbərin və möminlərin qarşılıqlı istəyidir.

Rəvayətdə belə nəql olunur ki, günlərin birində Həzrət Davud(ə) səhraya gedib Allahla minacat etməyə başladı. Elə bu zaman Allah-təala ona vəhy edərək buyurdu:

يا داوود، ما لِي أراك وحدانِيا؟ فقالَ: إلهي اشتد الشوق مِني إلى لِقائك، و حالَ بيني و بين خلقِك. فأوحى اللّهُ إلَيهِ: ارجِع إلَيهم فإنك إن تأتِني بعبدٍ آبِقٍ أُثبِتك في اللوحِ حميدا

-Ey Davud! Nə olub ki, səni tək-tənha görürəm? Davud ərz etdi: “İlahi, Səninlə görüş şövqüm artıb və mənimlə camaat arasında ayırıcıya çevrilib. Allah ona vəhy edir: “Onlara tərəf qayıt. Çünki Məndən qaçan bir bəndəni mənə tərəf gətirsən, sənin adını “Lövh”də bəyənilmiş yazaram.”[2]

Peyğəmbərlər həmişə camaatı öz mülayim və xoş rəftarları ilə hidayət edirdilər. İnsanlar da onlarla açıq-aydın və səmimi söhbət edirdilər. Bilirdilər ki, onlar Allahın nümayəndələri və insanlarla Allah arasında bir vasitəçidirlər. Bilirdilər ki, hər hansı bir sirri açıb ona söyləsələr, peyğəmbər heç bir vaxt həmin sirri kiməsə deməyəcək. Xüsusilə İslam Peyğəmbəri(s) insanlarla o

---

1 Əd-dürrül Mənsur, 6-cı cild, səh. 250.
2 Mizanül-hikmə, 13-cü cild, hədis - 21139.

qədər səmimi söhbət edirdi ki, hər bir kəs ürək sözünü rahatlıqla açıb ona bildirirdi. Həzrət Peyğəmbər(s) hətta günahkar insanlarla da çox mülayim rəftar edərək, onları günahlardan çəkindirməyə çalışır və Allaha sarı dəvət edirdi.

Cavan bir oğlan Həzrət Peyğəmbərin(s) hüzuruna gəlib ərz etdi: "Ya Rəsulallah, qəlbimdə çox pis bir xəstəlik əmələ gəlib. Zina etmə şövqünü ürəyimdən çıxara bilmirəm." Həzrət Peyğəmbər(s) onunla mülayimcəsinə və məntiqlə danışaraq buyurdu: "Sən razı olarsanmı, kimsə sənin ananla zina etsin?" Oğlan dedi: "Xeyr." Həzrət Peyğəmbər(s) soruşdu: "Razı olarsanmı, kimsə sənin bacınla zina etsin?" Oğlan yenə də dedi: "Xeyr." Həzrət Peyğəmbər(s) soruşdu: "Razı olarsanmı, kimsə sənin həyat yoldaşınla zina etsin?" Oğlan dedi: "Xeyr, ya Rəsulallah. Mən heç bir vaxt bütün bunlara razı olmaram." Həzrət Peyğəmbər(s) buyurdu: "Elə isə zina etmək istədiklərin hər bir qadın da kiminsə arvadı, qızı, ana və bacısıdır. Əlbəttə ki, heç bir kəs bu işə razı deyil. Özünə rəva bilmədiyin şeyi başqaları üçün də rəva görməməlisən."

Sonra Həzrət Peyğəmbər(s) mübarək əlini onun sinəsinə çəkib belə dua etdi: "İlahi, o xəstəliyi bu oğlanın qəlbindən çıxart."

Həmin gündən etibarən oğlan mübtəla olduğu bu xəstəlikdən şəfa tapdı."[1]

Allah-təala Həzrət Peyğəmbərin(s) nəfəsində, əlində, dilində və hərəkətlərində insanlar üçün şəfa müəyyən etmişdi. Həzrət Peyğəmbər(s) dəstəmaz alarkən möminlər onun ətrafına toplaşıb dəstəmazının suyunu təbərrük kimi əllərinə və üzlərinə çəkirdilər. Bu kimi məsələləri allahsızlıq hesab edənlərin əqidə və düşüncələrinin dinə heç bir aidiyyəti

---

[1] Gəncineyi məarif, 2-ci cild, səh. 878.

yoxdur. Belə əqidəyə malik olan insanların əsas məqsədi cəmiyyətdə davamlı olaraq çaxnaşmalar yaradılması və insanların bir-birinə qarşı qoyulmasıdır. Hər bir şeyi allahsızlıq kimi dəyərləndirən bu adamlar özləri dünyada bütün cinayətlərə əl atırlar. Bu adamlar dünyanın ən böyük cinayətkarları, ən yırtıcı heyvanları ilə stəkanı stəkana vurmağı allahsızlıq kimi qəbul etmirlər, amma Həzrət Peyğəmbərin(s) qəbrini ziyarət edənləri müşrik hesab edirlər.

Günlərin birində Həzrət Peyğəmbər(s) səhabələrlə əyləşib söhbət edirdi. Elə bu zaman bir nəfər onların yanına gəlib dedi: "Ya Rəsulallah, acam, mənə yeməyə bir şey verin." Həzrət Peyğəmbər(s) göstəriş verdi ki, ona yemək gətirsinlər. Ona xurma, çörək və s. kimi ərzaq məhsullarından gətirdilər. O, yeyib qurtardıqdan sonra Həzrət Peyğəmbər(s) soruşdu: "Razı qaldınmı?" Həmin şəxs dedi: "Xeyr." Səhabələr onun bu sözünü eşidən kimi çox narahat oldular. Öz-özlərinə dedilər: "Bu insan necə də naşükür adamdır."

Həzrət Peyğəmbər(s) səhabələrin narahat olduqlarını görüb həmin şəxsə buyurdu: "Qalx ayağa, gedək mənimlə." Həzrət Peyğəmbər(s) həmin şəxsi evinə aparıb ona yemək və pal-paltar da verdi. Sonra ondan soruşdu: "İndi necə, razı qaldınmı?" Həmin şəxs dedi: "Ya Rəsulallah, Allah səndən razı olsun." Peyğəmbər(s) ona buyurdu: "Səhabələrin yanında elə söyləməyin onların ürəyində sənə qarşı kin-küdurət yaratdı. Sən mənə burada dua etdin, amma orada etmədin. Bundan sonra onlar səni harada görsələr, sənə pis gözlə baxacaqlar. Bir gün mən onlarla əyləşəndə sən də gələrsən. Sənə sözüm olacaq."

Səhərisi gün Həzrət Peyğəmbər(s) yenə də səhabələrlə əyləşib söhbət edirdi. Birdən gördülər ki, həmin şəxs yenə də gəlir. O, gəlib əyləşdikdən sonra Həzrət Peyğəmbər(s)

ondan soruşdu: "Necəsən?" O dedi: "Şükürlər olsun Allaha ki, yaxşıyam." Həzrət Peyğəmbər(s) soruşdu: "Bizdən razı qaldınmı?" O dedi: "Ya Rəsulallah, Allah sizdən razı olsun." Səhabələr baxıb gördülər ki, o, heç də pis adam deyilmiş. Sonra Həzrət Peyğəmbər(s) üzünü səhabələrə tutub buyurdu: "Sizinlə mənim məsəlim dəvəsi qaçmış adamın məsəlinə bənzəyir. Bir kişinin dəvəsi qaçdıqda camaat onu tutmaq üçün dalınca yüyürürlər. Dəvə onlardan hürküb daha da uzaqlaşır. Onun yiyəsi deyir: "Camaat, sizin mənim dəvəmlə nə işiniz var? Mən onu sizdən çox istəyirəm. Siz onun üstünə cumduqca, o, daha da uzaqlaşır. Siz bu işə qarışmayın. Mən öz dəvəmlə nə edəcəyimi yaxşı bilirəm." Sonra o, dəvəsinin yerini rahatlayıb onun üçün yem tökür. Dəvə də yavaş-yavaş öz yerinə qayıdır. Sonra yiyəsi gəlib onun ipini açır və palanını düzəldir."

Bu məsəli çəkdikdən sonra Həzrət Peyğəmbər(s) səhabələrə buyurdu: "Əgər dünən bu kişini sizin ixtiyarınızda qoysaydım, onu didib öldürəcəkdiniz. Amma bu gün onun rəftarını gördükdə hamınız ona qarşı mənfi fikirdə olduğunuzu anladınız."

**Beşinci mətləb**

Ayələrdə bəyan olunmuş "Qəryə" əhli hadisəsindəki beşinci mətləb budur ki, Allah-təala insanı əzizləməzdən qabaq onun günahlarını bağışlayır, sonra isə onu əzizlənənlər zümrəsinə daxil edir. Yəni Allah-təala bəndəsinə ikram edərək cənnətə daxil edərkən ilk növbədə onu günahlardan təmizləyir, sonra isə cənnətə (əzizlənənlərin zümrəsinə) daxil edir. Həbib Nəccar şəhid olduqdan sonra Allah- təala onun dili ilə belə buyurur:

بِمَا غَفَرَ لِي رَبِّي وَجَعَلَنِي مِنَ الْمُكْرَمِينَ

-Rəbbim məni bağışladı və məni hörmət sahiblərindən etdi.

Bu ayəyə diqqət yetirdikdə görürük ki, Allah-təala bir insana ikram edərkən ilk növbədə onu bağışlayıb bütün günahlardan təmizlədikdən sonra hörmət sahibi etdiyi bəndələrinin zümrəsinə daxil edir. Mənası isə bundan ibarətdir ki, insan günahlardan təmizlənməyincə Allah-təalanın məhzərində əziz və hörmətli ola bilməz. Hər şeydən öncə bunu da bilmək lazımdır ki, insan gərək günah etməsin. Tövbənin mənası isə budur ki, insan səhv yoldan qayıtsın. Yəni insan yolu səhv getdiyini anlayan kimi dayanmalıdır. Yolu səhv gedən insan səhvini başa düşən kimi ilk növbədə dayanmalı və həmin yolu davam etdirməməlidir. Yalnız bundan sonra istiqaməti müəyyən etməli və yolu düz getməlidir. Çünki insan günah edə- edə heç bir vaxt məqsədə çata bilməyəcəkdir.

**Altıncı mətləb**

Altıncı mətləb budur ki, tarixdə üç insanın adı xüsusi olaraq qeyd olunmuşdur. Belə ki, bu üç insan öz peyğəmbərini sidq ürəklə müdafiə etmişlər. Onlar peyğəmbərlərini elə müdafiə etmişlər ki, Allah-təala Quranda bu adamlardan söz açmışdır. Onlardan biri Həbib Nəccardır (Ali-Yasin mömini) ki, əhvalatı qeyd olundu. İkincisi Hizgil (Ali-Fironun mömini) və üçüncüsü isə Həzrət Əlidir(ə).

سباق الْأمم ثَلاثَةٌ لَم يكفُروا بِاللهِ طَرفَةَ عين: عِلي بن أَبي طَالِب، و صاحِب يس، و مؤمِن آل فِرعون فَهم الصِّدِّقُوان و عِلي أَفضلهم

-Həzrət Peyğəmbər(s) buyurur: “Ümmətlərin qabaqcıl insanları üç nəfərdir. Onlar bir an belə Allahdan qafil olmamışlar. Birincisi Həzrət Əli(ə), ikincisi Həbib Nəccar

və üçüncüsü isə Fironun yaxın qohumlarından olan mömin bir kişidir. Onlar öz dövrlərinin peyğəmbərlərini sidq ürəklə qəbul etmişlər. Həzrət Əli (ə) isə onların ən üstünüdür."[1]

Digər bir hədisdə isə Həzrət(s) belə buyurur:

الصِّدِّيقُونَ ثَلاثَةٌ: حَبِيبُ النَّجَّارِ مُؤمِنُ آلِ يَاسِين الَّذِي قَالَ: "يَا قَوْمِ اتَّبِعُوا الْمُرسَلِينَ"، وَحِزقِيلُ مُؤمِنُ آلِ فِرعَونَ الَّذِي قَالَ: "أَتَقْتُلُونَ رَجُلاً أَنْ يَقُولَ رَبِّيَ اللَّهُ"، وَعَلِيُّ بنُ أَبِي طَالِبٍ وَهُوَ أَفْضَلُهُم

-Öz dövrünün peyğəmbərini sidq ürəklə qəbul edən üç nəfərdir: "Ey mənim tayfam! Peyğəmbərlərə itaət edin" - deyən Həbib Nəccar, Fironun adamları Musanı öldürmək istəyən zaman onlara xitab edib "Allah mənim Rəbbimdir söyləyən adamı öldürmək istəyirsiniz?" - deyən Hizgil və onlardan üstün, fəzilətli olan Əli(ə)."[2]

Həzrət Peyğəmbər(s) Həzrət Əlinin(ə) barəsində elə bir söz buyurmuşdur ki, bu sözü heç bir kəs haqda söyləməyib. Bu elə bir sözdür ki, Allah-təala Quranda Həzrət İbrahim(ə) barəsində elan etmişdir. "Nəhl" surəsinin 120-ci ayəsində belə buyurulur:

إِنَّ إِبرَاهِيمَ كَانَ أُمَّةً قَانِتاً لِلَّهِ

-Həqiqətən, İbrahim bir ümmət idi. O, Allah qarşısında təvazökar və itaətkar, haqqa yönələn idi.

Həzrət İbrahim(ə) insani kamilliklərinə görə özü təklikdə sanki bir ümmət idi. Onun şəxsiyyətinin şüası bir ümmətin şəxsiyyətinin şüası qədər idi. Onun ixlası o qədər

---

[1] Təfsiri-nümunə, 18-ci cild, səh. 366; Məcməül-bəyan, Qurtəbi, Əl-mizan və Nurus-sələqeyn təfsirləri.
[2] Təfsiri-nümunə, 18-ci cild, səh. 366.

çox idi ki, bir ümmətin ixlasına bərabər idi. Buna görə də Allah-təala onu bir ümmət kimi elan edir.

İslam Peyğəmbəri(s) bu sözü Həzrət Əlinin(ə) barəsində belə buyurmuşdur:

يا أبا الحَسنِ!... وإن الله قَد جعلَك أُمةً وحدك كَما جعلَ إبراهِيم أُمةً، تمنع جماعةَ المُنافِقين والكُفارِ هيبتك عنِ الحَركَةِ على الإِسلام

-Ey Əbəl-Həsən!... Həqiqətən, Allah-təala İbrahimi(ə) bir ümmət olaraq qərar verdiyi kimi, səni də bir ümmət qərar verib. Sənin heybətin kafir və münafiqlərə islama qarşı (dinun əleyhinə) hər hansı bir iş görmələrinə mane olur.

*Əli şəmsi şərəf, şiri Xüdadür,*
*Əli bəhri kərəm, miri hüdadür.*
*Əli simayi həqq, ruhi ədalət,*
*Səxavət mədəni, eyni səxadür.*
*Məqami silmidə, təslimi mütləq,*
*O mövla fatihi qalü-bəladür.*
*Əli şərti qəbuli zöhdü iman,*
*Vücudu məfxəri Ali-əbadür.*
*Əbul-əytamu yari müstəməndan,*
*İmamül müttəqin, müşkül güşadür.*
*Yapış Seyid, Əlinin damənindən,*
*Vilayət daməni rəmzi bəqadür.*

## 31-32-ci AYƏLƏRİNİN TƏFSİRİ

**أَلَم يَرَوا كَم أَهلَكنا قَبلَهُم مِنَ القُرونِ أَنَّهُم إِلَيهِم لا يَرجِعونَ.٣١. وَإِن كُلٌّ لَمّا جَميعٌ لَدَينا مُحضَرونَ.٣٢.**

**31. Onlardan qabaq nə çox insanları həlak etdiyimizi görmədilərmi? Onlar bir daha bunlara sarı qayıtmayacaqlar.**

**32. Və onların hamısı – istisnasız olaraq – (Qiyamət günü) Bizim hüzurumuza çağırılacaqlar.**

Bu ayələrdə Allah-təala "əshabi-qəryə"nin hadisəsini və onların başlarına gələn əhvalatları insanlara ibrət dərsi kimi müəyyən edir. Ayədə işlənmiş "Onlar görmədilərmi?" – "Ələm yərəv" cümləsindəki şəxs əvəzliyinin kimə aid olması haqqında təfsirçilər iki ehtimalı irəli sürmüşlər. Birinci ehtimal budur ki, ayədə işlənmiş şəxs əvəzliyi elə həmin "əshabi qəryə"yə aiddir. Digər ehtimal isə budur ki, şəxs əvəzliyi bütün Məkkə əhalisinin müşrikləri ilə bağlıdır. Ona görə ki, bu ayələr onları xəbərdar etmək üçün nazil olmuşdur. Yəni onlardan qabaqkı ümmətlərin tüğyan edib həddi aşdıqlarına görə həlak edildiklərini görmədilərmi? Burada "görmədilərmi?" sualı o demək deyil ki, keçmişdəkilərə nazil olmuş bəlaları öz gözləri ilə görmüşdülər. Bunun mənası odur ki, onlar bu haqda eşidib xəbərdar olmayıblarmı? Biz bəzən öz danışığımızda da bu kimi ifadələr işlədirik. Məsələn, "görmədinmi filankəsin axırı necə oldu?" – ifadəsi həmin şəxsin başına nələrin gəldiyini görmək, eşitmək və ya onun barəsində xəbər tutmaq kimi mənalar verir. Odur ki, bu ayədə keçmiş ümmətlərə nazil olmuş əzablar və onların həlak olmaları xatırladılaraq insanlara ibrət dərsi verilir.

Aydındır ki, həm Nuh(ə), həm Musa(ə), həm İsa(ə) və həm də digər peyğəmbərlərin qövmünə nazil olan bəlalar bütövlükdə insanlar üçün bir ibrət dərsidir. Məsələn, Nuh Peyğəmbərin(ə) qövmü suda boğularaq həlak oldu. Nuh(ə) və ona iman gətirərək gəmiyə minənlərdən başqa digərləri bəlaya düçar oldular. Yaxud neçə-neçə peyğəmbərin dövründə hakimiyyətdə olan fironların aqibətinə diqqət yetirdikdə görürük ki, onların hamısı ilahi əzaba düçar olmuşlar. Fironlar təxminən 400 il hakimiyyəti əllərində saxlamışdılar. Belə ki, təkcə iki-üç ölkəyə deyil, yer kürəsinə və həm də allahlıq iddiası ilə hakim kəsilmişdilər. Fironlar öz qüdrətlərinə baxıb allahlıq iddiasına düşmüşdülər. Çünki kiçik bir ölkəyə şahlıq edən insan heç bir vaxt Allahlıq iddiasına düşə bilməz. Fironlar da belə bir iddiaya düşmüşdülər. Bütün cah-cəlal və qüdrət sahibi olmalarına baxmayaraq, bir anın içərisində hamısı suda boğulub məhv oldular. Çünki Firon artıq həddi aşıb tüğyan etmişdi. Allah da onu və tərəfdarlarını beləcə məhv etdi.

Ona görə də bu kimi hadisələr Məkkə müşriklərinə və yaxud Əntakiyyə əhalisinə xatırladılaraq buyurulur ki, məgər keçmişdə həlak olmuş ümmətlərin necə bir bəlaya düçar olduqlarını görməyiblərmi? Yəni onların keçmişdəki ümmətlərin başına gələn hadisələrdən, nazil olan bəlalardan xəbərləri yoxdurmu? Bu ayənin sonunda isə belə buyurulur: "Onlar bir daha bunlara sarı qayıtmayacaqlar." Ən çətini də budur ki, onların bu dünyaya bir daha qayıdıb günahlarından tövbə etmələri, yaxud bədbəxtlikdən nicat tapmaları mümkün deyildir. Allahın əzabı gələnədək insanın etdiyi pis işlərdən əl çəkib, günahlarına görə tövbə etməsi mümkündür. Amma əzab nazil olan zaman heç bir şeyin faydası yoxdur və geri qayıtmaq da mümkün deyildir. Hətta bəzən günah etməyən insanlar da digər günahkarlara

nazil olan bəlanın içərisində həlak olub aradan gedərlər. İlahi əzab belədir ki, bir qövmə nazil olduqda hamısı ona düçar olur.

Bu ayə insanları bir daha keçmiş tarixdə baş vermiş hadisələri diqqətlə oxuyub öyrənməyə və zalımların viran olunmuş qəsrlərindən ibrət almağa çağırır. Bütün ümmətlər öz zamanındakı peyğəmbərdən hər hansı bir peyğəmbərin və onun qövmünün barəsində məlumat əldə edə bilərdilər. Həzrət İsa(ə) və İslam Peyğəmbəri(s) bütün peyğəmbərlərin qövmü barəsində vaxtilə baş vermiş bütün hadisələrdən xəbərdar idilər. Həmçinin Həzrət Əli(ə) başda olmaqla digər imamlarımız da keçmiş ümmətlərin başlarına gələn hadisələri mükəmməl şəkildə bilirdilər. Əgər günü bu gün Allahın höccəti olan on ikinci imamımız qeybdə olsa da tarix, hədis və təfsir kitabları əlimizdədir və bu kitablara müraciət etməklə keçmişdəki hadisələrdən xəbərdar olmaq mümkündür. Yəni həmin mənbələrə istinad edərək lazımi məlumatları əldə edə və ibrət götürə bilərik. Məsələn, Həzrət Əli(ə) “Nəhcül-bəlağə”nin 230-cu xütbəsində belə buyurur:

فَكَفَى واعِظاً بِموتى عاينتموهم حمِلُوا إِلَى قُبورِهِم غَير راكِبين و أُنزِلُوا فِيها غَير نازِلين فَكَأَنهم لَم يكُونوا لِلدنيا عماراً و كَأَن الْآخِرَةَ لَم تزلْ لَهم داراً أَوحشوا ما كَانوا يوطِنونَ و أَوطَنوا ما كَانوا يوحِشونَ و اشتغلُوا بِما فَارقُوا و أَضاعوا ما إِلَيهِ انتقَلُوا لَا عن قَبِيحٍ يستطِيعونَ انتِقَالًا و لَا فِي حسنٍ يستطِيعونَ ازدِياداً أَنِسوا بِالدنيا فَغرتهم و وثِقُوا بِها فَصرعتهم

-Gördüyünüz ölülər *(sizə)* öyüd verən olmaq üçün kifayətdirlər. Onları çiyinlər üzərində qəbirlərinə tərəf

apardılar, halbuki *(çiyinlərə öz ixtiyarları ilə)* qalxmamışdılar, qəbirlərinə qoyuldular, halbuki *(qəbrə özləri)* düşməmişdilər.[1] Beləliklə, *(bu dünyadan elə əl çəkib gediblər və heç bir nişanələri qalmayıb)* sanki onlar dünyanı qurub abadlaşdıranlar olmayıblar və yerləri həmişə axirət olub. Məskunlaşdıqları dünyadan xaric oldular və qorxduqları gorda yerləşdilər. Əl çəkdikləri dünyaya bulaşmışdılar və tərəfinə getdikləri axirəti zay etmişdilər. *(İndi peşman və acizdirlər.)* Nə çirkin işdən *(tövbə edib)* qayıda bilirlər, nə də yaxşı işləri çoxalda bilirlər. *(Çünki axirət müəyyən edilmiş vəzifələri yerinə yetirmək yeri deyil. Bu bədbəxtçilik ona görədir ki,)* dünyaya alışdılar və dünya onları aldatdı, ona güvəndilər və dünya onları yerə vurdu *(məhv etdi).*

Odur ki, Allahın əzabı, yaxud ölüm insanı haqlamamışdan əvvəl hər bir kəs öz başına çarə qılmalıdır. Yəni bu gün tövbə və əməl etmək iqtidarında olduğu halda insan bu fürsəti əlindən buraxmamalıdır. Çünki can ağızdan çıxdıqdan sonra bir daha geri qayıdıb tövbə etmək və yaxşı işlər görmək bir daha mümkün olmayacaq. Bircə gün geri qayıdıb tövbə, yaxud iki rükət namaz qılmaq üçün dünyanın hamısını versə də belə mümkün deyil. Ona görə ki artıq gecdir və öldükdən sonra insanı bir daha dünyaya qaytarmazlar. İnsan nə qədər ki, bu dünyadadır, bütün yaxşı işləri görmək, namaz qılmaq şansı var. İstər yaxşı, istərsə də pis insan olsun, öldükdən sonra bir daha geri qayıtması mümkün deyildir.

---

[1] Çünki bir yerə qalxmaq və düşmək ixtiyar və istək ilə olmalıdır. Buna görə də ölülərin çiyinlərdə aparılmaları və qəbirlərə qoyulmaları onların özlərinin dərk etmələri ilə şüurlu surətdə olmadığı üçün demək olmaz ki, onlar çiyinlərə qalxmışdılar və düşüb qəbirlərə daxil oldular.

Həzrət Məryəm(s.ə) İsa Peyğəmbərin(ə) anası və Quranda adı çəkilmiş yeganə qadındır. Onun adına bir surə nazil olmuş və Quranda 25 dəfə adı zikr olunmuşdur. Bu əzəmətli xanım gecə-gündüz Allaha ibadət etməklə məşğul idi. Günlərin birində ana-bala oruc tutmuşdular. Dağın hündür bir yerində olduqları üçün Həzrət İsa(ə) anasına dedi: "Mən gedim iftar üçün azuqə axtarım. Anası onunla razılaşdı. İsa(ə) getdikdən sonra cənab Əzrayıl(ə) nazil oldu. Həzrət Məryəm(s.ə) soruşdu: Ey Əzrayıl, ziyarətə gəlmisənmi? Əzrayıl(ə) dedi: Xeyr, səni aparmaq üçün gəlmişəm. Məryəm(s.ə) dedi: Möhlət ver oğlum gəlsin, sonra canımı al. Əzrayıl(ə) dedi: İcazəm yoxdur."

Elə o haldaca Əzrayıl(ə) Həzrət Məryəmin(s.ə) canını aldı. İsa(ə) iftar açmaq üçün ərzaq gətirdi və gördü ki, anası yatıb. Onu oyatmadı ki, qoy dincəlsin. İftar vaxtı çatdıqda onu yuxudan oyatmaq istədikdə gördü ki, anası dünyasını dəyişib. Çox narahat oldu və ağladı. Anasını dəfn etdikdən sonra onun qəbri kənarında kədərli bir halda yuxuya getdi. Yuxuda anasını gördü. Həzrət Məryəm(s.ə) ona dedi: "Oğlum, nə üçün narahatsan? Həzrət İsa(ə) dedi: Ona görə ki, sənə möhkəm bağlanmışdım. Bu ayrılıq məni çox narahat edir. İndi isə özümü qərib hiss edirəm. Həzrət Məryəm(s.ə) dedi: Oğlum, sən Allaha bağlan və Onunla ünsiyyətdə ol. Beləliklə, qəm-qüssədən azad olacaqsan. İsa(ə) dedi: Anacan, sənin iftar açmadan ac getdiyinə görə də narahatam. Həzrət Məryəm(s.ə) dedi: Oğlum, mənə burada dünyadakı ruzilərdən daha yaxşısını verdilər. İsa(ə) soruşdu: Anacan, indi orada nə arzulayırsan? Həzrət Məryəm(s.ə) dedi: Arzu edirəm ki, Allah məni bircə günlük dünyaya qaytarsın. Həmin günün gündüzünü oruc tutum, gecəsini də səhərə qədər namaz qılım, ondan sonra yenə də məni Öz dərgahına aparsın."

Həzrət Məryəm(s.ə) ömrü boyu Allaha eşqlə ibadət etməsinə baxmayaraq, öldükdən sonra da dünyaya qayıdıb bircə gün ibadət etməyi arzulamışdır.

Beləcə, gördüyümüz kimi, insanın əcəli çatdıqda mütləq getməlidir. İnsan öldükdə onun kitabı da bağlanır. Dünyanın hamısını versələr də, onu geri qaytarmaq mümkün deyil. İnsan dünyasını dəyişdikdən sonra onun geri qayıdıb bircə dəfə "sübhanallah" kəlməsini deməyə belə icazəsi yoxdur. Buna görə də nə qədər insanın nəfəsi gedib-gəlirsə, bunu özünə qənimət bilməli, axirət dünyasında dərdinə dəyən işləri görməlidir. Dünyadan tövbəsiz getmək insan üçün ən pis haldır. Çünki tövbəni hər bir insan özü etməlidir. Namaz, oruc, həcc və s. kimi əməllər belədir ki, bir insan dünyasını dəyişdikdən sonra onun əvəzinə başqasının da yerinə yetirməsi mümkündür. Məsələn, bir nəfər dünyadan gedibsə, böyük oğlu onun əvəzində Həcc namazını qıla bilər, yaxud bir nəfəri atasının əvəzinə Həcc ziyarətinə göndərə bilər. Amma heç bir kəs kiminsə yerinə tövbə edə bilməz.

Odur ki, Həzrət Əli(ə) buyurur: "Məskunlaşdıqları dünyadan xaric oldular və qorxduqları gorda yerləşdilər. Əl çəkdikləri dünyaya bulaşmışdılar və tərəfinə getdikləri axirəti zay etmişdilər. *(İndi peşman və acizdirlər.)* Nə çirkin işdən *(tövbə edib)* qayıda bilirlər, nə də yaxşı işləri çoxalda bilirlər. *(Çünki axirət müəyyən edilmiş vəzifələri yerinə yetirmək yeri deyil. Bu bədbəxtçilik ona görədir ki,)* dünyaya alışdılar və dünya onları aldatdı, ona güvəndilər və dünya onları yerə vurdu *(məhv etdi)*."

Dünya ibrət götürmək üçün bir fürsətdir. Tarixə diqqət yetirməklə, keçmişdəkilərin başına gələn hadisələri oxuyub öyrənməklə insan çox şeylərdən ibrət götürə bilər. Məsələn, ayrı-ayrı şahlar və hakmdarlarla bağlı tarixi

mənbələri oxuduqda görürük ki, onların bəziləri səhər yeməyini öz sarayında, axşam yeməyini isə bir qul kimi zindanlarda yemişlər. Nümunə üçün tarixin bir neçə səhifəsinə nəzər salaq.

Tarixi kitablarda yazıldığına görə, Əmr ibn Leys qardaşı Yəqubdan sonra Xorasanda hakimiyyətə gəldi. Bağdadda isə Mötəməd Abbasi onun hakimiyyətə gəlməsindən çox narahat idi. O, çox düşünüb daşındıqdan sonra Buxara hakimi İsmayıl ibn Əhməd Samani ilə əlaqə saxlayaraq ona xəbər göndərdi ki, sən Əmr ibn Leysə qarşı qoşun çək və dövləti onun əlindən al. Çünki sən oranın əmiri olmağa daha çox layiqsən.

Mötəməd Abbasi bu kimi sözlərlə yavaş-yavaş İsmayılı dilə tutmağa çalışırdı. Beləcə, İsmayıl qəti qərara gəldi ki, Əmr ibn Leyslə müharibə etsin. Qoşununun az olmasına baxmayaraq, ordunu döyüşə hazırlamağa başladı. Onun iki min nəfər döyüşçüdən ibarət olan qoşununda hər on nəfərdən birinin qalxanı, iyirmisindən birinin zirehli paltarı, əllisindən birinin nizəsi var idi. Bütün bunlara baxmayaraq, o, qorxmadan sınıq-salxaq bir qoşunla Əmr ibn Leysin üstünə hücum çəkdi. Əmr ibn Leysə xəbər çatdı ki, İsmayil Samani onun üstünə belə bir qoşunla hücum çəkib. Əmr ibn Leys bu xəbəri eşitdikdə qəhqəhə ilə gülərək dedi: "İsmayıl iki minlik sınıq-salxaq qoşunu ilə mənim yetmiş min nəfərlik təpədən dırnağa qədər silahlanmış qoşunumun qarşısında nə edəcək?"

Sonra o da öz qoşununu hazırlayıb Bəlxə tərəf hərəkət etdi. Qoşunlar bir-birinə yaxınlaşıb döyüşməyə başladılar. Elə bu zaman Əmr ibn Leysin atının ayağı büdrədi və o, yerə yıxılan kimi onu yaxaladılar. Bunu görən Əmr ibn Leysin əsgərləri geri qaçmağa başladılar. Beləcə, Əmr ibn Leys məğlub oldu və onu düşmən ordugahında bir zindana

saldılar. Ondan soruşdular: “Səni necə yaxaladılar?” O dedi: “Mənim döyüşdə iştirak etdiyim atın ayağı büdrədi və yerə yıxıldım. İsmayılın döyüşçüləri də bu fürsətdən istifadə edib məni yaxaladılar. Mən elə bir atla döyüşə gəlmişdim ki, əvvəlcə onu sınaqdan keçirmək üçün altmış kilometr çapmışam. O atın tayı-bərabəri yox idi. Amma qəza belə gətirdi ki, döyüşdə onun ayağı palçığa batıb büdrədi və mən yerə yıxıldım. Düşmən də bundan istifadə edərək məni tutdu.”

Əmr ibn Leysi Bağdada Mötəmədin hüzuruna göndərmək üçün müvəqqəti olaraq zindana salmışdılar. O, zindanda oturub çölə baxırdı. Axşamçağı sarayındakı fərraşlardan biri ordugahın həyətində gəzişirdi. Birdən gözü Əmr ibn Leysə düşdü və ürəyi yandı. Ona yaxınlaşıb dedi: “Mənə görə nə qulluğun var?” Əmr dedi: “Səndən heç nə istəmirəm. Amma yaman acmışam. Mənə yeməyə bir şey tapa bilərsənmi?” Həmin şəxs gedib bir batman ət tapdı və əsgərlərdən bir dəmir tava aldı. Sonra o yan-bu yana qaçıb bir az odun yığdı və ocaq qalayıb əti tavaya qoydu. Duz tapmaq üçün ocaqdan aralanmalı oldu. Elə bu zaman bir it gəlib başını tavaya sarı uzatdı. Əti götürmək istədikdə ağzı yandı. Başını geri çəkəndə boynundakı halqa tavanın dəstəyinə ilişdi və onu götürüb qaçdı. Əmr ibn Leys bunu gördükdə yenə də gülməyə başladı. Keşikçilər ondan nə üçün güldüyünü soruşduqda dedi: “Bu gün səhər sarayımda baş aşbaz mənə şikayət edirdi ki, üç yüz dəvə mətbəxdəki əşyaları daşımağa azlıq edir. Bir neçə dəvə də əlavə etmək lazımdır. İbrət götürün, mən həmin o adamam ki, səhər mənim mətbəximi üç yüz dəvə çəkirdi, axşam isə bir it onu götürüb apardı. Mən səhər əmir idim, axşam əsir oldum.”

Beləliklə, görürük ki, tarixdə insanlar üçün kifayət qədər ibrət dərsləri vardır. Həmin dərslərdən biri də Muxtarın qatili Məsəb və onun da qatili Əbdülməlik barədə olan hadisədir. Məsəbin kəsilmiş başını Əbdülməlikin qarşısına gətirirlər. Əbdülməlik onun başına baxıb nalayiq sözlər deməyə başlayır. Həmin məclisdə bir ərəb ayağa qalxıb Əbdülməlikə tutarlı sözlər deyir. Onun sözlərini mərhum Yəhyəvi belə nəzmə çəkmişdir:

*Məsəbin qanlı başın Əbdülməlik aldı ələ,*
*Baxdı başə, bəzi nalayiq suxən gətirdi dilə.*
*Bir ərəb hali təbəssümlə dedi ol cahilə,*
*Düşmənin məğlub olub, tarixə bax, az fəxr elə.*
*Mən bu məclisdə, bu təxt üstə ğəraib görmüşəm,*
*On ilin ərzində övzau-əcaib görmüşəm.*

*Zadeyi Zahra başın ibn Ziyadə verdilər,*
*Həm onun başını, Muxtarə cidadə verdilər.*
*Məsəbə Muxtar başın bu sərадə verdilər,*
*Bilmirəm aya sənin başın düşər hansı ələ?*
*Bu imarət dari ibrətdi, əmir, ibrət elə!*

Beləcə, "Yasin" surəsinin 31-ci ayəsində həm Məkkə müşrikləri, həm də Əntakiyyə əhalisi nəzərdə tutularaq onlara ibrət dərsi verilir və belə buyurulur: "Məgər onlardan qabaq nə çox insanları həlak etdiyimizi görmədilərmi? Onlar (həlak olanlar) bir daha bunlara sarı qayıtmayacaqlar."

Sonrakı (32-ci) ayədə isə belə buyurulur: **"Və onların hamısı – istisnasız olaraq – (Qiyamət günü) Bizim hüzurumuza çağırılacaqlar."**

Bu ayədə qiyamət məsələsinə toxunularaq insanların öldükdən sonra dirilib Allahın hüzuruna cəm olacaqları bəyan edilir. Ayədə bizə bir daha bildirilir ki, insan ölməklə

yox olub aradan getmir. Heç bir kəs elə düşünməsin ki, öləndən sonra torpağa çevriləcək və bununla da hər şey qurtaracaqdır. Bəzən bir nəfər dünyasını dəyişdikdən sonra bəziləri “canı qurtardı”, “rahat oldu” və s. kimi ifadələr işlədirlər. Yuxarıdakı ayədə isə buyurulur ki, bu, heç də belə deyildir. İnsanın ölməklə canı qurtarmır. Əgər ölümlə hər şey sona yetsəydi, ola bilərdi ki, onlar bundan sonra rahat olsunlar. Əfsus ki, ölümlə heç bir şey başa çatmır. Əksinə, əbədi həyat ölümdən sonra başlayır. Şair də bununla əlaqədar olaraq belə demişdir:

ولو أنا إذا مِتنـا تركنـا　　لكان الموت راحة كلّ حيّ

ولكنـا إذا مِتنـا بعثنـا　　و نسأل بعده عن كلّ شيّ

-Əgər biz öldükdən sonra haqq-hesab olunmadan öz başımıza buraxılsaq, onda ölmək bütün canlılar üçün ən rahat şey olardı. Yox, əgər öldükdən sonra yenidən dirilsək, o zaman bizdən hər şeyin hesab-kitabını çəkəcəklər.[1]

Belə məlum olur ki, insan öldükdən sonra mütləq diriləcək və etdiyi bütün əməllərinə görə sorğu-sual olunacaqdır. Hətta yanındakı bir adama gözlə işarə edib kimisə göstərərək ona gülməyin də hesabını soruşacaqlar. Yəni nə üçün başqasının qeybətini etdin? Həmçinin boynunda kimin haqqı varsa, qiyamət günü öz haqqını tələb edəcəkdir. Onun haqqını ödəyə bilmədikdə isə, namazlarından, oruclarından və yaxud digər yaxşı əməllərindən alınıb ona veriləcək. Beləcə, qiyamət günündə insanın hər bir xırda əməlinin də haqq-hesabı aparılacaq. İnsan elə başa düşməsin ki, bir gün bu dünyaya gəlib, bir gün də dünyadan gedəcək və qiyamət günü dirildilməyəcək.

İmam Baqir(ə) günlərin birində bir qrup mömin üçün

---

[1] Təfsiri-nümunə, 18-ci cild, səh. 369.

moizə oxuyarkən onlara xitab edərək belə buyurdu:

يابن الأيامِ الثلاث: يومك الذِي وِلدت ـفِيهِ، و يومك الذِي تنزِلُ ـفِيهِ قَبرك، و يومك الذِي تخرج ـفِيهِ ـإلى رِبّك...

-Ey üç günün övladı! Sənin bir günün doğulduğun, bir günün qəbrə qoyulduğun (ölüm günün), bir günün isə qəbirdən çıxıb Allahın hüzuruna (hesab-kitaba) gəldiyin gündür.

İnsan unutmamalıdır ki, bu üç günü mütləq görəcək. Elə düşünməməlidir ki, bir gün doğulubsa, bir gün də öləcək və bununla hər şey sona çatacaqdır. İmanı güclü və axirətə inamı olan insanlar bilirlər ki, onlar hədisdə qeyd olunan həmin üç günü yaşayacaqlar. Onlar bilirlər ki, bu dünyada etdikləri hər bir əmələ görə axirətdə cavab verməlidirlər. Axirətə, hesab-kitaba iman gətirən şəxslər həmişə özlərini buna hazırlayırlar. İmanı güclü olan insanlar heç bir vaxt dünyanın pul-parası, bər-bəzəyi qarşısında özlərini itirməzlər.

Tülui İranın məşhur yazıçılarından biridir və bir çox əsərlərin müəllifidir. O deyir: "Günlərin birində bir qrup yazıçı və ziyalılarla birgə Rza şahın yanına getmişdik. Rza şah üzünü mənə tutub dedi: "Cənab Tülui, "İstiğna" sözünün mənası nədir?"[1] Cavabında dedim: "Bu söz ğəni sözündən götürülmüşdür. "Ğəni" imkanlı və hər şeyi olan adam deməkdir. Amma "İstiğna" isə heç nəyi olmasa da belə "gözütox" və "möhtac olmayan" adama deyilir."[2]

---

[1] Rza şah İranda quldur, cəllad və qantökən şahlardan olmuşdur. Onun elə də savadı və elmi yox idi. Özü yoxsul bir ailədə boya-başa çatmışdı. Sonralar şərait elə gətirdi ki, İranın şahı oldu.

[2] Elə insanlar var ki, hər şeyi olmasına baxmayaraq, gözü yenə də acdır. Adam da var ki, heç nəyi olmamasına baxmayaraq, gözü tox olduğundan sanki hər şeyi vardır.

Rza şah dedi: “Bilirsənmi, bunu nə üçün soruşdum? Ona görə soruşdum ki, bu sözlə bağlı yadıma bir xatirə düşdü. Mən Ərak şəhərində hərbi xidmət keçmişəm. Günlərin birində hava çox soyuq idi. Həm ac idim, həm də yaxın bir adam yox idi ki, ona vəziyyətimin çətin olduğunu xəbər verim. Ətrafımda olanlardan soruşdum ki, burada bir alim varmı? Dedilər: Bəli, bu şəhərdə Şeyx Abdullah[1] adlı bir alim yaşayır. Ünvanını alıb məzuniyyət günlərinin birində onun evinə getdim. Onun evi çox sadə idi. İçəri daxil olduqda gördüm ki, Şeyxin yanında bir neçə nəfər əyləşib və ona müxtəlif suallar verirlər. Hamı getdikdən sonra mən onun yanında əyləşdim. O, çox diqqətlə mənə baxıb susdu. Bir qədər üzümə baxdıqdan sonra dedi: “Sən şah olacaqsan.” Öz-özümə dedim: “Mən acından ölənin biriyəm. Elə aclıq məni bu evə gəlməyə məcbur edib. Məndən şah olar?” Sonra üzümü ona tutub dedim: “Mən sənin yanına çətinliyə düşdüyüm üçün gəlmişəm. Mən hara, şahlıq hara?” O, bir də mənə baxıb ciddi şəkildə dedi: “Sən axırda şah olacaqsan.”

Onun bu sözü belə çox ciddi söylədiyini gördükdə ürəyimdə azacıq da olsa inam yarandı. Dedim: “Mən şah olduqdan sonra sən məndən nə istəyərsən?”

O dedi: “Səndən istəyim bu olar ki, camaatla mehriban və yaxşı rəftar edəsən.”

Şeyx mənə müəyyən qədər pul da verib problemimi həll etdi. Mən oradan çıxıb öz qərargahımıza getdim və o gündən sonra həmin Şeyxlə rastlaşmadım. İş belə gətirdi ki, mənim vəzifəm artdı. Məni komandir olaraq Tehrana

---

[1] Şeyx Abdullah Mazandarani böyük bir şəxs idi. O, bir müddət Ərakda (Qum şəhərindən bir neçə km. aralıda), sonra Reydə (Şah Əbdüləzimdə) yaşayıb. Ərakda yaşadığı vaxt Rza şah orada hərbi xidmətdə olub.

yolladılar. Bir müddət orada işlədim. Həmin müddətdə hansısa bir münasibətlə təşkil olunmuş məclislərin birində o Şeyxi yenə də gördüm. Məclisin axırına qədər gözlədim. Sonra ona yaxınlaşıb dedim: "Yadınızdadırmı mən bir dəfə sizin yanınıza gəlmişdim. Siz mənə dediniz ki, mən şah olacağam." O mənə baxıb dedi: "Sən şah olacaqsan."

Yenə də soruşdum: "Belə olduqda siz məndən nə istəyəcəksiniz?" O dedi: "Camaatla mehriban və yaxşı rəftar etməyini."

Bu söhbətin üstündən beş il keçdikdən sonra 1925-ci ildə iş belə gətirdi ki, mən həqiqətən də şah oldum. Bir gün işçilərimdən birinə dedim ki, Şeyx Abdullahı tapın. Onu çox axtardıqdan sonra belə bir xəbər gətirdilər ki, Şeyx Abdullah Reydə yaşayır. Dedim: "Elə isə görüşmək üçün ondan vaxt alın." Onun yanına gedib görüş üçün vaxt almaq istədikdə deyib: "Mənim vaxtım yoxdur." Ondan çox xahiş etdikdən sonra və adamların ondan əl çəkmədiyini görüb deyir: "Elə isə filan gün filan saatda Şah Əbdüləzim ziyarətgahına gəlsin və orada görüşək."

Mən qeyri-rəsmi geyimlə onun görüşünə getdim. Əyləşdikdən sonra dedim: "Mən həmin adamam ki, siz mənim şah olacağımı xəbər vermişdiniz." O dedi: "Bəli, bilirəm." Dedim: "Bu gün həmin gündür. Mən artıq şah olmuşam. Sizin məndən istəyiniz varmı?" O dedi: "Camaatla mehriban və yaxşı rəftar elə." Dedim: "Ağa, bəlkə başqa bir istəyiniz də var? Hər nə istəyiniz varsa, söyləyin." O dedi: "Mən ğəni deyiləm. Amma məndə istiğna var." (Yəni mənim heç nəyim olmasa da gözü tox adamam. Kiməsə möhtac deyiləm.)

O, bu sözləri dedikdən sonra mən sakitcə dayandım və heç nə demədim. Çünki onun sözünü başa düşmədim.

Buna görə də cənab Tülui, səndən “istiğna” sözünün nə demək olduğunu soruşdum.

Tülui deyir: “Şahla bu söhbəti etdikdən sonra həmin alimin Şeyx Abdullah Mazandarani olduğunu bildik.”

Bu əhvalatı danışmaqda məqsədim odur ki, əgər insanın ölümdən sonra dirilib haqq-hesaba çəkiləcəyinə etiqadı və inamı olsa, onda dünyanın bər-bəzəyi, pul- parası və s. qarşısında özünü itirməz. Amma imanı zəif olan insanlar isə dünyanın bər-bəzəkləri qarşısında başını itirər və Allahdan çox kafir və zalım insanlara bel bağlayarlar.

Bir mömin oğlan öz dostundan soruşdu: “Nə üçün evlənmirsən?” Dostu dedi: “Mənim evlənmək üçün maddi imkanım yoxdur.” Mömin oğlan dedi: “Sən imanını möhkəm saxla və ailə qur. Allah Öz mərhəməti ilə sizin üçün yetirər. Çünki Allah-təala Quranda belə vəd vermişdir:

إِن يكُونوا فُقَراء يغِنِهم الله مِن فَضلِهِ والله واسِع عَلِيم

-Əgər yoxsul olsalar, Allah onları Öz lütfü ilə dövlətli edər. Allah sonsuz genişlik sahibi və biləndir. [1]

Odur ki, sən Allaha təvəkkül et və ailə qur.”

O, yenə də israr edərək dedi ki, mənim ailə qurmağa maddi imkanım yoxdur.

Mömin dedi: “Mənim bir xristian dostum var. Bir insan kimi yaxşı adamdır. Mənim onda iki milyon tümən pulum var. Həmin pulla iş qurub və məni də özünə şərik edib. Bu aydan etibarən həmin qazancdan mənim payımı göndərəcək. Sən ailə qur, o, pulu verən kimi sənə də verərəm.”

Dostu bu sözü eşitdikdə sevindi və onunla razılaşdı.

Mömin dedi: “Ey Allah bəndəsi, sən Allahın verdiyi vədə inanmadın. Amma bir xristianın mənə pul verəcəyinə

---

[1] Nur surəsi, 32-ci ayə.

nə tez inandın? Mən səni sınağa çəkmişdim. Heç bir xristianda mənim pulum yoxdur. Mən bayaqdan sənə deyirəm ki, Allah ailə quranların maddi imkanlarını Öz fəzli ilə yaxşılaşdırar. Amma sən Allaha inanmayıb, bir xristianın mənə verdiyi sözə inanırsan?”

Belə bir imanla insan heç bir dərəcəyə çata bilməz. Belə zəif bir imanla insanın qəbrin çətinliklərindən, bərzəxdən, qiyamətin mizan, sirat kimi mərhələlərindən asanlıqla keçməsi mümkün deyildir. Məsələn, uzaq bir səfərə çıxmaq istəyən insan köhnə və mühərriki xarab olan maşınla hərəkət edərsə, mütləq yarı yolda qalacaq. Amma mühərriki və hər bir vəziyyəti yaxşı olan maşınla istənilən səyahətə çıxmaq mümkündür. İman da belədir. İman var ki, insanı axirətin bütün hallarında çətin vəziyyətlərdən çıxarıb cənnətə aparar. İman da var ki, insanı heç bir yerə çatdıra bilməz.

Beləliklə, insan bilməlidir ki, ölüm işin axırı deyil. İnsanın əsas işləri ölümlə başlanır. Əgər insan bunu başa düşə bilsə, Allaha inanar və Ona təvəkkül edər. Belə olduqda özünü islah etməyə, günahlardan təmizləməyə başlayar. İnsan özünü islah etməklə mənəvi dəyərlərə sahib olar və əbədiyyətə qovuşar. İnsan öldükdən sonra özündən yadigar olaraq qoyub getdiyi isə izzəti və şərafətidir.

*Bəşər ki, eşqlə tapdı şərafət, əsla ölməyəcək,*
*Ölən cisimdir, şərafət qiyamətədək ölməyəcək.*
*Deyirdi bir kişi, boynun vuran zaman cəllad,*
*Mən ölləm ay oğul, amma həqiqət ölməyəcək.*

وآيةٌ لهم الأرض الميتةُ أحييناها وأخرجنا منها حبا فَمِنه يأكُلُونَ.٣٣. وجعلْنا فِيها جناتٍ مِن نخِيلٍ وأعنابٍ وفَجرنا فِيها مِن العيون.٣٤. لِيأكُلوا مِن ثَمرِهِ وما عمِلَته أيدِيهم أفَلا يشكُرونَ.٣٥. سبحانَ الذِي خلَق الأزواج كُلها مِما تنبِت الأرض ومِن أنفُسِهم ومِما لا يعلَمونَ.٣٦.

**33. Ölü torpağı diriltməyimiz onlar üçün bir nişanədir. Sonra yedikləri toxumları (torpaqdan) çıxartdıq.**

**34. Biz orada xurmalıq və üzümlüklərdən bağlar düzəltdik və onların içində bulaqlar axıtdıq.**

**35. Onların meyvələrindən və öz əlləri ilə becərdiklərindən (yaxud becərmədiklərindən) yesinlər. Onlar (Allaha) şükür etmirlərmi?**

**36. Bütün cütləri yerin yetişdirdiklərindən (ağaclar, otlar, heyvanlar və sair) və onların özlərindən və bilmədiklərindən yaradan Allah pakdır.**

Ötən ayələrdə peyğəmbərlərin müşrik və bütpərəstlərlə mübarizəsinə və axırıncı ayədə məad məsələsinə işarə olunmuşdur. Yəni onlar keçmiş ümmətlərin necə həlak olduqlarına diqqət yetirməklə ibrət götürməlidirlər. Onlar ibrət götürsələr, özləri üçün yaxşı olar. Amma hər bir halda qiyamət günü hamılıqla Allahın hüzurunda dayanacaqlar. Beləliklə, Allah-təala insanları məadla hədələyir. Yəni bildirilir ki, qiyamət günü insan dünyada etdiyi hər bir işin xeyir və cəzasını görəcəkdir.

Bu ayələrdə isə Allah-təala mətləbi dəyişərək tövhid və məadı birlikdə bəyan etməklə müşrik və bütpərəstləri oyatmaq istəyir. Belə ki, burada Allahın əzəməti, hikməti, qüdrət və nişanələri barədə söz açılır. Yəni məbdə ilə məadı bir-birinin yanında bəyan edir. Məbdə başlanğıc, məad isə son və dönüş nöqtəsidir. Bu ayələrdə isə tövhiddən bəhs etməklə məbdə ilə məadı balanslaşdırır. Yəni haradan başlayıb harada qurtaracağını insanlara başa salır. Məbdə ilə məad arasında isə insanlar hər nə iş görürlərsə, bu onların öz işidir. Əgər insan iman gətirib Allahı qəbul edərsə, bu onun özünə xeyirdir. Yox, əgər iman gətirməzsə, yenə də ziyanını özü çəkəcəkdir.

Bu ayələrdə öncə ölü torpaqların dirildilməsi və ondan insanın əlinə gələn məhsullardan bəhs edilərək buyurulur: **"Ölü torpağı diriltməyimiz onlar üçün (məadın olmasına) bir nişanədir. Biz onu diriltdik və ondan dən(li bitki)lər çıxartdıq, onlar da ondan yeyirlər."**

Bütün bunların hamısı Allahın qüdrət və əzəmətidir ki, xırda və cansız bir toxum torpağa basdırılmaqla ondan tədricən böyük bir ağac əmələ gəlir. Ölünün içindən diri, dirinin içindən ölü çıxartmaq məhz əzəmətli və qüdrətli Allahın işidir. Məgər onlar il boyu ölüb-dirilən təbiəti görmürlərmi? Məhsullardan yeyirlər, heç düşünmürlərmi ki, bütün bunları yaradan kimdir? Heç fikirləşmirlərmi ki, ölü dəni ölü torpaqdan dirildən kimdir?

Bu ayədə bir kəlmə söz əsas hədəf olaraq irəli sürülür. Həmin bu söz isə "həyat" kəlməsindən ibarətdir. Yəni həyat və yaşayış tövhidin əsas dəlillərindən biridir. Həyat məsələsi yalnız Allaha məxsusdur. Bu məsələyə qarışmağa heç bir kəsə icazə verilməmişdir. Həyat məsələsi çox mürəkkəb, heyrətamiz və həddən artıq fövqəladə bir məsələdir. Bu məsələ öz dəqiqliyi ilə alimlərin ağlını

heyran qoymuşdur. Elm və texnikanın bu qədər geniş şəkildə inkişaf etməsinə baxmayaraq, hələ heç kim bu məsələdəki müəmmanı açıqlaya bilməmişdir. Heç kim bilmir ki, hansı səbəblər üzündən cansız məxluqat canlı bakteriyalara çevrilir? Hələ heç kim bitkilərin toxumlarının və onun müxtəlif təbəqələrinin necə cücərməsini dəqiq bilmir. Hansı qanun və qaydalar əsasında bu bitkilər lazımi şərait olduqda cücərib böyüməyə başlayır və ölü torpağın zərrələrini özünə cəlb edir. Beləliklə də ölü məxluqatı canlı bakteriyalara çevirir və hər gün onlara yeni bir həyat bağışlayır. Bitki və heyvanların həyat məsələsi və ölü torpaqların yenidən cana gəlməsindən məlum olur ki, bu, dünyanın yaranmasında böyük rol oynamışdır. Həmçinin bu məsələnin özü də qiyamətin olmasına aydın bir sübutdur. Heyvanın yaradılışı bitkilərin yaradılışından daha heyrətamizdir. Məsələn, Allah-təala "Ğaşiyə" surəsinin 17-ci ayəsində belə buyurur:

أَفَلَا يَنظُرُونَ إِلَى الْإِبِلِ كَيْفَ خُلِقَتْ

-Məgər onlar dəvəyə baxmırlarmı ki, necə yaradılmışdır?

Bu ayədə bütün heyvanların içərisində dəvənin adının çəkilməsi bir daha insanı heyrətə salır. Səbəbi də budur ki, orqanizm cəhətindən dəvə ilə insanın uyğunluğu çoxdur. Alimlər də təsdiq etmişlər ki, azacıq fərq olmaqla dəvə ilə insan orqanizmləri bir-birinə uyğun gəlir. Həmçinin ölçü vahidləri də bir-birinə uyğundur. Məsələn, suyun ölçüsü litrlə, parçanın ölçüsü metrlə, əşyaların sayı ədədlə müəyyən edilir. İnsanların sayı "nəfər", heyvanların sayı isə "baş" sözü ilə müəyyənləşdirilir. Amma dəvə yeganə heyvandır ki, onun da sayı "nəfər" sözü ilə müəyyən edilir.

Beləliklə, biz görürük ki, "Yasin"in 33-cü ayəsində fikirlər tövhid və məbdəyə sarı yönəldilir. Əlbəttə, bu ayələrin içərisində elmi bəhslər də vardır ki, mən indi onların üzərində dayanmıram. Sonrakı ayədə isə belə buyurulur: **"Biz orada (yerdə) xurmalıq və üzümlüklərdən bağlar düzəltdik və onların içində bulaqlar axıtdıq."** Bundan əvvəlki ayədə insanın yediyi toxumlardan söz açılmışdır. Ancaq indiki ayədə qüvvət verən və əsas meyvələrdən danışılır. Xurma və üzüm hər biri ayrı-ayrılıqda mükəmməl bir qida məhsulu hesab olunur. Alimlərin araşdırmaları sayəsində məlum olmuşdur ki, bu iki meyvənin tərkibində insan həyatı üçün bütün lazımi vitamin və digər maddələr vardır. Bundan əlavə, həmin iki meyvəni bütün il boyu təzə və ya qurudulmuş şəkildə saxlamaq və istənilən zaman istifadə etmək mümkündür.

"Ənab" (üzümlər) "inəb" (üzüm) sözünün və "nəxil" (xurmalar) "nəxl" (xurma) sözünün cəmidir. Ancaq bir fərqləri var ki, "inəb" üzümün özünə, "nəxl" isə xurmanın özünə yox, onların ağacına deyilir. Onun meyvəsinə "rütəb" və "təmr", yəni təzə və quru xurmalar deyilir. Bəziləri deyirlər ki, bir yerdə ağacın özünü, başqa bir yerdə isə meyvəsini deməkdə məqsəd odur ki, xurma ağacının meyvəsindən əlavə, onun gövdə, budaq və yarpaqlarından da istifadə edilir. Bunların ən başlıcası isə onun meyvəsidir. Ancaq üzüm ağacının təkcə meyvəsindən (yarpaqlarından da) istifadə olunur. Budaq və gövdəsi isə bir o qədər də istifadə edilmir.

Bu ayə öncə qeyd olunmuş ayənin şərh və izahını verir. Ayədə torpağın Allah-təalanın nişanəsi olduğu bəyan edildikdən sonra burada onun nümunələri göstərilir. Yəni çeşmələr və bulaqlar da Allahın nişanələridir. Eyni bir dağdan müxtəlif bulaqların çıxmasının da şahidi

oluruq. Məsələn, Savalan dağında müxtəlif müalicəvi və faydalı bulaqlar mövcuddur. Orada iki bulaq da vardır ki, bir-birinin yanından çıxır. Onları bir-birindən təkcə bir divar ayırır. Birinin suyu qaynar, digərinin suyu isə buz kimi soyuqdur. İnsan həmin divarın üstündə oturub bir əlini isti suya, digər əlini isə soyuq suya sala bilər. Qaynar suyun içinə girdikdə ola bilər ki, insanın ürəyi getsin. Əgər orada kiminsə ürəyi getsə, dərmanı yanındakı həmin soyuq sudur. Həmin adamı qaldırıb o soyuq suyun içinə saldıqda özünə gəlir. Yer kürəsində olan bəzi bulaqlar və çeşmələr həmçinin müxtəlif dada və digər xüsusiyyətlərə də malikdirlər. Demək olar ki, onların hamısı müalicəvi əhəmiyyətə malik olan sulardır. Bəzi bulaqlar da vardır ki, onların suyu sarılıq xəstəliyinin dərmanıdır. Sarılıq xəstəliyinə tutulmuş insanı həmin suyun içinə salan kimi, suyun üzünün rəngi dərhal dəyişib saralır. Elə bununla da həmin adamın xəstəliyi tamamilə sağalır.

Bu ayələrdə öncə ölü yerin (torpağın) yaradılması Allahın nişanəsi olduğu önə çəkilir və sonra isə bağlar, meyvələr və bulaqlardan söz açılır. Sonrakı ayədə belə buyurulur: "Onların meyvələrindən və öz əlləri ilə becərmədiklərindən yesinlər." Yəni onlar heç bir zəhmət çəkmədən Allahın yaratdığı bütün bu nemətlərdən bəhrələnsinlər. Belə ki, onları əkib becərməkdə heç bir zəhmət çəkməmişlər. Əlbəttə, bu nemətlərdən yeməyin də iki şərti vardır. Birincisi budur ki, insan özü həmin nemətlərdən istifadə etməklə yanaşı, başqalarına da verməlidir. İkincisi isə bu nemətlərə görə şükrünü də dilə gətirməlidir.

Bəzi ayələrə diqqət yetirdikdə görürük ki, bu dünyanın çox da əhəmiyyətli olmadığına işarə edilir. Bu dünya bəzilərinin gözündə çox böyük əhəmiyyətə malikdir. Belə ki, bir çoxu bu dünyaya görə dəridən-qabıqdan belə

çıxırlar. Bəziləri hətta beş manata görə qonşu ilə dalaşır və axırda da dünyada əldə etdiyi hər bir şeyini əldən verir. “Taha” surəsinin 53-54-cü ayələrində belə buyurulur:

الذِي جعلَ لَكُم الْأَرض مهدا وسلَك لَكُم فِيها سبلًا وأنزلَ مِن السماءِ ماءً فَأخرجنا بِهِ أزواجا مِن نباتٍ شتىٰ.كُلُوا وارعوا أنعامكُم ۚ إن فِي ذَٰلك لَآياتٍ لِأُولي النهىٰ

-Həmin O (Allah) ki, yeri sizin üçün döşəyərək beşik edib, onda sizin üçün yollar açıb və göydən (yağış, qar və dolu şəklində) su nazil edib. Biz onun vasitəsi ilə (torpağın altından) müxtəlif növlü rəngbərəng bitkilər çıxartdıq. (Onlardan özünüz) yeyin və heyvanlarınızı otarın. Həqiqətən bunda (bu xüsusi yaradılışda) ağıl sahibləri üçün bir (sıra) nişanələr vardır.

Bu ayələrdə görürük ki, Allah-təalanın dünyada yaratdığı nemətlərdən həm insanlar, həm də heyvanlar istifadə edirlər. Yəni əgər dünya nemətləri çox qiymətli bir şey olsaydı, deyilməzdi ki, onlardan heyvanlarınıza da verin. Odur ki, dünyanın nemətləri insanlar üçün o qədər də mühüm olmamalıdır. Necə deyərlər, insanın bu dünyaya görə özünü yorub həlak etməsinə dəyməz.

Yazarlar öz bədii əsərlərində pərvanədən kifayət qədər bəhs edirlər və yazırlar ki, o, həmişə şamın, yaxud müxtəlif çıraqların başına dolanır və beləcə özünü həlak edir. Onun bu hərəkəti barədə çox şeirlər yazmış və müxtəlif əfsanələr qoşmuşlar. Bəziləri onu şama aşiq kimi qələmə vermişlər. Tədqiqatçılar yazırlar ki, təkcə pərvanə deyil, digər böcəklər də belədir. Heyvanların əksəriyyəti qaranlıq və zülmətdən qorxduqları üçün işıq görən kimi elə başa düşürlər ki, nurun mənbəyini tapmışlar. Buna görə də gəlib özlərini çırağa möhkəm vururlar. Özlərini çırağa

vurduqdan sonra isə bir tərəfə düşürlər. Bir az keçir, yenə də işığın ətrafına dolanıb özlərini çırağa vururlar. Beləliklə, bunu o qədər təkrar edirlər ki, canları çıxır. Biz də onların bu hərəkətinə baxdıqda gülməyimiz gəlir.

Tədqiqatçılardan biri yazır ki, biz də eynilə həmin pərvanə və böcəklər kimiyik. Bizim də belə hərəkətlərimizə mələklər gülürlər. Çünki biz bu dünyada hər nəyə baxırıqsa, elə düşünürük ki, nicat mənbəyimiz oradadır. İnsan daxilində olan çatışmazlıq və boşluqları doldurmaq üçün hər işə əl atır. Bəzən elə başa düşür ki, vəzifəyə keçməklə bu boşluğu doldura biləcək. Vəzifəyə çatdıqdan sonra baxıb görür ki, həmin çatışmazlıq aradan qalxmadı. Bəziləri elə fikirləşirlər ki, çoxlu pul əldə edərlərsə, daxillərindəki boşluğu doldura biləcəklər. Pulu olduqdan sonra yenə də həmin boşluğu hiss edir. Çünki insanlıq, şərafət və izzət vəzifə və pulla hasil olmur. İnsanlıq başqa şeydir, pul başqa şey. Pul ona görə lazımdır ki, insan öz həyatını sürə bilsin. İnsan yemək üçün yaşamamalıdır, yaşamaq üçün yeməlidir. Bunlar fərqli-fərqli məsələlərdir. Heç kəs elə düşünməsin ki, hər bir şeyin dərmanı vəzifə, yaxud puldur. İnsan məqsədə çatmaqdan ötrü, içindəki boşluqları doldurmaq üçün özünü vəzifəyə, pula, şəhvətlərə və günahlara atır. Bunun da axırı fəlakətdir.

Allah-təala insana bu qədər nemət bəxş etmişdir. Ona görə ki, insan bu dünyada rahat yaşasın, onun üçün təyin olunmuş məqsədə çata bilsin və Allaha şükür etsin. Odur ki, "Yasin" surəsinin 35-ci ayəsinin sonunda belə buyurulur: "**Onlar (Allaha) şükür etmirlərmi?"** Əgər insan Allaha iman gətirib Ona şükür etsə, Allah onu əzaba düçar etməz. "Nisa" surəsinin 147-ci ayəsində belə oxuyuruq:

ما يفْعلُ اللّهِ بِعذَابِكُم إِن شكرتم وآمنتم وكَانَ اللّه شاكِرا علِيما

-Əgər şükür etsəniz və iman gətirsəniz, Allah sizə əsla heç bir əzab verməz (Onun buna nə ehtiyacı və bunun Ona nə xeyri var)?! Allah həmişə qədirbilən (əməli qiymətləndirərək yaxşı mükafatlandıran) və (hər şeyi) biləndir.

Əgər insan Allaha iman gətirsə, verdiyi nemətlərə görə şükür etsə, Allah nə üçün ona əzab verməlidir? Əksinə, insan Allaha şükür etdikcə Allah-təala nemətlərini onun üçün daha da çoxaldar. Necə ki, "İbrahim" surəsinin 7-ci ayəsində belə buyurulur:

لَئِن شكرتم لأزيدنكُم ولَئِن كَفَرتم إن عذَابي لَشدِيد

-Əgər şükür etsəniz, sizə (olan nemətləri) mütləq artıraram və əgər kafir olsanız, yaxud naşükürlük etsəniz, Mənim əzabım, əlbəttə, çox şiddətlidir.

Allahın heç bir kəsin təşəkkürünə ehtiyacı yoxdur. Əgər insan Ona şükür edirsə, bunun elə onun özünə xeyri var. "Loğman" surəsinin 12-ci ayəsində belə buyurulur:

ولَقَد آتينا لُقْمانَ الْحِكْمةَ أَنِ اشكُر لِلهِ ومن يشكُر فَإنما يشكُر لِنفْسِهِ ومن كَفَر فَإن الله غَنِي حمِيد

-Və həqiqətən, Biz Loğmana hikmət verdik (çox faydalı əqli və nəqli elmlər verdik, ona dedik) ki: "Allaha şükür et. Kim şükür etsə, həqiqətən, öz xeyrinə şükür edər və kim kafir (nankorluq) olsa, (bilsin ki,) Allah (onun şükrünə) möhtac deyil, (O,) həmd olunmuşdur (Onun sifətləri və işləri həmd olunmağa layiqdir)."

Sual oluna bilər ki, Allaha necə təşəkkür etmək lazımdır? Cavab belədir ki, insan Ona ibadət etməklə təşəkkür edə bilər. Dildə "Allaha qurban olum", "şükürlər olsun Ona" deməklə insan şükür edənlərdən sayılmaz.

Təqvalı olmaq Allaha təşəkkür etməkdir. “Ali-İmran” surəsinin 123-cü ayəsində belə buyurulur:

وَلَقَدۡ نَصَرَكُمُ ٱللَّهُ بِبَدۡرٖ وَأَنتُمۡ أَذِلَّةٞۖ فَٱتَّقُواْ ٱللَّهَ لَعَلَّكُمۡ تَشۡكُرُونَ

-Həqiqətən, Allah sizə Bədr (döyüşün)də gücsüz və pənahsız olduğunuz halda kömək etdi. Buna görə də təqvalı olun ki, bəlkə şükür edəsiniz.

Deməli, əgər insan Allahın verdiyi nemətləri öz yerində düzgün istifadə edə bilsə, təşəkkürünü bildirmiş olur.

Əsməi Harun ər-Rəşidin vəziri idi. O deyir: “Günlərin birində Harunla ova çıxmışdıq. Hava çox isti idi. Çöldə ov ovlamaq üçün hərəmiz bir tərəfə dağılışdıq. Belə oldu ki, mən həmin yerdən çox uzaqlaşdığım üçün yolu itirdim. Gəzə-gəzə gəlib bir çadırın yanına çatdım. Çadıra yaxınlaşdım, içəri daxil olduqda gördüm ki, orada gözəl-göyçək bir qadın əyləşib. Qadın məni görən kimi ayağa qalxıb hörmət edərək əyləşməyim üçün yer düzəltdi. Əyləşdikdən sonra dedim: “Mən çox susuzam. Mənə içməyə bir şey verərsinizmi?” Qadın dedi: “Ərim mənə evdən kiməsə bir şey verməyə icazə vermir. Amma nahara özüm üçün süd saxlamışam. Onu sənə verə bilərəm.”

Qadın kasadakı həmin südü mənə verdi. Südü içib bir qədər əyləşdikdən sonra qadın ayağa qalxıb çadırdan çıxdı. Sonra mən də onun ardınca çıxdım. Elə bu zaman uzaqdan bir nəfər atlının çadıra tərəf gəldiyini gördüm. Həmin şəxs çadıra yaxınlaşanda gördüm ki, yaşlı və eybəcər bir kişidir. Qadın onu görən kimi qarşısına çıxdı və hörmətlə atdan düşməsinə kömək etdi. Onun rəftarı da çox pis idi. Çünki çadıra çatar-çatmaz deyinə-deyinə gəlirdi. Çadıra daxil olanda məni görüb özünü saymamazlığa vurdu. Mən də yavaş-yavaş hazırlaşıb yoluma davam etmək

qərarına gəldim. Çadırın qapısında qadından soruşdum: "Bu kişi kimdir?" Qadın dedi: "Ərimdir." Mən təəccüblə soruşdum: "Axı sən gözəl və cavan bir qadınsan. Ərin isə qoca, eybəcər və bədrəftar bir adamdır. Nə əcəb sən belə bir kişi ilə ailə qurmusan?" Qadın dedi: "Həzrət Peyğəmbər(s) buyurmuşdur ki, imanın yarısı səbir, yarısı isə şükürdür. Mənim səbir etməyim imanımın bir hissəsini, Allaha şükür etməyim də digər hissəsini təmin edir. Mənə verdiyi gözəlliyə görə Allaha şükür etməyimi ərimin pis rəftarına səbir etməklə yerinə yetirirəm."

Odur ki, əgər insan hər bir nemətin Allahın nişanəsi olduğunu başa düşsə, çalışacaq ki, həmin nemətlərdən öz yerində istifadə etsin.

Beləliklə, qeyd olunan ayələrdə insanların fikir və diqqətini tövhidə yönəltmək üçün ölü torpağın dirildilməsi, orada bitən meyvələr, həmçinin bağlar və çeşmələrin də Allahın qüdrət və nişanəsi olduğu bəyan edilir. Sonrakı (36-cı) ayədə Allahın digər nişanəsinə işarə edilərək belə bəyan olunur: **"Bütün cütləri yerin yetişdirdiklərindən və onların (insanların) özlərindən və bilmədiklərindən yaradan Allah pakdır."**

Bu ayədə Allahın paklığından söz açılmışdır. Bundan qabaqkı ayələrdə Allah-təala ölü torpağı diriltməsindən bəhs etmişdir. Bu ayədə isə Allah-təalanın qüdrət və nişanələrindən birinə də işarə edilərək bəyan edilir ki, bütün cütlərin hamısını yaradan Allahdır. Ayədə işlənmiş "Əzvac" (cütlər) sözündə əsas məqsədin nə olduğu barəsində təfsirçilər bir neçə ehtimal irəli sürmüşlər. Əlbəttə, bu haqda çoxsaylı kitablar yazılmış və müzakirələr aparılmışdır. Bu haqda qısaca da olsa bir neçə mətləbə işarə edək.

"Əzvac" (cütlər) "zövc" (cüt) sözünün cəm şəklidir. Adətən "zövc" (cüt) sözü həm insanlarda, həm də heyvan-

larda müvafiq olaraq kişi və qadın, yaxud erkək və dişi cinsini ifadə etmək üçün istifadə edilir. Sonralar yavaş-yavaş bu mənanın əhatə dairəsi genişlənmiş və bir-birinə müvafiq, hətta bir-birilə müxalif və zidd olan iki şey barəsində işlədilmişdir. Məsələn, iki ayaqqabıya bir cüt ayaqqabı deyilir. Halbuki burada həmin söz erkək və dişi mənalarını kəsb etmir.

Bu barədə olan mətləblərdən biri də odur ki, "zövc" (cüt) sözü üçün nəzərdə tutulmuş bu məna öz yerində düzdür. Bu, alimlər tərəfindən də qəbul olunmuş bir mənadır. Lakin Quranın hər bir ayəsinin altında yeni mətləb və mənalar olduğundan alimlər bu ayədə işlənmiş "zövc" (cüt) sözünün əsas mənasının hər bir məxluqatın yaranışının da cütdən asılı olması ilə bağlıdır. Yəni maddi aləmdə bütün məxluqatın hər biri ilə bağlı araşdırma apardıqda bəlli olur ki, onların hər birinin sonu atomlara gedib çıxır. Məsələn, hündür bir evin təşəkkül tapdığı hər bir daş və yaxud kərpicə diqqət yetirdikdə görürük ki, onları üst-üstə qoyaraq evi araya-ərsəyə gətirmişlər. Beləliklə, aləmdə gördüyümüz hər bir predmetin kökündə atom dayanır. Elm sübut etmişdir ki, bu dünyada bütün predmetlər atomlardan təşkil olunmuşdur. Ancaq son illərdə kəşf olunmuşdur ki, atom parçalandıqdan sonra onun tərkibində müsbət və mənfi olan cüt zərrəciklər mövcuddur. Deməli, məxluqatın hamısı atomlardan, atom isə tərkibində olan bir cüt müsbət və mənfi zərrəciklərdən ibarətdir. Lakin bu müsbət və mənfi zərrəciklərin arasında bir boşluq da vardır. Həmin boşluğun nə olduğu hələ də elmə məlum deyil.

Buradan da aydın olur ki, ayədəki "zövc" (cüt) sözünün əsas mənası həmin müsbət və mənfi zərrəciklərdir. Hər nə yaranmışsa, məhz həmin mənfi və müsbət olan cütdən

əmələ gəlmişdir. Həmin müsbət və mənfinin arasında olan boşluğun da öz mənası var. Mənası da budur ki, Allahın "səməd" sifətində boşluq mövcud deyil. Səməd odur ki, onda heç bir boşluq olmasın. Yəni bu aləmdə bütün məxluqatın içində boşluq var. Əgər bir ev minlərlə kərvicdən təşəkkül tapırsa, hər kərpicin içində də boşluq var. Belə çıxır ki, həmin evin hamısında boşluq var. Amma səməd odur ki, onda heç bir boşluq olmasın. Buna görə də hər kim Allahın ərşdə əyləşdiyini desə, bu çox gülməli görünər. Hər kim Allahın ərşdə əyləşdiyini iddia edirsə, o, nə Allahı tanıyır, nə ərşin nə olduğunu bilir, nə maddəni tanıyır, nə də maddənin xasiyyətini və nəyə ehtiyacı olduğunu anlayır. Hər bir şeydə boşluq varsa, mütləq onun dolmağa ehtiyacı var.

Deməli, əgər biz Allahın hər bir şeyi cüt yaratmağında Öz qüdrətini bəyan etməsini bilmək istəyiriksə, hər bir məxluqatın kökü olan atomdakı mənfi və müsbətdən ibarət cüt zərrəciklərə diqqət yetirməliyik.

Beləliklə, bu ayə bizə bəyan edir ki, bütün cütləri yerin yetişdirdiklərindən və onların (insanların) özlərindən və bilmədiklərindən yaradan Allah pakdır. Ayədə olan incə məqamlardan biri "yerin yetişdirdiklərindən və insanların bilmədiklərindən yaradan Allah" ifadəsidir. Bu ayə insanlar tərəfindən yaradılan elmin məhdud olduğunu bildirir. Belə məlum olur ki, bu dünyada insan üçün üstü açılmamış bir çox həqiqətlər vardır. Alimlərin bildirdiyinə görə, biz insanlar Allah tərəfindən insana bəxş olunan zehni qabiliyyətin yalnız cüzi bir hissəsindən istifadə edə bilirik. Texnologiyanın günbəgün inkişaf etdiyi bir dövrdə bu günədək insan beyninin cəmi iki faizindən istifadə olunmuşdur.

Hazırda insanların böyük əksəriyyəti yalnız bir sahə üzrə ixtisaslaşa bilirlər. Bəzi insanlar var ki, elmin bir

neçə sahəsi üzrə ixtisaslaşırlar. Hamı bu cür insanlara dahi şəxsiyyət kimi baxır. Elmin bütün sahələrini mükəmməl şəkildə öyrənməyə isə insanın vaxtı çatmır. Amma qeyd etdiyimiz zehni qabiliyyətin hamısı zəmanənin İmamı Həzrət Mehdiyə(ə.c) verilmişdir və Həzrət(ə.c) elmin bütün sahələri üzrə mütəxəssisdir. Necə ki, Həzrət Əli(ə) buyurmuşdu: "Nə qədər ki, aranızdan getməmişəm, soruşun məndən. Mən göyün yollarını yerin yollarından daha yaxşı bilirəm."

Həzrət Peyğəmbər(s) başda olmaqla məsum imamlarımızın hamısı elmin bütün sahələri üzrə ixtisaslaşmışdılar. Kim onlara elmin hansı sahəsi üzrə sual veribdirsə, həmin suallara müvafiq qaneedici cavablar da almışdır. İmam Zaman(ə.c) zühur etdikdən sonra dünyanın hər bir yerindən alimlər gəlib onunla söhbət edəcək və hər biri öz sahəsinə dair sual verəcəkdir. Qaneedici cavab aldıqda isə görəcəklər ki, Həzrət(ə.c) elmin həmin sahələrini onların özlərindən daha yaxşı bilir. Beləcə, onlar öz meyl və istəkləri ilə iman gətirəcəklər.

### Öldükdən sonra diriləcəyikmi?

Yuxarıda qeyd olunan həmin dörd ayədə Allah-təala tövhid və məad məsələsini bir yerdə bəyan etməklə insanın əvvəlini və axırını ona göstərir. Həmçinin bütün tarix boyu insanlar üçün mühüm olan bir məsələnin üzərində dayanır. Həmin məsələ isə öldükdən sonra insanın dirildilməsi ilə bağlıdır. Həm İslam Peyğəmbərindən(s) əvvəl, həm də sonra, hətta elmin inkişaf etdiyi müasir dövrümüzdə də belə insanın öldükdən sonra diriləcəyinə inanmaq çoxları üçün müşkül bir məsələ olmuşdur. Özlərini savadlı, ziyalı, akademik və s. kimi təqdim edən insanların böyük əksəriyyəti ilə söhbət etdikdə onlar Allahı, Peyğəmbəri(s) və Quranı dildə qəbul etmələrinə baxmayaraq, insanın

ölümdən sonra diriləcəyinə heç cür inanmaq istəmirlər. Sübut üçün onlara nə qədər dəlil, ayə və hədislər misal gətirilsə də yenə də buna inanmırlar. İslam dininin ilk vaxtlarında müşriklərin tutduğu irad da məhz bu məsələ idi. Onlar deyirdilər ki, insan öldükdən sonra bədəni çürüyüb dağılır və torpağa qarışır. Necə ola bilər ki, çürüyüb torpağa qarışmış bədən yenidən dirilsin? "Möminun" surəsinin 82-ci ayəsində belə oxuyuruq:

قَالُوا أَإِذَا مِتنا وكُنا ترابا وعِظَاما أَإِنا لَمبعوثُونَ

-Dedilər: "Ölüb bir ovuc torpaq və sümük olduqdan sonra yenidən dirildilib qaldırılacağıq?!"

Ona görə də Quran bu məsələni ortaya qoyaraq onun üzərində təkid etmişdir. İnsanın öldükdən sonra dirilməsi elə bir məsələdir ki, onu danmaq pərdə arxasında olan bütün məsələləri danmaq deməkdir. Məsələn, cin Allahın bir məxluqudur ki, heç bir kəs onu görə bilmir. Onun gözə görünməməsi o demək deyil ki, cin yoxdur. Allah-təala Quranda bir neçə yerdə cinə xitab etmişdir. "Ər-Rəhman" surəsində 34 dəfə bu ayə təkrar olunmuşdur:

فَبِأَي آلَاء ربكُما تكَذبان

-Belə isə (ey insan və cin tayfaları), Rəbbinizin nemətlərinin hansı birini təkzib və inkar edirsiniz?!

Bundan başqa, Quranda bir çox yerdə cinin adı çəkilmiş, hətta onun adına bir surə də nazil olmuşdur. Cin də insan kimi Allahın mükəlləf məxluqudur. Allah- təala "Zariyat" surəsinin 56-cı ayəsində buyurur:

وما خلَقْت الْجِن والْإِنس إِلا لِيعبدون

-Cin və insanları yalnız Mənə ibadət etmələri üçün yaratmışam.

İslam Peyğəmbəri(s) həm insanların, həm də cinlərin peyğəmbəridir. Lakin onlar elə bir varlıqlardır ki, bizim gözlərimizdən qeybdədir.

Burada cini sadəcə olaraq bir misal gətirdik. Bundan əlavə, vəhy, Cəbrayıl(ə), mələklər, Həzrət Peyğəmbərin(s) meracı, İmam Zamanın(ə.c) qeybi, onun uzunömürlü olması və bu kimi digər məsələlərin hamısı pərdənin arxasına, yəni qeyb aləminə aiddir. Buna görə də möminlərin sifət və xüsusiyyətlərindən biri qeybə inanmaqdır. Allah-təala "Bəqərə" surəsində möminlərin xüsusiyyətini belə bəyan etmişdir:

الَّذِينَ يُؤْمِنُونَ بِالْغَيْبِ وَيُقِيمُونَ الصَّلاةَ

-O kəslər ki, qeybə inanır, namaz qılır.

Deməli, əgər insanın qeybə inamı olmasa, onun imanı da təkmilləşməyəcək. Ayədə möminlərin xüsusiyyətlərindən ən birincisi qeybə iman, sonra isə əməli ibadətlərdən söz açılmışdır.

Odur ki, ölünü diriltmək Allahın qüdrətindədir. İnsanı yoxdan yaradan Allah öldükdən sonra onun çürümüş sümüklərini yenidən dirildə bilməzmi? Süleymanın(ə) xalçasının uçması çətindir, yoxsa ölünü diriltmək? Bu gün elm və texnologiyanın inkişaf etdiyi bir dövrdə insanlar təyyarə ilə səfər edirlər. Amma min illər bundan öncə heç bir texnologiyanın olmadığı zamanda Süleyman(ə) adlı bir şəxs insanlardan və cinlərdən olan qoşunu ilə xalçanın üstündə əyləşər, gedəcəyi yerə yetişmək üçün küləyə əmr verərdi. Onun bir gün ərzində uçduğu məsafə mahir çaparın atla iki aya getdiyi məsafəyə bərabər idi.[1]

Həmçinin sual oluna bilər ki, Həzrət Peyğəmbərin(s)

---

[1] Yasin surəsinin təfsiri, Seyid Məhəmməd Ziyaabadi, səh. 150.

meraca getməsi çətindir, yoxsa ölünün dirildilməsi? Min dörd yüz il bundan əvvəl İslam Peyğəmbəri(s) heç bir vasitə və minik olmadan bir gecənin içində bütün asimanı gəzib geri qayıtdı. O, Məscidül-Həramdan merac etdi və Qüds məscidində yerə endi. Onun meracı barədə alimlər xeyli irad tutmuşlar. Onların bu iradları maddi iradlardır və buna görə də məsələni məqbul hesab etmirlər. Onlar bildirirlər ki, insan bədəni göy qatlarını keçə bilməz. Müəyyən məsafədə buz bağlayar və ya müəyyən məsafədə gün yandırar. Əgər sürəti müəyyən həddi keçsə, bədən dağılar. Allah-təala Quranda bircə "Sübhanallah" kəlməsi ilə onların bütün iradlarının qarşısını kəsərək belə buyurur:

سبحانَ الذِي أسرى بِعبدِهِ ليلاً من الْمسجِدِ الْحرامِ إِلى الْمسجِدِ الأَقْصى

-Öz bəndəsini (Muhəmməd–səlləllahu əleyhi və alihi və səlləmi) Özümüzün bəzi nişanələrimizi ona göstərmək üçün bir gecə Məscidül-Həramdan Məscidül-Əqsaya aparan Allah (hər bir eyibdən) pak və nöqsansızdır.[1]

Hər bir şeyi yaradan Allahdır və hər şeyin ixtiyarı da onun əlindədir. Odun xüsusiyyəti yandırmaqdırsa, soyuğun xüsusiyyəti dondurmaqdırsa, suyun xüsusiyyəti boğmaqdırsa, onlara bu xüsusiyyəti verən də Allahdır. İstənilən vaxt Allah-təala onların bu kimi xüsusiyyətlərini geri ala bilər. Məsələn, Həzrət İbrahimi(ə) tonqala atdıqda Allah-təala oda əmr etdi ki, ona qarşı soyuq olub onu sağ-salamat saxlasın. Əgər bütün bunların hamısının ixtiyarı Allahın əlindədirsə, deməli, Həzrət Peyğəmbərin(s) meraca getməsində də heç bir problem ola bilməz. İstənilən sürət, istənilən şərait bu iş üçün mümkündür.

Həmçinin ölünün dirildilməsi də Allah üçün çox asandır.

---

[1] İsra surəsi, 1-ci ayə.

Məgər insanı yoxdan yaradan Allah onun çürümüş sümüklərini yenidən dirildə bilməzmi? “Qiyamət” surəsinin 3-4-cü ayələrində belə buyurulur:

أَيحسب الْإِنسانُ أَلن نجمع عِظَامه. بلَى قَادِرِين علَى أَن نسوي بنانه

-Yoxsa insan belə güman edir ki, Biz əsla onun sümüklərini (öldükdən sonra torpaqların arasından) bir yerə yığa bilməyəcəyik? Bəli (bir yerə yığacağıq), hələ bir (üstəlik) onun barmaqlarının ucunu da əvvəldə olduğu kimi sirli xətlərlə düzəltməyə qadirik.

Tarixdə və Quranda ölünün dirildilməsinə dair çoxlu nümunələrə rast gəlmək olar. Məsələn, Quranda Üzeyir Peyğəmbərin(ə) əhvalatına diqqət yetirdikdə görürük ki, Allah-təala onu öldürdü və yüz ildən sonra diriltdi. O, Bəni-İsrail peyğəmbərlərindən biri idi. Günlərin birində səfərə çıxmışdı. Bir kəndin kənarından keçərkən baxıb görür ki, həmin kəndin evləri uçulmuş və viran qalmışdır. Ölülərin sümüklərini görüb təəccüblə deyir: “İlahi, bu çürümüş sümüklərin dirildilməsi necə baş verəcək? Əlbəttə, o, bu sözləri inkar və danmaq mənasında demirdi. Sadəcə olaraq onların necə diriləcəyi barədə düşünürdü. “Bəqərə” surəsinin 259-cu ayəsində oxuyuruq:

أَو كَالَّذِي مر علَى قَريةٍ وهِي خاوِيةٌ علَى عروشِها قَالَ أَنى يحيِـي هـَذِهِ اللّه بعد موتِها فَأَماته اللّه مِئَةَ عامٍ ثُم بعثَه قَالَ كَم لَبِثْت قَالَ لَبِثْت يوما أَو بعض يومٍ قَالَ بل لَبِثْت مِئَةَ عامٍ فَانظُر إِلَى طَعامِك وشرابِك لَم يتسنه وانظُر إِلَى حِمارِك ولِنجعلَك آيةً لِلناسِ وانظُر إِلَى العِظَامِ كَيف ننشِزها ثُم نكْسوها لَحما فَلَما تبين لَه قَالَ أَعلَم أَن اللّه علَى كُلِّ شيءٍ قَدِير

-Yaxud (Ya Rəsulum! Damları çökmüş, divarları) uçulmuş bir kəndin yanından keçən kimsənin əhvalatını bilirsən? O kimsə "Əcəba, Allah bu kəndi ölümündən sonra necə dirildəcək?" – demişdi. Belə olduqda Allah onu yüz il ölü halında saxladı, sonra dirildərək ondan "Nə qədər yatmısan?" – deyə soruşdu. O da "Bir gün, bəlkə bir gündən daha az" – deyə cavab verdi. Allah ona "Bəlkə yüz il yatmısan, yediyin yeməyə, içdiyin suya bax, hələ də xarab olmayıb. Bir də uzunqulağına bax! Səni insanlar üçün bir ibrət dərsi olmaqdan ötrü belə etdik. İndi (uzunqulağının) sümüklərinə bax, gör necə onları bir-biri ilə birləşdirir, sonra da onların üzərini ətlə örtürük?" – deyə buyurdu. O kimsəyə bunlar aydın olduqda "Artıq bildim ki, Allah hər şeyə qadirdir!" – dedi.

Üzeyir Peyğəmbər(ə) öz kəndinə qayıdıb evinin qapısını döydü. İsəridən qapını döyənin kim olduğunu soruşduqda o dedi: "Mən Üzeyirəm." Dedilər: "Üzeyir yüz ildir ki, itib." Üzeyir dedi: "Mən həmin Üzeyirəm və gəlib çıxmışam." Dedilər: "Mən onun xalasıyam. Əgər sən həqiqətən Üzeyirsənsə, de görüm, mənim adım nədir?" Üzeyir dedi: "Filankəs." Xalası dedi: "Mənim gözlərim görmür. Əgər sən Üzeyirsənsə, gözlərimə şəfa ver." Üzeyir onun gözlərinə şəfa verib sağaldır. Sonra başına gələn əhvalatı danışır.

Bu məsələ Quranda açıq-aydın bəyan olunmuşdur. Təkcə Quranda deyil, tarixdə də ölülərin dirildilməsindən çox nümunələrə rast gəlmək olur.

İslam dini zühur etdikdən sonra bir nəfər ərəb Həzrət Peyğəmbərin(s) hüzuruna gəlib ərz etdi: "Ey Allahın Peyğəmbəri, mən sənə iman gətirmək istəyirəm." Peyğəmbər(s) ona İslam qaydalarından danışdıqdan sonra həmin şəxs həqiqi möminlərdən birinə çevrildi. Günlərin birində həmin

ərəb möminlərlə birgə Həzrət Peyğəmbərin(s) hüzurunda əyləşmişdi. Həzrət Peyğəmbər(s) onlara günahın ağırlığından və qiyamət günü günahkarın cəzalarından söz açırdı. Həmin ərəb ərz etdi: “Ya Rəsulallah, mən cahillik dövründə çox böyük günahlara düçar olmuşam. Etdiyim günahlardan biri də öz qızımı diri-diri torpağa basdırmağım idi.

Mən günlərin birində səfərə çıxmışdım. Uzun bir müddətdən sonra səfərdən qayıtdım. Evə daxil olduqda balaca bir qız uşağı gördüm. Həyat yoldaşımdan onun kim olduğunu soruşduqda o, məsələni məndən gizlədərək dedi: “Qonşunun uşağıdır, hələlik baxmaq üçün mənim yanıma qoyub.” Lakin bir neçə müddətdən sonra həyat yoldaşım əsl həqiqəti mənə söylədi. Dedi ki, sən səfərə çıxanda mən hamilə idim. Bu uşaq dünyaya gəldikdə qız olduğunu görüb heç bir kəsə bildirmədim. Onu özüm böyüdüb bu yaşa çatdırmışam. Görürsənmi necə şirin uşaqdır?

Mən həyat yoldaşımın sözlərinə qulaq asıb bir söz demədim. Amma ürəyimdə kin-küdurət baş qaldırmışdı. Üstündən bir neçə gün keçmişdi ki, uşağın anasına dedim: “Məni filan yerə qonaq çağırıblar. Uşağı da geyindir, özümlə aparım.” Anası uşağa yaxşı paltarlar geyindirib bizi yola saldı. Mən uşağın əlindən tutub çölə apardım. Yeri qazmağa başladım. Yeri qazdıqca tərləyir və üz-gözüm toz-torpağa bulaşırdı. Qız da gəlib mənim üzümün tərini və tozunu silirdi. Yer hazır olduqdan sonra qızı götürüb ora atdım və üstünü də torpaqla doldurdum. Mən torpağı qızımın üstünə tökdükcə o da qışqırıb ağlayır və məni çağırırdı. Mən isə onun göz yaşlarına və ağlamağına baxmayaraq, bu işi davam etdirirdim. Onu tamamilə basdırıb öldürdükdən sonra evə qayıtdım.”

Həzrət Peyğəmbər(s) onun sözlərini dinlədikdən sonra buyurdu: “Qızını basdırdığın yer yadında qalıbmı?”

Dedi: “Bəli.”

Həmin ərəb Həzrət Peyğəmbərlə(s) birlikdə qızını basdırdığı yerə gəldilər. Həzrət Peyğəmbər(s) başını göyə qaldırıb Allahla minacat etdikdən sonra üzünü qızın basdırıldığı yerə tutub buyurdu: “Allahın izni ilə qalx.” Elə bu an yer ayrıldı və qız torpağın altından ayağa qalxdı. Həzrət Peyğəmbər(s) ona buyurdu: “Ata-anan artıq müsəlman olublar. Vəziyyət əvvəlki kimi deyil. İndi onlar sənə qarşı mehriban olacaqlar. Onların yanında olmağını istərdinmi?” Qız dedi: “Ya Rəsulallah, xeyr. Çünki Allahım mənə atamdan da, anamdan da mehribandır.” Həzrət Peyğəmbər(s) ona öz yerinə qayıtmağı əmr verdi. Qız yenidən həmin qəbrə qayıtdı.

Cənab Cəbrayıl(ə) tez-tez Həzrət Peyğəmbərin(s) hüzuruna gəlib söhbət edirdi. Bəzən evdə, bəzən küçədə və müxtəlif hallarda görüşüb danışırdılar. Cəbrayıl(ə) Həzrət Peyğəmbərin(s) həmdəmi və munisi idi. Hər dəfə görüşəndə müxtəlif məsələlərdən bəhs edirdilər.

Günlərin birində İslam Peyğəmbəri(s) ondan soruşdu: “Cəbrayıl, Allah ölüləri necə diriltdir?” Həzrət Peyğəmbər(s) Allahın ölüləri necə diriltməsini çox yaxşı bilirdi və buna yəqini var idi. Lakin həm Cəbrayılı(ə) danışdırmaq üçün, həm də qiyamət günü ölülərin hansı vəziyyətdə diriləcəyini görməkdən ötrü bu sualı verdi. Cənab Cəbrayıl(ə) dedi: “Ya Rəsulallah(s), sənə bir nümunə göstərəcəyəm.” Onlar birlikdə yola düşüb Bəni-Saidənin məqbərəsi olan qəbiristanlığa yetişdilər. Cəbrayıl(ə) qəbirlərdən birinin kənarında dayanıb dedi: “Allahın izni ilə qəbirdən qalx!” Elə bu zaman qəbir yarıldı və içərisindən qoca bir kişi ayağa qalxıb üz-gözünün torpağını silə-silə dedi: “Vay olsun mənim halıma.” Cəbrayıl(ə) dedi: “İndi isə yerinə qayıt.” Həmin şəxs yenidən qəbrə daxil oldu. Sonra Cəbrayıl(ə) başqa bir

qəbrin kənarında dayanıb dedi: "Allahın izni ilə qəbirdən çıx!" Bu qəbir də yarıldı və içərisindən bir cavan oğlan çıxdı. Üz-gözünün torpağını təmizləyə-təmizləyə ətrafına baxdı. Həzrət Peyğəmbəri(s) gördükdə bu sözləri dedi: "Şəhadət verirəm ki, Allahdan başqa heç bir məbud yoxdur. Təkdir və heç bir şəriki yoxdur. Şəhadət verirəm ki, Məhəmməd(s) onun Rəsuludur. Şəhadət verirəm ki, insanların hamısı ölümü dadacaq. Şəhadət verirəm ki, qiyamət günü hamı qəbirlərdən qalxacaq." Cənab Cəbrayıl(ə) dedi: "Elə isə yerinə qayıt." Həmin oğlan yenidən qəbrə daxil oldu.

Qiyamət günü bütün insanlar qəbirlərdən beləcə qalxacaqlar. Kimisi "kəlmeyi şəhadəti" deyərək imanını izhar edə edə, kimisi isə "vay olsun mənə" deyə-deyə peşmançılıq çəkərək məhşərə gələcəklər.

## 37-40-cı AYƏLƏRİNİN TƏFSİRİ

**وآيةٌ لهم الليلُ نسلخ مِنه النهار فَإذَا هم مظْلِمونَ.٣٧. والشمس تجري لِمستقَر لها ذَلك تقْدِير العزيز العِليم.٣٨. والقَمر قَدرناه منازِلَ حتى عاد كالعرجون القَدِيم.٣٩. لا الشمس ينبغِي لَها أن تدرك القَمر ولا الليلُ سابِق النهارِ وكُل فِي فَلَكٍ يسبحونَ.٤٠.**

**37. Gecə də onlar üçün başqa bir nişanədir (Allahın əzəmətindən). Gündüzü ondan alarıq və hamı qaranlığa dolar.**

**38. Və Günəş (də nişanədir ki) qərar tapacağı yerə doğru getməkdədir. Bu qüdrətli və bilən (Allahın) təqdiridir (əmridir).**

**39. Biz Ay üçün də mənzillər müəyyən etdik ki, (bu mənzilləri ötdükcə) xurmanın qurumuş (sarı rəngli və qövsvari şəkildə olan) budağı kimi incə olsun.**

**40. Nə günəşin aya yetişməsi yararlıdır və nə gecənin gündüzü ötüb keçməsi. Hərəsi müəyyən bir dairədə üzür (dolanır).**

Bundan əvvəlki ayələrdə oxuduq ki, Allah-təala müşriklərlə danışaraq Öz qüdrət və nişanələrindən bir neçəsini bəyan edir. Allah ölü yerin dirildilməsi barədə belə buyurur: “Ölü torpağı diriltməyimiz onlar üçün bir nişanədir. Sonra yedikləri toxumları (torpaqdan) çıxartdıq.” Bu ayələrdə gecənin də onlar üçün Allahın bir nişanəsi olduğu önə çəkilir. Yəni onlar gecəni gözləri ilə görürlər. Bunu da bilməlidirlər ki, gecənin özü də Allahın əzəməti və nişanəsidir. Bəzən insan bütün bunları görməyə o qədər adət edir ki, Allahın əzəməti, qüdrət və nişanələrini unudur. Gecə yatır və səhər

oyanıb görür ki, hər yer işıqlıdır. Gündüz gəzib dolanır və axşam görür ki, yavaş-yavaş qaranlıq düşür. Gecə-gündüz o qədər nizam- intizamla gəlib keçir ki, heç vaxt bir yerdə dayanmır və bir-birinə dolaşmır. Bu nizamda heç bir gecikmə və tələsmə də baş vermir. Fəsillərə uyğun olaraq bəzən günlər, bəzən də gecələr uzun olur və insan bütün bunları həmişə gördüyündən elə başa düşür ki, elə belə də olmalıdır. Heç bir düşünmür ki, bütün bunları yaradan və nizamlayan var.

Buna görə də Allah-təala insanlara başa salır ki, gecə də onlar üçün (Allahın əzəmətindən) başqa bir nişanədir. Sonra həmin ayədə belə buyurulur: "Gündüzü ondan alarıq və hamı qaranlığa dolar." Yəni işığı gecədən aldıqda hər yer qaranlığa qərq olur. Bu ayədən məlum olur ki, gecədən günüzü götürmək elmi yanaşmadır. Nə üçün deyilmir ki, qaranlığı yaratdım? Nə üçün deyilir ki, işığı gecədən aldıq və hər yeri qaranlıq bürüdü? Çünki xilqətin əsl təbiəti qaranlıqdır. Sanki bu qaranlığa ağ bir köynək geyindirmişdir. Həmin köynəyi çıxartdıqda yenə də qaranlıq olur. Ayədə işlənmiş «نسلخ» "nəsləxu" (siyirərək) sözü «سلخ» "səlx" (siyirmək) sözündən götürülmüş və əslində heyvanın dərisini bədənindən soymağa deyilir. Məsələn, Həcc ziyarətində qoyunların kəsilib dərisinin soyulduğu yerə də «مسلخ» "məsləx" deyilir. İlanın da dəridən çıxmasına "insilax" deyilir. Bütün bunların hamısının kökü «سلخ» "səlx" (siyirmək, soymaq) sözünə qayıdır. Bu çox incə bir ibarədir. Gündüz ağ bir paltara bənzədilmiş və gecənin əyninə geydirilmişdir. Gün batan zaman bu paltarı heyvanın dərisini soyan kimi gündüzdən siyirib soyurlar. Beləliklə onun batini, yəni gecə aşkar olur və hər yeri zülmət qaranlıq bürüyür. Nur və işıq sonradan bu aləmə verilmiş bir

sifətdir ki, Allah-təala bu xilqətə nuru bəxş etmişdir. Bu sifət aradan getdikdə təbiətin əsl rəngi aşkar olur. Necə ki, insan paltarını çıxartdıqda onun bədəninin əsl və təbii rəngi aşkar olur.[1]

Bu da həyatın bir nümunəsidir ki, biz buna adət etmişik və düşünürük ki, belə də olmalıdır. Yer-torpağın fəsillər dəyişərkən ölüb dirilməsi Allahın qüdrət və nişanəsi olduğu kimi, aləmin gecəyə qərq olması və işıqlanması da Onun nişanələrindəndir. İnsan bütün bunları həmişə gördüyü üçün ona adi bir məsələ kimi görünür və düşünür ki, elə belə də olmalıdır. Bütün bu nizam-intizam Allahın qüdrət və əzəmətini göstərən nişanələrdir. Əgər Allah-təala bu aləmə nur və işığı verməsəydi, həmişə qaranlıq olardı. Bütün bunları yaradan uca və Əzəmətli Allahdır. Ondan başqa heç bir kəs bu işə qadir deyil. Allah-təala "Qəsəs" surəsinin 71-73-cü ayələrində belə buyurur:

قُلْ أرأيتم إن جعلَ الله علَيكُم الليلَ سرمدا إلى يومِ الْقِيامةِ من إلٰه غَير اللهِ يأتيكُم بِضِياء أفَلَا تسمعونَ. قُلْ أرأيتم إن جعلَ الله علَيكُم النهار سرمدا إلى يومِ الْقِيامةِ من إلٰه غَير اللهِ يأْتيكُم بِلَيلٍ تسكُنونَ فِيهِ أفَلَا تبصِرونَ. ومِن رحمتِهِ جعلَ لَكُم الليلَ والنهار لِتسكُنوا فِيهِ ولِتبتغوا مِن فَضلِهِ ولَعلكُم تشكُرونَ

[1] Qeyd etmək lazımdır ki, alimlər bu barədə geniş elmi müzakirələr aparmışlar. Bütün bunlar elmi bəhslərdir ki, bu sahənin mütəxəssisləri Quranın əzəmətindən elmi bəhrələrini götürürlər. Onlar açıq- aydın şəkildə görürlər ki, onların indi başa düşdükləri elmin bütün incəliklərindən min dörd yüz il bundan əvvəl Quranı gətirən insan xəbərdar imiş. Əlbəttə, bu, bizim hazırkı bəhsimizə aid deyil.

-(Ya Peyğəmbər!) de: “Mənə deyin görüm, əgər Allah gecəni sizin üçün qiyamət gününə qədər həmişəlik bərqərar etsəydi, yeganə Allahdan başqa hansı tanrı sizə bir işıq gətirə bilərdi? Məgər eşitmirsinizmi?!”

De: “Mənə deyin görüm, əgər Allah gündüzü sizin üçün qiyamət gününə kimi həmişəlik bərqərar etsəydi, yeganə Allahdan başqa hansı bir tanrı aramlıq tapdığınız gecəni sizə gətirə bilərdi? Məgər görmürsünüz?!”

Gecə dincəlməniz və (gündüz iş-güc ilə) Allahın fəzl və kərəmindən (ruzi) axtarmanızdan ötrü sizin üçün gecə və gündüzü yaratması Onun (Allahın) mərhəmətindəndir. Bəlkə şükür edəsiniz!”

Bu ayələrdə Allah-təala insanlara xatırladır ki, gördüyünüz bütün bu aləm, nizam-intizam özbaşına yaranmayıb. Bütün bunların hamısını qüdrətli və əzəmətli olan Allah-təala yaratmışdır.

**Bəşərin kamilliyi Allahı tanımasındadır**

Burada bir mətləbə diqqət yetirək. Həmin mətləb ondan ibarətdir ki, insanın təkamülü Allahşünaslıqla bağlıdır. Qeyd olunan ayələrdə və eləcə də digər ayələrdə yerin, ayın, günəşin, ulduzların, gecə və gündüzün barəsində bəhs olunur. Deməklə olar ki, dünyada mövcud olan bir sıra təlimlərdə də astronomiya elminə xüsusi əhəmiyyət vermişlər. Onlar da gecə, gündüz, ulduzlar və digər planetlər barədə elmi araşdırmalar apararaq müxtəlif kitablar yazmışlar. Lakin Quranın bu kimi təlimlərdən bir fərqi var. Həmin fərq də budur ki, qeyd olunan digər təlimlər astronomiya, zoologiya və s. kimi elmlərə müstəqil yanaşırlar. Amma Quran isə bütün bunların Allahın nişanəsi olduğunu bəyan edir. Digər təlimlərin tərəfdarı olan alimlər hər bir varlığın özü barədə araşdırma aparırlar. Məsələn, bir

alim bütün ömrünü yalnız arı barədə araşdırmalar aparmağa sərf edir. Amma arının kim tərəfindən yaradılması məsələsinə heç bir əhəmiyyət vermir. Arını öyrənmək bir insan üçün təkamül deyil. Təkamül odur ki, insan arını öyrənməklə yanaşı, onu yaradan Allahı da tanısın. Yaxud bir alim astronomiya elmini öyrənir, günəş, ay, ulduzlar və bütövlükdə qalaktika haqda araşdırmalar aparır. Amma bütün bu sistemin kim tərəfindən yaradılması ilə maraqlanmır. Quran isə bütün varlıqlardan söz açır və onları yaradanı da bəyan edir. Allah-təala hamıya açıq-aydın şəkildə bildirir ki, hər bir şeyi yaradan Mənəm. Günəşi, ayı və digər ulduzları da hərəkətə gətirən Mənəm.

Allah-təala istədiyi vaxt onların hərəkətini saxlaya bilər və bir zaman saxlayacağını da bəyan edib. Necə ki, bəzi hallarda tarix boyu Allahın əmri ilə bu varlıqlar öz funksiyasını saxlamış və Onun əmrinə itaət etmişlər. Məsələn, Həzrət Əlinin(ə) əsr namazını vaxtında qılması üçün günəşi geri qaytaran da Odur. Hər bir şey Onun əlindədir. Allah-təalanın yaratdığı günəşin, ayın, ulduzların, dağların, dənizlərin və s. kimi varlıqların aqibətinin necə olacağı da Quranda açıq-aydın göstərilmişdir. Odur ki, əgər bir şəxs hansısa varlığın barəsində tədqiqat apararkən həmin varlığı yaradan barədə düşünmürsə, deməli, bu, həmin şəxs üçün təkamül deyil.

## Elm və fəzlin fərqi

Burada bir mətləbi də diqqətə çatdırmaq lazımdır və bu da elmlə fəzlin fərqi barədə olan bir məsələdir. Günlərin birində Həzrət Peyğəmbər(s) məscidə daxil olarkən camaatın bir nəfərin başına toplaşdığını görür. İrəli gəlib soruşur: “Bu şəxsin ətrafına toplaşmaqda məqsədiniz nədir?”

Dedilər: "Ya Rəsulallah bu, əllamədir."[1] Həzrət(s) buyurdu: "Siz kimə əllamə deyirsiniz?" Dedilər: "Bu şəxs ərəblər arasındakı bütün qohumluq münasibətlərini tanıyır və kimin hansı nəslə məxsus olduğunu bilir. O, ərəblər arasındakı hadisələrin çoxunu bilir və ərəblərə məxsus olan şeirlərin çoxunu da əzbərləyib. Ona görə də biz onun ətrafına toplaşıb ərəblər arasında baş verən hadisələri ondan soruşuruq. O da bizim üçün maraqlı əhvalatlar danışır və müxtəlif şeirlər oxuyur.

قال رسول الله(ص): ذَاك عِلم لاَ يضر مِن جهلِهِ ولا ينفَع مِن عملِهِ. ثُم قَالَ:ِانما العِلْم ثَلاثَةٌ: آيةٌ محكَمةٌ, اَو فَرِيضةٌ عادِلَةٌ, اَو سنةٌ قَائِمةٌ. وما خلاهن فَضلٌ

-Həzrət Peyğəmbər(s) buyurdu: "Onun bildikləri elə bir şeydir ki, bir şəxs onu bilməsə ziyan çəkməz və bilsə də onun üçün böyük bir mənfəəti olmaz. Həqiqi elmə gəldikdə isə elm üç növdür: 1.Ayətun möhkəmə (möhkəm ayələr); 2.Fərizətun adilə (əxlaq elmi); 3.Sünnətün qaimə (şəriət hökmləri). Bu elmləri oxuyub öyrənən insanlara böyük fəzilətlər bəxş olunur. Həmin elmlərdən əlavə, öyrənilən elmlərin heç biri bu üç elmin fəzilətinə malik deyildir."

Yəni bu üç elmdən başqa, digər elmləri də bilmək yaxşıdır, amma bunların həmin üç elm qədər üstünlüyü yoxdur. Məsələn, Nuh Peyğəmbərin(ə) qayınanasının adını bilmək yaxşıdır. Amma bunu bilməməyin insana heç bir ziyanı dəyməz. Yaxud İmam Hüseynin(ə) Kərbəlada mindiyi atının erkək, yaxud dişi olmasını bilmək yaxşıdır.

---

[1]Əllamə çox bilikli bir şəxsə deyilir.

Amma bunu bilməməyin də insan taleyinə heç bir təsiri yoxdur. Bir sözlə desək, insanın taleyində təsiri olmayan şeyləri bilməyə fəzl deyilir. Yəni bunları bilmək insan üçün yaxşıdır, bilməməyin isə heç bir ziyanı yoxdur. Amma əgər bir elmi öyrənməməklə insan ziyana düşəcəksə və ya təhlükə ilə üzləşəcəksə, onu mütləq öyrənməlidir. Çünki həqiqi elm məhz budur. Həzrət Peyğəmbər(s) bu hədisdə insana lazım olan əsas elmləri digərlərindən ayıraraq hamıya başa salır ki, insanın taleyində rolu olan elmlər məhz yuxarıda qeyd olunan həmin üç elmdən ibarətdir.

Burada yaxşı olar ki, həmin üç elm barəsində qısaca da olsa açıqlama verək. Möhkəm ayələr dedikdə dinin əsasları nəzərdə tutulur və bu elm əsas İslam ideologiyasından bəhs edir. Yəni insanlar bu aləmi və onu yaradanı tanımalı, Onun insanlara kitab nazil etməsini, peyğəmbərlərin göndərilməsini, Peyğəmbərdən(s) sonra insanları hidayət edən imamlar təyin etməsini və insanlar öləndən sonra onların bu dünyada etdikləri əməllər barədə Allah qarşısında sorğu-sual olunacaqlarını öyrənib bilməlidirlər. Bir sözlə desək, insanlar üsuliddin elminə malik olmalıdırlar. İnsanlar ilk növbədə yaradanı tanımalı və onları nə üçün yaratdığını bilməlidirlər.

"Fərizətun adilə" (əxlaq elmi) odur ki, insan ona ziyan və xeyir verən xislətləri öyrənsin. Bu dünyaya nə üçün gəldiyini və yaşamağın tərzini öyrənməlidir. Məsələn, insan bir ölkəyə səfər etdikdə oranın qayda-qanunlarını bilməlidir ki, həmin yerdə qanunsuzluqlara yol verməsin. Eləcə də bu dünyada yaşayarkən Yaradanın qanunlarına riayət etməlidir.

Mərhum İmam Xomeynini ölkədən sürgün etdilər. O, on dörd il İraqda yaşadıqdan sonra hökumət onun məşhurlaşdığını görüb bu ölkədən çıxartdı. Həmin vaxt İraq-Küveyt

sərhədində dayanmış İmam(r) buyurdu: "Əgər bu dünyada mənə torpağın üstündə yer yoxdursa, o zaman bir gəmini icarəyə götürüb suyun üzərində yaşayaram." Sonra Fransa dövləti ona öz ölkəsində yaşamağa icazə verdi. İmam bir neçə ay Fransada yaşadı. İmamın gəlişi ilə əlaqədar olaraq bir qoyun kəsib ətini bişirdilər. Həmin ətdən İmamın da qarşısına qoydular. İmam soruşdu: "Bu qoyunu harada kəsmisiniz?" Dedilər: "Həyətdə." İmam dedi: "Fransanın qanunlarına görə heyvan kəsmək üçün xüsusi yerlər ayrılıb. Heyvanları həmin yerlərdən savayı, başqa yerlərdə kəsmək qanunsuzluqdur. Bu qoyun kəsilərkən yaşadığım ölkənin qanunlarına etinasızlıq göstərilib. Ona görə də həmin heyvanın ətindən yeməyəcəyəm." Sonra İmam pendirlə çörək yedi və həmin ətdən dilinə də vurmadı.

Odur ki, insana bu dünyada kifayət qədər ixtiyar verilməsinə baxmayaraq, ona verilən bu ixtiyardan istifadə edərək öz bildiyi kimi yaşamamalıdır. Hər bir insan bu aləmdə mövcud yaşam tərzini öyrənməli, fərdi və ictimai məsələlərə riayət etməli, insanlarla necə münasibət qurmağı və rəftar tərzini öyrənməlidir.

"Sünnətün qaimə" şəriət hökmlərindən ibarətdir. Şəriət hökmləri beş əhkamdan ibarətdir: vacib, haram, müstəhəb, məkruh və mübah.

Vacib hökmlər odur ki, mütləq yerinə yetirilməlidir. Yəni insan istər fərdi olaraq Allah-təala üçün gördüyü əməlləri, istərsə də ictimai məsələləri dəqiqliklə öyrənməli və onları həyata keçirməlidir. Məsələn, vacib əməllər olan namaz, oruc və s. kimi fərdi əməlləri hər bir insan müstəqil şəkildə yerinə yetirməlidir. İctimai baxımdan vacib olan məsələlərə isə ailəni dolandırmaq və s. kimi işlər daxildir. Ailəyə çörək gətirmək üçün taxılçılıqla məşğul olmaq və bu zaman düşünüb hər bir zamana uyğun olaraq müasir

texnologiyalardan da bəhrələnmək lazımdır. Belə olduqda bütün bu işləri görmək insana vacib olar.

Əgər müstəqil bir ölkə tam sərbəst şəkildə yaşamaq istəyirsə, sözsüz ki, onun müasir dövrün tələblərinə cavab verən bütün zəruri texniki imkanları da olmalıdır. Yəni texniki avadanlıqları həmişə kənar ölkələrdən idxal etmək o qədər də doğru yol deyil və bu yol müstəqil bir ölkə üçün qüsurdur. Əgər hansısa bir ölkə müstəqil yaşamaq istəyirsə insanların müxtəlif xəstəliklərdən nicat tapmasından ötrü peşəkar həkim heyətinə malik olmalıdır və həmin mütəxəssislərin yetişdirilməsi də vacib məsələlərdən biridir. Belə olduqda fizika, kimya və s. elmləri də öyrənmək vacibdir. İslam Peyğəmbəri(s) şəxsən bu kimi məsələlərə son dərəcə ciddi yanaşardı. Məsələn, müharibələr zamanı əsir götürülən bilikli adamlarla şərt kəsib buyurardı ki, əgər kimsə müsəlmanlara bilik öyrətsə əsirlikdən azad ediləcəkdir. Əsirlərdən kim hansı dili bilirdisə həmin xarici dili müsəlmanlara öyrətdikdən sonra azadlığa buraxılırdı.

Haram hökmlər – şəriətin qadağan etdiyi əməllərdir ki, hər bir insan mütləq onlardan çəkinməlidir.

Müstəhəb hökmlər – odur ki, insanların onları öyrənib əməl etmələri yaxşıdır. Müstəhəb əməllərə riayət etmək insanın savabını artırar. Məsələn, bir kənddə camaatın şəriət məsələlərini öyrənməsi üçün bir alim yoxdursa, deməli bütün kənd əhalisinə elm öyrənmək vacibdir. Əgər kəndin əhalisindən kifayət qədər (bir neçə) insan elm öyrənərsə, bu vacib hamının boynundan götürülər. Kifayət qədər alim olduqdan sonra başqalarının da elm öyrənməsi müstəhəb və çox yaxşıdır. Həmçinin başqa elmlər də eynilə belədir.

Məkruh və mübah da şəriətin hökmlərindəndir ki, risalələrdə bu haqda geniş məlumatlar əldə etmək mümkündür.

Deməli, Həzrət Peyğəmbərin(s) bu hədisindən açıq-aydın şəkildə məlum olur ki, hər bir insana bu üç elmi öyrənmək vacibdir. Əgər bir nəfər ulduzlar, heyvanlar və təbiət barədə tədqiqat aparırsa, təbiidir ki, bütün məlumatları əldə edə bilməyəcəkdir. Nə qədər böyük alim olsa da belə məsələnin görünməyən tərəfləri onun üçün qaranlıq olaraq qalacaqdır.

Xacə Nəsirəddin Tusi çox böyük bir alim və görkəmli şəxsiyyət idi. Astronomiya elmində o, yeni-yeni kəşflərə imza atmışdı. Dünyanın neçə-neçə ölkəsində rəsədxanalar qurmuşdu. Hətta bəzi faktlara əsasən Şamaxıdakı rəsədxana da onun əməyinin bəhrəsidir. O, səfərlərinin birində axşamüstü bir dəyirmançının evində qonaq qalmalı olur. Yemək yedikdən sonra dəyirmançı evdə onun üçün yer salır. Tusi deyir: "Hava çox gözəldir. İstəyirəm ki, mənim yerimi həyətdə salasan." Dəyirmançı deyir: "Olmaz, çünki gecə yağış yağacaq."

Tusi deyir: "Axı mən yağışın əlamətlərini görmürəm." Dəyirmançı isə onun kim olduğunu bilmirdi. Bilmirdi ki, o, elə bu işlər üzrə mütəxəssisdir. Hər bir halda deyir: "Mən bilirəm ki, bu gecə yağış yağacaq. Odur ki, sənin bayırda yatmağını məsləhət görmürəm." Tusi onun evində qonaq olduğu üçün bir söz deməyib onunla razılaşır və gecəni evdə yatır. Səhər durub görür ki, kişinin dediyi kimi gecə yağış yağmış və hər yeri islatmışdı. Təəccüblə dəyirmançıdan soruşur: "Axı sən gecə yağış yağacağını haradan bildin?" Dəyirmançı deyir: "Mənim bir itim var. Gecə yatanda həyətdə yatsa, bilirəm ki, yağış yağmayacaq. Hansı gün üstübağlı bir yerə çəkilib bir küncdə yatsa, bilirəm ki, həmin gecə yağış yağacaq.

Beləliklə, bizə məlum olur ki, mütəxəssis hər şey barəsində və həmişə dəqiqliklə tədqiqat aparıb ətraflı şəkildə

məlumat toplaya bilmir. Aləm sirlərlə doludur. Bütün bunlar Allahın qüdrət və hikmətidir. Hər bir şeyin görünməyən və məchul tərəfləri də vardır. İnsan bir şeyin görünən tərəfi haqda məlumat toplamaqla heç də onun barəsində hər bir şeyi öyrənə bilmir.

Alimlərdən biri yazır ki, mən hər gün dağın üstünə çıxmağı xoşlayıram. Bir növ idman olaraq bu işdən həzz alıram. Günlərin birində havanın soyuq olmasına baxmayaraq, yenə də dağa çıxırdım. Bir yerə çatanda gördüm ki, hava soyuq olduğundan həmin yerdə su donub. Quşlar isə gəlib buzu dimdikləyirdilər. Başa düşdüm ki, onlar susadıqları üçün buzun altındakı sudan içmək istəyirlər. Amma buz qalın olduğundan dimdikləri ilə buzu sındıra bilmirdilər. Əyləşib onlara tamaşa etməyə başladım. Quşlar buzu dimdiklədikdən sonra birdən gördüm ki, onlardan biri buzun üstünə düşdü. Öz-özümə düşündüm ki, həmin quş susuzluqdan öldü. Bir az keçməmiş, o, havaya qalxdı və digər bir quş gəlib onun yerində uzandı. Beləliklə, daha bir neçəsi bu işi təkrar etdi. Sonra dimdiklərini həmin yerə vuraraq buzu sındırdılar və su içməyə başladılar. Başa düşdüm ki, onlar buzun üzərində uzanmaqla bədənlərinin hərarəti ilə buzu əridib naziltdikdən sonra öz istəklərinə nail oldular.

Xilqətdə çoxlu qəribəliklər var. İnsanın bu xilqətin görünən tərəfinə baxıb onun görünməyən tərəfi haqda fikir irəli sürə bilməz. Ulduzdan, günəşdən, aydan və təbiət aləmindən danışan alimlər bu məsələləri Allahdan ayırmışlar. Yəni təbiət haqda araşdırma aparıb müxtəlif fikirlər irəli sürmələrinə baxmayaraq, onu yaradan haqda maraqlanmayıblar. Əgər bir alim təbiətin hər hansı bir sahəsi üzrə yaradanı bir kənara qoyub tədqiqat aparарsa, həmin varlığın orqanizmi və

bəzi xüsusiyyətləri barədə məlumat əldə edə bilər, amma onun qəribəliklərini başa düşməz.

Hər bir şeyin hikmət və səbəbini yalnız Allah bilir. Allah-təala hər bir şeyi hikmət əsasında yaratmışdır. Ola bilsin ki, insan bir həşəratın nə üçün yaradılmasını anlamasın. Amma insanın anlamamağı buna dəlalət etmir ki, o, hikmətsiz yaranmışdır. Məsələn, günlərin birində Həzrət Musa(ə) yeri qazarkən külüng bir daşa dəyir. Daş iki yerə bölünür və içindən bir qurd çıxır. Həzrət Musa(ə) təəccüblə deyir: "İlahi, bu qurdu daşın arasında nə üçün yaratmısan? Bunun hikmət və məsləhəti nədir?" Allah-təala buyurdu: "Ey Musa, sən ömründə bircə dəfə soruşdun ki, bu qurdu nə üçün yaratmısan? Amma bu qurd isə gündə yetmiş dəfə Məndən soruşur ki, Musanı nə üçün yaratmısan?"

Bütün bu aləm müdrik bir qüvvənin əlindədir. Həmin müdrik qüvvə aləmdə elə müəyyən etmişdir ki, onları görmək mümkündür. Bütün alimlər bu kimi xüsusiyyətlərə yol tapa bilərlər. Amma elə xüsusiyyətlər də vardır ki, insan Allahı tanımadan onlara yol tapa bilməz.

Rəvayət olunur ki, bir gün Həzrət Peyğəmbər(s) Həzrət Əli(ə) ilə xurmalıqda əyləşmişdi. Elə bu zaman bir arı gəlib onların başı üzərində vızıldayır. Həzrət Peyğəmbər(s) Həzrət Əliyə(ə) buyurur: "Bilirsənmi, bu arı nə deyir?"

Həzrət Əli(ə) ərz etdi: "Xeyr."

Həzrət Peyğəmbər(s) buyurdu: "Bu arı deyir ki, ya Rəsulallah, yaxın bir yerdə çox yaxşı bal düzəltmişəm. Mən onu sənin üçün gətirə bilmirəm. Əlini(ə) mənimlə göndər, həmin balı ona verim."

Həzrət Əli(ə) arı ilə birgə gedib həmin balı gətirdikdən sonra Həzrət Peyğəmbər(s) arıdan soruşdu: "Siz acı güllərdən belə şirin balı necə düzəldirsiniz?" Arı dedi: "Biz acı gülləri

yeyərkən sənə üç dəfə salavat göndərdikdə Allahın əmri ilə həmin acılıq şirin bala çevrilir.”

Allahı tanımadan aləmdə olan bu hikmətləri hansı məktəbdə əldə etmək olar? Əgər insan Allahı bir kənara qoyub ömrü boyu nə qədər araşdırma aparsa da belə bütün bu sirlər ona naməlum olaraq qalacaq. Əgər bir xilqət barəsində məlumat əldə etmək istəyən insan onu yaradan barədə düşünürsə və bütün bunların hamısının Allaha bağlı olduğunu anlayırsa, deməli, bu elm və nuraniyyətdir. Yox, əgər hər hansı bir varlığın barəsində araşdırma aparan insan onu yaradan haqda düşünmürsə, lazımi nəticə də əldə edə bilməyəcək.

**Günəş və Ayın hərəkəti də Allahın nişanəsidir**

“Yasin” surəsinin 37-ci ayəsində gecənin Allahın nişanəsi olması barədə söz açıldıqdan sonra Günəş və Ayın hərəkəti barədə də belə buyurulur:

والشمس تجري لمستقر لها ذَلك تقْدِير الْعزِيز الْعلِيم. والْقَمر
قَدرناه منازِلَ حتى عاد كَالْعرجون الْقَدِيم. لَا الشمس ينبغِي لَها أن
تدرِك الْقَمر ولَا الليلُ سابِق النهارِ وكُل فِي فَلَكٍ يسبحونَ.

Və Günəş (də nişanədir ki) qərar tapacağı yerə doğru getməkdədir. Bu, qüdrətli və bilən (Allahın) təqdiridir (əmridir). Biz Ay üçün də mənzillər müəyyən etdik ki, (bu mənzilləri ötdükcə) xurmanın qurumuş (sarı rəngli və qövsvari şəkildə olan) budağı kimi incə olsun. Nə Günəşin Aya yetişməsi yararlıdır və nə gecənin gündüzü ötüb keçməsi. Hərəsi müəyyən bir dairədə üzür (dolanır).

Günəşin hansı qərargaha doğru hərəkət etməsi barədə elmi fikirlər irəli sürülmüşdür. Elm inkişaf etdikcə insanlar Günəşin hərəkət və istiqamətini müəyyən qədər başa düşə

biliblər. Lakin hələ də bu barədə dəqiq məlumat əldə olunmayıb. Yəni mütəxəssislər bu barədə ağlın gücü çatdığı səviyyədə düşünüb araşdırma apara biliblər. Bu barədə ayələrin nazil olduğu illərdə insanlar elm sahəsində indiki kimi inkişaf etməmişdilər. Həmçinin fikir və düşüncələrində də bugünkü kimi açıq deyildilər. İslam dini zühur edənə qədər bütün elmi məclislərdə Ptolomeyin fərziyyə və nəzəriyyəsi əsas götürülürdü. Onlar bu nəzəriyyənin üzərində möhkəm dayanmış və kiməsə bundan artıq fikirləşməyə imkan vermirdilər. Onlar kiminsə bundan daha yaxşı bir nəzəriyyəni irəli sürə biləcəyini düşünmürdülər. Yaxud istəmirdilər ki, onların nəzəriyyələrinin qarşısında kimsə öz nəzəriyyəsini və onların qəbul etmədikləri fikri irəli sürsün.

Ptolomey bütün elmi mərkəzlərdə öz nəzəriyyəsinin hakim mövqeyə malik olmasına çalışırdı. Hətta araşdırma mərkəzlərində də onun nəzəriyyəsindən başqa hər hansı bir fikri irəli sürməyə heç kəsin ixtiyarı yox idi. Başda Ptolomey olmaqla o dövrün alimlərinin elmi nəzəriyyələrinin qısa məğzi belə idi ki, göy cisimləri öz-özlüklərində hərəkət etmirlər. Soğan qabıqları bir-birinə bağlı olduğu kimi, bütün göy cisimləri də bir-birinə bağlıdır və hamısı birgə hərəkət edir. Heç bir göy cisminin ayrı-ayrılıqda hərəkəti yoxdur.

Zaman keçdikcə bu nəzəriyyəyə qarşı müxalif fikirli insanlar da meydana çıxmağa başladı. Onların da nəzəriyyəsi bu idi ki, göy cisimləri arasında heç bir sabitlik yoxdur və onların hər birinin özünəməxsus hərəkət trayektoriyası vardır. Ptolomey nəzəriyyəsinin müqabilində belə nəzəriyyəni irəli sürənlərdən birini yandırdılar. Qalanları bunu görüb qorxudan sözlərini geri götürdülər. Onlar həqiqi mənada olmasa da, zahirən öz peşmançılıqlarını bildirdilər ki,

onları öldürməsinlər. Buna görə də siyasi baxımdan özlərini səhv etmiş kimi göstərdilər. Onların başında Qaliley dayanırdı ki, onu da belə bir nəzəriyyəni irəli sürdüyünə görə məhkəməyə dəvət edib tövbə etdirdilər. Onun tövbənaməsinin bir hissəsi belədir:

-Mən, Qalileo Qaliley - Florensiya şəhərinin yetmiş yaşlı sakini öz istəyimlə bu məhkəmədə iştirak edirəm. Siz hörmətli cənablar, kardinallar və kilsənin beynəlxalq məhkəməsi önündə diz çöküb müqəddəs İncil kitabına əl qoyaraq and içirəm ki, mənim həmişə müqəddəs katolik və roma həvariləri kilsələrinə inamım olubdur. İndi də Allah-təaladan istəyirəm ki, gələcəkdə də onların təlimatlarından istifadə etməyimdə mənə yardımçı olsun. Amma bu müqəddəs məhkəmənin qərarı belədir ki, mən öz fikrimdən, yəni Günəşin sabit və kainatın mərkəzi olması fikrindən əl çəkib və bundan sonra da heç bir şərt altında bu yanlış fikrimi müdafiə etməyəcək və kimsəyə də öyrətməyəcəyəm. Öz növbəmdə söz verirəm ki, mənə qarşı yaranmış bu şübhəni də aradan qaldıracağam.

Sonra Qaliley yazır: “Elə ona görə də təmiz ürəklə və dərin imanla and içirəm ki, bundan sonra bu yanlış və küfr olan fikrimdən əl çəkib kilsənin müqəddəs qanunlarına qarşı çıxmayacağam. And içirəm ki, bundan sonra nə yazılı, nə də şifahi surətdə özümə qarşı şübhə doğuracaq heç bir fikri irəli sürməyəcəyəm. Həmçinin gələcəkdə də hər hansı bir şəxsin kilsə qanunlarına qarşı fikir irəli sürmək istədiyini gördükdə dərhal onu bu müqəddəs məhkəməyə təqdim edəcəyəm.”

Qaliley qorxusundan zahirən tövbə etməsinə baxmayaraq, qəlbən öz elmi nəzəriyyələrinə əmin idi. Özü alim olduğu üçün Ptolomeyin nəzəriyyəsinin səhv olmasına yəqinliyi var idi. Bilirdi ki, onların bu dar düşüncələrinin də sonu vardır.

Zaman keçdikcə və elm inkişaf etdikcə xristian dünyası göy cisimlərinin hərəkətini qəbul etməyə başladı. Onlar deyirdilər ki, günəş sisteminə daxil olan planetlər pərvanə kimi Günəşin ətrafında hərəkət edirlər. Amma Günəşin özünün sabit və hərəkətsiz olduğunu iddia edirdilər. Deməli, bu hərəkətin yarısını qəbul etdilər, yarısını isə qəbul etmədilər. Ptolomey nəzəriyyəsi puça çıxdıqdan sonra digər alimlər də bu barədə öz fikirlərini irəli sürməyə başladılar.

Amma İslam dini zühur etdikdən sonra bu din qalaktika və göy cisimləri barədə hamını açıq-aydın şəkildə başa saldı ki, bütün göy cisimləri, hətta Günəşin özü də hərəkət edir. Həzrət Peyğəmbər(s) ona vəhy olaraq göndərilən ayələri lazımi şəkildə insanlara bəyan etdi. Göy cisimləri barəsində nazil olmuş ayələrdən biri də bu ayədir:

والشمس تجرِي ِلمستقَر لها ذَٰلك تقْدِير الْعزِيز الْعلِيمِ

-Və Günəş (də nişanədir ki) qərar tapacağı yerə doğru getməkdədir. Bu qüdrətli və bilən (Allahın) təqdiridir (əmridir).

Bundan əlavə, Quranda Yer kürəsinin və digər göy cisimlərinin hərəkəti barəsində də söz açılmışdır. Bu günün özündə də Quranda həmin göy cisimlərinin bu hərəkəti barədə yazılanlar bütün alimlər tərəfindən qəbul olunmuşdur. Yerin hərəkəti barədə “Nəml” surəsinin 88-ci ayəsində oxuyuruq:

وترى الْجِبالَ تحسبها جامِدةً وهِي تمر مر السحابِ

-Dağları görüb, onları hərəkətsiz və donmuş zənn edərsən. Halbuki onlar buludun keçdiyi kimi hərəkət edərlər.

Bu ayədə Yer kürəsinin hərəkətdə olduğu elan olunarkən insanlar tərəfindən təəccüblə qarşılanmışdı. Sonralar

alimlər də Yer kürəsinin hərəkətdə olmasını araşdırmağa başladılar. Bütün dünyaya sübut olundu ki, Yer kürəsi üç istiqamətdə hərəkət edir. Həmin hərəkətlərdən biri Yer kürəsinin öz oxu ətrafında hərəkət etməsidir. Bu hərəkətin nəticəsində gecə və gündüz bir-birini əvəz edir. Yerin ikinci istiqamətdəki hərəkəti isə onun Günəşin ətrafında hərəkət etməsidir. Yer kürəsi də başqa planetlər kimi öz oxu ətrafında hərəkət edə-edə həm də Günəşin ətrafında hərəkət edir. Yer kürəsinin Günəş ətrafında bir dəfə dövrə vurması nəticəsində isə il yaranır. Üçüncüsü isə ondan ibarətdir ki, bütün günəş sistemi müəyyən olunmuş istiqamət üzrə hərəkət edir. Bütün bu qalaktikanın haradan gəlib haraya doğru hərəkət etməsi isə elmə məlum deyildir. Amma son zamanlar alimlər belə bir nəzəriyyəni irəli sürürlər ki, bütün bu günəş sistemi "Veqa" adlı ulduza doğru hərəkət edir. Deməli, Yer kürəsi öz oxu ətrafında hərəkət etməklə yanaşı, həm də Günəşin ətrafında dövrə vurur. Eyni halda bütün bu sistem hərəkətdədir. Alimlərdən biri bu barədə arı pətəyini misal çəkərək demişdir: "Təsəvvür edin ki, bir arı pətəyini arabanın üstünə qoyub aparırsınız. Həmin pətəkdəki arılar araba hərəkət etdikdə belə öz ballarından yeyib istifadə edirlər. Bu istifadə etmə onların öz hərəkətləridir. Elə bil ki, öz ətrafında dövr edirlər. Eyni halda digər arılarla birgə öz pətəklərinin ətrafında hərəkət edirlər. Bütün bunlarla birgə həm arılar, həm də pətək araba ilə birgə hərəkət edir. Arıların araba ilə birgə, eyni halda həm pətəyin ətrafında, həm də şanın ətrafında hərəkət etdikləri kimi, Yer kürəsi də həm öz oxu ətrafında, həm digər planetlərlə birgə Günəşin ətrafında, həm də bütün qalaktika ilə birgə hərəkət edir.

Günəşin hərəkəti həmin üçüncü hərəkətdir ki, bütün sistemlə birgə onun üçün müəyyən olunmuş istiqamətə doğru gedir. Onun hara getməsi və sonu da Allahın əlindədir. Bu barədə də elmin qapıları hər bir kəsin üzünə açıqdır. Alimlər öz araşdırmalarını aparmaqla bu barədə nəzəriyyələrini irəli sürə bilərlər. Günəşin hərəkəti barədə hər gün yeni-yeni nəzəriyyələrin ortaya çıxması da mümkündür. Amma bu gün elmdə öz təsdiqini tapanlar bu qədərdir.

## İnsanın üç hərəkəti

Bəzi alimlər Günəş sisteminin hərəkətini insanın kamilliyə doğru hərəkətinə bənzətmişlər. Həm əxlaq alimləri, həm də insanın özü barədə tədqiqat aparan alimlər belə deyirlər ki, insan bu yerin və torpağın balasıdır. Əgər insan kamilləşmək və insaniyyətin zirvəsinə yüksəlmək istəyirsə, Yer kürəsi kimi üç istiqamətdə hərəkət etməlidir. Əgər insanda bu üç hərəkətin hər hansı biri olmasa, onun kamilləşməsi də mümkün olmayacaqdır. İnsanın birinci hərəkəti onun öz ətrafına dolanaraq hərəkət etməsidir. Yəni insan öz başını dolandırmalı və həyatda yaşamalıdır. Hər bir insanın yeməyə, geyməyə, ailə qurmağa, artmağa, evə malik olmağa və yaşamağa, həmçinin daxilində olan qeyri-iradi istəkləri təmin etməyə haqqı var. Bütün bunlar o deməkdir ki, insan öz ətrafında hərəkət edərək özünü dolandırır. Bu, insanın birinci növ hərəkətidir.

İnsanın ikinci hərəkəti ondan ibarətdir ki, Yer kürəsi digər planetlərlə birgə Günəşin ətrafında hərəkət etdiyi kimi, insan da öz cəmiyyəti ətrafında dolanmalıdır. Yəni baxıb görməlidir ki, yaşadığı cəmiyyətdə nəyə ehtiyac var? Həmçinin o, cəmiyyətdə öhdəsinə düşən vəzifələri də yerinə yetirməlidir. Elmi, maddi və fiziki cəhətdən cəmiyyətin

ehtiyaclarını təmin etməyi bacarmalıdır. Məsələn, İmam Hüseyn(ə) xütbələrinin birində belə buyurur: "Bu gün yaşadığın cəmiyyətin mənim bu hərəkətlərimə ehtiyacı var. İnsanlar Yezidin əlində qul kimi yaşayırlar. Yezid İslamı zəlil etmişdir. Mənim də bugünkü vəzifəm budur ki, onun qarşısını alım."

Hər bir insan yaşadığı cəmiyyətdə kimlərinsə insanların elmsizliyindən onların əleyhinə istifadə etdiklərini gördükdə buna müdaxilə etməli və öz elminin sayəsində köməyini əsirgəməməlidir. Yaxud bir nəfər cəmiyyətdə insanların nəyəsə ehtiyacı olduqlarını gördükdə yenə də maddi cəhətdən onlara kömək etməyə çalışmalıdır. Bir sözlə desək, insan yaşadığı cəmiyyətdə öz vəzifəsini başa düşüb öhdəsinə düşən işləri görməlidir. Bu da insanın ikinci hərəkəti hesab olunur.

Üçüncü hərəkət isə ondan ibarətdir ki, Yer kürəsi Günəş sistemi ilə birgə bir istiqamətdə hərəkət etdiyi kimi, insan da Allaha sarı hərəkət etməlidir. İnsanın Allaha səcdə etməsi onun hərəkətini kamilləşdirir. Beləliklə, bu üç hərəkətlə insan get-gedə mükəmməlləşir və insaniyyət mərhələsinə doğru gedir.

Bir gün Həzrət Əli(ə) Qənbərdən evdə yeməyə nə olduğunu soruşdu. Qənbər dedi: "Duz və çörəyimiz var." Həzrət Əli(ə) buyurdu: "Gətir gəl, yeyək." Qənbər duz və çörəyi gətirdi. Həzrət Əli(ə) bir az duz və çörək yeyib ayağa qalxdı. Həmin vaxt bir məntəqədə suyun olmaması barədə Həzrət Əliyə(ə) xəbər verdilər. Həzrət(ə) həmin yerdə bir su quyusu qazaraq onu oradakı əhaliyə ehsan etdi. Sonra həmin quyudan çıxan su ilə dəstəmaz aldı və orada iki rükət namaz qılıb dedi: "İlahi, Sənə xatir yedim, qarnım doydu. Sənə xatir bu quyunu qazıb camaatın işinə yaradım. İki rükət namazı da Sənə xatir qılıb ibadət etdim."

Onu da qeyd etmək lazımdır ki, insanın yuxarıda sadalanan birinci və ikinci hərəkəti onun üçüncü hərəkətinə fəda olmalıdır. Ona görə ki, bütün hərəkətlərin mənbəyi məhz üçüncü hərəkətdir. Çünki birinci və ikinci hərəkətlərə dəyər və qiymət verən də elə insanın üçüncü hərəkətidir. Əgər insan birinci və ikinci hərəkətlərini üçüncüdən ayırsa, o zaman onların heç bir dəyəri olmayacaqdır. Məsələn, bir nəfər iyirmi manata bir cüt ayaqqabı alır. Əgər o, həmin ayaqqabının bir tayını atsa, digər tayını on manata sata bilərmi? Əlbəttə ki, ayaqqabının bir tayını heç bir kəs almaz, hətta onu bir manata satsalar da. Çünki bu ayaqqabının qiyməti onun hər iki tayının bir yerdə olmasındadır. Yaxud ikilaylı qapının qiyməti yüz manatdırsa, bu o demək deyil ki, onun bir layının qiyməti əlli manatdır. Bu qapı da o vaxt yüz manat dəyərində ola bilər ki, hər iki layı üstündə olsun. Onun bir layını isə nəinki əlli manata, heç on manata da almazlar.

Deməli, insanın özünü dolandırması və yaşadığı cəmiyyətdə göstərdiyi xidmətinin dəyəri üçüncüsündən asılıdır. Məsələn, kitablarda övladın qayğısına qalmaq, başına sığal çəkmək, həyat yoldaşı üçün hədiyyə almaq və digər xeyirxah əməllərin nə qədər savabı olduğu qeyd olunmuşdur. Bütün bu savabların hamısı o vaxt insana verilər ki, "Qürbətən iləllah" niyyəti ilə olsun. Əgər insan hər hansı yaxşı bir işi "Qürbətən iləllah" niyyəti ilə Allaha xatir görməsə, o zaman bir insan kimi yaxşı iş görməsinə baxmayaraq, ona bu işin savabı verilməz. Hətta şəhidlik də belədir. Allah yolunda şəhid olmaqdan üstün bir savab yoxdur. Əgər insanın şəhid olması da "Qürbətən iləllah"la olmasa, yenə də ona savab düşmür. Ola bilər ki, bir qəhrəman kimi adı dillərə düşsün. Amma bu işi Allaha xatir görmədiyindən ona savab verilməz. Buna görə də

insanın hər hansı bir yaxşı işinin yanında “Qürbətən iləllah” niyyəti olsa, həmin iş qiymət və dəyər tapar. Yox, əgər belə bir niyyət olmasa, camaat arasında bir insani əməl kimi dəyərləndirilə bilər, amma Allah yanında ona qiymət verilməz. İnsanın əməlləri üçün müəyyən olunmuş mənəviyyat, cənnət, əcr və mükafat onun üçüncü hərəkətinə bağlıdır. Odur ki, insanın bütün yaxşı işləri, ibadəti o zaman dəyər tapır ki, bütün bu işlər Allaha bağlı olsun.

## Günəşin hərəkəti

Qeyd olundu ki, Günəş də Allahın ayə və nişanələrindən biridir. Ötən bəhsdə bu barədə müəyyən qədər danışıldı. Allah-təala Qurani-Kərimin “Yasin” surəsində Günəşin hərəkəti barədə belə buyurur: “Və Günəş (də nişanədir ki) qərar tapacağı yerə doğru getməkdədir.” Ayədə işlənmiş “təcri” kəlməsi “cərəyan, hərəkət etmək” mənasını ifadə edir. Alimlərin fikirlərinə görə, Yer kürəsinin hərəkəti kimi Günəşin də üç növ hərəkəti vardır. Onun bir hərəkəti öz dövrəsində etdiyi hərəkətdir. Günəş hər 25 gündə bir dəfə öz oxu ətrafında hərəkət edir. Onun ikinci hərəkəti irəliləmə hərəkətidir. Yəni Günəşin bu hərəkəti bir yerdən başlanıb davam edir və öz sistemi ilə birgə öz yerinə, alimlərin sonuncu elmi rəylərinə əsasən “Veqa” adlı ulduza doğru irəliləyir.

Quranda Günəşin hansı səmtə doğru hərəkət etməsi bəyan olunmayıb. Sadəcə olaraq “təcri” kəlməsindən başa düşülür ki, Günəşdə həm bu üç növ hərəkət, hətta bəlkə də hələ sirri açılmayan başqa hərəkətlər də vardır. Onun üçüncü hərəkəti isə öz cisimləri ilə birlikdə hərəkət etməsidir. Alimlərin hesablamalarına görə, Günəş ətrafındakı planetlərlə birgə saatda 1.150.000 kilometr sürətlə hərəkət

edir. Amma bu qalaktikada Günəşin öz oxu ətrafında hərəkət etməsinin sürəti isə saatda təxminən 72.400 kilometrə çatır. Günəşin hər üç hərəkəti ayrı-ayrılıqdadır və heç birinin digərinə aidiyyəti yoxdur.

Deməli, ayədə həm "təcri li mustəqərrin ləha", həm də "Kullun fi fələkin yəsbəhun" sözlərində Günəşin bu üç hərəkəti məlum olur. Həmçinin "təcri" kəlməsindən Günəşin bu hərəkətinin onun üçün müəyyən olunmuş yerə çatana qədər dayanmadan davam edəcəyi başa düşülür. Yəni bu kəlmədə "davamiyyət" vardır.

Sual oluna bilər ki, Yer kürəsindən 1.200.000 dəfə böyük olan əzəmətli Günəşi, həmçinin gecə və gündüzü, fəsilləri yaradan digər planetləri kim hərəkətə gətirir? Aydın məsələdir ki, bu əzəmətli işi görməyə qadir olan yalnız qüdrətli və böyük Allahdır. Necə ki, ayənin axırında belə buyurulur: "Bu, qüdrətli və bilən (Allahın) təqdiridir (əmridir)." Allah həm qüdrətlidir, həm də bütün bu elmlərin hamısını biləndir. Hər 30-50 ildən bir alimlər qalaktikalar haqda yeni-yeni nəzəriyyələri irəli sürürlər. Hələ də elm inkişaf etdikcə bu aləmin sirləri ilə bağlı yeni kəşflər ortaya qoyulur.

## Ayın hərəkəti

Sonrakı ayədə isə belə oxuyuruq: **"Biz Ay üçün də mənzillər müəyyən etdik ki, (bu mənzilləri ötdükcə) xurmanın qurumuş (sarı rəngli və qövsvari şəkildə olan) budağı kimi incə olsun."** Ayın 28 dayanacağı vardır və hər gün bir dayanacaqda qərar tutur. Ay birinci gecə nazik formada olur ki, buna "hilal" deyilir. Sonra gündən-günə qalınlaşır və yeddinci gecə bir dairənin tən yarısı formada olur. Sonra yavaş-yavaş böyüyür və 14 gecəlik olduqda tam yumru və bütöv olur. Bunun da adına "bədr" deyilir.

Şairlər Həzrət Peyğəmbərin(s) zühurunu qələmə aldıqda onu 14 gecəlik Aya bənzətmişlər. Yəni Həzrət(s) sanki "bədr" kimi zühur etmişdir. Ay tam dairə şəklinə düşdükdən sonra yavaş-yavaş yenə də əks tərəfə yığılmağa başlayır. 21-ci gecə yenə də dairənin tam yarısı kimi görünür. Beləcə, kiçildikcə onu 28-ci gecəyədək görmək mümkün olur. Axırıncı gecə də əvvəlki gecə kimi naziklәşir. 29 və 30-cü gecələr Ayı görmək mümkün olmur. Ərəb təqvimində ayın 31-ci günü olmur. Yəni Ayın çıxması ilə əlaqədar olaraq 29 və 30 gündən ibarət olur. Əgər günlərin sayı 29 olsa, yenə də ayın axırıncı 2 gününü görmək mümkün deyil. Ərəb dilində buna "məhaq" deyilir ki, tam qaranlıq və ayın görünmədiyi həmin iki gecədir.

Əgər bir insanın astronomiya elmindən azacıq məlumatı olsa, Aya baxmaqla ayın günlərini müəyyən edə bilər. Əgər insan bir müddət Ayın müxtəlif vəziyyətlərinə diqqət yetirsə, həmişə Aya baxdıqda onun neçənci gecənin Ayı olduğunu müəyyən edə bilər. Çünki təqvim ayının əvvəllərində Ayın ucları yuxarıya tərəf olur. Bu minvalla Ayın həcmi yavaş-yavaş böyüyür və yeddinci gecəyə çatdıqda bədirlənmiş Ayın tən yarısı əmələ gəlir. Günlər keçdikcə Ay böyüyür və nəhayət, on dördüncü gecədə kamil və bədirlənmiş surətdə olur. Bundan sonra tədricən Ay aşağı tərəfdən kiçilməyə başlayır. İyirmi birinci gecə yenə də bədirlənmiş Ayın tən yarısı qalır. Sonra yenə də kiçilməyə başlayır. Nəhayət, iyirimi səkkizinci gecədə çox zəif və rəngsiz şəklə düşür. O halda isə onun ucları aşağıya tərəf olur.

Ayədə işlənmiş "urcun" kəlməsi xurma salxımının ağaca bitişdiyi yerə deyilir. Xurma salxımla ağacda bitir. Bu salxımın kökü sarı rəngində olur və qövs şəklində xurma ağacına birləşir. Xurmalar isə üzüm salxımı kimi

onun saplaqlarına birləşir. Xurma salxımını kəsdikdə onun qövs şəklində olan hissəsi ağacın üstündə qalır. Həmin hissə ağacda qalıb quruduqdan sonra bu, Ayın ən sonuncu gecədəki halına bənzəyir. Çünki Ay axır vaxtında göyün məşriqindən sübhə yaxın çıxan zaman əyilmiş, sarı rəngdə və ucları aşağı əyilmiş halda olur. "Urcunil qədim" də bu şəkildə olur. Həqiqətdə isə bu oxşarlıq müxtəlif cəhətlərlə bağlıdır. Bu baxımdan xurma salxımının çubuğunun qövs şəklində olmasını, bu çubuğun sarı rəngdə quruyub solmasını, onun uclarının aşağıya tərəf yönəlməsi və həmin saralmış çubuğun xurma ağacının saralmış budaqları arasında yerləşməsini göstərmək olar. Necə ki, sarı rəngli Ay da qaranlıq asimanda qərar tapmışdır. "Qədim" sözündə məqsəd isə onun köhnəlməsinə işarədir. Çünki bu çubuqlar nə qədər köhnələrsə, bir o qədər naziklәşər, quruyar və saralar. Nəticədə Aya daha çox bənzərlik tapır.

Sonrakı (40-cı) ayədə belə buyurulur: "**Nə Günəşin Aya yetişməsi yararlıdır və nə gecənin gündüzü ötüb keçməsi. Hərəsi müəyyən bir dairədə üzür (dolanır).**"

Bildiyimiz kimi, Günəş on iki bürcün ətrafında ildə bir dəfə dolanır. Ancaq Ay isə ayda bir dəfə dövr edir. Elə buna görə də Ayın öz oxu ətrafında dövr etməsi Günəşin öz oxu ətrafına dövr etməsindən 12 dəfə tez başa gəlir. Buna görə də Allah-təala buyurur ki, Günəş heç bir vaxt öz hərəkətində Aya çatmaz. Yəni Günəş öz birillik hərəkətini bir ayda başa vura bilməz. Eləcə də gecə gündüzü ötə bilməz. Bunların hamısı milyon illərdir ki, öz yollarında hərəkət etmişlər və bundan sonra da hərəkət edəcəklər.

Bu ayədəki incə məqamlardan biri "tüdrik" (yetişmək) və "sabiq" (ötmək) kəlmələridir. Günəşin barəsində "tüdrik", gecənin barəsində isə "sabiq" kəlmələri işlənmişdir. Günəş

və Ayın illik, eləcə də aylıq zahiri hərəkətlərindən danışdıqda belə deyilir: “Nə Günəşin Aya yetişməsi yararlıdır və nə də gecənin gündüzü ötüb keçməsi.” Günəşin Aya çata bilməməsinin səbəbi isə budur ki, Ay öz hərəkətini bir ay, Günəş isə öz hərəkətini bir il ərzində başa vurur. Bu müddət fərqi elə bir səviyyədədir ki, Allah-təala “Günəş Aya çata bilməz”, - deyir. Ancaq gecə ilə gündüz arasındakı fərq az olduğundan daha bu ifadəni işlətmir və “Gecə gündüzü ötə bilməz” ifadəsini işlədir.

**Gündüzün gecədən əvvəl yaranması**

Ayədəki digər incə bir məsələ bundan ibarətdir ki, “Gecə gündüzü ötə bilməz” ibarəsi gündüzün gecədən əvvəl yaradılmasına işarədir. Quranda bir çox məsələlər vardır ki, onlara yığcam şəkildə işarə olunmuşdur. Həmin məsələləri Həzrət Peyğəmbər(s) və Əhli-beyt(ə) bizim üçün açıqlayıb bəyan etmişlər. Məsum imamlarımız tərəfindən min dörd yüz il bundan əvvəl açıqlamalar verilməsinə baxmayaraq, müasir dövrümüzdə də alimlər həmin şərhlərlə razılaşırlar. Gündüzün gecədən qabaq yaranması haqda bir çox hədis və rəvayətlər mövcuddur. O cümlədən İmam Baqir(ə) buyurmuşdur:

إِن الله تعالى خلَق الشمس قَبلَ القَمر وخلَق النور قَبلَ الظلمة

-Həqiqətən, Allah-təala Günəşi Aydan, nuru qaranlıqdan qabaq yaratmışdı.

Başqa bir hədisdə İmam Sadiq(ə) belə buyurmuşdur: “Gündüz gecədən qabaq xəlq olunmuşdur.”[1]

---

[1] Məcməül-bəyan təfsiri.

## Məsum imamlar Quranın təfsirçisidirlər

Həzrət Peyğəmbər(s) Quranı insanlara izah edib ayələrin mənalarını açıqlamaq üçün özündən sonra Həzrət Əli(ə) başda olmaqla on iki imamı təyin etmişdi. Bu imamlar Quranın təfsirçisi və mənasını açıqlayanlardır. Buyurduqları hər bir hədisin kökündə Qurani-Kərimə istinad vardır. Məsələn, bir hədisi söyləyərkən səhabələr həmin sözün Quranın hansı ayəsində olduğunu soruşduqda, dərhal o ayəni buyurardılar. O cümlədən gündüzün gecədən əvvəl yaranması barədə buyurduqları sözlərin qeyd olunan ayələrin mənasından çıxdığını bəyan etmişlər. Ola bilsin ki, biz bu ayələrdən müvafiq mənanın necə çıxdığını başa düşməyək. Amma onlar dəqiqliklə bu məsələni söyləmişlər və üstündən 100 il, yaxud 1000 il keçdikdən sonra alimlər bu həqiqətlərin bəzisinin üstünü açmağa müvəffəq olmuşlar. İmamlarımız Quranın ustası idilər və onlar ayələrin mənalarını dərindən bilirdilər. Məsələn, Həzrət Əliyə(ə) dedilər ki, öz fəzilətlərindən bizim üçün danış. Həzrət(ə) buyurdu: "Allah-təala "Rəd" surəsinin 39-cu ayəsində buyurur: "Ümmül-kitab Onun yanındadır." Bu ayə mənim barəmdədir."

Yəni Quranın hamısı Həzrətin(ə) əlinin içindədir. Quranın hər hansı bir hissəsini açıqlayıb izah edir. Hər bir ayənin mənasını dərindən bilir. Onlar bizim üçün Allahın nemətləridir. Amma biz isə bu misilsiz nemətlərdən istifadə edə bilmirik. Başqaları gəlib Qurandakı elmi nəticələri mənimsədikdən sonra başımızın üstündə ağalıq etməyə çalışırlar.

İmamlarımız bəzi məsələlərin üstünü açmış, bəzən də lazım olan yerlərdə qeybdən xəbər vermişlər. İstər şagirdlərinə, istərsə də bəzi məsələlər qabağa çıxdıqda qeybdən xəbər

verməyi lazım bilmişlər. Nümunə olaraq bu barədə bir-iki rəvayətə diqqət yetirək.

İmam Sadiqin(ə) dostlarından biri uzaq bir yerdən Həzrətin(ə) ziyarətinə gəlmişdi. O, Bəlx əyalətindəki Carudiyyə tayfasından idi. O, İmam Sadiqin(ə) imamətini qəbul edirdi, amma onun qardaşı zeydiyyə məzhəbinə mənsub idi və İmam Sadiqi(ə) qəbul etmirdi. İmam Sadiq(ə) ondan hal-əhval tutduqdan sonra soruşdu: "Sənin qardaşın necədir?"

Həmin şəxs İmamın(ə) onun qardaşını tanıdığını görüb təəccübləndi. Sonra dedi: "Çox yaxşı adamdır. Amma bircə eybi budur ki, sənin imamətini qəbul etmir."

İmam(ə) soruşdu: "Nə üçün?"

O dedi: "Vərə[1] və təqvasının daha çox olduğuna görə."

İmam(ə) buyurdu: "Gedib xəlvətcə ona deyərsən ki, Bəlxdə, çayın kənarında həmin vərə və təqvası necə oldu?"

Həmin şəxs İmam Sadiqlə(ə) sağollaşdıqdan sonra öz əyalətinə qayıtdı. Qardaşı ilə əyləşib söhbət edərkən İmamın(ə) yanında olduğunu və Həzrətin(ə) onu soruşduğunu söylədi.

Qardaşı dedi: "İmam(ə) mənim barəmdə soruşduqda sən nə dedin?"

O dedi: "Dedim ki, qardaşım vərə və təqvasının çox olduğuna görə sənin imamətini qəbul etmir."

Qardaşı dedi: "Bəs o, nə dedi?"

O dedi: "İmam(ə) buyurdu ki, qardaşına deyərsən: Bəlxdə, çayın kənarında onun təqvası necə oldu?"

Qardaşı bu sözləri eşidən kimi pərt olmuş halda və ağlaya-ağlaya dedi: "And olsun Allaha ki, mənim orada gördüyüm işdən heç bir kəsin xəbəri yoxdur. Amma İmam Sadiqin(ə) bundan xəbərdar olduğunu indi bildim."

---

[1] Vərə - insanla günah arasında olan pərdə və insanı günah etməyə qoymayan bir xislət.

Orada baş verən hadisə belədir: "Mən dostumla səfərə çıxmışdım. Onun gözəl bir kənizi var idi. Çayın kənarında istirahət etmək üçün dayandıq. Dostum mənə dedi ki, siz əşyaların yanında qalın, mən də gedib ərzaq alım. O, getdikdən sonra mənim həmin kənizə gözüm düşdü. Şeytan məni yoldan çıxartdı və mən ona meyl göstərdim. Bir az söhbət etdikdən sonra onun da məndən xoşu gəldi və iş o yerə gəlib çatdı ki, biz zinakarlıq etdik. İş-işdən keçdikdən sonra onunla belə razılığa gəldik ki, ölənə qədər bu sirri heç bir kəs bilməsin.

Bu məsələni ikimizdən başqa heç bir kəs bilmirdi. Amma indi görürəm ki, Cəfər ibn Məhəmməd bütün bunlardan xəbərdar imiş. Elə buradaca Allahdan bağışlanmağımı diləyirəm."

O, həmin andan etibarən Allahdan bağışlanmağını dilədikdən sonra haqq yola qayıtdı və ömrünün axırına qədər də imamət əqidəsi ilə təqvalı şəkildə ömür sürdü."[1]

Belə insanlar təkcə keçmişdə olmayıb. Öz yaşadığımız dövrdə də belə insanlardan daha pisinə rast gəlmək mümkündür. Üzünə baxdıqda görürük ki, özünü o qədər təqvalı aparır ki, sanki ondan daha təqvalısı yoxdur. Amma onu pərdə arxasından izlədikdə görürük ki, canavarın biri imiş.

Allah Mənsur Dəvaniqiyə lənət etsin. O, İmam Sadiqin(ə) zamanında yaşayan zalım hakimlərdən və Əhli-beytin(ə) ən qəddar düşmənlərindən biri idi. O, günlərin birində İmam Sadiqə(ə) qarşı hiylə işlətmək məqsədilə zirək bir adam tapır. Sonra isə ona deyir ki, səni Bəni-Haşimdən bir neçə nəfərin yanına göndərirəm. Onların hərəsinə xüms olaraq müəyyən qədər pul ver və qəbz al.

---

[1] Min bir əxlaqi hekayət, səh. 644.

Bu işdə əsas məqsədim Cəfər ibn Məhəmməddir. Sən ondan qəbzi alıb mənə gətir, sonrasını özüm bilərəm ki, neyləyim.

Beləcə, həmin şəxsi mömin bir adam kimi bəzəyib deyilən məntəqəyə göndərirlər. O, Bəni-Haşimdən bir neçə nəfərin yanına gəlib özünü mömin və onların tərəfdarı kimi göstərərək xüms verib qəbz alır. Sonra İmam Sadiqin(ə) evinə gəlir. İçəri keçmək üçün icazə istəyir. Ona deyirlər ki, İmam(ə) namaz qılır, gözlə, namazını qurtarsın. İmam Sadiq(ə) bir namazı qılıb qurtardıqdan sonra birini də qıldı. Onu da qurtarıb yenidən birini də qılmağa başladı.

Həmin şəxs deyir: "Nəhayət, Cəfər ibn Məhəmməd(ə) namazlarını qurtardıqdan sonra dedim: Ey Peyğəmbər(s) övladı, mən həm sizi ziyarət etmək, həm də xüms vermək niyyəti ilə gəlmişəm. Bu sözü demişdim ki, söz ağzımda qaldı. İmam(ə) mənə buyurdu: "Heç utanırsanmı? Tutduğun işlərdən xəcalət çəkmirsən? Peyğəmbərə(s) və Əhli-beytinə(ə) nə vaxta qədər zülm edəcəksiniz? Səni Mənsur Dəvaniqi çağırıb filan məbləğdə pul da verib ki, xüms vermək niyyəti ilə bir neçə nəfərin yanına gedəsən. Onlardan biri də mənəm ki, sizin əsas məqsədiniz də elə buradır. Məndən qəbz alıb ona aparmalısan."

İmam(ə) məsələni bütün detalları ilə və ondan qabaq kimlərin yanına getdiyimi, hətta hərəsinə nə qədər pul verib qəbz aldığımı da mənə söylədi. Bütün bunları eşitdikdən sonra pis vəziyyətə düşdüm. Sanki İmam(ə) bütün bu məsələləri öz gözləri ilə görürmüş. Mənsurun yanına qayıdıb dedim: "Cəfər ibn Məhəmməd(ə) bütün bu məsələləri mənə xırdalıqlarına qədər elə danışdı ki, sanki mən səninlə söhbət edərkən üçüncü şəxs o imiş."

## 41-44-cü AYƏLƏRİNİN TƏFSİRİ

وآيةٌ لهم أنا حملْنا ذُريتهم ِفي الْفُلْكِ الْمشحون.٤١. وخلَقْنا لَهم من مثْلِهِ ما يركَبونَ.٤٢. وإِن نشأ نغرِقْهم فَلَا صرِيخ لَهم ولَا هم ينقَذُونَ.٤٣. ِإلَا رحمةً منا ومتاعا ِإلَى حِينٍ.٤٤.

**41. Onların övladlarını (özləri və malları ilə) dolu gəmilərdə daşımağımız bir nişanədir.**

**42. Və onlar üçün minməyə gəmiyə oxşar başqa miniklər yaratdıq.**

**43. Əgər istəsəydik, onları batırıb, boğardıq. Bu vəziyyətdə nə onların köməyinə gələn olar, nə də çarə tapa bilərdilər.**

**44. Yalnız Bizdən bir rəhmət olaraq və müəyyən bir müddətədək (dünyada) bəhrələnmək üçün (nicat taparlar).**

Bu ayələrlə "əshabi qəryə" mövzusu sona çatır. Əvvəlki ayələrdə Allah-təala Özünün əzəmət və qüdrət nişanələrini həm müşriklərə, həm də bütün insanlara göstərir. Ölü torpağın dirildilməsinin, onda bitən nemətlərin, bulaqların, Günəş və Ayın Allahın nişanələri olduğunu bəyan etdikdən sonra bu ayələrdə də həmin nişanələrdən biri haqda söz açaraq belə buyurur: "Onların övladlarını (özləri və malları ilə) dolu gəmilərdə daşımağımız bir nişanədir."

Onlar elə düşünürlər ki, taxtadan və ya müxtəlif əşyalardan özləri üçün gəmi düzəldib suda üzürlər. Amma bunu başa düşmürlər ki, onların düzəltdikləri bu minik vasitələri də Allahın əmri ilə hərəkət edir. Burada elmi bir bəhs vardır ki, bizim həmin bəhsə müdaxilə etməyimiz

indi məsləhət deyil. Çünki bu elmi bəhsi yüksək dərəcəli alimlər müzakirə edib nəticə çıxara bilərlər. Sadəcə olaraq məlumatımız olsun ki, bu ayədə belə bir elmi bəhs mövcuddur. Təfsirçilər, xüsusilə İslam filosofları bu barədə geniş söhbətlər etmişlər. Həmin bəhsin bir neçə cümləsi haqda belə demək olar:

-Allah-təala bütün nemətləri yaradıb insanların ixtiyarına vermişdir. Həm insanın göz, qulaq, dil, əl-ayaq, zahiri və daxili orqanlar kimi özündə olan nemətləri, həm hava, dəniz, meşə, heyvanlar və bu kimi kənarda olan nemətləri, həm də insanın ailə qurması, qadının hamilə qalması, uşaqdan azad olması kimi hadisələrlə bağlı nemətləri iki cür təsəvvür etmək olar. Birincisi budur ki, bütün bunların hamısını Allah-təala yaradıb və hər biri də öz qanunauyğunluğu çərçivəsində davam edir. Belə ki, onlara nə vaxt dayanmaq əmri verildikdə o zaman da dayanacaqdır. Amma dayanmaq əmri verilmədikdə isə davamlı şəkildə hərəkət edəcəkdir.

İkinci təsəvvür isə budur ki, Allahın sifət və xüsusiyyətlərindən biri səxavətlilikdir. Bunun da mənası odur ki, bütün bu nemətlərin hamısının mənbəyi Odur. Bütün nemətlərin hamısı Allah-təala tərəfindən verilir. Sual oluna bilər ki, Allah hər şeylə bağlı bircə dəfə xeyirxahlıq edərək hərəkətə gətirmişdir, yoxsa hər an bu xeyirxahlığı göstərməkdədir? Natiqlər və hikmət sahibləri deyirlər ki, bu aləm saat kimi deyildir. Yəni belə deyil ki, bircə dəfə onu qurub işə salsınlar və bununla da o, hərəkət etsin. Yaxud zəngli saat kimi deyil ki, onun zəngini müəyyən vaxta qurduqda həmin vaxt zəng çalsın. Özümüzdən, daxilimizdən və ətrafımızdan bizə yetişən hər bir nemət üçün hər an qazanc verilir.

An zamanın ən kiçik hissəsidir. Bir göz qırpımında milyonlarla an var. An bizim düşündüyümüz saat və saniyə kimi deyil. Bir saniyə müddətində milyonlarla an ötüb keçir. Həmçinin insanın bircə nəfəs alması milyonlarla anın ötməsi nəticəsində baş verir. Beləliklə, hər bir anın da öz mənfəəti vardır. Yəni bu anların hər birinə Allah-təala tərəfindən bir mənfəət verilir. Məsələn, Allah-təala gözü yaradaraq ona görməyi əmr etmişdir. Gözün hər an görməsi Allah tərəfindən verilən iltifatın yetişməsi ilə bağlıdır. Hər an Allahın gözə verdiyi bu iltifat kəsilsə, göz görməyəcək. Qulaq, dil və s. də belədir. Bunu başa düşmək üçün ən yaxşı misal səsdir. Məsələn, bir nəfər danışır, digəri isə eşidir. Sual oluna bilər ki, insanın içində olan bu səs haradandır? Yəni insanda səsin qərar tutduğu mənbə haradır ki, danışarkən səsi həmin mənbədən götürür.

Aydın məsələdir ki, qanın yığıldığı yer ürəkdir. Böyrəyin, qara ciyərin və s. üzvlərin hər birinin də öz rolu vardır. Bəs insan danışarkən səsin mənbəyi haradır ki, danışdıqca səs də azalıb qurtarsın? Deməli, insan danışmağa iradə etdiyi hər bir anda Allah-təala da həmin səsi yaradır. İnsan danışdıqca Allah səsi necə yaradırsa, qulağın eşitməsi, gözün görməsi, ürəyin döyünməsi və s. üzvlərin hərəkəti də elədir. Qulağın hər an eşitməsi Allah-təalanın iltifatı və icazəsilədir. Hər hansı an buna icazə verilməsə, qulaq da eşitməyəcəkdir. Özümüzdə, içimizdə, ətrafımızda və aləmdəki bütün nemətlərin hamısı bu cürdür. Bütün nemətlərə hər an Allah-təalanın feyzi çatır. Alimlər buna "Fəyyaz ələl-itlaq" deyirlər. Yəni Allah-təala mütləq şəkildə feyz verəndir. Hər an bütün nemətlərə feyz verilir. Hər hansı bir nemətə bircə an feyz verməsə, həmin nemət funksiyasını itirəcək. Məsələn, elektrik

lampası cərəyanı mərkəzdən alaraq yanır. Mərkəzdən bircə an cərəyan kəsilsə, o da sönəcəkdir. Əgər lampa hər an bizə nur verirsə, deməli, hər an ona elektrik cərəyanı yetişir. Əgər mərkəzdən ona elektrik cərəyanı yetişməsə, o da sönəcəkdir.

Bir daha qeyd etmək istəyirəm ki, bu, uzun və geniş bir bəhsdir və alimlər bu mövzudan geniş şəkildə söz açmışlar. Sadəcə olaraq bunu bir neçə cümlə ilə qeyd etməkdə məqsədim odur ki, sözügedən ayədə belə bir elmi mətləbin olduğunu bir daha xatırlayaq.

Odur ki, Allah-təala ayədə belə buyurur: "Onların övladlarını (özləri və malları ilə) dolu gəmilərdə daşımağımız bir nişanədir." Belə deyil ki, kimsə taxtadan və ya suyun üzərində dayana biləcək hansısa bir materialdan gəmi düzəldir və onun düzəltdiyi gəmi də heç bir vaxt suda batmır. Onun suyun üzərində dayanması və batmaması, küləyinköməkliyi, gəminin hansı istiqamətdə üzməyi və bütün bunların hamısı anbaan Allah-təala tərəfindən ona yetişən feyzdən asılıdır. Belə deyil ki, onlar özləri üçün gəmi düzəltmişlər və istədikləri vaxt istədikləri yerə də üzə biləcəklər. "Məşhun" ("yüklə dolu olan") deməkdə məqsəd isə budur ki, onların özlərindən başqa həm də lazım olan yüklərini də gəmiyə yükləyib aparırıq. Yəni əgər Allahın əmri olmasa, onlar suyun üzərində dayana bilərlərmi?

Sonrakı ayədə də belə buyurulur: "Və onlar üçün minməyə gəmiyə oxşar başqa miniklər yaratdıq." Bu ayədə bütün nəqliyyat vasitələrinə işarə olunur. İstər at, dəvə kimi heyvan olsun, istərsə də maşın və təyyarə kimi nəqliyyat vasitələri olsun, bütün bunların hamısını yaradan Allahdır. Bu minik vasitələri istər quruda olsun, istərsə də havada, bunlarda əsas məqsəd insanları və onların yüklərini

istədikləri yerə aparmaqdır. Ayədə işlənmiş “xələqna” (“yaratdıq”) sözünün iki mənası var. Bəziləri deyirlər ki, qədim dövrlərdə səfərlərin çoxu dəvə vasitəsilə həyata keçirilirdi. Qədimdə dəvəyə həm də “səhra gəmisi” deyərmişlər.

Bəziləri təyyarə və fəza gəmisi ilə bağlı belə təfsir etmişlər ki, “xələqna” (yəni “biz onları yaratdıq”) deməkdə məqsəd bu minik vasitələrinin materiallarını yaratmaqdır. O zamanlar hələ bu nəqliyyat vasitələrinin kəşf olunmamasına baxmayaraq, həqiqətdə isə ayənin mənası daha geniş və ümumidir. Bu, nəqliyyat vasitələrinin hamısına və eləcə də bundan sonra kəşf olunacaq digər minik vasitələrinə də şamil olunur. Deməli, bütün minik vasitələrini yaradan Allahdır. İstər at və dəvə kimi hazır minik vasitələri olsun, istərsə də sonradan insan əli ilə düzəldilmiş digər minik vasitələri olsun. Yəni insanların düzəltdikləri minik vasitələrinin materialını da Allah yaratmış və insanlara da onu düzəltmək üçün ağıl vermişdir. Beləliklə, Allah-təala insana icazə vermişdir ki, həmin materiallardan minik vasitələri düzəldib göylərə səyahət etsin. Bu barədə “Ər-Rəhman” surəsinin 33-cü ayəsində Allah-təala cinlərə və insanlara xitab edərək buyurur:

يا معشر الْجِنِ والْإِنسِ إِن استطعتم أَنْ تنفُذُوا مِن أَقْطَارِ السماواتِ
والْأَرضِ فَانفُذُوا ۚ لَا تنفُذُونَ إِلا بِسلْطَانٍ

-Ey cin və insan tayfası! Əgər göylərin və yerin ətrafından (çevrəsindən) kənara çıxa bilərsinizsə, çıxın. Siz (oradan) ancaq (qüdrət və) qüvvətlə (Allahın sizə bəxş etdiyi elmin qüdrətilə) çıxa bilərsiniz! (Yaxud siz oradan qüdrət və qüvvət vasitəsilə çıxa bilərsiniz ki, bu da sizdə yoxdur!)

Əlbəttə, qeyd etmək lazımdır ki, bu ayənin iki mənası vardır. Bir mənası odur ki, qiyamət günü heç bir kəs Allahın qüdrətindən (haqq-hesabdan) qaça bilməyəcəkdir. Yəni ey insan və cin tayfası, əgər Allahın qüdrət və hakimiyyətindən qaça bilirsinizsə, qaçın. Amma sizdə bu ixtiyar və qüdrət yoxdur. Necə ki, Həzrət Əli(ə) "Kumeyl" duasında Allahla minacat edərək belə deyərdi:

لا يمكِن الْفِرار مِن حكُومتِك

-Sənin hakimiyyətindən qaçmaq mümkün deyil.

İmam Sadiq(ə) buyurur: "Qiyamət günü Allah-təala bütün insanları (və cinlərin) hamısını bir yerə toplayar. Sonra göyün birinci qatının mələklərinə əmr verər ki, aşağı ensinlər. Həmin mələklər yerə (qiyamət səhnəsinə) enərlər. Onların sayı yer üzündə yaşamış bütün insanlar və cinlərin sayından iki dəfə çoxdur. Sonra göyün ikinci qatının mələklərinə yerə enmək əmri verilər. Onlar da qiyamət səhnəsinə enərlər. Onların sayı birinci qatın mələklərindən, insanların və cinlərin sayından iki dəfə çoxdur. Beləcə, göyün yeddi qatının sayı bir-birindən iki dəfə çox olan mələkləri məhşər səhnəsinə gələrlər. Bütün bu mələklər insanları və cinləri mühasirəyə alarlar. İnsanlar (və cinlər) üzük qaşı kimi onların əhatəsində qalarlar. Elə bu halda onlara belə xitab olunar:

يا معشر الْجِن والْإِنسِ إِن استطَعتم أَنْ تنفُذُوا مِن أَقْطَارِ السماواتِ والْأَرضِ فَانفُذُوا لَا تنفُذُونَ إِلا بِسلْطَانٍ

-Ey cin və insan tayfası! Əgər göylərin və yerin ətrafından (çevrəsindən) kənara çıxa bilərsinizsə, çıxın. Siz (oradan) ancaq (qüdrət və) qüvvətlə (Allahın sizə bəxş etdiyi elmin qüdrətilə) çıxa bilərsiniz! (Yaxud siz oradan qüdrət və qüvvət vasitəsilə çıxa bilərsiniz ki, bu da sizdə yoxdur!)

Ayənin ikinci və əsas mənası isə göy aləminə səyahət etməkdir. Yəni siz ora yalnız izn verildiyi halda çıxa bilərsiniz. Burada "izn" kəlməsində məqsəd ora getmək üçün lazım olan həmin nəqliyyat vasitələridir.

Bütün bunları qeyd etməkdə məqsəd yenə də ondan ibarətdir ki, insanın düzəltdiyi bütün nəqliyyat vasitələrinin hərəkət etməsi və dayanması Allahın əmrindədir. Onların hamısını yaradan Allah istənilən vaxt da onlara dayanmaq əmri verə bilər. Bütün nemətləri insanların ixtiyarına verən də Odur. Hava, su, külək və s. kimi təbii nemətlərin hərəkəti də Allahın əmri ilə baş verir. Bütün bunları istənilən an saxlaya bilər. Necə ki, sonrakı ayədə belə buyurulur: **"Əgər istəsəydik, onları batırıb, boğardıq. Bu vəziyyətdə nə onların köməyinə gələn olar, nə də nicat tapa bilərdilər."**

Bu işləri görmək Allah-təala üçün çox asandır. Heç kim elə təsəvvür etməsin ki, böyük bir gəmini suda batırmaq çətindir. Böyük bir dalğa vasitəsilə onların gəmisini batıra bilərik. Yaxud gəmilərini burulğana salıb dənizin dibinə batırarıq. Və ya tufana əmr edərik ki, onların gəmisini bir saman çöpü kimi qaldırıb dalğaların arasına atsın. Əgər istəsək suyun və eləcə də küləyin xüsusiyyətlərini dəyişdirib hər şeyi bir-birinə qatarıq.

Allah-təala sonrakı (44-cü) ayədə belə buyurur: "**Yalnız Bizdən bir rəhmət olaraq və müəyyən bir müddətədək (dünyada) bəhrələnmək üçün (nicat taparlar).**" Bunların hamısını edən bizik. Biz bu dünyaya nizam-intizam bəxş edirik. Hərdən bu hadisələrdən bəzilərinin baş verməsi də ona görədir ki, əllərində olan nemətlərin qədrini bilsinlər. Çünki insan nemətin qədrini əlindən getdikdən sonra bilir. Allah isə Öz rəhmətini insandan kəsmir. İnsan danışarkən Allah səsi yaradır. İstər o səslə

Allahı zikr etsin, istərsə də söyüş söysün. İnsan pis söz danışarkən, yaxud söyərkən də Allah onun səsini kəsmir. Allah insana göz vermişdir, ancaq haramlara baxmağa icazə verməmişdir. Amma bir insan haramlara və qadağan olunmuş şeylərə baxıb günah edirsə, Allah onun gözlərini kor etmir. Allahın insana bəxş etdiyi bütün nemətlər belədir. Hər bir nemətə hər an Allahın feyzi nazil olur və kəsilmir.

Odur ki, insan bu nemətlərin içində ikən Allahı yad etməli və Onun qədrini bilməlidir. "Zuxruf" surəsinin 12-13-cü ayələrində oxuyuruq:

والذِي خلَق الْأزواج كُلها وجعلَ لَكُم من الْفُلْكِ والْأنعامِ ما تركَبونَ. لِتستووا علَى ظُهورِهِ ثُم تذْكُروا نِعمةَ ربكُم إِذَا استويتم علَيهِ وتقُولُوا سبحانَ الذِي سخر لَنا هذَا وما كُنا لَه مقْرِنين

-Həmin O (Allah) ki, (varlıqların) bütün növləri(ni və bütün cüt məxluqatı) yaratdı və sizin üçün mindiyiniz gəmi və heyvanları vücuda gətirdi. (Yaratdı) ki, onların üstünə minəsiniz, sonra onların üstündə qərar tutan zaman Rəbbinizin nemətini xatırlayıb deyəsiniz: "Bunu bizə tabe və ram edən (hər bir eyib və nöqsandan) pakdır; (yoxsa) bizim buna gücümüz çatmazdı."

Həzrət Peyğəmbər(s) bu barədə belə buyurmuşdu: "Miniyin üstündə qərar tutduğunuz zaman (Allahı zikr edərək) bu duanı oxuyun:

بِسمِ اللهِ و لا حولَ ولا قُوةَ إِلَّا بِالله الْحمد لله الذِي هدانا لِهذا و سبحانَ الذي سخر لنا هذا وما كُنا لَه مقرِنين

Hər bir halda Allahı xatırlamaq həm bir növ təşəkkür, həm də ilahi nemətlərin içində qərar tutduğumuzu yada

salmaq deməkdir. Bütün hallarda Allahın rəhmət və feyzi insanın üzərindədir. Məsələn, uşağın böyüməsi Allahın sonsuz rəhmətinin bariz nümunəsidir. Uşaq gündə yüz dəfə təhlükə və ölümlə üz-üzə dayanır. Anası elə bilir ki, uşağı təhlükələrdən özü qoruyur. Uşağın ardınca gəzmək ananın borcudur. Amma hər bir halda uşağı saxlayan Allahdır. Allah-təala insanı müxtəlif hadisələrdən qorumaq üçün mələklər təyin etmişdir. Məsləhət olan yerdə də qorumamağı əmr edir. Təbiətdə baş verən bütün hadisələrin hikmət və səbəbi vardır.

Böyük alimlərdən biri deyir: "Günlərin birində istirahət etmək üçün çölə, çay kənarına getmişdim. Orada qəribə bir hadisə ilə qarşılaşdım. Mən çayın kənarında oturub istirahət edirdim. Birdən gözüm iri bir əqrəbə sataşdı. Amma əqrəb mənə sarı deyil, suya tərəf gedirdi. Öz-özümə fikirləşdim ki, əqrəb suda üzə bilməyən bir canlıdır. Bəs nə üçün çaya tərəf hərəkət edir? Əgər çaya girsə, su onu götürüb aparacaq. Əks təqdirdə geri qayıtmalıdır. Diqqətlə onu izləməyə başladım. Gördüm ki, əqrəb gəlib çayın kənarında dayandı. Elə bu zaman sudan bir qurbağa çıxdı və əqrəb onun belinə mindi. Qurbağa üzə-üzə çayın o biri tərəfinə keçdi. Əqrəb isə onun belindən düşüb yoluna davam etməyə başladı. Başa düşdüm ki, bu adi bir hal deyil və bunun bir sirri vardır. Mən də tez çayın o biri tərəfinə keçib əqrəbi izləməyə davam etdim. Bir qədər getdikdən sonra gördüm ki, əqrəb iri bir ağacın altında yatan cavan oğlana sarı irəliləyir. Ora çatanda gördüm ki, ağacın yuxarı tərəfindən bir ilan oğlana tərəf gəlir. İlan həmin oğlana çatar-çatmaz əqrəb onu sancıb öldürdü və çıxıb getdi. Burada mən başa düşdüm ki, Allah-təala bu əqrəbi həmin ilanı öldürmək üçün göndərib. Əgər əqrəb həmin ilanı öldürməsəydi, ilan oğlanı sancıb öldürəcəkdi.

Mən ağaca tərəf gəlib oğlanın yanında oturdum. O, hələ də yatmışdı və heç bir şeydən də xəbəri yox idi. Yanındakı şərab butulkasından və ağzından gələn pis qoxudan bildim ki, sərxoşdur. Onu yuxudan oyadıb bütün baş verənləri ona danışdım. Dedim ki, sən şərab içib pis vəziyyətdə yatmışdın. Bu ilan isə gəlib səni öldürəcəkdi. Amma Allah sənə mərhəmət etdi və ilanın səni öldürməsinə razı olmadı. Allaha qarşı günah etməyinə baxmayaraq, O, yenə də səni saxladı.

Həmin oğlan mənim sözlərimi dinlədikdən sonra ağlamağa başladı. Üzünü torpağa qoyub tövbə etdi."

Əlbəttə, bu kimi hadisələr gün ərzində dəfələrlə baş verir, amma bizim bunlardan xəbərimiz yoxdur. Buna görə də insan nemətlərin içində yaşayarkən başa düşməlidir ki, bütün bunlar Allah tərəfindən bəxş edilir. Təəssüflər olsun ki, çox az insanlar bu nemətlərin içində ola-ola Allaha şükür edir və ona bəxş olunmuş həmin nemətlərin qədrini bilir.

Həzrət Əyyub Peyğəmbər(ə) barəsində belə rəvayət olunur ki, Allah-təala dünyada ona hər bir şeyi inayət etmişdi. Həyatda lazım olan elə bir şey yox idi ki, Allah ona verməsin. Onun əkin-biçin üçün 500 cüt inək və öküzü, 3 min yük daşıyan dəvəsi, 7 min qoyunu var idi. Bundan əlavə, Allah-təala ona sağlamlıq, övlad və s. nemətlər də bəxş etmişdi. Həzrət Əyyub(ə) həm bütün bu nemətlərə görə, həm də Allaha olan məhəbbətinə görə daim zikr edirdi. Onun yetmiş yaşı olmasına baxmayaraq, sağlam bədəni var idi. Allah-təala onu imtahan etmək üçün verdiyi bütün nemətləri bir-bir əlindən aldı. Hətta onu sağalmaz bir xəstəliyə də mübtəla etdi.

Bütün bunlara baxmayaraq, Həzrət Əyyub(ə) Allaha şükür edirdi. İş o yerə gəlib çatdı ki, şeytan onun həyat

yoldaşını vəsvəsə etməyə başladı. Beləcə, qadın narahatlığını üzə vuraraq şikayətlənməyə başladı və ərinə dedi ki, sən Allahın peyğəmbərisən. Dua elə ki, Allah yenidən sənə sağlamlıq və var-dövlət versin. Əyyub Peyğəmbər(ə) dedi: “80 il nemət içində yaşamışıq. Qoy heç olmasa yeddi il bu imtahana səbir edək.” Qadın isə onunla razılaşmayıb Əyyub Peyğəmbəri(ə) atıb getdi. Əyyub Peyğəmbər(ə) tək-tənha qaldı, amma Allaha ibadət və səcdəsini daha da artırdı. Onun Allahdan başqa artıq kimsəsi qalmamışdı. Övladları dünyadan getmiş, arvadı və bütün dostları onu atmışdılar. Səbir edərək Allaha o qədər həmd-səna etdi ki, bu imtahandan çıxdı. Allah-təala ondan aldığı bütün nemətləri yenidən ona qaytardı.[1]

[1] 500 dastan, 1-ci cild, səh. 275.

## 45-46-cı AYƏLƏRİNİN TƏFSİRİ

**وإذَا قِيلَ لَهم اتقُوا ما بين أيدِيكُم وما خلْفَكُم لَعلكُم ترحمونَ.٤٥. وما تأتِيهم من آيةٍ من آياتِ ربهم إلا كانوا عنها معرِضِين.٤٦.**

**45. Ön və arxanızda olan (əzab)lardan qorxun, "bəlkə sizə rəhm oluna"- deyildiyi zaman üz çevirərlər.**

**46. Onlara Rəbbinin nişanələrindən və ayələrindən elə bir nişanə gəlməz ki, daim ondan üz döndərməsinlər.**

Əvvəlki ayələrdə Allahın xilqətdəki qüdrət və nişanələrindən bəhs olundu. Bu ayələrdə isə inadkar müşriklərin bu nişanələr, eləcə də Həzrət Peyğəmbərin(s) onları ilahi əzabla qorxutmasının müqabilində göstərdikləri əks-əməllər bəyan edilir. Yəni müşrik və kafirlərə ilahi əzabdan, Allahın qüdrət və nişanələrindən danışarkən onların bu xəbərdarlığa reaksiyası necə oldu? Bu haqda 45-ci ayədə belə oxuyuruq: "Onlara "ön və arxanızda olan əzablardan qorxun ki, bəlkə sizə rəhm olundu" - deyildiyi zaman onlar üz çevirdilər." Göstərilən ayədə işlənmiş "ma bəynə əydikum və ma xəlfəkum" (**"Ön və arxanızda olanlar")** ibarəsi qaranlıqdır. Yəni onların önlərində və arxalarında olanlar nədir ki, ondan qorxmaq və çəkinməyin lazım olduğu bəyan olunmuşdur? Bunun barəsində bir neçə məna və açıqlama verilmişdir. Yaxşı olar ki, həmin mənalara diqqət yetirək.

1. Birinci məna budur ki, "ma bəynə əydikum" ("önlərində olan") ifadəsində məqsəd dünya cəzaları, "və ma xəlfəkum" ("arxalarında olan") ifadəsində isə məqsəd

axirət cəzalarıdır. Yəni sizə əzabın nazil olmasından, müxtəlif əzablara düçar olacağınızdan qorxmursunuzmu?

2. İkincisi budur ki, "önlərində olan" ifadəsində məqsəd aşkarda etdiyi günahlar, "və ma xəlfəkum" ("arxalarında olan") ifadəsində isə məqsəd gizlində etdiyi günahlardı. Yəni camaat arasında utanmadan aşkar şəkildə və bir sıra günahları da gizlində etdiyinizdən qorxun. İstər aşkarda olsun, istərsə də gizlicə olsun, Allah insanın etdiyi bütün əməlləri görür. Beləcə, etdiyiniz bütün günahlardan çəkinin ki, bəlkə sizə rəhm oluna.

3. Üçüncü məna belədir ki, "ma bəynə əydikum" ("önlərində olan") ifadəsində məqsəd bu günə qədər etdiyi günahlar, "və ma xəlfəkum" ("arxalarında olan") ifadəsində isə bundan sonra etdiyi günahlardı. Yəni həm keçmişdə etdiyiniz günahlardan tövbə edin, həm də tövbə edin ki, bundan sonra günah etməyəcəksiniz. Belə olduqda bəlkə sizə rəhm oluna.

4. Seyid Qütb "Fi zilalil Quran" təfsirində bu haqda belə yazmışdır: "Bu iki "ma bəynə əydikum" ("önlərində olan"), "və ma xəlfəkum" ("arxalarında olan") ibarələrinin mənası budur ki, Allahın əzabı sizi öndən və arxadan əhatə etmişdir. Yəni Allahın əzabının sizi əhatə etməsinə səbəb olan əməllərdən çəkinin. Belə olduqda bəlkə sizə rəhm oluna."

Sonrakı (46-cı) ayədə isə belə buyurulur: "**Onlara Rəbbinin nişanələrindən və ayələrindən elə bir nişanə gəlməz ki, daim ondan üz döndərməsinlər."** Yəni nə Allahın nazil etdiyi Quran ayələri, nə də xilqətdə olan nişanələr onlara təsir etmir. Onlara nə "ənfusi ayətlər" (yəni öz vücudlarında olan ayətlər), nə də "afaqi ayətlər" (yəni təbiətdəki ayətlər) təsir göstərmir. Nə əzablardan qorxurlar, nə də müjdəyə inanırlar. Nə məntiqi və əqli

düşüncələri vardır, nə də fitrətin fərmanına qulaq asırlar. Onlar elə kor olmuşlar ki, ətraflarında olan ən yaxın əşyaları belə müşahidə edə bilmirlər.

İmam Sadiq(ə) buyurmuşdur:

لا يستغنى أهلُ كُل بلَدٍ عن ثَلاثَةٍ يفزع ـإلَيهم فى أمرِ دنياهم و آخِرتِهم، فَإن عِدِموا ذِلك كانوا همجا: فَقيه عالِم ورع وَ أمير خير مطاع وَ طَبيب بصيرٍ ثِقَةٌ

-Hər bir şəhərin camaatına dünya və axirət işləri üçün üç kimsə lazımdır. Əgər onlarda bu üç kimsə olmasa, nadanlıq və müvəffəqiyyətsizliyə düçar olacaqlar:

1.Elmli və təqvalı dinşünas; 2.Cəmiyyəti nizam-intizamla idarə etmək üçün ədalətli hakim; 3.Etibarlı və uzaqgörən həkim.

Hər bir ölkədə, şəhərdə, kənd və qəsəbədə insana yol göstərmək üçün təqvalı bir alim lazımdır. Bu alim insana xeyr və şəri, pis və yaxşını, nurla zülməti başa salmalı, insanların imanına ehtiyacı olan elmləri öyrətməli və yolun axırını onlara göstərməlidir. Camaat arasında belə bir alimin olması çox vacibdir. Hər bir insan mənəviyyatına, iman və axirətinə lazım olan məsələləri bu alimdən öyrənməlidir.

Həmçinin hər bir cəmiyyətə ədalətli hakim və rəhbər lazımdır. Əks təqdirdə cəmiyyətdə hərc-mərclik və intizamsızlıq baş verər. Belə olduqda insanın həmin cəmiyyətdə yaşaması olduqca çətin olar.

Bundan əlavə, hər bir cəmiyyət üçün elmli, etibarlı və imanlı həkim olmalıdır ki, insanlar öz dərdlərini ona söyləsinlər. Elə bir həkim ki, ürəyi ağrıyan bir insan ona müraciət etdikdə xəstənin dərdini başa düşsün. Elə bir həkim ki, hər mədəsi ağrıyanı müayinə etmədən orucu

qadağan etməsin. Əvvəl müayinə etməli və sonra isə həqiqətən də oruc tutmağın həmin xəstəyə ziyanı olduğunu söyləyərək orucu qadağan etsin. Yəni Allahın qanunlarına zidd danışmamalı, hərəkət etməməli və həqiqəti olduğu kimi söyləməlidir. Əgər bir həkimin heç bir şeyə əqidə və inamı yoxdursa, onun oruc barədə fikir söyləməsinə də ehtiyac yoxdur. Belə olduqda insan gərək öz-özünə əlac etsin. Çünki bu həkimin etibarı olmadığından sözünün də etibarı olmaz.

Təəssüflər olsun ki, dövrümüzdə insanlar bu üç kəsdən ikisini axtarır, amma birinə əhəmiyyət vermirlər. İnsanlar özlərinə hakim və həkim axtarırlar, amma dini məsələləri öyrənmək üçün təqvalı alimə də ehtiyac olduğuna əhəmiyyət vermirlər. Həyatda bir çox insanlarla rastlaşırıq ki, öz ölkəsində olmadığından yaxşı bir həkim üçün xarici ölkələrə gedirlər. Yəni öz canını etibar etmək üçün dünyanın ən yaxşı həkimini tapır. Amma təəssüflə demək lazımdır ki, iman məsələsində dərdinə çarə edən bir adamı axtarmır. Öz canı üçün pul toplayıb xərcləyir, amma imanı üçün bircə manat belə xərcləmək istəmir. Övladının sağlamlığı üçün nə qədər pul lazımdırsa, xərcləyir, amma onun gələcəyinə, mənəviyyat və imanı üçün beş manat pul xərcləməyə razı olmur.

Biz bu dünyada yaşayırıq və ixtiyarsız olaraq üzü axirətə doğru hərəkətdəyik. Ora çatdıqda bizə suallar verəcəklər və biz dünyada etdiyimiz hər bir əmələ görə cavab verməli olacağıq. Orada həm kafir, həm də mömin sorğu-sual olunacaq. “Ənam” surəsinin 94-cü ayəsi çox gözəl və sadə ayələrdən biridir. Müşriklər bərzəx aləminə daxil olan kimi, həmçinin qiyamət səhnəsinə ilk dəfə qədəm qoyan zaman onlara belə xitab ediləcək:

وَلَقَدْ جِئْتُمُونَا فُرَادَى كَمَا خَلَقْنَاكُمْ أَوَّلَ مَرَّةٍ وَتَرَكْتُمْ مَا خَوَّلْنَاكُمْ وَرَاءَ ظُهُورِكُمْ وَمَا نَرَى مَعَكُمْ شُفَعَاءَكُمُ الَّذِينَ زَعَمْتُمْ أَنَّهُمْ فِيكُمْ شُرَكَاءُ لَقَدْ تَقَطَّعَ بَيْنَكُمْ وَضَلَّ عَنْكُمْ مَا كُنْتُمْ تَزْعُمُونَ

-Siz Bizim hüzurumuza ilk dəfə sizi (tək) yaratdığımız kimi tək-tənha, özü də sizə verdiyimiz (var-dövləti, əhli-əyalı) arxanızda (dünyada) qoyub (əliboş) gəlmisiniz. Artıq sizin (vaxtilə) öz aranızda Allahın şərikləri iddia etdiyiniz şəfaətçilərinizi görmürük. Artıq aranızdakı (rabitə) qırılmış və (Allaha şərik) iddia etdikləriniz (bütlər) də sizdən (uzaqlaşıb) qeyb olmuşdur.

Müşriklər cahillik dövründə əsasən üç şeylə fəxr edirdilər. Onlardan biri öz qəbilə və qohum-əqrəbaları idi. İkincisi mal-dövlətləri və sərvətləri idi, üçüncüsü isə Allaha şərik qərar verdikləri bütlər idi. Elə düşünürdülər ki, bütlər qiyamət günü Allahın yanında onlar üçün şəfaətçi olacaqlar. Qeyd olunan bu ayədə müşriklərin fəxr etdikləri hər üç məsələyə işarə edilərək buyurulur ki, artıq fəxr etdiklərinizlə sizin aranızdakı rabitə qırılmış və iddia etdikləriniz də sizdən uzaqlaşıb qeyb olmuşdur.

İnsan axirət aləminə bir neçə metr parçadan savayı başqa heç bir şeylə getməyəcəkdir. Dünyada üstündə nə qədər qanlar tökdüyü, haqsızlıqlar etdiyi mal-dövlət, fəxr etdiyi qohum-əqrəba və arxalandığı bütlərin hamısı ilə əlaqələri kəsiləcək və Allahın hüzuruna tək gedəcəkdir. Buna görə də insan axirətini düşünməli və dünyada ikən orada dərdinə dəyən işləri görməyi unutmamalıdır.

## 47-ci AYƏSİNİN TƏFSİRİ

**وإذَا قِيلَ لَهم أنفِقُوا مِما رزقكُم الله قَالَ الذِين كَفَروا لِلذِين آمنوا أنطِعم من لو يشاء الله أطْعمه إنْ أنتم إلا فِي ضلالٍ مبِينٍ.٤٧**

**47. Onlara: “Allahın sizə ruzi olaraq verdiyindən (haqqı olan şəxslərə Allah yolunda) sərf edin!”- deyildikdə, kafirlər iman gətirənlərə: “Allahın istədiyi təqdirdə yedirə biləcəyi kəsəmi yemək verək?” – deyərlər (Allah onun ac qalmağını istəmişdir!) Siz yalnız açıq-aşkar azğınlıq içindəsiniz.”**

Müşriklər Allahın heç bir ayə və nişanəsinə əhəmiyyət vermədilər. Yəni nə Allahın nazil etdiyi Quran ayələri, nə də xilqətdə olan nişanələr onlara təsir etmədi. Onlara nə “ənfusi ayətlər” (yəni öz vücudlarında olan ayətlər), nə də “afaqi ayətlər” (yəni təbiətdəki ayətlər) təsir göstərmir. Nə əzablardan qorxurlar, nə də müjdəyə inanırlar. Nə məntiqi və əqli düşüncələri vardır, nə də fitrətin fərmanına qulaq asırlar. Onlar elə kor olmuşlar ki, ətraflarında olan ən yaxın əşyaları belə müşahidə edə bilmirlər. Bu ayədə onların inadkarlıqlarındın bir nümunəyə işarə edilir. Belə ki, onlara **“Allahın sizə ruzi olaraq verdiyindən (haqqı olan şəxslərə Allah yolunda) sərf edin!”- deyildikdə, kafirlər iman gətirənlərə: “Allahın istədiyi təqdirdə yedirə biləcəyi kəsəmi yemək verək?” – deyərlər (Allah onun ac qalmağını istəmişdir!)”**

Onlar özlərini elə göstərirlər ki, əllərində olan mal-dövlətləri guya özləri əldə etmişlər. Məgər bilmirlər ki, bütün bunları insana verən Allahdır? Allah-təala insana həm ümumi, həm də xüsusi mənada sərvət vermişdir. Ümumi

mənada qızıl, gümüş, neft, su, bitkilər, heyvanlar kimi yeraltı və yerüstü sərvətlərdir. Xüsusi mənada isə Allahın hər tək-tək insana ruzi kimi bəxş etdiyi nemətlərdir. İnsan elə düşünməməlidir ki, bütün bunları özü əldə etmişdir. Bəzən bir mömin qazanc əldə etmək məqsədilə səhər tezdən durub axşama qədər çalışır. Qazanc əldə etmək üçün hər bir vasitə və şəraiti olmasına baxmayaraq, bir nəticəyə çata bilmir. Hara əlini atırsa, sanki qapılar üzünə bağlanır.

Düzdür, ruzi və qazancın əldə olunmasında duanın rolu vardır. Amma əsas məsələnin kökündə problem olduqda dualar insana kömək etmir. İnsan əsasən həmin problemi axtarıb tapmalı və onu yoluna qoymalıdır. Bəzən bu problem insanın öz əməlindən, səhvindən, mənəviyyatsızlığından və günahlarından irəli gələn problemlərdir. Bəzən də Allahın bir insandan acığı gəldiyi və onun səsini eşitməmək üçün ona çoxlu mal-dövlət verir. Həmin şəxs də sevinərək elə başa düşür ki, Allahdan nə istəyirsə, onu da verir. Əlbəttə, biz bütün bunların səbəb və hikmətini bilmirik. Kimə nə veribsə, yaxud verməyibsə, nə üçün verib-vermədiyini də Özü bilir. İnsanın heç bir problem olmadan səhərdən axşama qədər çalışmasına baxmayaraq, gəlir əldə etməməsinə gəldikdə isə, bunun da öz mənası vardır. Allah-təala bununla insana başa salır ki, həmişə sənin istəməyinlə deyil. Sənin qazanc əldə etməyində və ruzi qazanmağında Mənim də rolum var. Kimə istəsəm, sərvət verərəm, kimə istəsəm, vermərəm. Odur ki, insan heç bir vaxt bunu unutmamalıdır. Hər bir halda insanın yadında olmalıdır ki, onun nemətlərinin ağası Allahdır. Bütün nemətlərin hamısı onun əlindədir.

Bu ayədə də həmin məsələyə işarə edərək müşriklərə və kafirlərə başa salır ki, Allahın sizə verdiyi ruzi və nemətlərdən başqalarına da verməlisiniz. Amma onlar

inadkarlıqla bəhanələr gətirərək deyirlər ki, əgər Allah istəsəydi, Özü onlara var-dövlət verərdi. Nə üçün biz öz malımızdan kimlərəsə pay verməliyik?

Allah-təala bu ayədə onların ədavət və bəhanələrindən bir nümunəni də misal çəkir. Çünki onların dedikləri sözlər bəhanədən savayı başqa bir şey deyildir. Məsələn, bir savadlı və elmli şəxsə öz elmindən kimlərəsə də öyrətməyi xahiş edirlər. O isə deyir ki, əgər ona elm öyrənmək məsləhət olsaydı, Allah-təala öyrədərdi.

Hər bir kəs bilir ki, bu, düzgün söz deyildir. Elmdə olduğu kimi, mal-dövlətdə və s. məsələlərdə də belədir. Bu kimi bəhanələri bütün əsrlərdə özünü sevən, paxıl və imkanlı insanlar gətirmişlər. Onlar bəhanə gətirərək deyirlər ki, filankəs kasıbdırsa, deməli, Allah-təala belə məsləhət görüb. Bizim varlı olmağımız da yenə Allahın məsləhətiylədir. Deməli, onların kasıb, bizim isə varlı olmağımız hamısı Allahın hikmətindədir. Ancaq bu qafil insanların xəbəri yoxdur ki, Allah onlardan birini yoxsulluqla və digərini isə var-dövlətlə imtahana çəkir. Ola bilər bir insanı hər ikisilə imtahana çəkər ki, görsün yoxsulluq və imkansızlıq onu şükür etməkdən çəkindirəcək, ya yenə də şükür edəcək? İmkanları düzəldikdən sonra Onun yolunda var-dövlətinin bir hissəsini insanlara xərcləyəcək, yoxsa yox?

Belə bəhanələr gətirmək insana xas olan iş deyil. Heç bir kəs deməməlidir ki, mənim tox, başqasının ac qalmasını Allah istəyir. Belə bir məntiq heyvani məntiqdir. İnsan cəmiyyətində var-dövlətin başqalarına da xərclənməsi çox böyük əhəmiyyət kəsb edir. Burada əsas məqsəd cəmiyyətdəki hər bir cəhətdən mövcud olan boşluğun doldurulub qaydasına salınmasıdır. Bəzən, elm, bəzən mal və s. kimi amillərlə bunu həyata keçirmək mümkündür. Bu məsələ

son dərəcə zəruri məsələlərdən biri olub hər bir insanın vəzifəsi sayılır. İnsan olan bir kəs sinəsində daşıdığı elmi, əlində olan malı tək özününkü bilməməlidir. Hətta qüdrəti və vəzifəsi ilə də bütün insanlara fayda verməlidir. Əgər bir insan əlində olan nemətlərin hamısını özünə məxsus bilsə və ondan heç bir kəsə verməsə, deməli, o, heyvan xislətli bir canlıdır. Çünki bu məntiq və xüsusiyyət heyvanlara aiddir. Necə ki, Həzrət Əli(ə) oxuduğu xütbələrin birində belə buyurmuşdur:

كَالْبَهِيمَةِ الْمَرْبُوطَةِ هَمُّهَا عَلَفُهَا

-Fikri ancaq ot-ələf olan və axura bağlanmış heyvan kimidir ki, bütün yeməkləri öz qabağına çəksin.

Heyvanın xüsusiyyəti budur ki, yemək gördükdə başqasına vermək istəmir. Qabağına nə töksələr, ancaq özü yemək istəyir. İki heyvan bir sümük tapdıqda hərəsi bir tərəfindən tutub dartır və heç biri razı olmur ki, həmin sümüyü digərinə versin. Belə olduqda bir heyvan digərinə belə deyər: “Kim güclüdürsə, o da haqlıdır.” Meşə qanunları məhz belədir. Kim güclüdürsə, o da qələbə çalacaq. Kimin gücü yoxdursa, ayaq altında qalıb məhv olmalıdır. Amma insan cəmiyyəti belə deyil. İnsanlar yaşadığı cəmiyyətdə bir-birinə əl tutmalı, zəiflərə kömək etməli, əlində olan nemətləri digərləri ilə bölüşməlidir.

### Yardım etməyin faydası

Ümumiyyətlə, yardım edən hər bir kəs bunu bilməlidir ki, bu işdə onun xeyri yardım olunan şəxsdən daha çoxdur. Məsələn, bir nəfər ac insana yardım etdikdə onun yalnız qarnı doyur. Amma yardım edən şəxsin burada xeyri bu olur ki, onun da ruhu təmizlənir. Yəni yardımın xüsusiyyəti budur ki, insanın ruhunu təmizləyir. “Tövbə”

surəsinin 103-cü ayəsində Allah-təala Həzrət Peyğəmbərə(s) xitab edərək belə buyurur:

خذ من أموالهم صدقة تطهرهم وتزكيهم بها

-(Ya Rəsulum!) Onların mallarından sədəqə (zəkat) al. Bununla onları təmizləmiş, pak etmiş olarsan.

Deməli, Həzrət Peyğəmbərin(s) vəzifəsi onlardan zəkat almaq və onların da vəzifəsi mallarının xüms və zəkatını verməkdir. Allah-təala hər bir insanın malından beşdə birini götürmüşdür. Hər şeyi insana verən Allahdır. Bir anın içində hər bir şeyi də insandan geri ala bilər. Yəni heç bir kəs elə düşünməsin ki, hər nə əldə edibsə, özü əldə edib. Heç bir kəs elə fikirləşməsin ki, əlində olanları heç kim ondan ala bilməz. Əgər Allah istəsə, bir dəqiqənin içində hər şeyi insanın əlindən ala bilər.

Bir nəfər deyir: “Mənim yaxşı evim, maddi imkanım, əla dolanışığım var idi. Həyatda maddi çətinliyim yox idi. Bir gün bazara gedib qayıtdıqda gördüm ki, evim od tutub yanır. Heç cür onu söndürə bilmədik. Ailə üzvlərimin evdə olmadığına görə sevinirdim. Amma gözüm görə-görə hər şeyim evlə birgə yanıb külə döndü. Həmin gün gecələmək üçün qohumlardan biri ilə əlaqə saxlayıb bir neçə gün onlarda qonaq qalmağı xahiş etdim. Axşamüstü ailəmlə birgə həmin qohumumgilə yola düşdük. Yolda maşın qəzaya uğradı və bütün ailə üzvlərim bu qəzada həlak oldu. Bircə mən sağ qalmışdım. Öz-özümə düşünürdüm ki, bir saat bundan əvvəl hər şeyim var idi. Amma indi heç nəyim yoxdur.”

Tarixə diqqətlə nəzər yetirdikdə neçə-neçə belə hadisələrə rast gəlmək mümkündür. Çox mənəm-mənəm deyənlər, pul-parası ilə fəxr edib özünü yuxarıdan aparanlar

olub ki, bir neçə dəqiqənin içində hər şeylərini əldən vermişlər.

Odur ki, Allah insana mal-dövlət qismət edirsə, onun hamısına malik deyildir. Allah-təala buyurur ki, həmin malın beşdə birini Həzrət Peyğəmbərə(s) verməlisən. Həmçinin onu verərkən bununla fəxr etmək də lazım deyil. Çünki o, sənin deyil ki, onu başqasına verərkən fəxr edəsən. Fərz edək ki, bir nəfər Şamaxıya gedir. Dostu ona 100 manat pul verib xahiş edir ki, bu pulu Şamaxıda filankəsə çatdırarsan. Həmin şəxs Şamaxıda dostunun dediyi adamı görür və pulu ona verir. Bu zaman pulu verərkən fəxr etməyin yeri varmı? Əlbəttə ki, yox. Çünki öz pulunu deyil, sənə verilən əmanəti o şəxsə çatdırmısan. Həmçinin həmin pulu alan şəxs də utanmır. Odur ki, əgər insan öz malının xümsünü təqlid etdiyi müctəhidə verirsə, burada fəxr etməli elə bir şey də yoxdur. Həmçinin xümsü alan şəxsə də bunun heç bir xeyri yoxdur. Çünki bu mal Allahın payıdır. O pulun haraya xərclənməsini Özü necə əmr edirsə, eləcə də xərclənməlidir. Burada pulu verən də, pulu alan da vasitəçidirlər. Onların heç birinin burada fəxr etməyə ixtiyarları yoxdur. Xüms vermək insan üçün ibadətdir və buna görə Allah dərgahında savab yazılır. Həmçinin xümsü alıb Allahın buyurduğu şəxslərə verən şəxs (müctəhid) də bu işi görməklə Allahın əmrini yerinə yetirərək savab qazanır.

Malın xüms və zəkatını vermək ağır olsa da belə bu əməl insanın ruhunu paklaşdırır. İnsan bu malı qazanarkən böyük zəhmətlər çəkdiyinə görə öz düşüncəsinə əsasən zəhmətlə qazandığı bu malın xümsünü verdikdə də ağrı çəkir. Buna görə də Allah-təala Həzrət Peyğəmbərə(s) buyurur: “Onların mallarından sədəqə (zəkat) al. Bununla onların ruhunu təmizləmiş, pak etmiş olarsan.” İnsanın

ruhunun dərmanı və pak olması xümsü verərkən çəkdiyi həmin ağrıdadır. Yəni malın bir hissəsini verdikdə insanın çəkdiyi ağrı ilə bərabər onun ruhu da paklaşır.

**Dünya insan üçün bir imtahandır**

Ümumiyyətlə, Allah dünyanı insan üçün bərbəzəkli və cəlbedici yaratmışdır. İnsanı da elə yaratmışdır ki, bu dünyanın bərbəzəyinə çox meyl göstərir. Bütün bunların hamısını da insanı sınaq və imtahana çəkmək üçün xəlq etmişdir. Allah- təala "Kəhf" surəsinin 7-ci ayəsində belə buyurur:

إِنا جعلْنا ما علَى الْأَرضِ زِينةً لها لِنبلُوهم أَيهم أَحسن عملًا

-Əlbəttə, Biz əməldə onlardan hansı birinin daha gözəl olmasını sınamaq üçün yer üzündə olanları onun zinət və bəzəyi etdik.

"Ali-İmran" surəsinin 14-15-ci ayələrində belə buyurulur:

زين لِلناسِ حب الشهواتِ مِن النساء والْبنِين والْقَناطِيرِ الْمقَنطَرةِ مِن الذهبِ والْفِضةِ والْخيلِ الْمسومةِ والأَنعامِ والْحرثِ ذَلِك متاع الْحياةِ الدنيا واللّه عِنده حسن الْمآبِ. قُلْ أَؤنبئُكُم بِخيرٍ من ذَلِكُم لِلذِين اتقَوا عِند ربهِم جنات تجرِي مِن تحتِها الأَنهار خالِدِين فِيها وأَزواج مطَهرةٌ ورِضوانٌ من اللّهِ واللّه بصِير بِالْعِبادِ

-Qadınlar və övladlar, qızıl və gümüş kimi toplanılan çoxlu mallar, nişan qoyulmuş atlar, dördayaqlılar və əkin yerləri kimi istənilən və arzu edilən şeylərin (dünya mallarının) məhəbbəti insanlar üçün zinətləndirilmişdir.

Halbuki bunlar dünya həyatından faydalanmaq vasitəsidir. Gözəl qayıdış yeri isə Allahın yanındadır.

De: "Sizə bunlardan da xeyirlisini xəbər verimmi? Təqvalılar üçün Rəbbi yanında (evlərinin və ağaclarının) altından çaylar axan cənnətlər vardır ki, orada əbədidirlər. Həmçinin (orada cismi və ruhi çirkinliklərdən) pak olan zövcələr və Allah tərəfindən razılıq vardır. Allah Öz bəndələrini görəndir."

Ayədə adları çəkilən dünya zinətləri, müxtəlif şəhvət və istəklər insanın fitrətinə qoyulmuşdur. Bütün bunlar insanın dünya həyatında faydalanması üçündür. Bütün bunlardan daha yaxşısı - gözəl aqibət, cənnətlər, əbədi həyat isə Allahın yanındadır. İnsan bu dünyada daim imtahan və sınaq qarşısındadır. Onun taleyi də bu imtahanın nəticəsindən asılıdır. Əgər bu imtahanda ağıl və iman qələbə çalsa, cənnət onundur. Cənnətə gedən insan güclü olmalıdır. Zəif insanı cənnətə buraxmazlar. Allah-təala Qurani-Kərimin "Məaric" surəsinin 38-39-cu ayələrində belə buyurur:

أيطْمع كُل امرِئٍ منهم أن يدخلَ جنةَ نِعِيمٍ. كَلَا إِنا خلَقْناهم مما يعلَمونَ

-Yoxsa onlardan hər birinin tamahı var ki, (sabah qiyamətdə kafir ola-ola) onu çox nemətli cənnətə daxil edələr?! (Xeyr!) Belə deyil; Biz onları özləri bildikləri şeydən (nütfədən) yaratdıq. (Sonrakı mərhələlərdə imana və əmələ təkamül tapmayınca heç bir kəsin cənnətə girməyə ləyaqəti çatmaz)!

Dünyada yüz, iki yüz manat halal pul qazanmağın insan üçün nə qədər çətin olduğunu hamı bilir. Əgər kiçik bir məbləği qazanmaq belə çətindirsə, o əzəmətdə cənnəti

qazanmaq insana asan gəlirmi? Cənnəti insana müftə verməzlər. Cənnəti qazanmaq üçün insana sədaqət və iman gücü lazımdır. Cənnəti dildə danışmaqla, uzun-uzadı arzularla əldə etmək mümkün deyil. Cənnəti qazanmaq üçün insan malından, canından keçməyi bacarmalıdır. Əgər insan dünyanın bərbəzəyinə, şəhvətlərə, pul-paraya aldansa, axırda dünya onu bədbəxt edəcəkdir.

### Həzrət İsa(ə) və tamahkarın hekayəti

Həzrət İsa(ə) insanları hidayət etmək üçün müxtəlif şəhərlərə səfərə çıxardı. Günlərin birində səhabələrdən biri onunla səfərdə iştirak etməsini xahiş etdi. Həzrət İsa(ə) onu da özü ilə apardı. Bir müddət yol getdikdən sonra həm dincəlmək, həm də yemək üçün bir çayın kənarında oturdular. Onların üç çörəyi var idi. Çörəyin birini İsa(ə), birini də həmin səhabə götürüb yedilər. Həzrət İsa(ə) su içmək üçün çayın kənarına getdi. Həmin səhabə fürsətdən istifadə edib yerdə qalan çörəyi də götürüb yedi. Həzrət İsa(ə) qayıdanda gördü ki, daha çörək qalmayıb. Soruşdu: "Çörək necə oldu?" Səhabə dedi: "Mən yeməmişəm, bilmirəm." Həzrət İsa(ə) bir söz deməyib yoluna davam etdi. Yenə bir müddət yol getdikdən sonra çöldə bir neçə ceyran gördülər. Həzrət İsa(ə) həmin ceyranları yanına çağırdı. Ceyranlar onlara tərəf gəldilər. Onlardan birini tutub kəsdilər. Ceyranın ətindən bir miqdar bişirib yedikdən sonra Həzrət İsa(ə) yoldaşına buyurdu: "Ceyranın sümüklərini görürsənmi?" Dedi: "Bəli, görürəm." Həzrət İsa(ə) buyurdu: "İndi isə onlara diqqətlə bax." Səhabə ceyranın yerə tökülmüş sümüklərinə baxdıqda Həzrət İsa(ə) buyurdu: "Allahın izni ilə qalx."

Elə bu zaman ceyranın sümükləri bir-birinə birləşib üstünə də ət gəldi və o, əvvəlki vəziyyətinə qayıdıb ayağa

qalxdı. Sonra Həzrət İsa(ə) səhabəyə buyurdu: "Allahın qüdrətini gördünmü?" O dedi: "Bəli, gördüm." İsa(ə) buyurdu: "İndi isə de görüm, çörəyi kim yeyib?" O, tərslik edib yenə də dedi: "Mən yeməmişəm." Həzrət İsa(ə) bir söz demədi və onlar yollarına davam etdilər. Bir müddət getdikdən sonra qarşılarına böyük və dərin bir çay çıxdı. Həzrət İsa(ə) ona buyurdu: "Əlimdən tut." Səhabə Həzrət İsanın(ə) əlindən tutdu və onlar suyun üstü ilə çayın o biri tərəfinə keçdilər. Çayı keçəndən sonra Həzrət İsa(ə) soruşdu: "Çörək necə oldu?" Səhabə dedi: "Bilmirəm." Onlar yenə də yollarına davam etdilər və daş-kəsəkli kiçik bir məntəqəyə yetişdilər. Həzrət İsa(ə) oradakı daş-kəsəklərə işarə etdi və onların hamısı qızıla çevrildi. Sonra buyurdu: "Gəl, bunları aramızda bölək. Bir hissəsi sənin, bir hissəsi mənim və bir hissəsi də üçüncü çörəyi yeyənin." Həmin səhabə dərhal dedi: "O çörəyi mən yemişdim." Həzrət İsa(ə) buyurdu: "Hamısı sənin olsun. Bizim yoldaşlığımız elə bura qədər imiş."

Həzrət İsa(ə) ondan ayrılıb getdi. O da qızılların yanında oturub onları necə aparacağı haqda düşünürdü. Elə bu vaxt yoldan ötən iki nəfər həmin qızılları gördü. Ona yaxınlaşıb hal-əhval tutdular. O, fikirləşdi ki, bu iki nəfər qızılları gördüklərindən onu öldürə bilərlər. Ona görə də canını qurtarmaq üçün dedi: "Gəlin, qızılları aramızda bölək." Onlar razılığa gəlib dedilər: "Biz uzaq səfərdən gəlmişik. Həm yorğunuq, həm də acmışıq. Yaxşı olar ki, bir nəfər gedib şəhərdən yemək alıb gətirsin." Həmin səhabə dedi: "Mən gedib yeməyə bir şey alaram." Sonra isə o, şəhərə gedib ərzaq aldı və həmin iki şəxsi öldürmək üçün çörəyi zəhərlədi. O, şəhərə gedərkən həmin iki nəfər də qərara gəldilər ki, səhabə qayıdan kimi onu öldürsünlər və qızılları da öz aralarında bölsünlər. Elə

də etdilər. Onu öldürdükdən sonra özləri də həmin çörəkdən yedilər və onlar da öldülər.

Elə bu zaman Həzrət İsa(ə) bir neçə nəfərlə həmin yerdən qayıdırdı. Qızılların kənarında həmin üç nəfərin cəsədinə baxıb ətrafındakılara buyurdu: “Dünya bax budur. Dünyapərəstlər də bunlardır. Dünyapərəstlər bu dünyanı əldə etmək üçün bir-birini öldürürlər. Amma dünya olduğu kimi öz yerində qalır. Dünya öz əhli ilə (dünyapərəstlərlə) belə rəftar edər.” [1]

Tarix insan üçün böyük bir məktəbdir. Tarixi mənbələrdə mənfi və müsbət insanların həyatını görmək mümkündür. Bütün tarix boyu biz bu dünyaya aldanmış çoxlu insanlara rast gəlirik. Amma tarixdə insanlar arasında elələrinə də rast gəlirik ki, dünya onları zərrə qədər də olsa belə aldada bilməmişdir. Çünki onlar Allahın razılığını hər bir şeydən üstün tutmuşlar. Bu insanlar özlərinin ehtiyacı olduğu halda belə Allah yolunda yardım etməyi yaddan çıxarmamışlar. Onların ən bariz nümunəsi Həzrət Peyğəmbər(s) və onun Əhli-beyti(ə) hesab olunur. Onlar hər bir cəhətdən bütün insanlara örnəkdirlər. Nümunə üçün Həzrət Əlinin(ə) başqasına yardım etməsi və fədakarlığından birini diqqətinizə çatdırıram.

Günlərin birində Həzrət Əli(ə) evə gəlib yemək istədi. Həzrət Fatimeyi Zəhra(s.ə) dedi: “İki gündür ki, evdə yeməyə heç nəyimiz olmadığından uşaqlar da acdır.” Həzrət Əli(ə) buyurdu: “Bəs nə üçün mənə deməmisən?” Xanım Zəhra(s.ə) ərz etdi: “Atam Rəsulallah mənə tapşırıb ki, Əlidən(ə) heç nə istəmə. Buna görə də səndən bir şey istəməyə həya edirəm. Qorxuram birdən səndən

---

[1] Yasin surəsinin təfsiri, Seyid Məhəmməd Ziyaabadi, səh. 190.

nəsə istədikdə onu almağa imkanın olmaya və ailə üzvlərinin yanında xəcalətli qalasan.”

Həzrət Əli(ə) evdən çıxıb tanıdığı adamların birindən bir dinar borc aldı. Evə bazarlıq edib qayıdarkən yolda Miqdadı gördü. Həmin gün hava çox isti idi. Miqdaddan hara getdiyini soruşdu. Miqdad başını aşağı salıb heç bir söz demədi. Həzrət Əli(ə) soruşdu: “Sənə nə olub? Niyə kefin yoxdur?” Miqdad yenə də dinmədi. Həzrət(ə) üçüncü dəfə soruşduqda Miqdad dedi: “Üç gündür ki, evdə yeməyə heç nəyimiz yoxdur. Uşaqların ac qaldığını görüb dözə bilmədim. Buna görə də evdən çıxıb Allahın fəzlinə ümid bağlamışam.” Həzrət Əli(ə) buyurdu: “Bizim evdə də uşaqlar iki gündür acdırlar. Amma sizdə üç gündür ki, yeməyə heç nəyiniz yoxdur.” Həzrət Əli(ə) bunu deyib aldığı ərzaqları da ona verdi və özü məscidə getdi.

Beləcə, Həzrət(ə) axşamadək ibadətlə məşğul oldu. Axşam namazında Həzrət Peyğəmbər(s) də məscidə gəldi. Camaat namazını qıldıqdan sonra Həzrət Peyğəmbər(s) Həzrət Əliyə(ə) buyurdu: “Ya Əli, bəlkə bu axşam bizi evinə qonaq çağırasan.” Həzrət Əli(ə) başını aşağı salıb bir söz demədi. Peyğəmbər(s) buyurdu: “Niyə dinmirsən? Ya hə de, ya da yox.” Həzrət Əli(ə) ərz etdi: “Ya Rəsulallah, buyurun, gedək bizə.” Həzrət Peyğəmbər(s) onunla birgə getdilər. İçəri daxil olduqda gördülər ki, Xanım Zəhra(s.ə) namaz qılır. Otağa keçib əyləşdilər. Həzrət Zəhra(s.ə) namazı qılıb qurtardıqdan sonra gördü ki, yanında böyük bir qazan, içində isə bişmiş ət var. Bildi ki, bunu cənab Cəbrayıl(ə) cənnətdən gətirmişdir. Xanım Zəhra(s.ə) qazanı götürüb atasının qarşısına qoydu. Həzrət Peyğəmbər(s) Zəkəriyyənin(ə) Məryəmdən(s.ə) soruşduğu kimi qızı Fatimeyi Zəhradan(s.ə) soruşdu: “Bunlar sənin üçün

haradandır?” Xanım Zəhra(s.ə) da Həzrət Məryəmin(s.ə) Zəkəriyyəyə(ə) verdiyi cavab kimi atasına belə ərz etdi: “Bunlar Allah tərəfindəndir! Həqiqətən, Allah istədiyi şəxsə hədsiz-hüdudsuz ruzi verər!”

Həzrət Peyğəmbər(s) buyurdu: “Şükürlər olsun Allaha ki, Zəkəriyyə(ə) ilə Həzrət Məryəmin(s.ə) hadisəsi mənim ailəmdə də baş verdi.” Sonra Həzrət(s) üzünü Həzrət Əliyə(ə) tutub buyurdu: “Ya Əli(ə) bu, günorta sənin yardım etdiyin bir dinarın mükafatıdır.”[1]

---

[1] Yasin surəsinin təfsiri, Seyid Məhəmməd Ziyaabadi, səh. 192.

### 48-50-ci AYƏLƏRİNİN TƏFSİRİ

**وَيَقُولُونَ مَتَى هَذَا الْوَعْدُ إِنْ كُنتُمْ صَادِقِينَ.٤٨. مَا يَنظُرُونَ إِلَّا صَيْحَةً وَاحِدَةً تَأْخُذُهُمْ وَهُمْ يَخِصِّمُونَ.٤٩. فَلَا يَسْتَطِيعُونَ تَوْصِيَةً وَلَا إِلَى أَهْلِهِمْ يَرْجِعُونَ.٥٠.**

**48. Onlar: “Əgər doğru danışırsınızsa (bir xəbər verin, görək) bu vəd (qiyamət günü) nə vaxt olacaq?”- deyərlər.**

**49. Onlar (küçədə, bazarda) bir-biri ilə çənə-boğaz olarkən özlərini saracaq yalnız bir dəhşətli, tükürpədici səsə bənddirlər.**

**50. Artıq bir vəsiyyət etməyə nə qüdrətləri çatar, nə də ailələrinin yanına qayıda bilərlər!**

Ötən ayələrdə müşriklərin başqalarına yardım etməmək üçün gətirdikləri bəhanələrdən sonra indi bəhs edəcəyimiz ayələr onların qiyamətin olacağına istehza etmələrinə və bu barədə gətirdikləri əsassız sübutlara qəti və məntiqi cavablardır. Yəni bu ayələr onların gətirdikləri bəhanələri və iç üzlərini açır. Onların əsas sözü “Onlara Allahın sizə verdiyi nemətlərdən başqalarına da verin, - deyildiyi zaman onlar da “əgər Allah istəsəydi, Özü onlara verərdi” - demələri deyildi. Onlar bu bəhanəni gətirirdilər, amma içlərindəki niyyətləri isə tamamilə başqa idi. Onların əsas dərdləri qiyaməti qəbul etməmələriydi. Ona görə də istehza edərək belə deyirdilər: “**Əgər doğru danışırsınızsa (bir xəbər verin, görək) bu vəd (qiyamət günü) nə vaxt olacaq?**” Bu ayə onların içlərindəki pərdəni bir kənara çəkir. Onlar öldükdən sonra diriləcəklərinə inanmırdılar. Onlar inanmırdılar ki, ölüb

torpaq olduqdan sonra Allah onları dirildib qiyamət səhnəsinə gətirəcək. Onların istehza ilə "Qiyamətin qopması nə zaman olacaqdır?" - deməəri qiyamətə inanmamalarına açıq-aydın dəlil və sübutdur.

Bu ayənin izahı ilə bağlı bir neçə mətləbə toxunmaq olar. Onlardan biri budur ki, elə bil qiyamətin min ildən sonra baş verəcəyini söylədikdə, kim bundan sonra dünyada min il yaşayacaq ki, bu sözün (yəni qiyamətin min ildən sonra baş verəcəyinin) doğru olub-olmadığını bilsin? Yəni qiyamətin nə vaxt baş verəcəyini bilməyin insana nə faydası var? Onsuz da qiyamət əvvəl-axır baş verəcəkdir. Əsas məsələ budur ki, müşriklər, ümumiyyətlə, qiyaməti qəbul etmirlər. Amma qiyamətin nə vaxt qopacağını bilmək bizə lazım deyil. İstər min ildən sonra, istərsə də beş min ildən sonra baş versin. Hədislərdə belə nəql olunur ki, insan öldüyü zaman onun qiyaməti başlanır. İnsan öldükdən sonra dünya ilə vidalaşır. Cismi torpağa, ruhu isə bərzəx aləminə gedir. İnsan öldükdən sonra ya bərzəxin cənnətində, ya cəhənnəmində, yaxud da orada yuxuda olduğu kimi yaşayır. Daha fərqi yoxdur ki, onun üçün qiyamət iki ildən sonra olsun, yaxud iki min ildən sonra baş versin. Qiyamət gününün nə vaxt baş verəcəyi insan üçün əhəmiyyətli deyil. Yəni qiyamətin necə olması və nə vaxt baş verməsi bizim dərkimizin əhatə dairəsindən kənardadır. Onsuz da nə vaxtsa bu, mütləq baş verəcəkdir. Əsas məsələ budur ki, insan qiyamətə iman gətirsin, buna etiqadı olsun və dünyada etdiyi əməllərə görə həmin gün cavab verəcəyini yəqin bilsin.

Ayədəki ikinci mətləb budur ki, bizim qiyaməti dərk etməyimiz üçün bizə qiyamət gözü lazımdır. Yəni dünya gözü ilə qiyaməti görmək mümkün deyil. Çünki qiyamətin forması başqa, dünyanın forması isə başqadır. Dünya bir

aləmdir və qiyamət də başqa bir aləmdir. Onların bir-birinə heç bir dəxli yoxdur. Çünki bunların hər biri özünəməxsus bir aləmdir. Buna ən yaxşı misal olaraq ana bətni ilə bu dünyanı müqayisə etmişlər. Əlbəttə, bu misal hədislərdə də nəql olunmuşdur. Ana bətnindəki uşağa bu dünyanı başa salmaq mümkün olmadığı kimi, eləcə də qiyamətin necəliyini bu dünyada yaşayan insana başa salmaq mümkün deyil. Çünki dünyanın forması ilə axirət dünyasının forması tamamilə fərqlidirlər. Biz axirət dünyasının necəliyini dərk edə bilmirik. Yalnız oranı gözümüzlə gördükdə başa düşə biləcəyik ki, axirət necə bir aləmdir. Bu barədə "İnsan" surəsinin 20-ci ayəsində oxuyuruq:

وإذا رأيت ثم رأيت نعيما وملكا كبيرا

-Oranı gördükdə (bolluca) nemət və böyük bir mülk görərsən.

Bu ayədən açıq-aydın görürük ki, axirət dünyasının necəliyini yalnız ora gedib gördükdən sonra başa düşmək olar. Amma bu dünyada oranın necəliyini təsəvvürümüzə gətirə bilmərik. Çünki oranı görmək üçün bu dünyadakı gözlərimiz kifayət etmir. Yəni axirət aləmini dünya gözü ilə müşahidə etmək olmur.

Alimlərdən biri bu barədə belə bir misal çəkmişdir: xurma tumunu necə başa salmaq olar ki, xurma ağacı necə olur? Yaxud bir gül toxumuna gülün hansı ətir verəcəyini necə başa salmaq olar? Çünki həmin toxum cücərməli, böyüyüb inkişaf etməli, gül olduqdan sonra gülün nə olduğunu və necə ətir saçdığını dərk edə bilər. Buna görə də qiyaməti dərk etmək üçün insana qiyamət aləmini gözü ilə görməsi lazımdır. Dünya gözü oranı dərk etməkdə acizdir. İnsan nə qədər ki, qiyamətə daxil olmayıb, oranın necəliyini başa düşə bilməyəcək. Nə qədər ki, biz bu

dünyadayıq, nə bərzəxin, nə qiyamətin, nə cənnətin və nə də cəhənnəmin necə bir yer olduğunu dərk edə bilmərik. Quranda axirət dünyasının, cənnət və cəhənnəmin necəliyi haqda söz açılmışdır. Amma biz yenə də bunları dərk edə bilmirik. Oranın necə əzəmətli, böyük bir mülk olduğunu dərk etmək üçün mütləq ora gedib görmək lazımdır.

Odur ki, qiyamətin nə vaxt baş verəcəyini də Allahdan başqa heç bir kəs bilmir. Qurani-Kərimin "Əhzab" surəsinin 63-cü ayəsində oxuyuruq:

يسأَلُك الناس عنِ الساعةِ قُلْ إنما عِلْمها عِند اللهِ وما يدرِيك لَعل الساعةَ تكُونُ قَرِيبا

-Camaat səndən qiyamət barəsində (onun yaxınlığı, uzaqlığı, necə baş verəcəyi, o günün uzunluğu haqqında) soruşar. De: "Onun elmi Allah yanındadır." Və nə bilirsən, bəlkə də qiyamət yaxındır!"

Qiyamətin nə vaxt qopacağını Allahdan başqa heç bir kəs bilmir. Amma bu nə vaxtsa mütləq baş verəcəkdir. Bu dünyanın axırı və qiyamət Allah üçün heç də çətin bir şey deyildir. Yalnız bir səs kifayət edir ki, bir anda hamını dayandıqları yerdə həlak etsin və onların səs-küylü və maddi dünyasını boş və səssiz dünyaya çevirsin. Necə ki, sonrakı (49-cu) ayədə belə oxuyuruq:

ما ينظُرونَ إلا صيحةً واحِدةً تأْخذُهم وهم يخِصمونَ

-Onlar (küçədə, bazarda) bir-biri ilə çənə-boğaz edərkən özlərini saracaq yalnız bir dəhşətli, tükürpədici səsə bənddirlər.

Bu ayədən açıq-aydın şəkildə görünür ki, dünyadakı insanların hər biri öz işləri ilə məşğul olarkən birdən-birə qiyamət qopacaqdır. Bu ayənin barəsində və qiyamət gününün necə baş verəcəyi haqda Həzrət Peyğəmbərdən(s) belə bir hədis nəql olunmuşdur:

تقُوم الساعةُ والرجلانِ قَد نشرا ثَوبهما يتبايعانه، فَما يطْوِيانه حتى تقُوم والرجلُ قَد رفَع أُكْلَته إِلَى فِيهِ فَما تصِلُ إِلَى فِيهِ حتى تقُوم والرجلُ يلِيطُ حوضه لِيسقِي ماشِيته فَما يسقِيها حتى تقُوم

-Bazarda bir-biri ilə parça açıb satmaq üçün kəsməklə məşğul olan iki nəfər imkan tapıb parçanı bükə bilməyəcəklər. Dərhal dünya və yaşayış sona yetişəcək. Bəzi insanlar yemək tikəsini qabdan götürüb ağzına qoymamış bu səsi eşidəcək və yeməyi ağzına qoymağa macal tapmayacaq, dünya sona yetəcək. Bəziləri heyvanların su içməsi üçün hovuz düzəldəcək, heyvanlar hələ ondan su içməmiş bu səs eşidiləcək və dərhal qiyamət baş verəcək.[1]

İnsanın əcəli ilə qiyamətin qopması da bir-birinə bənzəyir. Yəni əcəl gələndə də insanı birdən-birə aparır. Qiyamət günü də birdən baş verəcəyi üçün hamı olduğu yerdəcə həlak olacaqdır. Bircə tükürpədici səsin nəticəsində hər bir kəs öz işi ilə məşğul olduğu haldaca qiyamət başlayacaq. Sonrakı ayədə belə buyurulur:

فَلَا يستطِيعونَ توصِيةً ولَا إِلَى أَهلِهم يرجِعونَ

-Artıq bir vəsiyyət etməyə nə qüdrətləri çatar, nə də ailələrinin yanına qayıda bilərlər!

Adətən, bir hadisə baş verərkən insanı iki məsələ düşündürür. Onlardan biri tez-tələsik öz ailəsinin yanına qayıtmaq, digəri isə öz işlərini kiməsə tapşırmaq və yaxud vəsiyyət etməkdir. Bu ayədə bəyan edilir ki, qiyamət baş verərkən insan istər ailəsinin yanına qayıtmağa, istərsə də vəsiyyət etməyə macal tapmayacaq.

Odur ki, qəlbində nuraniyyət olan insanlar həmişə ölümə və yaxud qiyamət gününə hazırlıqlı olarlar. Hər

---

[1] Təfsiri-nümunə, 18-ci cild, səh. 407.

səhər yuxudan oyandıqda sanki qiyamətin həmin gün baş verəcəyini düşünər və özlərini buna hazır vəziyyətdə saxlayarlar. Həmçinin gecə yatarkən qiyaməti düşünüb həmin günə hazırlıqlı yatarlar. Yəni nurani və təqvalı insanlar hər bir halda ölüm və qiyaməti yaddan çıxarmazlar.

قالَ رسولُ اللّهِ صلّى اللهُ عليهِ و آلِه: إنّ النور إذا دخلَ الصدرَ انفَسح. قيلَ: هل لذلك مِن علَمٍ يعرف بِهِ؟ قالَ: نعم، اَلتجافِي عن دارِ الغرورِ، و الإنابةُ إلى دارِ الخُلودِ، و الإستِعدادُ للموتِ قَبلَ نزولِهِ

-Həzrət Peyğəmbər(s) buyurur: "İnsanın qəlbinə iman nuru daxil olduqda həmin qəlb dözümlü və geniş olar." Soruşdular: "Ya Rəsulallah, bunun (nurun qəlbə daxil olmasının) əlaməti varmı?" Peyğəmbər(s) buyurdu: "Bəli, əbədiyyətə doğru qayıtmaq, qürurlu və aldadıcı dünyadan üz çevirmək və ölüm yetişməzdən əvvəl hazırlıq işləri görmək."

Səhabələrdən biri deyir: "Mən Peyğəmbərin(s) "ölüm yetişməzdən əvvəl hazırlıq işləri görmək" ifadəsinin mənasını başa düşmədim və ikinci dəfə sual verməyə utandım. Bunu Həzrət Əlidən(ə) soruşduqda belə buyurdu:

أداءُ الفَرائضِ، و اِجتِناب المَحارِمِ، و الإشتِمالُ على المَكارِمِ، ثُم لا يبالي أوقَع على المَوتِ أم وقَع المَوت عليهِ.

-Ölümə hazırlıq işləri görməyin mənası vacibləri yerinə yetirmək, haramlardan çəkinmək və əxlaqı gözəlləşdirməkdir. Əgər insan bunlara riayət etsə, heç bir qorxusu yoxdur ki, ölüm onun sorağına gəlsin, yaxud o, ölümün ayağına getsin.[1]

[1] Mizanül-hikmə, 12-ci cild, hədis – 19174 və 19209.

## 51-ci AYƏSİNİN TƏFSİRİ

**ونفخ في الصور فإذا هم من الأجداث إلى ربهم ينسلون.٥١.**

**51.Sur (ikinci dəfə) çalınan kimi (qiyamət günü) qəbirlərindən qalxıb sürətlə Rəbbinin hüzuruna axışacaqlar.**

Bundan əvvəlki ayədə qiyamətin baş verəcəyi və dünyanın sona çatmasından bəhs olundu. Qiyamətin qopacağı zaman heç bir kəsə hətta bircə kəlmə vəsiyyət etməyə belə möhlət və aman verilməyəcəkdir. Bu ayədə isə axirət dünyasının başlanmasından söz açılır. İnsanın ölümü ilə dünya qırtarır və dünyanın da qurtarması ilə axirət başlanır.

Ayədə işlənmiş "sur" kəlməsi "şeypur" deməkdir. "Nufixə" isə "nəfx" sözündən götürülüb və "füləmək" mənasını kəsb edir. "Əcdas" sözü "cədəs"in cəmidir və qəbir mənasını verir.

"Nufixə fis-sur" ("Şeypur çalınarkən") ifadəsi haqda Quranda on yerdə söz açılmışdır. Bu mövzuda olan ən məşhur ayə "Zumər" surəsinin 68-ci ayəsidir ki, bu ayədə surun (şeypurun) iki dəfə çalınması haqda söz açılmışdır. Bir sıra alimlər bəzi ayələrdən də istifadə edərək bu surun dörd dəfə çalınacağı haqda fikir irəli sürmüşlər. Surun həmin iki dəfə çalınması da bu ayənin içindədir. Allah-təala bu mübarək ayədə belə buyurur:

ونفخ في الصور فصعق من في السماوات ومن في الأرض إلا من شاء الله ثم نفخ فيه أخرى فإذا هم قيام ينظرون

-Sur (birinci dəfə) çalınacaq. Allahın istədiyi kəs istisna olmaqla göylərdə və yerdə olan hər bir kəs həlak

olacaq. Sonra o, bir daha (ikinci dəfə) çalınacaq. Onda onların hamısı birdən ayağa qalxıb baxacaqlar (və həmin günün sahibinin əmrini gözləyəcəklər).

Bu ayədə açıq-aydın şəkildə görürük ki, sur birinci dəfə çalındıqda bütün canlılar öləcək. Ayədə işlənmiş “illa mən şaəllah” (“Allahın istədiyi kəsdən başqa”) ifadəsinin mənası barədə İmam Sadiq(ə) belə buyurmuşdur: “Bütün canlılar öldükdən sonra bir neçə mələk qalacaq. Cənab Əzrayıl(ə) Allahın hüzurunda dayanacaq. Allah-təala soruşacaq: “Canlılardan kim qalıb?” Əzrayıl(ə) deyəcək: “Mən, ərşi daşıyanlar, Cəbrayıl və Mikayıl.” Allah-təala əmr edəcək ki, Cəbrayıl və Mikayılın da canını al. Əzrayıl(ə) onların canını aldıqdan sonra Allah ondan soruşacaq: “İndi kim qalıb?” Əzrayıl(ə) deyəcək: “Ərşi daşıyanlar.” Allah-təala buyuracaq: “Onların da canını al.” Onlar da öldükdən sonra Əzrayıl(ə) qəmgin halda Allahın hüzurunda dayanacaq. Allah-təala soruşacaq: “İndi kim diri qalıb?” Əzrayıl(ə) deyəcək: “Sənin zati-müqəddəsin əbədi və əzəlidir. Yaratdığın canlıların içərisində məndən başqa heç bir kəs qalmayıb.” Allah-təala buyuracaq: “İndi isə sən də öl.” Əzrayıl(ə) da canını tapşıracaq.[1]

Hamı öldükdən sonra Allah-təala yerə və göyə nəzər salaraq belə buyurar: “Haradadır Mənim üçün şərik qərar verib iddia edənlər?! Haradadır özlərini dünyanın sahibi bilənlər?!”

“Ğafir” surəsinin 16-cı ayəsində Allah-təala belə buyurur:

لِمَنِ الْمُلْكُ الْيَوْمَ

-Bu gün mülkiyyət və hakimiyyət kimə məxsusdur?

---

[1] Hədislərdə qeyd olunur ki, Əzrayılın(ə) ruhu bədənindən çıxarkən nalə edib elə dəhşətlə bağıracaq ki, əgər adəm övladı ölməmişdən qabaq onun bağırtısını eşitsəydi, hamısı həlak olardı.

“Yusif” surəsinin 39-cu ayəsində belə cavab verilir:

لِلّهِ الْواحِدِ الْقَهارِ

-Tək və qüdrətli olan Allaha məxsusdur.

Sur ikinci dəfə çalındıqda isə hamı dirilib qalxacaq və Allahın əmrini gösləyəcəklər. Sual oluna bilər ki, birinci və ikinci dəfə çalınan surun arasında fasilə olacaqmı? Yəni bunlar ardıcıl olaraq çalınacaq, yoxsa aralarında müəyyən müddət fasilə olacaq? Əgər olacaqsa, bu fasilənin müddəti nə qədərdir? Cavab olaraq Quran ayələrindən istifadə edilir ki, birinci və ikinci sur arasında fasilə olacaq. Amma ara müddəti barədə Quranda bəyan olunmayıb. Nəql olunan hədislərə əsasən bu fasilənin müddəti qırx il olacaq. Məlum deyil ki, bu qırx il dünya müddətilə, yaxud axirət müddətilə hesablanır.

Bu suru çalan mələyin adı isə cənab İsrafildir(ə). Yəni Allah-təala bu işin görülməsini ona həvalə etmişdir. İsrafil(ə) süryani dilində “Abdullah” deməkdir və mənası isə “Allah bəndəsi”dir. Cənab İsrafil(ə) Allahın dərgahında Ona ən yaxın olan mələkdir. Allah-təala Adəmi yaradarkən mələklərə ona səcdə etməyi əmr etdi. Allahın bu əmrinə itaət edən ilk mələk də məhz cənab İsrafil(ə) olmuşdur.

Onun çaldığı surun (şeypurun) nə olduğu isə bizə bəlli deyil. Bunun nə olduğunu bilmək üçün bizə qiyamət gözü lazımdır. Çünki dünya gözü ilə onu görmək və başa düşmək qeyri-mümkündür. Amma bu barədə də hədis və rəvayətlər nəql olunmuşdur. Həmin hədislərdən birinə diqqət yetirək:

قَالَ رسولُ اللهِ(ص): اَلصور قَرنٌ مِن نورٍ فِيهِ أثقَاب على عددِ أرواحِ العِباد

-Həzrət Peyğəmbər(s) buyurur: "O sur elə bir şeypurdur ki, üzərində bütün bəndələrin ruhlarının sayı qədər dəlik var."

Bir nəfər İmam Zeynalabidindən(ə) soruşdu: "Qiyamət günü sur necə çalınacaq?" İmam(ə) buyurdu: "Allah-təala cənab İsrafilə(ə) yerə enmək əmri verəcək. Mələklər onun yerə enmək üçün hərəkət etdiyini gördükdə başa düşəcəklər ki, artıq qiyamət başlanır. Allah-təala yer və göy əhlinin ölümünü əmr etmişdir. (Çünki cənab İsrafilin(ə) yalnız bircə vəzifəsi var ki, o da sur çalmaqdır.) O, yerə enib suru çaldıqda bütün yer və göy əhli (bir neçə mələk istisna olmaqla) hamısı həlak olacaq."

Həmin şəxs deyir: "İmam Zeynalabidin(ə) bunları danışdıqdan sonra möhkəm ağladı."[1]

Bu hədisdən də açıq-aydın şəkildə görünür ki, hətta İmam Zeynalabidin(ə) kimi məsum bir insan da öz aqibətinə görə həyəcan keçirir. Sual oluna bilər ki, nə üçün hətta İmam(ə) belə öz aqibətinə görə həyəcan keçirir? Cavab belədir ki, hər bir insanın aqibətinin yaxşı olması Allahın fəzl və kərəmindən asılıdır. Heç bir kəs etdiyi ibadətlərinə söykənib arxalana bilməz. Biz etdiyimiz ibadətlərə deyil, Allahın kərəminə söykənməliyik. Bir bəndə olaraq öhdəmizə düşən vəzifə budur ki, Allahın buyurduğu vacib əməlləri yerinə yetirək, haram etdiyi işlərdən də çəkinək. Bundan əlavə, həm də hamımız Onun kərəminə, fəzlinə möhtacıq.

---

[1] Biharül-ənvar, 6-cı cild, səh. 324.

## 52-53-cü AYƏLƏRİNİN TƏFSİRİ

**قَالُوا يَا وَيْلَنَا مَن بَعَثَنَا مِن مَّرْقَدِنَا هَذَا مَا وَعَدَ الرَّحْمَنُ وَصَدَقَ الْمُرْسَلُونَ.٥٢. إِن كَانَتْ إِلَّا صَيْحَةً وَاحِدَةً فَإِذَا هُمْ جَمِيعٌ لَّدَيْنَا مُحْضَرُونَ.٥٣.**

**52. Onlar deyəcəklər: “Vay bizim halımıza! Bizi yatdığımız yerdən (qəbirdən) kim qaldırdı? Bu Rəhman Allahın məxluqata buyurduğu vəddir (qiyamət günüdür). Peyğəmbərlər doğru deyirlərmiş!”**

**53. Yalnız bir dəhşətli səs qopan (İsrafil axırıncı dəfə suru çalan) kimi onlar hamısı (haqq-hesab üçün) qarşımızda hazır duracaqlar.**

Birinci dəfə şeypur çalındıqda canlıların hamısı öləcək və bütün aləm sükuta qərq olacaq. Dünyadakı bütün səs-küylər yatacaq. Çünki dünyada səs-küy salan, aləmi bir-birinə qatan insandır. Günəş neçə milyard illərdir ki, öz yerindən çıxıb, öz yerində də batır. Ay və ulduzlar da eyni qaydada hərəkətdədirlər. Bəzi alimlər yazmışlar ki, göydə elə ulduzlar vardır ki, onların işığı 14 milyard ildən sonra yerə gəlib çatır. İnsan gözünü yumub bütün bu aləmi təsəvvür etdikdə heyran və mat-məəttəl qalır. Bütün bu əzəmətdə, bu böyüklükdə olan aləm çox dəqiqliklə və nizam-intizamla hərəkət edir. Onların heç biri nə vaxtsa müəyyən qanunauyğunluqdan kənara çıxmayıb. Onların heç biri zərrə qədər də olsa Allaha itaətsizlik etmir. Hər biri onun üçün müəyyən olunmuş qanunauyğunluqlar üzrə hərəkətdədir. Təkcə insandır ki, bütün aləmi bir-birinə qatır və gün ərzində dəfələrlə bu nizam-intizamı pozur.

Odur ki, şeypur birinci dəfə çalınarkən hamı öləcək və hər yer sükuta qərq olacaq. İkinci dəfə çalındıqda isə artıq hamı dirilib qiyamət səhnəsini görəcək. O zaman bir vaxt harada, indi isə harada olduğu yadına düşəcək. Buna görə də çox təəccüblə deyəcək: "Vay bizim halımıza! Bizi yatdığımız yerdən (qəbirdən) kim qaldırdı?"

Ayədə işlənmiş "mərqəd" sözü "yataq", yəni insanın "yatdığı yer" mənasını verir. Sual oluna bilər ki, nə üçün burada qəbrə "mərqəd" deyilmişdir? Məlum məsələdir ki, Quranda işlənən hər bir kəlmənin mənası və hikməti var. Bu ayədə qəbir ona görə "yataq yeri" adlandırılır ki, qiyamət səhnəsi çox qorxulu və dəhşətlidir. Yəni insan üçün qəbir və bərzəxin əzabları ondan çox-çox rahatdır. Qəbir sanki qiyamətin qorxu və dəhşəti ilə müqayisədə insan üçün bir yataqdır. Bu barədə hədislərin birində oxuyuruq: "Qiyamətin əzabı o qədər şiddətlidir ki, əgər cəhənnəmdə olan bir insanı gətirib bu dünyadakı təndirin içinə salsalar, orada elə rahat olar ki, bu rahatlıqdan hətta yuxuya da gedər."[1]

Deməli, qiyamətin əzabı o qədər şiddətlidir ki, insan qəbir əzabını onun yanında özünə yataq və istirahət yeri hesab edir.

Qiyamət baş verdikdə hamı dirilər və dəhşətli səhnəni gördükdə deyərlər: "Vay bizim halımıza! Bizi yatdığımız yerdən (qəbirdən) kim qaldırdı?"

Həmin ayənin ardı belədir: "Bu, Rəhman Allahın məxluqata buyurduğu vəddir (qiyamət günüdür). Və peyğəmbərlər doğru deyirlərmiş!" Bu ayənin birinci hissəsi hamıya aydındır ki, qəbirdən qalxıb qiyamət səhnəsini görənlərə şamildir. İkinci hissəsi barədə iki

---

[1] Yasin surəsinin təfsiri, Seyid Məhəmməd Ziyaabadi, səh. 213.

versiya irəli sürülmüşdür. Biri budur ki, onların cavabında mələklər belə deyəcək: “Bu, Rəhman Allahın məxluqata buyurduğu vəddir (qiyamət günüdür). Və peyğəmbərlər doğru deyirlərmiş!” İkincisi və daha çox ehtimal olunan versiya isə budur ki, elə onların özləri bu sözü deyərlər. Yəni qiyaməti inkar edənlər həmin gün qəbirlərdən qalxdıqda o dəhşətli səhnəni görüb “Vay bizim halımıza! Bizi yatdığımız yerdən (qəbirdən) kim qaldırdı?” - deyərlər. Bu sözün ardınca isə dərhal yadlarına düşər ki, həmin günün baş verəcəyini dünyada peyğəmbərlər xəbər vermişlər. Elə buna görə də yadlarına düşən kimi belə deyərlər: “Bu, Rəhman Allahın məxluqata buyurduğu vəddir (qiyamət günüdür). Və peyğəmbərlər doğru deyirlərmiş!”

Buna oxşar ayələr Quranın başqa surələrində də bəyan olunmuşdur. Məsələn, “Ənbiya” surəsinin 97-ci ayəsində oxuyuruq:

واقْترب الْوعد الْحق فَإِذَا هِي شاخِصةٌ أَبصار الَذِين كَفَروا يا ويلَنا قَد كُنا فِي غَفْلَةٍ من هذَا بلْ كُنا ظَالِمِين

-Haqq olan vəd (qiyamət) yaxınlaşar, beləliklə kafirlərin gözləri qəflətən (mənzərənin əzəmətindən və dəhşətindən) bərələr və hərəkətsiz qalar (və fəryad qopararlar ki:) “Vay olsun bizə ki, bu çətin (gün)dən qəflətdə olmuşuq; biz hətta zalım bir dəstə olmuşuq (və qəflətimiz öz zülmlərimizin nəticəsində yaranıb).”

Ümumiyyətlə, hər bir insan ölərkən bu dünyadan o biri dünyaya köçür. Yəni heç bir kəs elə düşünməsin ki, öldükdən sonra torpaq olub qurtaracaq. İnsan bu dünya ilə vidalaşıb o biri dünyaya gedir. Necə ki, bir ölkədən başqa ölkəyə gedərkən sərhədi keçdikdə artıq digər ölkəyə qədəm qoymuş olur. Eləcə də ruhu bədənindən çıxdıqda

dünyadan ayrılıb axirət aləminə gedir. Bu hal insan üçün ən çətin hallardan biridir. Hər kim əgər həm bu mərhələdən, həm də qiyamətin haqq-hesabından salamatlıqla keçə bilsə, əbədi olaraq rahatlıq əldə edəcək və səadətə qovuşacaqdır.

İmam Rza(ə) buyurmuşdur: "Hər bir insan üçün üç mühüm gün var. Sağlam bədən üzvləri ilə dünyaya gəldiyi gün; dünyadan gedərkən imanla qəbrə (bərzəxə) daxil olduğu gün; məhşərə daxil olub haqq-hesabdan və siratdan əmin-amanlıqla keçdiyi gün."[1]

Quranda iki peyğəmbərin bu üç günü ilə bağlı əmin-amanlıq vəd olunmuşdur. Onlardan biri Həzrət Yəhya(ə), digəri isə Həzrət İsa Peyğəmbər(ə) hesab edilir. "Məryəm" surəsinin 15-ci ayəsində Allah-təala Həzrət Yəhyanın(ə) barəsində belə buyurur:

وسلام عليه يوم ولد ويوم يموت ويوم يبعثُ حيا

-Salam və (hər bir qorxu və əzabdan) əmin-amanlıq olsun ona o gün ki, doğuldu, o gün ki, öləcək və o gün ki, diri(ldilərək) qaldırılacaq.

Yenə həmin surənin 33-cü ayəsində İsa Peyğəmbərin(s) dilindən belə bəyan olunur:

والسلام علي يوم ولدت ويوم أموت ويوم أُبعثُ حيا

-Salam olsun mənə o gün ki, doğuldum, o gün ki, öləcəyəm və o gün ki, diri(ldilərək) qaldırılacağam.

Sonrakı ("Yasin" surəsinin 53-cü) ayədə belə buyurulur: "Yalnız bir dəhşətli səs qopan (İsrafil(ə) axırıncı dəfə suru çalan) kimi onlar hamısı (haqq-hesab üçün) qarşımızda hazır duracaqlar." Allah üçün insanları yenidən diriltmək heç də çətin bir iş deyil. Bunun çətinliyi qiyamətə inanmayanlar üçündür ki, bu işin necə baş verəcəyinə təəccüb edirlər.

[1] Yasin surəsinin təfsiri, Seyid Məhəmməd Ziyaabadi, səh. 215.

Nə üçün diri olduqlarını görüb təəccüb etmirlər? Heç düşünmürlər ki, onları kim yaradıb? Bədən üzvlərinə baxıb onları kimin yaratdığı haqda fikirləşmirlərmi? İnsanın gözü kiçik bir su yığımından ibarətdir ki, hər şeyi onunla görür. Azacıq zədələndikdə isə görmə qabiliyyətini itirə bilər.

Görəsən, adicə bir qulaqda nə var ki, hamı səsləri eyni cür eşidir. Belə əzəmətli insanı bir damla murdar sudan yaradan kimdir? İlk dəfə Adəmi torpaqdan yaradan kimdir? Məgər bütün bu yaradılışın özü təəccüblü deyilmi? Təbiətə diqqət yetirdikdə saysız-hesabsız canlılara rast gəlirik. Alimlər ən kiçik canlı ilə böyük canlını müqayisə edərkən belə bir qənaətə gəlmişlər ki, Allah kiçik bir qarışqada nə yaradıbsa, eynilə fildə də onları yaratmışdır. Yəni fil kimi nəhəng bir heyvanda nə (ürək, böyrək, bağırsaq və s.) vardırsa, qarışqada da mövcuddur. Bütün bunlar yenilməz qüdrət sahibi olan Allahın qüdrətidir. İnsanı heç nədən yaradan Allah qiyamət günü onun çürümüş sümüklərini yarada bilməzmi? Əlbəttə ki, bu işləri görmək Onun üçün çox asandır.

Odur ki, ayədə işlənmiş "səyhə", "vahidəh", "iza" kəlmələri və "və hum cəmiun lədeyna muhzərun" ifadəsi qiyamətin sürətlə baş verməsinə dəlalət edir. Əgər belədirsə, insan bu dünyada nə iş görməlidir? Cavab budur ki, insan özünü həmin günə hazırlamalıdır. Əgər bir səslə bütün canlılar ölürsə, bir səslə hamı dirilirsə, dünyada yatıb qalmağın mənası nədir? Qiyamət günü mütləq baş verəcək və bütün insanlar məhşərə gələcək. Məgər insan düşünmürmü ki, dünyada həmin gün üçün başına bir çarə qılmalıdır? Allah-təala "Mömінun" surəsinin 115-ci ayəsində belə buyurur:

أَفَحَسِبتم أنما خلقْناكُم عبثًا وأنكُم إلينا لَا ترجعونَ

-Yoxsa güman edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və (bir də) heç vaxt Bizə tərəf qaytarılmayacaqsınız?

Bu dünya axirəti qazanmaq üçün bir fürsətdir. İnsan dünyanın həm gecəsini, həm gündüzünü qiyamət və axirət üçün bir fürsət bilməli, nə qədər ki sağdır, bu fürsəti əldən verməməlidir. Çünki öldükdən sonra heç bir kəsə möhlət və fürsət verilməyəcək. Hədislərdə belə nəql olunur ki, qış möminin baharıdır. Bu hədisin mənası belədir ki, qışda gecələr uzun olur. Mömin həmişə gecələr ibadətlə məşğul olar. Yaz gələndə bütün təbiət canlanır, torpaq və ağaclar yaşıllaşır. Bunun üçün heyvanlar daha çox sevinir ki, yerdə və ağacda bitən yaşıllıqlardan yeyib qarınlarını doyuracaqlar. Qışda isə gecələr uzun olduğundan mömin həm kifayət qədər yata bilir, həm də ibadət edərək kifayət qədər axirətini qazana bilir. Allaha uzun-uzadı səcdə edir, qaranlıqla ünsiyyətdə olur. Bilir ki, sonunda qaranlıqda qalacaq və buna görə də özünü ora üçün hazırlaşdırır.

Həzrət Loğman(ə) öz oğluna vəsiyyət edərkən belə buyurmuşdur:

يا بنيّ لا يكن الدِّيك أكْيس مِنك، ينادِي بالأسحار

-Övladım! Məbada, xoruz səndən zirək olsun və sən yuxuda olarkən səhər erkən oyansın və bağışlanmasını diləsin![1]

Həzrət Əlinin(ə) buyurduğu və təəccüb doğuracaq kəlamlarından biri belədir:

نِعم البيت الْحمام تذَكّر النار و يذهب بالدرن

Həzrət Əli(ə) buyurur: “Hamam necə də yaxşı bir evdir ki, cəhənnəmi xatırladır və bədənin çirkini təmizləyir.”[2]

---

[1] Yasin surəsinin təfsiri, Seyid Məhəmməd Ziyaabadi, səh. 179.
[2] Yenə orada, səh. 181.

Yəni insan hamamda qaynar suyu gördükdə cəhənnəmin hərarətini xatırlayır. Həmçinin hamamda bədənin təri, çirki və iyi yuyulub aradan gedir. Eləcə də insan bilməlidir ki, ruhun da təmizliyə ehtiyacı var. Ruhun təmizliyi gecəyarısı Allaha səcdə etməkdir. İnsanın ruhu Allaha səcdə etməklə göyə pərvaz edib paklaşır və yenidən qayıdır. Göydən yağan yağış suyu yerə düşdükdə torpağa qarışıb çirklənir. Yenidən buxarlanıb göyə qalxması ilə təmizləndiyi kimi, insanın ruhu da eləcə paklaşır. Gecəyarısı Allaha səcdə etmək, Onunla minacat etmək ruhun paklaşması deməkdir. Buna görə də insan həmişə özünə diqqət yetirməli, özünü yaddan çıxarmamalıdır. Əgər insan özünü yaddan çıxarsa və diqqətsizlik etsə, sel onu aparacaq və geri qayıtması mümkün olmayacaqdır.

Mərhum Əllamə Təbatəbayi deyir: “Mənim bir dostum var idi. O, çox yaxşı və gözəl bir insan idi. Onunla dost olmağımızın əhvalatı belədir: Bir gün Kərbəla ziyarətinə gedirdim. Avtobus yola düşməzdən əvvəl hamı öz yerini tutdu. Elə bu zaman cavan bir oğlan salamlaşıb mənim yanımda əyləşdi. Yolda onun hərəkətlərinə fikir verdikdə gördüm ki, çox diqqətcil bir insana oxşayır. Belə ki, hey zikr edir, namazı vaxtlı-vaxtında qılır, olduqca diqqətli idi və bir sözlə, özünü yaddan çıxarmırdı. Öz-özümə dedim ki, belə bir insanla tanış olmaq mənim üçün çox yaxşı olardı. Yavaş-yavaş onunla söhbət etməyə başladım. Söhbətimiz şirinləşdikdən sonra onun belə diqqətcil olmasına işarə etdim. O dedi:

-Mənim bu cür olmağımın bir səbəbi vardır. Dəmiryol idarəsində mühəndis işləyirəm və yaxşı imkanım və şəraitim var. Bir zamanlar bəzən gecələr dostlarımla əyləşib səhərə qədər eyş-işrət məclisi qururduq. Gecəni səhərə qədər şərab içib qumar oynamaqla keçirirdik. Mən

dindar olmasam da elə bir ailədə böyümüşəm ki, uşaqlıqdan dinə həmişə hörmətim olubdur. Dostlarımla yığışaraq şərab içib qumar oynadıqda bəzən ürəyimdən keçirdi ki, axı bizim bu əməlimiz Allaha xoş getmir. Gecələri səhərə kimi Allahdan qafil yaşayırdıq.

Günlərin birində gecəyarısı yenə də qumar oynamaqla məşğul idik. Yenə də ürəyimdə həmin fikirlər baş qaldırdı. Həmin otaqdan çıxıb yuxarı mərtəbədəki otağa keçdim. Neçə dəqiqə otağın bir küncündə tək-tənha oturub fikrə daldım. Gözlərim yaşla doldu və Allahla minacat edib dedim: "İlahi, Sənin məhzərində bu işləri görmək ayıbdır. Bilirəm ki, səhv yoldayam." Mən bu sözləri dilimə gətirəndən sonra dostlarımın yanına qayıtdım. Ertəsi günün axşamısı müdirlə birgə yolları nəzərdən keçirmək üçün qatara mindik. Qatarda müsafirlər çox idi. Bir qədər getdikdən sonra gördüm ki, nurani bir seyid bizə yaxınlaşır. O, bizə yaxınlaşdıqda mən onunla salamlaşdım. O da mənim salamımın cavabını aldıqdan sonra dayandı və dedi: "Çox istərdim ki, sizinlə bir neçə dəqiqə söhbət edim." Dedim: "Heç bir problem yoxdur. Nə vaxt istəsəniz, görüşüb söhbət edə bilərik." Onunla sabahısı gün günortadan sonra görüşəcəyimiz yeri müəyyən etdik. O da sağollaşıb getdi.

Biz müdirlə birgə nəzərdə tutulan işi görüb qayıtdıq. Müdir işlə əlaqədar olaraq mənə tapşırıq verdi. Göstəriş verdi ki, məntəqələrdən birinə baxış keçirim və hətta ola bilər ki, bir neçə gün də həmin məntəqədə qalım. Öz-özümə dedim: "Bu, çox pis oldu. Axı mən o seyidə söz vermişdim ki, onunla görüşəcəyəm." Bir tərəfdən də müdirin sözündən çıxmağım yaxşı deyildi. Bunu düşünə-düşünə evə gəldim. Sübh tezdən gördüm ki, özümü pis hiss edirəm. Halım yavaş-yavaş daha da pisləşirdi. İş o

yerə gəlib çatdı ki, mənim üçün təcili yardım da çağırdılar. Həkim gəlib məni müayinə etdikdən sonra evdəkilərə dedi: “Buna istirahət etmək lazımdır.” Həkim həmçinin bir resept də yazıb verdi və mən daha tapşırıq dalınca gedəsi olmadım. Mənim yerimə isə həmin məntəqəyə başqasını göndərdilər.

Günortaya yaxın gördüm ki, halım yaxşılaşır. Ayağa qalxıb gəzişməyə başladım və gördüm ki, tamamilə sağalmışam. Mən hiss etdim ki, burada nə isə bir sirr var. Mənə elə gəldi ki, xəstələnməyimin səbəbi mənim iş dalınca başqa bir məntəqəyə getməyimlə bağlı idi. Beləcə, mən günortadan sonra həmin seyidlə vədləşdiyimiz yerə getdim. Bir az onunla söhbət etdikdən sonra mənə açıq şəkildə dedi: “İstəyirəm ki, sənin əqidən düzəlsin.” Dedim: “Bu çox yaxşı olardı.” Sonra dedi ki, bunun üçün bizim bir neçə dəfə görüşməyimiz lazımdır. Mən onları sənə öyrətmək istəyirəm. Sənin əqidəndə bir neçə yerdə nöqsan var. Mən dedim ki, bəli, məndə bu kimi nöqsanlar vardır. Həmin gündən sonra mən onunla bir neçə dəfə görüşdüm və əqidəmdə olan nöqsanları düzəltdi. Bəzən də o, məndə olan və heç bir kəsin bilmədiyi xüsusiyyət və əməlləri belə söyləyirdi. Öz-özümə təəccüblənirdim ki, axı bu seyid bütün bunları haradan bilir?

Gecələrin birində yenə də dostlarımla oturub şərab içir və qumar oynamaqla məşğul idik. Sabahısı gün yenə də həmin seyidlə görüşdüm. Bu görüşdə o, mənə gecə nə etmişdimsə hamısını bir-bir söylədi. Sanki gecə səhərədək mənim yanımda imiş. Mən utanıb xəcalət çəkdim və həmin gündən sonra taleyim dəyişildi. Beləcə, bütün pis işlərə son qoyub dostlarımdan ayrıldım. Başa düşdüm ki, daha mənimki onlarla tutmayacaq. Çünki onların yolu ayrı, mənim yolum isə tamam ayrı idi. O gündən sonra öz

yolumu təyin etdim. Artıq haradan gəldiyimi, harada olduğumu və hara getdiyimi çox yaxşı bilirəm.”

Əllamə Təbatəbayi sonra dedi: “Bir neçə saatdan sonra gördüm ki, o, ağlaya- ağlaya salam verir. Soruşdum: Sənə nə oldu belə. O dedi: Biz artıq İraq torpaqlarına keçmişik. Soruşdum: Haradan bildin? Dedi: Salamları eşidirəm.”

Sonra mən sürücüdən harada olduğumuzu soruşduqda o dedi ki, sərhədi yenicə keçmişik.”

Bu əhvalatı danışmaqda məqsədim odur ki, əgər insan özünü yadından çıxarmasa, günahkarlara qoşulmasa, özünə fikir versə, haradan gəlib hara getdiyini başa düşsə, Allah da ona yardımçı olar və məqsədə salamat çata bilməsi üçün yolu onun üzünə açar.

## 54-cü AYƏSİNİN TƏFSİRİ

**فَالْيومَ لا تظْلَمُ نفْسٌ شيئًا ولا تجزونَ إلا ما كُنتم تعملُونَ.٥٤.**

**54. Və (belə deyiləcəkdir:) "Bu gün heç kəsə heç bir zülm olunmayacaq. Siz ancaq etdiyiniz əməllərin cəzasını çəkəcəksiniz!"**

Demək olar ki, bu ayə iki cümlədən ibarətdir. Birinci cümləsi "Bu gün (qiyamət günü) heç kəsə zülm olunmayacaq." İkinci cümləsi isə "Siz ancaq etdiyiniz əməllərin cəzasını çəkəcəksiniz! (Yaxud dünyada etdiyiniz əməlləri özünüzə qaytaracaqlar)." Yəni bu ayədə ikinci cümlə birinci cümlənin səbəbidir. Qiyamət günü heç bir kəsə zülm olunmayacaq və hər bir kəsə etdiyi öz əməlini verəcəklər.

Bu ayədə elmi bir mətləb vardır ki, o haqda söz açmaq yaxşı olardı. Həmin mətləbi sadə misallarla da olsa diqqətinizə çatdırıram. Bu, çox əhəmiyyətli bir mətləb olduğu üçün daha artıq diqqətə ehtiyac duyulur.

Həmin mətləb budur ki, insanın öz əməlinin özünə qaytarılmasından daha yaxşı bir ədalət ola bilərmi? Kimsə iddia etsə ki, bu pisdir, deməli, onun özü pisdir. Yox, əgər desə ki, bu yaxşıdır, deməli, onun özü yaxşıdır. Məsələn, bir nəfərə min manat əmanət verirlər. Səhərisi gün əmanət yiyəsi gəlib həmin verdiyi əmanəti geri istəyir. Əmanət tapşırılan şəxs də ona verilən həmin min manatı sahibinə qaytarır. Əmanət sahibi pulu aldıqda deyə bilərmi ki, nə üçün mənə min manat qaytarırsan? Axı bu azdır! Əlbəttə ki, deyə bilməz. Çünki o, min manat əmanət vermişdi və min manatı da ona qaytarırlar. Belə olduqda ona zülm olunmuşdurmu? Əlbəttə ki, ona zülm olunmayıb. Çünki nə qədər əmanət vermişdisə, onu da geri alır. İnsanın əməlləri də eynilə belədir. Hədislərdə bu barədə belə buyurulmuşdur:

إِنَّمَا هِيَ أَعْمَالُكُمْ تُرَدُّ إِلَيْكُمْ

-Həqiqətən, bu, sizin (dünyada etdiyiniz) əməllərdir ki, özünüzə qaytarılır.

Deməli, qiyamət günü insanın əməlini olduğu kimi (azaldıb-çoxaltmadan) özünə qaytarırlar. Əgər artırılacaqsa, bu sonradan Allahın fəzlindən ona əlavə olunacaq. Bu da başqa məsələdir ki, Allah şəfaət etmək üçün Həzrət Peyğəmbərə(s) icazə verəcək. Allahın fəzli və Həzrət Peyğəmbərin(s) şəfaətinin insanın şəxsi əməllərinə aidiyyəti çox azdır. Amma insana verilən cəza və ya mükafat dünyada etdiyi həmin pis, yaxud yaxşı əməllərə görə olacaqdır. Burada qeyd olunmalıdır ki, ərəb dilində "cəza" sözü Azərbaycan dilindən fərqli olaraq həm yaxşı işin mükafatına, həm də pis işin cəsasına deyilir. Azərbaycan dilində isə cəza yalnız pis işlərin cəzasına deyilir. Yəni Azərbaycan dilində yaxşı işin qarşılığında cəza sözü işlənmir. Amma Quranda və ərəb dilinin qrammatikasında yaxşı və pis işin qarşılığına cəza deyilir. Bunu deməkdə məqsəd odur ki, dini termində cəza deyildikdə həm yaxşı, həm də pis əməllərin nəticəsi nəzərdə tutulur.

### İki şübhə

Burada iki şübhə, yaxud sual vardır ki, onları qeyd etdikdən sonra cavablandırarıq. Birinci şübhə budur ki, qiyamət günü insanı cəzalandırmağın nə mənası vardır? Məsələn, dünyada bir insanı etdiyi pis işə görə tənbeh edərək cəzalandırırlar. Oğurluq və digər ictimai günahları edən bir insana cəza kəsilirsə, bunun dünyada ictimai və fərdi faydaları var. Birinci faydası budur ki, həmin şəxsin özünə dərs olar və bir daha bu kimi işləri görməz. İkincisi isə budur ki, başqaları da belə bir günahın cəzasının nə

olduğunu görüb ibrət götürər və həmin günahı etmək fikrinə düşməzlər. Üçüncü faydası isə budur ki, zülm olunmuş insanın ürəyi sakitləşər. Məsələn, oğru bir nəfərin pulunu oğurlayır. Həmin oğrunu tutub cəzalandırırlar. Əgər oğrunun oğurladığı pulu ondan alıb yiyəsinə geri qaytarmaq mümkün olmasa da belə onun tutulub cəzalandırılması ilə pulu oğurlanan şəxsin qəlbində bir rahatlıq yaranır.

Yaxud bir nəfər başqa birisinin uşağını döyüb ölümcül hala salır. Həmin uşağı xəstəxanaya yerləşdirirlər, döyən şəxsi isə tutub zindana salırlar. Cinayətkar tutulduğu üçün döyülən uşağın valideyninin ürəyi azca da olsa rahatlaşır. Ərəb dilində bu rahatlığa "təşəffiyi qəlb" ("qəlb rahatlığı") deyilir. Amma qiyamətdə belə olmayacaqdır. Yəni qiyamətdə kimisə cəzalandıranda onu tənbeh etmək məqsədi güdmürlər, çünki həmin şəxsin bundan sonra bir daha günah etmə imkanı yoxdur. Çünki orada istəsə də günah edə bilməyəcəkdir. Qiyamətdə günahkarı cəzalandırmaqla kiməsə ibrət dərsi verməyin heç bir mənası yoxdur. Həmçinin qiyamətdə bunun da mənası yoxdur ki, günahkarı cəzalandırmaqla zülm olunmuş kimsənin ürəyi sakitləşsin. Əgər həmin şəxs Allaha qarşı zülm etmişsə, Allah onu hər bir yerdə cəzalandıra bilər. Bu belədirsə, onda qiyamət günü insanları cəzalandırmağın mənası nədir?

İkinci şübhə isə budur ki, dünyada günahların öz cəzaları ilə uyğunluğu var. Məsələn, fərz edək ki, bir nəfər başqa bir şəxsi öldürmüşdür. Həmin qatilə cəza vermək üçün onu da öldürürlər. Yaxud bir nəfər oğurluq etdiyinə görə hansı əli ilə bu işi görübsə, müəyyən şərtlər əsasında həmin əlini də kəsirlər. Deməli, dünyada olan günahlarla verilən cəzalar bir-birinə uyğunlaşır. Amma axirətdə günahlarla cəzalar bir-birinə uyğun deyildir. Məsələn,

insan bu dünyada elə bir günah edə bilər ki, Quran və hədislərə əsasən onun bu günahı etdiyinə görə əbədi olaraq cəhənnəmdə qalması bəyan edilir. Burada da sual oluna bilər ki, əgər bir insan əlli il günah edibsə, nə üçün əbədi olaraq cəza çəkməyə məhkumdur? Əgər bir insan yetmiş il dünyada müşrik kimi yaşayıbsa, olmazmı ki, axirətdə də onun cəzası yetmiş il olsun? Bircə yalan danışmağın axirətdə cəzası yüz il cəhənnəmdir. Deməli, qiyamətin cəzası insanın etdikləri günahlara uyğun və münasib deyil.

**Şübhələrə cavab**

Qeyd olunan şübhələrin hər ikisinin mənbəyi bizim bu barədə fikir və düşüncələrimizin yanlış olmasıdır. Əgər bu məsələni dəqiq başa düşə bilsək, belə şübhələrə də heç bir vaxt yol verməzik. Bu da ondan irəli gəlir ki, biz axirət aləminə dünya gözü ilə baxırıq. Bunu da bilmək lazımdır ki, axirət aləminin gedişatı, nizam-intizamı, cəza və mükafatın verilməsi dünya ölçüsü ilə olmayacaq. Dünyada günah və cəza hərəsi bir şeydir. Məsələn, oğurluq bir günahdır və onun cəzası da əlin kəsilməsidir. Mümkündür ki, bunun biri olsun, amma digəri olmasın. Məsələn, dünyada nə qədər oğurluq hadisələri baş verir, amma çox yerdə oğrunun əli kəsilmir. Amma Ərəbistanda oğrunun əlini cəza olaraq kəsirlər. Nə üçün belədir? Çünki hərəsi ayrı-ayrı şeylərdir. Əgər hər ikisi bir şey olsaydı, hər bir yerdə eyni cür olardı. Deməli, oğurluq və onun cəzası iki əməldən ibarətdir. Yəni bu dünyada günah və cəza ayrı-ayrı əməllərdir, həmçinin günah edən və cəza verən də ayrı-ayrı adamlardır. Məsələn, tutaq ki, Zeyd adlı bir şəxs oğurluq etmişdir. Ona cəza verən hakimin adı isə Əmirdir. Belə olduqda cazalandırmanın fayda və uyğunluğu barədə

soruşmaq olar ki, oğrunun əlinin kəsilməsinin nə faydası var? Eləcə də bu cinayətlə cəzanın uyğunluğu nədədir? Məsələn, hakimdən soruşmaq olar ki, nə üçün oğrunun əlinin kəsilməsinə hökm verir və bu işlərin uyğunluğunun səbəbi nədir? Səbəbi budur ki, iki əməl və iki amil (əməl edən) var. Yəni oğurluq və cəza, oğru və hakim.

Amma axirətdə əməllərin cəzası dünyadakı kimi deyil. Orada günah cəzanın özüdür və iki ayrı-ayrı şeylər deyildir. Cəza verən də elə günah edənin özüdür. Yəni günah edənlə cəza verən bir şəxsdir. İnsan dünyada günah etdikdə həmin günah onun içində böyüyür, böyüyür və nəticədə onun özünə qaytarılır. Məsələn, bir nəfər bir xurma tumunu əkir və həmin tum cücərib neçə ildən sonra böyük bir ağaca çevrilir. Bu, o bəhərdir ki, həmin şəxs onu əkmişdir. Belə olduqda xurma tumunu əkən şəxs kimdən soruşa bilər ki, nə üçün bu tum belə bir bəhər vermişdir? Deyə bilərmi ki, axı balaca bir tumla bu böyüklükdə ağac arasında heç bir uyğunluq yoxdur? Beləcə, uyğun oldu-olmadı, bu, həmin şəxsin əməlinin nəticəsidir ki, onun özünə qaytarılır. Odur ki, nə bunların uyğunluğu haqda, nə də faydasının nə olduğu haqda bir şey soruşa bilməz. Çünki hər nə etmişsə, özü etmişdir və əməlinin nəticəsini də təbii olaraq görməlidir.

### Nəticə

Qeyd olunan iki mətləbin bir nəticəsi vardır. Həmin nəticə budur ki, dünyada yaşayan hər bir kəs bu aləmin qanunlarını yaxşıca öyrənməli və həmin qanunlar çərçivəsində yaşamalıdır. Məsələn, bir nəfər Almaniyaya gedir. Bu ölkənin özünəməxsus qanunları olduğundan orada rahat yaşamaq istəyirsə, mütləq oranın qanunlarını öyrənib riayət etməlidir. Məsələn, bir çox Avropa

ölkələrində yol kənarında, həyətdə və küçədə heyvan kəsməyə icazə yoxdur. Çünki həmin ölkələrdə heyvan kəsmək üçün xüsusi yerlər ayrılmışdır. Hər kim oradan başqa yerlərdə heyvan kəssə, deməli qanunsuz hərəkət etmişdir. Mərhum İmam Xomeyni(r) Fransaya gedərkən onun gəlişi ilə əlaqədar olaraq bir qoyun kəsib ətini də bişirdilər. Həmin ətdən İmamın(r) qarşısına da qoydular. İmam(r) soruşdu: "Bu qoyunu harada kəsmisiniz?" Dedilər: "Həyətdə." İmam(r) dedi: "Fransanın qanunlarına görə heyvan kəsilməsindən ötrü xüsusi yerlər ayrılıb. Odur ki, heyvanı həmin yerlərdən savayı başqa yerlərdə kəsmək qanunsuzluqdur. Bu qoyun kəsilərkən yaşadığım ölkənin qanununa etinasızlıq edilib. Ona görə də həmin heyvanın ətindən yeməyəcəyəm." Sonra İmam(r) pendirlə çörək yedi və həmin ətdən dilinə də vurmadı.

Odur ki, hər bir kəs xarici ölkələrə səfər edərkən ilk növbədə həmin ölkələrin qanunlarını öyrənməli və onlara əməl etməlidir. Belə olduqda həmin ölkədə qaldığı müddətdə onun üçün heç bir problem olmayacaqdır.

Eləcə də hər bir insan bu dünyaya gəldikdən sonra bu aləmin qanunlarını öyrənib onlara riayət etməli və həmin qanunlar çərçivəsində yaşamalıdır. Bu aləmi yaradan, insanı xəlq edən və qanunları müəyyən edən Allah onları hamıya elan etmişdir. Həmin qanunlara görə bu dünyada hər nə varsa, iki qurğudan ibarətdir, yəni bu dünyanın iki qurğusu var. Həmin qurğulardan biri insanı yaddaşa alır və yazıb qeyd edir. İkinci qurğu isə həmin yazılıb qeyd olunanı genişləndirir (inkişaf etdirir). Yəni insanın əməlini yaddaşa aldıqdan sonra həmin əməli inkişaf etdirməyə başlayır. Məsələn, insan əvvəlcə bir damla nütfədən ibarət olub. Dünyanın bu qanununa əsasən öncə həmin bir damla nütfə yaddaşa alınır. Yaddaşa alındıqdan sonra həmin

nütfə ana bətnində inkişaf etməyə, böyüməyə başlayır. Bu mərhələ başa çatdıqdan sonra dünyaya bir uşaq gəlir. Uşaq bu dünyaya gəldikdən sonra dünya onu da yaddaşa alır və inkişaf etdirərək böyüdür. Belə olduqda uşaq kimdən və nəyi soruşa bilər? Eləcə də insanın əməlləri, fikirləri, hətta əxlaqı belə yaddaşa alınır, inkişaf etdirilir və nəticəsini insanın özünə qaytarır. Nəticəsi də ölümdən sonrakı aləmdə ya cənnət olur, ya da cəhənnəm. Orada heç bir kəs insana zülm etmir. Deməli, insanın dünyada etdiyi öz əməlləridir ki, axirət aləmində özünə qaytarılır. Nütfə ana bətnində inkişaf edərək tədricən uşaq şəklini aldığı kimi, insanın etdiyi hər bir günah da eləcə böyüyür, inkişaf edir və onun özünə qaytarılır. Məsələn, insanın danışdığı bir yalan getdikcə böyüyür və axırda bir bəlaya çevrilir. Həmin bəla öz sahibini udmaq istədikdə deyə bilməz ki, mənə zülm olunur. Çünki bu bəlanın səbəbkarı və əmələ gəlməsi də elə onun özüdür. “Şura” surəsinin 20-ci ayəsində oxuyuruq:

من كَانَ يرِيد حرثَ الْآخِرةِ نزِد لَه فِي حرثِهِ ومن كَانَ يرِيد حرثَ الدنيا نؤتِهِ مِنها

-Kim axirət əkini istəsə (axirət məhsulu üçün əməl toxumu əksə) onun əkinini artırarıq və kim dünya əkini istəsə (əməli dünya məqsədi ilə etsə, Biz Öz yazımıza əsasən) ondan ona verərik.

Əgər bir insan arpa əkirsə, deyə bilərmi ki, mənə buğda verin? Yaxud deyə bilərmi ki, arpa əkdim, nə üçün buğda yetişmədi? Həmçinin deyə bilməz ki, bircə buğda dənəsi əkməklə 700 dənin cücərməsi uyğun deyil. Belə bir iddianı irəli sürən insana demək lazımdır ki, bu, aləmin qanunudur, bir dənə toxum alır və 700 dənə becərir.

Eləcə də axirətdə insana hər nə verirlərsə, təbiidir ki, öz əməlinin nəticəsidir. Əgər axirətdə birinə cəza verilirsə, heç kəsə deyə bilməz ki, mənə zülm olunur. Çünki onun bu dünyada etdiyi əməlləri özünə də qaytarılmışdır. Buna görə də ayədə buyurulmuşdur:

فَالْيومَ لَا تظْلَم نفْسٌ شيئًا ولَا تجزونَ إلا ما كُنتم تعملُونَ

-Və (belə deyiləcəkdir): "Bu gün heç kəsə heç bir zülm olunmayacaq. Siz ancaq etdiyiniz əməllərin cəzasını çəkəcəksiniz!"

Deməli, insanın bu dünyada etdiyi əməlləri yaddaşa alınmış, inkişaf etdirilmiş və qiyamət günü də onun özünə qaytarılmışdır. Bu proses aləmin qanunauyğunluğudur. Əgər hər kim qiyamət günü ona verilən cəzadan narazıdırsa, özünü qınamalı və heç bir kəsi təqsirkar hesab etməməlidir. Dünyada olarkən ona deyilmişdi ki, bu işləri etməməlisən. Əgər sözə baxmayıb öz bildiyini edibsə, axirətdə də həmin etdiyi əməllərini onun özünə qaytarırlar. Qiyamət günü heç bir kəsin yaxşı əməllərini zərrə qədər də olsa azaltmayacaqlar. Həmçinin heç bir kəsin pis əməlinə zərrə qədər belə nəsə artırılmaycaq. Burada yaxşı olar ki, bir hədisi də diqqətinizə çatdırım:

قَالَ رسولُ الله(ص): في قَولِ اللّهِ لآدم يوم القِيامةِ ـ : قُم عِند المِيزان فانظُر ما يرفَع إلَيك مِن أعمالِهم، فمن رجح مِنهم خيره على شرهِ مِثقالَ ذَرةٍ فلَه الجَنةُ؛ حتى تعلَم أني لا أُدخِلُ النار مِنهم إلاّ ظالِما

-Həzrət Peyğəmbər(s) buyurmuşdur: "Qiyamət günü Allah-təala Adəmə(ə) belə buyuracaq: "Tərəzinin yanında dayan və onların (insanların) əməllərindən sənə tərəf qalxanlara bax. Onlardan kimin yaxşılıqları pisliklərindən zərrə qədər ağır gəlsə, cənnət onundur. Bu, Mənim onların

heç birini nahaq yerə zülm səbəbindən cəhənnəmə aparmadığımı bilməyin üçündür.”[1]

Bu hədisdən də açıq-aydın məlum olur ki, cənnət və cəhənnəm insanın öz əməlinin nəticəsidir. Əgər kimsə cəhənnəmə gedəcəksə, onu ora aparan öz əməlləridir. Qiyamət günü heç bir kəsə zülm olunmayacaq. Hər bir kəs dünyada etdiyi öz əməllərinin nəticəsini görəcək. Əlbəttə, qeyd etmək lazımdır ki, insan can verərkən gözlərindən pərdələr götürülür. Belə olduqda dünyada etdiyi bütün əməllər gözü qarşısında təcəssüm olunur. Artıq o halda insan heç bir iş görə bilməyəcək. Orada insanın yalnız dünyada etdiyi əməllər öz rolunu oynayacaq. Məsələn, can verərkən insanın gözünə görünənlərdən biri də şeytandır. Şeytan Allahın düşməni olduğu üçün hər bir haldan istifadə edərək insanın imanını tamamilə əlindən almağa çalışır. Can verən insanın susuz və çətin halını fürsət bilib ona bir cam su göstərərək deyər: “İmanını ver, bu suyu sənə içirim.” Kimisi imanını verəcək, kimisi isə imanından dönməyəcək. Bu mübarizədə qələbə kiminlədir? Bunun meyarı insanın öz əməlləridir. Ürəyi haram və naməhrəm məhəbbəti ilə dolu olan belə bir insan can verərkən bu haram məhəbbət onu imansız halda dünyadan aparar. Əgər insan şeytanın təklifi ilə razılaşırsa, yenə də öz əməllərinin təsir və nəticəsidir. Buna görə də sağ ikən başına çarə qılmalı, qəlbini və bədən üzvlərini günahlardan təmizləməlidir. Əks təqdirdə çox pis və acınacaqlı aqibətlə üzləşəcək.

Qiyamət günündə də heç bir kəsin xeyir və yaxşı əməlləri zərrə qədər də olsa azaldılmayacaq. Həmçinin heç kimin pis əməllərinə də zərrə qədər bir şey əlavə olunmayacaq. Hər kəsə dünyada etdiyi əməlləri qaytarılacaq.

[1] Mizanül-hikmə, 14-cü cild, hədis - 21679.

Bu aləmin qanunu budur ki, heç bir şey yox olub aradan getməyəcək. Alimlər də bu qənaətə gələrək sübut etmişlər ki, heç bir yaranan yox olmur. Sadəcə olaraq bir haldan başqa bir hala çevrilir. İnsan elə düşünməməlidir ki, bir zaman yox olub aradan gedəcəkdir. Xeyr, bu aləmdə heç bir şey yox olmur.

İnsana dünyada başa salınıb ki, bu işi görmək olmaz. Əgər insan qulaq asmayıb öz bildiyini edirsə, həmin əməl yaddaşa alınır. Yaddaşa alındıqdan sonra yavaş-yavaş böyüyür və inkişaf edir. Həmin əməlin böyüməsi isə artıq onun ixtiyarında deyil. Məsələn, birisinin uşağı dünyaya gəlir, amma atası bu uşağa görə peşman olur. Deyir ki, mən bu uşağı istəmirdim. Bütün bu peşmançılığa və istəməməyə baxmayaraq, uşaq yavaş-yavaş böyüyür. Yəni uşağın böyüməsinin onun atasının peşmançılığına heç bir dəxli yoxdur. Atası min dəfə peşman olsa da belə uşaq böyüməkdədir. Bunu vaxtında düşünmək lazım idi. Eləcə də insanın etdiyi bütün əməllər, hətta bircə kəlmə yalan söz danışması da öz təsirini göstərir. Bircə kəlmə qeybət etmək və ya qeybət eşitmək belə insanın taleyinə çox pis təsir göstərir. Beləliklə, insanın dünyada etdiyi pis və yaxşı əməllərin hamısı tam xırdalıqlarına qədər yaddaşa alınır və qiyamət günü onun özünə qaytarılır.

Mərhum Ayətullah Mərəşi Nəcəfinin yaxın dostlarından birinin vaxtilə Həcc ziyarətinə yollandığını nəql edirlər. O zamanlar Həcc ziyarətinə gedib qayıtmaq uzun müddət vaxt aparırdı. Həmin şəxs hər il aşura günü evində ehsan süfrəsi açaraq məclis təşkil etdiyindən bu il də istəmirdi ki, bu məclis tərk olunsun. Özü aşura günü evində olmayacağından məclis üçün lazım olan hər bir tədarükü görmüşdü. Hətta məclisdə iştirak edənlər üçün tənbəki də alıb qoymuşdu. O zamanlar iki növ tənbəki

satılırdı. Birinci və ikinci növ tənbəki. Həmin şəxs deyir: “Mən ehsan üçün birinci növ yaxşı tütün almışdım. Evdə uşaqlara tapşırdım ki, məclisi həmişəki qayda ilə yola verin və aşbazımız Məşhədi Abbası da çağırarsınız, gəlib yeməyi bişirər. Bütün göstərişləri verib Həccə yola düşdüm.

Həcc mərasimi bitdikdən sonra geri qayıtdıq. Yolumuz İraqdan olduğu üçün aşura gününü Kərbəlada keçirdik. İmam Hüseynin(ə) qəbrini ziyarət edib əzadarlıq etdik. Gecəni orada əhya saxladığımız üçün yorulub hərəmin bir tərəfində yatdım. Yuxuda gördüm ki, İmam Hüseyn(ə) bir neçə nəfərlə birgə gəldi. Həzrətin(ə) yanında olanların əllərində dəftər-qələm var idi. İmam Hüseyn(ə) onları başa saldıqca, onlar da nəyisə qeyd edirdilər. Həmin günün əməllərini yazdıqdan sonra gördüm ki, İsfahanda bizim evimizə gəldilər və verilən ehsanın hamısını qeyd etdilər. Amma tənbəkini qeyd edəndə ikinci növ tənbəki yazdılar. Sonra Məşhədi Abbasın bu ehsanda bir kibrit çöpü verdiyini qeydə aldılar.

Elə bu vaxt yuxudan ayıldım və mat-məəttəl qaldım. Bu məsələ mənim ürəyimdə müəmma kimi qalmışdı. Səfərdən evə qayıdıb bir az söhbət edəndən sonra aşura günü məclisin necə keçdiyini soruşdum. Dedilər ki, hər şeyi çox gözəl və öz qaydası ilə yola verdik. Sən aldıqlarının hamısını ehsanda işlətdik və Məşədi Abbas da gəlib yemək bişirdi. Aldığım tənbəkini onlardan soruşanda dedilər: Aldığın tənbəkini sənin gəlməyin üçün saxladıq. Bazarda həmin tənbəkidən axtardıq, amma tapa bilmədik. Ona görə də ikinci növ tənbəki alıb aşura günü süfrəyə qoyduq.

Mən Məşhədi Abbası da çağırtdırdım və ondan hal-əhval tutdum. Sonra soruşdum ki, Məşhədi Abbas, bu

ehsanda özündən hansısa bir şey istifadə etmisənmi? Məşhədi Abbas dedi: “Xeyr, mən yalnız yemək bişirib getmişəm.” Dedim ki, bir az fikirləş, bəlkə yadına bir şey düşdü. Bəlkə öz cibindən bu ehsanda bir şey istifadə etmisən. O, bir az fikirləşib dedi: “Hə, ocağı qalamaq üçün uşaqlara dedim ki, mənə kibrit gətirin. Uşaqlar da kibrit tapa bilmədilər. Yadıma düşdü ki, cibimdə kibrit var. Öz-özümə dedim ki, İmam(ə) ehsanıdır, qoy, mən də bir kibrit çöpü yandırmaqla bu ehsanda iştirak edim.”

Onunla bu söhbəti edəndən sonra yuxumu orada danışdım və bildirdim ki, İmam(ə) yolunda hər nə ehsan olursa, hamısı yazılıb qeyd edilir. Hətta tənbəkinin neçənci növ olması və bircə kibrit çöpü də belə nəzərdən yayınmır.

Doğrudur, bu, həyatda baş vermiş yuxu və hadisələrdən biridir. Amma bundan daha dəqiq və mötəbərini Allah-təala Qurani-Kərimdə bizə buyurmuşdur. Belə ki, insanın zərrə qədər etdiyi yaxşı və pis işlərin hamısı qeyd olunur. Ona görə də hər bir kəs həyatda etdiyi hər bir əməlinin əvəzini görəcəkdir. “Zəlzələ” surəsinin 7-8-ci ayələrində oxuyuruq:

فَمن يعملْ مِثْقَالَ ذَرةٍ خيرا يره    ومن يعملْ مِثْقَالَ ذَرةٍ شرا يره

-Hər kim bir zərrə ağırlığında yaxşı iş görmüşsə, onu görəcəkdir. Və hər kim bir zərrə ağırlığında pis iş görmüşsə, onu da görəcəkdir.

Bu ayəni diqqətlə oxuduqda başa düşürük ki, insan dünyada etdiyi pis və yaxşı hər bir əməlini görəcəkdir. Ayədə deyilmir ki, əməlinin nəticəsini görəcək. Ayədə insanın etdiyi əməlinin özünü görəcəyi bəyan olunmuşdur. Yəni qiyamət günü insanın əməlini ona qaytaracaqlar. Beləliklə, əməlin böyüyüb ona qaytarılması xoşuna gəlməsə

də belə yenə də öz işidir. Necə deyərlər, nə əkibsə, onu da biçəcək. Bu aləmin qanunu belədir. Hər kim bu aləmdə yaşayırsa, buranın qanunlarını öyrənməli və qanun çərçivəsindən kənara çıxmamalıdır.

## 55-58-ci AYƏLƏRİNİN TƏFSİRİ

**إِن أصحاب الْجنةِ الْيوم فِي شغلٍ فَاكِهونَ.٥٥. هم وأَزواجهم فِي ظِلَالٍ على الْأَرائِكِ متكِؤونَ.٥٦. لَهم فِيها فَاكِهةٌ ولَهم ما يدعونَ.٥٧. سلَام قَولًا مِن رب رحِيمٍ.٥٨.**

**55. Həqiqətən, cənnət əhli bu gün keflə, əyləncə ilə məşğuldur.**

**56. Onlar (mömin kişilər) və zövcələri kölgəliklərdə (yumşaq) taxtlara söykənmişlər.**

**57. Orada onlar üçün (hər cür) meyvə və istədikləri hər şey vardır.**

**58. Rəhimli Allahdan (onlara) “salam” deyiləcəkdir**.

Bu mübarək ayələrdə Allah-təala cənnət əhlinin halını bəyan edir. Cənnət əhli orada o qədər şadlıq və keflə məşğul olacaqdır ki, bütün narahatedici məsələləri tamamilə yaddan çıxaracaqlar.

“Şoğl” sözü insan üçün baş verən və insanın fikrini özünə cəlb edən bir hadisəyə deyilir. Məsələn, bir nəfərə bir hadisə haqda xəbər verirlər və həmin şəxs harada olmasından asılı olmayaraq o hadisəni xatırlayıb fikrə dalır. İstər bu hadisə insanı xoşhal etsin, istərsə də qəmgin. Ancaq ayədəki bu sözün ardınca “fakihun” sözünün gəlməsindən məlum olur ki, onların başı yaxşı və gözəl işlərə qarışmışdır. Çünki “fakihun” sözü xoşhal, şad, gülərüz və təbəssümlü mənasındadır. Deməli, cənnət əhlinin orada başı şadlığa və gözəl hadisələrə elə qarışacaq ki, (dünyada, bərzəxdə, qiyamətdə gördüyü) bütün narahatedici və pis hadisələrin hamısını unudacaqdır. O qədər xoşhal olacaqlar ki, qəmginlik onlara təsir edə bilməyəcək. Hətta

qiyamətin vəhşətini də unudacaqlar. Əgər bu vəhşəti yaddan çıxarmasalar, həmişə qəmgin və narahat olarlar. Çünki o səhnə elə bir səhnədir ki, hər vaxt insanın yadına düşəndə onu vahiməyə salır. Behiştin şadlıq və əyləncələri isə bu səhnəni də insanın yadından çıxarır və onun bütün fikrini özünə cəlb edir.

Sonrakı (56-cı) ayədə belə oxuyuruq: "Onlar (mömin kişilər) və zövcələri kölgəliklərdə (yumşaq) taxtlara söykənmişlər." Bu ayədə işlənmiş "əzvac" sözünün mənası behişt xanımları, yaxud dünyadakı mömin xanımlardır. Bəzi hədislərdə belə nəql olunmuşdur ki, əgər mömin ər və arvad hər ikisi cənnətə daxil olsa, kim öz zövcəsini istəsə, orada onunla da birgə yaşaya bilər. Bəzi alimlər isə demişlər ki, mömin kişilərin cənnətdəki zövcələri dünyadakı zövcələri deyil. Çünki hər bir möminin öz əməli və cənnətdə öz dərəcəsi vardır. Belə olduqda onların zövcələri deyildikdə cənnətdəki zövcələri nəzərdə tutulur. Deməli, "əzvac" kəlməsində məqsəd xanımlardır: istər behişt xanımları olsun, istərsə də bu dünyadakı mömin xanımlar. Onlar cənnətdə kölgəliklərdə taxtlara söykənmişlər.

Buradan məlum olur ki, cənnətdə kölgə varsa, deməli, oranın özünəməxsus Günəşi də var. Çünki qiyamət baş verən zaman dünyanın Günəşi sönəcək. Yəni gördüyümüz bu aləmin Günəşinin, Ay və digər ulduzlarının funksiyası qiyamətə qədərdir. Cənnətin Günəşi isə tamamilə başqa cürədir. Bu barədə "İnsan" surəsinin 13-cü ayəsində oxuyuruq:

لا يرونَ فيها شمسا ولا زمهريرا

-Orada nə Günəş (qızmar isti), nə də sərt soyuq görəcəklər.

Yəni cənnətin havası belədir ki, orada insana nə isti olar, nə də soyuq. Oranın Günəşi var, amma narahatedici

deyildir. Həmçinin qiyamət gününün də özünəməxsus Günəşi var. Amma oranın Günəşi çox isti və yandırıcı olacaq. Hədislərdə belə nəql olunur ki, qiyamət günü istinin şiddətindən insanların beyni qaynamaq həddinə çatacaq. Orada bəzi insanlara ərşin kölgəsində daldalanmağa icazə veriləcək. Əlbəttə, oranın necə isti olacağı və Günəşi bizim dərkimizdən kənardır.

Beləliklə, 56-cı ayədə oxuyuruq ki, onlar (mömin kişilər) və zövcələri kölgəliklərdə (yumşaq) taxtlara söykənmişlər. Ayədə işlənmiş "əraik" kəlməsi "ərikə"nin cəm şəklidir və təfsirçilərin, eləcə də lüğət əhlinin dediklərinə görə gəlin otağındakı "taxt"a deyilir. "Zilal" kölgəliklər mənasındadır və behişt ağaclarının kölgəsidir. Bu taxtlar da həmin kölgəliklərin arasında qurulmuşdur. Sonrakı ayədə belə buyurulur: **"Orada onlar üçün (hər cür) meyvə və istədikləri hər şey vardır."** Biz cənnətin nemətlərini görmədiyimiz üçün ayələr də bu dünyada gördüklərimiz nemətlərlə bizi başa salır. Məsələn, nar, alma, müxtəlif meyvələr, çeşmələr, bağlar və s. kimi gördüyümüz nemətlərin adları çəkilir. Çünki biz bundan artıq oranın nemətlərini dərk edə bilmirik. Biz oranın nemətlərini ancaq gözümüzlə gördüyümüz nemətlər kimi təsəvvür edirik. Hər bir halda cənnət elə bir yerdir ki, oranın əhli hər nə istəsə, zəhmətsiz və rahat şəkildə əldə edə biləcəklər. "Zuxruf" surəsinin 71-ci ayəsində buyurulur:

وَفِيهَا مَا تَشْتَهِيهِ الْأَنفُسُ وَتَلَذُّ الْأَعْيُنُ وَأَنتُمْ فِيهَا خَالِدُونَ

-Orada onların nəfsləri (ürəkləri) istəyən və gözlərin ləzzət aldığı hər bir şey olacaqdır. Siz orada əbədi qalacaqsınız!

"Ənbiya" surəsinin 106-cı ayəsində cənnət əhli təsvir olunmuşdur. Alimlər demişlər ki, cənnət əhlinin ən gözəl təsviri bu ayədədir. Allah-təala belə buyurur:

وهم فِي ما اشتهت أنفُسهم خالِدونَ

-Onlar (Cənnətdə) ürəklərinin istədiyi (nemətlər) içində əbədi qalacaqlar.

Quranda cəhənnəm əhli barəsində də çoxlu ayələrə rast gəlirik. Amma alimlər demişlər ki, onların barəsində işlənən ən kamil və təsirli ibarə "Səbə" surəsinin 54-cü ayəsindədir. Allah-təala cəhənnəm əhli barəsində belə buyurur:

وحِيلَ بينهم وبين ما يشتهونَ

-Artıq onlarla istədikləri şey arasında əngəl törədilmişdir.

Yəni cəhənnəm əhlinin ürəkləri hər nə istəsə, istədikləri şey arasında maneə və əngəl yaranacaq. Heç bir vaxt ürəkləri istədikləri şeyləri əldə edə bilməyəcəklər.

Odur ki, cənnət əhli orada hər nə istəsə, onlar üçün hazır olacaq. Sonrakı 58-ci ayədə cənnət əhli barədə belə oxuyuruq: **"Rəhimli Allahdan (onlara) "salam" deyiləcəkdir."** Cənnətdə Allahın möminlərə mərhəmət etdiyi ən yaxşı əcr Onun tərəfindən "salam" deyilməsi olacaq. Cənnətin adlarından biri "darus-salam" "salamlar evi"dir. Orada müxtəlif növdə salamlar vardır. Bir növ salam mələklərin salamıdır ki, bu salam insanın ölüm anından başlanır. Yəni ölüm mələyi və digər mələklər pak və mömin insanın canını almağa gələrkən ilk növbədə salam verir. "Nəhl" surəsinin 32-ci ayəsində bu barədə oxuyuruq:

الذِين تتوفاهم الْملَائِكَةُ طَيِبين يقُولُونَ سلَام علَيكُم ادخلُوا الْجنةَ بِما كُنتم تعملُونَ

-O kəslər ki, mələklər onların canlarını pak olduqları halda alıb: "Sizə salam olsun! Etdiyiniz (gözəl) əməllərə görə cənnətə daxil olun!" – deyərlər.

Rəbiə ibn Kəb Həzrət Peyğəmbərin(s) səhabələrindən biri idi. O, yeddi il Həzrət Peyğəmbərə(s) qulluq etmişdi. Günlərin birində Həzrət Peyğəmbər(s) ona buyurdu: "Sən yeddi il zəhmət çəkib mənə qulluq etmisən. Bunun əvəzində məndən bir şey istəmirsənmi?" Rəbiə susdu və bir söz demədi. Həzrət Peyğəmbər(s) soruşdu: "Nə üçün danışmırsan?" Rəbiə ərz etdi: "Ya Rəsulallah, icazə verin bu haqda fikirləşim."

Səhərisi gün Həzrət Peyğəmbər(s) onu görüb soruşdu: "Rəbiə, fikirləşdinmi?" Rəbiə ərz etdi: "Bəli, ya Rəsulallah. Səndən xahişim budur ki, Allahdan qiyamətdə də, cənnətdə də sənin yanında olmağımı istəyəsən." Həzrət Peyğəmbər(s) buyurdu: "Bunu sənə kim öyrədib?" Rəbiə ərz etdi: "Ya Rəsulallah, özüm fikirləşmişəm. Gecə fikirləşdim ki, səndən mal-dövlət istəsəm, xərclənib axırda qurtaracaq. Düşündüm ki, ömrümün uzun olmasını istəsəm və yüz il də yaşasam, əvvəl-axır bu ömrün də sonu çatacaq. Buna görə də səndən əbədi və həmişəlik bir şey istəməyi qərara aldım. Ona görə də səndən xahişim budur ki, həm qiyamətdə, həm də cənnətdə sənin yanında olmağımı Allahdan istəyəsən." Həzrət Peyğəmbər(s) bir qədər sükut etdikdən sonra buyurdu: "Bu duanı sənin üçün edərəm. Amma sən də mənə bu işin həll olunmasında Allaha çoxlu səcdə etməklə kömək etməlisən."

Deməli, Allaha çoxlu səcdə edən və Allahın buyurduğuna riayət edərək yaxşı işlər görən, ruhunu təmizləyib paklaşdıran insan can verərkən mələklər onu salamlayar.

İnsana verilən salamlardan ikincisi yenə də mələklərin salamıdır. Amma bu salam ölüm anından əlavə olaraq cənnətə daxil olan zaman mələklər tərəfindən möminə verilir. Bu barədə "Rəd" surəsinin 24-cü ayəsində oxuyuruq:

وَالْمَلَائِكَةُ يَدْخُلُونَ عَلَيْهِم مِّن كُلِّ بَابٍ سَلَامٌ عَلَيْكُم بِمَا صَبَرْتُمْ فَنِعْمَ عُقْبَى الدَّارِ

-Mələklər də hər bir qapıdan (cənnət qapılarından) daxil olub (onlara): "(Dünyada Allah yolunda bütün çətinliklərə) səbir etdiyinizə görə sizə salam olsun! Axirət yurdu (cənnət) nə gözəldir!" – deyəcəklər.

Bir gün Həzrət Musa(ə) Allah-təala ilə minacat edərkən cənnətdəki dostunu özünə tanıtmağını istəyir. Allah-təala ona belə xitab edir: "Sənin cənnətdəki dostun filan məntəqədə qəssablıq edən gəncdir." Həzrət Musa(ə) o gəncin ardınca həmin məntəqəyə gəlib onu tapır. Bir neçə gün xəlvətcə həmin gənci izləməyə başlayır ki, hansı əməl nəticəsində belə böyük bir məqamı əldə etdiyini öyrənsin. Bu müddət ərzində onun üçün əhəmiyyətli olan və gəncdə belə bir məqama uyğun gələn bir əməl görə bilmir.

Günlərin birində axşamçağı həmin gənc iş yerini bağlayıb evə getmək istədiyi zaman Həzrət Musa(ə) özünü tanıtmadan ondan o gecə onu qonaq etməsini istəyir. Bu yolla bütün gecəni gəncin əməllərini izləməyi qarşısına məqsəd qoyur. Gənc Həzrət Musanın(ə) istəyini qəbul edib onu evinə aparır. Həzrət Musa(ə) evə girdikdə gəncin hər şeydən əvvəl yemək bişirdiyini, daha sonra evdə olan və əli-ayağı iflic qoca qadının yanına gələrək böyük bir səbir və şəfqətlə yeməyi loxma-loxma onun ağzına qoyaraq onu yedirdiyini, sonra paltarını dəyişdirdiyini, digər ehtiyaclarını aradan qaldırmasına kömək etdiyini, axırda da qadını xüsusi bir yerdə yatırtdığını görür. Gənc bütün bu işləri gördükdən sonra qadın oğlanın qulağına nəsə pıçıldayır. Həzrət Musa(ə) onun nə dediyini eşitmir.

Sonra oğlan gəlib qonağa qulluq etməyə başlayır. Həzrət Musa(ə) ondan soruşur: "Bu qadın kimdir və sən ona qulluq etdikdən sonra o, sənə nə dedi?" Oğlan dedi: "Bu qadın mənim anamdır və hər gün ona beləcə qulluq edirəm. Mənim onun üçün qulluqçu tutmağa imkanım olmadığından bütün işləri özüm görürəm. Hətta paltarlarını yumaq, altını təmizləmək və yeməyini yedizdirmək kimi işləri də özum edirəm. Onun mənim qulağıma dediyi sözə gəldikdə isə hər gün dediyi bir sözdür. Mən ona qulluq etdikdən sonra hər gün mənim üçün dua edərək Allaha belə deyir: "Allahım, bu xidmətlərin qarşılığında oğlumu cənnətdə Həzrət Musanın(ə) yanında yoldaş et."

Həzrət Musa(ə) buyurdu: "Allah-təala onun sənin barəndə etdiyi duanı qəbul edib. Mən də Onun peyğəmbəri Musayam(ə). Allahla minacat edərkən cənnətdəki dostumu mənə göstərməyi Ondan xahiş etdim. Allah da səni mənə göstərdi."

Bu rəvayəti söyləməkdə məqsəd odur ki, insan bu dünyada başını elə işlərlə qatmalıdır ki, axirəti üçün müsbət nəticə versin. Ola bilər ki, bu işlərdə çox çətinliklər, narahatlıqlar irəli çıxsın. Amma bütün bunların hamısına səbir, dözüm və təmkin lazımdır. Ata-anaya xidmət, vacib əməllərə riayət etmək, haramlardan çəkinmək səbir tələb edir. Buna görə də hədislərdə belə nəql olunur ki, səbir imanın başıdır. Başsız bədən olmadığı kimi, səbirsiz də iman olmaz. Dində hər bir əməl səbirlə hasil olur. Həm vacib əməlləri yerinə yetirmək, həm də haramlardan çəkinmək səbirlədir.

Üçüncü salam cənnətin ən yüksək və ali dərəcələrində olanların salamıdır. Bu barədə də "Əraf" surəsinin 46-cı ayəsində belə oxuyuruq:

وعلى الْأعرافِ رِجالٌ يعرِفُونَ كُلًّا بِسِيماهم ونادوا أَصحاب الْجنةِ أَنْ سلَام عليكُم

-Ərafın üstündə hər bir dəstəni simalarından tanıyan (məsumlar və Allahın övliyalarından olan) kişilər vardır. Onlar hələ daxil olmamış və (lakin daxil olmalarına) ümid bəsləyən cənnət əhlinə “Sizə salam olsun” (deyə) nida edərlər.

Dördüncü salam möminlərin cənnətdə bir-birini görərkən söylədikləri salamdır. “İbrahim” surəsinin 23-cü ayəsində belə buyurulur:

تحِيتهم فِيها سلَام

-Onların orada bir-birinə günaydınlıq verməsi: “Salam!” (demək) olacaqdır!

Amma bütün bu salamlardan ən mühümü və üstünü Allahın birbaşa vasitəsiz olaraq cənnətdə möminlərə verdiyi salamdır. İslamın əziz Peyğəmbəri(s) bu barədə belə buyurmuşdur: “Cənnətdəkilər nemətlər içərisində qərq olduqları zaman onların başı üstündə bir nur görünəcək. Bu nur Allahın nurudur. Bu zaman onlara xitab olunaraq deyiləcək: “Salam olsun sizə, ey cənnət əhli!”

Allahın lütf və mərhəməti onları elə cəzb edəcək ki, Allahdan başqa hər şeyi yaddan çıxaracaqlar. Hətta bu zaman behiştin maddi nemətləri də onların yadından çıxacaqdır.”[1]

Əlbəttə, bunu da qeyd edim ki, böyük alimlər, irfan əhli, ilahi şəxsiyyətlər dərin və geniş söhbətlər etmişlər ki, bu söhbət öz əhli üçündür. Qısaca bunu demək olar ki, doğrudan da sevimli olan Allahın cazibəsi və Onun

[1] Təfsiri-nümunə, 18-ci cild, səh. 419.

lütfünü görmək o qədər əziz və ləzzətlidir ki, onun bir anını belə dünyanın bütün nemətlərilə müqayisə etmək olmaz. Bu görüşün aşiqləri belədirlər ki, əgər bu eşq bir an onlardan ayrılsa, onların yaşayış və həyatı puç olar. Həzrət Əli (ə) bu barədə belə buyurmuşdur: ***"Əgər bir an Onun lütfündən uzaq düşsəm, canım çıxar."***[1]

[1] Təfsiri-nümunə, 18-ci cild, səh. 419.

## 59-60-cı AYƏLƏRİNİN TƏFSİRİ

**وامتازوا اليوم أيها المجرمونَ.٥٩. ألم أعهد إليكم يا بني آدم أن لا تعبدوا الشيطانَ إنه لكم عدو مبين.٦٠.**

**59. (Qiyamət günü günahkarlara belə xitab olunacaq:) “Ey günahkarlar! Bu gün (möminlərin və salehlərin cərgəsindən) ayrılın!”**

**59. Ey Adəm övladı! Məgər Mən (dünyada sizə: “Şeytana ibadət etməyin, o, sizin açıq düşməninizdir!” - deyə buyurmadımmı?**

Qiyamət baş verdikdə günahkarlara möminlərdən ayrılmaq əmri veriləcək. Dünyada bütün pis və yaxşı insanlar bir yerdə yaşayır. Hamı bu dünyanın havası ilə nəfəs alır, suyunu içir, torpağında bitən nemətləri yeyir. Bəzən pis insanlar özlərini yaxşı insanlar kimi qələmə verirlər. Pis insan olsa da özünü yaxşı insan kimi göstərməklə xalqı özünə inandırır. Dünyada bu kimi işlər mümkündür. Amma axirət isə belə deyil. Axirətdə pis yaxşıdan ayrılmalıdır. Cənnət əhli cənnətə, cəhənnəm əhli isə cəhənnəmdə olacaq. Bu dünyada milyonlarla pis, milyonlarla nəcib, şərif, əziz və kəramətli insanlar yaşayır. Amma axirətdə pislərlə yaxşılar heç vaxt bir yerdə yaşamayacaq. Əgər axirət dünyasında cəhənnəmdə axtarış aparsalar, görərlər ki, orada bircə nəfər də olsa yaxşı insan, həmçinin cənnətdə bircə nəfər də olsa pis insan yoxdur. Çünki qiyamət günü bütün pis insanlar yaxşılardan ayrılacaqlar. Ayədə işlənmiş “mucrimun” sözü dünyada günahkar, cinayətkar, ilahi qanunu pozan insanlardır. Allah-təala bu aləmi yaratmış və qanunlar müəyyən etmişdir. İnsanların vəzifəsi fərdi və ictimai olaraq ilahi qanunları

qəbul etmək və onların çərçivəsində yaşamaqdır. Buna görə də qiyamət günündə qanunları pozanlara qanunlara riayət edənlərdən ayrılmaq əmri veriləcəkdir. Odur ki, Allah-təala belə buyurur: **“Qiyamət günü günahkarlara belə xitab olunacaq: “Ey günahkarlar! Bu gün möminlərin və salehlərin cərgəsindən ayrılın!”**

Quranda qiyamətin müxtəlif adları çəkilmişdir. Təəccüblüsü odur ki, bir ayədə qiyamətin adını “cəm”, “cəmləşmək”, digər ayədə isə “fəsl”, “ayrılmaq” bəyan edir. Məsələn, “Təğabun” surəsinin 8-ci ayəsində oxuyuruq:

يوم يجمعكم لِيومِ الْجمع

-Elə bir gündə dirildiləcəksiniz ki, sizi toplanma günü üçün cəm edəcəklər.

“Vaqiə” surəsinin 49-50-ci ayələrində oxuyuruq:

قُلْ إِن الْأولين والْآخِرين. لَمجموعونَ إِلَىٰ مِيقَاتِ يومٍ معلُومٍ

-De: “Şübhəsiz, əvvəlkilər də, sonuncular da mütləq məlum günün (qiyamətin) vəd yerinə tərəf toplanılacaqlar.”

Bu ayələrdə görürük ki, qiyamət günü bütün insanların bir yerə toplaşıb cəm olduqları bir gündür. Həmçinin digər ayələrdə qiyamət gününün ayrılıq günü olduğu bəyan edilir. Məsələn, “Nəbə” surəsinin 17-ci ayəsində oxuyuruq:

إِن يوم الْفَصل كَانَ مِيقَاتا

-Həqiqətən, hökmetmə və ayrılma günü vəd olunmuş bir vaxtdır.

“Mursəlat” surəsinin 38-ci ayəsində belə buyurulur:

هٰذَا يوم الْفَصل جمعناكُم والْأَولين

-Bu, sizi də, sizdən əvvəlkiləri də hamılıqla bir yerə topladığımız, mühakimə və (yaxşıları pislərdən) ayırma günüdür.

Deməli, qiyamət günü həm cəm olub toplaşma, həm də ayrılıq günüdür. Əvvəldən axıradək bütün insanlar məhşərdə cəm olduqdan sonra ayrılacaqlar. O gün qohum, qardaş, dost hamısı bir-birindən ayrılacaq. Qardaşlıq, valideynlik, övladlıq, dostluq və s. münasibətlər dünya meyarıdır. Axirətdə bu meyarların heç birinin rolu olmayacaq. Axirətin meyarı imandır. Təsbeh sapı dənələri bir-birinə bağlayıb cəm etdiyi kimi, axirətdə də insanlar iman vasitəsilə bir-birinə yaxın olacaqlar. İman və təqva təsbehin həmin sapına bənzəyir ki, insanları axirətdə bir-birinə mehriban edərək cəmləşdirir. “Möminun” surəsinin 101-ci ayəsində belə oxuyuruq:

فَإِذَا نِفخ ِفي الصورِ فَلَا أنساب بينهم

-Beləliklə, sur çalınanda həmin gün onların arasında bir bağlılıq və qohumluq olmaz.

Qiyamət elə bir gündür ki, o gün mömin kafirdən, fasiq qeyri-fasiqdən, münafiq qeyri-münafiqdən ayrılacaq. Orada daha bu dünyadakı kimi hamı bir yerdə olmayacaq. O gün güllərin tikan və alaqlardan ayrılan günüdür. Qiyamət günü Nuhun(ə) oğlu öz atasından, Firon öz həyat yoldaşından, Əbu Ləhəb Həzrət Peyğəmbərdən(s) ayrılacaq. Onların qohumluq əlaqəsi dünyada idi. Lakin axirətdə iman olmadan heç bir qohumluqdan söz gedə bilməz. Orada insanlar öz əməllərinə uyğun şəkildə bir-birindən ayrılacaqlar. Yəni yaxşı əməli ağır gələnlər bir tərəfə, yüngül gələnlər isə başqa tərəfə aparılacaq. Gülləri gülxanaya, tikanları isə zibilliyə aparırlar. Allah-təala “Qariə” surəsinin 2-9-cu ayələrində belə buyurur:

فَأما من ثَقُلَت موازِينه. فَهو ِفي عِيشةٍ راضِيةٍ. وأما من خفت

موازينه. فَأُمه هاوِيةٌ

-Amma ölçülmüş əməlləri ağır və dəyərli gələn (əqidə və əməlləri gözəl olan) kəs razı qalacağı (xoş) bir güzəran içində olacaqdır. Lakin ölçülmüş əməlləri yüngül və dəyərsiz gələn (əqidə və əməlləri fəsadlı olan) kəsin isə məskəni və pənah yeri Haviyə olacaqdır.

Həmçinin "İnfitar" surəsinin 13-14-cü ayələrində belə buyurulur:

إِن الْأَبرار لَفِي نعِيمٍ. وإِن الْفُجار لَفِي جحِيمٍ

-Şübhəsiz, yaxşı əməl sahibləri (axirətdə) bolluca nemət içində olarlar. Və şübhəsiz, pis əməl sahibləri isə odlu cəhənnəm içində olarlar.

Odur ki, qiyamət günü günahkarlara möminlərdən ayrılmaq əmri veriləcək.

## Allahın insanlardan aldığı vəd və bağladığı əhd-peyman

"Yasin" surəsinin 60-cı ayəsində Allah-təala Adəm övladları ilə bağladığı bir əhd-peyman barədə söz açaraq belə buyurur:

أَلَم أَعهد إِلَيكُم يا بنِي آدم أَن لا تعبدوا الشيطَانَ إِنه لَكُم عدو مبِين.

-Ey Adəm övladı! Məgər Mən dünyada sizə: "Şeytana ibadət etməyin, o, sizin açıq düşməninizdir!"- deyə buyurmadımmı?

Burada iki mətləbə işarə etmək istəyirəm. Biri budur ki, Allah bu vədi insandan harada almışdır? İkincisi isə budur ki, o vəd nədir? Bu iki suala cavab verməzdən əvvəl Allahın insanla əhd-peyman bağlayaraq vəd alması haqda bir-iki kəlmə qeyd etmək yerinə düşərdi. Əvvəla, Allahın

insanla əhd-peyman bağlaması həm bu ayədə, həm də başqa ayələrdə açıq-aydın bəyan olunmuşdur. Məsələn, "Bəqərə" surəsinin 40-cı ayəsində başqa bir ibarə ilə belə buyurulur:

وَأَوْفُواْ بِعَهْدِي أُوفِ بِعَهْدِكُمْ

-Mənim əhd-peymanıma vəfalı olun ki, Mən də sizin əhd-peymanınıza vəfalı olum.

İmam Sadiq(ə) bu barədə belə buyurur:

إن العبد إذا دعا اللّهَ تبارك و تعالى بِنيةٍ صادِقةٍ و قلبٍ مخلِص أُستجيب له بعد وفائِهِ بِعهدِ اللّهِ عز وجلّ

-Həqiqətən, bəndə saf niyyət, pak qəlb, xalis niyyətlə Allaha yalvarıb dua etsə, Allah onun duasını müstəcab edər. Bir şərtlə ki, Allahla bağladığı əhd-peymanında vəfalı olsun.

Deməli, əgər insan Allaha verdiyi sözə və Onunla bağladığı əhd-peymana vəfa etməsə, Allah onun duasını qəbul etməz. Allah insanla əhd-peyman bağlayıb. İnsan bağladığı əhd-peymanı və verdiyi sözü yaddan çıxarıb Allaha nə qədər yalvarsa da belə bunun bir faydası olmayacaq. Əgər insan Allaha verdiyi sözə əməl etsə, duaları qəbul, hacətləri rəva, dünya və axirəti cənnət olar. Buradan belə çıxır ki, bu iş çox ciddi bir məsələdir. Allah-təala Öz sözünün üzərində möhkəm dayanmışdır.

Bura qədər bildik ki, Allah bizimlə əhd-peyman bağlamış və bizdən söz almışdır. Nə qədər ki, insan verdiyi sözə əməl etməyib bağladığı əhdi pozursa, Allahdan (dualarının qəbul olunmasını və yaxud başqa) bir şey gözləməsin.

Yuxarıda qeyd olunduğu kimi, burada qarşıya çıxan birinci sual budur ki, Allah harada bizdən vəd almış və

əhd-peyman bağlamışdır? Bu sualın cavabında bir neçə fikir irəli sürülmüşdür.

**Birinci fikir:**

Bu ondan ibarətdir ki, biz yaranmamışdan və dünyaya gəlməmişdən əvvəl Zərr (ruhlar aləmi) aləmində Allah bizdən söz almışdır. Hamı yekdilliklə əhd- peymana sadiq qalacağına söz vermişdir. Allah söz aldıqdan sonra ruha bədən vermiş və insanı bu dünyada yaratmışdır. Xəbərdarlıq da etmişdir ki, dünyaya gəldikdən sonra verdiyi sözu yaddan çıxarmamalıdır.

**İkinci fikir:**

İkincisi budur ki, Allahın ruhlar aləmində bizdən söz almasını deməyə ehtiyac yoxdur. Çünki Allahın yaratdığı bu aləmdə və təbiətin qanununda həmin məsələ mövcuddur. Allah bunu da digər fitri istedadlar kimi insanın fitrətində müəyyən etmişdir. Allahı dərk etmə, mənəviyyat və s. kimi instinktlər insanın fitrətində mövcuddur. Heç bir vaxt insanı fitrətindən ayırmaq mümkün deyil. Məsələn, Lenin, Stalin kimi böyük cinayətkarlar və qəddarlar bu işi görməyə çox çalışdılar, milyonlarla insanı qətlə yetirdilər, amma istəklərinə nail ola bilmədilər. Çox insan qorxusundan dilinə Allah kəlməsini gətirə bilmirdi. Amma ürəklərdə Allah xofu və məhəbbəti həmişə yaşayırdı. Çünki mənəviyyat, mənəvi dəyərlər insanın ayrılmaz tərkib hissəsidir. Onu heç bir kəs insanın əlindən ala bilməz.

Allah insanın fitrətinə mənəviyyatı bəxş etdiyi kimi, təkvini aləmdə həmin fitrətdə də bizdən söz alaraq əhd-peyman bağlamışdır. Yəni Adəm övladları nütfə şəklində atalarının sülbündən analarının bətninə düşərkən onlara tövhidi dərk etmə istedadı verilmiş və fitrətlərində zati hisslər qoyulmuşdur.

İkinci sual budur ki, görəsən, Allah bizdən hansı vədi almış və bizimlə nə barədə əhd-peyman bağlamışdır?

Cavab olaraq demək olar ki, Allah-təala bizdən hansı vədi alması və hansı əhd-peymanı bağlamasını Özü bəyan etmişdir. İlk növbədə Allah tövhid barədə bizimlə əhd-peyman bağlayıb. "Əraf" surəsinin 172-ci ayəsində belə buyurulur:

أَلَست بِربكُم قَالُواْ بلَى

-Mən sizin Rəbbiniz deyiləmmi? Onların hamısı dedilər: Bəli.[1]

Deməli, istər ruhlar aləmində, istərsə də fitrət aləmində insanlar Allaha söz vermişlər ki, Allah onların rəbbidir və dünyaya gəldikdən sonra yalnız Ona ibadət edəcəklər.

Allahın insanlardan aldığı ikinci söz və bağladığı əhd-peyman şeytana ibadət etməməkdir. Yəni insanlar Allaha söz vermişlər ki, dünyaya gəldikdən sonra şeytana ibadət və pərəstiş etməyəcəklər. Bu barədə "Yasin" surəsinin 60-cı ayəsində belə buyurulur:

أَلَم أَعهد إِلَيكُم يا بنِي آدم أَن لا تعبدوا الشيطَانَ إِنه لَكُم عدو مبِين

-Ey Adəm övladı! Məgər Mən dünyada sizə: "Şeytana ibadət etməyin, o, sizin açıq düşməninizdir!"- deyə buyurmadımmı?

Allahın insanlarla bağladığı üçüncü əhd-peyman bununla bağlıdır ki, Onun göndərdiyi peyğəmbərlər və onların canişinləri ilə düşmənçilik və müxalifətçilik etməsinlər.

قالَ الباقِر(ع) فِى قَولِهِ تعالى: وأَوفُواْ بِعهدِي أُوفِ بِعهدِكُم قَالَ:

---

[1] Əraf surəsi, 172-ci ayə.

أوفُوا بِولايتِ علِى ابنِ أبى طالِب(ع) أوفِ لَكُم بِالْجنة

-Həzrət İmam Baqir(ə) buyurur: “Allah-təalanın buyurduğu “Mənim əhd-peymanıma vəfalı olun ki, Mən də sizin əhd-peymanınıza vəfalı olum” ayəsinin mənası budur ki, siz Əli ibn Əbi Talibin barəsində verdiyiniz sözə əməl edin, Mən də sizə vəd etdiyim cənnəti bəxş edim.”

İbn Abbas deyir: "أوفُوا بِعهدِي أوفِ بِعهدِكُم " – “Mənim əhd-peymanıma vəfalı olun ki, Mən də sizin əhd-peymanınıza vəfalı olum” ayəsi nazil olanda mən də Həzrət Peyğəmbərin(s) hüzurunda idim. Həzrət(s) bizə buyurdu: “Həzrət Adəm(ə) dünyadan gedərkən öz vəsisi (sonuncu oğlu) Şiysi camaata vəsiyyət edərək belə dedi: Mənə söz verin ki, məndən sonra vəsimə tabe olub, ona itaət edəcəksiniz. Camaat söz verib əhd-peyman bağladı. Lakin Adəmdən(ə) sonra öz vədlərinə əməl etmədilər. Həzrət Nuh Peyğəmbər(ə) dünyadan gedəndə camaata öz vəsisi olan Samı tapşırdı və camaatdan söz aldı. Lakin Nuh Peyğəmbər(ə) dünyasını dəyişəndən sonra camaat vədinə xilaf çıxdı. Həzrət İbrahim(ə) oğlu İsmayılı vəsi təyin edib, camaatdan ona itaət etmək barədə vəd aldı. Lakin təəssüflər olsun ki, İbrahim(ə) dünyasını dəyişəndən sonra camaat öz vədinə vəfa etmədi. Həmçinin Musa Peyğəmbər(ə) Yuşə ibn Nunu və İsa Peyğəmbər(ə) Şəmunu özündən sonra vəsi təyin etdilər və camaatla əhd-peyman bağladılar ki, onların vəsilərinə itaət etsinlər. Lakin onlar da dünyadan gedəndən sonra camaat bağladığı əhd-peymana xilaf çıxdı.”

İbn Abbas deyir: “Sonra Həzrət Peyğəmbər(s) belə buyurdu:

وقَد عهدت اِلى اُمتى فِى عِلى ابنِ اَبى طاِلب
وإنى مجدد عهدِى فِى عِلى اِبنِ اَبى طاِلب فَمن نكَثَ فَإنما
ينكُثُ على نفْسِهِ و من اَفى بِما عاهدالله فَسيؤتيهِ اَجراً عظِيماً

-Mən də Əli ibn Əbi Talib barədə sizinlə əhd bağladım. Bu gün Əlinin barəsində sizinlə öz əhdimi bir daha təzələyirəm. Hər kəs bağladığı əhd-peymanını sındırarsa, özünü sındırmışdır. Hər kəs Allaha verdiyi vədinə vəfalı olsa, Allah ona tezliklə böyük əcr inayət edəcək.[1]

Həzrət Peyğəmbər(s) "Saffat" surəsinin 24-cü ayəsini (وقِفُوهم إِنهم مسئُولُونَ "Onları yubadıb saxlayın! Çünki (onlar) sorğu-sual olunacaqlar."- oxuduqdan sonra buyurur: "Qiyamət günü Mən və Əli sirat körpüsünün üstündə dayanacağıq. İnsanlar bir-bir oradan keçən zaman onlardan Əlinin(ə) vilayəti haqda sorğu-sual edəcəyik. Hər kəs dünyada Əlinin(ə) vilayətini qəbul etmişsə, körpüdən rahat keçib gedəcək. Hər kəs dünyada Əlinin(ə) vilayətini qəbul etməyibsə, onu oradan geri qaytaracaqlar."

**Üçüncü fikir:**

Quran ayələrinə əsasən qeyd olundu ki, Allah-təala insandan vəd alıb və əhd-peyman bağlamışdır. Bu barədə belə bir sual qoyuldu ki, Allah insandan harada və nə vaxt bu vədi almışdır? Qeyd etdik ki, bu sualın cavabında bir neçə fikir vardır. Həmin fikirlərdən biri Zərr (ruhlar) aləmində, ikincisi isə insanın atasının sülbündən nütfə şəklində ana bətninə düşərkən instinkt (fitri) olaraq təkvin aləmində vəd almış və əhd-peyman bağlamışdır. Əlbəttə,

[1] Quranda əxlaq, səh. 419.

burada təkvin aləmi barədə geniş elmi söhbət də etmək olar. Lakin bu mətləb çox geniş və dərin olduğundan və bizim əsas bəhsimizdən uzaq düşməmək üçün burada qısaca olaraq sözügedən məsələyə toxunduq.

Üçüncü fikir budur ki, Allah insana ağıl vermişdir. Hər bir insan öz ağlı ilə bu məsələni müəyyənləşdirə bilər. Yəni ağlı olan bir varlığa hər bir şeyi deməyə ehtiyac yoxdur. Çünki insan çox məsələləri öz ağlı ilə düşünüb dərk edə bilir. İnsan Allah tərəfindən ona verilən ağıl vasitəsilə başa düşə bilir ki, şeytana itaət etməməlidir. Sual oluna bilər ki, insan bunu necə başa düşür? Cavab belədir ki, insan Qurani-Kərimi oxuyarkən burada "şeytan sizin açıq-aşkar duşməninizdir" fikrinə rast gəlir. Allah-təala bu müqəddəs Kitabın ayələrində çox aydın şəkildə və təkidlə şeytanın insana düşmən olduğunu bəyan edir. Bununla da insan öz ağlı ilə başa düşür ki, məsələ çox ciddidir. Allah insana düşmənini tanıtdırır. Belə olduqda ağıl insana göstəriş verir ki, düşməndən uzaq olmalı və dosta pənah aparmalıdır. Uzun sözün qısası belədir ki, insan Allahın şeytan barədə buyurduğu kəlamları oxuduqda başa düşür ki, şeytan onun açıq-aşkar düşmənidir. Allah-təala Quranda bir neçə yerdə şeytanın əhvalatını bizə bəyan edir. Nümunə üçün "Sad" surəsinin 71-85-ci ayələrinə diqqət yetirək:

إِذْ قَالَ ربك لِلْمَلَائِكَةِ إِني خالِق بشرا مِن طِينٍ. فَإِذَا سويته ونفَخت فِيهِ مِن روحِي فَقَعوا له ساجِدِين. فَسجد الْملَائِكَةُ كُلهم أَجمعونَ. إِلا إِبلِيس استكْبر وكَانَ مِن الْكَافِرِين. قَالَ يا إِبلِيس ما منعك أَن تسجد لِما خلَقْت بِيدي أَستكْبرت أَم كُنت مِن الْعالِين.

قَالَ أنا خير منه خلَقْتِني مِن نارٍ وخلَقْته مِن طِينٍ. قَالَ فَاخرج مِنها فَإنك رجِيم. وإن علَيك لَعنتي إلَى يومِ الدينِ. قَالَ رب فَأَنظِرنِي إلَى يومِ يبعثُونَ. قَالَ فَإنك مِن الْمنظَرين. إلَى يومِ الْوقْتِ الْمعلُومِ. قَالَ فَبِعزتِك لَأُغْوِينهم أجمعِين. إلا عِبادك مِنهم الْمخلَصِين. قَالَ فَالْحق والْحق أقُولُ. لَأملَأن جهنم مِنك ومِمن تبِعك مِنهم أجمعِين

-(Ya Peyğəmbər!) Xatırla ki, o zaman sənin Rəbbin mələklərə belə demişdi: “Mən palçıqdan (torpaqdan) bir insan (Adəmi) yaradacağam. Mən onu tamamlayıb (insan şəklinə salıb) Öz ruhumdan (Özümün yaratdığım ruhdan) üfürən (can verən) kimi ona səcdə edin!” Beləliklə, mələklərin hamısı (Adəmə) səcdə etdilər. Yalnız iblisdən başqa! O, (səcdə etməyə) təkəbbür göstərdi və (dönüb) kafirlərdən oldu. (Allah) buyurdu: “Ey iblis! Sənə Mənim öz əlimlə (vasitəsiz olaraq Öz istəyimlə) yaratdığıma səcdə etməyə nə mane oldu?” Təkəbbür göstərdin, yoxsa özünü yuxarı tutdun?” (İblis) Dedi: “Mən ondan daha yaxşıyam. Çünki məni oddan, onu isə gildən yaratmısan.” (Allah) buyurdu: “Belə isə oradan (göylərdən, mələklərin içindən və ilahi dərgaha yaxınlıq məqamından) xaric ol ki, sən həqiqətən qovulmuşsan! Və şübhəsiz, cəza gününə kimi Mənim lənətim sənin üstündə olacaqdır.” (İblis) dedi: “Ey Rəbbim! Belə isə onların (qəbirlərdən) qaldırılacağı günə kimi mənə möhlət ver.” (Allah) buyurdu: “Həqiqətən, sən möhlət verilənlərdənsən, məlum vaxtın gününə qədər.” (İblis) dedi: “İzzətinə and olsun ki, onların hamısını (kökü kəsilənə kimi Adəmin nəslinin hamısını) aldadıb doğru yoldan çıxaracağam. Onların arasından Sənin xalis və seçilmiş bəndələrin istisna olmaqla.” (Allah)

buyurdu: "Haqq Məndəndir və Mən haqq danışanam. Cəhənnəmi mütləq səninlə (sənin övlad və qəbilənlə) və onlardan (insanlardan) sənin arxanca gedən kəslərlə büsbütün dolduracağam."

Allah-təala bu ayələrdə çox açıq-aydın şəkildə şeytanın düşmən olduğunu bəyan edir. Şeytan and içir ki, Allahın bütün bəndələrini yoldan azdırıb cəhənnəmə aparacaq. Allah da ona buyurur ki, sən başda olmaqla ardınca gedənlər, sənə tabe olanların hamısını cəhənnəmə dolduracağam.

Məgər Allahın Quranda buyurduğu bu mətləblər düşməni tanımaq üçün ağıllı insanlara kifayət etməzmi? Bir düşmən ki, insanın əleyhinə belə and içir və hamını yoldan çıxaracağını qarşısına məqsəd qoyur, bu zaman təbii olaraq insan ağlının hökmünə əsasən ondan uzaq durulmalı, onun hiylələrinə aldanmamalı və ona itaət edilməməlidir.

**Dördüncü fikir:**

Bu fikir ondan ibarətdir ki, Allah-təala insandan şəriətdə söz alıb əhd-peyman bağlamışdır. Namazı, orucu, Həcc ziyarətini vacib buyurduğu kimi, şeytandan uzaq durmağı, ona itaət etməməyi də vacib buyurmuşdur. Yəni Allah-təala peyğəmbərlərlə müzakirə etdiyi, kitab nazil etdiyi vaxtların hamısında peyğəmbərlərə təkidlə xəbərdarlıq etmişdir ki, şeytan insanın düşmənidir. Peyğəmbərlər də Allahın bu əmrini insanlara çatdırmışlar. Şeytan Allah dərgahından qovulduqdan sonra ilk işi Adəmi(ə) yoldan çıxartmaq oldu. Həzrət Adəm(ə) cənnətdə məskunlaşaraq Allahın yaratdığı nemətlərdən bəhrələnirdi. Ancaq ona bir meyvədən yeməyə qadağa qoyulmuşdu. Şeytan onu aldadıb həmin meyvəyə tərəf apardı və istədiyinə nail

oldu. Adəm(ə) cənnətdən çıxarıldı və gördüyü səhv işi başa düşüb tövbə etdi. Beləcə birinci dəfə Allah-təala Adəmin(ə) övladlarına xitab edərək şeytanın düşmən olduğunu başa saldı. Bu məsələni "Əraf" surəsinin 27-ci ayəsində oxuyuruq:

يا بني آدم لا يفتننكم الشيطان كما أخرج أبويكم من الجنة ينزع عنهما لباسهما ليريهما سوءاتهما إنه يراكم هو وقبيله من حيث لا ترونهم إنا جعلنا الشياطين أولياء للذين لا يؤمنون

-Ey Adəm övladları, məbada şeytan ata və ananızı cənnətdən çıxartdığı - belə ki, ayıb yerlərini özlərinə göstərmək üçün libaslarını əyinlərindən çıxardığı - kimi sizi (də) aldatsın və azdırsın! Şübhəsiz, o və onun qəbiləsi sizi sizin onları görə bilmədiyiniz yerdən görürlər. Əlbəttə, Biz şeytanları imanı olmayan kəslərin dostu etmişik."

Allah-təala Adəmin(ə) övladlarına xəbərdarlıq etdikdən sonra bu xəbərdarlığı bütün peyğəmbərlərin dili ilə insanlara çatdıraraq "Zuxruf" surəsinin 62-ci ayəsində belə buyurur:

ولا يصدنكم الشيطان إنه لكم عدو مبين

-Məbada şeytan sizi (tövhid və din yolundan) saxlasın. Doğrudan da o, sizin aşkar düşməninizdir.

Sonra isə birbaşa olaraq bütün insanlara xitab edərək "Bəqərə" surəsinin 168-ci ayəsində belə buyurur:

يا أيها الناس كلوا مما في الأرض حلالا طيبا ولا تتبعوا خطوات الشيطان إنه لكم عدو مبين

-Ey insanlar, yer üzündə olan şeylərin (müxtəlif yeməklər və digər varlıqların) halal və paklarından yeyin, faydalanın və şeytanın addımlarına tabe olmayın ki, o, sizin aşkar düşməninizdir.

Ayədə işlənmiş "xütuvat" sözü "addımlar" mənasını ifadə edir ki, Allah-təala burada insana şeytanın addımlarına tabe olmamağı əmr edir. Quranda beş ayədə "şeytanın addımları" ifadəsi işlənmişdir. Bu ayədə işlənmiş "xütuvat" sözü onu bildirir ki, şeytan insanı birdən-birə yoldan çıxarıb fasiqləşdirmir. Şeytan insanı vəsvəsə edərək addım-addım yoldan çıxarır. Əvvəlcə insanı hansısa bir günah etməyə şirnikləşdirir, sonra addım-addım həmin işi görməyə sövq edir. Məsələn, hər hansı bir insan birdən-birə qumarbaz olmur. Əvvəlcə qumar oynayanlara baxır, sonra zarafatyana qumar alətlərini əlinə götürüb baxır. Sonra elə belə oynayır. Yavaş-yavaş məsələ ciddiləşir və oturub əməlli-başlı qumar oynamağa başlayır. İş o yerə gəlib çatır ki, hər bir şeyini uduzub özünü bədbəxt edir. Həm varını itirir, həm də mənəviyyatını əldən verir.

Odur ki, şeytan insanı addım-addım yoldan çıxarır və sonda onu bədbəxt edir. Ərəblər arasında belə bir atalar sözü var. ان بدو القتال اللطام - "Qətl hadisəsi bir sillə ilə başlanır."

Əgər bir insan zina edirsə, onun zina etməsi ilk növbədə baxmaqdan sərçeşmə alır. Bircə baxış və gözün işarəsi ilə şeytan məsələni qızışdırıb insanı zinaya sövq edir. Yəni şeytan ilk növbədə insanın ürəyinə bir nöqtə və qığılcım salır, sonra həmin qığılcım yavaş-yavaş böyüyür və insan tədricən həmin günah işi görür. Şeytanın addımları insanı yavaş-yavaş əvvəlcə kiçik günahları, sonra isə böyük günahları etməyə sövq edir. Şeytan insanı

fasiq etməyincə ondan əl çəkmir. İnsan fasiq olduqdan sonra isə Allaha qarşı üsyan etməyə başlayır. Buna görə də hər bir insan qəlbinə günahın nöqtəsi və qığılcımı düşməmiş şeytanı özündən uzaqlaşdırmalı və son dərəcə diqqətli, ehtiyatlı olmalıdır.

İbn Abbas deyir:

ما خالَف القُران فَهو مِن خطُواتِ الشيطان

-Quranla müxalif olan hər bir şey şeytanın addımlarındandır.

قَالَ رسولُ اللهِ(ص): من جعلَ شهوته تحت قَدميهِ فَر الشيطانُ مِن ظِلِّهِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kim öz şəhvətini ayaqlarının altına qoysa, şeytan onun kölgəsindən də qaçar."

### Aşağıdakı ayədə işlənmiş "ibadət" kəlməsi "itaət" mənasındadır

Allah-təala "Yasin" surəsinin 60-cı ayəsində buyurur: "Ey Adəm övladı! Məgər Mən (dünyada sizə: "Şeytana ibadət etməyin, o, sizin açıq düşməninizdir!"- deyə buyurmadımmı?"

Bu ayədə Allah-təala insanlardan söz alıb əhd-peyman bağladığı haqda bəhs edir. Əlbəttə, yuxarıda bu barədə lazımi qədər söz açdıq və qeyd olundu ki, Allah insanla harada əhd-peyman bağlamış və ondan hansı vədləri almışdır. Bu ayədə həmin vədlərin birinə işarə olunur ki, o da insanın şeytana ibadət etməyəcəyini Allaha vəd verməsidir.

Bu ayədə incə bir mətləbə də diqqət yetirməyimiz çox yaxşı olardı. Həmin mətləb də budur ki, ayədə işlənmiş "ibadət" kəlməsində məqsəd nədir? Yəni insanların şeytana pərəstiş etmələri nəzərdə tutulurmu? Yaxud şeytanı Allaha şərik qərar vermələri nəzərdə tutulurmu?

Yoxsa bunun başqa bir mənası vardır? Əlbəttə ki, bu ayədə "şeytana ibadət etməyin" - deyildikdə, yəni ona "itaət etməmək" və ya ona "tabe olmamaq" mənasını ifadə edir. Çünki insanlar, ümumiyyətlə, şeytana pərəstiş və ibadət etmirlər. Ola bilsin ki, bu dünyanın hansısa bir yerində bir qrup şeytanpərəst insanlar olsun. Məsələn, Amerikanın bəzi şəhərlərində belə insanlara rast gəlmək mümkündür.

Əsəd Əfəndi Məliki Amerika ruhanilərindən biridir. O, tarixi əsərlərinin birində belə yazır: "Murtinbuk adasında güclü təbii fəlakət baş vermişdi. Bu fəlakət zamanı 20 min nəfər həlak oldu. Həmin adada müxtəlif qəbilələr yaşayırdı. Sağ qalan insanlar oradan çıxıb başqa yerlərə getdilər və elə getdikləri yerdə də məskunlaşdılar. Həmin qəbilələrdən birinin adı "Şeytanpərəstlər" qəbiləsi idi. Onlardan da sağ qalanlar Nyu-Yorka köçdülər. Günlərin birində onların görüşünə getdim. Bilmək istəyirdim ki, görüm onların ayinləri nədən ibarətdir. Onlar məni hörmətlə qarşılayıb başçılarının yanına apardılar. Başçının adı Mitran idi. Yenicə söhbətə başlamışdıq ki, bir qadının şeytanpərəst olmaq üçün bura gəldiyini xəbər verdilər. Mən ürəyimdə bunun lap yerinə düşdüyünü fikirləşdim. Beləcə, baxıb görərəm ki, onlar bu ayini necə həyata keçirirlər. Mən orada qonaq olduğum üçün Mitran dedi: "Ona deyin ki, sonra gəlsin." Mən dedim: "Yox, sonraya saxlama. Qoy gəlsin və mən də bu ayinə tamaşa edəcəyəm."

Nəhayət, həmin qadın içəri daxil oldu. Onu şeytanın heykəlinin qarşısına gətirib səcdə etdirdilər və öz ayinlərinə uyğun bəzi sözlər oxutdurdular. Bu ayinləri yerinə yetirdikdən sonra həmin qadın şeytanpərəst oldu. Çıxıb getmək istəyəndə mən ondan soruşdum: "Siz şeytanpərəst

olmamışdan öncə hansı dinə qulluq edirdiniz?" Qadın dedi: "Mən müsəlman idim." Dedim: "Bəs nə oldu ki, öz dinindən imtina edib şeytanpərəstliyi qəbul etdiniz?" Dedi: "Bunun səbəbləri çox aydındır. Mən müsəlman olduğum vaxtlar görürdüm ki, İslam şərab içməyi, zina etməyi və s. kimi bütün ləzzətli əməlləri haram, bütün çətin əməlləri (oruc, namaz və s. kimi) də vacib edib. Axırda da insan öləcək və onu kəfənə büküb torpağa basdıracaqlar. Qəbirdə isə sorğu-sual, qiyamətin çətin səhnələri, sonra cənnət, yaxud cəhənnəm. Amma şeytanın dinində bütün ləzzətli əməllərin hamısı halal, çətin əməllərin isə heç biri vacib deyildir. Burada insanın sonu barədə də heç bir söz deyilmir. Ona görə də mən bu dini seçdim."

Bunu ona görə qeyd etdik ki, dünyada hər cür insan var. Mümkündür ki, dünyanın hər hansı bir yerində bir qrup insan şeytanpərəst olsun. Amma ayədə işlənmiş "şeytana ibadət etməyin" cümləsində məqsəd budur ki, ey Adəm övladı, şeytana itaət etməyin, ona tabe olmayın və onun sözünə qulaq asmayın.

Quranın bəzi ayələrində bu kimi ibarələrə rast gəlmək olur. Məsələn, "Tövbə" surəsinin 31-ci ayəsində belə oxuyuruq:

اتخذُوا أَحبارهم ورهبانهم أَربابا مِن دون اللهِ والْمسِيح ابن مريم وما أُمِروا إِلا لِيعبدوا إِلَٰها واحِدا

-Onlar öz alimlərini, rahiblərini və Məryəm oğlu Məsihi Allahın yerinə tanrılar (rəbb) götürdülər, halbuki onlara yalnız Ondan başqa bir məbud olmayan tək Allaha ibadət etmələri əmr olunmuşdu.

Əbu Bəsir İmam Sadiqdən(ə) bu haqda belə sual etdi: "Ey Allahın höccəti, İslam Peyğəmbərindən(s) öncə yəhudilər və xristianlar Allahın yerinə öz alimlərini və rahiblərini

özlərinə tanrılar seçmişdilər. Halbuki onlara yalnız Ondan başqa bir məbud olmayan tək Allaha ibadət etmələri əmr olunmuşdu. Bu necə ola bilər?” İmam Sadiq(ə) buyurdu:

أما و اللّهِ ما دعوهم إلى عِبادِةِ أنفُسِهم و لو دعوهم ما أجابوهم و لكِن أحلّوا لَهم حراماً و حرموا علَيهم حلَالًا فَعبدوهم مِن حيثُ لَا يشعرونَ

-And olsun Allaha, onlar (Yəhudi və Nəsranın alim və rahibləri) camaatı birbaşa özlərinə ibadət etməyə dəvət etmirdilər. Çünki əgər onlar camaatı özlərinə ibadət etməyə çağırsaydılar belə, əlbəttə ki, heç bir kəs onların sözünə əməl etməyəcəkdi. Onlar camaat üçün haramı halal, halalı da haram edirdilər, camaat da onların ardınca gedib özləri bilmədən onlara ibadət və pərəstiş etdilər.[1]

Deməli, bu ayədən də görürük ki, Allah-təala onların öz alim və rahiblərinə itaət etmələrini və sözlərinə qulaq asmalarını onlara ibadət etmələri kimi bəyan etmişdir. Yəni onlar öz rahiblərinin dediklərinə əməl və itaət etməklə həqiqətdə onlara ibadət etmişlər.

قالَ الصادِق(ع): من أطَاع رجلًا فِي معصِيةٍ فَقَد عبده

-İmam Sadiq(ə) buyurur: “Kim Allaha qarşı günah işlədən bir şəxsə itaət edərsə, sanki ona bəndəlik və ibadət etmişdir.”[2]

قالَ الباقِر(ع): من أصغى الى ناطِقٍ فَقَد عبده فإن كانَ الناطِق يؤدى عنِ الله عزوجلّ فَقَد عبد الله وإنْ كانَ الناطِق يؤدّى عن الشيطَان فَقَد عبد الشيطَان

---

[1] Təfsiri-nümunə, 18-ci cild, səh. 425.
[2] Yenə orada, səh. 426.

-İmam Baqir(ə) buyurur: "Kim bir söz danışana qulaq asarsa, ona bəndəlik etmişdir. Əgər danışan Allah kəlamını söyləyərsə, eşidən də Allaha ibadət etmişdir. Əgər danışan şeytan tərəfindən danışsa, (eşidən də) şeytana ibadət etmişdir." [1]

---

[1] Yenə orada, səh. 427.

## 61-62-ci AYƏLƏRİNİN TƏFSİRİ

**وأن اعبدوني هٰذَا صِراطٌ مستقِيم.٦١. ولَقَد أضل مِنكُم جِبِلًّا كَثِيرا أفَلَم تكُونوا تعقِلُونَ.٦٢.**

**61. Və: “Yalnız Mənə ibadət edin ki, doğru yol budur!”**

**62. Həqiqətən, (şeytan) içərinizdən çoxlarını yoldan çıxartdı. Məgər ağlınız kəsmirdi?**

Bu ayələr əvvəlki ayələrin davamıdır. Allah-təala bir tərəfdən insana əmr edir ki, şeytana itaət etməsin. Çünki şeytan insana ilk gündən düşmən kəsilmişdir. Hansı ağıllı insan öz düşməninə itaət edər? Digər tərəfdən isə insanlardan Onun Özünə itaət etmək üçün əhd-peyman alır və bu yolun “siratin-müstəqim”, yəni “düz yol” olduğunu başa salır. Bu isə (bu yolun düz yol olduğunu bildirmək) insanı itaət etməyə dəvət edən gözəl üsuldur. Çünki insan çalışır ki, həmişə düz yolu tapsın və ona tərəf getsin. Məsələn, bir nəfər ailəsi ilə səfərə gedərkən yolu itirir. Özünün, övladlarının və yoldaşının canı təhlükəyə düşməsindən, vəhşi heyvanlar və oğruların təcavüzünə, yaxud yağış, tufan və sel kimi bəlalara məruz qalmasından qorxur. Belə bir halda bu insan üçün ən gözəl və ən yaxşı xəbər nə ola bilər? Əlbəttə ki, bu halda ən yaxşı xəbər onun məqsədə çatması üçün düz yolun hansı olduğunu söyləməkdir.

Odur ki, Allah-təala bütün insanlara doğru yolu göstərərək təkidlə buyurur: “Yalnız Mənə ibadət edin ki, doğru yol budur!” İnsanın yeganə nicat yolu Allaha ibadət etməkdədir. Bundan başqa bütün yolların hamısı səhvdir. Kim bu yoldan başqa yolla getsə, axırda peşman olacaqdır.

Əgər hər hansı bir insan Allahın buyurduğu yolda olmasa, şeytan onu azdırıb məhv edəcək. Necə ki, sonrakı ayədə belə buyurur: “Həqiqətən, (şeytan) içərinizdən çoxlarını yoldan çıxartdı. Məgər ağlınız kəsmirdi?”

Bu ayə insanı diqqətli olmağa çağırır və tarixdə şeytanın nə qədər insanı yoldan çıxarıb bədbəxt etdiyi haqda düşünməyə vadar edir. Onun üçün fərqi yoxdur və kimliyindən asılı olmayaraq həmişə insanı Allah yolundan uzaqlaşdırmağa çalışır. Buna görə də insan həmişə diqqətli olmalı, Allahın bu xəbərdarlığını yaddan çıxarmamalıdır. Həzrət Əli(ə) “Nəhcül-bəlağə”nin 234-cü xütbəsində belə buyurur:

فَاحذَروا عِباد اللهِ عدو اللهِ أنْ يعدِيكُم بِدائِهِ وأنْ يستفِزكُم بِندائِهِ وأنْ يجلِب علَيكُم بِخيلِهِ ورجِلِهِ فَلعمرِي لَقَد فَوق لَكُم سهم الْوعِيدِ وأغْرق إلَيكُم بِالنزع الشدِيدِ ورماكُم مِن مكَانٍ قَرِيبٍ فَقَالَ رب بِما أغْويتنِي لَأزينن لَهم فِي الْأرضِ ولَأغْوينهم أجمعِين

-Ey Allahın bəndələri! Allahın bu düşmənindən uzaq olun. Məbada sizi öz xəstəliklərinə (*özü kimi təkəbbürlü və itaətsiz edərək Allahın rəhmətindən uzaqlaşdırmasına*) düçar edə, öz nidası ilə sizləri hərəkətə gətirə. Məbada sizi öz qoşununa cəlb edə. And olsun öz canıma! O, sizləri ovlamaq üçün kamanına ox qoymuş, gücü çatdığı qədər kamanı çəkmiş və yaxın bir yerdən sizi hədəfi qərar vermişdir. O, (şeytan) demişdir: “İlahi! Məni hüzurundan qovub xar etdiyinə görə[1] mən də dünyanın zinətlərini bəndələrinin gözündə cilvələndirib onları xar edəcəyəm.”[2]

---

[1] Şeytanı Allah yox, öz nəfsi xar edib yoldan çıxartmışdı.
[2] رب بِما أغْويتنِي لَأزينن لَهم فِي الْأرضِ ولَأغْوينهم أجمعِين

Şeytan çox hiyləgər və amansızdır. O, Allahın izzətinə and içib söz verdiyinə görə insanı cəhənnəmə aparmayınca əl çəkməyəcək. Buna görə də həmişə diqqətli olmaq lazımdır. Şeytan hər tərəfdən insan üçün tələ qurmuşdur. İnsan azacıq diqqətsizlik etdikdə onun tələsinə düşə bilər.

İmam Səccadın(ə) dostlarından biri belə bir şeir oxuyardı. İmam Səccad(ə) həmin şeri çox bəyənmişdi. Bəzi rəvayətə görə həmin şeri İmamın(ə) özündən öyrənmişdi. Şerin tərcüməsi belədir: "Mən şeytanı görmürəm, amma o, məni görür. Mən onu yadımdan çıxardıram, amma o, məni yaddan çıxarmır. Ey mənim ağam (Allahım), əgər Sən mənə yardım edib pənahında yer verməsən, babam Adəmi cənnətdən çıxardığı kimi, məni də iman evindən çıxaracaq."

Azacıq diqqətli olduqda açıq-aydın görmək olur ki, şeytan dünyanın hər bir yerində müxtəlif tələlər qurmuş, özünə qoşun dizəltmişdir. Dünyada hansı tərəfə baxırsan şeytanın qoşununu, adamlarını görürsən. Hansı tərəfə baxırsansa, şeytanı sevənləri görürsən. Hansı tərəfə baxırsan, şeytanın yoldan azdırdığı insanları görürsən. Dünyada adicə televiziyanın minlərlə kanalı var. Demək olar ki, bütün bu kanalların hamısı insanları insanlıqdan ayırmaq üçün təşkil olunub. Bu kanalların hansında insanlıq dərsi nümayiş etdirilir? Bütün bu kanallar qarın və şəhvət barədə verilişlər göstərir. Hamısı insanları insanlıq haqda düşünmək üçün deyil, qarın və şəhvət barədə düşündürmək naminə yaradılıb. Əgər birdən İslama və insanlığa aid bir veriliş və kanal açıldığını görsələr, onun səsini boğmaq üçün əleyhinə yüzlərlə kanal açırlar. Özü də açıq-aşkar öz dilləri ilə etiraf edib utanmadan deyirlər ki, biz bu kanalları həmin kanala qarşı açmışıq. Bu işi görmək üçün pullar xərcləmişik.

Ölüm olsun sizə! Ölüm sizə bundan yaxşıdır ki, öz dilinizlə etiraf edirsiniz ki, İslam və insanlığın səsi qulaqlara çatmasın deyə bu kanalları açmaq üçün pullar xərcləmişik. Bir tərəfdən də deyirsiniz ki, biz demokratiyanı inkişaf etdiririk. Ancaq demokratiya adına minlərlə insanın qanını tökmüsünüz. Ürəyiniz istəyən adamı demokratiya adına öldürüb adını da terrorçu qoyursunuz. "Əl-Qaidə" adlı bir təşkilatı yaradıb bu ad altında istədiyiniz insanları öldürürsünüz. Gecələr də şam yeməyini "Əl-Qaidə" ilə birgə yeyirsiniz.

Biz elə bir dünyada və elə bir dövrdə yaşayırıq ki, indi şeytanın ən güclü vaxtıdır. Ona görə də elə düşünməməliyik ki, şeytanın ən güclü vaxtı İbrahimin tonqala atıldığı zaman idi. Elə düşünməyək ki, Kərbəlada Əliəsğər oxlanarkən şeytanın ən güclü vaxtı olub. O zamanlar hamı görürdü ki, Həzrət Peyğəmbərin(s) qucağında böyüyən uşağın başını kəsib nizələrə taxırlar. O zaman haqq ilə batilin müharibəsi gedirdi. Hamı kimin haqq, kimin batil olduğunu çox gözəl bilirdi. Fitnə odur ki, haqq ilə batili elə qarışdırsınlar ki, 18-20 yaşlı bir gənc seçim qarşısında sərgərdan qalsın və hansı tərəfin haqq olduğunu bilməsin. Fitnə odur ki, haqq ilə batili elə qarışdırsınlar ki, cavan uşaqlar hansı tərəfə gedəcəklərini ayırd edə bilməsinlər. İndi baxıb görmək lazımdır ki, keçmişdəki fitnələr güclü idi, yoxsa indiki zamandakı fitnələr güclü və qorxuludur? Budur bizim yaşadığımız dövr.

Ona görə də Həzrət Əli(ə) buyurur: "Məbada (şeytan) sizi öz qoşununa cəlb etmiş olsun. And olsun öz canıma! O, sizləri ovlamaq üçün kamanına ox qoymuş və gücü çatdığı qədər həmin kamanı çəkərək yaxın bir yerdən sizi hədəfə almağı qərarlaşdırmışdır."

## Yalnız müxlis insanlar nicat tapacaq

Şeytan təkəbbür və itaətsizliyinə görə Allah dərgahından qovuldu. O, altı min il Allaha ibadət etmişdi. Odur ki, Allahdan etdiyi ibadətlərin əvəzində qiyamət gününə qədər möhlət istədi. Allah-təala da ona möhlət verdikdən sonra şeytan dedi: "İzzətinə and olsun ki, onların hamısını (kökü kəsilənə kimi Adəmin nəslinin hamısını) aldadıb doğru yoldan çıxaracağam. Onların arasında Sənin xalis və seçilmiş bəndələrin istisna olmaqla."[1]

Sual oluna bilər ki, müxlis insan kimdir? Bu sualın cavabında çox yaxşı olar ki, bir hədisə diqqət yetirək. Şeytan müəyyən xüsusiyyətləri olan insanları azdırmağa gücü çatmadığını öz dili ilə etiraf etmişdir. Hədis belədir:

لإمام الصادق عليه السلام: قالَ إبليس: خمسةٌ ليس لي فيهن حِيلَةٌ و سائر الناسِ في قَبضتي: منِ اعتصم ِباللّهِ عن نيةٍ صادِقَةٍ و اتكَلَ علَيهِ في جميعِ أُمورِهِ، و من كَثُر تسبيحه في لَيلِهِ و نهارِهِ، و من رضِي لأخِيهِ المؤمِنِ بما يرضاه لنفسِهِ، و من لَم يجزع على المُصيبةِ حين تصِيبه، و من رضِي بما قَسم اللّه لَه و لَم يهتم ِلِرزِقهِ.

-İmam Sadiq(ə) buyurmuşdur: "İblis deyir: Beş nəfs var ki, onlara qarşı heç bir çarəm yoxdur. Bunlar xalis niyyətlə Allaha sığınan və bütün işlərində Ona təvəkkül edən (arxalanan), gecə-gündüz Allaha çox təsbih deyən, özü üçün bəyəndiyi şeyi mömin qardaşına da bəyənən, başına müsibət gələndə səbirsizlik etməyən, Allahın ona qismət etdiyinə razı olan və ruzi qəmi çəkməyənlərdir. Ancaq, qalan bütün insanlar mənim ovcumun içindədir."[2]

---

[1] Sad surəsi, 82-83-cü ayələr.
[2] Mizanül-hikmə, 6-cı cild, hədis - 9401.

## 63-65-ci AYƏLƏRİNİN TƏFSİRİ

**هٰذِهِ جهنم الَّتِي كُنتم توعدونَ.٦٣. اصلَوها الْيوم بِما كُنتم تَكْفُرونَ.٦٤. الْيوم نختِم علٰى أفْواهِهِم وتكَلمنا أيدِيهِم وتشهد أرجلُهم بِما كانوا يكْسِبونَ.٦٥.**

**63. Bu sizə vəd olunan cəhənnəmdir!**

**64. Kafir olduğunuza görə bu gün girin ora, yanın!**

**65. Bu gün onların ağızlarını möhürləyirik. Etdikləri əməllər (qazandıqları günahlar) barəsində onların əlləri Bizimlə danışar, ayaqları isə şəhadət verər.**

Öncəki ayələrdə Allah-təala insana doğru yolu göstərərək buyurur: "Mənə ibadət edin ki, doğru yol budur." Həmçinin şeytanın açıq-aydın düşmən olduğunu, insanların çoxunu yoldan çıxartdığını xatırladır və insanı şeytanın tələsinə düşməməyə çağırır.

Allahın yolundan başqa bütün yollarda şeytanın tələsi var. Hər kim Allaha ixlas, səmimiyyət və sədaqətlə ibadət edərsə, doğru yolu tapmışdır. Bu yolu gedənləri şeytan azdıra bilməz. Amma əgər insan Allahın göstərişinə əməl etməyib şeytanın tələsinə düşüb küfr, nifaq və günah içində yaşasa, qiyamət günü cəhənnəmi gözləri ilə gördükdə ona belə xitab olunacaq: "Bu, sizə vəd olunan cəhənnəmdir!"

Dünyada peyğəmbərlər bu insanlara qiyamət, cənnət və cəhənnəmin haqq olduğunu söylədilər. Onlar peyğəmbərlərin ölüləri diriltmək, anadan gəlmə xəstələrə şəfa vermək, əsanı əjdahaya çevirmək, Ayın bölünməsinə nail olmaq kimi bir çox möcüzələrini gözləri ilə görüb yenə də inkar etdilər. Allahın nazil etdiyi kitablara da iman gətirmədilər.

Bütün bunlarla yanaşı, onlar peyğəmbərləri ələ salıb məsxərəyə qoydular və etdikləri cinayətlərdən də əl çəkmədilər. İndi belə olduğundan qiyamət günü onlara deyiləcək: “Kafir olduğunuza görə bu gün girin oraya (cəhənnəmə), yanın!”

Onlar elə düşünməsinlər ki, qiyamət günü onlarla danışmaq çətin olacaq. Elə fikirləşməsinlər ki, dünyada etdikləri günah və cinayətləri dana biləcəklər. Qiyamət günü elə bir gündür ki, onların ağızlarına möhür vurulacaq. Etdikləri əməllər barəsində onların əlləri danışar, ayaqları isə şəhadət verər. Dünyada bülbül kimi ötən, sözü istədiyi yerə fırladıb danışan həmin ağızlara qıfıl vurulacaq və zəlil vəziyyətdə Allah məhzərində dayanacaqlar. Onlara söz deməyə izn verilməyəcək. O gün artıq onların bədən üzvləri dilə gəlib şahidlik edərək onların etdikləri əməlləri etiraf edəcəklər.

## Qiyamətdə şahidliyin mərhələləri

Ayədə açıq-aydın bəyan olunur ki, qiyamət günü insanın bədən üzvləri şəhadət verəcəkdir. Burada bir neçə mətləbi diqqətinizə çatdırıram. Ümumiyyətlə, “şəhadət” sözünün iki mənası vardır. Biri Allah yolunda şəhid olmaq, digəri isə şahidlik etmək mənasını daşıyır. Həmin kəlmə bu ayədə şahidlik mənasında işlənmişdir. Əsas sözümüz budur ki, şahidliyin iki mərhələsi var. Onlardan birinə “həmli”,  digərinə isə “nəqli” şahidlik deyilir.

Həmli şəhadət - ona deyilir ki, insan şahidlik edəcəyi cinayət və hadisəni öz gözləri ilə görsün.

Nəqli şəhadət - ona deyilir ki, insan qazinin hüzurunda gözü ilə gördüyü hadisənin necə baş verdiyini danışıb şahidlik etsin. Məsələn, fərz edək ki, iki nəfər bir-biri ilə dalaşmış və biri digərini döymüşdür. Döyülən şəxs gedib qaziyə həmin şəxsdən şikayət edir və bildirir ki,

hadisə zamanı filankəslər də orada şahid idilər. Qazi məsələni aydınlaşdırmaq üçün həmin şahidləri də çağırıb onlardan nə gördüklərini, hadisənin necə baş verdiyini soruşur. Onlar da hadisə zamanı gözləri ilə gördüklərini söyləyirlər. Deməli, insanın hadisəni gözləri ilə görməsinə "həmli şəhadət", gördüyünü qazinin yanında olduğu kimi danışmasına isə "nəqli şəhadət" deyilir. Yəni şahid gördüyünü danışır. Amma əgər insan hadisəni gözləri ilə görməsə və məsələni neçə nəfərdən eşitsə də belə şahidlik edə bilməz. Necə deyərlər, hadisə barədə eşidib şahidlik etmək olmaz. Eşidiləni danışmağa şahidlik deyilmir. Çünki şahid hadisəni mütləq öz gözləri ilə görməlidir.

Beləliklə, məlum olur ki, bu gün bizim bütün bədən üzvlərimizin hamısı şahidliyin "həml" mərhələsindədir. Yəni əllərimiz, ayaqlarımız, gözlərimiz, dərimiz və s. üzvlərimiz bizim bütün əməllərimizə şahiddir. Bütün bədən üzvləri insanın nə etdiyini görür və yadda saxlayır. Amma bu dünyada onlara danışmaq icazəsi verilməyib. Qiyamət günü onlara danışmaq icazəsi verildikdə bütün gördüklərini söyləyəcəklər. Bunu da qeyd etmək lazımdır ki, təkcə insanın bədən üzvləri deyil, aləmdə olan hər nə varsa, hamısı şahidliyin həml mərhələsindədir. Yəni hər bir şey insanın əməllərini görür. Əgər qiyamət günü yer, zaman, hava, günlər, aylar, mələklər və s. insana şahid duracaqsa, deməli, onlar da insanın əməllərini görüb yadda saxlayır.

Hədislərdə belə nəql olunmuşdur ki, qiyamət günü ramazan ayı insan üçün şahid duracaq. Buradan da məlum olur ki, ramazan, şəban, rəcəb və digər aylar da insanı görürlər. Bütün bunların hamısına görmə və danışma qabiliyyəti verən Allahdır. Əgər bu gün hava, yer danışmırsa, qiyamət günü Allah onu dilə gətirəcək və danışmaq əmri verəcək. Allah

üçün bütün bu işləri görməyin heç bir çətinliyi yoxdur. Bircə “Ol” deməsi kifayətdir.

Qeyd olunan müqəddimədən sonra burada “cəlvət” və “xəlvət” sözlərinin mənasına da diqqət yetirməyimiz yerinə düşərdi. “Cəlvət” – “aşkar”, “xəlvət” – “gizlin” mənalarını verir. Sual oluna bilər ki, bu dünyada “xəlvət”in bir mənası vardırmı? Cavab belədir ki, Allah-təala mələkləri, yeri, havanı, zamanı, məkanı, bədən üzvlərini və bütövlükdə insanı görürsə, deməli, burada “xəlvət” sözünün heç bir mənası yoxdur. Lüğətdə hər bir sözün və kəlmənin öz mənası və nümunəsi vardır. Amma “xəlvət” sözü lüğətdə yeganə kəlmədir ki, onun heç bir nümunəsi yoxdur. Düzdür, insanlar lüğəvi mənası baxımından heç bir kəsin olmadığı yerə xəlvət deyirlər. Amma xəlvətin məna və nümunəsi yoxdur. Çünki Allah-təala xəlvət adlı bir şeyi yaratmayıb.

Belə olduqda insan necə günah edə bilər ki, onu heç bir kəs görməsin, yaxud bilməsin? İnsanın bazarda, küçədə, camaat arasında günah etməsi ilə boş bir evdə, yəni tək olduğu halda günah etməsi arasında heç bir fərq yoxdur. Çünki insan daim nəzarət altındadır. Onun bütün hərəkətləri yazılıb qeyd olunur. Allah-təala “Casiyə” surəsinin 29-cu ayəsində belə buyurur:

إِنا كُنا نستنسِخ ما كُنتم تعملُونَ

-Biz sizin etdiklərinizin üzünü köçürürdük.

Bu ayədən açıq-aydın görürük ki, insanın bütün əməlləri sanki lentə yazılır. Uşaq dünyaya gələndə aldığı ilk nəfəsdən son nəfəsədək onun bütün əməlləri ilə bağlı çəkiliş aparılır. Bu çəkilişlər şəhərlərdə quraşdırılmış videokameralar kimi deyil. Məsələn, bir küçədə 10 ədəd kamera varsa, həmin kameralar gündə milyonlarla insanı

çəkir. Amma Allah-təala hər bir insanın əməllərini qeydə almaq üçün müxtəlif vasitələr yaratmışdır. Heç kim bunlardan heç bir vaxt yaxa qurtara bilməz. Buna görə də insan hara getsə, harada gizlənsə də onu görənlər və qeydə alanlar var.

Deyirlər ki, bir müəllimin neçə şagirdi var idi. Şagirdlərdən birinin yaşı digərlərindən az olmasına baxmayaraq, müəllim daha çox ona hörmət bəsləyirdi. Digər şagirdlər də bunu hiss edib ürəklərinə salır və müəllimlərindən inciyirdilər. Günlərin birində onlar öz etirazlarını dilə gətirib müəllimə dedilər: “Nə üçün siz filan şagirdə bizdən daha çox hörmət bəsləyir və ona daha artıq diqqət yetirirsiniz? Məgər bizim aramızda bir fərq varmı?” Müəllim onları başa salmaq üçün günlərin birində hər birinə bir toyuq verib deyir: “Bu toyuqları evə aparın və sabah heç kəsin görmədiyi bir yerdə kəsib gətirin.” Şagirdlər toyuqları evə aparırlar. Səhərisi gün hər bir kəs apardığı toyuğun başını kəsib sinfə gətirir. Amma həmin şagird toyuğu kəsmir və onu diri halda sinfə gətirir. Müəllim şagirdlərin yanında ondan soruşur: “Oğul, nə üçün toyuğu kəsməmisən?” Şagird deyir: “Müəllim, axı siz şərt kəsdiniz ki, toyuğun başını heç kəsin olmadığı və heç bir kəsin görmədiyi yerdə kəsək. Mən toyuğu kəsmək üçün hara getdimsə, Zati-müqəddəsi (Allahı) başımın üzərində nəzarətçi gördüm. Hara getdimsə, xəlvət bir yer tapa bilmədim. Buna görə də toyuğun başını kəsməyib özümlə gətirdim.”

Beləcə, müəllim bu hərəkətilə həmin şagirdi nə üçün hamıdan çox istədiyini onlara başa saldı.

## Qiyamət gününün şahidləri

Qeyd olundu ki, şahidliyin iki mərhələsi var. Biri həmli, digəri isə nəqli mərhələsidir. Həmli şəhadət odur ki, insan cinayət və hadisəni öz gözləri ilə görmüş olsun. Nəqli şəhadət isə odur ki, gördüyü hadisəni olduğu kimi məhkəmədə ifadə etsin. Amma hadisəni görməyən və başqalarından eşidən şəxsin məhkəmədə ifadə verməsi məqbul sayılmır. "Yasin" surəsinin 65-ci ayəsində buyurulduğu kimi, qiyamət günü insanın əlləri və ayaqları onun etdiyi əməllər barədə şahidlik edəcək. Deməli, bu ayədən açıq-aydın görünür ki, insanın əlləri, ayaqları və s. üzvləri bu dünyada şahidliyin həml mərhələsindədir. Əlbəttə, bir daha qeyd etmək lazımdır ki, başda Allah-təala olmaqla peyğəmbərlər, mələklər, yer, hava, zaman, bədən üzvləri və aləmdə olan hər nə varsa hamısı insanın əməllərinə şahiddir. Burada çox yaxşı olar ki, insanın əməllərinin şahidləri barədə söhbət edək.

### 1. Allahın şahidliyi

İnsanın bütün əməllərinə ilk növbədə hamıdan əvvəl şahid olan şəxsən Allahdır. Necə ki, "Yunis" surəsinin 61-ci ayəsində oxuyuruq:

وَلَا تَعْمَلُونَ مِنْ عَمَلٍ إِلَّا كُنَّا عَلَيْكُمْ شُهُودًا

-Hər nə iş görsəniz, ona məşğul olduğunuz zaman Biz orada hazır və sizə şahidik.

Allah-təala insanın əməllərini görməklə yanaşı, hətta insanın fikrindən və ürəyindən keçən hər bir şeydən xəbərdardır.

### 2. Peyğəmbərlər və məsum imamların şahidliyi

İnsanların əməllərinə şəhadət verən şahidlərin ikinci qismi peyğəmbərlər və məsum imamlardır. Bizim bütün

əməllərimiz onların gözü qarşısındadır. Allah- təala bu barədə "Nisa" surəsinin 41-ci ayəsində buyurur:

فَكَيفَ إِذَا جِئْنَا مِن كُلِّ أُمَّةٍ بِشَهِيدٍ وجِئْنَا بِكَ عَلَىٰ هَٰؤُلَاءِ شَهِيدًا

-(Ya Rəsulum!) Hər ümmətdən (peyğəmbərini) bir şahid gətirəcəyimiz və səni də onlara şahid təyin edəcəyimiz zaman (kafirlərin halı) nə cür olacaq?

Bu ayədən açıq-aydın görürük ki, hər ümmətin peyğəmbəri öz ümmətinə və İslam Peyğəmbəri(s) də onların hamısına şahiddir.

"Tövbə" surəsinin 105-ci ayəsində belə buyurulur:

وقُلِ اعمَلُوا فَسيرى الله عَمَلَكُم ورسولُه والْمؤمِنونَ

-De: "(Ey insanlar, istədiyinizi) edin. Allah, Onun Peyğəmbəri(s) və möminlər əməllərinizi görəcəklər.

Bu ayədəki möminlər sözündə məqsəd məsum imamlarımızdır.

**3. Mələklərin şahidliyi**

İnsanın əməllərinə şahidlik edənlərin üçüncü qismi mələklərdir. Allah-təala "İnfitar" surəsinin 13-15-ci ayələrində belə buyurur:

وإِنَّ عَلَيكُم لَحافِظِين. كِراما كاتِبِين. يعلَمونَ ما تفْعَلُونَ

-Və əlbəttə, sizin üstünüzdə gözətçilər vardır. Şərəfli (möhtərəm) yazanlar (mələklər vardır). Onlar sizin nə etdiklərinizi (zahir və batini, ixlası və riyanı, kamal və nöqsan dərəcələrini) bilirlər.

"Qaf" surəsinin 17-18-ci ayələrində belə buyurulur:

ما يلْفِظُ مِن قَولٍ إلا لَديهِ رقيب عَتِيد

-Xatırla ki, (insanın) sağında və solunda (onun bütün əməllərini) təsbit edən (qeydə alan) iki mələk oturmuşdur!

Dilinə elə bir söz gətirməz ki, (bu zaman) yanında (deyilənləri yazmağa) hazır (müraqib) olan nəzarətçi mələk dayanmasın.

Bu mələklərin xüsusiyyətlərindən biri də odur ki, insan günah, yaxud savab iş görməzdən əvvəl həmin işdən xəbər tuturlar.

Abdullah ibn Musa ibn Cəfər belə bir rəvayəti nəql edir:

سألته عن الْملَكين هل يعلَمان بالذنب إذَا أراد العبد أن يفْعلَه أو الْحسنةَ؟ فَقَالَ: ريح الكَنيف و ريح الطِيب سواءٌ؟ قُلت: لا. قَالَ: إن العبد إذَا هم بالْحسنة خرج نفَسه طَيب الريح فَقَالَ صاحِب اليمين لصاحِب الشمال قُم فَإنه قَد هم بالْحسنة فَإذَا فَعلَها... و إذَا هم بالسيئَة خرج نفَسه منتن الريح فَيقُولُ صاحِب الشمال لصاحِب اليمين قف فَإنه قَد هم بالسيئَة فَإذَا فَعلَها...

-Atamdan həmin iki mələk barədə soruşdum: "İnsan günah, yaxud yaxşı iş görmək fikrinə düşdükdə mələklər bunu hiss edirlərmi?" Həzrət(ə) buyurdu: "Pis şeyin qoxusu ilə yaxşı şeyin qoxusu eynidirmi?" Dedim: "Əlbəttə ki, xeyr." Həzrət(ə) buyurdu: "Bəndə yaxşı iş görmək fikrinə düşdükdə onun nəfəsindən gözəl iy gələr. Elə olduqda sağda əyləşən mələk solda əyləşən mələyə deyər: Sən uzaqlaş, çünki bunun işi mənlikdir. Bəndə həmin yaxşı işi gördükdə onu qeyd edib yazar. İnsan günah iş görmək fikrinə düşdükdə isə nəfəsindən pis iy gələr. Belə olduqda sol tərəfdə əyləşən mələk sağda əyləşən mələyə deyər: Sən dayan. Çünki bunun işi mənlikdir. Əgər həmin şəxs günah iş görsə, solda əyləşən mələk onun bu əməlini qeydə alıb yazar."[1]

[1] Üsuli-kafi, 4-cü cild, səh.162.

Allah-təala “Qaf” surəsinin 21-ci ayəsində belə buyurur:

وجاءَت كُل نفْسٍ معها سائِق وشهيد

-Hər bir kəs (Rəbbinin hüzuruna) bir sürüyən (sürüyüb məhşərə gətirən) və bir də şahidlə (iki mələklə) gələcəkdir.

Həzrət Əli(ə) bu ayə barəsində belə buyurmuşdur:

و سائق يسوقُها ِالى محشرِها وشاهِد يشهد عليها ِبعمِلها

-Hər insanın bir qovanı və bir də şəhadət verəni vardır: Qovanı onu məhşərə qovur, şəhadət verən onun *(yaxşı və pis)* işlərinə şəhadət verir.

Allah-təala “İsra” surəsinin 78-ci ayəsində belə buyurur:

ِإن قُرآنَ الْفَجرِ كَانَ مشهودا

-Çünki sübh namazı müşahidə olunur.

Bu ayənin izahında demişlər ki, əgər insan sübh namazını vaxtında qılsa, gecə və gündüzün mələkləri tərəfindən qeydə alınar. Yəni insana nəzarət edən mələklər sübh namazı vaxtında növbə ilə dəyişilirlər. Gecənin mələkləri gedir, gündüzün mələkləri gəlir. Buna görə də insan sübh namazını dəqiq vaxtında qılarkən həm gecənin mələkləri, həm də gündüzün mələkləri tərəfindən qeydə alınır. Onlar növbəni dəyişən zaman insanın qıldığı namaza şahiddirlər və qiyamət günü həmin şəxs üçün şahidlik edəcəklər. Odur ki, əgər insan dərindən başa düşsə ki, iki qrup mələk onun sübh namazını qeydə alır və qiyamət günü şahidlik edəcəklər, o zaman namazı çox dəqiqliklə və diqqətlə qılar.

**4. Yerin (məkanın) şahidliyi**

İnsanın əməllərini qeydə alıb qiyamət günü şahidlik edən 4-cü qisim şahid yerdir. Yəni insanın harada olmasından

asılı olmayaraq yer və məkan ona şahidlik edəcək. Quranda "Zəlzələ" surəsinin 5-ci ayəsində oxuyuruq:

يومئذٍ تحدثُ أخبارها. بأن ربك أوحىٰ لها

-Məhz o gün yer öz xəbərlərini açıb söyləyər. Ona görə ki, sənin Rəbbin ona vəhy etmişdir.

Bir nəfər İmam Sadiqdən(ə) soruşdu: "Nafilə (müstəhəb) namazlarımı bir məkanda qılım, yoxsa müxtəlif məkanlarda?"

لا، بل هاهنا وهاهنا، فإنها تشهد له يوم القيامة

İmam buyurdu: "Xeyr. Orda-burda (müxtəlif məkanlarda) qıl ki, həmin məkanlar qiyamət günü (sənin üçün) şahidlik edəcəklər."[1]

Evdə namaz qılarkən çox yaxşıdır ki, insan həmişə bir yerdə və bir məkanda namaz qılsın. Hədislərdə belə nəql olunmuşdur ki, insan can verərkən onu həmişə namaz qıldığı yerə uzatsalar, o, canını rahat tapşırar. Amma evdən kənarda, məscidlərdə, müxtəlif yerlərdə çox yaxşı olar ki, insan namazlarını müxtəlif məkanlarda qılsın. Səbəbi isə budur ki, qiyamət günü həmin yer və məkanlar onun üçün şahid dayanacaqlar.

صلّوا مِن المساجِدِ في بقاعٍ مختلفةٍ فإنّ كُلّ بقعةٍ تشهد للمصلّي عليها يوم القيامةِ

Həzrət Əli(ə) buyurmuşdur: "Namazı məscidlərin müxtəlif yerlərində qılın. Çünki yerin (məkanın) hər bir künc-bucağı qiyamət günü orada namaz qılan şəxs üçün şahidlik edəcək."[2]

---

[1] Biharül-ənvar, 7-ci cild, səh. 318.
[2] Yasin surəsinin təfsiri, Seyid Məhəmməd Ziyaabadi, səh. 259.

Beləliklə, həm Quran ayələrindən, həm də hədislərdən açıq-aydın görürük ki, yer qiyamət günü insanın etdiyi yaxşı və pis əməllərə şahidlik edəcək. Hədislərdə belə nəql olunur ki, qiyamət günü yer nahaq qan tökənlərin üzünə şahid duracaq. Bu gün dünyanın hər bir yerində cinayətkarların əli ilə minlərlə, milyonlarla günahsız insanların qanı axıdılır. Onlar elə düşünməsinlər ki, etdikləri bu əməllərə görə cavab verməyəcəklər. Bu, qətiyyən belə deyil, çünki günahsız insanların qanı töküldüyü həmin yerlər qiyamət günü o cinayətkarların əleyhinə şahidlik edəcək. Təkcə yer deyil, bütün şahidlərin hamısı onların törətdikləri cinayətlərə şahid dayanacaq. Əgər bu gün yerin, havanın, bədən üzvlərinin danışmağa dili yoxdursa, qiyamət günü Allah onları dilə gətirəcək və onlar da bütün gördüklərini danışacaqlar.

Hədislərdə belə nəql olunmuşdur ki, yer sübh namazını qılmayan insanlar üçün qiyamət günü şahidlik edəcək. Yəni sübh namazı vaxtı yatıb qalan və namazını qılmayan insanlar üçün yatdıqları həmin yer şahid duracaqdır. Həmçinin başqa hədislərdə belə nəql olunur ki, yer imkanı olan halda evlənməyən insanlar üçün qiyamət günü şahidlik edəcək. Yəni onlar şəhvətlərini başqa cür təmin etmək səbəbiylə evlənmək istəmədikləri üçün idrar etdikləri hər bir yer qiyamət günü onların əleyhinə şahidlik edəcək.

Odur ki, insan bu dünyada yaşadığı müddətdə çox diqqətli olmalı, elə bir iş görməməlidir ki, qiyamət gününün şahidləri onun əleyhinə şahidlik etsinlər.

Həzrət Əli(ə) beytülmalı ehtiyacı olanlara payladıqdan sonra həmin (beytülmalı yığdığı) otaqda iki rükət namaz qılıb belə buyurardı: "Şahid ol ki, mən səni haqq yolla doldurdum və həmin qayda ilə də boşaltdım."

**5. Zamanın şahidliyi**

Qiyamət günü insan üçün şahidlik edən beşinci qisim şahid zamandır. Yəni aylar, günlər, gecələr, saatlar, dəqiqələr və hər bir an insanın əməlinə şahiddir.

قَالَ رسولُ الله(ص): و اللّيالي و الأيام و الشهور شهوده عليه أو له

-Həzrət Peyğəmbər(s) buyurur: "Gecələr, gündüzlər və aylar insanın əleyhinə və lehinə şahidlik edəcək."[1]

قَالَ عِلي(ع): ما مِن يوم يمر علىٰ ابن آدم الاّ قَالَ له ذَلك اليوم يابن آدم! أنا يوم جدِيد و أنا عليك شهيد. فَقُل فِى خيرا واعمل فِى خيرا أشهد لَك يوم القِيامة. فَإنك لَن تراني بعدها أبداً

-Həzrət Əli(ə) buyurur: "Adəm övladı üçün elə bir gün yoxdur ki, həmin gün (zaman) ona deməsin: Ey Adəm övladı! Mən təzə bir günəm (zamanam). Mən sənin üçün şahid duracağam. Mənim içimdə xeyir danış və xeyir əməllər gör ki, qiyamət günü sənin üçün şahidlik edəcəyəm. Mən (ötüb keçdikdən sonra) sən bir daha məni görməyəcəksən."[2]

**6. Bədən üzvlərinin şahidliyi**

Yuxarıda adı çəkilmiş şahidlərdən əlavə, insanın öz bədən üzvləri də qiyamət günü Allahın məhzərində şahid dayanacaq.

قَالَ عِلي(ع): أعضاؤكُم شهوده و جوارحكُم جنوده و ضمائركُم عيونه و خلَواتكُم عِيانه

-Həzrət Əli(ə) buyurur: "Sizin bədən üzvləriniz Onun şahidləri, bədənləriniz qoşun və əmrinə tabe olanlar, düşün-

---

[1] Biharül-ənvar, 7-ci cild, səh. 315.
[2] Üsuli-kafi, 2-ci cild, səh. 525.

cələriniz gözətçiləridir və sizin gizliləriniz Onun yanında aşkardır."[1]

Quran ayələrinə diqqət yetirdikdə açıq-aydın görürük ki, qiyamət günü insanın əl-ayağı, dili, gözü, qulağı və hətta dərisi belə onun üçün şahidlik edəcək. Allah-təala "Nur" surəsinin 24-cü ayəsində belə buyurur:

يوم تشهد عليهم ألسنتهم وأيديهم وأرجلهم بما كانوا يعملون

-Qiyamət günü (onlar dünyada qazandıqları günahlarını dandıqda) dilləri, əlləri və ayaqları etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəkdir.

Həmçinin "Fussilət" surəsinin 19-21-ci ayələrində belə buyurulur:

ويوم يحشر أعداء الله إلى النار فهم يوزعون. حتى إذا ما جاءوها شهد عليهم سمعهم وأبصارهم وجلودهم بما كانوا يعملون. وقالوا لجلودهم لم شهدتم علينا قالوا أنطقنا الله الذي أنطق كل شيء وهو خلقكم أول مرة وإليه ترجعون

-Allahın düşmənləri cəhənnəmə toplaşacaqları gün onlar (əvvəlincisindən axırıncısınadək tutulub bir yerdə) saxlanacaqlar. Nəhayət, onlar cəhənnəmə gəldikdə qulaqları, gözləri və dəriləri etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəkdir. Onlar öz dərilərinə: "Nə üçün əleyhimizə şəhadət verirsiniz?" – deyəcəklər. (Dəriləri də) belə cavab verəcəkdir: "Hər şeyi dilə gətirən Allah bizi danışdırdı. Sizi ilk dəfə yoxdan yaradan Odur. Siz Onun hüzuruna qaytarılırsınız!"

Əlbəttə, burada bir mətləbə də diqqət yetirmək lazımdır ki, qiyamət günü bədən üzvlərinin şahidliyi möminlərin

---

[1] Nəhcül-bəlağə, 190-cı xütbə.

barəsində olmayacaq. O gün kafirlər, münafiqlər və fasiq insanların əzaları onların əleyhinə şahidlik edəcəkdir.

وليست تشهد الجوارح على مؤمن، إنما تشهد على من حقت عليه كلمة العذاب فانما المؤمن فيعطي كتابه بيمينه . قال الله تعالى: فمن أوتي كتابه بيمينه فأولئك يقرءون كتابهم ولا يظلمون فتيلا

İmam Baqir(ə) buyurmuşdur: "Möminin bədən üzvləri heç vaxt onun əleyhinə şəhadət verməyəcəklər. Bədən üzvləri Allahın əzabına düçar olanların (kafir və günahkarlar) əleyhinə şahid duracaqlar. Möminin əməl dəftəri onun sağ əlinə veriləcək (özü də onu oxuyacaq) Allah isə bu barədə buyurur: ***"Əməl dəftəri sağ əllərinə verilənlər onu oxuyar (şad olarlar). Onlara tük (xurma çəyirdəyinin yarığındakı tel) qədər də haqsızlıq edilməz.[1]"*** [2]

---

[1] İsra surəsi, 71-ci ayə.
[2] Təfsiri-nümunə, 18-ci cild, səh. 433.

ولَو نشاءُ لَطَمسنا علىٰ أعيُنهم فَاستبقُوا الصراطَ فَأنىٰ
يبصِرونَ.٦٦. ولَو نشاءُ لَمسخناهم علىٰ مكانَتِهم فَما
استطَاعوا مضِيا ولَا يرجِعونَ.٦٧. ومن نعمره ننكسه فِي الْخلْق
أفَلَا يعقِلونَ.٦٨.

**66. Əgər istəsəydik, (dünyada) gözlərini büsbütün kor edərdik və onlar (adətən etdikləri) yolda bir-birini ötməyə çalışardılar. Amma (belə bir vəziyyətdə yolu) necə görə bilərdilər?**

**67. Əgər istəsəydik, onları lap yerlərindəcə elə bir kökə, elə bir şəklə salardıq ki, nə irəli, nə də geri gedə bilərdilər.**

**68. Hər kəsə uzun ömür versək, onu xilqətcə dəyişib tərsinə çevirərik. Məgər (kafirlər bütün bunları gördükdən sonra Allahın hər şeyə qadir olduğunu) dərk etməzlərmi?**

Bu ayələrdə iki əzab nümunəsinə işarə olunur. Elə bir əzab ki, ola bilsin Allah-təala bu dünyada da insanı həmin əzablara düçar və mübtəla etsin. Təfsir alimləri də belə bir qənaətə gəlmişlər ki, ayədə adı çəkilən bu iki növ əzabın həm dünyada, həm də axirətdə baş verməsi mümkündür.

**1. Gözün kor edilməsi**

Həmin əzablardan biri budur ki, Allah-təala Ona baş əyməyən, itaətsizlik edən və küfr dəryasına qərq olan insanların gözlərini istənilən vaxt büsbütün kor edər. Ayədə işlənmiş "lətəməsna" kəlməsi "təms" sözündən olub "məhv

etmək" mənasını verir. Yəni gözləri və yaxud onun nurunun məhv olunmasını ifadə edir. Gözü insana verən Allahdır və bir anın içində də onu ala bilər. Belə olduqda gözləri məhv olmuş bir insan yolu necə görə bilər? Ayədəki "Fəstəbəqus-sirat" ifadəsi həmişə getdikləri yolda bir-birindən qabağa keçmək mənasını verir. Əgər Allah-təala dünyada birinin gözlərini kor etsə, həmin insan hətta öz evinin yolunu belə itirər. Belə olduqda öz evinin yolunu tapa bilməyən insan haqqın yolunu necə tapacaq? İnsan özünü elə bir vəziyyətə sala bilər ki, Allah onun gözlərini kor edər və heç bir vaxt haqqı tapa bilməz. Yəni insan günah və küfrdə elə bir dərəcəyə gəlib çatar ki, Allahın əzabına düçar olmasına layiq görülər. İnsanın həm müsbət, həm də mənfi bir şeyə layiq olması mümkündür. Bəzən insan özünü o dərəcəyə gətirib çıxarır ki, Allah-təala ona hər şeyi inayət edir. Yəni cənnəti qazanmaq səlahiyyəti əldə edir. Bəzən də insan özünü elə bir dərəcəyə gətirib çıxarır ki, Allahın əzabına düçar olmağa layiq olur.

Gözləri kor etməyin bir mənası budur ki, insan zahiri görmə qabiliyyətini əlindən verir. Bir mənası isə budur ki, həqiqəti görmə qabiliyyəti onun əlindən alınır. Zahiri əşyaları görür, amma haqq-həqiqəti görə bilmir. Bəzən insan elə pis işlər görür ki, Allah-təala mənəviyyat və ibadətin ləzzətini onun əlindən alır. Bəzi xəstəliklər var ki, insan ona düçar olduqda hətta ağzının dadını belə tamamilə itirir. Belə olduqda nəyin şirin, turş və acı olduğunu insan hiss etmir. Zahiri xəstəliklərin belə nəticəsi olduğu kimi, mənəvi xəstəliklər də belə nəticələr verə bilir. Məsələn, günahlar namaz qılmağın mənəvi ləzzətinin insanın əlindən alınmasına səbəb olur. Belə olduqda hətta gecə namazı qılsa da belə heç bir mənəvi ləzzət hiss edə bilmir. Ona görə də bəzi dualarda belə oxuyuruq: "İlahi,

ibadətin ləzzətini bizə dadızdır.” Odur ki, Allah-təala insana verdiyi nemətləri bir anın içində ala bilir.

**2. Məsx etmək**

Ayədə işarə olunmuş ikinci növ əzab və bəla nümunəsi məsx etməkdir. Necə ki, həmin ayədə belə buyurulur: **“Əgər istəsəydik, onları lap yerlərindəcə elə bir kökə, elə bir şəklə salardıq ki, nə irəli gedə bilər, nə də geri qayıda bilərdilər.”** Yəni elə edərdik ki, onlar ruhsuz bir cisim və heykəl kimi olardılar. Yaxud onları heyvan surətinə çevirərdik. Yəni insanı heyvandan ayıran bütün xüsusiyyətləri ondan alardıq və o, adicə bir heyvan kimi yaşayardı. Belə olduqda daha onda insanlıqdan heç bir əsər-əlamət qalmaz. Digər heyvanlar yeyib içdikləri kimi, nəsil artırdıqları kimi, onlar da elə olardılar. Məgər dünyada beləlılər azdırmı? Beləlri də insanların arasında yaşamalarına baxmayaraq, Allah-təala onlardan insanlıq xüsusiyyətlərini almışdır. Digər canlılardan bircə fərqi budur ki, iki ayağı üzərində yol gedir. Xüsusiyyət cəhətindən isə heyvanlardan heç bir fərqi yoxdur.

Deməli, Allah-təala onları məsx etdikdə nəticədə belə olarlar ki, iflic kimi nə irəli gedə bilər, nə də geri qayıda bilərlər. Mənası budur ki, qarşıda nə haqqı tapa bilərlər ki, yollarına davam etsinlər, nə də geriyə qayıtmaları mümkün olar. Geriyə qayıtmaları dedikdə ananın bətni, atanın sülbü və bir zamanlar yaşadıqları ruhlar aləmi nəzərdə tutulur. Mümkün deyil ki, onlar bir daha geriyə qayıtsınlar.

Bəzi alimlər deyirlər ki, bu iki əzabın axirət əzablarına aid edilməsi də mümkündür. Yəni Allah qiyamət günü onların gözlərini tutaraq onları cənnətin yolunu görməkdən məhrum edəcək. Bəzi hədislərdə belə nəql olunmuşdur ki, Allah-təala sirat körpüsünün üstündə

bəzi insanların gözlərini kor edər. Belə olduqda yolu görməz və cəhənnəmə düşər. Bundan əlavə, onları ruhsuz və cansız mücəssəmələrə çevirəcək. Belə olan halda artıq onlar nə irəli, nə də geriyə hərəkət edə biləcəklər.

**Bu iki ayə bizə nəyi öyrədir?**

Əzablara işarə olunmuş bu iki ayə bizə bir neçə mühüm mətləbi öyrədir. Onlardan biri budur ki, insan dünyada hər nəyi vardırsa, həmişə onda qalacağını düşünməməlidir. Yəni ona verilən nemətlər bir gün ondan geri alınacaq. Buna görə də həmin nemət insanın əlində ikən bacardığı qədər ondan (axirəti üçün) istifadə etməlidir. Çünki mümkündür ki, bu nemətlər insanın əlindən alınsın. İnsan Allahın qəzəbinin nazil olmasından qafil olmamalıdır. Allah-təala istədiyi vaxt insandan nemətləri ala bilər. Necə ki, ayədə də buyurur: "Əgər istəsəydik, gözlərini büsbütün kor edərdik."

Yəni Allahın lütfü, mərhəməti, inayəti və kərəmi olduğu kimi, insan Onun qəzəbinin də olduğunu unutmamalıdır. Əgər Allah möhlət verirsə, deməli insana lütf etmişdir. Məsələn, Allah Həzrət Nuh Peyğəmbərin(ə) ümmətinə doqquz yüz əlli il möhlət verdi. Nuh Peyğəmbər(s) yüz il qövmünü tövhidə dəvət etdi. Amma heç bir öyüd-nəsihətlə onlara təsir edə bilmədi. Nuh(ə) Allahla minacat edərkən ərz etdi: "İlahi, yüz ildir ki, bu qövmə öyüd-nəsihət verib Sənə sarı dəvət edirəm. Amma onlar mənim sözlərimi eşitmək belə istəmirlər." Allah-təala buyurdu: "Onlara yüz il də möhlət verdim." Nuh(ə) yüz il də qövmünə moizə etdi, amma yenə də bir faydası olmadı. Bu möhlət də qurtardıqdan sonra Nuh(ə) ərz etdi: "İlahi, verdiyin möhlət də bitdi." Allah-təala buyurdu: "Yüz il də onlara möhlət verdim."

Beləliklə, Allah-təala doqquz yüz əlli il onun qövmünə möhlət verdi. Bu müddət ərzində cəmi 80 nəfər Allaha iman gətirdi. Sonda Nuh(ə) Allahın əmri ilə bir gəmi güzəltdi və iman gətirənləri onun içərisinə topladı. Bəla nazil oldu və gəmiyə minənlərdən başqa qalanları boğularaq əzaba düçar oldular.

Ayələrdə bizə öyrədilən ikinci mətləb budur ki, insan bəla nazil olmamışdan əvvəl başına bir çarə qılmalı, inadından əl çəkməlidir. Allahın qəzəbi nazil olduqda heç bir kəs ona tab gətirə bilməz. Buna görə də möhlət başa çatmamış insan qərar qəbul etməlidir. Hər bir kəs bu möhlətdən istifadə edib qərar qəbul edərək haqqa doğru gələrsə, taleyini müsbətə tərəf həll etmiş olacaqdır. Amma fürsət əldən çıxdıqdan sonra daha heç bir şeyin ona xeyri olmayacaq.

Günlərin birində bir nəfər moizə eşitmək üçün İmam Sadiqin(ə) hüzuruna gedir. İmam(ə) isə ona diqqət yetirmir. Bir az söhbət edib İmamı(ə) dilə tutmaq istəyir. Amma İmam(ə) yenə də ona məhəl qoymur. O, belə olduğunu görüb İmamı(ə) tərk edərək birbaşa Həzrət Peyğəmbərin(s) qəbrini ziyarət etməyə gedir. Orada əyləşib ağlayır və yalvarmağa başlayır. O qədər ağlayıb yalvarır ki, onda mənəvi bir hal yaranır. Sonra giley-güzar edərək Həzrət Peyğəmbərə(s) şikayətlənir. Ürəyini boşaltdıqdan sonra yenə də İmam Sadiqin(ə) evinə gəlir. Qapını döyüb icazə istəyir. İmam(ə) özü qapını açır və onu hörmətlə qəbul edir. Sonra isə ona moizə edərək belə buyurur: “Sənə üç nəsihət edirəm. Birincisi budur ki, sən qulsan, Allah ağadır. Qul gərək öz ağasına təslim olsun. İkincisi budur ki, sən özün və hər nəyin vardırsa, O ağanındır. Sənə hər nə veribsə, lütf və mərhəmət edərək vermişdir. Üçüncüsü isə budur ki, Onun həm lütfü, kərəmi, rəhmət və mərhəməti, həm

də qəzəbi olduğunu başa düşməlisən.”[1]

Digər bir mətləb isə budur ki, “Əgər istəsəydik, gözlərini büsbütün kor edərdik,” - cümləsindən məlum olur ki, hər sözə baxmayanı və itaət etməyəni yerindəcə cəzalandırmaq da Allahın qanunu deyil. Allahın qanunu budur ki, insan azad şəkildə yaşasın və azad şəkildə iman gətirsin. Yəni bu dünyada heç bir kəsi məcbur etmir. Sadəcə yolu göstərir və hər kim hansı yolu seçirsə, öz ixtiyarı ilə seçməlidir.

Sonrakı 68-ci ayədə belə buyurur: “**Hər kəsə uzun ömür versək, onu xilqətcə dəyişib tərsinə çevirərik. Məgər (kafirlər bütün bunları gördükdən sonra Allahın hər şeyə qadir olduğunu) dərk etməzlərmi?”**

Bu ayədə də insanı məsx etməyə (surətini dəyişməyə) dair bir misal vardır. Ayədə işlənmiş “Nunəkkishu” sözünün kökü “tənkis”, leksik mənası isə bir şeyi tərsinə çevirməkdir. Elə çevirmə ki, baş ayağın yerinə, ayaq da başın yerinə gəlib çıxır. Bu ayə insanın uşaqlıq dövründən qocalmasına qədər davam edən prosesə işarə ola bilər. Yəni insanın yaşı artdıqca xilqəti də dəyişilir.

Bu ayəyə görə insan yaranışının əvvəlində (ana bətnində olarkən) zəif bir məxluqdur. Yavaş-yavaş təkamülə tərəf qədəm götürür. Günü-gündən inkişaf edir. Doğulduqdan sonra öz təkamülünə tərəf atdığı addımlarını davam etdirir. İlahinin bəxş etdiyi istedadla ardıcıl olaraq çiçəklənməyə başlayır. Cavanlıq dövrünə, sonra isə cismin ən son dövrünə qədəm qoyur. Bir müddətdən sonra əql də geriləməyə başlayır. Hərəkətlər, düşüncələr, hətta bəhanələr də uşaq hərəkətlərini, uşaq düşüncələrini və uşaq bəhanələrini xatırladır. Cisim və bədən də uşaq bədəni

---

[1] 40 mövzu, səh. 52.

kimi zəifləyir. Ancaq bir fərq var ki, bu uşaqlıq hərəkətləri uşaqlarda şirin, cazibəli görünür, lakin həmin hərəkətlər qocalmış bir insanda xoşa gəlmir və qəbul olunmur. Bu, hətta nifrətə də səbəb ola bilər. Məsələn, uşağın ağzının suyunun axması insana xoş gəlir, amma yaşlı və qoca bir insanın ağzının suyunun axması ikrah hissi yaradır. Ana öz övladının altını böyük sevgi və məhəbbətlə təmizləyir. Amma qoca bir insanın altını təmizlədikdə isə bundan iyrənir. Yaxud uşağın burnunun suyu axdıqda heç bir kəs ondan iyrənmir. Amma süfrə kənarında qoca bir adamın burnunun suyu axdıqda bu, ətrafdakıların ondan iyrənməsinə və hətta onların iştahalarının küsməsinə gətirib çıxarır. Valideyn uşağını bağçaya qoyduqda bir neçə saatdan sonra böyük fəxr və izzətlə gedib onu evə gətirir. Amma övlad öz valideynini qocalar evinə aparıb qoyduqda illərlə gedib ona baş çəkmir.

Deməli, bu ayələr bizə öyrədir ki, insan Allahın ona bəxş etdiyi nemətlərin qədrini bilməli, bu nemətlərdən və ona verilən möhlət və fürsətdən layiqincə istifadə etməlidir.

قَالَ رسولُ الله(ص): اِغتنم خمساً قبلَ خمسٍ: شبابك قبلَ هرِمك وصِحتك قبلَ سقَمِك و وغِناك قبلَ فقرِك وفراغَك قبلَ شغِلك و حياتك قبلَ موتِك

-Həzrət Peyğəmbər(s) buyurur: "Beş şeyin qədrini beş şeydən qabaq bil. Cavanlığının qədrini qocalmamışdan, sağlamlığının qədrini xəstələnməmişdən, ehtiyacsızlığının qədrini möhtac olmamışdan, rahatlığının qədrini giriftarlıqdan və sağlığının qədrini ölməmişdən qabaq bil."[1]

---

[1] Təfsiri-nümunə, 18-ci cild, səh. 437.

## 69-70-ci AYƏLƏRİNİN TƏFSİRİ

**ما علمناه الشعر وما ينبغي له إنْ هو إلا ذِكْر وقُرآنٌ مبين.٦٩.**

**لينذِر من كانَ حيا ويحِق القَولُ على الكافِرين.٧٠.**

**69. Və Biz Ona (Peyğəmbərə) şeir öyrətmədik və bu, ona heç yaraşmaz da. Onun oxuduğu yalnız bir öyüd-nəsihət, aşkar və aydınlıq gətirən Qurandır ki,**

**70. Onunla diri olanları (ağıl və bəsirət sahiblərini) qorxutsun və (Allahın) söz(ü və əzab vədi) kafirlərin barəsində gerçək olsun.**

Ötən ayələrdə tövhid və məad barədə söhbət olundu. İndiki iki ayədə isə nübüvvət barədə söz açılır. Bu ayələrdə Həzrət Peyğəmbərə(s) deyilən böhtanların ən məşhuruna işarə edilmişdir. Həmin böhtan Həzrət Peyğəmbərin(s) dediyi ayələrin şerə bənzədilməsidir. Müşriklər İslam Peyğəmbərini(s) şair adlandırmış və Allah tərəfindən gələn ayələrə isə şeir adı vermişdilər. Allah-təala bu ayədə dərhal onları ittiham edərək böhtanlarına da cavab verir və belə buyurur: "Və Biz Ona (Peyğəmbərə) şeir öyrətmədik və bu ona heç yaraşmaz da." Yəni Həzrət Peyğəmbər(s) sizi Allaha tərəf dəvət edərək Onun ayə və hökmlərini sizə çatdırırsa, ölüm, qiyamət, cənnət və cəhənnəmin olduğundan xəbər verirsə, elə düşünməyin ki, o, sizin üçün şeir oxuyur. Onun sizə oxuduğu yalnız bir öyüd-nəsihət, aşkar və aydınlıq gətirən Qurandır. O, sizə Allahın hökmlərini gətirmişdir. O, sizə nəyin vacib, nəyin haram olduğunu, habelə müstəhəb və məkruh kimi əməlləri öyrədir. Bunun vasitəsilə diriləri getdikləri səhv yolun acınacaqlı aqibətindən qorxutsun. Yəni Həzrət Peyğəmbər(s) diri, gözüaçıq və ağıllı insanları başa salır ki, müşriklərin, fasiqlərin, münafiqlərin

və İslamı sadəcə olaraq dildə qəbul edib hökmlərinə əməl etməyənlərin getdikləri yolun aqibəti çox pisdir. Ayənin sonunda Həzrət Peyğəmbərə(s) qulaq asmayan, öz küfrlərində qalan insanlara höccət tamamlanır və Allahın əzabının onların barəsində gerçəkləşməsi bəyan olunur.

Sual oluna bilər ki, "Və Biz Ona (Peyğəmbərə) şeir öyrətmədik və bu ona heç yaraşmaz da" - ayəsində məqsəd nədir? Cavab olaraq demək olar ki, bu ayənin iki məqsədi var. Birincisi, yuxarıda qeyd olunduğu kimi, heç bir kəs düşünməsin ki, Həzrət Peyğəmbərin(s) oxuduğu ayələr şeirdir. Onun oxuduğu hər bir ayə Allahın kəlamı və hökmləridir. İkincisi isə budur ki, o zamanlar müşriklər şeir məclisləri qurub hərə öz yazdığı şeirləri oxuyardılar. İslam Peyğəmbəri(s) belə bir dövrdə peyğəmbərliyə məbus olmuşdu. O zamanlar ərəbistanda ədəbiyyata çox üstünlük verirdilər. Hər kəs nə bilirdisə, qələmə alıb şeir kimi yazardı. Bəzən də hərə öz şerinin altından adını yazıb Kəbə divarlarından asırdılar. Sonra maraqlanmaq üçün bir-birinin şerini də oxuyardılar.

Bundan əlavə, bütün ərəb qəbilələri hər il haram aylarda[1] ticarət məqsədilə Məkkə ilə Taifin arasındakı məşhur Ukkas bazarında toplaşardılar. Bu aylar sərbəst və müharibəsiz olduğundan onların bir yerə toplaşması üçün əlverişli idi. Çünki bu aylar istisna olmaqla, digər günlərdə ərəb qəbilələri daim bir-biri ilə müharibə edərdilər. Buna görə də həmin dörd ayda bütün ərəb qəbilələri ticarət etmək məqsədilə göstərilən bazara gələrdilər. Ticarət etmək üçün kimi ora heyvan, kimi qızıl, kimi xalça-palaz və s. gətirib alver edərdilər.

---

[1] Ərəblərin təqvimində zilqədə, zilhəccə, məhərrəm və rəcəb ayları İslamdan əvvəl də haram aylar hesab olunurdu. Bu aylarda heç bir qəbilə müharibə etməzdi.

Eyni zamanda ədəbiyyatçılar yazdıqları əsər və kitablarını, şairlər də öz şeirlərini ora gətirərdilər. Bir sözlə desək, kimin nəyi var idisə, həmin bazara gətirərdilər. Hətta bir-biri ilə ixtilafı olan insanlar da həmin bazarda hakim təyin edərək məhkəmə qurub aralarındakı məsələni həll edərdilər. Belə bir zamanda Həzrət Peyğəmbər(s) məbus olub Allahın nazil etdiyi ayələri orada hamı üçün oxudu. Quran ayələri onların arasında inqilab yaratdı. Belə ki, şair və ədəbiyyatçılar Quranın gözəl, fəsahətli və bəlağətli ayələrini eşitdikdə öz yazdıqları şeirlərdən utanırdılar. Başa düşürdülər ki, onların yazdıqları əsər və şeirlər Quran ayələrinin yanında çox dəyərsiz bir şeydir. Buna görə də Həzrət Peyğəmbər(s) ayə və surələri oxuyarkən onlar öz şeirlərini gizlədirdilər.

Vəlid ibn Müğeyrə Məkkədə tanınmış fəsahətli və bəlağətli bir şəxs idi. O, Qüreyş tayfasında ərəb ədəbiyyatını çox gözəl bilən bir şəxs idi. Camaat onu “Reyhanətül-ədəb” - “Ədəbiyyatın gülü” deyə çağırırdılar. Vəlid ibn Müğeyrə elə bir insan idi ki, onun qələmindən və dilindən yeni-yeni ədəbi nümunələr yaranırdı. Onun elmlə yanaşı, çoxlu mal-dövləti, mülkləri və övladları var idi.

Günlərin birində Məscidül-Həramda “Səcdə” surəsi nazil olarkən Həzrət Peyğəmbər(s) həmin surəni camaata oxudu. Vəlid ədəbiyyatşünas olduğundan bu surəni eşitdikdə ondan çox böyük zövq aldı. Odur ki, Darün-nədvəyə - öz qövmünün yanına gəlib dedi:

واللّٰهِ لَقَد سمِعت مِن محمدٍ كَلاما ما هو مِن كَلامِ الْإِنسِ، ولا مِن كَلامِ الْجِن! وإن لَه لَحلاوةً، وإن علَيهِ لَطَلاوةً، وإن أعلاه لَمثْمِر، وإن أسفَلَه لَمغدِق، وإنه لَيعلو وما يعلى

-And olsun Allaha ki, Məhəmməddən(s) eşitdiyim sözlər nə insanların, nə də cinlərin sözünə oxşamır. İndiyə qədər belə sözlər eşitməmişdim. Onun sözlərinin xüsusi şirinliyi və ürəyəyatan gözəlliyi vardır. Onun sözlərinin meyvəli budaqları və möhkəm kökləri var. Onun sözləri bütün insanların sözlərindən üstün və dəyərlidir. O sözlər bütün sözlərdən üstündür. Heç bir söz o sözlərdən üstün ola bilməz.

Vəlid bu sözləri deyəndən sonra öz evinə qayıtdı. Onun tayfasındakı adamlar bir-birinin üzünə baxıb dedilər: "Deyəsən, Məhəmmədin sözləri Vəlidin qəlbinə təsir göstərib. Əgər Vəlid ona tabe olarsa, biz məğlub olacağıq." Əbu Cəhl Vəlidin qardaşı oğlu idi. O, Vəlidi yola gətirməyi boynuna götürdü və dedi: "Mən buna bir əlac edərəm." Əbu Cəhl bunu deyib Vəlidin evinə gəldi və özünü ona çox narahat göstərdi. Vəlid onun nə üçün belə narahat olduğunu soruşduqda Əbu Cəhl dedi: "Mənim narahatlığım budur ki, camaat sənin barəndə bəzi sözlər danışır. Biz də camaatın sənin barəndə dediyi sözlərdən çox narahat oluruq." Vəlid soruşdu: "Camaat mənim barəmdə hansı sözləri danışır?" Əbu Cəhl dedi: "Camaat arasında belə bir söz gəzir ki, Vəlid qoca bir adamdır və Abdullahın oğlu ona bir vəzifə, şan-şöhrət versin deyə İslamı qəbul etmək istəyir."

Beləcə, Əbu Cəhl bu kimi sözlərlə Vəlidi qıcıqlandırdı. Vəlid onun bu sözlərindən qəzəblənərək qövmünün yanına gəlib dedi: "Siz Məhəmmədin dəli olduğunu güman edirsiniz?!" Dedilər: "Xeyr." Vəlid dedi: "Siz güman edirsiniz ki, Məhəmməd kahindir?!" Dedilər: "Xeyr." Vəlid dedi: "Siz Məhəmmədin şair olduğunu güman edirsiniz?!" Dedilər: "Xeyr." Vəlid dedi: "Siz elə bilirsiniz ki, Məhəmməd yalançıdır?!" Dedilər: "Xeyr. Əgər belədirsə, onda sən

özün onun barəsində nə fikirləşirsən?” Vəlid bir az fikirləşdikdən sonra üzünü turşudaraq qəzəblə dedi: “Mənə belə gəlir ki, Məhəmməd yalnız bir cadugərdir. Çünki o, bütün ailələr arasında ayrılıq salıb.”

Bu hadisədən sonra Allah-təala onun barəsində “Müddəssir” surəsinin 11-26-cı ayələrini nazil etdi.

ذَرِني ومن خلَقْت وحِيدا. وجعلْت لَه مالًا ممدودا. وبِنين شهودا. ومهدت لَه تمهيدا. ثُم يطْمع أنْ أَزِيد. گلا إنه گانَ لِآياتِنا عِنيدا. سأُرهِقُه صعودا. إنه فَكر وقَدر. فَقُتِلَ گيف قَدر. ثُم قُتِلَ گيف قَدر. ثُم نظَر. ثُم عبس وبسر. ثُم أَدبر واستكْبر. فَقَالَ إنْ هذَا إلا سِحر يؤثَر. إنْ هذَا إلا قَولُ الْبشرِ. سأُصلِيهِ سقَر.

-(Ya Peyğəmbər!) Məni Öz yaratdığım kimsə ilə tək burax! (Vəlid ibn Müğeyrə kimi kafirin cəzası yalnız Mənim öhdəmdədir!). Mən ona bolluca mal-dövlət əta etdim; Yanında hazır duran oğullar (verdim); Ona hər şeyi artıqlaması ilə müyəssər etdim (sərvət və mənsəbi ayağının altına döşədim). (Bütün bunlardan) sonra yenə də (var-dövlətini) artırmağımı istəyir. Xeyr (bu ola bilməz). Çünki o, ayələrimizə qarşı inadkar oldu. Mən onu məşəqqətli bir əzaba düçar edəcəyəm! O (Quran barəsində) fikirləşdi və (orada deyilənləri öz fikrində) ölçdü-biçdi. Ölüm olsun ona! Necə ölçdü-biçdi? Bir də ölüm olsun! Necə ölçdü-biçdi? Sonra (qövmünün üzünə) baxdı. Sonra üz-gözünü turşutdu, qaş-qabağını tökdü. Sonra da (imandan) üz çevirdi. (Peyğəmbərə tabe olmağa) təkəbbür göstərdi. Və dedi: Bu (sehrbazlardan) öyrənilən sehrdən başqa bir şey deyildir! Bu, yalnız bəşər sözüdür! Biz onu Səqərə atacağıq (orada yandıracağıq).

Vəlid Həzrət Peyğəmbərdən(s) öz qulaqları ilə Quran ayələrini eşidərkən həqiqəti söylədi. Öz adamlarının yanında dedi ki, Məhəmmməddən(s) eşitdiyim sözlər nə insanların, nə də cinlərin sözünə oxşamır. İndiyə qədər belə sözlər eşitməmişdim. Amma Əbu Cəhl onu qıcıqlandırdıqdan sonra daxilindəki nəfsi istəkləri baş qaldırdı. Buna görə də dediyi sözləri geri götürdü və Peyğəmbəri(s) cadugər adlandırdı. Həmçinin dedi ki, Məhəmmədin(s) söylədikləri bəşər sözündən başqa bir şey deyil.

Onlar öz şeirlərini yazıb Kəbənin divarından asarkən, yaxud bazarda şeir oxuyarkən Həzrət Peyğəmbər(s) də insanlara Quran ayələrini tilavət edirdi. Onlar açıq-aydın görürdülər ki, yazdıqları şeirlər Quran ayələrinin qarşısında çox cılız və qiymətsizdir. Gördülər ki, belə getsə, onlar məğlub olacaqlar. Buna görə də Həzrət Peyğəmbərlə(s) mübarizə aparmağa başladılar. Onlar Həzrət Peyğəmbərə(s) qarşı bir neçə mübarizə yolu seçdilər.

Birinci yolları bu idi ki, onlar Həzrət Peyğəmbərin(s) oxuduğu ayələrə qulaq asmağı öz aralarında qadağan etdilər. Çünki Həzrət Peyğəmbərin(s) kəlamları hamının qəlbinə təsir göstərirdi və Həzrət(s) oxuduğu ayələrlə onları məftun edirdi. Həzrət Peyğəmbərin(s) həm səsi, həm ayələri oxumağı, həm danışığı insanları özünə cəlb edirdi. Buna görə də müşriklər qərar qəbul etdilər ki, bundan sonra daha heç kim onun oxuduğu ayələrə qulaq asmasın.

Bütün bunlara baxmayaraq, Həzrət Peyğəmbər(s) gecəyarısı evində Quran oxuyarkən elə qadağa qoyanların özləri heç kəsin xəbəri olmadan gizlicə gəlib evin həndəvərində gizlənər və Həzrətin(s) oxuduğu ayələrə qulaq asardılar.

Əbu Süfyan, Əbu Cəhl və Əxnəs ibn Şüreyq Qüreyş qəbiləsinin başçılarından və ən çox düşmənçilik edənlərdən

idilər. Onlar belə bir-birindən xəbərsiz gedib Peyğəmbərin(s) oxuduğu ayələrə gizlicə qulaq asıb qayıdırdılar. Gecələrin birində onlar yenə də bir-birindən xəbərsiz Məkkədə Həzrət Peyğəmbərin(s) evinin kənarında əyləşib, Həzrətin(s) oxuduğu ayələrə qulaq asırdılar. Qulaq asıb qayıdarkən bir-birini gördülər və burada nə etdiklərini soruşdular. Üçünün də sirrinin üstü açıldı.  Söz verdilər ki, bir daha bura gəlməyəcəklər.

Səhərisi gün gecə hər üçü bir-birindən xəbərsiz yenə də Peyğəmbərin(s) evinin ətrafına gəldilər. Peyğəmbərin(s) oxuduğu ayələrə qulaq asdıqdan sonra qayıdarkən yenə də bir-biri ilə rastlaşdılar. Yenə də bir-biri ilə danışıb bir daha bura gəlməyəcəklərinə söz verdilər. Üçüncü gecə həmin hadisə yenə də baş verdi. Bu dəfə bir daha bura gəlib Peyğəmbərin(s) sözlərinə qulaq asmayacaqlarına and içib əhd-peyman bağladılar. Hərə öz evinə getdi.[1]

Ondan sonra öz adamlarından bir qrup insanı öyrətdilər ki, Peyğəmbər(s) camaata Quran ayələrini oxuyarkən onlar əl çalıb səs-küy salsınlar. Belə olduqda daha camaat Peyğəmbərin(s) oxuduğu ayələri eşidə bilməzlər. Çünki hər kim Peyğəmbərə(s) qulaq asırdısa, ayələr onun qəlbinə güclü təsir göstərirdi. Ona görə də onlar gəlib camaat arasında dayanar və Həzrət Peyğəmbər(s) Quran ayələrini oxuyarkən əl çalıb qışqıraraq hay-küy salırdılar. Bu barədə "Fussilət" surəsinin 26-cı ayəsində belə oxuyuruq:

وقَالَ الذِين كَفَروا لَا تسمعوا لِهٰذَا الْقُرآنِ والْغوا فِيهِ لَعلكُم تغلِبونَ

-Kafir olanlar (öz dostlarına): "Bu Quranı dinləməyin, o oxunduqda (eşidilməsin deyə) səs-küy (şuluqluq) salın ki, bəlkə, (bununla Məhəmmədə) qalib gələsiniz!" – dedilər.

---

[1] Günahın cəzası, səh. 388.

“Ənfal” surəsinin 35-ci ayəsində bəyan olunur ki, onlar Kəbənin ətrafında fit verib əl çalırdılar.

O zamanlar insanlar o qədər nadan idilər ki, özlərinin sözə qulaq asmamaları bir tərəfə, başqalarına da imkan vermirdilər ki, haqqı eşitsinlər. Amma bundan daha pisi elm və texnologiyanın günü-gündən inkişaf etdiyi bizim öz dövrümüzdür. Əgər o dövrdə haqq səsin qulaqlara çatmaması üçün fit verib əl çalırdılarsa, bu gün elə bir iş görmək üçün müxtəlif texniki vasitələrdən istifadə olunur. Məsələn, əgər televiziyada haqq-həqiqəti söyləmək üçün Quranı insanlara bəyan etmək, camaatın dərdinə dəyən sözü söyləməkdən ötrü bir kanal açılırsa, onun səsini kəsmək üçün əleyhinə yüzlərlə kanal açırlar. Yaxud o kanalın dalğasını başqa dalğalarla vurub itirməyə çalışırlar ki, camaat o kanala baxmasın.

Amma müşriklər Həzrət Peyğəmbərin(s) səsinin camaata çatmasına mane ola bilmədilər. Nə qədər hay-küy salsalar da belə Həzrət Peyğəmbər(s) öz dəvətindən əl çəkmədi. Sonra müşriklər ikinci yola əl atdılar. Belə ki, Nəzr ibn Haris kimi yaddaşı güclü olan adamlara camaatı başına toplayaraq onlar üçün nağıl və əhvalatlar danışmaq tapşırmaqla insanları Peyğəmbərdən(s) uzaqlaşdırmaq qərarına gəldilər. Nəzr ibn Harisin güclü yaddaşı və yaxşı nitqi var idi. O, ticarət məqsədi ilə İrana gedib gəlirdi. Onu da öyrətmişdilər ki, İrana gedib gələrkən orada Rüstəm Zal və İsfəndiyarın əhvalatları kimi əsası və kökü olmayan qədim dastan və nağıllardan öyrənib gəlsin və camaatı başına toplayıb onlar üçün şirin- şirin danışsın. Düşünürdülər ki, bəlkə bu yolla camaatı Peyğəmbərdən(s) ayıra bilərlər. Nəzr ibn Haris də əsassız dastan və nağılları öyrənib gəlir və onları camaat üçün danışırdı. Peyğəmbər(s) camaata Ad, Səmud qövmünün, Nuh(ə), Musa(ə), İsa(ə)

və b. kimi peyğəmbərlərin əhvalatlarını danışarkən Nəzr ibn Haris də camaat üçün Rüstəm və İsfəndiyar kimi nağıl qəhrəmanları haqda danışardı. Bundan əlavə, onlar bu cür əsassız və mənasız nağıllarla camaatı özlərinə tərəf çəkmək istəyirdilər.

Həmçinin üçüncü yoldan da istifadə etmək qərarına gəldilər. Onlar Peyğəmbərlə(s) görüşüb söhbət etməyi həm özlərinə, həm də Məkkəyə gələnlərə qadağan etdilər. Hər kim Məkkə şəhərinə gəlirdisə, onun beynini puç sözlərlə doldururdular ki, birdən Peyğəmbərdən(s) bir söz eşitsə ona təsir göstərməsin.

Əsəd ibn Zürarə Mədinədə yaşayırdı. O zaman Mədinədə iki böyük qəbilə var idi. Biri Ovs, digəri isə Xəzrəc qəbiləsi idi. Əsəd ibn Zürarə Xəzrəc qəbiləsindən idi. Ovs və Xəzrəc qəbiləsi həmişə bir-biri ilə müharibə edərdilər. Həzrət Peyğəmbər(s) onların arasında mehribançılıq yaradıb onları barışdırdı. Əsəd hər il Məkkəyə gəlib oradakı dostlarından yardım alıb aparırdı ki, müharibə vaxtı istifadə etsinlər. Hər il olduğu kimi, bir gün yenə də Məkkəyə gəlmişdi. Dostlarından biri olan Ütbə ibn Rəbiə ilə görüşüb söhbət etdikdən sonra yardım istədi. Ütbə dedi: “Məkkədə vəziyyət çox ağırdır. Bu dəfə sizə heç bir köməklik göstərə bilməyəcəyik. Şəhərdə Məhəmməd adlı bir nəfər peyda olub və peyğəmbərlik iddiası edərək bütpərəstliyə qarşı mübarizə aparır. Əlimizdə olan hər nə varsa onun əleyhinə xərcləyirik.” Əsəd dedi: “O kimdir? Başqa yerdənmi gəlib?” Ütbə dedi: “Xeyr. Elə öz yerlimizdir.” Əsəd soruşdu: “Onun keçmişi necə olub?” Ütbə dedi: “Keçmişdə də, indi də hamı onu əmin bir insan kimi tanıyır.”

Onlar bir az söhbət etdikdən sonra Əsəd soruşdu: “Hazırda Məhəmməd haradadır?” Ütbə dedi: “Kəbənin

kənarında, Hicri-İsmayılda camaat üçün söhbət edir.” Əsəd dedi: “Onunla görüşə bilərəmmi?” Ütbə dedi: “Bu, çox təhlükəlidir.” Əsəd dedi: “Elə isə mən Kəbəni təvaf etməyə gedirəm.” Ütbə dedi: “Qulaqlarına pambıq tıxa ki, onun sözlərini eşitməyəsən.”

Əsəd qulaqlarına pambıq tıxayıb Kəbəni təvaf etməyə başlayır. Gözaltı Hicri-İsmayıla baxdıqda görür ki, bir nəfər söhbət edir və neçə nəfər də onun ətrafında əyləşib ona diqqətlə qulaq asırlar. Həm danışan gözəl danışır, həm də qulaq asanlar onu eşqlə dinləyirlər. Sanki onların qəlbləri bir-birinə bağlıdır. Təvafın ortasında öz-özünə deyir: “Mən nə üçün qulaqlarıma pambıq tıxamışam. Yaxşısı budur ki, baxım görüm o nə danışır? Əgər yaxşı söz danışırsa, nə üçün qəbul etməməliyəm.” Elə bu fikirlə qulaqlarından pambığı çıxarıb Həzrət Peyğəmbərə(s) yaxınlaşdı. Salam verdikdən sonra soruşdu: “Ey Məhəmməd, sən bizi nəyə dəvət edirsən?” Həzrət Peyğəmbər(s) buyurdu: “Mən sizi Allahın vəhdaniyyətinə (tövhidə) dəvət edirəm və bilin ki, mən də Onun elçisiyəm.”

Əsəd soruşdu: “Allah sənə camaata çatdırmaq üçün hansısa sözləri buyurubmu?” Həzrət Peyğəmbər(s) buyurdu: “Əlbəttə.” Əsəd dedi: “Olarmı Allahın buyurduqlarından bir neçəsini mənə deyəsən?” Həzrət Peyğəmbər(s) bu ayələri onun üçün oxudu:

وَلَا تَقْرَبُوا مَالَ الْيَتِيمِ إِلَّا بِالَّتِي هِيَ أَحْسَنُ حَتَّىٰ يَبْلُغَ أَشُدَّهُ وَأَوْفُوا الْكَيْلَ وَالْمِيزَانَ بِالْقِسْطِ لَا نُكَلِّفُ نَفْسًا إِلَّا وُسْعَهَا وَإِذَا قُلْتُمْ فَاعْدِلُوا وَلَوْ كَانَ ذَا قُرْبَىٰ وَبِعَهْدِ اللَّهِ أَوْفُوا ۚ ذَٰلِكُمْ وَصَّاكُمْ بِهِ لَعَلَّكُمْ تَذَكَّرُونَ. وَأَنَّ هَٰذَا صِرَاطِي مُسْتَقِيمًا فَاتَّبِعُوهُ وَلَا تَتَّبِعُوا السُّبُلَ فَتَفَرَّقَ بِكُمْ عَنْ سَبِيلِهِ ذَٰلِكُمْ وَصَّاكُمْ بِهِ لَعَلَّكُمْ تَتَّقُونَ

-Yetimin malına, xeyirxah məqsəd (onu qoruyub saxlamaq, çoxaltmaq) istisna olmaqla, həddi-büluğa çatana qədər yaxın düşməyin. Ölçüdə və çəkidə düz olun. Biz hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyirik. Söz söylədiyiniz zaman (lehinə və ya əleyhinə danışdığınız adam) qohumunuz olsa belə, ədalətli olun. Allah qarşısındakı əhdi (dini vəzifələrinizi, andlarınızı) yerinə yetirin. (Allah) bunları sizə tövsiyə etmişdir ki, bəlkə düşünüb öyüd-nəsihət qəbul edəsiniz! Bu, şübhəsiz ki, Mənim doğru yolumdur. Onu tutub gedin. Sizi (Allahın) yolundan sapdıracaq yollara uymayın. (Allah) sizə bunları tövsiyə etdi ki, pis əməllərdən çəkinəsiniz!”[1]

Əsəd bu ayələrə qulaq asdıqca elə təsirləndi ki, birdən-birə uca səslə dedi: “Şəhadət verirəm ki, Allahdan başqa heç bir məbud yoxdur. Şəhadət verirəm ki, sən Allahın Rəsulusan.”

Odur ki, müşriklər Həzrət Peyğəmbərlə(s) mübarizə etmək üçün müxtəlif yollara əl atdılar. Lakin onların bütün planları boşa çıxdı və istədiklərinə nail ola bilmədilər. Həzrət Peyğəmbər(s) isə bu yolda qalib oldu.

Müşriklərin Həzrət Peyğəmbərin(s) əleyhinə qurduqları planlarının və əl atdıqları yolların puça çıxması onlara çox ağır gəlirdi. Lakin onlar öz inadkarlıqlarından əl çəkməyib daha bir yola da əl atdılar. Belə ki, Həzrət Peyğəmbərə(s) böhtan ataraq deyirdilər ki, onun oxuduğu sözlər qarışıq yuxular, özündən uydurulmuş sözlər və şeirlərdir. Əgər o, doğrudan da peyğəmbərdirsə, onda keçmiş peyğəmbərlər kimi möcüzə göstərsin. Allah-təala “Ənbiya” surəsinin 5-ci ayəsində onların Həzrət Peyğəmbərə(s) atdıqları böhtanı belə bəyan edir:

---

[1] Ənam surəsi, 152-153-cü ayələr.

بلْ قَالُوا أَضغاثُ أَحلَامٍ بل افْتراه بلْ هو شاعِر فَلْيأْتِنا بِآيةٍ كَما أُرسِلَ الْأَولُونَ

-(Peyğəmbər onlara Quran ayələrini və Allahın hökmlərini oxuyarkən) Onlar (müxtəlif fikirlərə düşərək) belə dedilər: “Xeyr, (bu Quran) qarmaqarışıq yuxulardır; xeyr, onu özü uydurmuşdur; xeyr, o, bir şairdir. (Əgər o, həqiqi peyğəmbərdirsə, bunu sübut etmək üçün) qoy əvvəlki peyğəmbərlərə göndərilən möcüzələr kimi bizə bir möcüzə gətirsin!”

“Saffat” surəsinin 35-36-cı ayələrində oxuyuruq:

إِنهم كَانوا إِذَا قِيلَ لَهم لَا إِلَٰه إِلا الله يستكْبِرونَ. ويقُولُونَ أَئِنا لَتارِكُو آلِهتِنا لِشاعِرٍ مجنونٍ

-Onlara “Yeganə olan Allahdan başqa heç bir tanrı yoxdur!” - deyildiyi zaman təkəbbür göstərirdilər. Və deyirdilər: “Yəni doğrudan biz divanə bir şairə görə öz tanrılarımızı tərk edək?!”

Allah-təala onlara cavab verərək “Yasin” surəsinin 69-70-ci ayələrində belə buyurur:

ما علمناه الشعر وما ينبغِي لَه إِنْ هو إِلا ذِكْر وقُرآنٌ مبِين. لِينذِر من كَانَ حيا ويحِق الْقَولُ علَى الْكَافِرِين.

-Və Biz Ona (Peyğəmbərə) şeir öyrətmədik və bu, ona heç yaraşmaz da. Onun oxuduğu yalnız bir öyüd-nəsihət, aşkar və aydınlıq gətirən Qurandır ki; Onunla diri olanları (ağıl və bəsirət sahiblərini) qorxutsun və (Allahın) söz(ü və əzab vədi) kafirlərin barəsində gerçək olsun.

Həzrət Peyğəmbərin(s) yolu şairlərin tutduqları yoldan tamamilə fərqli bir yoldur. Şairlərin üç özünəməxsus xüsusiyyəti

vardır. Birincisi budur ki, onların ardınca gedənlər yolunu azmışlardır. İkincisi budur ki, şairlərin hədəf və məqsədləri yoxdur. Hansı dildə olur-olsun, xoşuna gələn bir şey barəsində qafiyə düzəldib şeir yazır. Üçüncüsü isə budur ki, şairlər öz sözlərinə belə əməl etməzlər.

Allah-təala "Şüəra" surəsinin 224-226-cı ayələrində belə buyurur:

والشعراء يتبعهم الْغاوونَ. أَلم تر أنهم في كُل وادٍ يهيمونَ. وأَنهم يقُولُونَ ما لَا يفْعلُونَ

-Şairlərə yalnız azğınlar tabe olarlar (uyarlar). Məgər görmədinmi ki, onlar hər bir vadidə (xəyallar aləmində) dərbədərdirlər? Və onlar özləri etmədikləri şeyləri deyirlər?!

Allah-təala buyurur ki, Həzrət Peyğəmbərə(s) qətiyyən şeir oxumaq olmaz. Biz ona şeir oxumağı öyrətmədik və bu, ona heç yaraşmaz da. Allah rəhmət eləsin Molla Məhəmməd Füzuliyə. O, bu məsələni nəzmə çəkərək belə yazmışdır:

*Ol düri dürci ənə əfsəh ki hikmət dayəsi,*
*Şeri şəhdilə ləbi canpərvərin tər qılmamış.*
*Şeir bir zirvədür, əmma biz kimi naqislərə,*
*Ol ki, kamildir, onu möhtaci zivər qılmamış.*

Füzuli bununla demək istəyir ki, Həzrət Peyğəmbər(s) hara, şeir hara? Şeir biz kimi naqis adamlar üçündür. Kamil insana şeir nə gərəkdir? Şeirlə bizim kimi naqislər özümüzü bəzəyirik. Onunsa bəzəyi şeirdən qat-qat yuxarıdır.

Həzrət Peyğəmbər(s) hətta şeir şəklində olan zərbi-məsəlləri belə qafiyədən çıxarıb adi cümlə kimi söyləyərdi. Məlumdur ki, bir sıra zərbi-məsəllər var ki, onları şeir kimi demişlər. Məsələn, belə atalar sözlərindən biri belədir:

*Əbləh odur bu dünyada qəm yeyə,*
*Tanrı bilər, kim qazana, kim yeyə.*

Bu bir zərbi-məsəldir ki, şeir kimi nəzmə çəkmişlər. Həzrət Peyğəmbər(s) zərbi-məsəl deyə bilərdi. Amma əgər bu məsəllər şeir kimi olsaydı, Həzrət(s) onu rədif və qafiyədən çıxarıb sadə bir cümlə ilə söyləyərdi. Məsələn, ərəblərin məşhur və tanınmış şairlərindən biri zərbi-məsəli nəzmə çəkərək belə oxumuşdu:

ستبدِي لَك الأيام ما كُنت جاهِلا ويأْتيك ِبالأخبارِ من لَم تزودِ

Bu məsəlin tərcüməsi belədir:

-Tezliklə zaman sənin agah olmadığın həqiqətləri üzə çıxarar və azuqə ehtiyatları tədarük görmədiyin şəxslər sənə məlumatlar gətirərlər.

Həzrət Peyğəmbər(s) bu zərbi-məsəli oxuyarkən sözləri rədif və qafiyədən çıxararaq sadə cümlə ilə belə söyləyərdi:

ويأتيك ِبالأخبارِ من لَم تزوّد

Məsələn, Azərbaycan dilində şeir kimi deyilən bu zərbi-məsəli (“Əbləh odur bu dünyada qəm yeyə - Tanrı bilər, kim qazana, kim yeyə”) şeir formasından çıxarıb belə də demək olar: “Bu dünyaya görə qəm çəkən əbləh insandır. Kimin qazanıb kimin yeyəcəyini Allah bilir.”

Bunu deməkdə məqsəd odur ki, Həzrət Peyğəmbər(s) qətiyyən şeir oxumazdı. Hətta zərbi-məsəllər şeir kimi olsaydı da belə onun rədif və qafiyəsini dəyişərək şeirlikdən çıxarıb sadə cümlə ilə söyləyərdi.

Burada incə və dəqiq bir mətləb vardır. Qurani-Kərimdə şeir və şairliyin belə tənqid edilməsi insanda təəccüb doğurur və bir sıra suallar yaradır. Əgər şeir və şairlik belə tənqid olunursa, bəs dünyadakı bu qədər şairlər

necə olsun? Bu sualın cavabını Quran özü bəyan etmişdir. Yəni Quran şeir və şairliyi tənqid etməklə yanaşı, istisna halları da bəyan edərək “Şüəra” surəsinin 224-227-ci ayələrində belə buyurulur:

والشعراء يتبعهم الْغاوونَ. أَلم تر أنهم في كُل وادٍ يهيمونَ. وأَنهم يقُولُونَ ما لَا يفْعلُونَ. إلا الذِين آمنوا وعمِلُوا الصالِحاتِ وذَكَروا الله كَثِيرا وانتصروا مِن بعدِ ما ظُلِموا وسيعلَم الذِين ظَلَموا أي منقَلَبٍ ينقَلِبونَ

-Şairlərə yalnız azğınlar tabe olarlar (uyarlar). Məgər görmədinmi ki, onlar hər bir vadidə (xəyallar aləmində) dərbədərdirlər? Və onlar özləri etmədikləri şeyləri deyirlər?! Ancaq iman gətirib yaxşı işlər görən, Allahı çox zikr edən, zülmə uğradıqdan (Peyğəmbər və İslam əleyhinə həcv eşitdikdən) sonra (onların rəddi üçün şeirlər yazmaqla) intiqam alanlardan başqa! Zülm edənlər tezliklə biləcəklər ki, necə bir dönüş yerinə qaytarılacaqlar.

Deməli, ayədə iman gətirən, saleh işlər görən, Allahı çox zikr edən, Peyğəmbər və dini müdafiə edərək zülmə qarşı çıxıb intiqam alan şairlər istisnadır.

Şeir qılınc kimidir, bəlkə ondan daha da itidir. İnsan şeir vasitəsilə həqiqəti müdafiə edə bilər. Şeir var ki, mənasız və boş sözlərdən başqa bir şey deyil. Əvvəldən axıradək bütün sözlərinin 10 qəpik belə dəyəri yoxdur. Amma şeir də var ki, dəyəri çox yüksək olduğundan insanı məqsədə çatdırar. Buna görə də hədislərdə haqq-həqiqəti bəyan etmək üçün yazılan şeirlər və həmin şeirləri qələmə alan şairlər təşviq olunmuşdur. Məsələn, İmam Rza(ə) belə buyurmuşdur:

من قَالَ فِينا بيت شِعرٍ بنى اللهُ تعالى له بيتاً فِي الْجَنّة

-Hər kim biz Əhli-beytin barəsində bir beyt şeir yazsa, Allah-təala onun üçün cənnətdə bir ev ucaldar.

Həzrət Peyğəmbər(s) buyurmuşdur:

إنَّ مِن الشِّعر حِكْمةً

-Bəzi şeirlər hikmətdir.

Şahi Əhli-beyt(ə) şairlərindən biridir. O, bu barədə belə bir misra yazmışdır:

*Bu nüktələr ki, sənə Hatif öyrədir, Şahi,*
*Hüseynə and ola hikmətdir, hikmət ölməyəcək.*
*Bəşər ki, eşqilə tapdı şərafət, ölməyəcək,*
*Ölən bədəndir, şərəf ta qiyamət ölməyəcək.*

Şəxsən Həzrət Peyğəmbər(s) özü haqq-həqiqəti yazan şairləri təşviq edərdi. Rəvayətlərdə belə nəql olunur ki, şairlərdən biri öz şeri ilə düşmənə zərbə vurub İslamı müdafiə edərkən Həzrət Peyğəmbər(s) ona buyurdu: "Onları (öz şeirlərinlə) məhv et. Həqiqətən, Cəbrayıl(ə) səninlədir." Sonra buyurdu: "And olsun Məhəmmədin canı Onun əlində olan o kəsə ki, öz sözlərinlə sanki düşmənə ox yağdırırsan."

Kəb ibn Malik mömin şairlərdən biri idi. Günlərin birində o, Həzrət Peyğəmbərdən(s) soruşdu: "Şeir və şairləri tənqid edən ayələr nazil oldu. Bəs biz nə edək? Həzrət Peyğəmbər(s) buyurdu: Mömin öz dinini canı, qılıncı və dili ilə müdafiə edər."[1]

Yəni "dili ilə müdafiə edər" - dedikdə, möminin istər danışığı, istərsə də şeir söyləməklə öz dinini müdafiə edərək cihad etməsi nəzərdə tutulur.

Həssan ibn Sabit Ənsarlardan olub, o dövrün əvəz-olunmaz bir şairi idi. O, yüz iyirmi il yaşamışdı. Altmış

---

[1] Təfsiri-nümunə, 15-ci cild, səh. 383.

yaşına qədər cahillik dövründə, ömrünün digər yarısını isə müsəlman kimi yaşamışdır. Həssan həmişə şeir və sözləri ilə Həzrət Peyğəmbəri(s) və İslamı müdafiə edərdi. Müşriklərin Peyğəmbərə(s) qarşı oxuduğu şeirlərə dərhal cavab verər və onların ağzını yumardı.

Günlərin birində müşriklərdən üç nəfər Həzrət Peyğəmbəri(ə) təhqir etdi. Onlardan biri Əbu Süfyan, biri Əmr ibn As və üçüncüsü isə Zirar ibn Xəttab idi. Həzrət Əli(ə) ayağa qalxıb onlara cavab vermək istədikdə Həzrət Peyğəmbər(s) onu mane oldu və üzünü səhabələrə tutaraq buyurdu: "Kim məni müdafiə edib onların bu təhqirinə tutarlı cavab verər?" Elə bu zaman Həssan ayağa qalxıb ərz etdi: "Ya Rəsulallah, izn verin mən onlara cavab verim." Peyğəmbər(s) buyurdu: "Sən onlara necə cavab verəcəksən? Axı Əbu Süfyanın atası mənim əmimdir. Ona necə cavab verəcəksən ki, sənin sözün mənə də toxunmasın? Əgər onun ailəsinə qarşı bir söz desən, mənə də gəlib çatacaq."

Həssan dedi: "Ya Rəsulallah, and olsun Allaha, mən şeirimlə səni o ailənin içindən elə çıxardacağam ki, sanki xəmirin içindən tükü çıxarıram. Sonra isə onlara necə lazımdırsa cavab verəcəyəm."

Odur ki, şeir bəzən qılınc kimi təsirli olur. Xüsusilə insan şeirlə həqiqəti deyib özünü əbədiyyətə qovuşdursa. Deməli, əgər hər hansı bir şeir haqqı söyləmək, İslamı müdafiə etmək, Həzrət Peyğəmbəri(s) və Əhli-beyti(ə) mədh etmək məqsədi ilə yazılarsa, bunun bir neçə faydası var. Birincisi, Allah həmin şəxsə böyük əcr inayət edər, necə ki, hədisdə oxuduq. (Allah onun hər beytinə görə cənnətdə ona bir ev ucaldar.) İkincisi, Allahın ən yaxın mələyi olan cənab Cəbrayıl(ə) ona kömək edər.

Dünyaya milyonlarla şair gəlib getmişdir. Amma onların əksəriyyətinin adı belə tarixdə qalmayıb. Amma elə

şairlər də vardır ki, özlərini haqq və əbədiyyətə qovuşdurduğu üçün həmişə diridir. Hafiz, Sədi və Füzuli kimi şairlərin adının bu gün dillərdə əzbər olmasının səbəbi onların yazdıqları şeirlərdə haqq-həqiqəti söyləmələridir. Həqiqət, Allahın dini və kitabı əbədi olduğu üçün onlar da özlərini əbədiyyətə qovuşdurmuşlar. Onların yazdıqları şeirlərin bir hissəsi Quran ayələri, bir hissəsi isə hədislərdir. Onların şeirlərinin söykənən yeri ayə və hədislər olduğu üçün adları həmişə dillər əzbəri olacaq və əbədi yaşayacaqlar.

Allah rəhmət eləsin Hacı Mail Əliyevə. O, Azərbaycanın tanınmış füzulişünas şairlərindən biri idi. Onunla münasibətimiz çox yaxşı idi. Demək olar ki, tez-tez görüşüb bir-birimizdən hal-əhval tutardıq. Axır vaxtlarda ağır xəstəliyə tutulub yorğan-döşəyə düşmüşdü. Ölümünə 3-4 gün qalmışdı, onun görüşünə getdim. Gördüm ki, gözləri yaşla dolub. Soruşdum ki, niyə ağlayırsan? Dedi: "Mən neçə illər bundan qabaq Həzrət Əliəkbər(ə) haqqında bir şeir yazmışdım. Bu gecə yuxuda gördüm ki, iki çadralı xanım gəldi. Biri mənim həmin yazdığım şeiri oxuyur, digəri isə ağlayırdı. Hiss etdim ki, mənim yazdığım o şeir qəbul olunmuşdur."

Allah rəhmət eləsin ustad Şəhriyara. Böyük alimlərdən biri deyir: "Mən ustad Şəhriyar barədə düşünürdüm ki, görəsən öldukdən sonra Allah-təala o dünyada ona hansı məqamı verib. Elə bu fikirlərlə də yuxuya getdim. Yuxuda gördüm ki, yamyaşıl bir cənnət məkandayam. Həmin yaşıllıqların içində də gözəl bir imarət var. Öz-özümə fikirləşdim ki, görəsən, bu imarət kimindir? Kənardan mənə dedilər ki, buranı Allah Şəhriyara verib. Yenə öz-özümə dedim: Şəhriyar nə müctəhid, nə də ki, böyük alimlərdən olmayıb. O, sadəcə olaraq tanınmış bir şairdir.

Allah-təala onun hansı xüsusiyyətlərinə görə bu gözəl yeri ona nəsib edib. Elə bu fikirdə idim ki, gördüm Şəhriyar imarətin pəncərəsini açıb yazdığı bir şerin bu misrasını mənim üçün oxudu:

*Get, ey dilənçi, Əlinin qapısını döy!*

Şəhriyarın bu sözündən sonra yuxudan ayıldım və başa düşdüm ki, o, Əhli-beyt(ə) aşıqı olduğu üçün Allah-təala ona belə bir məqamı nəsib etmişdir. Mənim fikrimdə olan suala Allah-təala Şəhriyarın öz vasitəsilə cavab verdi.

## 71-73-cü AYƏLƏRİNİN TƏFSİRİ

أولَم يروا أنا خلقنا لهم مما عمِلت أيدِينا أنعاما فهم لها
مالِكونَ.٧١. وذَلّلناها لهم فمِنها ركوبهم ومِنها يأكلونَ.٧٢.ولهم
فِيها منافِع ومشارِب أفَلا يشكرونَ.٧٣.

**71. Məgər Bizim (qüdrət) əllərimizin yaratdıqlarından onlar üçün heyvanlar xəlq etdiyimizi və özlərinin də onlara malik və sahib olduqlarını görmürlərmi!?**

**72. Bunları (bu heyvanları) onlara ram etdik, bəzisi onların minik vasitələridir və bəzisin(in isə ətindən və südün)dən yeyirlər.**

**73. Onlar üçün onda (o heyvanlarda) mənfəətlər və içəcəklər vardır, belə isə şükür etməzlərmi?!**

Bu ayələrdə yenə də tövhid və şirk məsələlərinə işarə olunur. Yenə də müşriklər üçün tövhid və şirk barəsində söz açılır. Ayələrdə öncə insanın həyatında olan Allahın qüdrət və əzəmət nişanələrindən bir qismi, insanların ehtiyaclarının Allah tərəfindən ödənilməsi bəyan olunur. İkincisi isə bütlərin zəif və qüdrətsiz olmasını bəyan edərək aşkar bir müqayisədə tövhid xəttinin haqq olduğu və bütpərəstlik xəttinin batilliyi açıqlanır.

Allah-təala bu ayələrdə tövhid barədə söz açarkən Öz qüdrət və əzəmətinə işarə edərək bəzi nişanələrini sadalayaraq buyurur: "Məgər Bizim (qüdrət) əllərimizin yaratdıqlarından onlar üçün heyvanlar xəlq etdiyimizi və özlərinin də onlara malik və sahib olduqlarını görmürlərmi!?"

Bəzən insan bir neməti o qədər görür ki, adət etdiyindən həmin nemət ona adi görünür. Belə olduqda daha onun barəsində düşünmür. Məsələn, gözünü açdıqda

Günəşin öz yerində çıxıb öz yerində batdığını, Ayın gündəlik hərəkətini, gecə- gündüzün ötüb keçməsini, yaydan sonra payız, payızdan sonra qış, sonra isə yazın gəldiyini görür və düşünür ki, bütün bunlar elə belə də olmalıdır. Daha fikirləşmir ki, görəsən, bütün bunları kim nizam-intizamla hərəkətə gətirir. Necə ki, uşaq məktəbə getdikdən sonra hər gün dərsdən gəldikdə yeməyini və içməyini hazır görür. Yatmaq istədikdə yerini, geyimini və s. əşyaları həmişə hazır görür. Amma düşünmür ki, bütün bunları mənim üçün kim hazırlayır? Bu qədər nemətin içində olduğunu başa düşmür. Nemət onun əlindən çıxdıqdan, məsələn, anası dünyasını dəyişdikdən sonra başa düşür ki, onun üçün hər bir şeyi hazırlayan, evə gələndə, onu evdən yola salanda "qurban olum deyib" bütün zəhmətlərə dözən anası imiş. Yaxud özü böyüdükdən və uşaqlıq aləmindən çıxıb zəhmətə qatlaşdıqdan sonra uşaqlıqda necə bir nemətin içində olduğunu başa düşür.

Biz də eləcə gözümüzü açdıqda yaradılış aləmini belə gördüyümüz üçün hər bir şey bizə adi gəlir. Heyvanların südündən, ətindən, yaxud onlardan minik kimi istifadə olunmasını adi bir hal kimi qəbul edirik. Məsələn, yüz dəvəni bir-birinə iplə bağlayıb birincinin ipini kiçik bir uşağa verdikdə və həmin uşaq onları hansı tərəfə aparsa, bütün dəvələr onun ardınca gedərlər. İnsan Allahın yaratdıqlarını demək olar ki, hər gün gördüyü üçün bütün bunlar ona adi görünür və elə düşünür ki, belə də olmalıdır. Amma daha bunu fikirləşmir ki, əgər Allah o dəvəni insan üçün ram etməsəydi, bircə dəvə yüz nəfəri vurub öldürə bilər. Fikirləşmir ki, o yekəlikdə dəvənin ixtiyarını insana kim vermişdir?

Bu ayələrdə Allah-təala insana xatırladaraq buyurur: "Məgər Bizim (qüdrət) əllərimizin yaratdıqlarını, onlar

üçün heyvanlar xəlq etdiyimizi və özlərinin də onlara malik və sahib olduqlarını görmürlərmi!?”

Sonra buyurur: “Bunları (heyvanları) onlara ram etdik, bəzisi onların minik vasitələridir və bəzisin(in isə ətindən və südün)dən yeyirlər.”

Bu ayə insana başa salır ki, bu heyvanları insan üçün yaradan və özlərini də onlara malik edən, həmçinin o heyvanları insan üçün əhliləşdirən də Allahdır. Öküz Allahın insan üçün yaratdığı heyvanlardan biridir. Hamı bilir ki, o necə güclü bir heyvandır. Amma qoca bir kişi, yaxud yeniyetmə bir uşaq neçə-neçə öküzü sürüyə qatıb əlindəki kiçk qamçı ilə onları istədiyi yerə aparır. Elə düşünür ki, həmin heyvanları özü əhliləşdirib. Daha düşünmür ki, o böyüklükdə heyvanı Allah onun ixtiyarına vermişdir. Əgər insan hansısa heyvanı əhliləşdirməyi bacarırsa, lazım deyil o böyükdükdə heyvanı ram etsin. Əgər bu işi görməyə gücü çatırsa, yaxud bacarırsa, kiçik bir milçəyi əhliləşdirsin, görək bacararmı? İnsan bir milçəyi nə yarada bilər, nə də onu əhliləşdirib özündən uzaqlaşdıra bilər. O ki qaldı dəvə və öküz kimi böyük heyvanlar ola.

Mənsur Dəvaniqi fasiq və zalım xəlifələrdən biri idi. Günlərin birində öz taxtında əyləşib camaat üçün söhbət edirdi. Elə bu zaman bir milçək onun burnunun üstünə qonur. O, əli ilə milçəyi qovur. Bir az keçdikdən sonra milçək uçub onun qulağına qonur. Mənsur onu qulağından da qovur. Milçək uçub onun gözünün üstünə qonur. Mənsur milçəyin əlindən qəzəblənib deyir: “Görəsən, Allah bu milçəyi nə üçün yaradıb?!” Elə bu zaman məclisdə əyləşən zirək və hazırcavab bir kişi düz xəlifənin gözünün içinə baxa-baxa deyir:

لِيذِلَ بِهِ الْجبارين

-Zalım və təkəbbürlü insanları xar etmək üçün.[1]

Nəmrud Həzrət İbrahim Peyğəmbərin(ə) zamanında yaşayan şah idi. Çox təkəbbürlü və zalım bir insan idi. O, özünü Allah elan etmişdi. Həzrət İbrahimi(ə) oda atdıran Nəmrudu Allah-təala bir ağcaqanadla məğlub etdi. Ağcaqanad Allahın əmri ilə onun burnundan girib beyninə daxil oldu və Nəmrud başını daşlara vura-vura gəbərdi.

Allah-təala bununla hamıya başa salır ki, hətta özünü Allah elan edən Nəmrudu bircə ağcaqanadla məhv edərəm. Allah üçün bu işi görmək çox asandır.

Əli ibn İsa öz dövrünün savadlı alimlərindən biri idi. O, uzun müddət Abbasi xəlifələrinin vəziri olmuşdur. Xəlifə zalım olsa da, Əli ibn İsa camaatla yaxşı rəftar edərdi. Yetmiş il vəzir vəsifəsində işləmişdi. Onun çox yaxşı imkanları var idi. Hər yerə gedərkən cah-cəlalla, ətrafında cangüdənləri və xidmətçiləri ilə gedib gələrdi. Günlərin birində harasa gedərkən yolda dayanıb camaatla söhbət edirdi. Küçədə iki arvad bir-biri ilə söhbət edirdilər. Əli ibn İsa onların danışıqlarını eşidirdi. Qadınlardan biri Əli ibn İsanı digərinə göstərib soruşdu: “Bu kimdir belə cah-cəlal, nökər və qulluqçuları ilə burada dayanıb?” O biri qadın isə deyir:

رجلٌ طَرده الله عن خِدمِتِهِ و شغلَه بِخِدمةِ أبعدِ خلقِه مِنه

-Bu elə bir insandır ki, Allah onu Öz xidmətindən qovmuşdur. O da gedib Allahdan uzaq bir insana (Abbasi xəlifəyə) xidmətçi olub.”

Qadının bu sözləri Əli ibn İsanın ürəyinə ox kimi sancılır. O, yerindəcə donub qalır və elə həmin andan taleyini dəyişmək qərarına gəlir. İşindən istefa verib günahlarına

---

[1] Yasin surəsinin təfsiri, Seyid Məhəmməd Ziyaabadi, səh. 296.

görə tövbə edir. Kimin haqqını yemişdisə, hamısını qaytarır. Sonra isə Məkkəyə köçüb ömrünün axırına qədər Allaha ibadət edir və elə oradaca dünyasını dəyişir.[1]

[1] Yasin surəsinin təfsiri, Seyid Məhəmməd Ziyaabadi, səh. 303.

واتخذُوا مِن دون اللهِ آلِهةً لعلهم ينصرونَ.٧٤. لا يستطِيعونَ
نصرهم وهم لهم جند محضرونَ.٧٥. فلا يحزنك قولُهم ۘ إِنا
نعلم ما يسِرونَ وما يعلِنونَ.٧٦.

**74. (Müşriklər) bəlkə, özlərinə bir yardım oluna deyə, Allahdan başqa tanrılar (bütlər) qəbul etdilər.**

**75. Onların bunlara kömək etməyə qüdrətləri yoxdur və bunlar onlar (bütlər) üçün hazır qoşundurlar.**

**76. (Ya Rəsulum!) Onların sözü səni kədərləndirməsin. Biz onların gizlində də, aşkarda da nə etdiklərini bilirik.**

Bu mübarək ayələrdə Allah-təala müşriklərin halını şərh edərək müəyyən qədər onların vəziyyətlərindən söz açır. Belə ki, müşriklər özləri üçün Allahdan başqa məbud və bütlər seçdilər ki, bəlkə bu bütlər onlara bir yardım və kömək edələr. Zəif və qüdrətsiz məxluqatı (bütləri) yeri-göyü yaradan Allahla bir səviyyədə qərar vermək, çətinliklər zamanı onların dərgahından kömək istəmək necə də xam və batil fikirdir. O bütlərin başqalarını yox, hətta özlərini də qorumağa belə qüdrətləri yoxdur.

Əlbəttə, burada iki mətləbə diqqət yetirmək lazımdır. Birincisi budur ki, insanın fitrətində Allaha pərəstiş və ibadət etmək qoyulmuşdur. Bu fitrəti insandan ayırmaq mümkün deyil. Əgər kimsə bu fitrəti beş-on günlük kiməsə görə yalandan özündən ayırsa da çətinliyə düşərkən yenə də içində kimisə axtarır. Quranda bu barədə müxtəlif ibarələr vardır. Müşriklər nə qədər ki, sakitlik və asudəlikdə yaşayırlar, Allah onların yadlarından çıxır.

Amma dar və çətin vəziyyətdə, ölüm və təhlükə ilə üz-üzə gəldikdə yenə də yaradan və uca Allaha yalvarırlar. Allah-təala onları çətinlikdən qurtardıqdan sonra yenə də öz şirklərinə qayıdırlar. Məsələn, “Ənkəbut” surəsinin 65-ci ayəsində belə oxuyuruq:

فَإِذَا رَكِبوا فِي الْفُلْكِ دعوا الله مخلِصِين لَه الدين فَلَما نجاهم إِلَى الْبر إِذَا هم يشرِكُونَ

-(Müşriklər) gəmiyə mindikləri zaman (dəryada batacaqlarından qorxub) dini (ibadəti) yalnız Ona məxsus edərək (ixlasla) Allaha dua edərlər. (İbadət etdikləri bütləri unudarlar.) Allah onları sağ-salamat quruya çıxaran kimi yenə də (Ona) şərik qoşarlar.

Məgər onlar düşünmürlər ki, bir daha suyun üzünə çıxmayacaqlar? Fikirləşmirlər ki, Allah onları quruda da həlak edə bilər? Məgər Allahın əzab nazil etdiyini və tayfaları kütləvi şəkildə həlak etdiyini görməyiblərmi? Bir anın içində yerin aralanıb bütöv bir şəhəri içinə çəkdiyi onlar üçün ibrət deyilmi? Odur ki, hər bir insanın fitrətində Allaha sarı üz tütmaq, Ona ibadət etmək qoyulmuşdur. Əgər bir insan bu fitrətin üzərinə pərdə salıb gizlədirsə, qısa bir müddətdən sonra təhlükə və çətinliklə üzləşdikdə gizlətdiyi həqiqətin üzərindən pərdəni kənara çəkib yenə də Allaha üz tutacaq və Ona yalvaracaq.

İkinci mətləb isə budur ki, müşriklər əsasən bütlərə üç səbəbə görə pərəstiş və ibadət edirdilər. Allah-təala Quranda onların nə üçün bütlərə ibadət etdiyini bəyan etmişdir.

Birinci səbəbi budur ki, bütə pərəstiş etməklə elə başa düşürlər ki, bütləri onlara izzət bəxş edəcək. Allah-təala “Məryəm” surəsinin 81-ci ayəsində belə buyurur:

وَاتَّخَذُوا مِن دُونِ اللَّهِ آلِهَةً لِّيَكُونُوا لَهُمْ عِزًّا

-Və onlar üçün izzət və zəfər vasitəsi olsunlar deyə Allahın yerinə məbudlar götürdülər.

İkinci səbəbi budur ki, bütlər qiyamət günü Allah dərgahında onlara şəfaət etsinlər. “Yunis” surəsinin 18-ci ayəsində belə oxuyuruq:

وَيَعْبُدُونَ مِن دُونِ اللَّهِ مَا لَا يَضُرُّهُمْ وَلَا يَنفَعُهُمْ وَيَقُولُونَ هَٰؤُلَاءِ شُفَعَاؤُنَا عِندَ اللَّهِ

-Onlar Allahın yerinə onlara nə bir zərər yetirən və nə də bir mənfəət verən şeylərə ibadət edir və “bunlar Allah yanında bizim şəfaətçilərimizdir” deyirlər.

Üçüncü səbəbi isə budur ki, müşriklər ibadət etdikləri bütlərdən yardım və kömək umurlar. “Yasin” surəsinin 74-cü ayəsində belə oxuyuruq:

وَاتَّخَذُوا مِن دُونِ اللَّهِ آلِهَةً لَّعَلَّهُمْ يُنصَرُونَ

-(Müşriklər) bəlkə özlərinə bir yardım oluna deyə, Allahdan başqa tanrılar (bütlər) qəbul etdilər.

Allah-təala onlara cavab verərək “Əraf” surəsinin 192-ci ayəsində belə buyurur:

وَلَا يَسْتَطِيعُونَ لَهُمْ نَصْرًا وَلَا أَنفُسَهُمْ يَنصُرُونَ

-(Həmin bütlər) nə onlara bir yardım göstərə bilir və nə də özlərinə bir kömək edə bilirlər.

Həmçinin “Yasin” surəsinin 75-ci ayəsində belə buyurulur:

لَا يَسْتَطِيعُونَ نَصْرَهُمْ وَهُمْ لَهُمْ جُندٌ مُّحْضَرُونَ

-Onların bunlara kömək etməyə qüdrətləri yoxdur və bunlar (bütlər) onlar üçün hazır qoşundurlar.

Bu ayədə çox maraqlı bir məsələyə işarə olunur. O da budur ki, müşriklər qiyamət günü qoşun şəklində olaraq bütlərin ardınca cərgəyə duraraq hamısı bir nəfər kimi cəhənnəmə göndəriləcəklər. Yəni insan dünyada Allahdan başqa hər hansı bir bütü özünə məbud etsə, qiyamət günü həmin məbud qabaqda gedəcək və ona sitayiş edənlər də bir qoşun kimi onun arxasına düşəcəklər. Beləliklə, hamısı birlikdə cəhənnəmə göndəriləcəklər.

Sonrakı 76-cı ayədə Allah-təala müşriklərin ona atdıqları böhtan və töhmətlərin qarşısında ürək-dirək verərək buyurur: "(Ya Rəsulum!) Onların sözü səni kədərləndirməsin. Biz onların gizlində də, aşkarda da nə etdiklərini bilirik."

Müşriklər hər gün Həzrət Peyğəmbərin(s) işlərini bir-birinə vurmaqla, fitnə yaratmaqla Həzrətə(s) cadugər, şair və s. kimi böhtanlar atmaqla onu narahat edirdilər. Allah-təala bu ayədə Öz Peyğəmbərinə(s) təsəlli verərək buyurur ki, müşriklərin sözləri səni narahat etməsin. Biz onların gizlində də, aşkarda da nə etdiklərini bilirik.

### İki mühüm mətləb

Burada iki mühüm mətləbi qeyd etmək yerinə düşər. Birincisi budur ki, Allah- təala müşriklərə xatırladır ki, pərəstiş etdiyiniz bütlər sizə heç bir kömək və yardım edə bilməz. Hətta bir hadisə baş verdikdə o bütlər heç özlərini də qoruya bilmirlər. Əlbəttə, qeyd olunmalıdır ki, büt dedikdə təkcə müşriklərin daşdan, taxtadan və s. düzəltdikləri bütlər nəzərdə tutulmur. Burada büt ümumi mənada işlənmişdir. Allahdan başqa hər bir şeyi nəzərə alıb ona pərəstiş etmək bütpərəstlikdir. Yaşadığımız bu dövrdə dünyanı iki hissəyə bölüblər. Əvvəllər də bu işi görmüşdülər. Amma çox keçmədi ki, onlardan biri qırıldı

və dünya digərinin əlinə düşdü. İndi təzədən yenə də çalışırlar ki, öz qüdrətlərini geri qaytarsınlar. Daha aydın desək, yaşadığımız bu dövrdə dünya iki böyük qüdrətin, Şərq və Qərb qüdrətinin hakimiyyəti altındadır. Kiçik və zəif dövlətlərdə inam yaratdılar ki, özlərini qorumaq üçün iki qüdrətdən birinə pənah gətirsinlər. Beləliklə də bu iki qüdrətdən birinin himayəsi altında güzəran keçirirlər. Ancaq təcrübə göstərir ki, çətinliklərlə, böhranlarla üz-üzə gəldikdə zahirən böyük görünən bu qüdrətlər nə öz çətinliklərinin düyününü aça bilirlər, nə də onlara arxalanan zəif dövlətlərə kömək edə bilirlər. Necə ki, oxuduğumuz ayədə Allah-təala belə buyurur:

وَلَا يَسْتَطِيعُونَ لَهُمْ نَصْرًا وَلَا أَنفُسَهُمْ يَنصُرُونَ

-(Həmin bütlər) nə onlara bir yardım göstərə bilir və nə də (çətinlik və böhranlarda) özlərinə bir kömək edə bilirlər.

Tarix boyu belələrini çox görmüşük. Həm keçmiş SSRİ-nin, həm ondan qabaqkı, həm də ondan sonrakı qüdrətli dövlətlərin dağıldığını gözlərimizlə görmüşük. Dünyada özünü hamıdan qüdrətli bilənlərə söykənmiş və bununla da fəxr edənlərin başını kəsib küçələrə atdılar. Halbuki onların seçkilərini maliyyələşdirənlər həmin başları kəsilənlər idilər. Amma camaat onların arxasınca gedəndə həmin arxalandıqları qüdrətlər gəlib camaata qoşuldular. Camaatdan qabaq onlar özləri həmin adamları öldürdülər ki, onların sirrini açıb heç bir kəsə danışmasınlar.

İkinci mətləb isə budur ki, Allah-təala mömin və müsəlmanlara tövsiyə edir ki, siz təkallahlığa iman bəsləyib Allaha həqiqi pərəstiş edənlərdən olun, nəfsinizə qələbə çalın və heç bir vaxt düşmən sözünə etibar etməyin. Belə olduqda Mən sizə bütün çətinlik və böhranlardan nicat verərəm.

Əgər insan həqiqətən Allaha ibadət etsə, öz nəfsinə qələbə çalsa və düşmənə üz gətirməsə, Allah-təala onu bütün çətinliklərdən və qorxulu hallardan qoruyar. Bütün dünya o insanın əleyhinə mübarizəyə qalxsa da belə yenə də Allah onu qoruyar. Necə ki, Allah İslam Peyğəmbərini(s) bütün müşriklər yekdilliklə Həzrəti(s) qətlə yetirmək qərarına gəldikdə (leylətül-məbitdə), habelə müharibələrdə və s. kimi çətin hallarda qoruyub saxlamışdı. Məgər Allah yetim bir uşağı bütün dünyaya Peyğəmbər(s) etmədimi? Məgər Musanı(ə) sandığın içində sağ-salamat saxlayan və onu Fironun evində boya-başa çatdıran Allah deyildimi? Məgər Allah Həzrət İbrahimi(ə) tonqalın içində sağ-salamat saxlamadımı?

Əsas məsələ budur ki, insan Allahın onun öhdəsinə qoyduğu vəzifəyə əməl etsin. Ən mühüm olanı isə odur ki, insan öz nəfsinə qələbə çalsın. Bundan başqa bütün məsələlər Allahın öhdəsindədir.

Mərhum Feyz Kaşani deyir: "Bir nəfər məndən soruşdu: Eşitmişəm ki, bəziləri şiri əhlilləşdirib belinə minir və at kimi istifadə edirlər. Bu doğrudurmu?

Dedim: Bəli, bu mümkündür. Allah-təala insana elə bir istedad vermişdir ki, insan onun sayəsində özünü elə bir səviyyəyə çatdıra bilər ki, hətta şiri də belə ram edər. Çünki Allah-təala Quranda buyurmuşdur:

وسخر لَكُم ما فِي السماواتِ وما فِي الْأَرضِ جمِيعا

-Göylərdə və yerdə nə varsa, hamısını öz tərəfindən sizin ixtiyarınıza qoyan da Odur.[1]

Həmin şəxs dedi: Görəsən, bunun əlamət və nişanəsi varmı ki, insan onun vasitəsilə həmin dərəcəyə çatıb-çatmadığını bilsin?

---

[1] Casiyə surəsi, 13-cü ayə.

Dedim: Əlbəttə ki, var. Sənin daxilində bir it var. Həmin it sənin nəfsani istəklərindir. Əgər o iti ram edib ona sahib çıxa bilsən, şiri də ram edib ondan minik kimi istifadə edə biləcəksən. Yox, əgər o itə gücün çatmasa, təbiidir ki, şirə də gücün çatmayacaq."[1]

**Nəfsə qələbə çalmaq səbir və dözüm tələb edir**

Bunu da hamı bilməlidir ki, nəfsə qələbə çalmaq elə də asan iş deyil. Nəfsani istəklər insanın ən pis düşmənidir. Nəfs elə bir şeydir ki, hər nə görürsə, insandan tələb edir. Nəfsə qələbə çalmaq üçün insan güclü səbir və dözüm nümayiş etdirməlidir. Bəziləri elə düşünür ki, bir-iki dəfə zikr etməklə, hər gün min dəfə "qul huvəllah" surəsini oxumaqla nəfsinə qələbə çalıb hansısa dərəcəyə çatacaqdır. Xeyr, bu belə deyildir. Bəzən şeytan insanı elə bu kimi yollarla vəsvəsə edib yoldan çıxarır. Nəfsə qələbə çalmaq onunla əməli surətdə mübarizə aparmaqla, bu yolda dözümlü olmaqla mümkündür. Zikrlər, müəyyən surələri davamlı şəkildə oxumaq bir elmdir ki, onun alimi, əhli var və yollarını onlar bilirlər. Məsələn, mərhum Seyid Əli Qazi kimi böyük şəxsiyyətlər bu işin ustası olublar. Ayətullah-ul-uzma Xoyi yer üzünün görkəmli və dahi müctəhidlərindən biri idi. Bu böyüklükdə bir insan neçə il Seyid Əli Qaziyə yalvarmışdı ki, onu şagirdliyə qəbul etsin. Amma Seyid Əli onu qəbul etməyib buyurmuşdu ki, sənin üçün hələ tezdir.

Amma bəziləri elə düşünürlər ki, iki-üç dəfə zikr etməklə arif olub irfan mərhələlərinə yüksələ bilər və bəsirət gözləri açılar. Buna görə də həmişə şeytan belə insanları bu kimi xəyallarla həqiqətdən uzaqlaşdırır və öz toruna salır.

---

[1] Yasin surəsinin təfsiri, Seyid Məhəmməd Ziyaabadi, səh. 314.

Bir nəfər eşitmişdi ki, böyük alimlərdən biri İsmi-əzəmi bilir və aləmin sirlərinin çoxundan agahdır. Buna görə də öyrənmək məqsədilə onun yanına gedib xahiş edir ki, ona da öyrətsin. Ancaq həmin alim onu qəbul etmir. O, çox israr və xahiş edir, amma alim yenə də onu öyrətməkdən imtina edir. Lakin həmin şəxs ondan əl çəkmir və axırda alim ona razılıq verib buyurur: "Bir gün yanıma gəl, mən sənə bir şey öyrədəcəyəm." Həmin şəxs sevinə-sevinə gedib səhər yenə də onun yanına gəlir. Alim ona deyir: "Sənə bir şərtlə İsmi-əzəmi öyrədəcəyəm ki, gərək ona əməl edəsən." O da razılaşır. Alim ona deyir: "Səhər sübh tezdən şəhər darvazasının qarşısında dayan. Axşama qədər orada gördüyün hər bir hadisəni yadında saxla və birisi gün yanıma gəlib gördüklərini danış." O razılaşıb gedir və səhərisi gün şəhər darvazasının qarşısında dayanır. Bir neçə saat gözləyir, amma qəribə bir şey görmür. Axşamçağı qoca bir kişi belində odun şələsi şəhər darvazasından içəri keçmək istəyərkən keşikçilər onu saxlayıb soruşurlar: "Haradan gəlirsən?" Qoca deyir: "Görmürsünüz?" Soruşurlar: "Hara gedirsən?" Qoca deyir: "Görmürsünüz?" Soruşurlar: "Belindəki nədir?" Qoca deyir: "Görmürsünüz?" Keşikçilər deyirlər: "Odunları yerə boşalt və çıx get." Lakin qoca razılaşmır. Onlar çomaqla qocanı döyüb yığdığı odunları da onun əlindən alırlar. Həmin şəxs isə kənarda dayanıb bu hadisəni müşahidə edir və öz-özünə deyir: "Bunlar necə də zalım insanlardır. Əgər mən İsmi-əzəmi bilsəydim, oxuyub onları məhv edərdim."

Səhərisi gün o, ustadın yanına gəlib gördüyü hadisəni danışır. Ustad ona deyir: "Bilirsənmi nəyə görə sənə İsmi-əzəmi öyrətmirəm?" O deyir: "Xeyr." Ustad deyir: "Ona görə ki, sən hələ heç nə bilməyə-bilməyə istəyirdin ki,

İsmi-əzəmi oxuyub keşikçini öldürəsən. Odun aparan həmin qoca kişi mənim ustadımdır. İsmi-əzəmi o, mənə öyrətmişdir. O, küçə-bazarda özünü elə aparır ki, guya heç nə bilmir. Sən ona kənardan baxanda heç ağlına da gəlməz ki, o, necə bir insandır. Əgər İsmi-əzəmi sənə öyrətsəm, onu sinəndə qoruyub saxlamağa dözümün olmayacaq. İsmi-əzəm o deyil ki, hər xırda məsələyə görə, bir şələ oduna görə ondan istifadə edəsən. Onu o adama öyrədərlər ki, onda səbir və dözüm olsun."

**أولم ير الْإنسانُ أنا خلقْناه مِن نطْفَةٍ فَإِذَا هو خصِيم مبِين.٧٧. وضرب لَنا مثَلًا ونسِي خلْقَه قَالَ من يحيِي الْعِظَام وهِي رمِيم.٧٨. قُلْ يحيِيها الذِي أنشأها أولَ مرةٍ وهو بِكُل خلْق علِيم.٧٩.**

**77. Məgər insan onu nütfədən yaratdığımızı görmədimi ki, birdən-birə (Rəbbinə) açıq bir düşmən kəsilərək,**

**78. Öz yaradılışını unudub: "Çürümüş sümükləri kim dirildə bilər?!" – deyə, hələ Bizə bir məsəl də çəkdi.**

**79. (Ya Peyğəmbər!) De: "Onları ilk dəfə yoxdan yaradan diriltdəcəkdir. O, hər bir məxluqu (yaradılışından əvvəl də, sonra da) çox gözəl tanıyandır!**

Allah-təala bu mübarək ayələrdə müşriklərin öz keçmişlərini unutduqlarını məzəmmət və tənqidi surətdə bəyan edir.

Təfsir kitablarında bu ayələrin nazil olma səbəbi barədə belə yazırlar: "Müşriklərdən olan Übəyy ibn Xələf, yaxud Üməyyə ibn Xələf və ya As ibn Vail adlı kişi bir parça köhnəlib çürümüş sümüyü tapıb dedi: "Bununla gedib Məhəmmədlə mübahisə edib onun əleyhinə danışacağam. Onun məad barəsində dediklərini batil edəcəyəm. Beləcə, o, sümüyü götürərək Həzrət Peyğəmbərin(s) yanına gəldi və bəzilərinin dediyinə əsasən, Peyğəmbərin(s) qarşısında dayanıb sümüyün bir parçasını un kimi ovub yerə tökdü. Bəziləri yazırlar ki, sümüyün bir hissəsini un kimi ovub üfürərək havaya sovurdu. Sonra üzünü

Peyğəmbərə(s) tutub dedi: “Bu çürümüş sümükləri kim yenidən dirildəcək? (Və hansı əql bunu qəbul edər?)”

Elə bu zaman cənab Cəbrayıl(ə) nazil olaraq Həzrət Peyğəmbərə(s) bu ayələri gətirdi: “Məgər insan onu nütfədən yaratdığımızı görmədimi?”

Ayədə işlənmiş “nütfə” kəlməsi bircə damla dəyərsiz və qiymətsiz suya deyilir. Bu Allahın qüdrətidir ki, bir damla dəyərsiz sudan belə əzəmətli insan yaratmışdır. Anatomiya və insan orqanizmi sahəsində tədqiqat aparan alimlər bu qənaətə gəlmişlər ki, kişinin 1 kub santimetr spermasının içində yüz və yaxud iki yüz milyon erkək hüçeyrə mövcuddur ki, hər birindən bir insan əmələ gələ bilər. Bu spermaların biri, bəzən də bir neçəsi qadının hüceyrələri ilə birləşib insanı əmələ gətirir. Qalanı isə qana qarışaraq aradan gedir. Bəzi alimlər belə demişlər: “Həmin hüceyrələr o qədər kiçikdir ki, hazırda dünyada yaşayan insanların sayı qədər o hüceyrələri bir oymağın[1] içinə töksələr, həmin oymaq dolmaz.”

Allah-təala “Tariq” surəsinin 5-7-ci ayələrində belə buyurur:

قَلْيَنظُرِ الْإِنسانُ مِم خلِق. خلِق مِن ماءٍ دافِقٍ. يخرج مِن بينِ الصلْبِ والترائِبِ

-Elə isə insan nədən yaradıldığına (bəsirət gözü ilə) bir baxsın! O, sıçrayan bir sudan (kişi və qadın nütfəsinin qatışığından) yaradılmışdır. O, (su kişinin) belindən və (qadının) sinə sümüyünün arasından çıxır.

Allah “Möminun” surəsinin 12-14-cü ayələrində insanın yaradılış və təkamül mərhələləri haqda söz açaraq belə buyurur:

---

[1] Dərzilərin paltar tikərkən barmaqlarına keçirdiyi qaba oxşar kiçik bir alətdir.

وَلَقَد خَلَقْنَا الْإِنسانَ مِن سُلَالَةٍ من طِينٍ. ثُم جعلْناه نطْفَةً فِي قَرارٍ مكِينٍ. ثُم خلَقْنا النطْفَةَ علَقَةً فَخلَقْنا الْعلَقَةَ مضغةً فَخلَقْنا الْمضغةَ عِظَاما فَكَسونا الْعِظَام لَحما ثُم أَنشأْناه خلْقًا آخر فَتبارك الله أَحسن الْخالِقِين

-Şübhəsiz, Biz insanı gilin cövhərindən yaratdıq. Sonra onu nütfə şəklində möhkəm bir yerə (ana bətninə) qoyduq. Sonra nütfəni ələqə (laxta qana çevirdik) etdik, sonra ələqəni muzğə (çeynənmiş ət şəklinə saldıq) etdik. Ondan sonra muzğəni (yumşaq) sümüklər etdik. Beləliklə, sümüklərə ət (libası) geyindirdik. Sonra onu başqa bir (canlı) məxluq (şəklində) vücuda gətirdik. Buna görə də afərin Allaha! Yaradanların ən yaxşısı olan Allah çox xeyir-bərəkətlidir!

Bu ayə Quranın möcüzələrindən biridir. Allah-təala Qurani-Kərimi 1400 il bundan əvvəl nazil etmiş və Onda insanın yaradılış mərhələlərini açıq-aydın şəkildə bəyan etmişdir. Alimlər hələ indi kəfş ediblər ki, insan ana bətnində əvvəlcə çeynənmiş ət şəklində əmələ gəlir, sonra həmin ət sümüyə çevrilir, sonra isə sümüyün üstü ətlə örtülür.

Odur ki, insan nədən yaradıldığını unutmamalıdır. Allah-təala insanı bir damla murdar sudan yaratmışdır. Belə olan halda bu insana təkəbbürlülük və mənəm-mənəmlik yaraşarmı?

قَال عَلِي(ع): عجِبت لِلْمتكَبرِ الَّذِي كَانَ بِالْأَمسِ نطْفَةً

-Həzrət Əli(ə) buyurur: "Dünən nütfə olmuş, sabah isə leş olacaq *(və əgər cəsədinin üstündən torpağı götürsələr, üfunətindən hamı qaçan)* təkəbbürlü adama təəccüb edirəm. [1]

[1] Nəhcül-bəlağə, 121-ci hikmət.

Bir gün Harun ər-Rəşid küçədən keçərkən bir nəfər ona salam vermir. Harunun tərəfdarları görürlər ki, bu şəxs Harunu saymadı. Onu tutub saraya gətirirlər. Harun deyir: “Onu buraxın. Ola bilsin ki, o, məni tanımayıb.” Həmin şəxs deyir: “Mən səni yaxşı tanıyıram.” Harun deyir: “Mən kiməm?” Həmin şəxs deyir: “Sən azacıq murdar sudan yaranan və öləndə iylənib leş olacaq bir insandan basqa bir şey deyilsən.”

قَال عِلي(ع): عجِبت لِمن يتكبر وقد خرج مِن مخرجِ البولِ مرتين

-Həzrət Əli(ə) buyurur: “Təəccüb edirəm təkəbbürlülük edən o kəsə ki, iki dəfə idrar (sidik) çıxan yerdən xaric olub.”

Odur ki, Allah-təala insanı bir damla nütfədən xəlq edərək onda çox qəribəliklər yaratmışdır. İnsanın bədən üzvləri, orqanları həqiqətən də heyrətamizdir.

قَال عِلي(ع): اِعجبوا لِهذَا اَلْإنسانِ ينظُر بِشحمٍ و يتكّلّم بِلَحمٍ و يسمع بِعظْمٍ و يتنفّس مِن خرمٍ

-Həzrət Əli(ə) buyurur: “Bu insana *(onun yaradılışına)* heyrətlənin *(onun xilqəti barəsində düşünün ki, onu yaradanın qüdrət və bacarığını dərk edəsiniz. Yaradan onu elə yaradıb)* ki, piylə *(göz ilə)* görür, ətlə *(dil ilə)* danışır, sümüklə *(qulaq ilə)* eşidir və dəlikdən *(burundan)* nəfəs alır!” [1]

Allah-təala bu əzəmətdə insan yaratmış və aləmdə olan hər bir şeyi onun ixtiyarına vermişdir. Ola bilsin ki, kimsə insanın dünyaya gəlib-getməsinə irad tutaraq desin: “Allah yeri, göyü, Günəşi, Ayı, ulduzları, qalaktikaları və aləmdəki bütün bu varlıqları yaratmışdır ki, insan bu

---

[1] Yenə orada, 7-ci hikmət.

dünyaya gəlib 60-70 il yaşasın və bu nemətlərdən istifadə etdikdən sonra ölüb torpağa qarışsın? Görəsən, bu iş ağla uyğundurmu? Əgər belədirsə, insanın dünyada yaşaması ona bənzəyər ki, o, xarici ölkələrdən birində ömründə hardasa 5 gün istirahət edəcək deyə milyonlarla-milyardlarla pul xərcləyib özünə imarət tikir və bağ-bağça salır. Ömürdə 5 gün istirahətə görə bu qədər pul xərcləyib zəhmət çəkməyə dəyərmi?"

Cavab belədir: "Bu irad və şübhə o zaman doğru ola bilər ki, insanın ömrü həmin 60-70 ildən ibarət olmuş olsun. Yəni əgər insan bu dünyada bir müddət yaşayıb ömrünü başa vurduqdan sonra ölüb torpağa çevrilməklə sona yetəcəksə, onda həmin irad doğrudur. Amma insan əbədi bir məxluqdur. İnsanın ömrü sona yetmir, torpaq olub yox olmur. İnsan dünyada yaşayıb ömrünü başa vurduqdan sonra bədəni torpağa, ruhu isə bərzəx aləminə gedir. Qiyamətdə Allah həmin bədəni yenidən dirildib ruhu ona qaytaracaq, məhşər səhnəsinə gətirəcək. Hesab-kitabdan sonra yeri ya əbədi cənnət, ya da cəhənnəm olacaq.

İnsanın yaradılmasında məqsəd əbədi həyat və səadətdir. Allah-təala "Möminun" surəsində insanın xilqət və yaradılışı barədə söz açdıqdan sonra 15-16-cı ayələrdə belə buyurur:

ثُمَّ إِنَّكُم بَعْدَ ذَٰلِكَ لَمَيِّتُونَ. ثُمَّ إِنَّكُمْ يَوْمَ الْقِيَامَةِ تُبْعَثُونَ

-(Belə bir yaradılışdan) sonra siz mütləq öləcəksiniz! Sonra siz qiyamət günü yenidən dirildiləcəksiniz!

Həmin surənin 10-11-ci ayələrində belə buyurulur:

أُولَٰئِكَ هُمُ الْوَارِثُونَ. الَّذِينَ يَرِثُونَ الْفِرْدَوْسَ هُمْ فِيهَا خَالِدُونَ.

-Onlardır (bilin) varis olanlar. Firdovs cənnətinə varis olanlar, orada əbədi qalanlar!

Bu məsələyə elə baxmaq lazım deyil ki, insan öldükdən sonra qəbrə qoyulmaqla hər şey sona çatır. O kəslər ki, ölümü xatırladıqda qəbiristanlıq yadlarına düşür, onlar ölümün həqiqətindən deyil vəhşətindən qorxurlar. Ölüm elə bir həqiqətdir ki, hamı ondan qorxur. Amma bu qorxu iki cürdür. Biri budur ki, insan öldükdən sonra etdiyi əməllərin hesab-kitabına görə qorxur. Bu qorxunu aradan qaldırmaq üçün əməllərinə fikir verib bərzəx və axirət aləmində dərdinə dəyən işləri görür və orada çətiniyə səbəb olan əməllərdən çəkinir. Digəri isə budur ki, ölümün hesab-kitabından deyil, sadəcə meyit, kəfən, qəbir və bu kimi şeyləri gözünün qabağına gətirib qorxur. Bu cür qorxu həqiqi qorxu deyil, sadəcə olaraq ölümün vəhşətinin qorxusudur.

Heç bir kəs elə düşünməsin ki, ruh bədəndən çıxdıqdan sonra insanın ömrü tamamilə sona çatır. İnsan əbədi bir məxluqdur. Əgər bir gün ruhu bədənindən ayrılırsa, bu o demək deyil ki, həmişəlik yox olur. İnsanın ruhu bədəndən bir minik vasitəsi kimi istifadə edir. Bu bədən insanın ruhuna müvəqqəti olaraq verilmişdir. Bir müddətdən sonra ondan alınır və ruh bərzəx aləminə gedir. Ölüm sanki insanın bir otaqdan digər otağa keçməsi kimidir. Qiyamət günü isə yenidən öz bədəninə qayıdır və hesab-kitab üçün məhşərə gətirilir. İnsandan həm bərzəx aləmində, həm də qiyamət günündə hesab-kitab alacaqlar. Həmin gün insanın əbədi taleyinin pis və yaxşı olacağı müəyyən olunur. Buna görə də hər bir kəs öz taleyini bu dünyada həll etməlidir. Nə qədər ki, insan sağdır və bu dünyadadır, axirəti üçün azuqə toplamalıdır. Əks təqdirdə öldükdən sonra çox çətin vəziyyətə düşəcək və bir daha geri qayıtması da mümkün deyil.

قَالَ عَلِي(ع): أيها الناس إنما الدنيا دار مجازٍ و الاخِرةُ دار قَرارٍ. فَخذُوا مِن ممركُم لِمقَركُم و لا تهتكُوا أستاركُم عِند من يعلَم أسرارکُم و أخرِجوا مِن الدنيا قُلُوبكُم مِن قَبل أنْ تخرج مِنها أبدانكُم فَفِيها اختِبِرتم و لِغيرِها خلِقْتم...

-Həzrət Əli(ə) buyurur: "Ey insanlar! Həqiqətən dünya keçid evi, axirət isə qalmaq yeridir. Buna görə də keçid yerindən qərar tutulacaq yeriniz üçün (azuqə) götürün. *(Nə qədər ki, dünyadasınız, axirətdə xoşbəxt olmağınız üçün Allaha ibadət və xalqa xidmət edin.)* Sizin sirlərinizi bilənin yanında pərdələrinizi tam götürməyin *(Allaha itaətsizlik etməyin)*. Bədənləriniz dünyadan çıxarılmamışdan, qəlblərinizi ondan çıxardın. *(Ölümü asanlıqla qarşılamaq üçün dünyaya ürək bağlayaraq vurğun olmayın. Çünki)* siz dünyada sınaq qarşısındasınız və ondan başqası *(axirət)* üçün yaradılmısınız."[1]

**"Xəsimun mubin" kimdir?**

Bəzən insan böyüyüb qüdrət və qüvvət tapdıqdan sonra o həddə gəlib çatır ki, Allahla düşmənçilik etməyə qalxır. Ayədə işlənmiş "Xəsimun mubin" kəlməsi açıq-aşkar düşmənçilik edən, məğrur və keçmişini, yəni bir damla murdar sudan yaradıldığını unudan kəs deməkdir. Necə ki, Allah-təala həmin ayələrdə buyurur:

أولَم ير الْإنسانُ أنا خلَقْناه مِن نطْفَةٍ فَإِذَا هو خصِيم مبِين. وضرب لَنا مثَلًا ونسِي خلْقَه قَالَ من يحيِي الْعِظَام وهِي رمِيم.

---

[1] Nəhcül-bəlağə, 194-cü xütbə.

-Məgər insan onu nütfədən yaratdığımızı görmədimi ki, birdən-birə (Rəbbinə) açıq bir düşmən kəsilərək, öz yaradılışını unudub: "Çürümüş sümükləri kim dirildə bilər?!" – deyə, hələ Bizə bir məsəl də çəkdi.

Allah-təala onun cavabında Həzrət Peyğəmbərə(s) belə buyurur:

قُلْ يحيِيها الذِي أنشأها أولَ مرةٍ وهو بِكُل خلْقٍ عِلِيم

- (Ya Peyğəmbər!) De: "Onları ilk dəfə yoxdan yaradan dirildəcəkdir. O, hər bir məxluqu (yaradılışından əvvəl də, sonra da) çox gözəl tanıyandır!"

Sual oluna bilər ki, insanı birinci dəfə bir damla murdar suyun içində iki yüz milyon hüceyrənin birindən yaratmaq çətindir, yoxsa yaratdıqdan sonra çürümüş sümükləri bərpa etmək? Əlbəttə ki, Allah üçün bu işlərin heç biri çətin deyil. Bircə kəlmə "ol" demək kifayətdir ki, yaransın. Allah hər bir şeyi bilir və hər bir şeyi yaratmağı gözəl bacarır. Allah hikmət sahibidir və hər bir məxluqu hikmət əsasında yaratmışdır. Sadəcə olaraq inadkar və təkəbbürlü insan bunu başa düşmək istəmir. Həzrət Əli(ə) bu barədə belə buyurur:

أم هذَا الذِي أنشأه فِي ظُلُماتِ الأرحامِ، وشغفِ الأستارِ، نطْفَةً دِهاقاً، وعلَقَةً مِحاقاً، وجنِيناً وراضِعاً، ووليداً ويافِعاً، ثُم منحه قَلْباً حافِظاً، ولساناً لافِظاً، وبصراً لاحِظاً، لِيفْهم معتبِراً، ويقَصر مزدجِراً؛ حتى إِذَا قَام اعتِدالُه، واستوى مِثالُه، نفَر مستكْبِراً، وخبطَ سادِراً

-Sizə insanın necə yaradılmasını xatırladım ki, Allah onu bətnlərin *(uşaqlıqların)* və *(onun üçün)* örtük olan pərdələrin qaranlığında *(bətnlər dedikdə qarın, uşaqlıq və uşaqla birlikdə çıxan pərdə kimi cift nəzərdə tutulur)*

tökülmüş nütfədən və naqis qan laxtasından yaratdı. O, qarında uşaq, daha sonra isə südəmər körpə oldu və südəmərlikdən başlayaraq yetkinlik yaşına çatdı. Sonra ona anlaması *(keçmişlərdən)* ibrət götürməsi, itaətsizlik və günahdan uzaqlaşması üçün qoruyan qəlb *(ağıl)*, danışan dil, görən göz bəxş etdi. Kamal həddinə çatdıqda qəd-qamətini düzəltdikdə təkəbbür və qürur ona hakim kəsildi, qaçdı və azğınlaşdı.[1]

Şair demişkən:

أعلمه الرماَيةَ كُل يومٍ　　فَلّما استد ساَعِده رماني

أُعلمه القَوا ِفى كُلّ حين　　فَلّما قَالَ قَاِفيةً هجاِنى

لَقَد ربيت جرواً طُولَ عمِري　　فَلّما صار كَلباً عض ِرجِلي

***Ona ox atmağı öyrətdim, qolları gücləndikdə birinci oxu özümə atdı.***

***Ona şeir oxumağı öyrətdim, öyrəndikdən sonra birinci öz əleyhimə şeir yazdı.***

***Ömür boyu (küçədə yiyəsi olmayan) bir küçüyü (evə aparıb) bəslədim, böyüyüb köpək olduqdan sonra birinci öz ayağımı qapdı.***

Odur ki, Allah-təala buyurur: "Məgər insan onu nütfədən yaratdığımızı görmədimi ki, birdən-birə (Rəbbinə) açıq bir düşmən kəsilərək, öz yaradılışını unudub: "Çürümüş sümükləri kim dirildə bilər?!" – deyə, hələ Bizə bir məsəl də çəkdi."

Həzrət(ə) digər bir xütbədə belə buyurmuşdur:

عجِبت ِلمن شك ِفى اللهِ و هو يرى خلْقِ اللهِ و عجِبت ِلمن نسِي الْموت و هو يرى الْموتى و عجِبت ِلمن أنكر النشأةَ الْأخرى و هو يرى النشأةَ الْأولَى و عجِبت ِلعامِرِ دار الْفَناءِ و تارِكٍ دار الْبقَاءِ

[1] Nəhcül-bəlağə, 82-ci xütbə.

-Allahın yaratdıqlarını görməsinə baxmayaraq, Allah barəsində şəkk və tərəddüddə olan kəsə təəccüb edirəm. *(Axı yaradansız yaranmış necə ola bilər?!)* Təəccüb edirəm o kəsə ki, ölənləri görə-görə ölümü unudur. Nütfədən yaranmanı görməsinə baxmayaraq, məadın olması və qiyamətdə təkrar qayıdış olacağını inkar edən şəxsə təəccüb edirəm. Yoxluq evini abadlaşdıran *(dünya üçün çalışan)*, varlıq evini *(axirəti)* isə buraxan *(onun üçün azuqə tədarük görmək fikrində olmayan)* kəsə təəccüb edirəm.

## 80-ci AYƏSİNİN TƏFSİRİ

**الذِي جعلَ لكُم مِن الشجرِ الأخضرِ نارا فَإذَا أنتم مِنه توقِدونَ.٨٠.**

**80. O yaradan ki, sizin üçün yaşıl ağacdan (mərx və ifar ağaclarından) od əmələ gətirdi. Beləliklə, siz indi ondan (o iki ağacı bir-birinə sürtməklə) od yandırırsınız.**

Bu ayə 79-cu ayənin davamı olaraq Allahın əzəmət və qüdrətindən digər bir nişanəni bəyan edir. Yəni əvvəlki ayədə Allahın insanı yoxdan yaratdığına və çürümüş sümüklərini yenidən diriləcəyini bəyan etdikdən sonra bu ayədə belə buyurur: “O yaradan ki, sizin üçün yaşıl ağacdan od əmələ gətirdi. Beləliklə, siz indi ondan od yandırırsınız.”

Burada Allah-təala çürümüş sümükləri yenidən diriltməkdən daha çətin işləri misal çəkir. Həmin misallardan biri yaşıl ağacdan od əmələ gətirməkdir ki, bu ayədə qeyd olunur.

Quranın əksər ayələri bir neçə mənaya malikdirlər. Bu mənalardan bəziləri aşağı və sadə səthdə avam camaat üçündür. Başqa bir məna isə orta səviyyədə xüsusi elmi səthdə olan insanlar üçündür. Digər mənanın səthi isə çox elmi cəhətdən əla səviyyədə və həddən artıq yuxarı dərəcədə olan insanlar üçündür. Eyni zamanda bu mənaların bir-biri ilə heç bir ziddiyyəti yoxdur. Sadəcə olaraq bu mənalar bir ifadə və ibarədə cəm olmuşlar. Bu ayə də həmin ayələrdəndir ki, bir neçə mənası vardır. Burada yaxşı olar ki, həmin mənalardan ən sadəsinə işarə edək.

Birinci məna budur ki, qədim zamanlarda ərəblər od yandırmaq üçün Ərəbistanda bitən mərx və ifar adlı xüsusi ağaclardan istifadə edirlərmiş. Onların hər biri ayrı-ayrı

ağaclardır. Mərx və ifar ağaclarının budaqlarından götürüb ifar ağacının budağını mərx ağacının budağına sürtməklə od əmələ gətirirdilər. Belə ki, bu iki ağacın budaqlarının sürtülməsindən qığılcım çıxardı.

Su və od bir-birinə zidd olan iki nəsnədir (burada yaşıl ağacın tərkibində olan su nəzərdə tutulur. Ağac da suyun sayəsində göyərir. Göyərmiş ağacda suyun olmasına baxmayaraq, Allah ondan od da çıxarır). Bir-biri ilə zidd olan bu iki şeyi bir yerə yığa bilən və yaşıl ağacdan (sudan) od çıxaran Allahın "həyat"ı "ölüm"ün və "ölüm"ü də "həyat"ın kənarında qərar vermə qüdrəti vardır.

İkinci məna budur ki, ağacdan od əmələ gəlməsi təkcə mərx və ifar ağaclarına məxsus deyildir. Bu xüsusiyyət bütün ağaclara aiddir. Lakin mərx və ifar ağacları daha çox bu xüsusiyyətə malikdirlər. Bütün ağacların budaqları (çubuqları) əgər möhkəm bir-birinə sürtülərsə, həmin sürtünmənin (dəymənin) nəticəsində qığılcım əmələ gələrək alovlanacaqdır. Hətta yaşıl ağaclar da bu xüsusiyyətdədirlər. Bəzi vaxtlar meşələrdə baş verən yanğınların səbəbini tapa bilmirlər. Sonralar məlum oldu ki, yanğına səbəb olan bu cür sürtünmələr olur. Bunun səbəbi möhkəm küləklərin əsməsi nəticəsində budaqlar bir-birinə dəyir və nəticədə də qığılcım əmələ gəlir. Bu qığılcım quru yarpaqların arasına düşərək böyük bir yanğına səbəb olur. Bəzən meşələrdə elə yanğınlar əmələ gəlir ki, həftələrlə onu söndürə bilmirlər.

Beləliklə bu mübarək ayədə bəyan olunur ki, Allah yaşıl ağacdan od da əmələ gətirir. Mənası da budur ki, bu işi görən Qadir Allahın "həyat"ı "ölüm"ün və "ölüm"ü də "həyat"ın kənarında qərar verməyə qüdrəti var. Bu işi görməyin Onun üçün heç bir çətinliyi yoxdur. İnsan aciz

olduğundan elə başa düşür ki, bu işləri görmək çox çətindir.

Əlbəttə, bu ayənin digər elmi və dərin mənaları da vardır ki, həmin bəhsə girişmək istəməzdim. Bu ayədə əsas bəhsimiz məad barəsindədir. O müşriklər inanmırdılar ki, çürümüş sümüklər nə vaxtsa dirilə bilər. Məad əgər ruhla bağlı olsa, ona heç bir irad yoxdur. Məad barədə bir qrup insan demişdir ki, qiyamət günü insanın ruhu məhşərə gələcək. Yəni insan dünyada öldükdən və ruh bədəndən ayrıldıqdan sonra bədəni torpağın altına qoyurlar. Beləliklə çürüyüb aradan gedir. Ruh isə bərzəxə gedib orada yaşayır, qiyamətdə də ruh məhşərə gələcək və cənnətə, cəhənnəmə də ruh gedəcəkdir. Əlbəttə, indiki dövrdə də belə fikirli insanların olması mümkündür. Allah-təala bu söz və düşüncəyə cavab verərək açıq aydın şəkildə bəyan edir ki, həmin düşüncə yanlışdır. Qiyamət günü insanın dünyada yaşadığı və ruhla tərkib olduğu bu bədən məhşərə gətiriləcək. Yəni qiyamət günü çürüyüb torpağa qarışmış sümükləri bir yerə yığaraq dirildiləcəkdir. Quranda məad və insanın qəbirlərdən dirildiləcəyi barədə çox ayələrə rast gəlmək olur. Məsələn, Allah-təala "Qiyamət" surəsinin 3-4-cü ayələrində belə buyurur:

أيحسب الْإنسانُ ألن نجمع عِظَامه. بلَى قَادِرِين علَى أن نسوي بنانه

-Yoxsa insan belə güman edir ki, Biz əsla onun sümüklərini (öldükdən sonra torpaqların arasından) bir yerə yığa bilməyəcəyik? Bəli (bir yerə yığacağıq), hələ bir (üstəlik) onun barmaqlarının ucunu da əvvəldə olduğu kimi sirli xətlərlə düzəltməyə qadirik.

Bu ayədə açıq-aydın şəkildə görürük ki, söhbət ruhdan deyil, sümük və bədənlərdən gedir. Yəni qiyamət günü Allah insanların bədənlərini yenidən dirildərək

məhşərə gətirəcək. “Yasin” surəsinin 51-ci ayəsində belə buyurulur:

وَنُفِخَ فِي الصُّورِ فَإِذَا هُم مِّنَ الْأَجْدَاثِ إِلَى رَبِّهِمْ يَنسِلُونَ

-Sur (ikinci dəfə) çalınan kimi (qiyamət günü) qəbirlərindən qalxıb sürətlə Rəbbinin hüzuruna axışacaqlar.

Yəni qiyamət günü sur çalınan zaman insanların hamısı qəbirlərdən qalxacaqlar. Əgər söhbət ruhdan gedirsə, bəs onda nə üçün qəbirlərdən danışılır? Belə çıxır ki, qiyamət günü insanın bu dünyadakı bədəni yenidən dirildiləcək və məhşərə gətiriləcək.

### Həzrət İbrahimin(ə) əhvalatı

Quran ayələrində qiyamət günü ölmüş insanların bədənlərinin və çürümüş sümüklərinin dirildilməsi barədə çoxlu ayələrə rast gəlirik. Amma bəzi ayələrdə bizə bəyan olunur ki, Allah-təala hətta qiyamətdən əvvəl bu dünyada da ölünü necə dirildəcəyini nümunə olaraq göstərmişdir. Məsələn, Həzrət İbrahim(ə) günlərin birində Allaha ərz etdi: “İlahi, mənə ölüləri necə diriltdiyini göstər.” Allah-təala bu məsələni Quranda belə bəyan edir.

وَإِذْ قَالَ إِبْرَاهِيمُ رَبِّ أَرِنِي كَيْفَ تُحْيِـي الْمَوْتَى قَالَ أَوَلَمْ تُؤْمِن قَالَ بَلَى وَلَـكِن لِّيَطْمَئِنَّ قَلْبِي قَالَ فَخُذْ أَرْبَعَةً مِّنَ الطَّيْرِ فَصُرْهُنَّ إِلَيْكَ ثُمَّ اجْعَلْ عَلَى كُلِّ جَبَلٍ مِّنْهُنَّ جُزْءًا ثُمَّ ادْعُهُنَّ يَأْتِينَكَ سَعْيًا وَاعْلَمْ أَنَّ اللّهَ عَزِيزٌ حَكِيمٌ

-(Yada sal) o zaman(ı) ki, İbrahim dedi: “Ey Rəbbim, ölüləri necə diriltməyini mənə göstər.” Dedi: “Məgər (Mənim qüdrətimə) imanın yoxdur?” Dedi: “Əksinə (imanım var)! Lakin qəlbimin rahatlıq tapması üçün (istədim).” Dedi: “Belə

isə, dörd (növ) quş götür, (cisimlərində olan əlamətləri dəqiq görə bilməyin üçün) onları özünə yaxınlaşdır və (onları) tikə-tikə doğra(yıb bir-birinə qat). Sonra (bu ətrafdakı) hər dağın başına onlardan bir parça qoy. Daha sonra onları çağır, sürətlə sənin yanına gələcəklər. Bil ki, Allah yenilməz qüdrət və hikmət sahibidir."[1]

Həzrət İbrahim(ə) Allahın buyurduğu kimi dörd quş tutub doğrayaraq ətlərini bir-birinə qarışdırdıqdan sonra ətrafdakı hər on dağın üstünə ətlərindən bir az qoydu. Sonra onları çağırdı. Allahın əmri ilə quşların tikələri göydəcə birləşib dirilərək İbrahimin(ə) yanına gəldilər.

Hədislərdə həmin dörd növ quşun adı qeyd olunmuşdur. Onlardan biri tovuz, biri xoruz, biri göyərçin, biri isə qarğa idi. Əlbəttə, rəvayətlərə əsasən, bəzən göyərçinin yerinə kərkəs, qarğanın yerinə isə ördək nəql etmişlər. Bu quşların hər birində bir xüsusiyyət olduğu üçün onların adını hədislərdə çəkərək şərh vermişlər. Tovuz quşunun xüsusiyyəti təkəbbürlük və özünü göstərməkdir. Xoruzun əsas xüsusiyyəti onun şəhvətinin çoxluğudur. Göyərçinin xüsusiyyəti oynamaqdır. Qarğanın isə xüsusiyyəti uzun-uzadı arzulardır.

Allah-təala Həzrət İbrahimə(ə) ölüləri necə dirildəcəyini göstərdiyi halda insanlara bu quşların xüsusiyyətləri ilə ibrət dərsi verir. Yəni hər kəs yəqinə, xoşbəxtlik və kamala çatmağın yolunu tapmaq istəyirsə, ürəyində olan bu dörd xüsusiyyəti özündən uzaqlaşdırmalıdır. Həmin xüsusiyyətlər insanın daxilində olan heyvani sifətlərdir. Bu xüsusiyyətlər həddini aşdıqca insanın təkamül yolunu tapmasının qarşısını alır.[2]

---

[1] Bəqərə surəsi, 260-cı ayə.
[2] Təfsiri-nümunə, 2-ci cild, səh. 307.

Əlbəttə, bu kimi hadisələr təkcə Həzrət İbrahimin(ə) və ya digər keçmiş peyğəmbərlərin dövründə olmayıb. İslam Peyğəmbərinin(s) və məsum imamların dövründə də bu kimi hallar daha çox baş vermişdir. Nümunə üçün iki rəvayəti diqqətinizə çatdırıram.

### Həzrət Fatimeyi Zəhranın(s.ə) toy mərasimindəki əhvalat

Həzrət Xanım Fatimeyi Zəhranın(s.ə) toy mərasimi idi. Əbu Əyyub Həzrət Peyğəmbərin(s) səhabələrindən biri idi. O, Həzrət Peyğəmbərin(s) hüzuruna gəlib ərz etdi: "Ya Rəsulallah, Zəhranın(s.ə) toyunu gördüyüm üçün sevincimin həddi-hüdudu yoxdur. Mənim aman-zaman bircə çəpişim var. İzn verin, onu Xanım Zəhraya(s.ə) qurban edib toy mərasimində kəsərək iştirakçılara ehsan edim." Həzrət Peyğəmbər(s) ona razılıq verdi. O, tez gedib çəpişi gətirdi və kəsdi. Həzrət Peyğəmbər(s) buyurdu: "Onun sümüklərini sındırmadan bişirərsiniz. Bişdikdən sonra hər kim bu heyvanın ətindən yesə, "bismillah" desin və sonra yesin."

Çəpişin ətini yedikdən sonra Həzrət Peyğəmbər(s) Allaha belə dua etdi: "İlahi, Əbu Əyyubun bircə heyvanı var idi. Onu da Zəhraya xatir gətirib toy mərasimi üçün ehsan etdi. Səndən diləyim budur ki, onun çəpişini dirildib özünə qaytar və o heyvanı onun üçün bərəkətli et." Elə bu zaman hamının gözü qarşısında çəpişin sümükləri bir-birinə birləşdi və həmin çəpiş dirildi.

Həzrət Peyğəmbərin(s) duasından sonra həmin çəpiş Əbu Əyyub Ənsariyə bərəkət gətirdi və o, varlı insanlardan birinə çevrildi.[1]

[1] Biharül-ənvar, 17-ci cild, səh. 19.

## Yunanlı təbibin müsəlman olması

Həzrət Peyğəmbərin(s) vəfatından bir neçə gün sonra Yunanıstandan bir təbib Ərəbistana gəlmişdi. Onun Həzrət Peyğəmbərdən(s) soruşmaq istədiyi bir neçə sualı var idi. Peyğəmbərin(s) vəfat xəbərini eşidib məyus oldu. Ona dedilər ki, suallarını Həzrət Peyğəmbərin(s) vəsisi olan Əli ibn Əbu Talibdən(ə) soruşa bilərsən. O, Həzrət Əlinin(ə) hüzuruna gəlib bir-bir suallarını verməyə başladı. Həzrət Əli(ə) onun hər bir sualına dəqiq və qaneedici şəkildə cavab verirdi. Yunanlı təbib hiss etdi ki, qarşısındakı çox böyük bir şəxsiyyətdir. O, sual verib cavabını aldıqca daha da təəccüblənirdi. Həzrət Əli(ə) ona buyurdu: "Narahat olma, hər nə sualın varsa soruş. Hər bir sualına cavab verməyə və istədiyin hər bir işi görməyə bacarığım var." Yunanlı alim dedi: "Sən Peyğəmbərin(s) vəsisisən. Səndən Peyğəmbərin(s) əvəzinə bir möcüzə göstərməyi xahiş etmək istəyirəm." Həzrət(ə) buyurdu: "Nə möcüzə istəyirsən?" Həmin alim aralıdakı xurma ağacını göstərib dedi: "Elə edə bilərsənmi ki, o xurma ağacı bütün budaq və yarpaqlarını yerə töksün və torpağa qarışsın." Həzrət(ə) buyurdu: "O ağacın yanına get və mənim adımdan nə istəyirsənsə ona eləcə də de." Yunanlı alim ağacın yanına gedib Həzrət Əlinin(ə) adından dedi: "Ey ağac, bütün yarpaq və budaqlarını yerə tök." Elə bu zaman ağacın bütün budaqları ondan ayrılıb yerə töküldü və torpağa qarışdı. Sonra o, Həzrət Əlinin(ə) yanına gəlib dedi: "İndi elə edə bilərsənmi ki, ağac əvvəlki vəziyyətinə qayıtsın?" Həzrət(ə) buyurdu: "Get, mənim adımdan ağaca əvvəlki vəziyyətə qayıtmasını söylə." Alim ağacın yanına gedib Həzrətin(ə) adından dedi: "Əvvəlki vəziyyətinə qayıt." Ağac yenə də əvvəlki kimi oldu.

Yunanlı alim təəccüb və heyrətlə Həzrət Əlinin(ə) hüzuruna qayıdıb ərz etdi: “Olarmı səndən bir xahiş də edim?” Həzrət(ə) buyurdu: “Əlbəttə.” O dedi: “Həmin ağacın meyvəsi yoxdur. Ona meyvə gətirə bilərsənmi?” Həzrət(ə) buyurdu: “Get, mənim adımdan ona de ki, meyvə gətirsin.” Alim yenə də ağacın yanına gedib Həzrət Əlinin(ə) adından dedi: “Budaqlarına meyvə gəlsin.” Elə bu zaman ağac xurma salxımları ilə doldu. O, Həzrət Əlinin(ə) yanına qayıdıb “kəlmeyi-şəhadəti” deyərək iman gətirdi.[1]

Tarixdə və indiki dövrümüzdə möcüzə yolu ilə ölünün dirilməsinin Allaha iman gətirənlər üçün heç bir qəribəliyi yoxdur. Çünki Allaha iman gətirənlərin Onun ölüləri diriltməsinə də imanları vardır. Bu işin qəribə və ya inanılmaz olması o kəslər üçündür ki, Allaha, qiyamət gününə, ölülərin diriləcəyinə imanları yoxdur. Həmçinin ürəkdən deyil, siyasi cəhətdən iman gətirənlər həmişə ölülərin dirildilməsinə şübhə ilə yanaşmışlar. Çünki onların qəlbində Allaha iman və mərifətləri yoxdur. Buna görə də çürümüş sümüyü Həzrət Peyğəmbərin(s) hüzurunda ovub yerə tökərək belə demişlər: “Bu çürümüş sümükləri kim dirildəcək?”

---

[1] Yasin surəsinin təfsiri, Seyid Məhəmməd Ziyaabadi, səh. 36.

## 81-82-ci AYƏLƏRİNİN TƏFSİRİ

أولَيس الذِي خلَق السماواتِ والْأرض بِقَادِرٍ علىٰ أنْ يخلُق مِثْلَهم بلىٰ وهو الْخلاق الْعلِيم.٨٠.إِنما أمره إِذَا أراد شيئًا أنْ يقُولَ له كُن فَيكُونُ.٨٢.

**81. Məgər göyləri və yeri yaradan (bir daha) onlar kimisini yaratmağa qadir deyilmi?! Əlbəttə (qadirdir). (Hər şeyi) yaradan, (hər şeyi) bilən Odur!**

**82. Bir şeyi (yaratmaq) istədiyi zaman (Allahın) buyurduğu ona ancaq: "Ol!" deməkdir. O da dərhal olar.**

Bu mübarək ayələrdə Allah-təala həmin təfəkkür və düşüncələrə bir daha cavab verir. Əlbəttə, qeyd etmək lazımdır ki, çürümüş sümüyü Həzrət Peyğəmbərin(s) hüzuruna gətirib ovduqdan sonra "bu çürümüş sümüyü kim dirildəcək?" - deyən şəxs bir nəfər idi. Amma bu düşüncə Allaha, axirətə və qiyamət günü insanların diriləcəyinə inanmayan bir qrup insanın təfəkkürüdür. Dövrümüzdə də belə düşüncədə olan insanlar hələ də vardır. Əlbəttə, bu təfəkkür və düşüncənin nə cürə olması da qeyd oluna bilər. Amma söhbətimiz bu düşüncənin növləri haqda olmadığından o haqda söz açmıram. Hər bir halda belə düşüncəli insanlar hətta bir sıra müsəlmanların arasında da mövcuddur.

Allahı, Peyğəmbəri(s), Quranın möcüzə və elmlərini, onun əbədi möcüzə olduğunu qəbul etmələrinə baxmayaraq, qiyamət günü insanın yenidən diriləcəyinə inanmırlar. Belə bir təfəkkür və düşüncə ilə Qurana iman gətirməyin heç bir faydası yoxdur. Əgər bir insan ölüb çürüdükdən sonra torpaq olacağını və bir daha dirilməyəcəyini düşünürsə,

o insanın Qurana, Peyğəmbərə(s) inanmasının nə faydası var? Dünyada da məhz qiyamətə inamı və əqidəsi olmayanlar cinayət törədirlər. Beşcə günlük hakimiyyəti əllərində saxlamaq üçün olmazın cinayətlərə əl atırlar. Çünki elə düşünürlər ki, öldükdən sonra bir daha dirildilib hesab-kitaba çəkilməyəcəklər. Buna görə də dünyada yaşamaq üçün hər cür murdar işlərə və cinayətlərə əl atırlar. Əgər insanın dünyada etdiyi hər bir əməlinə görə sabah cavab verəcəyinə inamı olsa, bu gün əməllərinə fikir verər və elə bir iş görməz ki, qiyamət günü onu cəzalandırsınlar.

Odur ki, Allah-təala bu ayələrdə qiyamətə, ölümdən sonra dirilməyə inanmayanlara cavab verərək buyurur: "Məgər göyləri və yeri yaradan (bir daha) onlar kimisini yaratmağa qadir deyilmi?! Əlbəttə (qadirdir). (Hər şeyi) yaradan, (hər şeyi) bilən Odur!"

Yəni bütün bu yeri - göyü yaradan, bu aləmə nizam-intizam verən Allah bir insan öldükdən sonra onun çürümüş sümüklərini yenidən yarada bilməzmi? Əlbəttə ki, yaradar.

Sonra hər bir şeyi yaratmağın Onun üçün necə asan olduğunu bəyan edərək təkidlə buyurur: "Bir şeyi (yaratmaq) istədiyi zaman (Allahın) buyurduğu ona ancaq: "Ol!" deməkdir. O da dərhal olar."

## Quranda digər nümunələr

Deməli, Allah-təala əgər bir şeyi yatarmağa iradə etsə, bircə kəlmə "ol" deməsi kifayətdir. İstər yer və göy olsun, istər insan olsun, istərsə də ağcaqanad kimi kiçik bir həşərat olsun. Allahın yaratması üçün işin böyük-kiçikliyi, yüngül və ağırlığı heç bir rol oynamır. Hər nəyi yaratmaq istəsə, bircə kəlmə "ol" deməsi bəs edir. Bu qəbil ayələr Quranda bir neçə yerdə işlənmişdir. Məsələn, "Bəqərə" surəsinin 117-ci ayəsində belə buyurulur:

وإذا قضىٰ أمرا فإنما يقولُ له كُن فيكُونُ

-Bir işin yaranmasını istədiyi zaman ona (o işə) yalnız "Ol!" – deyər, o da (fövrən) olar.

"Nəhl" surəsinin 40-cı ayəsində Allah-təala belə buyurur:

إنما قولُنا لشيءٍ إذا أردناه أنْ نقولَ له كُن فيكُونُ

-Biz hər hansı bir şeyi (yaratmaq) istədikdə ona sözümüz "Ol!" deməkdir. O da dərhal olar.

Həzrət Əli(ə) xütbələrinin birində bu məsələni bir neçə cümlə ilə şərh edərək belə buyurmuşdur:

يقولُ لما أراد كونه كُن فيكُونُ، لا بصوت يقْرع، ولا بنداء يسمع، وإنما كلامه سبحانه فعلٌ منه أنشأه ومثّله، لم يكُن من قبل ذلك كائناً

-Olmasını istədiyi hər bir şeyə "ol!" deyir və o, mövcud olur. *(Bu söz)* nə *(qulaqlara)* daxil olan səs vasitəsi ilədir, nə də eşidilən harayla. Pak və münəzzəh olan Allahın kəlamı Onun yaratdığı işindən başqa bir şey deyil. Onun bənzəri bundan qabaq mövcud olmayıb.

Bu məsələyə dair olan incə mətləblərdən biri budur ki, əgər tələffüzə ehtiyac varsa, onda iki irad və müşküllə üzləşərik.

Birincisi odur ki, bu tələffüzün özü də bir məxluqdur və o kəlməni xəlq etmək üçün də yeni bir "ol!" sözü lazımdır. Eləcə də sonrakı "ol" sözü üçün bu söz lazımdır. Bu da sonsuzluğa gedib çıxır. Buna fəlsəfədə "təsəlsül" deyilir ki, bütün alimlər yekdilliklə "təsəlsülün" batil olduğunu demişlər. İkincisi isə budur ki, hər bir xitab üçün bir müraciət olunan olmalıdır. Heç bir şey xəlq olmamışdan

qabaq necə ola bilər Allah "ol" kəlməsini xitab edə? Məgər vücudu olmayan şeyə xitab etmək mümkündürmü? Deməli, yaratmaq üçün tələffüzdən istifadə olunmamışdır.[1]

### Məadı sübut edən üç əsas mətləb

Bu da Quranın ayə və kəlmələrində olan dərin mənaların olmasını bir daha sübut edir. Quranda olan hər bir ayə və kəlmədə böyük mətləblər dayanır. Allah-təala oxuduğumuz bu ayələrdə insana məadı başa salmaq istəyir. Bunun üçün insan üç məsələni dəqiq başa düşməlidir.

**1. Allahın hikməti**

Məadı başa düşmək üçün ilk növbədə insan anlamalıdır ki, Allah-təala hər bir şeyi hikmət əsasında yaratmışdır. Elə bir şey yoxdur ki, Allah-təalanın onda hikməti olmasın. Məsələn, alimlər bu qənaətə gəlmişlər ki, əgər dəryada ölən kiçik balıqları iri balıqlar yeməsəydilər, bu gün dünyada insanların nəfəs alması müşkül məsələyə çevrilərdi. Artıq elm inkişaf etdikcə zahirdə bir-birinə dəxli olmayan işlərin əlaqələrindən xəbər tutmaq mümkün olmuşdur. Bütün bu xilqətin hamısında Allahın hikməti vardır. "Əhzab" surəsinin 1-ci ayəsində belə oxuyuruq:

إِنَّ اللهَ كَانَ عَلِيماً حَكِيماً

-Həqiqətən, Allah (hər şeyi) biləndir, hikmət sahibidir!

Yəni əgər daşın içində kiçik bir qurd, yerin altında odu, dəmiri, qızılı, göy və yer aləmini yaradıbsa, hamısında Onun hikməti var. Xüsusilə xilqətin gülü olan insanda. Əgər dənizin içində kiçik bir balıq hikmət üzü ilə yaranmışsa, necə ola bilər ki, insanın özü hikmətsiz olsun? Məgər mümkündürmü ki, insan elə belə əbəs yerə yaradılmış olsun

---

[1] Təfsiri-nümunə, 18-ci cild, səh. 472.

və bu dünyada öz istədiyi kimi yaşayıb sonra ölüb getsin? Allah-təala "Qiyamət" surəsinin 36-cı ayəsində belə buyurur:

أيحسب الْإنسانُ أَنْ يترك سدى

-Məgər insan elə güman edir ki, o, başlı-başına (cəzasız) buraxılacaq?!

**2. Allahın elmi**

İkincisi budur ki, insan Allahın elminin hər bir şeyi əhatə etdiyini başa düşməlidir. Allahın elmi bütün aləmin zərrələrini belə əhatə edir. Hətta müxtəlif ayə və hədislərdən istifadə edərək demişlər ki, Allah-təala insanın qəbirdə çürümüş bədəninin neçə hissəsinin torpaq, neçə hissəsinin (qurd və böcəklər kimi) heyvanların yemi, neçə hissəsinin isə toz olaraq hava tərəfindən aparıldığı zərrələri də bilir. Amma bunu başa düşmək bizim üçün çətindir. Buna görə elmin daha da inkişaf etməsi üçün bizə vaxt lazımdır ki, yavaş-yavaş bunlar bizə aydın olsun. Necə ki, uzun illər bundan öncə camaat bəzi elmi ayələrin mənasını başa düşə bilmirdi. Amma elm inkişaf etdikdən sonra həmin ayələrin mənası yavaş-yavaş aydınlaşdı.

Allah-təala "Qaf" surəsinin 2-3-cü ayələrində kafirlərin dedikləri sözləri bəyan etdikdən sonra Özü onlara belə cavab verir:

فَقَالَ الْكَافِرونَ هٰذَا شيءٌ عجِيب. أإِذَا مِتنا وكُنا ترابا ذٰلك رجع بعِيد

-Kafirlər dedilər: "Bu çox əcaib (təəccüblü) bir şeydir! Məgər biz ölüb torpaq olduqdan sonra (yenidən diriləcəyik)? Bu, (həqiqətən) uzaq (qeyri-mümkün) bir qayıdışdır!"

قَد عِلمنا ما تنقُص الْأرض مِنهم وعِندنا كِتاب حفِيظٌ

-Həqiqətən, Biz yerin onlardan nəyi əskiltdiyini (onları tədricən necə çürüdüb məhv etdiyini) bilirik. Dərgahımızda (hər şeyi) hifz edən bir Kitab vardır!

**3. Allahın qüdrəti**

Üçüncüsü isə budur ki, insan Allahın hikmət və elmi olmaqla yanaşı, bu hikmət və elmi həyata keçirmək üçün qüdrəti də olduğunu bilməlidir. Allah hər bir şeyə qadirdir. "Məryəm" surəsinin 66-67-ci ayələrində yenə də bu məsələyə şübhə ilə yanaşanlar barədə belə buyurulur:

وَيَقُولُ الْإِنسَانُ أَإِذَا مَا مِتُّ لَسَوْفَ أُخْرَجُ حَيًّا. أَوَلَا يَذْكُرُ الْإِنسَانُ أَنَّا خَلَقْنَاهُ مِن قَبْلُ وَلَمْ يَكُ شَيْئًا

-(Qiyaməti inkar edən) insan: "Mən öldükdən sonra (qəbirdən) dirimi çıxardılacağam?" – deyə soruşur. Məgər insan ilk öncə onu heç bir şey deyilkən (yoxdan) yaratdığımızı xatırlamırmı?

Bəli, beləliklə, Allah-təala istəyir ki, insana hərəkət verib kamilliyin zirvəsinə çatdırsın. Kamilliyin uca zirvəsi übudiyyət və insanın bəndə olmasıdır. Necə ki, "Bəqərə" surəsinin 223-cü ayəsində belə buyurulur:

وَاتَّقُوا اللَّهَ وَاعْلَمُوا أَنَّكُم مُّلَاقُوهُ

-Təqvalı olun (Allahdan qorxun) və bilin ki, həqiqətən, Onunla görüşəcəksiniz.

Uzun sözün qısası, "Yasin" surəsində oxuduğumuz axırıncı ayələrdə Allah-təala iki məsələdə insanın gözünü açır və onu başa salır.

Birincisi budur ki, ay insan "çox mənəm-mənəm" demə. Əvvəl özünə bax gör kimsən və nədən yaranmısan?

أَوَلَمْ يَرَ الْإِنسَانُ أَنَّا خَلَقْنَاهُ مِن نُّطْفَةٍ

-Məgər insan onu nütfədən yaratdığımızı görmədimi?

İkincisi isə budur ki, insanın fikrini göylərin və xilqətin əzəmətinə yönəldir.

Allah-təala qeyd olunan hər iki məsələ ilə insanın təkəbbürünü sındırır. Yəni insanın təkəbbürünü sındırmaq üçün ilk növbədə onun fikrini keçmişə, nədən yarandığına, sonra isə xilqətin əzəmətinə yönəldilir. Belə olduqda insan özünün çox cılız və aciz olduğunu başa düşür.

أوليس الذي خلق السماوات والأرض بقادر على أن يخلق مثلهم

-Məgər göyləri və yeri yaradan (bir daha) onlar kimisini yaratmağa qadir deyilmi?!

“Naziat” surəsinin 27-28-ci ayələrində daha açıq danışaraq belə buyurur:

أأنتم أشد خلقا أم السماء بناها. رفع سمكها فسواها

-(Ey kafirlər!) Sizi yaratmaq çətindir, yoxsa göyü ki (Allah) onu yaratdı; Qübbəsini ucaltdı, düzəldib nizama saldı.

“Ğafir” surəsinin 57-ci ayəsində belə buyurulur:

لخلق السماوات والأرض أكبر من خلق الناس ولكن أكثر الناس لا يعلمون

-Göylərin və yerin yaradılışı şübhəsiz ki, insanların yaradılışından (onların ölümdən sonra dirildilmələrindən) daha böyük və mühümdür. (Buna görə də ona gücü çatanın buna da gücü çatar.) Lakin insanların çoxu bilmir.

İnsanın xilqət aləmində xüsusi bir incəliyi vardır. Yaradılış cəhətindən başqa məxluqatla fərqi yoxdur. Allah-təala insanı yaradarkən Öz-özünə əhsən demişdir. Bə tərif insanın cisminə və maddi cəhətinə görə yox, onun nitqinə, ağlına və mənəviyyatına görədir. Yoxsa göyləri və

yeri yaratmaq insanın vücudunu yaratmaqdan daha böyük işdir. Lakin insanların çoxu bunu başa düşmür.

Beləliklə, o kəslər ki, Allahın bu əmrinə, yəni (Onun insana gələcəyini göstərməsinə) diqqət yetirib başa düşübsə, əzəmət tapmış və məqsədə çatmışlar. Allahın bu əmrini başa düşmək istəməyən kəslər isə özləri də bilirlər ki, cəhənnəmə gedirlər. Düzdür, belələrinin cənnət və ya cəhənnəmə inamları yoxdur. Amma ürəklərinin dərinliklərində ehtimal verirlər ki, əgər cəhənnəm olsa, onların yeri oradır. Yüz iyirmi dörd min peyğəmbər gəlib insanlara qiyamət, axirət dünyası, cənnət və cəhənnəmin haqq olduğunu söyləmişlər. Bu həqiqətə inanmayanlar zahirdə onu inkar etsələr də, ürəklərinin dərinliklərində peyğəmbərlərin bu sözü sanki bir iz olaraq qalmışdır. Qəbul etməsələr də belə ürəklərində daim şəkk-şübhə içindədirlər. Hey öz-özlərinə deyirlər ki, birdən bu sözlər doğru olar.

Məsələn, fərz edək ki, bir nəfər digərinin evinə qonaq gedir və bağda bir ağacın altında əyləşib istirahət edir. Elə bu zaman evdə kiçik bir uşaq ona gəlib deyir: “Əmi, dünən sənin əyləşdiyin yerdən bir ilan tutub öldürdülər.” Həmin şəxs dərhal ətrafına göz gəzdirir və oranı tərk etmək istəyir. Uşağın atası gəlib ona deyir: “Onun sözlərinə fikir vermə. Uşaqdır və nə danışdığını bilmir.” Həmin qonaq ev yiyəsinin sözlərini dinləsə də belə artıq uşağın sözü onun ürəyinə bir xof salır. Əgər ağlı kəsməyən bir uşağın sözü insanın qəlbinə bu qədər təsir göstərə bilirsə, dünyanın yüz iyirmi dörd min ən doğru danışan insanının sözləri məgər təsir edə bilməz? Buna görə də qiyamətə, ölümdən sonra dirilməyə inanmayanlar həmişə öz-özlərinə deyirlər ki, birdən peyğəmbərlərin sözləri, ölümdən sonra dirilmək, cənnət və cəhənnəm olsa,

bizim halımız necə olacaq? Ona görə də həmin həqiqəti bilə-bilə özlərini günah dəryasına atmış və cəhənnəmə gedəcəklərinə də (az da olsa) inanırlar.

Günlərin birində Müaviyə Əmr ibn Asa dedi: "Ey Əmr, yadındadırmı sən mənə kələk gəlmək istəyirdin, amma mən sənin sözünə aldanmadım?" Əmr As dedi: "Nə vaxt?" Müaviyə dedi: "Yadındadırmı, müharibədə iki qoşun üz-üzə gəldikdə Əli(ə) meydana çıxıb üzünü mənə tutaraq dedi: "Ey Müaviyə, gəl təkbətək döyüşək?" Sən də mənə dedin: "Get, Əli(ə) ilə döyüş." Amma mən sənin sözünə qulaq asmayıb onunla döyüşməyə razı olmadım. Əgər getsəydim, o, məni öldürəcəkdi." Əmr ibn As dedi: "Müaviyə, bunu da bil ki, əgər birdən sən Əlini öldürsəydin, qiyamətə qədər sənin adın insanların dillər əzbəri olacaqdı. Hamı deyəcəkdi ki, Əli kimi bir insanı təkbətək döyüşdə Müaviyə öldürdü. Yox, əgər o, səni öldürsəydi, cəhənnəmə gedəcəkdin." Müaviyə başını aşağı salıb sanki vicdanından gələn sözlərlə dedi: "Mən Əlini öldürsəm də, öldürməsəm də, onsuz da cəhənnəmə gedəcəyəm."

Müaviyə göz görə-görə məntiq və fitrətin əksinə hərəkət etdiyini çox yaxşı bilirdi. Amma o, başını qaldırıb göyə baxaraq dedi ki, Allahın əzəmətini və əmrini başa düşən insanlar həmişə məqsədə çatmışlar.

Günlərin birində Həzrət Əli(ə) Həzrət Peyğəmbərə(s) belə ərz etdi: "Ya Rəsulallah, xahiş edirəm, Allaha dua edin ki, məni bağışlasın." Həzrət Peyğəmbər(s) iki rükət namaz qılıb əllərini dua üçün qaldıraraq Allahla belə minacat etdi: "İlahi, Əlinin haqqına xatir Əlini bağışla."

Əli(ə) soruşdu: "Ya Rəsulallah, nə üçün bu duada Allaha məni and verdin?" Həzrət Peyğəmbər(s) buyurdu: "Allahın dərgahında səndən Ona yaxınını tapmadım ki, Allaha and verim."

Deməli, insan hər nə qədər Allaha yaxınlaşdıqca bir o qədər izzət, hər nə qədər uzaqlaşdıqca, bir o qədər də zillət tapır. Əli(ə) təqvasına görə Allahın ən yaxın bəndəsi olmuşdur. Hər kəs də təqvasına görə Əliyə(ə) yaxın ola bilər. İnsan Peyğəmbərə(s), Əhli-beytə(ə), haqq-həqiqətə nə qədər yaxın olsa, bir o qədər də başıucalıq və izzət tapar. Allah, Peyğəmbər(s), Quran, Əhli-beyt(ə) hamısı eyni həqiqətdir.

Səlmasi Bəhrül-ülumun əzəmətli tələbələrindən biri idi. Həmişə onun yanında gəzərdi. O deyir: "Günlərin birində Bəhrül-ülumla Həzrət Əlinin(ə) hərəminə daxil olduq. O, birdən-birə yerindəcə sakit dayandı. Bir az keçdikdən sonra belə bir şeir oxudu:

چه خوش است صوت قرآن ز تو دلربا شنیدن

به رخت نظاره کردن سخن خدا شنیدن

-Necə xoşdur ki, insan Quranı səndən eşidə. Sənin camalına baxıb Allahın kəlamını eşidə."

Səlmasi deyir: "Onun hərəmdə belə şeir oxuması məni təəccübləndirdi. Soruşdum: "Ağa, nə əcəb səndən, burada şeir oxuyursan?" Bəhrül-ülum dedi: "Gördüm ki, Həzrət İmam Mehdi(ə.s) Həzrət Əlinin(ə) qəbrinin kənarında əyləşib Quran oxuyur. Buna görə də dayandım, ona qulaq asaraq ləzzət aldım. Bu şeiri də ona görə oxudum."

## 83-cü AYƏSİNİN TƏFSİRİ

**فَسبحانَ الذِي بِيدِهِ ملكُوت كُل شيءٍ وإليهِ ترجعونَ.٨٣**

**83. Hər şeyin hökmü (ixtiyarı) əlində olan (Allah) pakdır, müqəddəsdir. Siz də (qiyamət günü dirilib) Onun hüzuruna qaytarılacaqsınız!**

Allah-təala bu mübarək ayədə bir nəticə ilə "Yasin" surəsini xətm edir. Allah bu surəni Peyğəmbərin(s) adı ilə başlamış və Öz adı ilə də sona yetirir. Bu surədə əsas üç məsələdən bəhs açılmışdır. Onlardan biri məbdə (tövhid), ikincisi məad (ölümdən sonrakı həyat), üçüncüsü isə nübüvvət (peyğəmbərlik) məsələsidir. Burada bir cümləni də diqqətinizə çatdırmaq istərdim.

Bəzi mərifət və irfan əhli demişlər ki, "Yasin" surəsini oxumağın əhəmiyyət və üstünlüyü əsas bu sonuncu ayəyə görədir. Yəni bu mübarək surə həmin ayə ilə tamamlanır və surəyə əzəmət verən də məhz bu ayədir. Onlar demişlər ki, bu surədə hər nə varsa, məhz həmin ayədədir.

Əlbəttə, onu da qeyd edim ki, biz sadə camaat bu ayənin əzəmət və əhəmiyyətini başa düşə bilmirik. Bunu öz əhli, yəni mərifət və irfan əhli başa düşə bilirlər. Buna görə də onlar bu ayədə nə görürsə və nəyi başa düşürlərsə, o haqda söhbət edirlər. Amma bu ayənin əhəmiyyəti barədə bir neçə cümlə danışmaq bizim üçün mümkündür.

Ayədə işlənmiş "mələkut" kəlməsinin kökü "mülk", mənası isə hökumət və malikiyyət deməkdir. Mülk «مُلْك» sözünün axırıdna «و» - "vav" və «ت» - "tə" hərfləri yoxdur. Amma ərəb qrammatikasında "mələkut" – "ملَكُوت" sözündəki «و» - "vav" və «ت» - "tə" hərfləri təkid və mübaliğə üçün

işlənmişdir. Bunları nəzərə alaraq ayənin mənasını belə açıqlamaq olar: “Hər şey heç bir şərt olmadan Allahın malikiyyət və hakimiyyətindədir. Bu cür malikiyyəti olan Allah pak və müqəddəsdir. Belə bir halda ölüləri diriltmək və çürümüş sümüklərə həyat libası geyindirmək Onun üçün çox asan bir işdir. Bunu da bilin ki, siz hamınız Onun hüzuruna qayıdacaqsınız və məad haqdır.”

## Tövhidin qismləri

Alimlər demişlər ki, tövhid dörd qisimdir. Bir mənası budur ki, tövhid Allahın zatına, ikinci mənası Onun sifətlərinə (xüsusiyyətlərinə), üçüncü mənası Onun fellərinə (işlərinə), dördüncü mənası isə insanların ibadətinə qayıdır.

Əlbəttə, tövhidin bu dörd qisim mənalarının hər biri barədə bir kitab yazılmışdır. Hər birinin dərin və geniş mənaları vardır. Qaydalar kitablarında da tövhidin bu qisimlərinə az da olsa izah və şərhlər verilmişdir. Biz burada kiçik bir izahla sadəcə olaraq onun mənasına işarə edirik:

1. Allahın zatında olan tövhid budur ki, Onun zatında vahidlik və əhədlikdən başqa, heç bir şey təsəvvür olunmur. Mümkün deyil ki, kimsə onun zatına şərik qərar versin. Həzrət Əli(ə) oğlu İmam Həsənə(ə) yazdığı məktubunda bu məsələyə toxunaraq belə buyurur:

و اعلم يا بني أنه لو كانَ لربك شريك لأتتك رسله و لرأيت آثار ملكه و سلطانه و لعرفت أفعاله و صفاته و لكنه إله واحد كما وصف نفسه

-Oğul, bil ki, əgər Rəbbinin şəriki olsaydı, sənin *(hidayət edilməyin)* üçün onun da peyğəmbərləri gələr, onun

səltənət və hökmdarlıq nişanələrini görər, iş və sifətlərini tanıyardın. Amma Allah Özünü vəsf etdiyi kimi təkdir.[1]

Əgər biz "Cövşən kəbir" duasında Allahın min adını oxuyuruqsa, bu adların hər birinin öz mənası vardır. Amma ləfzi-cəlalədə, yəni "Allah" kəlməsində o adların hamısı cəm olmuşdur. Əlbəttə, bundan artıq izah və şərh vermək üçün insandan yuxarı səth və elmi dərəcələr tələb olunur.

2. Allahın sifətlərində (xüsusiyyətlərində) olan tövhid budur ki, Onun sifətləri Onun zatından, həmçinin (bu sifətlər də) bir-birindən ayrı deyildir. Məsələn, alimlik bir sifətdir ki, insan anadangəlmə alim ola bilməz. İnsan elmə yiyələndikdən sonra alim olur. Yəni insan əvvəl var idi, amma elm sonradan (öyrənildikdən sonra) ona birləşdi. Yaxud qüdrət də sifət və xüsusiyyətlərdən biridir. Uşaq dünyaya gəldikdə qüdrətli olmur. Yavaş-yavaş böyüyüb qüdrəti əldə etdikdən sonra qüdrətli insan olur. Amma Allahın sifətlərinin hamısı Onun zatındadır. Onun sifətləri eynili zatıdır və Onun zatı eyni sifətləridir. Yəni "Allah" dedikdə o müqəddəs Zatın həm elm, həm qüdrət və həm də bütün sifətləri Onda mövcuddur. Belə deyil ki, Allahın zatı olsun və elm və qüdrəti də sonradan ona gəlsin. Həmçinin mümkün deyil ki, Allahın bu sifətləri bir-birindən ayrı olsun. Məsələn, insanda sifət və xüsusiyyətlər bir-birindən ayrıdır. İnsan var ki, elmi var, amma qüdrəti yoxdur. Yaxud quldurluq etməyə qüdrəti var, amma elmi yoxdur. İnsan da var ki, həm elmə, həm də qüdrətə malikdir. Amma bunların hamısını sonradan əldə etmişdir. Allahın sifətlərinin hamısı Onun müqəddəs zatındadır, bu sifətlər nə onun zatından ayrıdır, nə də biri-digərindən ayrıdır.

---

[1] Nəhcül-bəlağə, 3-ci məktub.

3. Allahın işlərində olan tövhid bizim əqidəyə görə budur ki, aləmdə olan hər bir vücud, hərəkət və işlərin hamısının mənbəyi Allahın zatıdır. Yəni bütün səbəblərin səbəbkarı odur. Yağışın buluddan gəlməsini, Günəşin suyu qızdırıb buxara çevirməsi, buxarın göyə qalxması, yenidən suyun yerə tökülməsini biz zahirdə belə görürük. Biz zahirdə görürük ki, bir oğlan bir qızla evlənir, bir müddətdən sonra övladları dünyaya gəlir. Biz belə görürük ki, onlar evləndikdən bir müddət sonra uşaq dünyaya gəlib. Amma bütün bu işlərin hamısının səbəbi Allahdır. Əgər azca dərinliyə getsək, hətta bizim əməllərimiz də belədir. Əgər biri namaz qılırsa, biri yerdən qızıl çıxarıb qiymətli əşyalar düzəldirsə, biri dəmirdən təyyarə icad edirsə, bunların da səbəbi Allaha qayıdır. Yəni bütün bunların hamısını edən Allahdır. İnsan zahirdə öz əli ilə bir iş görür. Həqiqətdə isə iradə Allahındır. İnsana imkanlar verən, onun üçün şərait yaradan, qüdrət və bacarıq verən Allahdır. Deməli, insan Allahın ona verdiyi iradəsilə bütün bu işləri görür.

Bunu daha aydın başa düşmək üçün sadə və məcazi bir misala diqqət yetirək. Məsələn, çox ölkələrin qaydası belədir ki, ilin ilk günündə dövlət başçısı keçmiş ilin barəsində nə işlər gördüyünü camaata qısaca məruzə edir. Daxili və xarici siyasət, daxili münasibətlər, neçə ölkəyə səfir göndərdiyi, neçə ölkənin səfirini qəbul etdiyi, ölkədə gedən proseslər, tikintilər, yolların abadlaşdırılması və hətta əkilmiş ağaclar barədə danışır və bu kimi işlər gördüyünü məruzə edir. Sual oluna bilər ki, bütün bu işlərin hamısını o özü etmişdirmi? Əlbəttə, yolların çəkilməsi üçün nazirlər, nazirliyin şöbə müdirləri, müdirlərin işçiləri, işçilərin əlinin altında olan fəhlələr deyilən bu işləri görmüşlər. Biri asfalt sifariş verir, biri yolların

planını çəkir, biri göstəriş verir, biri fəhləlik edir və s. kimi işlər görürlər. Dövlət başçısı məruzə edərkən bütün bunların hamısını özü etdiyini söyləyir. Əlbəttə ki, bütün bu işlər onun göstəriş və sərəncamı, ayırdığı büdcə və nəzarəti ilə baş tutmuşdur.

Bu, məcazi mənada belə olmasına baxmayaraq, Allahın işlərinin hamısı həqiqi mənadadır. Aləmdə hər nə varsa, hamısı Onundur.

4. İbadətdə olan tövhid isə budur ki, insanın Allahdan başqa heç bir şeyə ibadət etməyə ixtiyarı yoxdur. Yalnız və yalnız Allaha ibadət olunmalıdır. Allahdan başqa heç kəsin übudiyyətə ləyaqəti yoxdur. Kamillik Allahdadır. Buna görə də elə bir kəsə ibadət olunmalıdır ki, mütləq kamal onda olsun. Məlum məsələdir ki, mütləq kamal yalnız Allaha məxsusdur. Hətta insan ibadət zamanı niyyətinə Allahdan başqasını zərrə qədər qarışdırsa, ibadəti batildir. İbadət xalis şəkildə Allah üçün olmalıdır.

Tövhidin bu dörd qismi haqda azacıq izah verdik. Bir daha qeyd olunmalıdır ki, hər bir qismin barəsində çox geniş şəkildə söhbətlər etmək mümkündür. Sadəcə bəhsimizə uyğun olaraq bu dörd qismin birinin hissələri barədə söz açmaq istərdim.

## Allahın işlərində olan tövhidin hissələri

Qeyd olundu ki, Allahın işlərində olan tövhid bizim əqidəyə görə budur ki, aləmdə olan hər bir vücud, hərəkət və işlərin hamısının mənbəyi Allahın zatıdır. Yəni bütün səbəblərin səbəbkarı odur. Tövhidin bu qismini də neçə hissəyə bölmüşlər. Burada yaxşı olar ki, həmin hissələrlə tanış olaq.

**1. Xaliqiyyət tövhidi**

Allahın fel və işlərindən biri Onun xaliqiyyətidir. Yəni hər bir şeyi yaradan Odur. Necə ki, “Rəd” surəsinin 16-cı ayəsində belə oxuyuruq:

قُلِ اللهُ خَالِقُ كُلِّ شَيْءٍ

-De: “Allah hər şeyin xaliqidir.”

**2. Rübubiyyət tövhidi**

Rübubiyyət tərbiyə etməyə deyilir. Yəni rəbb və müdir yalnız Allahdır. Məsələn, ağacı yaratdıqdan sonra becərir. İnsanı nütfədən yaratdıqdan sonra atanın belində, ananın bətnində və dünyaya gəldikdən sonra onu böyüdür. Hər bir şeyi tərbiyə və idarə edən də Odur. “Ənam” surəsinin 164-cü ayəsində belə oxuyuruq:

قُلْ أَغَيرَ اللهِ أَبغِي ربا وهو رب كُلِّ شَيْءٍ

-De: “Allah hər şeyin Rəbbi olduğu halda, nə üçün mən Ondan başqa Rəbb axtarım?”

**3. Təşrini (qanunqoyma) tövhidi**

Qanunu qoyan Allahdır. Ondan başqa heç bir kəsin qanun qoymağa ixtiyarı yoxdur. Belə ki, hər kim qanun qoyursa, Allahın qanunu ilə ziddiyyət təşkil etməməlidir. Çünki insanı yaradan Allahdır və hansı qanunun insana lazım olduğunu da O bilir. “Maidə” surəsinin 44-cü ayəsində belə buyurulur:

ومن لم يحكم بما أنزلَ الله فَأُولَئِك هم الْكَافِرونَ

-Allahın nazil etdiyinin əsasında hökm etməyənlər – məhz onlardır kafirlər!

**4. Malikiyyət tövhidi**

Yəni həqiqi və hüquqi baxımdan malik olan Allahdır. Həqiqi malik Allahın təkvini, hüquqi isə qanuni malikiyyətidir. "Ali-İmran" surəsinin 189-cu ayəsində belə oxuyuruq:

وَلِلهِ مُلْكُ السماواتِ والْأَرض

-Göylərin və yerin həqiqi mülkiyyəti və tam hakimiyyəti Allaha məxsusdur.

Həmçinin insanın əlində olan malın da maliki Odur. Hərçənd insan özü zəhmət çəkib mal qazanırsa, o malın maliki Allahdır. Onu xərcləməyə Allah insana icazə vermişdir. Necə ki, "Hədid" surəsinin 7-ci ayəsində belə buyurulur:

وأَنفِقُوا مِما جعَلَكُم مستخلَفِين فِيهِ

-Sizi varis etdiyi maldan (Onun yolunda) xərcləyin.

İnsan elə düşünməməlidir ki, hər nə qazanırsa, özü qazanmışdır. Alverçi alver edərkən müştəriləri Allah onun üçün göndərir. Allah hər bir bəndəsi üçün pay ayırmışdır. Hər kəs cızığından çıxsa, peşman olacaq. Əgər Allah birinə yüz verəcəkdisə və həmin şəxs cızığından çıxdıqda Allah ona əlli verər. Bəzi amillər var ki, insanın ruzisini çoxaldır, bəzisi isə ruzini azaldır. Əgər insan bunlara riayət etməsə, sadəcə təyin olunmuş ruzisi ona çatacaq. Allah hər bir bəndənin ruzisini halaldan təyin etmişdir. Kim halala qane olmayıb harama tərəf yönəlsə, Allah onun ruzisini haramdan verəcək. Əgər səbir etsəydi, həmin ruzi halaldan onun əlinə gəlib çatacaqdı. Allahın qoyduğu qanunu pozub cızıqdan çıxdığına görə Allah ona həmin ruzini haramdan yetirəcək.

Günlərin birində Həzrət Əli(ə) məscidə gəlir. Məscidin həyətində bir nəfəri görüb buyurur: "Mənim atımı bir neçə dəqiqə saxla, indi gəlirəm." Həzrət Əli(ə) məscidə girən

kimi həmin şəxs atın noxtasını oğurlayıb qaçır. Həzrət Əli(ə) məsciddən çıxıb görür ki, at özbaşına qalıb və noxtası da yoxdur. Həzrət(ə) əlində iki dirhəm pul tutmuşdu ki, zəhmət haqqı kimi həmin şəxsə versin. İşin bu yerdə olduğunu görüb nökərini çağırır, pulu ona verib buyurur: "Get yaxınlıqdakı bazardan at üçün bir noxta al." Nökər pulu alıb bazara gedir. Noxta satanların yanından keçərkən görür ki, İmamın(ə) atının noxtası da oradadır. Noxtanı oğurlayan tez bazara qaçıb noxtanı orada satmışdı. Nökər iki dirhəmi verərək həmin noxtanı alıb gətirir və deyir: "Ya Əmirəlmöminin(ə), bu elə sənin atının noxtasıdır. Gördüm ki, bazarda satırlar. Atı tapşırdığın adam noxtanı aparıb iki dirhəmə bazarda satmışdı." Həzrət Əli(ə) buyurur: "Onun bugünkü ruzisi iki dirhəm idi. Allah-təala onun ruzisini halaldan təyin etmişdi. O, buna dözməyib noxtanı oğurladı və aparıb satdı. Bu işi görməklə ruzisini haram yolla əldə etdi. Onun gördüyü bu haram iş halal ruzisinin kəsilməsinə səbəb oldu."

Odur ki, hətta insanın ruzisinin və malının maliki də Allahdır.

### 5. Hakimiyyət tövhidi

Hakimiyyət tövhidi odur ki, hamının hakimi Allahdır. Yer kürəsində heç kəsin ixtiyarı yoxdur ki, kiməsə hakimiyyət etsin. Çünki hakim yalnız Allahdır və hər kəsə O, icazə versə, həmin şəxs insanlara hakim ola bilər. Allah hakimiyyət etmək haqqını İslam Peyğəmbərinə(s) vermişdir. Peyğəmbər(s) də özündən sonra Həzrət Əliyə(ə) ötürmüşdür. Əgər zahirdə başqaları insanlara hakimiyyət edirsə, onların aldığı və verdiyi beytülmalların və aldığı maaşların hamısı haramdır. Çünki onlar hakimiyyəti qəsb etmişlər. Əsl hakim Allahdır. Allah bu hakimiyyəti Peyğəmbərinə(s) vermişdir.

Peyğəmbər(s) də məsum imamlara, imamlar isə vəliyy-fəqihə ötürmüşlər. Onun izni olmadan bütün hakimiyyətlərin hamısı batildir. Əlbəttə, burada fiqhi məsələlər vardır ki, siyasi məsələlər də həmin fiqhi məsələlərin içində öz həllini tapmışdır. Bizim söhbətimiz burada siyasi məsələlər barədə deyil. Biz şəriət baxımından Allahın hakimiyyəti haqda bəhs edirik. Allah- təala "Nisa" surəsinin 59-cu ayəsində belə buyurur:

يا أيها الذِين آمنوا أطِيعوا الله وأطِيعوا الرسولَ وأُولي الْأمرِ مِنكُم

-Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin!

Ayədə işlənmiş "özünüzdən olan əmr sahibləri" Həzrət Peyğəmbərin(s) təyin etdiyi imamlardır. Əmr sahibi o deyil ki, dünənə qədər zalım, fasiq və haramxor olub bu gün taxta çıxdıqdan sonra ədalətli olsun. İnsanların düşüncələrində belə bir fikir yaranmışdır ki, zalım və fasiq bir insan taxta çıxdıqdan sonra adil ola bilər. Şəriətdə belə bir anlam və fikir yoxdur.

Allah-təala "Nisa" surəsinin 80-si ayəsində belə buyurur:

من يطِعِ الرسولَ فَقَد أطَاع اللّه

-Allahın peyğəmbərinə itaət edən kəs əslində Allaha itaət edib.

Çünki Həzrət Peyğəmbərə(s) hakimiyyət etməyə Allah izn vermişdir. Həzrət Peyğəmbəri(s) bu işə təyin edən Odur.

## Nəticə

Bəhsimizin nəticəsi budur ki, xaliqiyyət, rübubiyyət, malikiyyət və hakimiyyət Allaha məxsusdur. Həmçinin varlıq aləmi bütünlüklə Allahın (qüdrət) əlindədir və hər bir şey Ona sarı qayıdacaq. “Mülk” surəsinin 1-ci ayəsində belə oxuyuruq:

تبارك الذي بيده الملك وهو على كل شيء قدير

-Varlıq aləminin həqiqi mülkiyyəti və hakimiyyəti (qüdrət) əlində olan Allah müqəddəsdir, ucadır və çox xeyir-bərəkətlidir və O, hər şeyə qadirdir.

“Həşr” surəsinin axırıncı ayələrində belə oxuyuruq:

هو الله الذي لا إله إلا هو عالم الغيب والشهادة هو الرحمن الرحيم. هو الله الذي لا إله إلا هو الملك القدوس السلام المؤمن المهيمن العزيز الجبار المتكبر سبحان الله عما يشركون. هو الله الخالق البارئ المصور له الأسماء الحسنى يسبح له ما في السماوات والأرض وهو العزيز الحكيم

-O, özündən başqa heç bir tanrı olmayan, qeybi (gizlini) və aşkarı (hər bir şüur sahibinin zahiri və batini hissiyyatından gizli və aşkar olanı, yaxud hələ mövcud olmayan və artıq mövcud olan hər bir şeyi) bilən Allahdır. O, bağışlayan və mehribandır.

O, Ondan başqa heç bir tanrı olmayan Allahdır. O, Məlikdir (varlıq aləminin sultanı və hökmranıdır), Qüddüsdür (müqəddəsdir. Hər hansı bir eyibdən, nöqsandan, şərikdən və övladdan uzaq və pakdır), Salamdır (zatı eyibdən, sifətləri nöqsandan, işləri şərdən salamatdır), Mömindir (Öz tövhidini bəyan edəndir. Öz zatının və sifətlərinin həqiqətinə imanı olan, hər bir zülmdən və pislikdən

amanda saxlayandır), Muhəymindir (əmindir, hər bir şeyə hakim və üstündür, bütün varlığı qoruyan və hər bir şeyə nəzarət edəndir), Əzizdir (oxşarsız və bənzərsizdir, məğlubedilməz qalib və izzət bəxş edəndir), Cabbardır (əzəmətli şan-şövkət sahibi, hər bir məğlubiyyəti və zərəri yoluna qoyan, mövcudatı islah edən, hər şey üzərində qəti iradəyə malik olandır), Mütəkkəbirdir (təzim olunmağa layiq, batini və aşkar böyüklük sahibidir). Allah Ona şərik qoşduqlarından pakdır.

O (hər bir şeyi təqdir və ölçü əsasında) yaradan, (bir-birindən fərqli, lakin yaradılışının kamilliyi baxımından isə bir-birinin eyni olan varlıqları) yoxdan var edən, (hər bir şeyə müxtəlif şəkillərdə) surətlər bəxş edən Allahdır. Ən gözəl adlar Ona məxsusdur. Göylərdə və yerdə olan hər bir şey (dillə və hal ilə) Onu zikr edirlər. O, qüdrət və hikmət sahibidir.[1]

Beləliklə, "Yasin" surəsinin sonuncu ayəsi nəticə olaraq bizə başa salır ki, bütün hakimiyyət və malikiyyətlərin hamısı Allahın (qüdrət) əlindədir. "Yasin" surəsi də məhz bu sonuncu ayəyə görə böyük əhəmiyyət kəsb edir. Belə ki, bu mübarək surəni oxumağın özünəməxsus xüsusiyyətləri, təsir və fəzilətləri vardır.

من قَرأ سورةَ يٰس يرِيد بِها وجه اللهِ عز و جلّ غَفَرَ اللهُ لَه و أُعطِي مِن الأجرِ كأنما قَرأ القُرآنَ اِثنىٰ عشرة مرة

-Kim yalnız Allahın razılığını əldə etmək üçün "Yasin" surəsini oxusa, Allah- təala onu bağışlayar və elə savab verər ki, sanki Quranı on iki dəfə (əvvəldən axıra qədər) oxumuşdur.[2]

---

[1] Həşr surəsi, 22-23-cü ayələr.
[2] Məcməül-bəyan, 8-ci cild, səh. 413.

قالَ الصادِق(ع): فَمن قَرَءَ يس فِي نهارِهِ قَبلَ أن يمسِي كَانَ فِي نهارِهِ مِن الْمحفُوظِين و الْمرزوقِين حتى يمسِي، و من قَرأَها فِي لَيلِهِ قَبلَ أن ينام وكلَ بِهِ ألف ملكٍ يحفَظُونه مِن كُلّ شيطَان رجِيم و مِن كُلّ آفَةٍ

-İmam Sadiq(ə) buyurur: "Hər kəs "Yasin" surəsini gündüz gün batana qədər oxusa, gün ərzində amanda qalıb ruzili olar; hər kəs onu gecə yatmazdan qabaq oxusa, Allah-təala o şəxs üçün hər yerdə onu şeytanlar və bəlalardan qoruyan min mələk gözətçi qoyar."[1]

قالَ الصادِق(ع): أيما مرِيضٍ قُرِئَت عِنده يس نزلَ علَيهِ بِعددِ كُل حرفٍ مِنها عشرةُ أملَاكٍ يقُومونَ بين يديهِ صفُوفاً و يستغفِرونَ لَه و يشهدونَ قَبضه و يتبِعونَ جنازته و يصلونَ علَيهِ و يشهدونَ دفْنه

-İmam Sadiq(ə) buyurur: "Hər bir xəstənin başı üzərində "Yasin" surəsi oxunduqda Allah-təala onun hər bir hərfinə görə on mələk nazil edər. Həmin mələklər cərgə ilə o xəstənin qarşısında dayanar və Allahdan onun üçün bağışlanmaq diləyərlər. (Əgər ölüm mələyi) onun canını alsa, (həmin mələklər onun) ruhunun alınmasına şahid olarlar. Cənazəsini müşayiət edər və onun üçün namaz qılar (yaxud dua edər) və dəfnində iştirak edərlər."[2]

Son olaraq bir daha qeyd olunmalıdır ki, bu mübarək surəyə belə bir qüdrət verən onun sonuncu ayəsidir. Bu ayənin də əsas mənası budur ki, insanın tövhidinin, əqidəsinin mənası hər bir şeyin Allahın əlində olduğunu

---

[1] Məcməül-bəyan, Yasin surəsinin başlanğıcı.
[2] Yenə orada.

və hər bir şeyin Ona sarı qayıdacağını bilməsi və bunlara həqiqi mənada ürəkdən inanmasıdır.

***Allah-təala hamımızın aqibətini xeyir eləsin. İnşallah.***

***Allahı salamı, rəhmət və bərəkəti olsun sizlərə!***

## MÜNDƏRİCAT

**"YASİN" SURƏSİNİN FƏZİLƏTİ ... 3**
**Quranın "qəlbi" ... 8**
**1-6-cı AYƏLƏRİNİN TƏFSİRİ ... 10**
**Ya, Sin ... 15**
**"Yasin" surəsinin əhəmiyyəti və Peyğəmbərin(s) üstünlüyü ... 16**
**Bu hikmətli Qurana and olsun ... 22**
**Quranın əzəməti ... 25**
**Quranı dinləmək və oxumağın fəziləti ... 34**
**Quran oxumağın fayda və nəticəsi ... 36**
**Hikmətli Quran ... 45**
**Şübhəsiz, sən (Allahın) peyğəmbərlərindənsən ... 56**
**Rəsul və nəbinin fərqi ... 60**
**İslam Peyğəmbəri(s) xilqətdən öncə nəbi idi ... 62**
**(Ey peyğəmbər, sən) düzgün olan bir yoldasan ... 63**
**Bu dünyadakı yol ... 71**
**Doğru yol imamətdir ... 86**
**Axirətdəki yol ... 87**
**Bu, Əziz (qüdrətli) və Rəhim (mərhəmətli) Allah tərəfindən nazil edilmiş bir kitabdır ... 98**
**İzzət nədir? ... 102**
**İzzətin mənasını səhv anlayanlar ... 106**
**İzzətin həqiqi mənası ... 109**
**Ayədə Əziz və Rəhim sifətlərinin zikr olunmasının səbəbi ... 115**

**6-cı AYƏSİNİN TƏFSİRİ.......................................... 117**
**Lütf və mərhəmət qaydası.......................................... 117**
**Nə üçün Peyğəmbərə(s) ən çox qorxutmaq səlahiyyəti verilmişdi?.................................................................. 136**
**Qəflət və unutqanlıq.................................................... 140**
**Qəflət nədir? ............................................................... 140**
**Qəflətin hal və mərhələləri .......................................... 141**
**Qəfləti aradan qaldıran amillər ................................... 148**
**Yaxşı işlər uğrunda əzmkarlıq göstərmək................. 148**
**Ruzigarda gözüaçıq olmaq .......................................... 149**
**Namazı vaxtında qılmaq............................................. 150**
**Davamlı şəkildə Allahı zikr etmək............................. 153**
**7-ci AYƏSİNİN TƏFSİRİ........................................... 157**
**Qəflət........................................................................... 158**
**Nəfsani istəklərə tabe olmaq....................................... 159**
**Təkəbbürlülük və özünü bəyənmə............................. 165**
**Təkəbbürlülüyün əlacı................................................. 175**
**Yalan............................................................................ 178**
**Yalanın təsir və nəticəsi .............................................. 183**
**Şərab ............................................................................ 185**
**Həsəd (paxıllıq)............................................................ 194**
**Paxıllığın əlamətləri..................................................... 204**
**8-10-cu AYƏLƏRİNİN TƏFSİRİ.............................. 205**
**11-ci AYƏSİNİN TƏFSİRİ......................................... 210**
**12-ci AYƏSİNİN TƏFSİRİ......................................... 221**
**Hər bir şeyin kitabda yazılması ................................. 227**
**Əməllərin yazılması..................................................... 233**

**Əməllərin yazıldığı kitabların növləri ....................... 237**
**İnsanın şəxsi əməl dəftəri............................................. 237**
**Ümmətlərin əməl kitabı ............................................... 239**
**Ümumi və hər bir şeyin yazıldığı kitab ..................... 240**
**"İmami mübin" Həzrət Əlinin(ə) mübarək Vücududur ................................................................. 248**
**13-19-cu AYƏLƏRİNİN TƏFSİRİ............................ 253**
**Yaxşı və pis yozmaq .................................................... 261**
**Yaxşı və pis əməllərin nəticəsi insanın özünə qayıdır.......................................................................... 264**
**Məsx nədir?.................................................................. 271**
**20-22-ci AYƏLƏRİNİN TƏFSİRİ............................. 283**
**İslamda elmin xüsusi fəziləti var................................. 288**
**23-27-ci AYƏLƏRİNİN TƏFSİRİ............................. 292**
**Hörmət sahibləri........................................................... 297**
**28-30-cu AYƏLƏRİNİN TƏFSİRİ............................ 301**
**Ayələrdəki incə mətləblər ............................................ 303**
**31-32-ci AYƏLƏRİNİN TƏFSİRİ............................. 316**
**33-36-cı AYƏLƏRİNİN TƏFSİRİ............................. 331**
**Öldükdən sonra diriləcəyikmi?................................... 343**
**37-40-cı AYƏLƏRİNİN TƏFSİRİ............................. 352**
**Bəşərin kamilliyi Allahı tanımasındadır .................... 355**
**Elm və fəzlin fərqi ........................................................ 356**
**Günəş və Ayın hərəkəti də Allahın nişanəsidir......... 364**
**İnsanın üç hərəkəti ....................................................... 369**
**Günəşin hərəkəti........................................................... 372**
**Ayın hərəkəti................................................................. 373**

**Gündüzün gecədən əvvəl yaranması ......................... 376**
**Məsum imamlar Quranın təfsirçisidirlər.................. 377**
**41-44-cü AYƏLƏRİNİN TƏFSİRİ............................ 381**
**45-46-cı AYƏLƏRİNİN TƏFSİRİ............................ 392**
**47-ci AYƏSİNİN TƏFSİRİ........................................ 397**
**Yardım etməyin faydası............................................ 400**
**Dünya insan üçün bir imtahandır ............................. 403**
**Həzrət İsa(ə) və tamahkarın hekayəti ....................... 405**
**48-50-ci AYƏLƏRİNİN TƏFSİRİ............................. 410**
**51-ci AYƏSİNİN TƏFSİRİ........................................ 416**
**52-53-cü AYƏLƏRİNİN TƏFSİRİ............................ 420**
**54-cü AYƏSİNİN TƏFSİRİ ...................................... 430**
**İki şübhə ................................................................... 431**
**Şübhələrə cavab......................................................... 433**
**Nəticə ........................................................................ 434**
**55-58-ci AYƏLƏRİNİN TƏFSİRİ............................. 443**
**59-60-cı AYƏLƏRİNİN TƏFSİRİ............................. 452**
**Allahın insanlardan aldığı vəd və bağladığı əhd-peyman ....................................................................... 455**
**Aşağıdakı ayədə işlənmiş “ibadət” kəlməsi “itaət” mənasındadır ............................................................ 466**
**61-62-ci AYƏLƏRİNİN TƏFSİRİ............................. 471**
**Yalnız müxlis insanlar nicat tapacaq ........................ 475**
**63-65-ci AYƏLƏRİNİN TƏFSİRİ............................. 476**
**Qiyamətdə şahidliyin mərhələləri............................. 477**
**Qiyamət gününün şahidləri........................................ 481**
**Allahın şahidliyi.......................................................... 481**

**Peyğəmbərlər və məsum imamların şahidliyi........... 481**
**Mələklərin şahidliyi..................................................... 482**
**Yerin (məkanın) şahidliyi ........................................... 484**
**Zamanın şahidliyi........................................................ 487**
**Bədən üzvlərinin şahidliyi .......................................... 487**
**66-68-ci AYƏLƏRİNİN TƏFSİRİ............................. 490**
**Gözün kor edilməsi...................................................... 490**
**Məsx etmək ................................................................. 492**
**Bu iki ayə bizə nəyi öyrədir? ...................................... 493**
**69-70-ci AYƏLƏRİNİN TƏFSİRİ............................. 497**
**71-73-cü AYƏLƏRİNİN TƏFSİRİ............................ 516**
**74-76-cı AYƏLƏRİNİN TƏFSİRİ............................. 521**
**İki mühüm mətləb ....................................................... 524**
**Nəfsə qələbə çalmaq səbir və dözüm tələb edir ........ 527**
**77-79-cu AYƏLƏRİNİN TƏFSİRİ............................ 530**
**"Xəsimun mubin" kimdir?.......................................... 536**
**80-ci AYƏSİNİN TƏFSİRİ......................................... 540**
**Həzrət İbrahimin(ə) əhvalatı....................................... 543**
**Həzrət Fatimeyi Zəhranın(s.ə) toy mərasimindəki əhvalat........................................................................... 545**
**Yunanlı təbibin müsəlman olması ............................. 546**
**81-82-ci AYƏLƏRİNİN TƏFSİRİ............................. 548**
**Quranda digər nümunələr........................................... 549**
**Məadı sübut edən üç əsas mətləb ............................... 551**
**Allahın hikməti ............................................................ 551**
**Allahın elmi................................................................. 552**
**Allahın qüdrəti............................................................. 553**

**83-cü AYƏSİNİN TƏFSİRİ ........................................ 558**
**Tövhidin qismləri ........................................................ 559**
**Allahın işlərində olan tövhidin hissələri.................... 562**
**Xaliqiyyət tövhidi ........................................................ 563**
**Rübubiyyət tövhidi....................................................... 563**
**Təşrini (qanunqoyma) tövhidi.................................... 563**
**Malikiyyət tövhidi ........................................................ 564**
**Hakimiyyət tövhidi....................................................... 565**
**Nəticə ............................................................................ 567**